AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL AZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

R.H.MƏMMƏDOV, TOFİQ BƏHƏRÇİ,
V.Z.MEHDİYEVA, T.S.QULİYEV

DÜNYANIN İQTİSADİ VƏ SOSİAL COĞRAFİYASI

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Elmi-Metodik Şurası «Coğrafiya»
bölməsinin 19.07.2005-ci il tarixli 09
nömrəli iclas protokolunun 593 №-li
əmrinə əsasən çap edilir.

BAKI – 2006

Elmi redaktor: Coğrafiya elmləri doktoru, professor
N.A.BABAXANOV

Redaktorlar: Prof. R.H.Məmmədov
Dos.Tofiq Bəhərçi

Rəyçilər: Coğrafiya elmləri doktoru E.Q.Mehrahyev
Coğrafiya elmləri doktoru B.C.Ələsgərov
Coğrafiya elmləri doktoru X.K.Tanrıverdiyev
Coğrafiya elmləri namizədi, dosent
A.H.Məmmədov

**R.H.MƏMMƏDOV, TOFİQ BƏHƏRÇİ,
V.Z.MEHDİYEVA, T.S.QULİYEV**

Dərslikdə ayn-ayrı ölkə və regionlarda məhsuldar qüvvələrin istehsalın inkişafında rolu və əhəmiyyəti araşdırılır, onun yerləşdirilməsinin qanunauyğunluqlarına, prinsiplərinə, amillərinə və metodlarına diqqət yetirilir. İnkişaf etmiş və inkişafda olan ölkələrdə dünya iqtisadiyyatında başlıca rol oynayan istehsal kompleksləri, ayrı-ayrı təsərrüfat sahələri ətraflı şərh olunur, onların coğrafi yerləşməsi göstərilməklə son illərdə inkişafının kəmiyyət, keyfiyyət gostəriciləri öz əksini tapır.

«Maraqlı məlumatlar», «Qan yaddaşı», «Unutmaq olmaz» bölmələri oxucunun diqqətini daha çox cəlb edən sahələrdəndir.

Darslikdən iqtisad yönümlü universitetlərin, digər ali təhsil müəssisələrinin tələbə və müəllimləri orta ixtisas təhsil müəssisələrinin dinləyiciləri, coğrafiya müəllimləri, eləcə də elmi-tədqiqat müəssisələri əməkdaşları, plan orqanları işçiləri - bir sozlə hər bir oxucu bəhrələnə bilər.

© «İqtisad Universiteti» nəşriyyatı, 2006

MÜNDƏRİCAT

I. MƏHSULDAR QÜVVƏLƏRİN YERLƏŞDİRİLMƏSİNİN QANUNAUYĞUNLUQLARI, PRİNSİPLƏRİ VƏ AMİLLƏRİ..... 3

II. DÜNYANIN MÜASİR SİYASİ VƏ İQTİSADİ XƏRİTƏSİ..... 21

III. DÜNYANIN TƏBİİ RESURSLARI..... 36

IV. DÜNYA ƏHALİSİ..... 50

V. DÜNYA TƏSƏRRÜFATI..... 53
V.1 Energetika..... .. 54
V.2 Metalurgiya..... .. 93
V.3 Maşınqayırma..... .. 99
V.4 Kimya sənayesi..... 105
V.5 Meşə təsərrüfatı..... 108
V.6 Yüngül sənaye..... 110
V.7 Yeyinti sənayesi..... 114
V.8 Aqrar sənaye kompleksi..... 117
V.9 Nəqliyyat 134

VI. DÜNYA REGİONLARININ BİR SIRA ÖLKƏLƏRİNDƏ MƏHSULDAR QÜVVƏLƏRİN İNKİŞAFI VƏ YERLƏŞDİRİLMƏSİ..... 144
AVROPA..... 144
VI.1 Azərbaycan

Respublikası.....145
VI.2 Almaniya Federativ
Respublikası..... 176
VI.3 Böyük
Britaniya..... 189
VI.4
Fransa.....
207
VI.5
İtaliya.....
227
VI6 Rusiya
Federasiyası..... 242

VII. ASİYA.....
..... 247
VII.1 Çin Xalq
Respublikası..... 248
VII.2 Hindistan
Respublikası..... 273
VII.3
Yaponiya.....
288

VIII. ŞİMALİ
AMERİKA..... 309
VIII.1
Kanada.....
310
VIII.2 Amerika Birləşmiş
Ştatları..... 324

IX. CƏNUBİ
AMERİKA.....354
IX.1 Braziliya Federativ
Respublikası..... 356

X. AFRİKA.....
.....373
X.1 Cənubi Afrika
Respublikası..... 375

XI. AVSTRALİYA VƏ
OKEANİYA..... 386
XI.1 Avstraliya

İttifaqı..... 386

XII. ASILI MÜLKLƏR VƏ QƏYYUMLUQDA OLAN ƏRAZİLƏR..... 388

XIII. DÜNYANIN BEYNƏLXALQ TƏŞKİLATLARI..... 391

XIV. MARAQLI MƏLUMATLAR..... 397

XV. REGİON, DÖVLƏT VƏ SAHƏLƏR ÜZRƏ KƏMİYYƏT GÖSTƏRİCİLƏRİ..... 467

XVI. QAN YADDAŞI..... 480

XVII. UNUTMAQ OLMAZ..... 481

XVIII. ƏDƏBİYYAT..... 482

1. MƏHSULDAR QÜVVƏLƏRİN YERLƏŞDİRİLMƏSİNİN ÖANUNAUYĞUNLUQLARI, PRİNSİPLƏRİ VƏ AMİLLƏRİ

İstehsalın intensivləşdirilməsi, onun səmərəliliyinin artırılması, bunun əsasında xalqın maddi və mədəni həyat səviyyəsinin yüksəldilməsi hər hansı bir dövlətin iqtisadi strategiyasının əsasını təşkil edir. Bu problemlərin müvəffəqiyyətlə həlli müəyyən mənada məhsuldar qüvvələrin yerləşdirilməsinin yaxşılaşdırılmasından, dövlətlərin, regionların təsərrüfatlarının daha da ixtisaslaşdırılmasından və proporsional inkişafından, onların malik olduğu yerli ehtiyatlardan daha səmərəli istifadə etmək məqsədilə müxtəlif səviyyəli ərazi-istehsal komplekslərinin formalaşması və inkişafından asılıdır.

Məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, cəmiyyətin inkişafına göstərdiyi müsbət təsir ilk növbədə məhsuldar qüvvələrin mahiyyətindən irəli gəlir. Məhsuldar qüvvələr ictimai-istehsal prosesində insanlarla təbiət arasında «maddələr mübadiləsi»ni həyata keçirən subyektiv və maddi ünsürlər sistemidir. Başqa sözlə, məhsuldar qüvvələr ıstehsal vasitələri və onları hərəkətə gətirən insanların məcmuudur.

İnsanların təbiət cismlərinə və qüvvələrinə olan münasibətini ifadə edən məhsuldar qüvvələr istehsal üsulunun mühüm tərəfi olub cəmiyyətin inkişafının əsasını təşkil edir. Məhz ona görə də inkişaf etmiş məhsuldar qüvvələri cəmiyyətin əsl sərvəti adlandırırlar.

Məhsuldar qüvvələrin inkişafının ümumi qanunu ondan ibarətdir ki, məhsuldar qüvvələrin sonrakı formalarının maddi imkanları əvvəlki formaların daxılində yaranır və inkişaf edir. Lakin onun özü yalnız cəmiyyətin yeni inkişaf pilləsində hakim formaya çevrilir.

Yeni istehsal münasibətləri məhsuldar qüvvələrin inkişafını sürətləndirən mühüm amil olmuşdur. Cəmiyyətin mədəni-məişət bazasının, xidmət və mənəvi istehsal sahəsinin sürətlə artması bu və ya digər dövlətin başlıca xəttini əks etdirir.

İqtisadiyyatın inkişafının müasir mərhələsində məhsuldar qüvvələrin düzgün yerləşdırilməsinin mühüm əhəmiyyəti vardır. Ölkənin sosiai-iqtisadi inkişafını elmi-texniki tərəqqi əsasında sürətləndirmək sahəsində qarşıda duran vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi müəyyən mənada məhsuldar qüvvələrin səmərəli

yerləşdirilməsindən asılıdır. Məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi isə öz növbəsində cəmiyyətin inkişafının mühüm ictimai-iqtisadi problemləri ilə qarşılıqlı əlaqədədir.

Məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi ictimai istehsalın dinamizminin, səmərəliliyinin artırılmasını təmin edir. Bununla yanaşı məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi ictimai əməyə qənaət olunmasını, əmək ehtiyatlarından və digər imkanlardan məqsədəuyğun istifadə edilməsi yolu ilə bir regionun kompleks qaydada səmərəli inkişafını təmin edir. Əhalinin maddi rifah halının yüksəldilməsi şəhərlə kənd, zehni əməklə fiziki əmək, mədəni-məişəi xidməti səviyyəsinə görə rayonlar arasındakı fərqlərin aradan qaldırılmasında mühüm rol oynayır.

Qeyd etmək lazımdır ki, məhsuldar qüvvələrin yerləşdirilməsinin müasir formaları təsərrufatın ərazi üzrə təşkilinin təkmilləşdirilməsinə və regionların iqtisadiyyatının formalaşmasına dərin təsir göstərir. Təsərrüfatın regional strukturu bunun əsasında daim dəyişir, istehsal və sosial infrastruktur yenidən qurulur və genişlənir. İstehsalın müasir sahələrinin tərkibinin genişləndirilməsi əsasında ixtisaslaşdınlmanın daha da inkişaf etdirilməsi regionların iqtisadiyyatının strukturunun keyfiyyətcə dəyişməsinə gətirib çıxarır. Eyni zamanda, rayonlararası və rayondaxili istehsal əlaqələri genişlənir. Müxtəlif səviyyəli ərazi istehsal birləşmələrinin miqdarı artır.

İctimai istehsalın ərazi üzrə təşkili müəyyən qanunauyğunluqların təsirinin nəticəsidir. Bu qanunauyğunluqlar öz növbəsində hər hansı bir cəmiyyətdə iqtisadi qanunların spesifik təzahür formarıdır. Xalq təsərrüfatının iqtisadi qanunlarla bağlı ərazi üzrə təşkilinin qanunauyğunluqlarını bilmək təkcə onların obyektiv istiqamətini və xarakterini müəyyən etmək deyil, həm də bu qanunauyğunluqları tətbiq etməyi bacarmaq, yəni onlardan iqtisadiyyatın konkret inkişaf mərhələsində, ayrı-ayrı rayonların konkret sosial-iqtisadi şəraitində istifadə etməyi bacarmaq deməkdir.

Qanunauyğunluqlardan istifadə mexanizmi məhsuldar qüvvələrin ərazi üzrə təşkilinin elə metodlarının seçilməsini nəzərdə tutur ki, bu zaman seçilən metodların geniş miqyasda təzahürünə imkan verilməli, həm də qanunauyğunluqlar biri-biri üçün qarşılıqlı əlaqədə olmalıdır. Ümumiyyətlə, buradan belə nəticə çıxır ki, xalq təsərrüfatının elmi sürətdə əsaslandınlmış ərazi təşkili və idarə

edilməsi dövlət siyasətinin əsas qaydalarının, yəni xalq təsərrüfatının ərazi üzrə təşkili prinsiplərinin işlənib hazırlanması ilə nəticələnir. Məlum olduğu kimi xalq təsərrüfatının ərazi üzrə təşkili müəyyən qanunauyğunluqların təsiri altında təşəkkül tapır. Onlardan da idarəetmə prosesində istifadə olunur. Həmin qanunauyğunluqlar əsasən aşağıdakılardan ibarətdir.

1) İctimai istehsalın səmərəli inkişafı əsasında istehsalın yeni mütərəqqi formalarının - ərazi-istehsal komplekslərinin yaradılması və inkişaf etdirilməsi.

Məhsuldar qüvvələrin ərazi üzrə təşkilinin əsas qanunauyğunluqlarından biri də bundan ibarətdir ki, ərazinin hər yerində, bütün iqtisadi rayonlarda, şəhərlərdə, qəsəbələrdə iqtisadi potensial səmərəli şəkildə daim artırılmalıdır. İstehsal sahələrindən, təbii ehtiyatlardan və əmək ehtiyatlarından təqribən eyni səviyyədə istifadə olunmaqla müxtəlif miqyaslı ərazi-istehsal kompleksləri yaradılsın. Ən əvvəl məhsuldar qüvvələrin ərazi təşkilinin mütərəqqi forması olan ərazi-istehsal kompleksinin mahiyyətini düzgün müəyyən etmək lazımdır.

Yuxarıda deyilənlər aydın göstərir ki, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi cəmiyyətin inkişafında olduqca böyük rol oynayaraq ictimai istehsalın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Bu təsirin daha da artırılması məhsuldar qüvvələrin yerləşdirilməsinin qanunauyğunluqları, prinsipləri və amillərinin tam, hərtərəfli və düzgün nəzərə alınmasından çox asılıdır.

Məhsuldar qüvvələrin yerləşdirilməsinin təkmilləşdiriiməsinə yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi sosial-iqtisadi inkişafı sürətləndirməyin və ictimai istehsalın səmərəliliyini yüksəltməyin mühüm amilidir. Odur ki, region və dövlətlərdə iqtisadi və sosial inkişafın səmərəli əlaqələndirilməsini təmin etmək, xalq təsərrüfatı kompleksində onların qarşılıqlı fəaliyyətini yaxşılaşdırmaq məhsuldar qüvvələrin yerləşdirilməsində mütərəqqi irəliləyişləri həyata keçirmək daha real zərurətə çevrilmişdir.

Ərazi-istehsal kompleksləri müvafiq regionların olduğu yerli ehtiyatlardan daha səmərəli istifadə etmək, onların inkişafı qarşısında duran bir sıra vacib sosial-iqtisadi problemlərin həllini sürətləndirməklə yanaşı, maliyyə, əsaslı vəsait, torpaq ehtiyatlarına və s. əhəmiyyətli dərəcədə qənaət etməyə imkan verir. Başqa sözlə,

ərazi istehsal kompleksləri ictimai istehsalın intensiv relsə keçirilməsinin bütün əsas tələblərini özündə birləşdirir.

Ərazi-istehsal komplekslərinin formalaşması, təsərrüfatın ərazi üzrə təşkilinin daha səmərəli amili kimi, ictimai istehsalın inkişafının və ərazi əmək bölgüsünun yüksək səviyyəsinə uyğun gələn qanunauyğun prosesdir. Bu, əsaslı tikintinin həyata keçirilməsinin, kapital qoyuluşlarının ödəmə müddətinin qısaldılmasının, cari və nəqliyyat xərclərinin həcminin azaldılmasının, dövriyyə vəsaitlərinin dövriyyəsinin sürətləndirilməsinin, infrastrukturun qeyri-istehsal sferasının yaradılmasına və fəaliyyət göstərməsinə sərf olunan vəsaitə qənaət olunmasının, təbii və iqtisadi ehtiyatlardan kompleks istifadə edilməsinin daha səmərəli yoludur.

Məhz buna görə də ərazi-istehsal kompleksləri hazırda iqtisadi rayonlarda və habelə bütövlükdə ölkə üzrə məhsuldar qüvvələrin yerləşdirilməsinin qanunauyğunluqlarından birini təşkil edir.

Bunu da nəzərə almaq lazımdır ki, məhsuldar qüvvələrin yerləşdirilməsinin ərazi-istehsal kompleksləri formasında həyata keçirilməsi zamanı əldə olunan səmərə təkcə ixtisaslaşmış sahələr arasında düzgün istehsal-texnoloji əlaqə yaradılması hesabına deyil habelə ixtisaslaşmış sahə ilə əlaqədar istehsal sahələri arasında optimal qarşılıqlı əlaqələrin təmin olunması hesabına əldə olunur. Digər tərəfdən, müəyyən regionda ixtisaslaşmış sənaye sahələrinin sayı yerli təbii sərvətlərin miqdarı, tərkibi və ictimai istehsal dövriyyəsinə cəlb olunmasından və ümumiyyətlə, məhsuldar qüvvələrin ümumi inkişaf səviyyəsindən asılı olaraq az və ya çox ola biiər. Daha sonra nəzərə almaq lazımdır ki, ərazi-istehsal komplekslərinin demək olar ki, hamısı əvvəlcə bir ixtisaslaşmış sənaye sahəsinin bazasında meydana gəlir. Başqa sözlə, ərazi-istehsal kompleksinin tamlığı üçün ixtisaslaşmış sənaye sahələrinin sayı əsas ola bilər.

Ərazi-istehsal komplekslərinin mahiyyətinin düzgün başa düşülməməsinin səbəblərindən biri əksər hallarda onların mahiyyətcə iqtisadi rayon ilə eyniləşdirilməsidir. Əlbəttə, bu iki anlayış arasında oxşarlıq çoxdur. Bununla belə, ərazi-istehsal kompleksləri və iqtisadi rayon mahiyyət etibarilə eyni anlayışlar deyildir. İqtisadi rayon müəyyən edildiyi ərazinin bütün sahələrini

həm məkan, həm də təsərrüfat fəaliyyəti nöqteyi-nəzərindən tam əhatə etdiyi halda, ərazi-istehsal kompleksinə daxil olan sahələrin sayı və onun məkan ölçüsü iqtisadi rayondan kiçik olur. Bundan başqa, iqtisadi rayon zəngin təbii sərvətlərə, sərbəst əmək qabiliyyətli əhaliyə, əlverişli nəqliyyat-cöğrafı mövqeyə və s. malik ola bilər. Lakin müxtəlif obyektiv səbəblər üzündən onlar ictimai-istehsal dövriyyəsinə tam cəlb olunmaya bilər. Ərazi-istehsal kompleksləri üçün isə əksinə, bu ehtiyatların ictimai istehsal dövriyyəsinə cəlb edilməsi, həmin ərazinin malik olduğu ehtiyatlar və digər əlverişli imkanların artıq reallaşdırılması və yaxud da ən səciyyəvi xüsusiyyətlərindən biridir.

Bir qayda olaraq ərazi-istehsal kompleksinin özəyini sənaye təşkil etsə də, kompleksin sahə tərkibi geniş olub xalq təsərrüfatının müxtəlif sahələrini əhatə edə bilər. Bu zaman ərazi-istehsal kompleksinin istehsal strukturunun səmərəliliyi istehsalların sayının çoxluğu ilə deyil, istehsal və istehlak sahələrinin müxtəlif elementlərinin səmərəli şəkildə əlaqələndirilməsi ilə müəyyən edilir. Ərazi-istehsal kompleksi yalnız o zaman optimal sayıla bilər ki, məhsul istehsal və əhali üçün lazımı həyat şəraiti yaradılması minimal ictimai əmək məsrəfləri ilə həyata keçirilsin. Ərazi-istehsal kompleksinin sahələri istehsalın miqyası və səmərəliliyindən, eləcə də ərazi əmək bölgüsündəki rolundan asılı olaraq ixtisaslaşmış və xidmətedici sahələrə ayrılır.

İxtisaslaşmış sahələrin əsasını konkret şəraitə uyğun olaraq müxtəlif sahələrin müəssisələrinin iqtisadi əlaqələri təşkil edir. Bu sahələr ərazi-istehsal kompleksinin inkişafının əsas istiqamətlərində və ərazi əmək bölgüsündə əsas rol oynayaraq, məhsulun ərazi təyinatından asılı olaraq rayonlararası və rayondaxili sahələrə bölünürlər. Adətən, rayonlararası sahələrə o sahələr aid edilir ki, onların məhsulu əsasən başqa rayonlara göndərilmək üçün nəzərdə tutulur. Rayondaxili ixtisaslaşmış sahələrin məhsulu isə bir qayda olaraq ərazi-istehsal kompleksinin öz daxilində istehlak olunur.

Xidmətedici sahələr kompleksi xalq təsərrüfatının ayrı-ayrı elementiərini bütöv şəkildə birləşdirir. Bu bütövlük ərazı-istehsal kompleksinin mühüm əlamətlərindən biri olub, onu istehsalların adi ərazi təmərküzləşməsindən və yaxud qruplaşmasmdan fərqləndirir və ərazi-istehsal kompleksinin məhsuldar qüvvələrin ərazi üzrə təşkilinin bir forması kimi mütərəqqiliyini müəyyən edir. Ərazi-

istehsal kompleksinin xidmətedici sahələri təsərrüfatın əsas sahələrini və əhalinin tələbatmı ödəmək funksiyasını yerinə yetirir. Ərazi-istehsal kompleksinin xidmətediçi sahələrinə ilk növbədə maddi istehsalın tikinti, nəqliyyat, rabitə, ticarət, mənzil-kommunal təsərrüfatı, maarif, səhiyyə və s. aid edilir. Burada onu göstərmək Iazımdır ki, bəzi ərazi-istehsal komplekslərində yuxarıda adları çəkilən infrastruktur sahələri ilə yanaşı sənaye və kənd təsərrüfatının da sahələri olur ki, onlar da yerli əhəmiyyət kəsb etmir, lakin kompleksin öz tələbatmı ödəyir.

Məlumdur ki, ərazi-istehsal kompleksləri müəyyən ərazi daxilində formalaşır. Bu baxımdan, mövcud ərazi-istehsal komplekslərinin inkişaf səviyyəsini qiymətləndirmək, onlarda istifadə olunmayan ehtiyat mənbələrini aşkara cıxarmaq, istehsal strukturunu daha da təkmilləşdirmək, yeni formalaşanların isə düzgün inkişaf istiqamətinin planlaşdırılması və idarə olunmasını, kompleksə daxil olacaq müəssisələrin tərkibini müəyyən etmək və onların nəzərdə tutulan vaxtda işə salınmasını həyata keçirmək üçün və s. ərazi-istehsal komplekslərinin sərhədinin düzgün müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

İqtisadi inkişafm müasir mərhələsində ərazi-istehsal komplekslərinin formalaşması və inkişafı, demək olar ki, ayrı-ayrı bölgələrdə məhsuldar qüvvələrin yerləşdirilməsi probleminin bütün məsələlərini özündə əhatə edir.

Sənayenin ərazi üzrə daha bərabər yerləşdirilməsinə, regionların inkişaf səviyyəsinin tarazlaşdırılmasına dair işlərin genişləndiyi bir vaxtda respublikalarda və ayrı-ayrı regionlarda məhəlli istehsal komplekslərinm formalaşması və inkişafı məsələləri olduqca böyük əhəmiyyət kəsb edir. Ayrı-ayn rayonların sənaye cəhətdən inkişafının təmin edilməsi, əmək ehtayatlanmn ictimai istehsala daha səmərəli şəkildə cəlb olunması və digər xalq təsərrüfatı vəzifələrinin yerinə yetirilməsində onların malik olduqları imkanların tam səfərbər edilməsi və s. məhəlli ərazi-istehsal komplekslərinin formalaşması və inkişafı yolu ilə həyata keçirilə bilər.

Bir sözlə, məhəlli ərazi-istehsal kompleksləri ərazicə o qədər də böyük olmayan dövlətlərdə məhsuldar qüvvələrin ərazi üzrə təşkilinin ən mütərəqqi formalarmdandır. Bu komplekslər bır və ya

bir neçə yerli ehtiyatların kompleks istifadə olunması əsasında formalaşır və inkişaf edirlər.

Bir qayda olaraq iri və regional ərazi-istehsal komplekslərinə xas olan xüsusiyyət və əlamətlər məhəlli komplekslərində də özünü büruzə verir. Bununla belə məhəlli ərazi-istehsal komplekslərinin özünəməxsus bir sıra xarakterik əlamətləri vardır. Birincisi, onların sərhədi iri ərazi-istehsal komplekslərinə nisbətən daha kiçik və dəyişkəndir və bu komplekslər müəyyən dərəcədə müvəqqəti xarakter daşıyır. Bununla əlaqədar olaraq məhəlli komplekslərin mövcudluğu müəyyən funksiyaları yerinə yetirmək üçün tələb olunan vaxtda və çərçivədə məqsədəuyğundur.

İkincisi, iri və regional ərazi-istehsal kompleksləri ilə müqayisədə məhəlli kompleksləri daha məhdud olur və istehsalın texnoloji həlqələri onlarda daha az inkişaf edir. Bundan başqa məhəlli komplekslərdə sahələrin sayı daha az olur və onlar arasındakı əlaqələr bir o qədər də intensiv olmur. Odur ki, məhəlli kompleksləri tərkibinə daxil olduqları regional ərazi-istehsal komplekslərinə nisbətən ölkə miqyasında daha az sayda məhsul istehsalı üzrə ixtisaslaşırlar və bunun da nəticəsində bir qayda olaraq, həmin məhsulların istehsalında onların xüsusi çəkisi aşağı olur.

Qeyd etmək lazımdır ki, məhəlli ərazi-istehsal komplekslərinin formalaşması və inkişafı Azərbaycan Respublikası üçün xüsusilə aktualdır. Bu ondan irəli gəlir ki, baxmayaraq, son onilliklərdə xalq təsərrüfatının quruluşunun yerli təbii-iqtisadi imkanlara müvafiq olaraq daha da təkmilləşdirilməsi sahəsində xeyli iş görülmüşdür. Əvvəlki kimi yenə də respublikanın ümumi sənaye məhsulu istehsalının başlıça hissəsi Bakı-Sumqayıt sənaye rayonunun payına düşür. Halbuki sənaye cəhətdən zəif inkişaf etmiş rayonlar xeyli potensial inkişaf imkanlarına malikdirlər. Bu imkanlardan istifadə olunması respublikada məhsuldar qüvvələrin yerləşdirilməsinin yaxşılaşdırılması sahəsində qarşıda duran bir sıra problemlərin, o cümlədən mövcud ərazi nisbətlərinin ardıcıl olaraq təkmilləşdirilməsi, ayrı-ayrı rayonların inkişaf səviyyəsinin tarazlaşdırılması, onların xammal ehtiyatlarından daha dolğun və səmərəli istifadə olunması, əmək qabiliyyətli əhalinin məşğuliyyətinin daha da yaxşılaşması kimi problemlərin həlli üçün əlverişli imkan yarada bilər. Göstərilən problemlərin, eləcə də

əhalinin yüksək təbii artımı ilə səciyyələnən və sərbəst əmək ehtiyatlarına malik olan Azərbaycan Respublikasında iş yerlərinin sayının mövcud əmək ehtiyatlarına uyğunluğunun təmin edilməsi kimi mühüm iqtisadi və sosial problemin müvəffəqiyyətlə həyata keçirilməsində istehsalın ərazilərdə təşkilinin mütərəqqi forması olan məhəlli ərazi-istehsal komplekslərinin formalaşması və inkişafının müstəsna əhəmiyyəti vardır.

2) Regionların, ayrı-ayrı dövlətlərin və iqtisadi rayonların təsərrüfatının qarşılıqlı əlaqədə kompleks inkişafı.

Bu qanunauyğunluq xalq təsərrüfatının kompleks inkişafı, rayonlararası əhəmiyyətə malik olan və ictimai əməyin ərazi bölgüsü sistemində ölkənin bütövlükdə və onun iqtisadi rayonlarının ixtisaslaşmasını müəyyən edən istehsalın qarşılıqlı surətdə əlaqədar sahələrinin məcmusunun ahəngdar inkişafını, region və dövlətlərin ərazisində yerləşən müəssisələrin tələbatını iqtisadi cəhətdən səmərəli ödəyən istehsal sahələrinin eyni vaxtda inkişafını nəzərdə tutur.

İqtisadi rayonların təsərrüfatının ərazi kompleksini tamamlayan sahələr, eyni zamanda xidmət sahələri xalq təsərrüfitının ixtisaslaşmış sahələrinin qarşılıqlı əlaqədə olmasını müəyyən edir.

Təsərrüfatın bu cür inkişafı istehsal vasitələri və istehlak malları istehsalı arasında, sənaye və kənd təsərrüfatı, istehsal və bütün nəqliyyat növləri ilə daşımalar arasında, xalq təsərrüfatı ilə xammal və əmək ehtiyatları arasında düzgün ictimai istehsalın səmərəliliyinin yüksəldilməsinə kömək edir.

Müasir mərhələdə ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi tələbi ilə əlaqədar olaraq, ayrı-ayrı regionların təsərrüfatlarının kompleks inkişafı müxtəlif miqyaslı ərazi-istehsal birləşmələrinin formalaşması və inkişafı probleminin aktuallığı getdikcə artır.

Region, dövlət və iqtisadi rayonların təsərrüfatlannın kompleks inkişaf etdirilməsi malik olduqları ehtiyatlardan və imkanlardan daha səmərəli istifadə edilməsi əsasında onların inkişafi qarşısında duran bir sıra mühüm sosial-iqtisadi problemlərin həllinin sürətləndirilməsini nəzərdə tutur.

Bəzi dövlətlərdə indiyə qədər təsərrüfat sahələrinin inkişafının komplekslilik səviyyəsinin aşağı olması nəticəsində

məhsuldar qüvvələrin qeyri-qənaətbəxş şəkildə yerləşməsi və sosial-iqtisadi inkişaf fərqlərinin mövcud olması davam etməkdədir.

Elə bu səbəbdən də Azərbaycanın zəngin yerli xammal sərvətlərindən istifadənin ancaq ilkin emal səviyyəsində məhdudlaşması, onların hazır məhsul istehsalı üçün sonrakı işlənməsinin zəif həyata keçirilməsi uzun müddət davam etmişdir. Nəticədə istehsal potensialı zəif olan regionlarda real imkanların olmasına baxmayaraq, sənayenin müvafıq sahələrinin meydana gəlməsi müəyyən müddət mümkün olmamışdır.

Respublikanın suverenlik əldə etdiyi şəraitdə məhsuldar qüvvələrin ümumi inkişaf səviyyəsinə görə regionlar arasında tarixən yaranmış fərq təkcə iqtisadi və sosial inkişaf sahəsindəki uyğunsuzluqlardan biri kimi yox, həm də siyasi əhəmiyyət kəsb edən məsələ kimi qiymətləndirilməlidir.

Ərazi-istehsal komplekslərinin formalaşdırılması rayonların kompleks inkişafının səmərəsini yüksəldir. Həmin komplekslərdə təsərrüfat qarşılıqlı əlaqədə inkişaf edir, təbiətin mühafizəsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsi vəzifələri yerinə yetirilir. Müxtəlif ərazilərin aqrar-sənaye komplekslərinin formalaşdırılması çərçivəsində aqrar-sənaye inteqrasiyası buna kömək edir. Məqsədli iqtisadi proqramların yerinə yetirilməsi ölkənin xalq təsərrüfatının ərazi üzrə təşkilinin müxtəlif səviyyələrində kompleksliyin yüksəldilməsinə səbəb olur.

3) Respublikaların, ayrı-ayrı rayonların sosial-iqtisadi inkişaf səviyyələrinin bərabərləşdirilməsi, şəhərlə kənd arasında mühüm fərqlərin ləğv edilməsi xalq təsərrüfatının ərazi üzrə təşkilinin əsas qanunauyğunluqlarından biridir.

Hər bir iqtisadi rayonun təsərrüfatının hərtərəfli inkişafı rayonlararası ixtisaslaşması ilə yanaşı, kənd və şəhər əhalisinin həyat səviyyəsinin daha da yaxınlaşmasına, şəhər ilə kənd arasında sosial-iqtisadi və mədəni-məişət fərqlərinin aradan qaldırılmasına kömək edir. İqtisadi islahatların ardıçıl həyata keçirilməsi şəhərlə kənd arasında olan qeyri-bərabərliyin ləğv olunmasmı təmin edir.

Rayonların iqtisadi inkişaf səviyyəsinin bərabərləşməsi ümumən ərazidə xalq təsərrüfatının inkişafının daha da sürətlənməsinin ən mühüm amillərindən biridir. Eyni zamanda ayrı-ayrı iqtisadi rayonlarda istehsal olunan milli gəlirə, adambaşına düşən sənaye məhsuluna, sənaye və kənd təsərrüfatı istehsalının

səmərəsinə, əmək məhsuldarlığının səviyyəsinə və sairəyə görə bir-birinə getdikcə daha çox yaxınlaşma müşahidə olunur.

İstehsalın məskunlaşmaya doğru hərəkəti dövlətlərin və ayrı-ayrı iqtisadi rayonların iqtisadi inkişaf səviyyələrinin bərabərləşdirilməsinin mühüm vasitələrindəndir.

Uzun müddət belə hesab edilirdi ki, məskunlaşma avtornatik olaraq istehsala doğru meyl edir. Buna görə də istehsal harda gəldi yerləşdirilə bilər. Lakin tədricən məlum oldu ki, məskunlaşmanı bir çox qeyri-xammal istehsal sahələrinin, işçi qüvvəsinin cəmləşdiyi yerlərdə də yerləşdirmək daha məqsədəuyğundur. Bir çox hallarda yeni sənaye müəssisələrinin yerləşdirildiyi yeri dəyişmək və lazımi yarımfabrikatları daşıyıb gətirmək əhalini onıın tikildiyi yerə cəlb etməkdən daha asan olur. Bu zaman sosial cəhətlər, əhalinin xidmət sahələri müəssisələri ilə təmin olunması mühüm rol oynayır. Elə buna görə də hazırda demoqrafik şərait elədir ki, əhali iqtisadiyyatın inkişaf etdirildiyi rayonlarda yerləşdirilir, həm də adambaşına düşən sənaye məhsulu istehsalının səviyyəsi aşağı olduğu rayonlara «yeridilir». Məlum olduğu kimi, sənaye və kənd təsərrüfatı əməyi özünün müəyyən qarşısı alınmaz spesifik xüsusiyyətlərə malikdir. Kənd təsərrüfatında istehsal vasitəsi torpaq sayrlır. Müəyyən iqlim şəraitində kənd təsərrüfatı işlərinin mövsümi olması, onların gedişinin təbii şəraitin xarakteri ilə sıx bağlıhğı ilə əlaqədardır.

Buna görə də şəhərlə kəndin yamlaşmasından söhbət getdikdə istehsalda və məişətdə istehsalın mexanikləşdirilməsində, mənzil tikintisində, təhsilin, istirahətin, mədəni-məişət xidmətinin təşkilində kənd həyat tərzinin şəhər həyat tərzinə yaxınlaşması nəzərdə tutulur. Lakin xalis coğrafi fərqlər də mövcuddur. Kənd yerlərindən şəhərlərə nəqliyyat ilə gəlməyin mümkünlüyü şəraitində bir-biri ilə qarşılıqlı əlaqədə olan kənd yaşayış məntəqələrinin şəbəkəsi inkişaf edir.

Hər bir iqtisadi rayona xalq təsərrüfatı sahəsində ixtisaslaşma xasdır, yəni onun təsərrüfatları göndərdiyi məhsulun müəyyən hissəsinin müqabilində həmin ərazinin hüdudları daxilində istehsal edilməyən və ya kifayət qədər istehsal olunmayan məhsullar alır. Bir qayda olaraq ixtisaslaşma məhsulları istehsalı həmin ərazi üçün daha əlverişli olur və buna görə də onun xüsusi qayğılarının obyektinə çevrilir. Əməyin bölgüsü və ölkənin ayn-ayrı hissələrində xalq

təsərrüfatı məhsulları növlərinin istehsalı və istehlakının rayonlararası balansı formalaşır və rayonlararası əlaqələr yaranır.

Onların inkişafı və intensivliyi bir çox cəhətdən rayonlararası nəqliyyatın inkişafından asılıdır.

Xalq təsərrüfatının elmi surətdə əsaslandırılmış inkişafı və idarə olunması sahəsində əməli fəaliyyətdə qanunauyğunluqların dərk olunması dövlət siyasətinin əsas qaydalarının yəni məhsuldar qüvvələrin yerləşdirilməsi və əraziyə görə təşkili prinsiplərinin hazırlanmasına gətirib çıxardır. Bu zaman prinsiplər təkcə həmin qanunauyğunluqları deyil, həm də məhsuldar qüvvələrin yerləşdirilməsinə təsir göstərən bir sıra qeyri-iqtisadi obyektiv amilləri nəzərə alır.

Qanunauyğunluqlardan fərqli olaraq, prinsiplər dinamikdir, dəyişkəndir, çünki iqtisadi, sosial-siyasi vəziyyətin, ayrı-ayrı rayonlarda strateji cəhətiərin dəyişməsi ilə, habelə əvvəllər dərk olunmamış yeni qanunauyğunluqların kəşfi ilə əlaqədar olaraq prinsiplər dəyişə bilir, buna görə də onların təsir müddəti məhduddur.

Prinsiplər siyasət deməkdir. Dövlət məhsuldar qüvvələrin əraziyə görə təşkili prinsiplərini formalaşdırır, həmin prinsiplərə əməl edir, prosesin məcrasını dəyişməyə və onun özünü lazım olan istiqamətə yönəltməyə çalışır. Bu isə heç də həmişə birdən-birə və tam şəkildə mümkün olmur. Prinsiplərin qanunauyğunluqlardan fərqi bundadır. Onlar obyektivdir, onları aradan qaldırmaq, ləğv etmək olmaz.

Qanunauyğunluqlar ciddi elmi təhlil tələb edir, məhsuldar qüvvələrin yerləşməsi prinsipləri isə rəsmi sənədlər üzrə öyrənilir. Təbiidir ki, tarixi şərait nəzərə alınmaqla onlar tənqidi təhlil edilməlidir.

Prinsiplər qanunauyğunluqları və amilləri nəzərə alan uzun-müddətli siyasətin əsas qaydaları və təsərrüfatçılıq metodlarıdır. Hazırda məhsuldar qüvvələrin yerləşdirilməsi əsasən aşağıdakı prinsiplər nəzərə alınmaqla həyata keçirilir. İstehsalın xammal, yanacaq, enerji mənbələrinə və istehlak rayonlarına yaxınlaşması.

İstehsalın xammal mənbələrində, yanacaq-enerji ehtiyatlan və məhsul istehlakı rayonlarında yerləşdirilməsi iqtisadi cəhətdən əsaslandırılmasa, ölkədə məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi mümkün deyildir. Göstərilən amillər nəzərə

almmaqla istehsalm səmərəli yerləşdirilməsi ən mühüm qanunauyğıınluqlardan biridir.

Müəssisələrin xammal və yanacaq-enerji mənbələrinə yaxınlaşdırılması təbii xammal ehtiyatları ilə zəngin olan yeni rayonların təsərrüfat baxımmdan tezliklə mənimsənilməsinə, ondan kompleks istifadə olunmasına kömək edir. İstehsalın xammal mənbələrində, yanacaq-enerji ehtiyatları və məhsul istehlakı rayonlarında yerləşdirilməsinin iqtisadi cəhətdən əsaslandırılması səmərəsiz məsafələrdən xammal və hazır nıəhsul daşımalarını məhdudlaşdırmaq, ləğv etmək, məhsul istehsalının bütün mərhələlərində əmək məsrəfini azaltmaq və deməli, istehsalın səmərəsini yüksəltmək, ictimai əmək məhsuldarlığını artırmaq üçün çox böyük əhəmiyyətə malikdir.

Sənaye müəssisələrinin iqtisadi rayonlarda yerləşdirilməsi istehsalın və istehlakın artmasına, hasilat sənayesi ilə emal sənayesi arasında, habelə sənaye ilə kənd təsərrüfatı arasında nisbətlərə dair konkret hesablamalara əsaslanır. Bu və ya digər sənaye obyekti tikmək üçün iqtisadi rayon seçərkən həmin sənaye sahəsinin fəaliyyətdə olan müəssisələrinin mövcudluğu. iqtisadi rayonun ixtisaslaşması, onun müəssisələrinin kooperativləşməsi, əmək ehtiyatlarının mövcudluğu, tikilməkdə olan müəssisənin hazır məhsulunu istehlak ediləcəyi rayonlar və onun miqyasları nəzərə alınır. Sənaye müəssisələri texniki tərəqqi nəzərə alınmaqla, iqtisadi rayonların təbii ehtiyatlarından daha səmərəli istifadə etmək, xammaldan və materiallardan kompleks istifadə etmək və nəticədə minimum əmək məsrəfı ilə məhsul istehsalı üçün istehsalın uyğunlaşdırılması nəzərə alınmaqla yerləşdirilməlidir.

İstehsalın yerləşdirilməsi qanunauyğunluqlarına və prinsiplərinə uyğun olaraq, bu və ya digər müəssisənin tikilməsi üçün iqtisadi rayon müəyyən edilir, müəssisələrin yerini müəyyənləşdirmək üçün lazımi axtarışlar və texniki-iqtisadi hesablamalar aparılır, tikinti işləri görüləcək rayonun nəqliyyat şəraiti, energetika, xammal və su ehtiyatları aşkara çıxarılır.

Riyazi metodların və EHM-in tətbiqi həm sahə, həm də ərazi baxımından məhsuldar qüvvələrin səmarəli yerləşdirilməsi işində olduqca geniş perspektivlər açır. İqtisadi rayonların kompleks inkişafı məsələlərinin həllində onlardan istifadə olunması həmin rayon daxilində məhsul istehsalına və istehlakına dair real plan əldə

etməyə, onu maddi, istehsal və əmək ehtiyatları ilə əlaqələndirməyə imkan verir.

Xalq təsərrüfatı sahələrinin yerləşdirilməsi vəzifələrinin yerinə yetirilməsində riyazi metodlar əməli cəhətdən xüsusilə geniş miqyasda tətbiq olunur. Burada sənayeni xammal, yanacaq mənbələrinə və istehlaka yaxınlaşdırmaq prinsipi həyata keçirilir.

Hər bir sənaye müəssisəsi özünə xas olan yerləşdirilmə prinsipinə malikdir. Belə ki, dəmir filizi yataqları rayonlarında və ya kokslanan kömür hövzələrində, habelə xammal və yanacaq mənbələri arasında və ya onların bilavasitə yaxınlığında yerləşən rayonlarda iri metallurgiya müəssisələri yerləşdirilir. Metallurgiya müəssisələrinin xammal və yanacaq mənbələrinə yaxınlaşması onların uzaq məsafələrə daşınması hallarını azaldır. Yeni qara metallurgiya müəssisələrinin yaradılması, habelə bir çox iqtisadi rayonlarda kiçik metallurgiyanın inkişafı sənayenin həmin sahəsinin coğrafi baxımdan yerləşdirilməsini yaxşılaşdırır. Mis əritmə müəssisələri filiz yataqları yaxınlığında tikilir. Bu, mis filizlərində metalın az olması ilə əlaqədardır. Odur ki, filizləri uzaq məsafələrə daşımaq sərfəli deyildir.

Metaltutumlu maşınqayırma sahələri bir qayda olaraq, metalurgiya bazalarının yaxınlığında yerləşdirilir. Maşınqayırmanın metal tutumu az olan və çoxlu əmək məsrəfi tələb edən növləri əsasən bol əmək ehtiyatları olan rayonlarda yerləşdirilir. Bir sıra maşınqayırma müəssisələri tikilərkən rayonun və şəhərin əlverişlı nəqliyyat-coğrafi vəziyyəti də nəzərə alınır.

Kimya sənayesinin yerləşdirilməsi başqa sənaye sahələrinin yerləşdirilməsindən xeyli fərqlənir. Belə ki, kimya sənayesi məhsul istehsalında mineral, heyvan, bitki mənşəli xammallardan, sudan, havadan istifadə edir. Göründüyü kimi kimya sənayesinin ərazi təşkili üçün geniş xammal imkanları vardır. Bundan əlavə, kimya sənayesinin yerləşdirilməsinə bir sıra amillər təsir göstərir. Misal üçün, kalium kübrələri və soda istehsalı bir qayda olaraq, xammal mənbələri yaxınlığında, kalsium-karbit istehsalı xammal və ucuz elektrik enerjisi rayonlarında, sulfat turşusu və superfosfat sənayesi başlıca olaraq məhsul istehlakı rayonlarında yerləşdirilir, polimerlər, müvafiq xammal (neft, qaz, kömür), su ehtiyatları və iri, ucuz enerji, yanacaq mənbələri olan rayonlarda istehsal edilir, əczaçılıq sənayesi əmək ehtiyatlarının cəmləşdiyi rayonlarda yerləşdirilir. Kimya

istehsalı daha çox su və enerji işlədən sənaye sahəsidir. Buna görə da həmin sənayenin bir çox sahələri yerləşdirilərkən onların su-enerji təchizatı şəraitinə xüsusi diqqət yetirilir. Xammal istehsalı rayonlarında yeyinti məhsulları sənayesinin elə sahələri yerləşdirilir ki, onlar tez xarab olan xammallardan istifadə edirlər. Məsələn, şəkər, konserv, yağ, pendir, nişasta-patka, şarabçılıq (ilkin şərab emalı), meyvəqurutma və s. sahələrini qeyd etmək olar.

Bir sıra hallarda istehsalın iqtisadi cəhətdən əsaslandırılmış yerləşdirilməsi onun istehsal olunan məhsulun istehlak edildiyi yerlərə yaxınlaşdırılmasını nəzərdə tutur. Məsələn, daşımaların səmərəli təşkili və istehsal xərclərinin azalması naminə neftayırma zavodları başlıca olaraq, neft məhsulları istehlakı rayonlarında yerləşdirilir.

Hazır məhsul istehlakı rayonlarında (xammal bazalarının mövcudluğu nəzərə alınmaqla) mədən, yüngül sənaye və yeyinti məhsulları sənayesi üçün avadanlıq buraxan maşınqayırma sahələri, habelə traktorqayırma və kənd təsərrüfatı maşınqayırma sənayesi yaradılır. Şəkər zavodları üçün avadanhq əsasən başlıca şəkər çuğunduru istehsalı rayonlarında buraxılır. Məhsul istehlakı rayonlarında, ilk növbədə iri sənaye mərkəzlərində yeyinti məhsulları sənayesinin bir çox sahələri, məsələn, unüyütmə, çörəkbişirmə, üzlü süd məhsulları sahələri və başqa sahələri inkişaf etdirilir. Tərəvəz-kartof və süd məhsulları istehsalı iri şəhərlərin və sənaye mərkəzlərinin yaxınlığında təşkil olunur.

Istehsal sahələrinin xammal mənbələrində, yanacaq-enerji və məhsul istehlakı rayonlarında yerləşdirilməsinin iqtisadi cəhətdən əsaslandırılması ölkələrin və onların iqtisadi rayonlarının təbii, iqtisadi və əmək ehtiyatlarından səmərəli istifadə olunmasına, əmək məhsuldarlığının daha da yüksəlməsinə və məhsulun maya dəyərinin aşağı düşməsinə səbəb olur.

Məhsuldar qüvvələrin inkişafında və yerləşdirilməsində beynəlxalq əmək bölgüsünun üstünlüklərindən və iqtisadi faydalılığından istifadə edilir.

Azərbaycan Respublikasında istehsalı inkişaf etdirmək və onu səmərəli yerləşdirmək tədbirlərini həyata keçirərkən, xarici ölkələrlə əməkdaşlığı dərinləşdirmək və təkmilləşdirmək, iqtisadi inteqrasiyanı inkişaf etdirmək vəzifələri, habelə dünya təsərrüfat sistemində ictimai əməyin səmərəli bölgüsü vəzifələri rəhbər tutulur.

Beynəlxalq əmək bölgüsü iqtisadiyyatın inkişafında düzgün nisbətlər yaranmasına və onların hər birinin xalq təsərrüfatında hər bir dövlətin hüdudları daxilində məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinə, onların əmək və maddi istehsal ehtiyatlarından daha səmərəli istifadə olunmasma kömək edir.

Hər hansı bir dövlətin beynəlxalq əmək bölgüsündə fəal iştirakı hər şeydən əvvəl ixtisaslaşdırılmış ixrac sahələrinin, yardımçı sahələrin və istehsalın sürətli inkişafını müəyyən edir ki, bu da yeni sənaye mərkəzlərinin, iri müəssisələrin yaradılmasına gətirib çıxarır. Öz növbəsində bunlar mövcud sənaye qovşaqlarının strukturunu dəyişdirir. Onların yaranması üçün yeni nəqliyyat yolları çəkilir. Əlavə enerji qurğuları, tikinti bazaları yaradılır. Xidmət müəssisələrinin mürəkkəb sistemi meydana gəlir. Bütün bunlar ayrı-ayrı rayonlann daxili ərazi strukturunu, rayondaxili və rayonlararası əlaqələrin nisbətlərinin xarakterini dəyişir.

Hər hansı bir ölkənin iqtisadi inteqrasiyasının istiqamətləri və elmi-texniki tərəqqiyə dair kompleks proqramını həyata keçirilməsi onların təsərrüfatında, o cümlədən istehsalın sahəvi və ərazi strukturunda, müəyyən müsbət dəyişikliklərin baş verməsinə imkan yaratmışdır.

Azərbaycan Respublikasının təbii sərvətlərindən səmərəli istifadə olunmasında, məhsuldar qüvvələrin sürətlə inkisaf etdirilməsində 1994-cü ilin sentyabrında xarici iri neft şirkətləri ilə bağlanılmış «Əsrin müqaviləsi»nin müstəsna əhəmiyyəti olmuşdur.

Müqaviləyə əsasən Bakı-Tbilisi-Ceyhan və Bakı-Novorossiysk magistral əsas ixrac neft boru kəmərlərinin çəkilməsi deyilənlərə subutdur. İnşa edilmiş neft kəməri boyunca iri sənaye obyektlərinin tikilməsi, kəmərin çəkilişi üçün tikinti təşkilatlarının yaradılması, yeni qəsəbələrin salınması, sosial-mədəni obyektlərin tikilməsi, əlavə nəqliyyat yollarının çəkilməsi, iri neft terminallarının yaradılması və s. həyata keçirilir. Yeni tikinti təşkilatlan müvafiq rayonların inkişafının böyük amilinə çevrilir, kəmər boyu yerləşən bütün sistem isə iqtisadi cəhətdən fəal zonaya aitdir.

Getdikcə daha da güclənən dövlətlərarası ixtisaslaşma və kooperativləşmə rayonların və tam bir sıra sənaye qovşaqlarının və mərkəzlərinin daxili strukturuna müsbət təsir göstərir. Respublikanın ərazisində yerləşən bir sıra iri sənaye qovşaqlarının və mərkəzlərinin

daxili strukturuna müsbət təsir göstərir. Respublikanın ərazisində yerləşən bir sıra iri sənaye müəssisələri xarici ölkələrlə müxtəlif kooperasiya əlaqələrinin təsiri altında formalaşır. Xarici ölkələrin iştirakı ilə birgə müəssisələr yaratmaq prosesi güclənir.

Məhsuldar qüvvələrin yerləşdirilməsi təsərrüfatın inkişafına və onun ünsürlərinin qarşılıqlı fəaliyyətinə həlledici təsir göstərən obyektiv prosesləri əks etdirir. Məhsuldar qüvvələrin inkişafı və ərazi təşkili müəyyən amillərin təsiri altında baş verir. Həmin amillərdən aşağıdakıları qeyd etmək olar:

a) istehsalın yerləşdirilməsi şəraitinə təsir edən və hətta onu dəyişdirən elmi-texniki tərəqqi ilə bağlı texniki-iqtisadi amillər:
b) təbii ehtiyatlann kəşfi və təbii şəraitlə əlaqədar olan və ətraf mühitin mühafızəsi iiə bağlı təbii amiilər;
c) keçmişin əmək vərdişlərini, məskunlaşma xüsusiyyətini əks etdirən tarixi amillər;
d) sosial (əhalinin həyat şəraiti ilə bağlı), habelə siyasi, hərbi-strateji və başqa amillər.

Prinsiplərdən fərqli olaraq amillərin təsiri təkamül yolu ilə və nisbətən sakit dəyişir, prinsiplər çox vaxt siyasi xarakter daşıyır.

Xalq təsərrüfatının ərazi strukturuna təsir xüsusıyyətlərinə görə bütün amilləri (texniki-iqtisadi, təbii, tarixi, sosial-iqtisadi) şərti olaraq ədalətli (sabit) və dinamiklik (inkişaf) amillərə bölmək olar. Eyni zamanda ərazi strukturunun inkişafının (dinamikasının) Özü əməyin coğrafi bölgüsünün dərinləşməsi təsərrüfatı ərazi təşkilinin mürəkkəbləşməsi ilə səciyyələnir. Buna görə də dinamiklik amillərini öz növbəsində intensiv (əsasən dərin inkişafa təsir göstərən) amillərə və ekstensiv (eninə inkişafı müəyyən edən) amillərə bölmək olur.

Qeyd edildiyi kimi, xalq təsərrüfatının ərazi üzrə təşkili təkcə onun ünsürlərinin yerləşdirilməsi deyil, həm də qarşılıqlı fəaliyyəti, qarşılıqlı surətdə bir-birini tamamlaması və bərabər tabeliyidir. Qarşılıqlı fəaliyyət amilləri xammaldan, ərazidən, nəqliyyatdan, əmək ehtiyatlarından, tullantılardan birgə istifadə edən istehsalın ərazicə bir-birinə yaxınlaşmasının iqtisadi səmərəsini müəyyən edir, yəni təsərrüfatın ünsürləri arasında əlaqələrin xarakterinə və intensivliyinə təsir göstərir.

Eyni rayonlar bəzən müxtəlif sahələrin bir çox sənaye müəssisələrinin yerləşdirilməsi üçün əlverişli olurlar. Lakin bir sıra resurslar (su, enerji, yanacaq, əmək və s.) məhdudluq təşkil edə bilər. Bu bütün istehsal sahələrinin rayonda yerləşdirilməsi imkanını müəyyən dərəcədə məhdudlaşdırır.

Eyni zamanda yeni yataqların kəşf edilməsi sənaye sahələrinin rayonda yerləşdirilməsi imkanını müəyyən dərəcədə məhdudlaşdırır, həmçinin yeni yataqların kəşf edilməsi sənaye sahələrinin rayonda əlavə yerləşdirilməsi üçün həlledici amilə çevrilə bilər. Buna görə də ayrı-ayn amillərin təsiri çoxcəhətli, müxtəlif istiqamətli ola bilər. Bu, hər şeydən əvvəl mürəkkəb kompleks amillərə aiddir.

Təbii amil mühüm çoxcəhətli kompleks amildir. Təbii şəraitin və ehtiyatların özünün varlığı bir çox hallarda ərazinin iqtisadi inkişafını ən güclü amilinə çevrilir. Eyni zamanda təbii ehtiyatlardan kompleks istifadə edilməsi təbiətin və ətraf mühitin qorunması problemini kəskin şəkildə qarşıya qoyur.

Ekoloji amil təbii ehtiyatlardan kompleks istifadənin yeni amilinə və stımuluna çevrilir. Ekoloji problem müasir dövrün ən mühüm təbii-elmi və sosial-iqtisadi problemlərdən biridir. Bəşəriyyətin rifahı xeyli dərəcədə onun düzgün həllindən ibarətdir. Bu problemin vacibliyi və kəskinliyi təbii ehtiyatların daha çox tükənməsi və ətraf mühitin çirklənməsi prosesi ilə müəyyən edilir. Bu isə məhsuldar qüvvələrin inkişafı yolunda əngələ çevrilir. Təbii tarazlığı saxlamaq məqsədilə tullantısız istehsalat zərurətə çevrilir. Həmin istehsalat, təbii xammaldan kompleks istifadə olunması və onun emalı ilə əlaqədardır. Bununla birlikdə ekoloji amil torpaqdan səmərəli istifadə olunmasını, onun rekultivasiyasını tələb edir. Ekoloji amil nəzərə alınmaqla hasilat miqyasları, təbii şəraitdən və təbii ehtiyatlardan istifadə olunma məhdudlaşdırılır, bəzi halda hətta onlardan istifadə olunması tamamilə qadağan edilir.

Ərazi amili hazırda və xüsusən perspektivdə böyük əhəmiyyət kəsb edir. Onun təsiri çoxcəhətlidir. Bir tərəfdən o məhdudlaşdırma amili, başqa bir halda fəallaşdırma amili sayılır. Perspektivdə bu amil ölkənin əsas rayonlarının inkişafının intensiv yolunu stimullaşdıracaq, ərazidən istifadə olunmasının bu və ya digər variantının məqsədəuyğunluğunu müəyyən etmək üçün diqqətli hesablamalar aparılmasını və həmin varianta qiymət verilməsini tələb edəcəkdir. Məhsuldar qüvvələrin müasir dövrdə

yerləşdirilməsinin cox mühüm və çoxcəhətli kompleks amili əhalidir, xüsusən əmək ehtiyatlarıdır. Əhalinin zəif artımı, elmi-texniki inqilab dövründə əmək ehtiyatlarına, onların təhsil səviyyəsinə və peşə hazırlığına tələbiərin yüksəlməsi insan əməyini daha qiymətli edir. Yeni demoqrafik vəziyyət yaranmışdır. Belə vəziyyət məhsuldar qüvvələrin yerləşdirilməsinə getdikcə daha çox təsir göstərir. Məhsuldar qüvvələrin yerləşdirilməsi qanunauyğunluqları xeyli dərəcədə insan amili ilə bağlıdır. Bu, respublika, rayon soviyyələrində daha yaxşı hiss olunur. Məsələn, komplekslik, iqtisadi səmərə ərazinin bir çox rayonlarında ən yeni sahələrin daha da artırılması zərurətini irəli sürür. Bunlar əsasən qadın və ya kişi əməyinin tətbiq edildiyi tam sahələrdir, eyni zamanda işçi qüvvəsindən tam istifadə olunması kimi sosial problemlər qarşıya çıxır.

Hazırda ayrı-ayrı ölkələrin əhalisi ilə bağlı olan sosial amillər məhsuldar qüvvələrin yerləşdirilməsinə getdikcə daha çox təsir göstərməyə başlayır. Beləliklə, hər bir rayonda, hər bir konkret ərazidə məhsuldar qüvvələrin yerləşdirüməsinin müəyyən şəraiti təşəkkül tapmışdır.

II. DÜNYANIN MÜASİR SİYASİ VƏ İQTİSADİ XƏRİTƏSİ

İnsan cəmiyyətinin inkişafını özündə əks etdirən dünyanın müasir siyasi xəritəsinin formalaşması uzun tarixi yol keçmişdir. Bu formalaşma min illər boyu davam edib və yeni ölkələrin yaranmasında və dağılmasında, sərhədlərin dəyişilməsində, yeni torpaqların kəşfində, metropoliya və koloniyaların yaranmasında, dünyanın təkrar-təkrar bölüşdürülməsində öz əksini tapmışdır. Xüsusilə siyasi xəritənin dəyişilməsində siyasi hadisələrin, həm də müharibələrin gedişi təsiredici amillər sayılır.

Siyasi xəritə bir neçə formalaşma mərhələlərinə bölünür. Bu dövrləşmədə tarixi- coğrafi yanaşmanın xüsusi əhəmiyyəti vardır. Bu yanaşma bəşər tarixinin dövrlərə bölünməsinə əsaslanır. Bu dövrləşmənin müxtəlif variantları vardır. Məlumdur ki, tarix qədim dövrə, orta əsrlərə, yeni və ən yeni dövrlərə bölünür. Bu şəkildə bölgü ictimai-iqtisadi formasiyaların xüsusiyyətlərinə əsaslanır. Bundan əlavə, bəşər tarixi sivilizasiyalara da bölünərək öyrənilir. Buraya kənd təsərrüfatı sivilizasiyasi, sənaye sivilizasiyası, elmi-

texniki sivilizasiyalar, informasiya sivilizasiyası aiddir. Sinfi bölgü olmayan yanaşma dünyada daha geniş yayılmışdır.

Qədim dövr eramızın V əsrinə qədərki dövrü əhatə edir. İlkin coğrafi biliklər hələ ibtidai icma quruluşu dövründə meydana gəlməyə başlamışdır. Bu biliklər öz əksini əvvəllər əfsanələrdə, sadə rəsmlərdə - "xəritələrdə" tapırdı. Müasir dövrə gəlib çıxmış ən qədim rəsmlər Qədim Şərqdə (Babil, Misir), Çində yaşamış xalqlara məxsusdur. Salamat qalmış qayaüstü rəsmlərə Cənubı Amerikanın və Cənubi Asiyanın dağlıq rayonlarında da rast gəlinir. Deməli, insanların ətraf mühit haqqında empirik təsəvvürləri əmək fəaliyyətləri ilə birlikdə meydana gəlmiş və onların malik olduqları informasiyaların əsasını təşkil etmişdir. Yəni siyasi xəritədə dəyişikliklər öz başlanğıcını ictimai əmək bölgüsü və şəxsi mülkiyyətin yaranması, eləcə də ictimaiyyətin siniflərə parçalanması dövründən götürür. EIə o dövrdən sosial hadisə kimi dövlət, yəni dünyanın siyasi xəritəsi ilə əlaqəsi olan əsas ərazi taksonomik vahidi yaranır. Bu, quldarlıq quruluşu dövrünü əhatə edir. Quldarlıq dövründə hərbi rəhbərlər, sonralar meydana gələn irsi hökmdarlar iri torpaq və pul sahibi olmuşlar. Onların yaşadıgı malikanələrin yanında isə zadəganlar, qoşunlar, onlara yaxın sənətkarlar, tacirlər, azad əkinçilər məskunlaşırdı. Bu yaşayış məntəqələrindən də sivilizasiyanın əsasını qoyan şəhər-dövlətlər yaranmışdır. Beləliklə, hələ eramızdan xeyli əvvəl IV-III minilliklərdə çaylararası hövzədə-Mesopotamiyada, Çində, Misirdə ilk quldarlıq dövlətlərinin formalaşması başlamışdır.

Feodal ıstehsal münasibətlərinin yaranması bu prosesə daha qüvvətli təkan vermişdir. Lakin qədim şahər-dövlətləri çox zəif idilər. Onlar üçün ən qorxulu təhlükə köçəri xalqların basqını idi. Sonralar onlardan qorunmaq üçün daha güclü mərkəzləşdirilmiş dövlətlər yaranmışdır. Onların yaranmasında coğrafı mövqe və ətraf mühit mühüm rol oynayırdı. Məsələn: Qədim Misirdə bir tərəfdən Liviya səhrası, digər tərəfdən Qırmızı dəniz ilə xarici basqınlardan yaxşı qoruna bilirdilər. Bu səbəbdən də işğal müharibələri aparmamış, silahlı dəstələrin sayını artırmamışdılar. Nəticədə isə eramızdan əvvəl VIII əsrin əvvəllərində Efiopiya şahları asanlıqla Misiri işğal etmişlər. O vaxtdan başlayaraq Misir əldən- ələ keçmiş və yalnız XX əsrin əvvəllərində öz müstəqilliyini bərpa edə bilmişdir. İlk şəhər dövlətlərinə e.ə III minillikdə egeyellin

sivilizasiyasını (Hind vadisində), şəhər dövlətlərə II minillikdə Xuanxe vadisində İn şahlığını misal göstərmək olar. E. ə. III minilliyin birinci yarısında isə İran imperiyası formalaşmışdır. Feodal istehsal münasibətlərinin yaranması bu prosesə daha qüvvətli təkan vermişdir. Avropa miqyasında bu hadisə eramızın V-XI əsrlərinə təsadüf edir.

Yeni Dünyada isə ilk şəhər-dövlətlər eramızın ilk minilliyinin birinci yarısında müasir Meksika və Perunun ərazilərində yaranmışdır. Bu sivilizasiyaların nailiyyətləri Köhnə Dünyada olan nailiyyətləri təkrarlamışdır.

Mesopotamiya sivlzasiyası ətrafında vəziyyət fərqli olmuşdur. Çaylararası düzənliklərdəki xalqların vəziyyəti daha ağır idi. Ona görə ki, burada yerləşən köçəri xalqların basqını üçün hec bir çətinlik yox idi. Elə bu səbəbdən də yaranmış Şummer, Babilistan impeıyalarının, daha sonra isə Assuriya dövlətlərinin ömürləri uzun olmamış və nəhayət e.ə. ilk minilliyin birinci yarısında bu əraziyə İran sivilizasiyası daxil olmuşdur. Bu imperiya üç əsr hökm sürmüşdür.

Dünya sivilizasiyalarınm inkişafında, xüsusilə, qədim Yunan və Roma regional sivilızasiyalarının böyük xidməti olmuşdur. Onların dilləri, ədəbiyyatları, incəsənət və memarlığı, hərbi, ticarət-bank əməliyyatları, Yunan demokratiyası və Roma hüququ bu günə qədər öyrənilir və tətbiq edilir.

Yunan sivilizasiyası - bu sivilizasiyaya Krit adasında başlanılmışdı. E.ə IV əsrin ortalarında yunan şəhəri Afmanı Makedoniyalı İsgəndər ələ keçirmişdir. Sonralar onlarla şəhər İsgəndərin adına adlandırılmışdır. Əlverişli mövqedə yerləşən bu şəhərlər dəfələrlə sahibini dəyişdirmişdir. Bütün bunlara baxmayaraq, Yunan sivilizasiyasının izlərini indi də qoruyub saxlayır və inkişaf etdirirlər. Bu şəhərlərə Misirdə İsgəndəriyyə, Fransada Marsel, İtaliyada Neapol, Krımda Feodosiya, Yevpatoriya, Kerç və s. aiddir. 1991-ci iidə Afinada, Qədim Ellada torpağında yaranan demokratiyanın 2500 illiyi münasibətilə böyük bayram keçirilmişdir.

Roma sivilizasiyası - təməli e.ə. V-III əsrlərdə Orta Asiyada və Tibr vadisində yaşayan latınlar tərəfindən qoyulmuşdur. Romalılar Yunan demokratiyasını daha da inkişaf etdirərək dünyada ilk dəfə olaraq parlamentli mərkəzləşdirilmiş respublika yaratmışlar.

Bu dövrdə Qərbi Avropa sivilizasiyasının yaranmasında və inkişafında böyük rol oynayan çoxlu Roma imperiya şəhərləri yaranmışdır. Venesiya, Köln, London buna misal ola bilər. Lakin e.ə 254-cü ildə əsası qoyulmuş Roma şəhərini tutmuş və qarət etmişlər.

Bu dövrdəki dövlətlər öz ərazilərini genişləndirmək üçün daha çox müharibə aparırdılar. Yəni bu dövr müharibələr ilə səciyyələnir. Bu dövlətlərin apardıqları müharibələr, şəhərsalma işləri, yeni dəniz yollarının kəşfi, uzaq ölkələrlə ticarət əlaqələrinin yaradılması və sairə bilik tələb edirdi. Buna görə də Şimali Hindistan, Qədim Çin. Misir, Finikiya müstəmləkəsi olan Karfagen sakinləri arasında dəniz və quru yollannı öyrənən, başqa ölkələrin sərvətləri haqqında coğrafi biliklər toplayan səyyahlar meydana gəlmişdir.

Bu dövrdə dövlət quruluşunun iki əsas forması-monarxiya (Misir, Babilistan, Assuriya, İran və Roma imperiyaları) və respublika (Finikiya və Yunanıstan şəhər-dövlətləri) mövcud olmuşlar. Yəni bu dövr iri dövlət və imperiyaların yaranması və dağılması ilə səciyyələnir.

Orta əsrlər dövrü V-XV əsrləri əhatə edir. Orta əsrlər dövrü siyasi xəritənin formalaşması feodalizm quruluşu ilə əlaqədardır. Bu dövrdə formalaşan feodalizm cəmiyyətində siyasi vəziyyət daha dərin və qarışıq olmuşdur. Erkən orta əsrlərdə Avropada elm və mədəniyyət dinin təsiri altında durğunluğa uğramışdır. Quldarlıq dövrünün mütərəqqi elmi fikirləri yaddan çıxırdı. Hər cür proseslərin və hadisələrin baş verməsi, maddi varlıqların yaranması haqqındakı fikirlər Allahın iradəsi ilə bağlanır, dini əfsanələr ilə əlaqələndirilirdi. Cənubi Asiya regionunun formalaşmasında və Hindistan yarımadasında yaşayan müxtəlif etnik qrupların birləşməsində isə brahmanizm və hinduizm dinləri mühüm rol oynamışdır. Burada digər regionlardan fərqli olaraq əsir qullara ehtiyac olmamışdır. Bunun iki səbəbi var idi. Burada yerli işçi qüvvəsi kifayət qədər idi. Bu brahmanizm tərəfindən yaranan irsi kastalar cəmiyyəti ayrı-ayrı qruplara ayırırdı.

Şərqi Asiya regionunun formalaşmasında isə Çin imperiyalarının böyük xidməti olmuşdur. Bu imperiyalara daxil olan digər xalqlar Çin xalqına öz sivilizasiyalarını qəbul etdirə bilməmişlər. O dövrdə heç Çin imperiyaları da regiondan kənar işğalçı müharibələrə meyl etməmişlər. Ümumiyyətlə, yaradılmış

Böyük Çin Səddi çin xalqının təfəkküründə dərin iz buraxmışdır. Bu cür möhtəşəm səddi yaradan xalq digər dövlət və xalqların əldə etdiyi nailiyyətləri onların əlindən almaq fikrinə düşməmişdir.

Cənub - Şərqi Asiya regionunun formalaşmasının da özünə məxsus xüsusiyyətləri olmuşdur. Bu regionda nə quldarlıq, nə də feodalizm dövründə regionun bütün hissələrinə təsir edə bilən güclü bir imperıya yaranmamışdır. Ona görə də yerli sivilizasiya mənbələri regional xarakter ala bilməmişdir. Bu region uzun müddət Hindistan və Çin sivilizasiyasından asılı vəziyyətdə olmuşdur.

Siyasi xəritənin formalaşmasında Yeni dövr - XV-XVI əsrlərdən Birinci Dünya müharibəsinin qurtarmasına qədər olan dövrə uyğun gəlir. Yeni dövrün XVI-XVII əsrləri Avropa sənayesinin və ticarətinin inkişafı, elmin və mədəniyyətin sürətli yüksəlişi ilə xarakterizə olunur. İlk manufaktura müəssələri yaranır və əmtəə istehsalı genişlənirdi, istehsal edilmiş məhsulları satmaq üçün daxili bazarlar artıq azlıq edirdi, yeni bazarlara ehtiyac duyulurdu. Qiymətli metallar-qızıl, gümüş çatmırdı. Avropaya qızıl, gümüş, ipək, qiymətli xəz-dərilər gətirilməsi tələb olunurdu.

Bundan başqa, Şərq ölkələrinin tükənməz var-dövləti haqqında tacir və səyyahların söhbətləri də avropalıların təsəvvürünü coşdururdu. Bu tükənməz sərvətləri əldə etmək ümidi ilə yeni torpaqların axtarıb tapılmasına can atılırdı. Beləliklə, yuxarıda göstərilən amillərin təsiri altında Böyük Coğrafi Kəşflər dövrü başlanır. Bu coğrafi kəşflər dövrü XV əsrin ortalarından XVI əsrin ortalarına qədər olan dövrü əhatə edir. Baş verən coğrafi kəşflər dünyanın siyasi xəritəsini əsaslı sürətdə dəyişdirmişdir.

Deyilənlərlə yanaşı, bu dövrdə xristian dini parçalanmış, iri imperiyalar yaranmış, bəşəriyyətin, xüsusilə demokratiyanın inkişafına səbəb olan bir neçə inqilab baş vermişdir.

Avropada baş verən Ingilis burjua inqilabı (1642- 1660) kapitalizm dövrünün başlanmasından xəbər verirdi. Ingiltərə sənayenin inkişafına ciddi fikir verir, əvvəlcə Hollandiyanı və sonralar isə müəyyən müddətdə Fransanı satış bazarlarından sıxışdırıb çıxarırdı. Ingiltərə iri müstəmləkəçi dövlətə çevrilirdi. Lakin buna baxmayaraq məhz Fransa bu dövrdə coğrafiya və xəritəşünaslıq sahəsində görkəmli işlər görürdü. Elə bu dövrdə burjua inqilabları nəticəsində İngiltərə orta əsrlərin feodal monarxiyasından burjua monarxiyasına keçmişdir.

Avrora ölkələrində inkişaf etməkdə olan kapitalizmə coğrafi biliklər lazım idi. Dəniz yollarını idarə etmək, ticarəti nizama salmaq, fabrik, zavod müəssisələrini yaratmaq və onları xammalla təmin etmək və sairə üçün coğrafi məlumatlar tələb olunurdu.

Böyük coğrafı kəşflərin sürəti XVII əsrin ortalarında zəifləməyə başlayır. Bu müddətdən sonra materiklərin daxili hissələri və onların təbii sərvətlərinin öyrənilməsinə daha çox diqqət yetirilirdi.

O dövrdə, yəni XVI əsrdə İspaniya böyük müstəmləkə dövləti sayılırdı. Onun müstəmləkələri Yer kürəsinin 1\4-ni tuturdu. Artıq iki əsr idi ki, Latın Amerikası ölkələri onun müstəmləkəsinə çevrilmişlər. Ispaniya həmin ölkələri istismar edirdi. Amma, oraya şəkər qamışı, qəhvə, çay kimi məhsullar göndərilməsi baş verirdi. Oradan da Avropanın digər ölkələrinə qarğıdalı, kartof, pomidor, kakao, tütün gətirilirdi. Bu dövrdə İspaniya Avropada ən varlı və güclü dövlətə çevrilmişdi. Lakin bu uzun çəkmir. Fransa ilə müharibədə o zəifləyir. Latın Amerikası üzərində nəzarəti itirir, müstəmləkə xalqları bir-birinin ardınca müstəqillik uğrunda müharibələrə başlayırlar.

Müstəmləkələrin sayına görə Portuqaliya da qabaqcıl yerlərdən birini tuturdu. Onun müstəmləkələrinin böyük əksəriyyəti Afrika qitəsində idi. Coğrafi kəşflərdə portagiz səyyahlarının rolu böyük olmuşdur. Lakin bu kəşflərdə məqsəd özgə əraziləri talan etmək, qul alveri və müstəmləkə imperıyası yaratmaq idi. Nəticədə Portuqaliya güclü imperiya yaratsa da bunu uzun müddət saxlaya bilmədi. Müstəmləkələr azadlıq uğrunda mübarizəyə qalxırdılar və Portuqaliya tədricən müstəmləkələrini itırirdi.

Beləliklə, İspaniya və Portuqaliya tədricən zəifləyirlər. İngiltərə, Fransa isə əksinə, dünya hökmranlığı uğrunda özlərinin mövqelərini getdikcə möhkəmləndirirdilər.

XVII əsrdə Fransa müstəmləkə imperiyasının yaranmasının ilk mərhələsi baslayır. O, Hindistanın 1/2 hissəsini, Kanadanın Şərq hissəsini nəzarət altına almışdır. Lakin bu vəziyyət uzun çəkmədi. İngiltərənin güclənməsi fransız müstəmləkəçiliyinin böhranına səbəb olmuşdur. Fransada böyük inqilab baş verir. Bu inqilab Fransada respublika quruluşunu möhkəmləndirə bilməsə də onun ideyaları dünyanın hər yerinə yayılır, bir çox ölkə və xalqların taleyində

mühüm rol oynayır və əbədi olaraq dünya sivilizasiyası nailiyyətlərinin qızıl fonduna daxil edilirdi.

Kapitalizmin inkişafının bu dövründə Almaniya da ağalığa, hökmranlığa, əsasən də Böyük Britaniyanın yerinə iddia edirdi.Bu məqsədlə o, hətta dünyada tayı-bərabəri olmayan sualtı donanma da yaratmışdır. XIX əsrin sonu XX əsrin əvvəllərində isə artıq sənaye istehsalına görə Avropada birinci yerə çıxmışdır. Bu nailiyyətlərdən sonra Almaniya hökuməti müstəmləkə əldə etmək məqsədini qarşıya qoymuşdur. Lakin artıq demək olar ki, gec idi. O, ancaq Böyük Brıtaniya, Fransa kimi ölkələrin işğalından kənarda qalan əraziləri ələ keçirə bilmişdi. Bu ərazilərdə isə təbii sərvətlər digər torpaqlarla müqayisədə yox dərəcəsində idi və dünyanın bu cür bölüşdürülməsi ilə Almaniya razılaşa bilmirdi. Almaniya dünyanın yenidən bölüşdürülməsini istəyirdi.

Artıq XX əsrin başlanğıcında müstəmləkəçi dövlətlər tərəfindən dünya ərazisinin bölüşdürülməsi başa çatmışdı. Belə ki, 1876-cı ildə Afrikanın yalnız 10 %-i Qərbi Avropa ölkələrinin əsarəti altında idisə, artıq 1900-cü ildə bu 90 % ərazini təşkil edirdi. Bu cür bölüşdürmədən bir çox ölkələr razı qalmamışdı. Formalaşmış siyasi xaritənin bu sabitliyi uzun çəkməmişdir. Artıq bölünmüş dünyanın yenidən bölüşdürülməsi prosesinin izləri özünü büruzə verməyə başlayırdı. Bu isə yalnız silah gücü ilə ola bılərdi. Beləliklə, əvvəlcə bir neçə kiçik müharibələr, daha sonra böyük müharibə - Birinci Dünya müharibəsi baş vermişdir.

Siyasi xəritənin formalaşmasının ən yeni dövrü Birinci Dünya müharibəsinin (BDM) qurtarması və Rusiyada Oktyabr inqilabının qələbə çalmasından sonra başlamışdır. Bu dövr ikı mərhələyə ayrılır. Bu İkinci Dünya müharibəsinin (İDM) tam başa çatması və ondan sonrakı mərhələdən ibarətdir.

Birinci mərhələdə siyasi xəritədə mühüm siyasi hadisələr öz izini qoymuşdur. Bu izlərə sosialist dövlətlərinin yaranması və artması, kaloniya sisteminin süqutu, müstəmləkə zülmündən azad olmuş yeni müstəqil dövlətlərin yaranması aid edilir. Bu dövrün əsas xarakterik cəhətini Şərqlə Qərb arasında gedən "soyuq müharibə" təşkil edirdi. Bu dövrdə həmçinin yeni hərbi qurum - NATO yaranmışdır.

Dünyanın siyasi xəritəsində yeni-yeni "qaynar," "konfliktli" nöqtələr yaranırdı. Bu, «qaynar» nöqtəyə əsasən Yaxın Şərq aid

edilirdi. Ən əsas hadisə kimi dünyanm siyasi xəritəsində SSRİ-nin yaranmasını göstərə bilərik.

Birinci Dünya müharibəsindən sonra "Versal" müqaviləsi imzalanmışdır. Bu müqaviləyə əsasən məğlub olmuş Almaniya Avropadakı torpaqlarının bir hissəsini və bütün müstəmləkələrini itirmiş oldu. Eyni zamanda onun müttəfiqi olan Avstriya-Macarıstan imperiyası da parçalanmışdır. O dövrdə dağılan imperiyalar sırasına Böyük Osmanlı imperiyası da daxil idi. Böyük Britaniya, Yaponiya, Fransa dövlətləri isə müstəmləkəçilik siyasətlərini daha da genişləndirdilər. 1919-cu ildə dünya ərazisinin və əhalisinin 80 %-i müstəmləkə və yarım müstəmləkələrin payına düşürdü. Dünyanın bu cür bölüşdürülməsindən Almaniya yenə razı qalmır və yenidən müharibəyə hazırlaşırdı. Müharibə 1939-cu ildə başlayır. 1945-ci ildə Almaniya yenidən məğlub olur. Məğlubiyyət nəticəsində Yaponiya da darmadağın edilmişdir. Bu müharibə bəşəriyyətin 80 %-ni, 60-dan artıq dövlətini əhatə etmişdir.

Ən yeni dövrün ikinci mərhələsində siyasi xəritə dəyişikliklər çoxluğu ilə səciyyələnir. Formalaşmanın bu dövründə, yəni 1945-ci il - XX əsrin 80-ci illərinin sonunda sosialist dövlətləri sistem halını alaraq onların sayı 15-ə çatmışdır. Bununla da dünyada iki əks ictimai-iqtisadi sistem-kapitalizm, sosializm sistemləri yaranmış olur. Bu dünya təsərrüfatmda iqtisadi, siyasi inkişafda sosializmin xeyrinə dəyişikliklər dövrü adlanır.

Lakin XX əsrin 90-cı illərində dünyanın ikinci dövləti hesab edilən SSRİ-nin daxilində milli azadlıq hərəkatı baş qaldırır və nəticədə bu hegemon dövlət dünyanın siyasi xəritəsindən silinmiş olur. Deməli, SSRİ adlı dövlət 1991-ci ilin dekabrın 8-indən dünyanın müasir siyasi xəritəsindən yox olur.

Bu dövrdə dünyanm siyasi xəritəsində ən çox dəyişiklik Avropada baş vermişdir. Bu dəyişikliklərdən birincisi 1990-cı ildə Çexoslovakiyamn tərkibində federativ qurumlar - Çexiya və Slovakıyanın yaranmasıdır. Bu iki federasiya 1993-cü il yanvarın 1-ində müstəqil dövlət kimı siyasi xəritədə öz yerlərini tapmışlar. Bununla yanaşı, 1945-ci ilə qədər siyasi xəritədə mövcud olan vahid Almaniya iki yerə - ADR və AFR-ə parçalansa da, 1990-cı il oktyabrın 3-də onlar paytaxtı Berlin olmaqla birləşərək vahid Almaniya Federativ Respublikasını yenidən bərpa etmişlər.

Bu dövr müstəmləkə imperiyalarının dağılması ilə də xarakterizə edilir. Onların yerində yeni-yeni müstəqil dövlətlər yaranır. Bunlara 1990-cı ildə Namibiya, 1991-ci ildə ABŞ-ın himayəsində olan Mikroneziya federasiyası və Marşall adaları, 1993-cü ildə Şimali Marian adaları, 2002-ci ildə Timor-Leşti misal ola bilər.

SSRİ-nin dağılmasından sonra isə yeni-yeni müstəqil dövlətlər yaranmışdır. İlk olaraq 1990-cı ildə Baltikyanı respıiblikalar SSRİ-nin tərkibindən çıxıb 1940-cı ildəki səviyyələrinə qayıtmış oldular. Yəni dünyanın siyasi xəritəsində yeni müstəqil 3 dövlət yaranmış oldu. Sonralar sosialist sisteminə daxil oian Yuqoslaviyada sosıalizm sistemi dagılmış və beş müstəqil respublika öz əksini siyasi xəritədə tapmışdır. 1991-ci il dekabrın 8-də SSRİ-nin ləğvini irəli sürən üç slavyan dövləti Belarusiyadakı Belovej şəhərində yeni tipli slavyan qrupunun yaradılması haqqında deklarasiya imzaladılar. Buraya Rusiya Federasiyası, Ukrayina və Belarusıya daxil idi. 1991-ci il dekabırın 21-də Alma-Ata şəhərində yeni yaranmış müstəqil dövlət başçılarının Sammiti keçirilməklə dünya tarixində yeni qurum hesab edilən Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında deklarasiya qəbul etdilər. Burada 11 dövlət iştirak etmişdir. Lakin 1993-cü il 29 dekabırda Gürcüstan da buraya daxil olmuşdur.

Bu dövrdə dünyanın siyasi xəritəsində baş verən mühüm dəyişikliklərə 1990-cı ildə iki ərəb dövlətinin - Yəmən Ərəb Respublikası və Yəmən Xalq Demokratik Respublikasının paytaxtı Sana olmaqla Yəmən Respublikası adı altından birləşməsi də aiddir.

Keçmiş İspaniyanın müstəmləkəsi olan Qərbi Səhranın müstəqillik məsələsi həll olunmaq ərəfəsindədir.

Bu dövr həm də 80-ci illərin ortalarına qədər gedən "soyuq müharibə" ilə də səciyyalənir. Silahlanma, müxtəlif sahələrdə gedən mübarizə bəşəriyyəti bürümüşdü.

Bu vəziyyətdə Çernobl stansiyasında baş verən qəza bəşəriyyətə xatırlatdı ki, biz insanıq, bu cür silahlanma, qarşıdurma aradan qaldırılmalıdır. Sosializmin böhranından sonra bu belə də oldu. "Soyuq müharibəyə" son qoyuldu, yenidən sabitlik yarandı.

Siyasi xəritə əsrlər boyu dəyişərək dövlətlərin yaranmasını və iflasa uğramasını, sərhədlərin dəyişməsini, yeni torpaqların kəşf edilməsini və sairəni özündə əks etdirmişdir. Siyasi xəritə daim

inkişaf edərək bəşər cəmiyyətinin tərəqqisinə əsasən dəyişir. Bu dəyişikliklər müxtəlifdir. Onlardan biri ərazi dəyişiklikləri ilə səciyyələnən kəmiyyət dəyişiklikləri, digəri isə ərazi dəyişiklikləri ilə əlaqədar olmayan keyfiyyət dəyişiklikləridir.

Dünyanın siyasi xəritəsində kəmiyyət irəliləyişlərinə yeni kaşf edilmiş torpaqların birləşdirilməsi, müharibələr yolu ilə torpaq əldə edilməsi və ya itirilməsi, dövlətlərin birləşdirlməsi və ya parçalanması, ölkələrin könüllü olaraq ərazi güzəştləri, dəniz dayazlıqlarının qurudulması yolu ilə əldə edilən ərazilər aiddir.

Keyfiyyət irəliləyişlərinə isə - ictimai-iqtisadi formasiyaların tarixən əvəz olunması, dövlət quruluşunun yeni formalarının yaranmasını, dövlətlərarası təşkilatların yaranması, beynəlxalq münaqişələrə səbəb ola bilən qaynar nöqtələrin aradan qaldırılması, soyuq müharibə prosesinin sonu, mədəni mübadilənin genişləndirilməsi aid edilir.

Asılı ərazibrə könüllü olaraq müstəqillik verilməsi və ölkələrin müstəqillik əldə etməsi isə həm keyfiyyət həm də kəmiyyət irəliləyişlərinə aid edilir.

Hal-hazırda dünyanın müasir siyasi xəritəsində 237 dövlət və ərazi mövcuddur. Ərazi dedikdə heç kim tərəfindən tanınmayan, qondarma, səlahiyyəti olmayan «dövlətlər» nəzərdə tutulur. Buna misal olaraq Dağlıq Qarabağı, Çeçen İçkeriyanı, Kəşmin, Kipri göstərə bilərik.

Siyasi xəritədəki mövcud dövlətlər müxtəlif təsnifatlara malikdirlər. Onun da əsasında dövlətlərin qruplaşdırılması həyata keçirilir. Siyasi xəritədəki dövlətlər ərazilərinin böyük və kiçikliyinə, əhalinin az və ya çoxluğuna, coğrafi mövqelərinə, idarəetmə formalarına, inzibati - ərazi bölgülərinə görə qruplaşdırılmışlar.

Müasir dünyada idarəetmənin respublika və monarxiya forması mövcuddur.

Dünya dövlətlərinin % hissəsi respublika idarəetmə formasma malikdirlər. Onların sayı 160-dan az deyil. Respublika idarə formasmda ali qanunverici hakimiyyət seçkili parlamentə, icraedici orqan hökumətə məxsusdur. Belə idarəetmə daha mütərəqqi və demokratik sayılır. Müstəmləkə əsarətindən azad olub müstəqillik əldə edən dövlətlərin əksəriyyəti respublika idarəetmə formasını qəbul etmişlər. Hətta min illərlə monarxiya şəklində idarə

olunan Efiopiya, Misir, İran və s. ölkələr də özlərini respublika elan etmişlər. Respublika idarəetmə forması özü də iki yerə-Prezidentli respublikaya və Parlamentli respublikaya bölünür. Prezidentli respublikaların sayı 100-dür. Bunlardan 45-i Afrikada (Məs: Misir, CAR), 22-si Latın Amerikasında (Argentina, Braziliya və s.), 12-si isə MDB-də yerləşir. Asiyada onlann sayı az, Avropada isə daha azdır. Bunlardan başqa, 12 Superprezident respublikaları da mövcuddur. Bu ölkələrdə konstitusiya əsasında prezidentə daha geniş səlahiyyətlər verilir.

Monarxiyalann sayı isə getdikcə azalır. Hal-hazırda dünyada 30 monarxiya dövləti mövcuddur. Asiyada 14, Avropada 12, Afrikada 3, Okeaniyada 1 monarxiya quruluşlu dövlət vardır. Həmçinin Birlik ölkələrindən 15-i (Amerikada 10, Avstraliya və Okeaniyada 5) rəsmi cəhətdən yalnız kağız üzərində konstitusiyah monarxiyadır. Monarxiyalarda dövlətin başçısı imperator, kral, əmir və s. sayılır. Indi dünyada yeganə imperator Yaponiyadadır. Ali hakimiyyət irsən keçir. Monarxiyaların 3 forması mövcuddur.

Konstitusiyalı monarxiyalar onlar arasında üstünlük təşkil edir. Bu ölkələrdə qanunverici hakimiyyyət parlamentə, icraedici hakimiyyət isə hökumətə məxsusdur. Konstitusiyalı monarxiyada monarx ancaq şahlıq edir, idarə etmir. Bu ölkələrdə monarxiya quruluşu "taxt-tacın" keçmiş əzəmətini, ölkənin tarixini əyani xatırladaraq döviət hakimiyyətinin formal əlaməti kımi saxlanıhr. Idarəetmənin konstitusiyalı monarxiya forması Yaponiya, Böyük Britaniya, Niderland, Belçika, Danimarka, Isveç, Tayıland, Kamboca, Malayziya, İordaniya, Mərakeş üçün səciyyəvidir.

Mütləq monarxiyada isə monarxm təkbaşma hakimiyyəti hələ də güclüdür. Bu cür idarə forması Iran körfəzi ölkələri, Küveyt, Oman, BƏƏ, Qətər üçün səciyyəvidir.

Teokratik monarxiyanın forması əslində mütləq monarxiyanın tərkib hissəsi kimi səciyyəiənir. Burada siyasi hakimiyyət ruhanilərə məxsusdur. Bu idarə forması Vatikan və Səudiyyə Ərəbistanı dövlətləri üçün xarakterdir.

Dünyanm bütün ölkələri inzibati-əıazi quruluşuna görə unitar və federativ dövlətlərə bölünürlər.

Unitar dövlətlərdə vahid konstitusiya, qanunverici və icraedici hakimiyyət mövcuddur. Bu ölkələrin inzibati-ərazı

bölgülərində yalnız icraedici hakimiyyət mövcuddur. Yeni müstəqillik qazanmış ölkələrin əksəriyyəti unitardır.

Federativ dövlətlərdə isə vahid qanunverici və icraedici hakimiyyətlə yanaşı ölkələrin ayrı-ayn inzibati-ərazi bölgülərində - respublika, əyalət, ştat və s.-də özlərinin xüsusi konstitusiyası, qanunverici, icraedici və sairə hakimiyyət orqanları fəaliyyət göstərir. Dünya ölkələri arasmda federativ dövlətlərin sayı azlıq təşkıl edir. Bu tip 24 ölkədən 7-si Amerikada (Argentina, Braziliya. Venesuela, Kanada, Meksika, ABŞ və Federativ Sent-Kits-Nevis), 5-i Avropada (Avstriya, Belçika, AFR, İsveçrə, Serbiya-Çernoqoriya), 5-i Asiyada (Hindistan, Malayziya, Myanma, Birləşmiş Ərəb Əmirliyi, Pakistan), 4-ü Afrıkada (Nigeriya, Efiopiya. Federativ İslam Respublikası - Kamor adalan və CAR), 2-si Avstrallya və Qkeaniyadadır (Avstraliya Ittifaqı və Mikroneziya). Bunların bəzilərində, məsələn, Rusiyada, Hindistanda, Nigeriyada və sairədə federativ quruluşu milli-etnik əlamətlərə, bəzilərində isə, məsələn, Almaniya Federativ Respublikası, Braziliya, Meksika və sairədə tarixi-coğrafi xüsusiyyətlərə görə mövcuddur.

Dünyanın siyasi xəritəsində iki konfederasiya dövləti mövcuddur. Bu, müstəqilliyini saxlayan və müxtəlif məsələlər (təhlükəsizlik, xarici siyasət və sairə) üzrə öz fəaliyyətlərini uzlaşdırmaq məqsədilə birləşən dövlətlərin daimi ittifaqıdır. Bu iki dövlət Isveçrə və Serbiya- Çernoqoriyadır.

Dünyanın müasir siyasi xəritəsində yalnız dörd federativ monarxiya var. Buniar Malayziya, Ispaniya, Belçika və BƏƏ-dən ibarətdir.

Dediyimiz kimi müasir dünya ölkələri müxtəlif meyarlara (idarəetmə, inzibati - ərazi quruluşunun formaları, İCM-yə, əhalinin çox və azlığına və sairə) görə qruplaşdırılmışlar. Bunlardan biri də ərazilərinin ölçüsünə görə qruplaşdırmadır. Burada onlar ərazilərinin ölçülərinə görə böyük, orta, kiçik və cırtdan (mikro) dövlətlərə ayrılırlar. Müasir siyasi xəritədə orta və kiçik dövlətlər üstünlük təşkil edir. Ərazisi 2,5 milyon kv. km-dən artıq olanı böyük dövlət sayılır. Siyasi xəritədə onların sayı 10-dur. Bunlar Rusiya Federasiyası (17.1 mln kv. km), Kanada (10 mln kv. km), Çin (9,6 mln kv km), ABŞ (9,3 mln. kv.km), Braziliya (8,5 mln. kv.km.), Avstraliya (7,7 mln. kv.km), Hindistan (3,3 mln kv. km), Qazaxıstan (2,8 mln kv. km), Argentina (2,7 mln kv. km) və Sudandır (2,5 mln

kv. km). Bu ölkələrdən hər birisinin ərazisi 3 milyon kv. km - dən artıq olan 7 ölkə - Rusiya. Kanada, Çin, ABŞ, Braziliya, Avstraliya İttifaqı və Hindistan dünyanın quru hissəsinin yarıya qədərini tutur.

Cırtdan dövlətlər Avropada, Asiyada, Afrikada, Latın Amerikasında və Okeaniyada yerləşirlər. Bunlardan 5-i - Andorra, Lıxtenşteyn, San-Marino, Monako və sahəsi 44 ha olan Vatikan Avropada yerləşir. Afrikada yerləşən Seyşel adaları və Mavriti, Amerikada Barbados və Qrenada, Okeaniyada Tonqa və Nauru mikro dövlətlərdir.

Ölkələr əhalisinin sayına görə də qruplaşdırılırlar. Dünyada 11 dövlətin hər birisinin 100 milyondan artıq əhalisi vardır. Bunlar Çin Xalq Respullikası, Hindistan, ABŞ, Indoneziya, Braziliya, Pakistan, Rusiya Federasiyası, Banqladeş, Yaponiya, Nigeriya, Meksikadır. Əhalisi 100 milyon nəfərdən cox olan ölkələr dünya əhalisinin 3\5 hissəsindən, əhalisi 50 milyon nəfərdən çox olan 24 ölkə isə dünya əhalisinin 4\5 hissəsindən artığını özündə cəmləşdirmişlər.

Müasir siyasi xəritədə özünə yer tapmış dünya ölkələri coğrafi mövqelərinə görə də qruplaşdırılırlar. Bunlardan materikdaxili, dənizkənarı, yanmada, ada, arxipelaq ölkələrini göstərə bilərik. Bu qruplara aid olan bəzi ölkələrin adlarını çəkə bilərik. Məsələn, yarımada dövlətlərinə Italiya, Ispaniya, Türkiyə, Hindistan, Səudiyyə Ərəbistanı, ada dövlətlərinə - Böyük Britaniya, İrlandiya, Madaqaskar, arxipelaq dövlətlərinə - Yaponiya, İndoneziya (13000 ada), Filippin (7000 ada) aid edilirlər.

Yer kürəsində birbaşa okeana çıxışı olmayan 42 dövlət mövcuddur. Bunlardan 9-u MDB məkanında (Azərbaycan, Ermənistan, Belarusiya, Qazaxıstan, Qırğızıstan, Moldaviya, Tacikıstan, Özbəkistan, Türkmənistan), 11-i Avropada (Avstriya, Andorra, Vatikan, Macarıstan, Lixtenşteyn, Lüksemburq, Makedoniya, San-Marino, Çexiya, Slovakiya, Isveçrə), 5-i Asiyada (Əfqanıstan, Butan, Laos, Monqolustan, Nepal), 15-i Afrikada - Zambiya, Burkino-Faso, Niger, Ruanda, Svazilend, Uqanda, Mərkəzi Afrika Respublikası, Çad, Botsvano, Burundi, Zimbabve, Lesoto, Mali, Malavi, Efıopiya və 2-si - Boliviya və Paraqvay Amerikada yerləşir.

Dünyanın müasir siyasi xəritəsində mövcud olan dövlətlər hazırda daha çox iqtisadi - sosial inkişaf səviyyəsinə, yəni əhalinin

adambaşına düşən ərzaq və sənaye məhsulları, sakinlərin təhsil səviyyəsi, nəqliyyat xidməti ilə təminat, tibbi xidmətin keyfiyyəti, uzunömürlülük və sairə göstəricilərə görə olan qrupa aid edilir. Bu göstəricilərin səviyyəsindəki fərqlərə görə ölkələri bir çox qruplara bölmək mümkündür. Adətən dünya ölkələrini ıki: İnkişaf Etmiş Ölkələr (İEÖ) və İnkişaf Etməkdə Olan Ölkələr (İEOÖ) qruplarına ayrılırlar. Lakin bəzi İEOÖ- in təsərrüfatının sürətli artımı bu göstəriciyə əsaslanan tipologiyanın şərti olduğunu göstərir.

İnkişaf etmiş ölkələr qrupuna yer kürəsinin quru hissəsinin l\5-ə qədərini tutan və 2004-cü ildə dünya əhalisinin l\6-ni özündə cəmləşdirən 60-a qədər ölkə daxıldir. Buraya ABŞ, Kanada, Qərbi Avropa ölkələri, Yaponiya, Avstraliya İttifaqı, Yeni Zellandiya, CAR, Koreya Respublikası, Sinqapur, Israil və s. ölkələr daxildir. Dünya siyasətində və iqtisadiyyatındakı mövqelərinə görə bu ölkələr iki yerə ayrılırlar. Birincilərə «böyük yeddi»lər - ABŞ, Yaponiya, AFR. Fransa, Böyük Britaniya, Italiya və Kanada aid edilir. Bu ölkələrin liderliyi təkcə onların ərazilərinin böyüklüyü və əhalisinin çoxluğu ilə deyil, eləcə də dünya siyasətində və iqtisadiyyatındakı rolu (iqtisadi potensialı, elm və texnıkanın inkişafındakı nailiyyətləri) ilə də müəyyən edilir.

İkinciləri yüksək sosial-iqtisadi inkişaf səviyyəsinə çatmış kiçik ölkələr-İsveçrə, Avstriya, Belçika, Niderland, Lüksemburq, Norveç, İsveç, Danimarka, İslandiya, İspaniya, Portuqaliya, Yunanıstan, Finlandiya, İrlandiya, Malta, Avstraliya İttffaqı və başqa İEÖ-lər təşkıl edirlər. Bu ölkələr eləcə də dünya ticarətində və siyasətində mühüm rol oynayırlar.

İqtisadi inkişaf durumuna görə, yəni hər nəfərə düşən ümumi daxili məhsulun ABŞ dolları ilə dəyərinə görə dövlətləri qruplaşdırarkən Lüksemburq (50000 dollar), İsveçrə (35,200 dollar), Norveç (35000 dollar), Yaponiya, Danimarka (30700 dollar), Sinqapur (29100 dollar), ABŞ, İsveç (27500 dollar), Almaniya və Avstraliya fərqlənirlər.

Bu ölkələr arasında «yeni sənayeləşmiş» ölkələr də mövcuddur: hansılarının ki, iqtisadiyyatları inkişaf etmiş ölkələr səviyyəsinə çatmışdır. Bu ölkələrə Braziliya, Argentina, Koreya və sairə aiddir.

Adətən keçmiş SSRİ «ölkələri» və Şərqi Avropa ölkələrinin əksəriyyəti İEÖ qrupuna aid edilir. Lakin uzun müddət silahlanma,

Elmi-Texniki Tərəqqinin (ETT) zəif inkişafı bu tip ölkələrin iqtisadi artım sürətini xeyli ləngitmişdir. Nəticədə də təsərrüfatın sahəvi və ərazi strukturunda kəskin uyğunsuzluqlar yaranmış, inflyasiya sürətlənmişdir. Bu böhran geniş xalq kütləsinin həyat səviyyəsinin aşağı düşməsinə və əhali arasında narazılıqlara səbəb olmuşdur. Nəticədə, əhalidə sosializmə olan ümidlər itmiş və XX əsrin 90-cı illərinin sonlarında keçmiş SSRl ərazisində yaranmış dövlətlərin və Şərqi Avropa ölkələrinin hamısının təsərrüfatında ağır vəziyyət formalaşmış, köhnə iqtisadi əlaqələrin pozulması, bazar iqtisadiyyatına keçid prosesinin olduqca ağır keçməsi və sairə baş vermişdir. Odur ki, onlar hal-hazırda İEÖO sırasına aid edilirlər. Yalnız qəti islahatlar və sosial-iqtisadi dəyişikliklərin sürətləndirilməsi dövlətləri keçmiş səviyyələrinə qaytara bilər.

İnkişaf etməkdə olan ölkələrin (İEOÖ) əksəriyyətini əsasən Asiya, Afrika, Latın Amerikası (LA) və Okeaniyada olan keçmiş müstəmləkə ölkələri təşkil edir. Bu qrupa daxil olan ölkələrin sayı 160-a qədərdir. Bunları son vaxtlar İnkişafda Olan Ölkələr (İOÖ) də adlandırırlar. İOÖ bir çox ortaq xüsusiyyətlərə malikdirlər. Bu da onların müstəmləkə keçmişindən irəli gəlir. Bunlara iqtisadi və sosial inkişafda ümumi gerilik, Inkişaf etmiş ölkələrə (İEÖ) olduqca böyük borclar və sairə xasdır. Bütün bunlar zəif inkişaf etmiş ölkələri bir tipoloji qrupda birləşdirməyə imkan verir. Bu qrup arasında İkinci Dünya müharibəsindən (İDM) sonra müstəqillik əldə edənləri -adətən gənc milli dövlətlər adlandırırlar. Müasir dövrdə İOÖ keçid mərhələsindədirlər. Bu ölkələrdə həmçinin adambaşına düşən Ümumi Daxili Məhsulun dəyəri də aşağıdır. Dünyada bu dəyərin ən aşağı səviyyəsi Konqo və Sudanda - 50 dollar müşahidə olunur.

Onların, İOÖ-in əksəriyyəti iqtisadiyyatlarının geriliyini aradan qaldırmaq üçün fəal mübarizə aparırlar.

III. DÜNYANIN TƏBİİ RESURSLARI

Təbii resurslar cəmiyyətin tələbatının ödənilməsi üçün istifadə olunan təbii elementlərdir. Bunlara insan həyatı və məhsuldar qüvvələrin inkişafı üçün təbiətdə istifadə edilən və edilməsi mümkün olan resurslar daxildir. Bu fəaliyyətdə bilavasitə iştirak etməyən, lakin maddi istehsal və qeyri-maddi istehsal

sahələrində zəruri olan komponentlər də vardır ki, o isə təbii şərait anlayışıdır. Təbii resurs və təbii şəraitin məcmuu cəmiyyətin həyatında və fəaliyyətində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan cəmiyyətlə təbiəti bilavasitə əlaqələndirən məhz təbii resurslardır. İnsanların yaşaması, inkişaf etməsi prosesinə təsir edən amillərdən biri təbii resursların mənimsənilməsidir.

XX əsrin ortalarından başlayaraq dünya əhalisinin sürətlə artması və istehsalın inkişafı ilə əiaqədar olaraq təbii resurslardan istifadə olduqca artmışdır.Ona görə də insanla ətraf mühit arasındakı münasibət, cəmiyyətlə təbiətin bir-birinə münasibəti probleminin düzgün həll olunmasına şərait yaradır.

Hal-hazırda dünyada 250 növ faydalı qazıntı və 200 növə qədər qiymətli daşlar mövcuddur. Onların təsərrüfat fəaliyyətinə cəlb olunması uzun tarixi dövr ərzində tədricən formalaşmışdır. Lakin istehsalın sürətli inkişafı dövründə təbii resurslardan istifadə dairəsi daha çox genişlənmiş və hətta bəzi sərvətlərin tükənmək və azalmaq ehtimalı çoxalmışdır.

Təqribən son 50 ildə dünyada bəşəriyyətin tarix boyu istifadə etdiyi qədər xammal işlədilmişdir.

Ayrı-ayrı ölkələrin və ya rayonların təbii resurslarla təmin olunmasının səciyyəsi onların ən adi təsnifatına əsaslanmalıdır. Məlumdur ki, təbii resurslar istifadə olunma xarakterinə görə istifadə olunan və potensial təbii resurslara ayrılır. Potensial resurslar həm istifadə olunmayan, həm də ehtiyatı hələ dəqiqləşməyən və yaxud müəyyən səbəbdən istismar edilməyən sərvətləri özündə birləşdirir. Eləcə də təbii resurslar tükənən, tükənməyən və ya tükənənlər isə bərpa olunan, bərpa olunmayan resurslara ayrılır.

Təbii resurslardan istifadə daim artdığı üçün ayrı-ayrı resurs növlərinin qiymətləndirilməsi vacibdir.

Təbii resursların iqtisadi cəhətdən qiymətləndlirilməsinə hasilatın, emalın, daşınmanın dəyəri, kapital qoyuluşunun xüsusi çəkisi, əmək məhsuldarlığının, səmərəliliyinin səviyyəsi və s. göstəricilər daxildir. Bu qiymətləndirmə meyarları məhsuldar qüvvələrin inkişaf ilə əlaqədar dəyişə bilər. Həmçinin iqtisadi qiymətləndirmə ayrı-ayrı təbii resurslardan istifadənin faydalılığını müəyyən etməyə imkan verir.

Təbii resurslardan səmərəli istifadə bütün dünya ölkələrinin başlıca problemidir. Bu, sərvətlərin tükənməsindən çox ətraf mühitin çirklənməsi ilə əlaqədardır.

Təbii resurslar bir çox sahələrə bölünür. Onların ən başlıcası mineral resurslardır.

Mineral resursların başlıca sahəsi olan faydalı qazıntılar müasir iqtisadiyyatın başlıca istiqamətlərini müəyyən edən, həmçinin, iqlisadiyyatın inkişafını təmin edən əsas təbii bazadır. Faydalı qazıntılar yer qabığında, dəniz dibində, yeraltı sularda, dəniz sularında, göllərdə olan üzvi və qeyri-üzvi təbii mineral törəmələrdir. Faydalı qazıntılar sırasında ən başlıca yer mineral yanacaq ehtiyatlarına məxsusdur.

Mineral yanacaq ehtiyatları içərisində isə başlıca yeri kömür tutur. Dünyada kömür ehtiyatı və istifadəsi vaxtaşırı olaraq 1924-cü ildə yaradılmış və hazırda 80 ölkəni birləşdirən və dünyanın enerji problemi ilə məşğul olan «Dünya Energetika Şurası» sessiyalarında müzakirə edilir.

Dünyada 14,8 trln.t, o cümlədən 9,4 trln. t. daş kömür, 5,4 trln. t qonur kömür ehtiyatı vardır. Dünya kömür ehtiyatının 60%-ni daş kömür, 40%-ni qonur kömür təşkil edir. Kəşf edilmiş ehtiyatlar ümumi ehtiyatın cəmi 8%-nə qədərdir. Kömür ehtiyaünın 90%-dən çoxu Şimal yarımkürəsində cəmlənmişdir.

Kömür ehtiyatlarının 54%-i Asiyanın, 28%-i Şimali Amerikanın, 9%-i Avropanın payına düşür. Dünya ölkələri arasında daha çox kömür ehtiyatına malik olan MDB, ABŞ və ÇXR-dır. Ümumi ehtiyatın 80%-i bu dövlətlərin ərazisindədır. Həm ümumi və həm də kəşf olunmuş ehtiyatın xeyli hissəsi iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin ərazisində yerləşir. İnkişafda olan ölkələrdən Hindistan, Botsvana, Latın Amerikasının bir çox ölkələri də kömür ehtiyatına malikdirlər.

Dünyanın 83 ölkəsində kömür ehtiyatı kəşf edilmişdir. Yer kürəsində kömür ehtiyatının geoloji qanunauyğunluqlara əsasən yerləşmə xüsusiyyətləri bir çox alimlər tərəfindən tədqiq olunmuşdur.

Dünyanın 10 iri kömür hövzələrinə Tunqus, Lena, Kansk-Açinski, Kuzbas, Rur, Appalaç, Peçora, Taymir, Qərb Donbas aid edilir.

Mineral resurslardan neft və qaz yanacaq istehsalında xüsusı yer tutur. Neft - 102 ölkədə və qaz - 85 ölkədə ehtiyatlarının coğrafi yerləşməsi dünya dövlətlərinin həmişə maraq dairəsində olmuşdur. Kömürdən fərqli olaraq maye və qaz yanacağının qiymətində hər il dəyişikliklər baş verir. Bu isə bəzi ölkələrdə yanacaq ehtiyatlarının azalması, bəzilərində isə istehsalın mürəkkəbliyi ilə izah olunur. Məsələn, 80-cı illərin əvvəllərində neft ehtiyatı 95 mlrd. ton idisə, son illərdə bu rəqəm 800 mlrd. ton hesablanmışdır.

Dünyada qaz ehtiyatlarının kəşfi 1980-1990-cı illərdə 35 trln.m3, son illərdə isə 600 trln. m3-ə çatmışdır. Yanacaq ehtiyatları kəşfinin belə göstəriciləri birinci növbədə yeni yataqların mənimsənilməsi, ikincisi isə ümumi geoloji ehtiyatların kəşf olunub artıq istehsal astanasında dayanması ilə izah olunur. Nəticədə məlum olur ki, müasir dünya iqtisadiyyatında neftə və qaza olan tələbat daha üstündür. Geoloq-alimlər belə hesab edirlər ki, neft və qaz yataqları 77 mln. km2 sahəni, o cümlədən 48 mln.km2 qurunu, 29 mln. km2 şefl zonasını əhatə edir.

Çoxsaylı neft - 50 min və qaz yataqları içərisində daha əhəmiyyət kəsb edən nəhəng hövzələrdir. Həmin hövzələrin hər birində neft ehtiyatı 500 mln.tona, hətta 1 mlrd. tona, qaz isə 1 trln.m3-ə bərabərdir. Dünyada 50-yə qədər belə iri hövzə vardır. Onların yarıdan çoxu Yaxın Şərq ölkələrində yerləşir. Dünyada nəhəng qaz hövzələri 20-dən çoxdur ki, onlarda da ümumi ehtiyatın 70%-i cəmlənmişdir. Bu növ hövzələr əsasən MDB ölkələri üçün də xarakterikdir.

Yer kürəsində uran da geniş yayılmışdır. Onun potensial ehtiyatı 10 mln. t hesablanmışdır. Tərkibində 0,1% uran olan yataqların mənimsənilməsi iqtisadi cəhətdən səmərəli hesab olunur. 1 kq uran xammalının istehsalı 80 ABŞ dollarına başa gəlir. Atom enerjisi üzrə beynəlxalq agentliyin məlumatına görə 80-ci illərin sonunda yuxarıda göstərilən qiymətlə uzlaşan uran ehtiyatı 1,6 mln. tona qədərdir. Bu baxımdan zəngin ehtiyata malik birinci yeddi dövlət bunlardır: Avstraliya (460 min t.), CAR (250 min t.), Niger (180 min t.), Braziliya (165 min t.), Kanada (155 min t.), ABŞ (125 min t.) və Namibiya (100 min t.). Hesablamalara əsasən ümumi ehtiyatın 2/3-si Qərbin inkişaf etmiş dövlətlərinin, 1/3-i isə inkişafda olan ölkələrin payına düşür. MDB dövlətləri içərisində uran istehsalı

və ixracına görə Rusiya Federasiyası fərqlənir. Ümumiyyətlə dünyanın urana olan tələbatı tam ödənilir.

Litosfer nəinki mineral yanacaqlarla, eləcə də alternativ enerji mənbəyi ilə, yəni geotermal enerji ilə də zəngindir. Geotermal enerji mənbələri iki tipə bölünür. Birinci tip yeraltı təbii istilik mənbələrini - qaynar suları, buxar və ya buxar-su qarışığını özündə birləşdirir. İsti sular və ya buxar birbaşa istifadə oluna bilən enerji mənbələridir.

İkinci tip - dağ süxurlarının daxili istiliyidir. Həmin süxurlara böyük təzyiq altında su vurularsa onlardan alınan buxardan istilik enerjisi kimi də istifadə etmək olur.

Hər iki variantın istifadəsinin ümumi çatışmamazlığı buradan geotermik enerjinin zəif konsentrasiyasından irəli gəlir. O ərazilərdə ki, belə isti mənbələr yer səthinə yaxın yerləşir və temperaturu 30-40°C-ə bərabər olur, onlardan təsərrüfatda istifadə edilməsi üçün şərait yaranır. Su, buxar, buxarlı su qarışığı temperaturdan asılı olaraq iki qrupa bölünür.

İsti su mənbələrindən istifadə olunması onların temperaturundan əsaslı surətdə asılıdır. Qeyd etmək lazımdır ki, geotermal enerji dörd fərqləndirici xüsusiyyətə malikdir. Birinci, o, tükənməyən sərvətlər qrupuna daxildir. 70-ci illərin hesablamalarına əsasən 10 metr dərinliyə qədər onların ehtiyatı ənənəvi yanacaq ehtiyatlarından 3,5 min dəfə artıqdır. Ona görə də bəzi tədqiqatçılar hətta 5 km dərinlikdə belə geotermal enerji ehtiyatlarının həddən artıq çox olduğunu göstərirlər. İkincisi, geotermal enerji mənbələri çox geniş yayılmışdır. Onun yerləşməsi əsasən Yer kürəsi sahəsinin 1/10-ni əhatə edən aktiv seysmik və vulkanik zona ilə əlaqədardır. Bu zona içərisində daha perspektivli «geotermal rayonlar» ayırmaq mümkündür (Kaliforniya, Kamçatka, Şimali Qafqaz). 90-cı illərin əvvəllərində təkcə keçmiş SSRİ-də 50-yə qədər yeraltı isti su mənbələri aşkar edilmişdir. Üçüncüsü, geotermal enerji böyük vəsait qoyuluşu tələb etmir. Çünki yer təkindən çıxan və ya çıxarılan bu mənbələr artıq təbiət tərəfindən istifadəyə yararlı vəziyyətə gətirilmişdir. Dördüncüsü, geotermal enerji ekoloji cəhətdən tam zərərsiz olmaqla bərabər ətraf mühiti çirkləndirmir.

Torpaq resursları dünya torpaq fondunun təsərrüfat üçün yararlı hissəsidir. İnsanlar bütün yerüstü fəaliyyətlərində belə resurslardan istifadə edirlər. Kənd təsərrüfatı istehsalı üçün əsas

vasitə olmaqla bərabər şəhər, qəsəbə, kənd, sənaye müəssisələri, nəqliyyat, rabitə və sairələrinin yerləşməsi üçün müstəsna əhəmiyyəti vardır.

Dünya torpaq fondunun ümumi sahəsi 149 mln. km2 və ya 14,9 mlrd.hektardır. Antarktida və Qrenlandiya sahələrini nəzərə almasaq bu 135 mln, kv. km və ya 13,5 mlrd. hektara çatır.

Ayrı-ayrı regionlar içərisində torpaq fondunun böyüklüyünə görə fərqlənən ərazilər Afrika, MDB, Xarici Asiya, Şimali və Cənubi Amerikadır.

Torpaq fondunun strukturu bir o qədər də əlverişli deyildir. Torpaq resurslarını mənimsəyən və ondan istifadə edən insanlar planetimizin torpaq fondunun strukturuna təsir etmiş, onu tədricən dəyişmişlər. Bu, ilk növbədə əkilən torpaqların genişlənməsi, otlaq və meşə sahələrinin sıxışdırılması ilə izah olunur. Dünya torpaq fondunun 11%-i becərilir. MDB, Afrika və Şimali Amerikada bu göstərici orta dünya səviyyəsində, Xarici Avropa və Okeaniyada qismən yüksək səviyyə ilə xarakterizə olunur. Onu da qeyd etmək lazımdır ki, ABŞ (190 min ha.), Hindistan (166 min ha.), Rusiya Federasiyası (130 min ha.), ÇXR (93 min ha.), Kanada (46 min ha.). Qazaxıstan (35 min ha.), Ukrayna (min 34 ha) daha çox becərilən torpaq sahələrinə malıkdir.

Təbii çəmənlik və otlaq sahələri Xarici Avropa müstəsna olmaqla bütün dünya regionlarında becərilən torpaqlardan üstünlük təşkil edir və hətta Avstraliyada bu 10 dəfə arıqdır. Həmçinin MDB-də, Xarici Avropada, Şimali Amerikada meşə torpaqları böyük sahələri, Cənub Amerikada isə ərazinin təxminən yarısını tutur. Yaşayış məntəqələri, sənaye və nəqliyyatın altında olan torpaqlar həm dünya üzrə və həm də regionlar üzrə 1-2% arasında tərəddüd edir. Təkcə Xarici Avropa və Şimali Amerikada bu göstərici bir qədər yüksəkdir.

Dünya torpaq fondunun başlıca problemi kənd təsərrüfata yararlı torpaqların deqradasiyasıdır. Torpaqların deqradasiyasına onların eroziyası, çirklənməsi, təbii otlaqların bioloji məhsuldarlığının azalması, şoranlaşma, bataqlaşma, yaşayış məntəqələri, sənaye və nəqliyyat tikintiləri üçün tələbata uyğun olmaması və s. aid edilir. Bəzi hesablamalara görə bəşəriyyət artıq buna görə 2 mlrd. hektar məhsuldar torpaq sahəsini itirmişdir. Təkcə eroziya səbəbindən nəinki geridə qalmış, hətta geniş torpaqlara

malik iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə 607 mln. ha kənd təsərrüfatı torpaqları dövriyyədən çıxmışdır. Şoranlaşma və bataqlaşma səbəbindən isə hər il 1,5 mln. ha torpaqlar yararsız vəziyyətə düşür.

Göstərilən neqativ hallar adambaşına düşən becərilən torpaq sahələrinin kəskin azalmasına səbəb olur.

Ümumiyyətlə, dünya üzrə bu göstərici yüksək olaraq indi də qalmaqdadır. ÇXR və Misirdə bu göstərici (müvafiq olaraq 0,09 və 0,05 hektar) daha kəskin şəkil almışdır.

Bir çox ölkələrdə torpaq fondunun saxlanılması və onun strukturunun yaxşılaşdırılması üçün müəyyən tədbirlər görülür. Regional və qlobal aspektdə bu tədbirlərin həlli BMT ixtisaslaşmış orqanlarında - YUNESKO-nun təhsil, elm və mədəniyyət bölmələrində, eləcə də ərzaq və kənd təsərrüfatı təşkilatlarında araşdırılır.

Dünyanın quru hissəsinin 55%-nin mənimsənilməsinə baxmayaraq torpaq resurslarının çatışmazlığı hər yerdə nəzərə çarpır. Qərbi Avropa, Cənubi və Cənub Şərqi Asiyanın ən çox əhali cəmləşən və əsas istehsal fəaliyyətinin təmərküzləşdiyi köhnə mənimsənilmiş rayonlarında torpaq çatışmamazlığı çox ağır vəziyyət almışdır. Torpaq çatışmamazlığının aradan qaldırılmasının ən münasib yolu yeni ərazilərin mənimsənilməsidir. Lakin bu çox böyük vəsait tələb edır. Ərazisi böyük olan ölkələrdə yeni torpaqlardan istifadə etmək daha münasibdir. Məsələn, Kanada, Avstraliya, Braziliya və s. ölkələrdə olduğu kimi.

Mənimsənilməsi çox da xərc tələb etməyən torpaq ehtiyatları dünyanın quru hissəsinin təxminən 6%-ni, mənimsənilməsi olduqca böyük vəsait tələb edən sahələr isə 25% təşkil edir.

Səhralaşma Yer kürəsində hələ insan cəmiyyətinin formalaşdığı dövrdən əvvəl də mövcud olmuşdur. Hal-hazırda dünyanın 1/3-ni tutan arid qurşaqda 8 mln. km2 sahəni səhralar tutur. Şimali Afrika və Asiyanın səhraları 11 min km məsafədə uzanan vahid enli zonanı təşkil edir. Bu sahənin yarıya qədəri dünyanın böyük səhrası sayılan Saxaranın payına düşür. Həmin zonaya 300 mln. ha sahəni tutan (ərazinin 15%) MDB-nin arid sahəsi də daxildir.

Hazırda da məhsuldar torpaqların səhralara çevrilməsi prosesi davam edir. Səhralaşmanın davam etməsinin başlıca amillərindən biri insan fəaliyyətidir. Bu təsir nəticəsində ərazinin

bioloji potensialı azalır və ya tam məhv olur, nəticədə mövcud ekosistemin tarazlığı pozulur.

Antropogen təsirə birinci növbədə meşələrin qırılması, torpaqlardan düzgün istifadə edilməməsi, heyvandarlıqda otlaqlardan səmərəsiz istifadə olunması və s. daxildir. Demək olar ki, Mərkəzi Avropada 1 ha məhsuldar otlaq 3-5 ev heyvanının yemlənməsinə xidmət etdiyi halda, Səudiyyə Ərəbistanında 50-60 ha səhra otlaqları 1 heyvanın yemlənməsinə xidmət edir.

Alimlər hesablamışlar ki, antropogen təsirdən yaranmış səhralar 80-ci illərin sonunda 9 mln. km2-ə (900 mln. ha) çatmış və planetin torpaq fondunun 6,7%-ni təşkil edir. Bundan başqa, 60 ölkənin ərazisini tutan 30-40 mln. km2 sahə səhralaşma təhlükəsi qarşısındadır. Ona görə də səhralaşma prosesi dünyanın qlobal problemlərindən biri hesab olunur. Xatırlatmaq yerinə düşər ki, dünyanın arid və yarım arid regionlarında 80-ci illərin məlumatına görə 850 mln. nəfər əhali məskunlaşmışdır.

Yer kürəsinin su balansının qiymətləndirilməsi, su təminatı, suya tələbat, su problemlərinin həlli bir çox coğrafi tədqiqatlarda xüsusi yer tutmuşdur.

Hesablamalara görə yer kürəsinin ümumi su ehtiyatı 1386 mln. km^2-dir. Yalnız onun 2,5%-i həyat üçün zəruri olan şirin su ehtiyatıdır. Şirin səth sularının həcmi 35 mln. km^3 həcmində qiymətləndirilir. Lakin onların böyük həcmi Antarktidanın və Qrenlandiyanın buzlaqlarında və qar örtüyündə cəmləşmişdir. Hər nəfərə dünyada 230 mln. kubmetr su düşür. Lakin, ümumi ehtiyatın 96,4%-i Dünya okeanının duzlu sularının payına düşdüyü üçün su problemi həmişə mövcud olub və yenə də mövcuddur. Hazırda dünyanın bir çox ölkələrində, xüsusilə, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə su ilə təmin olunmada kəskin və mühüm sosial-iqtisadi problemlər yaradır. İndi əsrin əvvəlinə nisbətən sənaye və kənd təsərrüfatında daha çox su işlədilir. Suyun tükənməyən sərvətlərə aid edilməsinə baxmayaraq o, dünyada qeyri-bərabər paylanmışdır. Belə ki, dünyanın sənaye cəhətdən inkişaf etmiş regionlarının payına şirin su ehtiyatımn 40%o-dən azı düşür.

Çay axınları ayrı-ayrı regionlar üzrə - Avropa - 3110, Asiya - 13190, Afrika - 4225, Şimali Amerika - 5960, Cənubi Amerika 10380, Avstraliya - 1965 km-Vil təşkil edir, ölkələr üzrə axını

göstəricilərinə görə birinci yeri ərazisində dünyanın ən böyük çayı olan Braziliya tutur (10 min knv).

İkinci yeri (4,7 min km3) MDB dövlətləri tutur. Bunların içərisində Rusiya Federasiyası (27,8 min kmVil), Qazaxıstan (11,8 min km-Vil), Gürcüstan (10,1 min kmVil) və Tacikistan (9,9 min km-Vil) adambaşma düşən su ehtiyatına görə fərqlənirlər.

Ukrayna, Türkmənistan, Moldaviya və Özbəkistanda adambaşına düşən su 1000 km-Vil həcmindən azdır.

XX əsrdə dünyada suya olan tələbat aşağıdakı kimi artmışdır: 1900-cü ildə 580 km\ 1940-cı ildə 820 km-\ 1950-ci ildə 1100 km\ 1960-cı ildə 1900 km\ 1980-ci ildə 4100 km\ 2002-ci üdə isə 4040 km3 təşkil etmişdir.

İstehlakçının suya tələbatının göstəricilərini də müəyyənləşdirmək çox vacib məsələdir. Dünyada suyun əsas istehlakçısı kənd təsərrüfatı olmuş və yenə də qalmaqdadır (70%). İkinci yeri sənaye (20%), üçüncü yeri məişət təsərrüfatı (10%) tutur.

Əsrimizin sonunda surətlə inkişaf edən şəhərlərin, sənayenin və kənd təsərrüfatının su təminatı müəyyən texniki - iqtisadi və ekoloji çətinliklərlə rastlaşır. Bir çox ölkələrin iri şəhərləri üçün «su aclığı» artıq xarakterikdir.

Dünyanınn su problemlərinin həlli üçün bir sıra tədbirlər həyata keçirilir. Axının nizama salınmasından, su anbarlarında şirin su ehtiyatlarının yaradılmasında əlavə, suvarma sistemləri təkmilləşdirilir və kənd təsərrüfatında su itkisinin azalması üçün bir sıra texniki tədbirlər görülür.

Regionların su təminatının yaxşılaşdırılması üçün su anbarlarının tikintisi böyük əhəmiyyət kəsb edir. Su anbarlarının tikilməsi əsasən İkinci Dünya müharibəsindən sonra daha da artmışdır. Dünyada təkcə son 30 ildə su anbarlarının sayı 4 dəfə, ümumi həcmi isə 10 dəfədən çox artmışdır (o cümlədən, Latın Amerikası ölkələri,Asiya və Afrikada 35-90 dəfə). Hal-hazırda planetimizdə 60 mindən çox su anbarı istifadəyə verilmişdir. Onların həcmi 6600 km\ su səthinin sahəsi isə 400 min km2-ə bərabərdir.

Üç kateqoriyadan ibarət müəyyən olunmuş hidroenerji potensialı mövcuddur (nəzəri, texniki və iqtisadi).

Nəzəri potensialı müəyyən etmək üçün bütün yerüstü axım hesablanır - 46 min km-Vil. Nəzərə alsaq ki, qurunun orta hündürlüyü 800 m-dir, onda ümumi hidropotensial 1,0 mlrd. kVt

gücündə və elektrik enerjisinin illik hasilatı 50 trln. kVt/saatdan çox təşkil edər. Son qiymətləndirməyə görə texniki potensial 20 trln. kvt/saatdan artıqdır.

Iqtisadi potensial texniki potensialın iqtisadi cəhətdən səmərəli hesab olunub istifadə edilən hissəsidir. Onun göstəricisi ildə texniki potensialdan təqribən 5 dəfə az olmaqla 10 trln kvt/saatdan az deyildir.

İqtisadi potensialın miqyasına görə dünyanın iri regionları- Xarici Asiya, Latın Amerikası, Afrika, Şimali Amerika, MDB. Xarici Avropa, Avstraliya və Okeaniya göstərilən qaydada sıralanmışlar.

Ayrı - ayrı dövlətlər üzrə iqtisadi hidropotensiala görə XXI əsrin əvyəllərində 6 ölkə fərqlənmişdir. Bunlar ÇXR, MDB, ABŞ, Zair, Kanada və Braziliyadır. Daha sonra buraya Hindistan, Peru, Kolumbiya, İsveç, Norveç, Fransa, İtaliya, İsveçrə və s.dövlətləri əlavə etmək olar. Dövlətlərdə iqtisadi hidropotensialdan müxtəlif səviyyədə istifadə olunur. Məsələn, İsveç, Norveç, Fransada artıq 80%-dən çox, İtaliya və Yaponiyada - 70%, Kanada - 60%, ABŞ-da 50% olduğu halda Hindistanda 12%, ÇXR-8%, Zair, Kolumbiya vo Peruda 1%-dən azdır.

MDB-nin qərb zonasının 1/5-i iqtisadi hidropotensiala malik olmaqla və onun hələlik 48%-indən istifadə edilmişdir.

Şərq və Cənub Şərq zonasında isə bu göstərici müvafiq olaraq 4/5 və 17%-dir.

Bioloji ehtiyatdan hazırda dünyada 500 mindən çox bitki növü, o cümlədən 30 mindən artıq ağac və kol növləri məlumdur. Bitki resurslarının arasında meşələrin böyük əhəmiyyəti vardır. Meşələr bərpa olunan resurslardır. 385 mlrd. oduncaq ehtiyatından minlərlə müxtəlif adda məmulatlar istehsal edilir.

Meşə resurslarının iki başlıca göstərici: meşə sahələrinin ölçüsü və oduncaq mövcuddur. Yalnız son 200 il ərzində qurunun meşə hissəsi iki dəfə azalmışdır.

Dünyanın meşə sahəsi iki qurşaqda: şimal və cənub qurşaqlarında yerləşir. Şimal meşə qurşağının sahəsi 2 mlrd.ha-dır. Bu qurşaqda ən böyük meşə sahələri RF, Kanada, ABŞ ərazilərindədir. Bunlardan 67% iynəyarpaqlı, 33% enliyarpaqlı meşələrdir. Şimal qurşağında yerləşən meşələrdə ağac növləri

nisbətən azlıq təşkil edir. Xarici Avropa meşələrində 250 ağac və kol növü qeydə alınmışdır.

Şimal qurşağı meşələri keçmişdə intensiv istifadəyə məruz qalmışdır. Qərbi Avropada XVIII-XIX, ABŞ-da XX əsrın əvvəllərində gedən bu proses sonralar qismən, hazırda isə tam stabilləşmişdir.

Cənub meşə qurşağının da sahəsi 2 mlrd. ha təşkil edir və onun 97%-i enliyarpaqlı meşələrdir. Sahənin təxminən yarısını yüksək sıxlığa malik meşələr tutur. Cənubda yerləşən tropik meşələr 76 dövlətin ərazisində, o cümlədən Afrikada 23 (ərazisinin 46%-ni), Latın Amerikasında 37 (ərazisinin 36%-ni) və Asiyanın 16 dövlətində (ərazisinin 18%-ni) yerləşmişdir. Tropik meşələrin 2/3-si rütubətli tropik meşələrdir. Tropik meşələrin %-i 10 dövlətin - Braziliya, İndoneziya, Zair, Peru, Kolimbiya, Hindistan, Boliviya, Papua-Yeni Qvineya, Venesuela ərazisindədir. Bu meşələrdə 5000 növə qədər ağac və 20.000-ə qədər bitki növü müəyyənləşdirilmişdir.

Bununla bərabər son on ildə tropik meşələrə böyük ziyan vurulmuşdur. 1960-cı ildə rütubətli tropik meşələr 1,6 mlrd. hektara olduğu halda, 60-cı illərin sonunda 0,9 mlrd. hektara qədər azalmışdır. Cənub meşə qurşağında bu proses üç əsas səbəblə səciyyələnir.

Birincisi, şəhər və nəqliyyat ehtiyatları üçün həmin torpaqların təmizlənib, yararlı vəziyyətə gətirilməsi, ikinci oduncaqların yanacaq kimi işlədilməsidir. BMT-nin məlumatına görə inkişafda olan ölkələrin 70%-i onlardan binaların qızdırılmasında istifadə edirlər. Hətta Afrikada, habelə Nepal, Haiti kimi tropik ölkələrdə bu 90%-ə çatır. 70-ci illərdə dünya bazarında neftin qiymətinin bahalanması ilə əlaqədar Afrika və Cənubi Asiyanın nəinki meşə əhatəsində olan şəhərlərində, hətta kənar şəhərlərdə odundan istifadə artmışdır. 1980-ci ildə inkişafda olan ölkələrin oduncaq çatışmayan regionlarında 1,2 mlrd. əhali yaşayırdısa, 2006-cı ilin sonuna bunun 2,4 mlrd.-a çatması ehtimal olunur.

Üçüncü səbəb - Asiya, Afrika və Latın Amerikasının tropik ölkələrində xammalın kağız-sellüloz sənayesinin inkişafı üçün Yaponiya, Qərbi Avropa və ABŞ-a ixrac edilməsidir.

Müasir dünyada 51,2 mlrd.ha meşə sahəsi vardır. Əvvəllər bu 75 mlrd.ha-dan az olmamışdır.

Dünya okeanının mineral ehtiyatları iki hissədə - onun suyunda və dibində olan resurslara ayrılır.

Dəniz suyunun başlıca resurslarından biri xörək duzudur ki, 0,1 km3 suda 20 mln. t. miqdarındadır. Əgər, dəniz sularının duzunu tamam ayırıb, yer səthinə yaymaq mümkün olsaydı, onda 150 m qalınlıqda duz təbəqəsi əmələ gələrdi.

Dəniz suyunun buxarlanması yolu ilə duz alınmasının çinlilər hələ 4 min ii əvvəl öyrənmişlər. Hazırda da Çində duzun 1/3-i bu üsulla istehsal olunur. Yaponiyada bu sahədə daha çox fərqlənir. 1 ton duz almaq üçün təqribən 120 mln. ton suyu buxarlandırmaq lazımdır.

Mühüm resurslardan biri də maqneziumdur. 1 km3 suda 9,5 mln. ton maqnezium vardır. Bu xammalın dəniz suyundan alınması qurudakı istehsalından ucuz başa gəlir. Onun alınma texnologiyası XX əsrin 40-cı illərində öyrənilmiş və hazırda dünyada maqnezium istehsalının 40%-i bu üsulla əldə olunur.

Bundan başqa, hər km3 dəniz suyunun tərkibində 0,9 mln. t. kükürd, 31 min ton brom, 10 ton alüminium, 3 t miss, 3 t. uran, 0,3 t. gümüş və 0,04 t qızıl vardır. Hazırda brom xammalının əsas istehsal mənbəyi dəniz suyu sayılır. Dünya okeanında qızılın miqdan 10 mln. t hesablanmışdır ki, bu da quruda olan ehtiyadan dəfələrdə artıqdır.

Həmçinin Dünya okeanının resurslarını, onun şelf zonasında və dərinliklərində yerləşən resurslara ayırmaq olur.

Şelf zonasının ən başlıca resursu neft və qaz ehtiyatlarıdır. Dəniz faydalı qazıntı hasilatından gələn gəlirin 90%-i neft və qazın payına düşür. Şelf zonasında neft ehtiyatları 120-150 mlrd. ton hesablanmışdır.

Şelf zonasının faydalı qazıntılarını üç tipə bölmək olar: Birinci - dəmir filizi, miss, nikel, qalay, civə və s. Bu yataqlar sahildən uzanan təbii və yaxud süni adaların köməyi əsasında maili istehsal üsulu ilə mənimsənilir. Bəzən belə yataqlar 10-20 km sahildən aralı 2 km dəniz dibi süxurları altma qədər davam edir. Böyük Britaniya. Kanada, Yaponiya və Çində belə sualtı şaxtalar vardır.

İkinci - dəniz sahillərində səpələnmiş sərvətlər. Məsələn, İndoneziya, Tailand və Malayziyanın şelf zonasında qalay,

Avtsraliya sahillərində sirkonu, Hindistan sahillərində ilmeniti, Namibiya sahillərində almazı, ABŞ sahillərində sirkonu, qızılı, Baltik dənizi sahillərində kəhrəba və s.-ni göstərə bilərik.

Üçüncü - şelf zonasının daha dərin yerlərində, materik ətəklərində cəmlənmiş fosforit yataqlarıdır. Bu, ən çox Sakit Okeanda aşkar edilmişdir. Məlum olmuşdur ki, şelf sahəsinin fosforit ehtiyatının 1/100 hissəsi bir neçə on illər fosfor kübrəsinə olan tələbatı ödəyə bilər. Lakin hələlik heç bir ölkədə onun sənaye istehsalı təşkil olunmamışdır.

Dünya ökeanının sərvətlərinə, eləcə də batmış gəmiləri aid edirlər. Okeanoloqlar Dünya okeanında 1 milyona qədər gəminin batdığını hesablamışlar. Belə tapıntılar daha çox Atlantik okeanı hövzəsində aşkar edilmişdir. Bu, əsasən uzun tarixi dövr ərzində Avropaya böyük miqdarda qızıl, gümüş, və s. sərvətlər aparan gəmilərin tufan və qasırğalar zamanı məhv olması, batması ilə əlaqədardır. Son zamanlar müasir texnikanın köməyi ilə okeanın dibində onlarla gəmilər tapılmış və külli miqdar xəzinə əldə edilmişdir.

1985-ci ildə amerikalılar 1912-ci ildə batmış «Titanik» gəmisini tapmış və onun seyflərində milyard dollarlıq xəzinənin, o cümlədən 26 min gümüş podnos və boşqabın olduğunu müəyyən etmişlər. 4 km dərinlikdən hələlik onları qaldırmağa nail olmamışlar.

Digər tərəfdən II Dünya müharibəsi illərində Murmanskdan İngiltərəyə gedən «Edinburq» krayserində tərəfdaşların hərbi sursatlarının Ödənilməsi məqsədilə 465 qızıl külçə aparılmışdı. Krayser Barents dənizində alman sualtı gəmilərinin hücumuna məruz qalmış və zədələnmişdir. Qızılın başqa əllərə keçməməsi üçün gəminin batırılması əmri verilmişdir. 40 ildən sonra 260 m dərinlikdə gəmi tapılmış və qızıllar çıxarılmışdır.

İqlim resurslarına tükənməyən günəş və külək enerjisi, habelə rütubət daxildir. Elmi ədəbiyyatlarda günəş enerjisi müxtəlif kəmiyyət göstəricilərinə görə qiymətləndirilir. Daha doğrusu, o müxtəlif göstəricilərlə ölçülür - (coulla 1,5 x 1022c, kilokalori ilə - I34xl019 kkal və kilovatla - 178,6xl012 kvt). Qeyd etmək lazımdır ki, il ərzində Yer səthinə 1,56 x 1018 kvt saat günəş enerjisi daxil olur. Lakin həmin enerjinin atmosferdə əks olunduğu üçün yarıdan çoxu yer səthinə çatmır. Nəticədə quru və okean səthinə 1014 kvt və ya 10-s mlrd.kvt saat radiasiya gəlib çatır (quru və okean səthinin

lkm2-nə 0,16 kvt). Əlbəttə, bu enerjinin çox cüzi hissəsi praktik cəhətdən istifadə oluna bilər. Bunun əsas səbəblərindən biri günəş enerjisinın zəif sıxlığa malik olmasıdır. Sübut olunmuşdur ki, yüksək enliklərdə günəş enerjisinin sıxlığı 80-130 Vt/m2, mülayim qurşaqda 130-210, "tropik səhralarda 210-250 Vt/m2-dir. Bu o deməkdir ki, inkişafda olan ölkələrdə günəş enerjisindən istifadə üçün əsaslı şərait vardır. MDB ölkələrində belə şəraitdə təqribən 130 mln. nəfər, o cümlədən 60 mln. kənd əhalisi yaşayır.

Küləyin enerji potensialı da müxtəlif cür qiymətləndirilir. 1989-cu ildə MİRƏK-in 14-cü sessiyasında bu potensial 300 mlrd. kvt/saat hesablanmışdır. Lakin bu ehtiyatdan texniki istifadəyə cəmi 1,5% yararlıdır. Başlıca maneə külək enerjisinin dağınıqlığı və mütəmadi olmamasıdır. Lakin Yer kürəsində elə ərazilər vardır ki, küləklər güclü və uzunmüddətli əsir. Belə rayonlardan Şimal, Baltik və Adriatik dənizlərinin sahillərini misal göstərmək olar.

İqlim resursları kənd təsərrüfatının inkişafına xidmət edən və havanı, rütubəti, işığı, istini, əlverişli şəraiti özündə birləşdirən aqroiqlim resurslarını da əhatə edir.

Atmosferin əsas resurslarından biri də tükənməyən sərvətlər qrupuna aid edilən havadır. Məlumdur ki, XIX əsrin ortalarına qədər atmosferdə olan oksigen nisbətən stabil idi. Sonralar müxtəhf üzvi yanacaqların yanması və texnoloji proseslərin genişlənməsi iiə əlaqədar olaraq o tədricən azalmağa başlamışdır. Hal-hazırda təkcə yanacağın yandırılması ildə 10 mlrd. t sərbəst oksigenin işlədilməsinə səbəb olur. Minik avtomobillərinin hərəkəti üçün hər 100 km-ə bir adamın ildə mənimsəyəcəyi qədər oksigen sərf olunur. BMT ekspetlərinin hesablamalarına görə dövrümüzdə yer kürəsində 40-50 mlrd. nəfər əhaliyə çata biləcək qədər oksigen işlədilir.

Ümumiyyətlə, sərbəst oksigen ehtiyatının azalması bəşəriyyət üçün ciddi təhlükə yaratmayacaqdır.

İstirahət, müalicə, turizm məqsədləri üçün istifadə olunan rekreasiya resursları nəinki mənşələrinə görə, eləcə də istifadə olunma xüsusiyyətlərinə görə tanınırlar. Onlar eyni zamanda coğrafı obyektlər sayılırlar. Göründüyü kimi rekreasiya resursları estetik və müalicə-sağlamlıq xüsusiyyətlərinə də malikdir. Buraya təbii və antropogen obyektlər daxil olduğundan onları təbii və antropogen-rekreasiya resurslarına ayırırlar. Təbii-rekreasiya resurslarına okean, dəniz, göl, habelə çay sahiləri, çimərliklər, dağlar, meşə örtüyü,

mineral bulaqlar, palçıq vulkanları və müalicəvi palçıq mənbələri aiddir. Belə ərazilərdə istirahət edənlər və turistlər əfsanəvi təbii formalarla, təbii landşaftla, yaxşı istirahətlə, idmanla məşğul olmaqlda, zəngin bitki örtüyü ilə, ov etməklə, balıq tutmaqla və s.-ilə rastlaşırlar.

Təbii-rekreasiya ərazilərinə iri şəhərlər ətrafında salınmış yaşıllıq zonaları, qoruqlar, milli parklar aid edilir.

Antropogen-rekreasiya resurslarına Misir ehramları, Qədim Çin Səddi, Yunanıstanın, Romanın qədim abidələri, Moskva Kremli, Sankt-Peterburqdakı Peterqof, Afma Akropolu, Hindistanın Aqre şəhərində yerləşən Tac-Mahal məqbərəsi və s. misal ola bilər.

Deyilənlər əsasında İtaliya, Fransa, İspaniya, İsveçrə, Bolqarıstan, Hindistan, Meksika, Misir ildə daha çox turistərin gəlməsinə şərait yaradırlar.

IV. DÜNYA ƏHALİSİ

Əhali məhsuldar qüvvələrin aparıcı elementi olmaqla ən qiymətli kapital hesab edilir. O, istehsalla istehlak arasında körpü rolunu oynayır. İstehsal etdiyi məhsulun ən böyük istehlakçısı əhalidir.

Əhalinin dinamikası onun təbii artımını, doğum və ölüm göstəricilərinin fərqini müəyyən edir. Cəmiyyətin uzunmüddətli tarixi inkişafı əhalinin çox zəif artımı ilə xarakterizə olunur ki, bu da məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə izah olunur.

2005-ci ilin yanvann 1-ə olan məlumata əsasən dünya əhalisinin sayı 6,4 milyard nəfərə çatmışdır. Bəşər cəmiyyətinin yarandığı gündən bu vaxta qədər isə 80 mlrd. nəfərdən artıq insan dünyaya gəlmişdir.

İlk dövrlər məhsuldar qüvvələr inkişaf etdikcə əhalinin artım tempi də yüksəlməyə başlayır. Əkinçiliyin və heyvandarlığın inkişafı ilə əlaqədar təbiətin insana təsiri azalmağa başlamışdır. Bu da əhalinin dinamikasında həlledici rol oynayır. O vaxtları, yüksək doğum (40-45% hər 1000 nəfər əhaliyə), yüksək ölüm (30-35%) və zəif təbii artım kimi səciyyələndirmək olar. Əhalinin artımının əsas tənzimləyicisi yüksək ölüm göstəricisi idi. Anadan olan uşaqların çoxu tələf olurdu (50-60%).

Hazırda dünya əhalisinin təxminən yansının yaşı 25-dən az. 1 milyarddan çoxu isə 15-24 yaşındadır.

Dünyanın əhalisi eramızın ilk 15 əsrində cəmi 2 dəfə, XX əsr ərzində isə 25 dəfə artmışdır. Tarixin bəzi dövrlərində əhalinin sayı nəinki artmış, hətta çoxsaylı müharibə, yürüş və epidemiyalar nəticəsində azalmışdır.

Demoqraflar əhalinin artım templərinin dəyişməsini 4 mərhələyə bölürlər. Birinci mərhələ üçün yüksək doğum və nisbətən aşağı ölüm səciyyəvidir. Təbii artım bu mərhələdə kifayət qədər yüksəkdir. Bəzən bu mərhələni demoqrafik inqilab adlandırırlar.

İkinci mərhələ çoxuşaqlı ailələrdən azuşaqlı ailələrə keçid kimi qiymətləndirilir. Burada ölüm göstəriciləri də azalır. Ancaq, doğumun sürətlə azalması təbii artımın aşağı düşməsinə gətirib çıxardı.

Üçüncü mərhələ üçün ölümün yüksəlməsi və doğum tempinin azalması səciyyəvidir. Bu mərhələdə təbii artımın zəifləməsi nəzərə çarpır. Bəzi yaş qrupları (nəsillər) arasında fərq azalır.

Dördüncü mərhələdə doğum və ölüm göstəriciləri bir-birinə yaxınlaşır, əhalinin yüksək artım tempi aşağı düşür. Bu dövrü dünyanın ayrı-ayrı regionları müxtəlif cür keçmişlər.

Yuxarıda göstərilən demoqrafik keçid ilk dəfə XVIII əsrdə Avropada baş vermişdir. Bu vaxt əhalinin təbii artımı hər min nəfər əhaliyə 20-30 nəfər (2-3%) təşkil etmişdir. Bu, əsil demoqrafik inqilab idi. Bu proses 100-150 il davam etmişdir. Sonra isə Avropada ikinci mərhələ başlamışdır. Hazırkı dövrdə Avropa ölkələrinin çoxu demoqrafik keçidin 3-cü mərhələsində yaşayırlar. Hətta bəzi ölkələrdə əhalini sadə təbii artımı da təmin olunmur.

Bir çox inkişaf etmiş ölkələr isə demoqrafik keçidin 2-ci mərhələsini yaşayırlar. İnkişafda olan ölkələrin çoxunda vəziyyət demoqrafik keçidin birinci mərhələsinə uyğun gəlir. Məhz bu demoqrafik partlayış adlandırılır. Bu ölkələrdə hər qadına orta hesabla 3-4 uşaq düşür. Afrika ölkələrində bu göstərici 5-ə çatır. Türkdilli ölkələr arsında bu göstəricinin ən yüksəyi Türkmənistana məxsusdur. Azərbaycan Respublikası bu sahədə (2,0) bütün türk dövlətlərindən geridə qalır. Beləliklə, Türkiyə - 2,5, Qazaxıstan - 2,3, Özbəkistan - 3,4, Qırğızıstan - 3,2 göstərici ilə tanınırlar.

Son dövrlər bir çox Şərqi Avropa və MDB dövlətlərində əhalinin artım tempi aşağı düşmüş və hətta əhali sayının azalması müşahidə olunmaqdadır.

Hazırda dünyanın əhalisi ildə 89 milyon nəfər artır (1,33%). İldə 145 mln. nəfər doğulanlar qeydə ahnmışdır. Beləliklə, 2050-ci ildə dünya əhalisinin sayı 7,3-10,7 milyard nəfərə çatacaqdır. Əhalinin sayının bu həddə çatmasmın müsbət cəhətlərindən biri odur ki, onun sosial vəziyyəti yaxşılaşmışdır. Səhiyyə, təhsil və xidmət sahələrindən dünya əhalisi daha çox istifadə edir.

Digər müsbət cəhət - bir və beş yaşına çatmamış uşaqlar arasında ölüm halları azalmışdır, əhali daha çox yaşayır - uzun ömürlü olur və daha çox əhali ahıl yaşma çatır. Ailədə uşaqların sayı son otuz ildə 2 dəfə azalmışdır (6-dan 3-ə), bu da onların sosial təminatını yüksəltməyə imkan verir.

Mənfi hala gəldikdə isə, qeyd etmək lazımdır ki, ən kasıb ölkələrdə əhalinin artımı ən yüksəkdir. Afrika, Asiya və Latın Amerikasının 62 ölkəsində əhalinin 40%-i 15 yaşına kimi uşaq və yeniyetmələrdir. Son dövrlər əhalinin artım tempi 2,04%-dən 1,33%-ə enmiş və gələcəkdə daha da aşağı enəcəkdir. 1985-1990-cı illərdə əhalinin illik artımı ən yüksək - 100 milyon nəfər olmuşdur.

Ümumiyyətlə, əhalinin artımına bir çox amillər təsir edir. Bunlardan ən vacibləri - məhsuldar qüvvələrin inkişaf səviyyəsi, əhalinin etnik, dini və regional mənsubiyyəti, qadınların ictimai əməyə cəlb olunması və cəmiyyətdə rolu, dövlətin doğumu stimullaşdırması və ya əksinə, müharibələr, epidemiyalar nəticəsində uşaq ölümü səviyyəsinin dəyişməsi və sairədir. Bundan başqa, əhalinin artımına qadın və kişilərin sayının disproporsiyaları, cins və yaş tərkibi kimi amillər də təsir edir.

Əhalinin artımına, eyni zamanda sağlamlığına ekoloji vəzıyyəti və müxtəlif epidemiyalar da təsir edir. BMT-nin məlumatlarına görə hər il atmosferin çirklənməsindən 21,7 mln. nəfər ölür.

Demoqrafik vəziyyətə mənfi təsir göstərən amillərdən biri də QİÇS-dir (qazanılmış immunodefisit sindromu - AİDS, SPİD). 1998-ci ildə QİÇS virusu ilə yoluxmuş əhalinin sayı 34 mln. nəfər olmuşdur. Son illər bu xəstəliyə yoluxanların sayı 5,8 mln. nəfər, ölənlərin sayı isə 2,5 mln. nəfər təşkil etmişdir ki, bunların da 80%-i Afrika qitəsinin payına düşür.

Müəyyən edilmişdir ki, insan bioloji varlıq kimi 100-140 il yaşaya bilər. Ancaq faktiki olaraq, müxtəlif sosial-iqtisadi və ekoloji amillərin təsiri nəticəsində insan bu yaşdan çox az yaşayır. Doğrudur son dövrlər insan ömrünün uzanması meyli hiss olunmaqdadır. 1950-ci ildə insanların dünyada orta ömrü 50 il idisə, 2004-cü ildə 66,7 yaşa qədər yüksəlmişdir.

Dünya əhalisinin orta ömür müddəti artsa da, regionlar üzrə fərq çox böyükdür. Əsas fərq isə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrlə zəif inkişaf etmiş ölkələr arasındadır - 28 yaş.

Qadın və kişilərin gözlənilən orta ömür müddəti də az maraq doğurmur. Nepaldan başqa butün ölkələrdə qadınlar kişilərdən çox yaşayırlar.

Əhalinin son dövrlərdə sürətli artımına təsir göstərən orta ölüm göstəriciləri bütün ölkələrdə aşağı düşmüşdür. Bu meyl XIX-XX əsrlərin keçidində hiss olunmaqla başlamışdı, lakin İkinci Dünya müharibəsindən sonra özünü daha çox göstərmişdir. Bu proses regionlarda müasir səhiyyə yardımının yaxşılaşması, içməli su ilə təchizatın və digər amillərin nəticəsində baş verir. 1950-ci ildən bəri ölüm səviyyəsi hər 1000 nəfər əhaliyə qarşı 20-dən 10-a enmişdir.

Beləliklə, yaxın onilliklərdə əhalinin «qocalması» prosesi davam edəcəkdir. Bu meyl yüksək inkişaf etmiş ölkələrdə özünü daha yaxşı göstərir. Belə ki, bu ölkələrdə əhalinin median yaşı hazırda 38-dirsə bu göstərici 1950-ci ildə 29 idi. Proqnozlara görə 2050-ci ildə bu 46 yaş olacaqdır.

Zəif inkişaf etmiş ölkələrdə bu proses təzə başlanır və orta yaş səviyyəsi, o vaxtla müqayisədə demək olar ki, dəyişməyib (19-24 yaş). Afrika, dünya əhalisinin ən sürətlə artan regionu kimi, həm də ən «gənc» materikidir. Burada əhalinin orta yaşı 18-dir. Proqnozlara görə zəif inkişaf etmiş ölkələrdə median yaş 2050-ci ildə 37-yə çatacaq. Əgər 1950-ci ildə dünya əhalisinin orta ömrü 50 yaş idisə, 2050-ci ildə bu 76-ya, median yaş isə 38-40-a çatmalıdır.

Demoqrafik siyasət dövlətin demoqrafik proseslərə məqsədyönlü təsiridir. Əgər demoqrafik vəziyyət və meyllər xoşagələndirsə, belə təsir prosesin saxlanmasına, lakin demoqrafik vəziyyət və meyllər məqsədəuyğun deyilsə, prosesin dəyişilməsinə təsir edir. Bu geniş sosial-iqtisadi siyasətin bir hissəsidir.

Fransa ilk ölkə idi ki, orada doğum XVIII əsrdə təhlükəli dərəcədə aşağı düşmüşdü. Ona görə də artıq XIX əsrdə doğumun stimullaşdırılması istiqamətində cəhdlər göstərilməyə başlanılmışdır.

Baxmayaraq ki, əhalisinin sayı azalan ölkələr çox azdır, ancaq dünyanın 61 ölkəsində orta hesabla hər ailədə uşaqların sayı 2,1-dən azdır. Bəzi mənbələrdə bu göstərici hər sağlam qadına düşən uşağın sayı kimi göstərilir.

Əhali artımı zəif olan ölkələrdə demoqrafik siyasət doğumun artmasına, artım yüksək olan ölkələrdə isə doğumun azalmasına yönəlmişdir.

Avropa Birliyi ölkələrində demoqrafik siyasətin tədbirlər sistemi oxşar olsa da, bəzi müavinət və güzəştlərin miqyasında fərqlər mövcuddur. Məsələn, hər anadan olan uşağa görə birdəfəlik dövlət yardımı AFR-də 100 marka, böyük Britaniyada 25 funt-sterlinq, Fransada 2600 frank, İspaniyada 300 peset təşkil edir. Müavinətlər birinci anadan olan uşağa görə AFR-də ayda 50 marka, ikinci uşağa ayda 100 marka, üçüncü və hər sonrakı uşağa ayda 200 marka, Fransada ikinci uşağa ayda 500 frank, altıncı uşağa ayda 3000 frank təşkil edir. Bu ödənişlər uşaq 16 yaşına çatanadək verilir.

Şərqi, Cənubi və Cənubi-Şərqi Asiya ölkələri içərisində ən radikal demoqrafik siyasət Yaponiyaya və Çinə məxsusdur. Hindistan və digər Asiya ölkələri də ikiuşaqlı ailələrə istiqamət götürsələr də, belə demoqrafik siyasətin həyata keçirilməsi yolunda problemlər və çətinliklər çoxdur.

Dünya fonunda ərəb-müsəlman regionunun xüsusi yeri var. Milli və dini ənənələr demoqrafik siyasətin fəallığını heçə endirir. Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Liviya və digərləri doğumun istənilən cür məhdudlaşdırmasının əleyhinə çıxırlar.

Qeyd etmək lazımdır ki, bu və ya digər müsəlman ölkələrindəki demoqrafik vəziyyət həmin regiondakı ümumi vəziyyətlə
təxminən eynidir. Yəni məhsuldar qüvvələrin inkişaf səviyyəsi və regional amillər əhali artımına dini amillərə nisbətən daha cox təsir göstərir.

Ən gərgin demoqrafik vəziyyət Saxaradan cənubdakı Afrika ölkələrindədir. Bu ölkələrin çoxunda demək olar ki, heç bir demoqrafik siyasət həyata keçirilmir. Əgər Asiya ölkələrində doğum

son 50 ildə hər qadına 5,9-dan 2,6 -ya enibsə, Afrikanm bu hissəsində 6,5-dən 5,5-ə qədərdir.

Demoqrafik siyasətin vacib tədbirlərindən biri -ailəqurma yaş həddinin tənzimlənməsidir. Qədim Roma qanunçuluğuna görə nigah yaşının minimum həddi qızlar üçün 12, oğlanlar üçün isə 14 olmuşdur. İndi də bu həddbəzi katolik ölkələrində öz qüvvəsində qalır, xüsusilə də Cənubi Avropa və Latın Amerikası ölkələrində. Ümumiyyətlə, ölkələrin çoxunda qanun nigaha 16-18 yaşından icazə verir.

Son onilliklərdə ailəqurmanın minimum yaş həddi artmağa doğru meyl edir. Bu da demoqrafik siyasətlə bağlıdır. Məsələn, Çin Xalq Respublikasında kişilər üçün bu yaş həddi 22, qadınlar üçün 20, Hindistanda uyğun olaraq 21 və 18 yaş qanunla müəyyən edilir. Ancaq son bir neçə ildə nigah yenidən «cavanlaşmağa» başlamışdır.

Dolayı olaraq əhali artımına boşanma siyasəti də təsir edir. Bu cəhətdən ən liberal qanunlar ABŞ, Böyük Britaniya, Niderland, Skandinaviya ölkələrindədir. Ər və arvadın nigah münasibətlərini saxlamamaq istəyi kifayət qədər əsaslanmış hesab olunur. AFR, Belçika, Finlandiya qanunları da bu cəhətdən çox ciddi deyildir. Bu sahədə İtaliya, Fransa, Yunanıstan qanunları daha ciddidir. İrlandiya, İspaniya və Portuqaliyada isə boşanma bu günə qədər, demək olar ki, mümkün deyildir.

1994-cü ildə Qahirədə keçirilən əhali məskunlaşması və inkişafı üzrə Beynəlxalq Konfransda 179 ölkə əhali ilə inkişaf arasındakı qarşılıqlı əlaqə məsələsində konsensusa gəldilər. Konfransda həm də 2015-ci il üçün məqsəd və vəzifələr müəyyən edilmişdir.

Konfransdan sonrakı beşillik təcrübə göstərdi ki, qoyulmuş məqsəd və vəzifələrin yerinə yetirilməsi nəinki real və mümkündür, həm də insanların vəziyyəti ilə balanslaşdırılmış inkişaf labüddür. Konfransda müəyyən oldu ki, ölkələr demoqrafik siyasəti və inkişaf sahəsindəki istiqamətləri qəbul edirlər. İnkişaf sahəsindəki siyasətə aşağıdakı amillər-yaşayışın keyfiyyəti, şəxsi seçim, insan hüquqları və s. amillər daxil edilmişdir. Aparılan iqtisadi siyasətdə yoxsulluq, ərzaq təhlükəsizliyi, təbii ehtiyatların istifadəsi və ətraf mühitin mühafizəsi, əhalinin sayı və artım templəri kimi aspektlər nəzərə alınır. Konfrans qadın və kişilərin huquqlarının bərabərliyinin bütün sahələrdə təmin olunmasını tövsiyə etmişdir. Məqsəd qoyulmuşdur

ki, kiçik yaşlı uşaqlar arasında ölüm göstəriciləri azaldılsın, çünki 5 yaşına çatmamış uşaqlar arasında bu göstərici o dövrdə çox yüksək idi.

Konfransdan keçən 5 il ərzində əksər ölkələr öz demoqrafik siyasətlərini konfransın məqsədləri ilə uyğunlaşdırmışlar.

Dünyada kişilərin sayı qadınların sayından 30 mln. nəfər artıqdır. Ancaq bu ümumi faktın arxasında çox böyük fərqlər gizlənir.

Birincisi, müxtəlif yaş qruplarında əhalinin cins tərkibi müxtəlifdir (hər 1000 nəfər qadına düşən-kişilərin sayı):

Qeyd etmək lazımdır ki, bütün dünya və regionlarda uşaq yaşında oğlanların sayı qızlardan çoxdur. Çünki hər il doğulan uşaqların içərisində oğlanlar qızlardan 4 mln. çox olur. Yuxarı yaş qruplarında isə qadınların sayı kişilərə nisbətən üstünlük təşkil edir.

İkincisi, fərqlər müxtəlif regionlarda da özünü göstərir. Ikinci Dünya müharibəsinin təsiri hələ də bütün Avropa (İrlandiya və İslandiyadan başqa) ölkələrində hiss olunur. Asiya ölkələrində kişilər qadınlardan çoxdur (Yaponiya, İsrail, Yəmən, İndoneziyadan başqa).

Afrika ölkələri üçün əhalinin cins tərkibində kəskin fərqlər yoxdur. Bu ölkələrin əksərində qadın və kişilərin sayı təxminən eynidir. Materikin şimal hissəsində kişilərin sayı qadınlardan bir az artıqdır, şərqdə isə qadınlar üstünlük təşkil edirlər.

Şimali Amerikada əhalinin əksəriyyətini immiqrantlar təşkil etdiyi üçün uzun müddət kişilər əhalinin tərkibində üstünlük təşkil etmişlər.

Əhalinin yaş tərkibi «artdıqca» əvvəlcə ABŞ-da, 70-ci illərdə isə Kanadada qadınların sayı kişilərin sayını keçmişdir. Bu, əsasən yuxarı yaş həddinə aiddir. Bu proseslər Avstraliya üçün də xarakterikdir.

Latın Amerikası ölkələrində Afrikadakı kimi qadın və kişilərin sayı təxminən eynidir. Ayrı-ayrı region və ölkələr arasında da əhalinin cins tərkibindəki fərqlər bir o qədər də böyük deyildir. Demək olar ki, bu ölkələrin hamısında qadınlar cüzi üstünlük təşkil edirlər.

Son dövrlər BMT və digər beynəlxalq təşkilatlar əhalinin təhsil səviyyəsinə, tibbi təminatına, ekoloji təhlükəsizliyinə xüsusi diqqət yetirirlər. Təsadüfi deyil ki, həm insan potensialının inkişaf

indeksinin, həm də əhalinin yoxsulluq indeksinin hesablanmasında təhsilin səviyyəsi nəzərə alınır. Təhsilin səviyyəsinin yüksəldilməsini həm də elmi-texniki tərəqqi tələb edir.

YUNESKO-nun məlumatlarına görə əvvəllər 15 yaşından yuxarı əhali içərisində savadsızların payı 44% təşkil edirdisə, 2002-ci ildə bu göstərici iki dəfə aşağı düşmüş və 22% olmuşdur.

Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə cəmi 1,3 % əhali savadsızdır. Savadsızlığın bəzi ölkələrdə bu dərəcədə aşağı olması son illərdə, yeni «funksional savadsızlıq» adlanan terminin meydana gəlməsinə səbəb olmuşdur. Funksional savadsızlıq dedikdə insanın cəmiyyətdə siyasi dəyişikliklərə, iqtisadiyyatda isə struktur, texniki və texnoloji yeniliklərə uyğunlaşmamaq qabiliyyəti (qabiliyyətsizliyi) başa düşülür. Bir çox ölkələrdə funksional savadsızlıq işsizliyin əsas səbəbi hesab edilərək qalmaqdadır.

İnkişafda olan ölkələrdə təhsilin səviyyəsi aşağıdır. Savadsız əhalinin 96%-i bu ölkələrin payına düşür. Eyni zamanda burada da özünəməxsus regionallıq nəzərə çarpır.

Afrikanın Saxaradan cənub hissəsində, Ərəb ölkələrində və Cənubi Asiyada az qala əhalinin yarısı savadsızdır. Savadsızlıq göstəricisinə görə bir sıra ölkələr: Niger (85,7%), Burkina Faso (79,8%), Erıtreya (75%), Benin (66%), Qambiya (67%:), Seneqal (65%), Butan (55%), Anqola (55%) kimi ölkələr daha çox fərqlənir.

Qeyd olunanlarla yanaşı əhalisinin milli tərkibinə görə dövlətləri 5 tipə bölmək mümkündür:

- Birmillətli;
- Əsasən birmillətli, ancaq az və çox dərəcədə milli azlıqlar olmaqla;
- İkimillətli;
- Etnik cəhətdən yaxın, mürəkkəb milli tərkibli;
- Çoxmillətli, etnik cəhətdən mürəkkəb tərkibli.

Birinci tip dövlətlər dünyada az deyil. Avropa ölkələrinin yarısı bu dövlətlərə aiddir. Asiyada belə dövlətlər azdır: Yaponiya, Koreya, Banqladeş, Səudiyyə Ərəbistanı və s. bunlara misaldır.

İkinci tip ölkələr sayca çoxdur. Avropada bunlara Böyük Britaniya, Fransa, İspaniya, Finlandiya daxildir. Asiyada Çin, Monqolustan, Vyetnam, Kamboca, Tailand, Şri-Lanka, traq, Suriya; Afrikada Əlcəzair, Mərakeş, Zimbabve, Botsvana; Şimali Amerikada ABŞ belə dövlətlərdəndir.

Üçüncü tip dövlətlərə az rast gəlinir. Ancaq belə dövlətlərdən Belçikam, Kanadanı qeyd etmək olar.

Dördüncü tip ölkələrə İran, Əfqanıstan, Pakistan, Malayziya, Laos və s. aid edilir.

Beşinci tip ölkələrə Hindistanı, Rusiyanı, İsveçrəni, İndoneziyanı, Filippini və s. aid etmək olar.

Etnik proseslərin içərisində konsolidasiya və assimilyasiya xüsusi yer tutur. Bəzən etnik inkişaf mürəkkəb xarakter daşıyır və bu proseslər eyni vaxtda baş verir.

Konsolidasiya - bir nsçə qohum etnosun (tayfa, xalq) böyük bir xalqa çevrilməsinə, ya da sosial-iqtisadi, mədəni inkişaf nəticəsində formalaşmış xalqın daha da mütəşəkkilləşməsinə deyilir. Birinci halda bu etnoslar arası, ikinci halda isə etnosdaxili konsolidasiya adlanır.

Assimilyasiyannın mahiyyəti ondan ibarətdir ki, bir xalqın müəyyən qrupları və ya bütöv xalq, başqa bir xalqın içərisində yaşayaraq, uzunmüddətli təmas nəticəsində onun mədəniyyətini götürür, dilini öz dili sayır və özünün əvvəlki etnik birliyə mənsubiyyətini qəbul etmir. Milli özünüdərkin dəyişməsi bu prosesin sonu sayılır. Assimilyasiya əsasən inkişaf etmiş ölkələr üçün səciyyəvidir. Assimilyasiya təbii və məcburi ola bilər.

Hazırda, etnoqraflar hesab edirlər ki, dünyada 3-4 min müxtəlif xalq vardır. Buraya sayı bir neçə yüz nəfər olan tayfalar da aid edilir.

Məlumdur ki, son dövrlər mürəkkəb milli tərkibli ölkələrin bəzilərində milli münaqişə ocaqları yaranmışdır. Bu münaqişələrin tarixi kökləri müxtəlifdir. Təkcə keçmiş SSRİ ərazisində etnik-ərazi iddialı 70 potensial kərkinlik ocağı müəyyən olunmuşdur. Belə ərazilər dünyada çoxdur.

Elmi-texniki inqilabın, mədəniyyət və təhsilin inkişafına baxmayaraq dinin cəmiyyətdə və məişətdə rolu çox böyükdür. Bu, demək olar ki, bütün ölkələrə aiddir.

Xristianlıq ən geniş yayılmış din sayılır (1 mlrd. nəfər). Xristianlıq 3 hissəyə bölünür: katoliklər - 580 mln. nəfər, protestantlar - 350 mln. nəfər, pravoslavlar -100 mln. nəfər əhaliyə malikdir. Katoliklərin əksəriyyəti Amerikada (yarıdan çoxu), Avropada (180 mln. nəfər), Asiyada və Afrikada (50 mln. nəfər) yaşayır. Protestantların əksəri Avropa (yarısı) və Amerikada (2/5

hissəsi) cəmlənmişdir. Asiyada 65 mln., Afrikada 35 mln., Avstraliya və Okeaniyada 14 mln. protestant yaşayır. Pravoslavlar Şərqi Avropa, MDB və Yunanıstanda cəmlənmişlər.

Müsəlmanların ümumi sayı da 1,2 mlrd. nəfərə yaxındır. Əsasən Şimali Afrika və Asiyada yaşayırlar. İnduistlərin sayı 520 mln. nəfər, buddist və lamaisüər isə 400 mln. nəfər təşkil edir.

Bunlardan başqa, digər dinlər də mövcuddur ki, onlara sitayiş (itaət) edənlərin sayı müxtəlifdir. Belə ki, konfusianlıq – 180 mln, sintoizm - 90 mln, daosizm - 30 mln., zərdüştçülük 250 min, iudaizm - 10 mln. nəfəri özündə birləşdirir.

1960-cı ildə dünyanın əhalisi 3 mlrd. olanda onun 70% zəif inkişaf etmiş regionlarda məskunlaşmışdı. 2002-ci ilin sonunda həmin regionların əhalisi 4,8 mlrd. (80%) nəfərə çatmışdır. 2025-ci ilə qədər proqnozlaşdırılan əhali artımının 98%-i bu regionların payma düşəcəkdir.

Əhalinin qeyri-bərabər məskunlaşmasını çoxlu misallarla şərh etmək olar. Məsələn, Şərq yarımkürəsində əhalinin 80%-i, Şimal yarımkürəsində 90%-i, Asiyada 67%-i yaşayır.

Əhalinin məskunlaşması problemləri ilə əhalinin sıxlığı məsələsi biri-birilə bağlıdır. Bu göstərici dünyanın hansı ərazilərində əhalinin daha çox cəmlənməsi haqqında təsəvvür yaradır. Ənənəvi olaraq əhalinin sıxlığı C = N/S formulası ilə hesablanılır. Burada: C - əhalinin sıxlığı, N - əhalinin sayı, S -həmin ərazinin sahəsi, kv.km-lə hesab olunur.

Əhalinin sıxlığına görə ölkələri 3 qrupa bölmək olar:

1. Əhali sıxlığı yüksək olan ölkələr (hər kv.km-də 200 nəfərdən artıqdır): Monako (22 min nəfər), Sinqapur (6100 nəfər), İndoneziya (2000 nəfər), Belçika, Niderland, Böyük Britaniya, İsrail, Livan, Banqladeş, Şri-Lanka, Koreya Respublikası, Ruanda, Salvador və s. seçilirlər. Bu, şəhərlər arasında 14 mln. nəfər əhalisi olan Parisdə aiddir ki, orada da hər kv.km-də 26 min nəfər insan yaşayır.
2. Əhali sıxlığı dünya əhalisinin orta sıxlığına (hər 1 km2 -da 45 nəfər) yaxın olan ölkələr.
3. Əhalinin sıxlığı aşağı olan (hər km^2 bir nəfər və ya az) Monqolustan, Liviya, Mavritaniya, Namibiya, Qviana, Avstraliya və s. belə ölkələrdəndir.

Dünyada əhalinin sıxlığı müxtəlif olan ölkələr çoxdur. Buna Misir, Çin, Avstraliya, Kanada, Braziliya, Türkmənistan, Tacikistan və s. misal ola bilər.

Xarici miqrasiya kütləvi hal aldığı ölkələrdə. bu əhalinin ümumi sayına da təsir göstərir. Əhalinin bu cür artımına bəzən «mexaniki artım» da deyirlər. ABŞ, Kanada və Avstraliyanın tarixində elə dövrlər olub ki, «mexaniki» artım təbii artımdan yüksək olub. Bu ölkələrə miqrasiya indi də çox yüksəkdir, bu proses hazırda ölkənin təbii artımına müəyyən «kömək» kimi səciyyələndirilir. İsraildə isə hazırda immiqrantlar əhalinin ümumi artımının 2/3-ni təşkil edirlər. İrlandiyada isə proses əks istiqamətdə getmiş və bir neçə dəfə təkrar olunmuşdur.

Xarici miqrasiyalar öz xarakter, səbəb, ərazi əhatəsi, müddəti və s.-yə görə bir-birindən fərqlənirlər. Xarakteri haqqında danışarkən, könüllü və məcburi miqrasiyaları ayırmaq mümkündür. Məcburi miqrasiyaya misal olaraq Afrikadan Amerikaya qul-zəncilərin aparılmasını, İkinci Dünya müharibəsində milyonlarla əhalinin Almaniyaya köçürülməsini göstərmək olar.

Daha yaxın ərazi və tariximizdən məcburi miqrasiyaya türklərin Gürcüstandan, tatarların Krımdan, çeçen-inquşların Çeçen-İnquş Respublikasından, azərbaycanlıların Ermənistandan köçürülməsini (departasiyasını) misal göstərmək olar.

Xarici miqrasiyanın səbəbində isə əhalinin sosial, iqtisadi vəziyyəti aparıcı olaraq qalır. Hazırda işçi qüvvəsinin miqrasiyası geniş vüsət almışdır. Əhali inkişafda olan ölkələrdən Avropa, Şimali Amerika (ABŞ, Kanada), ÇAR, İran körfəzi ölkələrinə mühacirət edirlər.

İqtisadi səbəblərdən başqa, xarici miqrasiyanın siyasi səbəbləri də mövcuddur. Bu ölkələrdəki siyasi rejimlə bağlıdır. 70-80-ci illərdə keçmiş SSRİ-ni də siyasi emiqrantlar tərk etmişdilər. Bu cür proseslər hazırda Koreya Xalq Demokratik Respublikasında, Kubada müşahidə olunur.

Ərazi əhatəsinə görə kontinentlərarası və kontinentdaxili miqrasiyaları ayırmaq olar. Ölkədaxili miqrasiyaya daxili miqrasiya deyilir. Müddətinə görə daimi, mövsümi və müvəqqəti (qısamüddətli) miqrasiyalar da ayrılır.

Son dövrlərin ən qorxulu miqrasiyalarından biri qaçqınlıqdır. Bu proses çox böyük əraziləri əhatə edir. Beynəlxalq təşkilatların səyinə

baxmayaraq bu proses ləngimir, bu problemlər hələ də həll olunmamış qalır. Bu, əsasən müxtəlif cür separatçılığın, regional konfliktlərin, aclığın, epidemiyaların və siyasi mübarizələrin nəticələridir.

Yuqoslaviya və SSRİ-nin dağılmasından sonra bu ərazidə 2,5 mln. nəfər qaçqın ordusu yaranmışdır ki, bunun 1 mln. nəfərdən çoxu azərbaycanlardan ibarətdir.

Urbanizasiya müasir dövrün ən ciddi proseslərindən biridir. Urbanizasiya əraziləri qurunun -1%-ni, əhalinin 47%-ni özündə cəmləşdirir.

Urbanizasiya kənd əhalisinə nisbətən şəhər əhalisinin payının artmasıdır. Bəzən bunu sadəcə şəhərləşmə və ya kənd əhalisinin şəhərlərə köçməsi kimi izah edirlər. Bu proses kənd əhalisinin şəhərlərə miqrasiyası, şəhər əhalisinin özünün təbii artımı, kənd yaşayış məntəqələrinin şəhər tipli qəsəbələrə və şəhərlərə çevrilməsi formasında baş verir.

Şəhərlərin statusu qanunvericiliklə müəyyən olunur. Dünya ölkələrində şəhər əhalisinin minimum sayı bir-birindən kəskin fərqlənir.

Dünya miqyasında əhalisinin sayı 10 mln.-dan artıq olan şəhərlər inkişafda olan ölkələrdə sürətlə artır. 1960-cı ildə təkcə Nyu-York və Tokioda əhalinin sayı 10 milyondan çox idi. Son illərdə meqa şəhərlərin sayı 20-yə çatmışdır.

Urbanizasiya səviyyəsi regionlar üzrə bir-birindən kəskin fərqlənir. Urbanizasiya səviyyəsinin artımı inkişafda olan ölkələrdə və zəif inkişaf etmiş ölkələrdə daha yüksəkdir.

Dünya ölkələri içərisində Sinqapur - 100%, Belçika-97% urbanizasiyaya məruz qalmışdır.

Urbanizasiya nəticəsində şəhər əhalisi va təsərrüfatı eninə, uzununa və dərininə daha da genişlənərək şəhərətrafi sahələr hesabına nəhəng aqlomerasiyalar formalaşmışdır. Belə aqlomerasiyalar dünyada 325-dən çoxdur. Onun 144-ü Asiyada, 62-si Avropada, 42-si Latın Amerikasında, 39-u Şimali Amerikada, 33-ü Afrikada, 5-i Avstraliya və Okeaniyadadır. Ölkələrə gəldikdə isə Çində - 49, ABŞ-da 45, Hindistanda - 36, Braziliyada - 16, Rusiyada - 11 aqlomerasiya formalaşmışdır.

Biri-birinə yaxın aqlomerasiyalar da get-gedə böyüyərək birləşib daha nəhəng əhali məskunlaşması forması olan meqalo-

polislərin mövcudlaşmasım zəruriləşdirmişlər. Hal-hazırda ABŞ-da - 5, Yaponiyada - 1, Böyük-Britaniyada - 1, AFR-də 1 formalaşmamış meqalopolis vardır. Yaxın gələcəkdə isə biri-birinə yaxın yerləşən meqalopolislər inkişaf nəticəsində birləşərək daha iri əhali məskunqlaşması forması - oykumenopolisləri yaradacaqlar.

Dünyada 400-ə qədər «milyoner» şəhər mövcuddur. Bunlardan 23 şəhər super şəhər adlandırılmışdır ki, onların hər birisinin ayrı-ayrılıqda 10 mln-dan artıq əhalisi vardır. Belə şəhərlərin 8-i İEÖ-lərdə, qalanları isə İOÖ-də yerləşir. Bunlara əhalisinin sayı 26,4 mln. nəfərdən artıq olan Tokio başçılıq etməklə, 23-cü yer -10,0 mln. nəfər əhalisi olan Seula məxsusdur.

Onu da göstərmək yerinə düşərdi ki, siyasi xəritədə Öz əkslərini tapmış dövlətlərdən 11-nin hər birisinin 100 mln-dan artıq əhalisi vardır. Buraya Çin, Hindistan, ABŞ, İndoneziya, Braziliya, Pakistan, RF, Banqladeş, Nigeriya, Yaponiya, Meksika daxildir.

V. DUNYA TƏSƏRRÜFATI

Dünya təsərrüfatı bütün ölkələrin təsərrüfatlarının məcmusu olaraq bir-biri ilə sıx əlaqədə olan sahələrdən ibarətdir. Dünya təsərrüfatı müxtəlif ictimai-iqtisadi və siyasi amillərin təsiri altında formalaşmış və çox mürəkkəb quruluşa malikdir. O, ən sadə alətlər istehsalından başlayaraq mürəkkəb elektron texnikasından robot istehsalına qədər bir yol keçmişdir. Dünya təsərrüfatının inkişafında elmi-texniki inqilab həlledici rol oynamışdır.

Dünya təsərrüfatının əsas sahəsi sənayedir. Dünya sənayesinin quruluşu çox mürəkkəb olub, onun formalaşması uzun tarixi bir mərhələni əhatə edir. Hazırda dünya sənayesi özünün yüksək inkişaf səviyyəsinə çatmışdır.

Sənaye maddi istehsalın aparıcı sahəsidir. Dünya sənayesində 500 mln. nəfərdən artıq işçi qüvvəsi çalışır. Bunun 64 mln. nəfəri Çində, 23 mln. nəfəri ABŞ-da, 16,5 mln. nəfəri Rusiyada cəmləşmişdir.

Sənayedə yanacaq - energetika, metallurgiya, maşınqayırma və metal emalı, kimya və neft-kimya, tikinti, meşə, xalq istehlakı malları istehsalı kompleksləri dünya təsərrüfatının tanınan sahələri sayılır. Deyilənlərin hamısı böyük əhəmiyyət kəsb etsələr də energetikanın özünəməxsusluğu vardır.

V.l. Energetika

Energetikaya yanacaq növlərinin, elektrik enerjisi mənbələrinin axtarışı, mənimsənilməsi, onların hasilatı, emalı və nəql edilməsi daxildir. Əsas enerji daşıyıcılarına neft, qaz, kömür, su və atom enerjisi xammalları aiddir. Digərlərinin - oduncağın, torfun, şistin, kənd təsərrüfatı istehsah tullantılarının, günəşin, küləyin, suların qabarmasının və yeraltı isti suların enerjisinin bir o qədər də rolu yoxdur. Lakin bunların bəziləri ayrı-ayrı ölkələrdə (AFR-də, Danimarkada, ABŞ-da, Hindistanda, Yaponiyada) xeyli əhəmiyyət kəsb edirlər. Məsələn, Finlandiyada odunun, İslandiyada geotermal suların əhəmiyyəti ölçüyə gəlməz dərəcədədir.

Dünyanın inkişaf etməkdə olan ölkələri xammal bazası rayonu, inkişaf etmiş ölkələri isə xammal istehlakı rayonu kimi tanınırlar.

Kömür, qaz, uran filizinin istehsalında inkişaf etmiş ölkələr, neft istehsalında isə inkişaf etməkdə olan ölkələr seçilirlər.

Neft, qaz, kömür, elektroenergetika çoğrafi yerləşmələrinin, ehtiyatlarının, kəmiyyət-keyfiyyət göstəricilərinin müxtəlifliyi ilə xarakterizə olunurlar. Onların yerləşməsinə, mənimsənilməsinə, ehtiyatlarının müxtəlifliyinə təbii şərait, sosial-iqtisadi faktorlar çox təsir edir.

Dünyanın bəzi ölkələri yerli energetika ehtiyatları ilə özlərinin istehlakını tam ödəyə bilirlər. Bunlara Rusiya Federasiyası və Çini misal göstərə bilərik. Onlar, hətta istehsal etdikləri yanacaq və elektrik enerjisindən ixrac da edirlər.

Yanacaq-energetikanın aparıcı sahələrindən biri neft sahəsidir. Xalq təsərrüfatının elə bir sahəsi yoxdur ki, ondan istifadə olunmasın. Çünki onun emalından 2500-dən artıq yeni-yeni qiymətli məhsullar alınır. Hələ II Dünya müharibəsi ərəfəsində ABŞ və Venesuela dünyada neft istehsalının çox hissəsini verirdilər. Get-gedə bu vəziyyət xeyli dəyişərək yeni- yeni neft istehsal edən rayonlar əmələ gəlmişdir. Deyilənlərə Yaxın və Orta Şərq ölkələrini, Afrikanı, dünyanın bir çox şelf zonalarını misal göstərə bilərik.

Neft istehsalında dəniz şelf zonaları xüsusi yer tutur. 200-500 km sahildən dənizə doğru 800 m dərinlikdə Şimal dənizində, 128 metr dərinlikdə Xəzərdə, Ərəbistan və Kaliforniyanm sahil

zonalarında, İran və Meksika körfəzində, Afrikamn qərb və Cənubi Şərqi Asiya sahillərində neft hasil olunmaqdadır. Dünyada 1950-ci ildə 520 mln. ton hasil olunan neftin kəmiyyət göstəricisi müasir dövrdə 3,8 mlrd. tonu keçmişdir. Bu vaxta qədər dünyada 121 mlrd. ton neft hasil olunduğu bildirilir. Yuxarıda adları çəkilən dövlətlərin ərazisində neft ehtiyatının çoxu dənizlərin şelf zonalarında yerləşir. Hətta, Böyük Britaniyada ehtiyatın 100%-i Şimal dənizinin şelf zonasında yerləşdiyi məlum edilmişdir.

Müəyyən edilmişdir ki, dünyada neftli-qazlı sahə - 77 mln. kv. km-dən az deyildir. Neftin ehtiyatı isə - 550 mlrd. tondur. Bunun 66%-i Yaxın və Orta Şərq ölkələrinin payına düşür. Təkcə Səudiyyə Ərəbistanında dünya ehtiyatının - 26%-nin mövcudluğu bəllidir. Ümumiyyətlə, neft ehtiyatının çoxu inkişaf etməkdə olan ölkələr ərazisindədir. Neft ixrac edən OPEK ölkələri - 12-ölkə dünyada istehsal olunan neftin 40%-ə qədərini, inkişaf etmiş ölkələr - (İEÖ) isə 45%-ni verməkdədir. Ən çox neft ixrac edən ölkələr - Səudiyyə Ərəbistanı, İran, İraq, BƏƏ, Küveyt və digər ölkələrdir. İllik neft istehsalının - 1,5 mlrd. tona qədəri dünya bazarına çıxarılır. Dünyanın 102-dən çox ölkəsində neft hasil olunmaqdadır. Məsələn, Səudiyyə Ərəbistanı - 450 mln. ton, ABŞ - 404 mln.ton, Venesuela - 333 mln.ton, RF - 324 mln. ton, İran - 185 mln.ton, Meksika 172 mln.ton, Çin - 162 mln.ton, Norveç - 162 mln.ton, Kanada - 126 mln.ton, BƏƏ - 120 mln.ton illik neft hasilatına malikdirlər. Neft valyuta gətirən başlıca mənbə hesab edilərək ən qiymətli strateji məhsul sayılır. Məsələn, RF son illərdə istehsal etdiyi neftin - 137 mln. tonunu ixrac edərək xeyli miqdarda valyuta əldə etmişdir.

Cədvəl 1

Ən çox neft ehtiyatına və istehsalına malik olan ölkələr

№	Olkələr	Ehtiyat mlrd.t.	İstehsalı
1	Səudiyyə Ərəbistanı	46,0	450
2	Iraq	17,0	55
3	Birləşmiş Ərəb Əmirlikləri	16,2	120
4	Küveyt	16,0	105
5	Iran	15,0	185
6	Qazaxıstan	14	50,0
7	Venesuela	10,3	333

8	Azərbaycan	8,7	15,4
9	Meksika	8,5	178
10	Rusiya Federasiyası	27,0	324
11	Çin	20	162
12	ABŞ	4,4	404
13	Liviya	3,8	70
14	Nigeriya	3,0	115
15	Norveç	1,6	162
16	Əlcəzair	1,5	73
17	Indoneziya	1,2	85
18	Kanada	1,5	126
19	Misir	0,7	45
20	Hindistan	0,6	35
21	Böyük Britaniya	-	140,0
22	Braziliya	-	140,0

Neft və neft məhsullarının su nəqliyyatı ilə, kəmərlərlə daşınmasına üstünlük verilir. Dünyada 700 min km-dən artıq uzunluğu olan neft kəmərləri çəkilmişdir. Bunlar nəinki quruda, habelə su hövzələrində - Xəzərdə, Şimal, Aralıq dənizlərində həyata keçirilmişdir.

Yanacağın aparıcı sahələrindən biri də qaz sənayesidir. Qaz dünyada yanacağın ən perspektivli növü hesab edilir. Başlıca kimyəvi xammal hesab edilməklə yanaşı onun emalından neftdən fərqli olaraq 1000-dən artıq çoxqiymətli yeni məhsul almaq mümkündür. YE balansında qazın xüsusi çəkisi 23% təşkil edir. Onun geoloji ehtiyatı 400 trln m3, müəyyən edilmiş ehtiyatı isə 145 trln. m3-dən çoxdur. RF-də 33%, Yaxın və Orta Şərq ölkələrində 30%, Şimali Amerika ölkələrində 5%, Qərbi Avropada 4% qaz ehtiyatı müəyyən edilmişdir. Ölkələrdən İran, Səudiyyə Ərəbistanı, ABŞ, Əlcəzair, BƏƏ, Niderland, Norveç, Kanada daha çox qaz ehtiyatına malikdirlər.

İldən-ilə qazın istehsalı artmaqdadır (2,4 trln.m3). İllik qaz hasilatının 40%-i MDB-də (təkcə RF-24%), 25%-i ABŞ-da əldə olunur. 2002-ci ildə Yaxın və Orta Şərq ölkələri - 33%, RF - 595 mlrd. kubmetr, ABŞ - 570 mlrd.kubmetr, Kanada - 186 mlrd.

kubmetr, Böyük Britaniya - 106 mlrd.kubmetr, İndoneziya - 70 mlrd. kubmetr, Niderland - 83 mlrd. kubmetr, Səudiyyə Ərəbistanı 45 mlrd. kubmetr, İran - 61 mlrd. kubmetr, Özbəkistan - 57 mlrd. kubmetr, Əlcəzair - 84,5 mlrd. kubmetr, Norveç - 58 mlrd. m3 qaz hasil etmişlər. RF - 37%, Kanada - 47%, Niderland - 49%, Əlcəzair 62%, Norveç -87% qaz ixrac edirlər.

Hasil olunmuş qazı istehlakçıya çatdırmaq üçün Kanadadan ABŞ-a, Nıderlandın Qroninqen yatağından Almaniyaya, İsveçrəyə, İtaliyaya, Şimal dənizinin Norveç sektorundan - Almaniyaya, Belçikaya, Fransaya, Əlcəzairdən 1982-ci ildən fəaliyyətdə olan Əlcəzair - Tunis - Aralıq dənizi - İtaliya - digər Avropa ölkələrinə 2,5 min km uzunluğunda istiqamətlənən qaz kəmərləri və RF-dən Şərqi və Qərbi Avropa ölkələrinə (Almaniyaya, Avstriyaya, İtaliyaya, Fransaya, Yunanıstana, Finlandiyaya) uzanan «Soyuz» qaz kəməri fəaliyyət göstərir.

Maye qazı daşımaq üçün gərək olan xüsusi tankerlərlə İndoneziya, Əlcəzair, Maiayziya, Bruney xarici ölkələrə - o cümlədən Yaponiyaya yanacaq ixrac edirlər.

Cədvəl 2

Yanacaq-energetika balansı

№	Enerji mənbəyi	1970(%)	1990(%)	2002(%)	2010(%)
1	Kömür	30,6	28,0	26,3	24,0
2	Neft	48,3	39,4	38,8	37,0
3	Təbii qaz	18,7	22,8	24,2	25,0
4	SES və AES	2,5	9,5	9,7	11,0
5	Alternativ mənbələr	0,01	0,03	1,0	3,0

6	Dünya üzrə	100	100	100	100

Cədvəl 3

Ən çox qaz ehtiyatına və hasilatına malik olan ölkələr

№	Olkələr	Ehtiyatı trln.m3	2002-ci il ha-silatı mlrd. m3	Tutduğu yer (hasilata görə)
1	Rusiya	48,0	595	1
2	Iran	23,0	61	8
3	Azərbaycan	12-15	6,0	19
4	Qətər	8,5	20,0	18
5	BƏƏ	5,0	40	12
6	ABŞ	5,4	570	2
7	Nigeriya	4,0	5,0	-
8	Əlcəzair	4,0	84,5	5
9	Venesuela	4,0	30	16
10	Iraq	1 1		-
11	Kanada	2,6	186	3
12	İndoneziya	2,5	70	7
13	Meksika	2,1	35	15
14	Malayziya	2,3	40	13
15	Çin	13	30	17
16	Niderland	1,8	83	6

17	Norveç	2,3	58	10
18	Küveyt	1,5	-	-
19	Fransa	-	4	20
20	Böyük Britaniya	0,8	106	4
21	Türkmənistan	3,0	35,2	14
22	OPEK	63,0	290	-
23	Özbəkistan	-	57,0	11

Əlbəttə, yanacaq sənayesini kömürsüz düşünmək çətindir. Sənaye cəhətdən inkişaf etmiş ölkələrin yanacaq-energetika kompleksində ən qədim sahələrdən biri hesab edilir. O, həm yanacaq növü kimi, həm də kimya, metallurgiya sənayelərində tətbiq olunan bir varlıqdır (çuqunun, poladın əridilməsində istifadə olunur). Onun ehtiyatı 15 trln.t.-dan çoxdur. Çində, ABŞ-da, CAR-da, Böyük Britaniyada, Avstriyada, Polşada, Kanadada, Hindistanda, Indoneziyada, Botsvanada, Zimbabvedə, Mozambikdə, Kolumbiyada, Venesuelada yanacaq sənayesinin aparıcı sahəsi kimi inkişaf etmişdir. Hasilatda bu sahədə seçilən dövlətlər isə Çin, ABŞ, Hindistandır. Bunların payına ümumi istehsalın 60%-dən çoxu düşür. Daha doğrusu, Çin 1,5 mlrd.t., ABŞ - 1,1 mlrd.t., Hindistan 300 mln.t., Almaniya - 250 mln.t., RF - 258 mln.t., Polşa - 200 mln.t. CAR - 220 mln.t. kömür istehsal edirlər. Dünyada illik kömür istehsalı isə 6,2 mlrd.tondan az deyildir. Başlıca yataqları: Tunqus, Lena, Kanski-Açinski, Kuznetsk, Peçora (hamısı RF-də), Rur (Almaniya), Appalaç və Qərb (ABŞ), Donbas (Ukraina) və sairdir. Kömür Kanadada, Mozambikdə, Venesuelada, Hindistanda, Avstraliyada iqtisadi cəhətdən çox sərfəli olan açıq üsulla çıxarılır.

Göründüyü kimi neft, qaz, kömür dünya energetikasının onurğa sütununu təşkil edirlər.

Yanacaq sənayesinin 2-ci sahəsi müxtəlif məhsul növlərinin alınması ilə nəticələnən emaldır. Ən böyük və çox neft emalı zavodları - NEZ-lər inkişaf etmiş ölkələrdə yaradılmışdır (70%).

Dünyada mövcud NEZ-lərin - 21,3%-i ABŞ-da, - 21,6%-i Avropada, 16,6% -i MDB-də, 6,2%-i Yaponiyada fəaliyyət göstərir. Meksika, Tokio, İran körfəzləri sahilləri, Nyu-York rayonu, Rotterdam, Cənubi İtaliya, Volqaboyu bu sahədə ən çox fərqlənən bölgələrdir. Dünyada benzin, mazut, ağ neft, dizel yanacağı, sürtgü yağları və s.əldə edilməsinə kömək edən NEZ-lər 1000-dən artıq saya malikdir. Onlar ildə - 3,6 mlrd. tondan çox neft emal edirlər. Hər il ABŞ - 780 mln. ton, Qərbi Avropa - 720 mln. ton, Yaponiya-260 mln.ton, Latın Amerikası - 300 mln.ton, Yaxın və Orta Şərq ölkələri - 250 mln.ton, Afrika ölkələri - 150 mln.ton neft emalına malikdirlər. Göründüyü kimi, NEZ-lərin coğrafı yerləşməsi çox qeyri-bərabərdir.

Cədvəl 14

Kömür istehsalında fərqlənən dövlətlər

№	Olkələr	Hasilat		Tutduğu yer
		1990 (mln.t.)	2002 (mln.t.)	
1	Çin	1080,0	1400=1,5	1
2	ABŞ	863,0	1,100	2
3	MDB ölkələri (SSRI)	474,0	420	
4	Hindistan	225,0	343,0	3
5	CAR	176,0	222	6
6	Avstraliya	159,0	270,0	5
7	Polşa	148,0	202,0	7
8	Böyük Britaniya	95,0	63,0	10
9	AFR	77,0	250	5
10	KXDR	68	50,0	11
11	Ukrayna	120	70,0	9
12	Qazaxıstan	100	75,0	8
13	Rusiya Federasiyası	280	258,0	4
14	Ispaniya	23,0	30	12

Belə ki, əgər Şimali Amerika və Qərbi Avropa dünyada illik neft haslatının - 31%-ni verirlərsə, emal məhsullarının - 43%-ni verə bilən NEZ-lərə malikdirlər. Eləcə də Asiya ölkələri neft istehsalının - 38%-ni verdiyi halda 29%-neft emal edən zavodları mövcuddur. Şərqi Avropa ölkələrində isə vəziyyət başqadır. Daha doğrusu, onlar dünya neftinin - 10%-ni verməklə - 17% NEZ-lərlə tammrlar. Regionlarda avtomobilləşmo, kimyalaşma, xammal hasilatınm artması, eləcə də texniki mənimsəmənin, texnologiyanın get-gedə daha da təkmilləşməsi prosesi göstərilən kəmiyyət göstəricilərinin dəyişməsinə səbəb olmuşdur. Son illər dünyada emaldan 800 mln. tondan artıq benzin, - 700 mln. tondan az olmayan mazut,- 900 mln. tona qədər dizel yanacağı əldə edilmişdir.

Müasir NEZ-ri nəqliyyat qovşaqları yaranan yerlərdə, magistral nəqliyyatlar boyu uzunu da yerləşdirirlər. Başlıca dəniz yolları boyu uzununda da NEZ-ri yaradılır. Məsələn, Karib dənizinin Aruba, Kyurasau adalarında; Sinqapurun şəhərlərində, Ədəndə; Baham adalarımn Friport şəharində; Virgin adalarının Santa-Krus şəhərində də tikilmişdir. Eləcə də İEÖ-də də NEZ çox yaradılmaqdadır. Məsələn, Yaponiyada ildə 250 mln. ton neft emal edə bilən zavodlar fəaliyyət göstərir.

İstehsalın, məişətin, digər istehlak sahələrinin yüksək dərəcədə elektrikləşdirilməsinin səviyyəsi hər hansı ölkədə elektroenergetikanın inkişafından xəbər verir. Ekoloji cəhətdən daha təmiz olan elektroenergetika cəmiyyətin formalaşması və daha da möhkəmləndirilməsində, texnikanın, texnologiyanın müasir tələblərə uyğun təkmilləşdirilməsində, ictimai istehsalın bütün sahələrinin təşkil olunmasında, ölkə iqtisadiyyatının texniki cəhətdən silahlanmasında, ölkənin bütün regionlarında məhsuldar qüvvələrin bərabər inkişafında ölkənin tam elektrikləşdirilməsinin əhəmiyyəti ölçüyə gəlməzdir. Onun spesifik xüsusiyyətlərindən biri başqa təsərrüfat sahələrində olduğu kimi hasil olunmuş məhsulun gələcəkdə istifadəsi üçün yığılıb anbarlarda saxlanıla bilməməsidir. Belə ki, hasil olunmuş məhsul birbaşa istehlaka istiqamətləndirilərək sərf olunur. İldən-ilə elektroenergetikanın kəmiyyət-keyfiyyət göstəriciləri artır. Belə ki, elektrik enerjisinin illik hasilatı 1990-cı ildə- 12,0 trln. kvt. saat, 1997-ci ildə - 14,0 trln.kvt.saat və nəhayət, 2003-cü ildə - 16,4 trln.kvt.saatı keçmişdir. Bunun 70%-i Şimal yarımkürəsi ölkələrində, 30%-i isə Cənub yarımkürəsi ölkələrində

hasil olunmuşdur. Beynəlxalq energetika agentliyinin proqramına əsasən 2010-cu ildə elektrik enerjisi hasilatı 20 trln.kvt.saatdan çox olacaqdır. Eyni zamanda, yanacaq-enerji balansında neftin xüsusi çəkisi indiki 39%-dən 37%-ə enəcək, təbii qazın xüsusi çəkisi isə yüksələrək - 25% təşkil edəcəkdir. Atom enerjisinin xüsusi çəkisi az da olsa azalmaqla hidroenerji və digər bərpa olunan enerji mənbələrinin xüsusi çəkisi l%-dən çox artacaqdır.

Dünyada mövcud elektrik stansiyalarının gücü - 2,6 mlrd. kvt-dan çoxdur. Hasil olunmuş elektrik enerjisinin 80%-ni inkişaf etmiş ölkələr, 20%-ni inkişaf etməkdə olan ölkələr verir. İldə dünyada adambaşma - 2,7 min kvt.saat elektrik enerjisi hasil olunursa, bu ən çox Norveçdə müşahidə olunur. İldə 122 mlrd.kvt.saat elektrik enerjisi hasil edən Norveçdə bu göstərici - 30 min kvt.saatdan az deyildir. Əks qütbdə yerləşən tropik Çad, Mali və Somalidə isə ayrı-ayrılıqda ən az - 11-14 kvt.saat adambaşına elektrik enerjisi hasil olunur. Bu göstərici Çində - 900 kvt.saat, Hindistanda - 450 kvt.saatdan çoxdur.

Ümumiyyətlə, son illər elektrik enerjisi hasilatında 10 ölkə daha çox seçilir. Elektrik enerjisi hasilatında ən qabaqda gedən 10 ölkədən 7-si Şimal yanmkürəsində, 3-ü isə Cənub yarımkürəsindədir. ABŞ (4,0 trln.kvt.saat, gücü 800 mln.kvt), Çin (1,3 trln.kvt.saat), Yaponiya (1036 trln.kvt.saat), Rusiya Federasiyası (878 mlrd.kvt.saat), Kanada (573 mlrd.kvt.saat), AFR (570 mlrd. kvt.saat), Fransa (520 mlrd.kvt.saat), Hindistan (450 mlrd.kvt.saat), Böyük Britaniya (350 mlrd.kvt.saat), Braziliya (300 mlrd.kvt.saat) buna misal ola bilərlər. Fransa, Rusiya Federasiyası, Paraqvay, AFR, Kanada, İsveçrə, Ukrayna elektrik enerjisi ixrac edən ölkələrdəndir.

Elektroenergetikaınn inkişafında müxtəlif növ elektrik stansiyaları fəaliyyət göstərir. Bunlara əsas və alternativ elektrik stansiyalarını misal göstərə bilərik. İES, AES, SES əsas mənbələr, KES, GES, QES, Geotermal İES-lər isə alternativ mənbələrdir.

Elektrik enerjisi hasilatı strukturunda əksər ölkələrdə İES-lər üstünlük təşkil edir. Onlar kömürlə, qazla, mazutla, odunla, torfla, şistlə işləyərək enerji hasil edirlər. Göstərmək lazımdır ki, yanacağın hansı növü çoxdursa həmin ölkə İES-lərin işləməsini ona əsaslandırırlar.

Hər növ elektrik stansiyasının özünəməxsusluğu vardır. İES-lərin üstün cəhətləri çox olduğundan ona geniş yer verilir. O, tez tikilir, ucuz başa gəlir, müxtəlif növ yanacağa əsaslanır, sabit elektrik enerjisi hasil edir, tikilməsi üçün çox sahə tələb etmir və sairə. Deyilənlər əsasında dünyada illik elektrik enerjisi hasilatında İES-lərin 63% məhsul istehsalı vardır. Onlar, başlıca olaraq xammal və istehlak rayonlarında yaradılırlar. İES-lər qarşılarına qoyduqları məqsədlərinə görə biri-birindən fərqlənirlər. Onlar Kondensasion (KES) və İEM-lərə ayrılırlar. Kondensasion elektrik stansiyaları elektrik enerjisi hasil edirlərsə, istilik elektrik mərkəzləri istilik enerjisi hasil etməklə bərabər sənaye müəssisələrini, ictimai və yaşayış binalarını, isti ştillikləri isti su və buxarla da təmin edirlər. Ən böyük gücə malik olan İES-lər 100%o kömürlə işləməklə - Polşada, CAR-da, Rusiya Federasıyasında, ABŞ-da, Çində, Avstraliyada, Almaniyada; 100%o mazutla işləməklə - Səudiyyə

Cədvəl 5

Elektrik enerjisi hasilatında seçilən ölkələr

№	Ölkələr	Hasilat	
		Cəmi mlrd.kvt/s	Hər nəfərə (min.kvt.s)
1	ABŞ	4,0 trln.	14,5
2	Çin	1,3 trln.	0,90
3	Yaponiya	1,036	7,60
4	Rusiya Federasiyası	878	7,70
5	Kanada	570	18,40
6	AFR	550	6,55
7	Fransa	520	6,55
8	Hindistan	450	0,45
9	Böyük Britaniya	350	5,50
10	Braziliya	300	1,75

Cədvəl 6

Elektrik enerjisinin strukturu və hasilatı

№	Elektrik stansiyalarının növü	1990(%)	1995(%)	2002(%)

1	Istilik elektrik stansiyası (İES)	63,3	63,2	63,0
2	Su elektrik stansiyası (SES)	19,9	19,5	19,0
3	Atom elektrik stansiyası (AES)	16,1	17,3	17,0
4	Alternativ enerji mənbələri	0,8	0,9	1,0

Cədvəl 7

Ölkələr üzrə elektrik stansiyalarının gücü

№	Ölkələr	Elektrik stansiyalarının gücü milyon kvt.
1	ABŞ	800
2	Çin	270 (80 min.kvt.SES)
3	Yaponiya	-
4	AFR	-
5	Rusiya Federasiyası	214,1 (43 mln.kvt.SES) (25 AES)
6	İtaliya	72
7	Fransa	-
8	Böyük Britaniya	-
9	Azərbaycan	5,2
10	Hindistan	85,0
11	Braziliya	213(ancaqSES)
12	Ukrayna	20 (AES)

Ərəbistanında, Küveytdə, BƏƏ-də, Meksikada, Əlcəzairdə; 100% qazla işləməklə - Rumıniyada, Niderlandda; 100% neftlə-qazla işləməklə - Azərbaycanda; mazutla, torfla işləyənlər - RF-də (İvanovo, Şatura, Yaroslavl), Belorusiyada (Smoleviç), şistlə işləyənlər - Baltikayanı ölkələrdə (Koxtla-Yarve, Pribaltika), qazla işləyənlər Rusiya Federasiyasında (Kostroma), odunla işləyənlər Rusiya Federasiyasının Avropa hissəsində, Latın Amerikasında tikilmişdir. İES-lər təbii şəraitdən asılı olaraq 2 tipdə olurlar. Sərt iqlim şəraitinə malik olan regionlarda örtülü şəraitdə, isti-cənub

rayonlarında isə açıq hava şəraitində fəaliyyət göstərirlər. Avropada ilk dəfə açıq tipli İES 1962-ci ildə Azərbaycanın Əli-Bayramlı şəhərində fəaliyyətə başlamışdır. Onun gücü 1,2 mln. kvt, illik elektrik enerjisi hasilatı isə 1,0 mlrd. kvt. saatdan çoxdur.

Nüvə enerjisindən istifadənin müasir istiqamətlərindən biri AES-lərin və Atom istilik elektrik mərkəzlərinin (AİEM) yaradılmasıdır. Bunlar, o cümlədən RF-nin Voronej, Nijnı - Novqorod şəhərlərində fəaliyyət göstərirlər. İri İEM-lərin tikilməsinə müasir dövrdə geniş yer verilir. Çünki ayrı-ayrı sənaye sahələrini, kommunal təsərrüfatını, məişəti, ictimai və yaşayış binalarını, oranjereyaları vahid mərkəzdən idarə etməklə qızdırmaq onun səmərəliliyini daha da artırır. İEM-lər istehlak rayonlarından 10-12-km məsafədə yerləşdirilir.

Elektroenergetikanın aparıcı mənbələrindən biri də su elektrik stansiyalarıdır (SES). Onlar bir qayda olaraq çox sulu və iti sürətə malik olan çaylar üzərində yaradılır. Lakin düzənlik çayları üzərində də SES-lər yaradılır. Belə halda əlavə xərclərin çəkilməsi tələb olunur. SES-lərin üstün cəhətləri çoxdur. Onlardan ən ucuz elektrik enerjisi hasil edilir. Çünki tükənməyən təbii sərvətə əsaslanırlar. Eyni zamanda, onların yaradılması çaylarda suyun axınını tənzimləyir, gəmiçiliyin, kənd təsərrüfatının inkişafını təmin edir, eyni hövzədə bir neçə stansiyaların yaradılmasına şərait yaradır, yaradılmış stansiyalar bir-birilə birləşdirilərək kaskadlar yaratmaq, onları İES-lərlə birləşdirmək, kompleks hidrotexniki məsələlərin həlli mümkünləşir və sairə. Bölgədə elektrik enerjisi artıqlıq etdiyi hər bir anda istənilən vaxtı onları dayandırmaq, eləcə də necə deyərlər pik saatlarında qısa vaxt müddətində iş rejiminə qoşmaq mümkündür. Ona görə də SES-lər inkişaf etmiş ölkələrin çoxunda, necə deyərlər, pik rolunu oynayırlar. Bu funksiyanı HAES yerinə yetirirlər. HAES-lərə misal olaraq Rusiya Federasiyasmda Zaqorski (Moskva rayonunda), Ukraynada Kiyev, Baltikyanı ölkələrdə Kayşador, Moldovada Dnestri göstərə bilərik.

SES-lərin çatışmayan cəhətləri də mövcuddur. Çaylarda suyun artıb-azalması ilə əlaqədar olaraq il boyu sabit elektrik enerjisi əldə edilmir, gec başa gəlir, işçi qüvvəsini daha çox tələb edir, təbii sərvətlərin məhv olması baş verir, yaradılmış bəndlər balıqların miqrasiyasına mane olur, kaskad rayonlarında gəmiçiliyin normal həyata keçirilməsində şlyuzların, gəmiburaxan qurğuların-tikintilərin yaradılması üçün əlavə xərclər tələb olunur. Göstərmək

yerinə düşərdi ki, Rusiya Federasıyasında yerləşən və gücü 6,0 mln.kvt olan Krasnoyarski SES-i (Yenisey çayı üzərində) 25 ilə (1943-1968) tikilib istifadəyə verilmişdir.

Planetin hidroenerji ehtiyatı 49 trln.kvt. saat müəyyən edilsə də texnikanın müasir inkişaf səviyyəsində onun 20 trln.kvt. saatından istifadə etmək mümkündür. SES-lərdən alınan illik elektrik enerjisinin miqdarı 2,0 trln.kvt.saata çatır.

Cədvəl 8

SES-lərdən ən çox elektrik enerjisi hasil edən ölkələr

№	Ölkələr	Gücü	1970	1980	1990	2002
			mlrd.kvt.saat			
1	ABŞ		251,2	282,8	295,8	323,5
2	Kanada		156,7	253,1	294,0	330,0
3	SSRİ		124,0	184,0	231,0	-
4	Yaponiya		80,3	93,2	88,4	80
5	Fransa		57,4	69,6	52,8	71,4
6	Norveç		57,3	84,0	120,0	121,0
7	İtaliya		44,0	50,2	50,2	50,2
8	İsveç		41,5	59,2	72,0	67,1
9	Braziliya		40,0	129,0	205,0	245,0
10	Isveçrə		29,3	30,0	30,0	35,0
11	Çin	75	-	58,2	125,1	365,0
12	Hindistan		-	-	70,9	71,0
13	RF		-	-	179	185

Cədvəl 9

Dünyanın iri SES-ləri

№	SES-lərin adı	Gücü mln.kvt	Çayın adı	Ölkə
1	İtaypu	12,6	Parana	Braziliya, Paraqvay
2	Quri	10,3	Karono	Venesuela
3	Qrand-Kuli	9,8	Kolumbiya	ABŞ

4	Sayano-Şuşenski	6,4	Yenisey	RF
5	Krasnoyarski	6,0	Yenisey	RF
6	La-Qrand-2	5,3	La-Qrand	Kanada
7	Çerçil-Fors	5,2	Çerçil	Kanada
8	Bratski	4,5	Anqara	RF
9	Ust-İlim	4,3	Anqara	RF
10	Tukurui	4,0	Tokant	Braziliya

Cədvəl 10

Dünya regionlarının və ölkələrinin iqtisadi hidropotensialı və onun istifadəsi

№	Regionlar və ölkələr	Cəmi		Istifadə olunmuş %
		mlrd.kvt/s	%-lə	
1	MDB ölkələri	1100	11,2	20
2	Xarici Avropa	710	7,3	70
3	Xarici Asiya	2670	27,3	14
4	Afrika	1600	16,4	3
5	Şimali Amerika	1600	16,4	38
6	Latın Amerikası	1900	19,4	16
7	Avstraliya və Okeaniya	200	2,0	18
8	Çin			10
9	Yaponiya			70
10	Hindistan			14
11	ABŞ			70
12	Kanada			61

Lakin hidroenerji potensialı resurslarının mənimsənilməsi ayrı-ayrı regionlarda eyni deyildir. Belə ki, hidroenerji potensialından Avropada 70%, Şimali Amerikada 38%, MDB-də 20%, Afrikada 32%, Latın Amerikası ölkələrində 16%, ABŞ və Kanadada 3/5 hissəsi, Yaponiyada 2/3-si, Avstraliya və Okeaniyada 18% mənimsənilmişdir. Ümumiyyətlə, dünya hidroenerji ehtiyatının (10 trln.kvt/s) hələlik 21%-zi mənimsənilmişdir.

Çay sularının iti axması meyililliyin çoxluğu ilə bağlıdır. Belə hal təbii olaraq şəlalələrlə, süni halda isə SES-lərin yaradılması ilə özünü büruzə verir. Məlumdur ki, SES-lərdə suların düşmə bucağının böyüklüyü elektrik maşınının rotorunu hərəkətə gətirərək elektrik enerjisinin alınmasına səbəb olur. Buna oxşar hal bizim tamdığımız dəyirmanlarda da mövcuddur. Daha doğrusu, dəyirmanlarda meyilliliyə malik məsafədən tökülən su rotorun pərlərini, o isə öz növbəsində dəyirman daşını hərəkətə gətirərək çanağa tökülən taxılın əzilərək un halına keçməsinə səbəb olur.

Adətən SES-lər dağ çayları hövzələrində yaradılsa da, bəzən düzənlik çayları üzərində daha çox kapital xərcləməklə də tikilirlər. Məsələn, MDB-də Volqa, Kama, Dnepr çaylarında olduğu kimi. SES-lər yaradılarkən böyük bir ərazidə süni su anbarı yaradılır və o xeyli vaxt müddətində su ilə doldurulur. Bunu nəzərə alaraq süni su anbarlarının yaradılacağı yer çay dərəsinin ən ensiz və kanyon hissələrinə uyğun gəlir. SES-lərin yaradılmasında digər şərtlərin də olmasına üstünlük verilir. Bu, axının illik və dövri xarakter daşıması halına fikir verilməsidir. Ola bilir bənd tikilir, atmosfer yağıntıları il boyu az düşür və nəticədə, su anbarında su çatışmamazlığı müşahidə edilir və ya SES istehlak rayonundan çox aralı tikilir. Çünki hidroenerji potensialı, bəzən məskunlaşmanın az olduğu bölgələrdə yerləşirlər. Göstərilən hallara daha çox təsadüf olunur.

Qeyd etmək lazımdır ki, hidropotensial məfhumuna nəzəri, texniki və iqtisadi aspektlərdən yanaşmalar mövcuddur. Əgər, nəzəri hidropotensial çay sularının orta illik axını hesab edilirsə, bu Yer kürəsində 47 min kv. km təşkil edir. Onun da elektrik enerji istehsalı 37,6 trln.kvt.saatdan çoxdur. Texniki aspekt isə nəzəri hidropotensialın - 20 trln.kvt.saat istifadə oluna bilən hissəsidir. Nəhayət, iqtisadi hidropotensial ehtiyatın iqtisadi cəhətdən istifadə oluna bilən hissəsidir. Bu, dünya üzrə 10 trln.kvt.saatdan artıqdır.

Ayrı-ayrı regionlarda hidropotensialın qeyri-bərabər istifadə olunmasının bir çox səbəbləri mövcuddur. Bunların hamısını 2 qrupda: iqtisadi və ekoloji təsir qruplarında birləşdirmək mümkündür. Məlumdur ki, böyük gücə malik olan SES-in tikilməsi 10-25 il vaxt tələb edir. Belə ki, Cənubi Sibirdə ümumi gücü 6,4 mln.kvt. olan Sayano-Şuşenski SES-i də 1964-1988-ci illərdə tikilərək tam gücü ilə istifadəyə verilməsi 25 il vaxtın olmasını tələb etmişdir.

SES-lərin qurulması bir çox ziyanların baş verməsinə də səbəb olur. Daha doğrusu, bunlar aşağıdakılardan ibarətdir:

- böyük torpaq sahələrinin, otlaqların, əkin sahələrinin, meşə örtüyünün, mədəniyyət abidələrinin, su anbarlarının altında qalması, arxeoloqlar üçün çox gərək olan qədim insan qalıqlarının həmişəlik itirilməsi, əhalinin su altında qalmaması xatirinə yaşayış məntəqələrindən köçürmək üçün xərclərin çəkilməsi, meşələrin vaxtından əvvəl qırılması;
- gəmiçilik işlərinin pozulması. Ancaq şlyüzlardan keçməklə bəndlərdən yan keçməyin mümkünlüyü, su anbarlarının əyri-üyrü, girintili-çıxıntılı sahillərə malik olması, onların da yaşayış məntəqələri ilə əlaqə yaradılmasını çətinləşdirməsi;
- məlumdur ki, bəzi balıq növləri kürü qoyma prosesini ancaq çayların yuxarı axınlarında başa çatdırdıqlarından yaradılmış bəndlər onların yubanmasına - ləngiməsinə səbəb olur. Yaradılmış xüsusi balıq yetişdirmə sahələrinə isə onların getmək istəməməsi;
- hidrotexniklər suyu ancaq turbinlərdən buraxdıqlarından aşağı axınlarda su əvvəlki kimi çox olmur. Ona görə də aşağı axınlarda balıq, plankton, quşlar, ondatra və s. yaşamaqda çətinlik çəkirlər. Digər tərəfdən, böyük günəş istiliyində su azlığı və dayaz sahələrdə kürü quruyur;
- su hovuzları balıqçılığın inkişaf etdirilməsi üçün bir o qədər də əlverişli imkanlara malik olmur;
- süni su dəryaçalarının yaradılması qrunt sularının səviyyəsinin qalxmasına, bu isə ətraflarda bataqlaşmanın əmələ gəlməsinə səbəb olur;
- həmin ərazinin iqlimində dəyişikliklər əmələ gəlir;
- əgər, su anbarının bəndi cavan dağlıq ərazilərdə yaradılmışdırsa, bu zəlzələlərə bir o qədər də davamlı olmurlar və sairə.

SES-lərin tikilməsi və onların istifadəsi xüsusi zövq yaradır. Onlar çox baha və gec başa gəldiyindən inkişaf etməkdə olan ölkələr elektrik enerjisi alınmasında onlara üstünlük vermirlər. Ona görə də bu ölkələrdə SES-lər azdır, olanları da güc etibarı ilə çox kiçikdirlər.

Qeyd etdik ki, hidropotensial yer kürəsində qeyri-bərabərdir. Bu sahədə Norveç, İsveçrə, Braziliya, Qırğızıstan, ABŞ, Tacikistan,

Rusiya Federasiyası, Kanada, İsveç və sair dünya ölkələri seçilsələr də Albaniyada, Qvatemalada, Qondurasda, Nepalda, Efiopiyada, Şri-Lankada, Paraqvayda, Qabonda, Avstriyada, Kolumbiyada, Peruda, Tanzaniyada, Keniyada, Madaqaskarda, Yeni Zelandiyada mineral təbii sərvətlərin az olması hidroenerji ehtiyatlarından daha çox istifadə etməyə səbəb olur. Göstərilən ölkələrin hamısında SES-lərin verdikləri elektrik enerjisininin xüsusi çəkisi yüksəkdir. Bildirmək lazımdır ki, hər birinin gücü 1 mln.kvt-dan artıq olan SES-lərin 50%-dən çoxu inkişaf etmiş ölkələr ərazisindədir. İllik elektrik enerjisi istehsalında SES-lərin xüsusi çəkisi Kanadada, ABŞ-da, Braziliyada, Rusiyada, Çində, Norveçdə, eləcə də Tacikistanda, Qırğızıstanda, İsveçdə, İsveçrədə (1200-ə qədər SES fəaliyyət göstərir), Qondurasda, Albaniyada, Nepalda, Şri-Lankada, Paraqvayda, Efiopiyada, Qabonda, Avstriyada, Kolumbiyada, Peruda, Keniyada, Madaqaskarda, Yeni Zelandiyada və sair ölkələrdə SES-lərdən alınan illik elektrik enerjisinin xüsusi çəkisi 70-99,5% arasında dəyişir. Əgər, Braziliyada bu çəki 93% təşkil edirsə, Norveçdə bunun kəmiyyət göstəricisi 99,5%-dən çoxdur.

Çox maraqlıdır ki, Norveçdə mövcud SES-lərin (400) hamısı iqtisadi və mühəndis-texniki baxımdan yerin altında quraşdırılmışlar. Onu da göstərməliyik ki, Kanada, ABŞ, Rusiya Federasiyası, Braziliya SES-lərdən ən çox elektrik enerjisi əldə edən ölkələrdir. Elə bu ölkələrdə də ən böyük gücə malik olan SES-lər yaradılmışdır. Bunlardan, gücü 12,6 mln.kvt, Parana çayı üzərində Braziliya və Paraqvay ölkələrinin birlikdə 1983-cü ildə tikmiş olduqları «İtaypu»nu, Venesuelanın Karoni çayı üzərində 1968-ci ildə tikmiş olduğu, gücü 10,3 mln.kvt olan Qurini, ABŞ-da -Kolumbiya çayı üzərində, 1942-ci ildə tikilmiş, gücü 9,8 mln.kvt-a çatan Qrand-Kulini, Rusiya Federasiyasında, Yenisey çayı üzərində 1964-1988-ci illərdə tikilmiş, gücü 6,4 mln.kvt olan Sayano-Şuşenskini, Braziliyada Takantis çayı üzərində 1984-cü ildə tikilmiş, gücü 8,0 mln.kvt olan Tukuruini göstərə bilərik.

Çində 2003-cü ildə 1-ci bloku istıfadəyə verilmiş, 26-cı bloku 2009-cu ildə istifadə verilməsi nəzərdə tutulan, gücü 20 mln. kvt.-a çata bilən, Yansızı çayının yuxarı axınlarında tikilən SES-i qeyd etmək mütləqdir. O, hündürlüyü 180 m, uzunluğu 2,5 km bəndə və 700 km uzunluğunda su anbarına malikdir. Qeyd etmək lazımdır ki, Çin hidroenerji potensialına görə dünyada 1-ci yeri tutur. Onun ehtiyatı 680 mln.kvt-dan çox olmaqla illik hasil olunası məhsulun

miqdarı 5,9 trln.kvt saat təşkil edir. Hələlik bu ehtiyatın 9-10 faizindən istifadə olunur. Onu da göstərmək yerinə düşər ki, Çinin təkcə Yansızı çayı üzərində ümumi gücü 200 mln. kvt-a çata bilən SES-lər tikmək mümkündür ki, onlardan da hər il 1,0 trilyon kvt saatdan çox elektrik enerjisi əldə edilməlidir.

Qeyd etmək lazımdır ki, Şimal yarımkürəsi çaylarının hidroenerjisinin iqtisadi potensialı demək olar ki, istifadə olunmuşdur. Odur ki, gələcəkdə, əsas məqsəd Cənub yarımkürəsi çaylarının iqtisadi hidroenerji potensiallarından istifadə etməyə üstünlük verilməlidir.

Hidroenergetikanın başlıca xüsusiyyətlərindən biri də eyni hövzə boyunda yerləşən SES kaskadlarının yaradılmasıdır. Yəni eyni çay boyu mövcud SES-lərin biri-biri ilə birləşdirilməsi prosesi həyata keçirilir. Kaskadların yaradılması çox böyük əhəmiyyət kəsb edir. Belə ki, nəticədə mövcud su resurslarından kompleks istifadə olunur, energetikanın inkişafı məsələləri həll olunur, bir sıra əhəmiyyətli istehsal sahələrinin, kənd təsərrüfatının inkişafı təmin olunur, dəmir yolu nəqliyyatının elektrikləşdirilməsi sürətləndirilir, su təsərrüfatında iş şəraiti kökündən yaxşılaşdırılır, ayrı-ayrı sənaye mərkəzlərinin, şəhərlərin su ilə təchizatı təmin olunur və sairə. Belə kaskadlardan ən böyüklərindən Volqa-Kama, Dnepr, Anqara-Yenisey və habelə Kolumbiya çayı üzərində ümumi gücü 20 mln.kvt-dan artıq olan SES kaskadını qeyd edə bilərik. Eyni zamanda da gələcəkdə Qrenlandiyanın buzlarının əriməsi nəticəsində yaranan axarlar üzərində ümumi gücü 120 mln.kvt-a çata bilən SES yaratmaq proyektinin olması da çox maraq doğurur.

Göstərmək lazımdır ki, inkişaf etmiş ölkələrdə hidroenerji ehtiyatları demək olar ki, tükənmişdir. Ona görə də inkişaf etmiş ölkələrdə əsasən pik saatlarının istehlakını ödəmək məqsədinə xidmət etmək üçün kiçik hidro-akkumulyativ elektrik stansiyalarını inkişaf etdirmək məqsədəuyğundur.

Elektroenergetikanın inkişafında əsas mənbələrdən biri də 17% xüsusi çəkiyə, 50 ölkədə, 340-dan çox saya, 450 reaktora, gücü 450 mln. kvt-dan artıq olan atom elektrik stansiyalarıdır (AES). Tikilməkdə olan AES bloklarının sayı isə 150 olmaqla ümumi gücü 70 mln.kvt-dan az olmaycaqdır.

Cədvəl 11

AES-lərdən ən çox elektrik enerjisi hasil edən ölkələr

№	Ölkələr	1980	1990	1995	2002

		Mlrd.kvt/s			
1	ABŞ	264	571	673	900
2	Yaponiya	83	196	205	280
3	SSRI	73	290	-	-
4	Fransa	62	316	359	359
5	AFR	44	155	160	160
6	Kanada	38,4	85	100	125
7	Böyük Britaniya	37	63,5	100	120
8	Isveç	27	65	97	110
9	Isveçrə	14	24,2	44	80
10	Belçika	13	42,0	85	99
11	İspaniya	5,2	54	90	100
12	Koreya Respublikası	-3,2	45,0	90,7	110
13	Rusiya Federasiyası	60	80	100	110
14	Ukrayna	-	50	53	80
15	Finlandiya	7,2	19,0	26,5	35,0
16	Bolqarıstan	6,2	15,0	22	30,0
17	Macarıstan	-	4,8	8	10
18	Tayvan	3,5	30,0	80,0	75,0
19	Hindistan	2,8	3,5	5,4	10,0
20	CAR	-	-	12,0	25,0
21	Argentina	2,2	8,2	15,5	27,0
22	Çexoslovakiya	4,5	25,0	35,0	35,0
23	Niderland	4,2	4,0	4,0	6,0

Dünya ölkələrinin birlikdə bir ildə hasil etdikləri elektrik enerjisinin miqdarına görə AES-lər 3-cü yeri tutur. Onlar başlıca olaraq ən çox yanacaqla kasıb və ya yanacağı heç olmayan rayonlarda, habelə istehlakın çox olduğu bölgələrdə yaradılırlar. AES-lərin üstün cəhətləri çoxdur. Daha doğrusu, onların xammalları çox saxlanılma xüsusiyyətinə malikdir, çox qaldıqda belə keyfiyyətlərini itirmirlər, kəmiyyət göstəricisinə görə çox enerji vermə xüsusiyyəti ilə seçilirlər. Yer kürəsində müəyyən edilmiş xammallarının enerji ekvivalenti aşkar edilmiş bütün enerji mənbələrinin (neft, kömür, hidroenerji) enerji potensialından artıqdır, onlar istənilən relyefdə və istənilən yerdə tikilə bilir, nəqliyyat faktorundan çox da asılı

deyillər, il boyu sabit enerji verirlər, yerləşdirilməsində xammala meyl olunmur, İES-lərə nısbətən az xammal işlədirlər, ekoloji cəhətdən başqalarına nisbətən təmizdirlər və sairə. Torpağı az olan ölkələrdə ya yerin altında, ya da Yaponiyada olduğu kimi dəniz dambalarında tikilməyə üstünlük verilir.

AES-lərin tikilməsi İES-lərə nisbətən baha başa gəlir. Daha doğrusu, uranın hasilatı, ondan konsentratın əldə edilməsi, konsentratın saflaşdırılması, uran 4 oksidin alınması, ixtisaslı kadrların, avadanhqların, reaktorlar üçün istilik keçirən elementlərin hazırlanması, sonrakı mərhələ üçün işlənilmiş, istifadə edilmiş nüvə emalı, tullantı reaktorun basdırılması və sairə çox kapitaltutumlu məsələlərdir. Texniki cəhətdən ömrünü başa vurmuş AES-lər bağlanümalı, təhlükəsizliyi təmin edilməli, konservasiya edilməlidir. Digər tərəfdən zəlzələlər, tufanlar, daşqın və yanğınlar vaxtı, eləcə də terrora məruz qalan zaman çox təhlükəlidirlər. Göründüyü kimi bunlar hamısı əlavə kapital tələb edirlər, baxmayaraq ki AES-lər iqtisadi baxımdan çox rentabellilidir. AES-in hər birinin tikilməsi 6-13 ilə başa gəlir. 1 kq uranın verdiyi elektrik enerjisinin miqdarı 3000 ton kömürün verdiyi elektrik enerjisinin miqdarına bərabərdir. Göstərmək lazımdır ki, ABŞ AES-lərdən 1958-ci ildən bu vaxta qədər 60 mlrd. dollar təmiz mənfəət əldə etmişdir. Rusiya isə hər il AES-lər hesabına ölkədə 90 mln.tondan çox yanacağa qənaət etmiş olur. Qeyd etmək lazımdır ki, AES-lərin hər bir bloku-reaktoru 30 il işləyə bilir. Bu müddət başa çatdıqdan sonra o söndürülərək sarkofaqınan bağlanılır.

Onların fəaliyyəti dünyada müəyyən edilmiş ehtiyatı 15 mlrd. tondan çox olan urana əsaslanır ki, onun da 1 kq-nın verdiyi elektrik enerjisinin miqdarı 3 min ton kömürün verdiyi istiliyin miqdarına bərabərdir. BMT-nın verdiyi məlumatlara əsasən son illərdə uranın illik istehsalının kəmiyyət göstəricisi 39 min tondan çox olmuşdur. Onun da ¼-i Şimali Amerikada (ABŞ-da), 19%-i Afrikada (əsasən CAR və Nigerdə), 19%-ə qədəri Asiyada (Qazaxıstan, Özbəkistan), ¼-i-də Rusiya Federasiyası, Ukrayna və Fransada hasil olunmuşdur.

Atomdan dinc məqsədlər üçün istifadədə keçmiş SSRİ fərqlənmişdir. Belə ki, 1954-cü ilin 27 iyununda Kaluqa vilayətinin Obninsk hissəsində gücü 5 mln.kvt, hal-hazırda isə 2,0 mln.kvt olan eyniadlı AES - Obninski istifadəyə verilərək dünyada çox böyük rezonans doğurmuşdur. Hal-hazırda elektrik enerjisi istehsalında AES-lərdən ən çox elektrik enerjisi hasil edən Ölkələr Litva, ABŞ,

Fransa, Yaponiya, AFR, Rusiya Federasiyası, Kanadadır. Belə ki, illik elektrik enerjisi istehsalında AES-in xüsusi çəkisi Litvada 85,1%, Fransada 78,5%, Belçikada 65,0%, İsveçdə 47,2%, Ukraynada 44,6%, Macarıstanda 46%, Yaponiyada 31,1%, AFR-də 31%, Koreya Respublikasında 31,2%, İspaniyada 30,1%, ABŞda 20% (atom enerji bloklan isə 111-dən çoxdur), Böyük Britaniyada 29,3%, Kanadada 14,7%, Rusiya Federasiyasında 14% (AES-9, bloklar -29, gücü 20 mln.kvt) təşkil edir. Enerji bloklarının sayma və atomdan illik elektrik enerjisi istehsalının kəmiyyət göstəricisinə görə (530 nilrd.kvt.saat) ABŞ dünyada lıderlıyı özündə saxlayır.

Rusiya Federasiyasının Çukot yarımadasında fəaliyyət göstərən Bilibino AES-i (50 kvt) elektrik enerjisi hasil etməklə bərabər sənaye müəssisələrinin, ictimai və yaşayış binalarının, oranjereyaların qızdırılması üçün isti su və buxar da hasil edir.

Lakin Qazaxıstanın Manqışlaq yarımadasında yerləşən Aktau şəhərinin Şevçenko limanında fəaliyyət göstərən eyniadlı AES isə istehlakı nəinki elektrik enerjisi ilə təmin edir, habelə Xəzər dənizinin şor sularını içməli hala salaraq onu istifadə üçün ayrı-ayrı təsərrüfat sahələrinə, həmçinin əhalinin tələbatma istiqamətləndirir.

Yaxşı məlumdur ki, AES-lər həm tikilməsi, həm də istismar olunması üçün çox mürəkkəb qurğulardan hesab edilir. Özü də 1986-cı ildə Ukraynanın Çernobıl fəlakətindən sonra AES-lər üçün avadanlıqlara, stansiyaların tikintisinə, onların istismarına, xüsusi kadrların hazırlanmasına tələbat və ən əsas məsuliyyət daha da artırılmışdır.

AES-lərin istismarı vaxtı çoxlu miqdarda maye və bərk halda radioaktiv tullantılar meydana gəlir. Başlıca məsələ onların müxtəlif yollarla məhv edilməsidir. Əgər əldə edilmiş maye halında olan radioaktiv tullantıları elə yerindəcə müxtəlif təsirlərlə buxarlandırmağa məruz qoymaq mümkün olursa, bərk halda alınan radioaktiv tullantıların məhv edilməsi məsələsi mürəkkəb problemlər yaradır. Hələlik bir üsul vardır ki, onları xüsusi şüşə ilə örtülmüş - qablaşdırılmış konteynerlərdə müəyyən edilmiş xüsusi yerlərdə basdırırlar və ya həmin konteynerləri Atlantik okeanın şimal dərinliklərinə atırlar. Bu sahədə böyük təcrübə toplamış və bu sahəyə liderlik edən dövlətlərdən biri Böyük Britaniyadır. MAQATE-nin məlumatına görə demək olar ki, dünya üzrə radioaktiv tullantıların ¾ -dən çoxunu Böyük Britaniya Atlantik okeanına, La-Manşa, Kanar adaları yaxılığında Biskay körfəzinə atır. ABŞ 1949-cu ildən bu

vaxta qədər radioaktiv tullantı maddələri ilə doldurulmuş yüz minlərlə konteyneri Sakit və Atlantik okeanının dərinliklərinə atmışdır. MAQATE-nin siyahısında okeanlara daimi belə radioaktiv tullantıları atan 20-yə qədər ölkənin adı hallanır. Fransa, İsveçrə, İsveç, Yaponiya, Belçika, Almaniya, İtaliya, Cənubi Koreya və başqaları bu tip dövlətlər siyahısına daxildir. AES-lər eyni zamanda işlədikləri vaxtı atmosferə İES-lərdən çox az miqdarda radionuklidlər buraxırlar. AES-lər texnologiyasına görə istismar vaxtı İES-lərə nisbətən daha çox su işlədirlər. Ona görə də İES-lərdən fərqli olaraq üzərində tikilmiş olduğu çayın suyuna daha çox isti su və atmosferə isə isti bıraxırlar. Belə hal, ekoloji tarazlığı pozaraq hətta çayın canlı aləminin məhv olması ilə nəticələnir.

Son illər neftin, qazın dünya bazarlarında ucuzlaşması və ya bahalaşması, 1986-cı ildə Ukraynanın Çernobıl və 1979-cu ildə Amerikanın «Tri-Maykl-Aylend» (Pensilvaniya ştatının Harrisberq şəhərində) AES-lərində baş verən qəzaların psixoloji təsiri, nüvə enerjisi hasilatı tərəfdarlarının azalması, stansiyaların daha çox kapital tutumlu olmaları, tikilməsinə və istifadəyə verilməsinə lisenziyaların alınması vaxtının uzadılması, tikilmə layihələrinin çox uzun müddətə götür-qoy edilməsi, təhlükəsizliyin təmin edilməsində iri texniki aspektlərin çətin həll olunması və radioaktiv tullantılara münasibət AES-lərin saylarının, habelə elektrik enerjisi əldə edilməsində xüsusi çəkilərinin azlığa doğru alçalması müşahidə edilir. Ona görə də bir çox ölkələrdə, o cümlədən Avstriyada, İtaliyada (4), Polşada, İsveçrədə, Niderlandda, İsveçdə (12 AES-in hamısı) AES-lərin bir çoxunun fəaliyyətləri dayandırılmışdır. Lakin elə ölkələr vardır ki, AES-lərin sayı nəinki azaldılmışdır, əksinə, hətta artırılmış və gələcəkdə də artırılması nəzərdə tutulmuşdur. Belə ölkələrdən Rusiya Federasiyasını (Balakov, Cənubi Ural, Beloyar, Kursk, Voronej AES-lərində blokların sayının artırılması, Uzaq Şərqə 3 stansiyanın tikilməsi nəzərdə tutulur), ABŞ-ı, Fransanı, Yaponiyanı (yaxın 20 ildə 40 AES tikiləlidir), Koreya Respublikasını, AFR-i göstərə bilərik. Qeyd etmək lazımdır ki, Yaponiya dünyada ən böyük gücü olan AES-ə malikdir. Bu, Sakit okean sənaye qurşağında yerləşərək 80-ci illərin ortalarından fəaliyyətdə olan və ümumi gücü 10,5 mln.kvt-a çatan «Fukusima»AES-idir. Tokio şəhərindən 200 km şimalda yerləşən «Fukusima»nın 1998-ci ildə 7-ci bloku istifadəyə verilərək hələlik 8,2 mln.kvt-lıq gücü elektrik enerjisi hasil edir.

Alternativ enerji mənbələri dünyada illik enerji istehsalında 1,0 % xüsusi çəkiyə malikdir. Müasir dünyanın inkişaf etməkdə olan ölkələrinin çoxunda illik elektrik enerjisi hasilatının 10 faizə qədərini alternativ enerji mənbələri verir. Söhbət, hər şeydən əvvəl geotermal, dəniz və okean sularının qabarına-çəkilməsi, günəş, külək və sair enerji mənbələrindən gedir. Qeyri-ənənəvi və ya alternativ enerji ehtiyatları çox olsa da onlardan hələ maksimum istifadə etməyin effektli metodları tapılmamışdır. Bu əsasdan da hələlik onlar coğrafı baxımdan qiymətləndirilərək yerli əhəmiyyət kəsb edirlər.

Geotermal enerjinin formalaşması yerin daxilində baş verən radioaktiv parçalanmaların, kimyəvi reaksiyaların və digər proseslərin gedişi ilə bağlıdır. Məlumdur ki, yerin 2000-3000 m dərinliklərində temperatur 100°S-dən çox olur. Qızmış su tektonik çatlarla, habelə buruqlar vasitəsi ilə yerin səthinə çıxır. Temperaturun yüksək olması bəzən suların tektonik çatlar vasitəsilə buxar halında yerin səthində görülməsinə də imkan verir. Geotermal mənbələr temperatur şəraitinə görə aşağı, orta və yüksək temperaturlu olurlar. Birinci ikisi adətən qızdıncı və istilik təminatçısı kimi gərəklidirlər. Belə mənbələr İslandiyada özünü daha qabarıq şəkildə büruzə verir. Belə ki, İslandiya dünyada ilk dəfə yeraltı isti sulardan binaların qızdırılmasında və isti suya olan digər tələbatın ödənilməsində geniş miqyasda istifadə edən yeganə ölkədir. Bu məqsədlə hələ XX əsrin 30-cü illərindən başlayaraq Reykyavikdə mərkəzdən idarə olunmaqla xüsusi təmizləyicisi olan geniş boru-kəmər şəbəkəsi sistemi yaradılmışdır. Onun əsasında da geotermal sistemlər daha da genişləndirilərək alma, pomidor, yemiş, eləcə də banan yetişdirilərək onların məhsullarına olan illik tələbatı ödəmək mümkün olur. Belə təbii isti su ehtiyatından istifadə İtaliyada, Fransada, Macarıstanda, Yaponiyada, ABŞ-da, Mərkəzi Amerikanın bir çox ölkələrində, Yeni Zelandiyada, Filippində və Rusiyada da həyata keçirilir.

Yüksək temperaturlu mənbələrdən quru buxar halında isə GeoİES-lərin yaradılması üçün istifadə edilməsi daha sərfəlidir. Bu məqsədlə ilk GeoİES 1827-ci ildə İtaliyanın Toskana əyalətinin Larderello yaşayış məntaqəsində yaradılmışdır. Bunu əslən fransalı olan qraf F.de Larderello öz kimya müəssisəsinin təminatı üçün həyata keçirmişdir. Belə ki, hələ 30-cu illərdən başlayaraq Reykyavikin ictimai və yaşayış binaları, sənaye müəssisələri, habelə oranjereyaları xüsusi tənzimləyiciləri olan boru xətti ilə

qızdırılmaqdadır. Deyilənlərlə yanaşı vulkan hadisələri ilə əlaqədar yaranmış istı bulaqların suyu əsasında fəaliyyət göstərən dünya əhəmiyyətli bir çox balneoloji kurort sahələri də yaradılmışdır. Digər tərəfdən, elektrik enerjisi alınması üçün su anbarına toplanan sudan vulkan mənşəli torpaqlarda - xüsusilə üzümçülüyün inkişafında da geniş istifadə olunur. Sonralar bir neçə belə GeoİES tikilib istifadəyə verildiyindən İtaliya uzun müddət bu sahədə liderliyi özündə saxlamışdır. Nəhayət, 1955-1960-cı illərdə ABŞ-ın Kaliforniya ştatında, Meksikada, Yeni Zelandiyada, habelə 60-cı illərin axırlarında Yaponiyada ilk GeoİES-lər quraşdınlmışdır. 1967-ci ildə isə Rusiyanın uzaq Kamçatka ərazisinin Paujetski çayı hövzəsində eyniadlı GeoİES tikilmişdir. Bir az sonra həmin yerin Mutnovski vulkanı yanında eyniadlı GeoİES də istifadəyə verilərək istehlakın ödənilməsində öz əhəmiyyətini göstərmşidir. Onun gücü 50 min.kvt-dan çoxdur. Hal-hazırda dünyada 14 ölkədə (ABŞ, Filippin, Meksika, İtaliya, Yaponiya, Yeni Zelandiya, İndoneziya, Salvador, Keniya, İslandiya, Nikaraqua, Türkiyə, Çin, Rusiya Federasiyası) 5,3 mln.kvt.gücündə 11 minə qədər GeoİES fəaliyyət göstərir. Burada ABŞ - 3700 saya, Filippin -3 minə qədər, İtaliya və Meksika hər biri 1000 dən çox GeoİES-lərə malik olmaqla fərqlənirlər. Alternativ mənbələrdən biri də Ayın cazibə qüvvəsi nəticəsində mövcudlaşan dəniz sularınm qabarma-çəkilməsi zamanı baş verən enerjiyə əsaslanaraq yaradılan elektrik stansiyalarıdır (QÇES).

İlk dəfə dəniz və okean sularının qabarma-çəkilməsi zamanı yaranan enerjiyə əsaslanan qurğunun (QÇES) tikilməsinə 1966-cı ildə Fransada başlanmışdır. Belə ki, həmin qurğu Rans çayının La-Manş körfəzinə töküldüyü ərazinin Sen-Maro şəhərində yaradılmışdır. O, 350 metr uzunluğlu bənddən, hər birində diametri 5,25 m olan deşiklə səciyyələnən 24 şlyuzdan ibarətdir. Şlyüzlərin hər birinə üfüqi vəziyyətdə hidroturbinlər quraşdırılmışdır. Hündürlyü 14 metrə çatan dalğanın suyu mövcud diametrə malik olan deşiklərlə bəndin arxasında yaradılmış su anbarına daxil olur və qabarmanın geri çəkildiyi anında sular turbinlərin işlək çarxlarını hərəkətə gətirərək enerji alınmasına şərait yaratmış olurlar. Göstərilən turbinlərin ümumi gücü 240 min.kvt olmaqla illik elektrik enerjisinin istehsalı 540 mln.kvt saatdan artığa çatır. Rusiyada bu tip elektrik stansiya 1968-ci ildə Barents dənizi sahillərində - Murmansk şəhərinin Kisloquba hissəsində istifadəyə verilmişdir. Onun gücü 400 kvt-dan çoxdur. Sonralar, yəni 1985-ci ildə Çində gücü 3.000

kvt olan «Tzyasan» qabarma-çəkilmə elektrik stansiyası istifadəyə verilmişdir. Hal-hazırda ABŞ Kanada ilə birlikdə dünyada suların ən böyük qabarma hadisəsi (18 metr) qeyd olunan Fandi körfəzində gücü 4,0 mln.kvt-dan çox olan qabarma-çəkilmə elektrik stansiyasının layihəsini həyata keçirir. Bu məqsədlə Fandi körfəzində 128 turbinin yerləşdirilməsi nəzərdə tutulmuşdur. Digər belə layihələri ABŞ, Kanada, Böyük Britaniya, Fransa, Rusiya, Çin, Koreya Respublikası, Hindistan, Argentina, Avstraliya həyata keçirməyə başlamışlar.

80-ci illərin başlanğıcında Yaponiya, Norveç mayakların, gəmilərin hərəkət etməyə başlanmasını və onların lövbər saldıqları yerlərin işıqlandırılmasını təmin etmək üçün dalğa (qabarma) elektrik stansiyalarının yaradılmasını təmin etmişlər.

Okean istilik elektrik stansiyaları (OİES) son illərin məhsulu hesab edilir. Bu növ elektrik stansiyalarının yaradılması üçün ABŞ Havay adalarını, Yaponiya Nauru adasını, Fransa Taiti adasını, Niderland Bali adasını (İndoneziya), Hindistan isə öz ölkəsinin cənubunu məqbul saymışlar.

Günəş elektrik stansiyaları dünyanın 30-dan artıq ölkəsində enerji verməkdədir. Yer səthinə çatan Günəş enerjisi çox böyük miqdara malikdir. Ondan tropik qurşqağın səhra ölkələrində istifadə etmək daha çox məqsədəuyğundur. Bunlar ABŞ, İsrail, Kipr, Çin, Hindistan, Afrika və Latm Amerikasının bir çox ölkələrində; MDB-nin cənub ölkələrində; Fransa, İspaniya, İtaliya, Yaponiya ərazilərində fəaliyyət göstərirlər. GES-lər 1985-ci ildən Ukraynanın Krım hissəsində, 1973-cü ildən isə ABŞ-m Kaliforniya və digər ştatlarında istehlaka xidmət edirlər. GES-in enerjisindən binaların və şitilliklərin qızdırılmasında, dəniz və okean sularının məişətdə, sənaye sahələrində işlədilməsi üçün yararlı hala salınmasında geniş istifadə olunur. Yaxın və Orta Şərq ölkələrinin, Şimali Afrikanın aid ərazilərində bu işlər geniş həyata keçirilir.

Külək elektrik stansiyaları (KES) son illərə qədər 2,0 mln. kvt. gücə malik olmuşdur. KES-lər dünyanın ABŞ, Danimarka, İsveç, AFR, Böyük Britaniya, Niderland, İspaniya, Yunanıstan, Kanada, Çin, Azərbaycan, Hindistan ölkələrində istehlaka xidmət edirlər. Çox maraqlı haldır ki, Kaliforniyanın yüksək dağ aşınmlarında quraşdırılmış KES-lərdən milyondan artıq insan istifadə edir. Diqqətəlayiq haldır ki, külək enerjisindən istifadənin pioneri hesab edilən AFR Şimal dənizinin sahillərində Avropada ən

böyük KES parkı yaratmışdır. Bununla yanaşı ən güclü (2 Mvt) KES İsveçdə də fəaliyyət göstərir. Gələcəkdə ölkədə hər birinin gücü 3-5 mvt olan KES-lər yaradılması planlaşdırır ki, onlardan da ildə 15 mlrd.kvt saat elektrik enerjisi alınması nəzərdə tutulur. Çünki digər elektrik stansiyalarını yaratmaq üçün İsveçin yanacaq-enerji ehtiyatı kifayət qədər deyildir.

Danimarkada 4 mindən artıq KES illik elektrik enerjisi istehsalının 5%-ə qədərini hasil edir. Nəzərdə tutulmuşdur ki, Danimarkada 2005-ci ildə KES-lərin elektrik enerjisi istehsalında xüsusi çəkisi 30%-ə çatdırılsın. Bu da, digər elektrik stansiyalarından fərqli olaraq atmosferə atılan karbon qazının ən azı 2 dəfə və digər tullantıların xeyli azalmasına imkan verəcəkdir. Belə hal, eyni zamanda təbii ekoloji tarazlığı saxlamaq deməkdir. MDB ölkələrinin Şimal, Azov-Qara dəniz, Aşağı Volqa, Qazaxıstan, Türkmənistan ərazilərində daha çox KES quraşdırmaq üçün əlverişli imkanlar vardır. Bu imkanlardan lazımi səviyyədə istifadə edilsə milyard kilovat gücə çatan KES-lər quraşdırmaq nəticəsində ümumilikdə ildə elektrik enerjisi istehsalını 18trln.kvt.saata çatdırmaq mümkün olacaqdır. Əsasən mülayim qurşaqda yerləşən ölkələrdə xeyli qədim inkişaf tarixinə malik olan KES-lərin iqtisadi səmərəliliyinin aşağı, az olması onların daima işləməsi ilə - yəni küləyin baş verdiyi anlarda işləmələri ilə izah olunur.

Qeyd etmək lazımdır ki, alternativ enerji mənbələrinə üstünlük verilməsi həmin rayonlarda əsas enerji mənbələrinin az və ya hec yoxluğuna, digər tərəfdən isə təbii ekoloji tarazhğın saxlamlma mümkünlüyünə əsaslanır.

Alternativ enerji mənbələrinə eyni zamanda, sintetik yanacaqları, bitiumlaşmış qumları, biokütləni, bioqazı, spirti və başqalarını da aid etmək mümkündür. Sintetik yanacağın alınması üçün kömürdən, yanar şistdən, bitiumlaşmış qumlardan, biokütlədən istifadə olunur. Kömürün hidrogenerasiya edilməsi nəticəsində süni neftin əldə edilməsi Almaniyada hələ 30-cu illərdə məlum idi. Enerji böhranı başlandıqdan sonra Qərb ölkələri bu üsuldan geniş istifadə edərək sintetik yanacaq alma proqramını əsaslı surətdə həyata keçirməyə başlamışlar. ABŞ-ın enerji proqramına əsasən kömürdən qaz alınması üçün 40 yeni zavodun tikilməsi planlaşdırılmışdır. Hal-hazırda bu üsulla qaz alınması CAR-da da həyata keçirilir.

Bitiumlaşmış şistin əldə edilməsində MDB, Estoniya, ABŞ, Braziliya, Çin seçilirlər. Müəyyən edirlmişdir ki, aşkarlanmış

bitiumlaşan şist ehtiyatından 50 mlrd.tondan çox neft əldə etmək mümkündür.

Bitiumlaşmış qumların ən çox ehtiyatı Kanadada, Venesuelada, Kolumbiyada aşkar edilmişdir. Kanadada bitiumlaşmış qum, habelə əkinçilik və heyvandarlıq sahəsinin tullantıları istifadədə böyük əhəmiyyət kəsb edirlər. Bitiumlaşmış neft ehtiyatının sahəsi 75 min kv.km-dir ki, o da Atabaska çayı hövzəsində aşkar edilmişdir. Onun ümumi ehtiyatı 130 mlrd.ton təşkil etsə də 40 mlrd.tonu istifadəyə gərəklidir. Venesuelada bitiumlaşmış neftin geoloji ehtiyatı 185 mlrd. tona catır. Onun 40 mlrd. tonundan istifadə etmək gələcəkdə mümkün olacaqdır.

Biokütlənin başlıca mənbələrini yandırmaqla, eləcə də emal etməklə əldə edilən xammaldan bioqaz və spirt alınmasında istifadə etmək mümkündür. Bu məqsəd üçün şəkər qamışı, çəltik qabığı, qarğıdalı şaxı və gövdəsi, pambıq şaxı, kokos və qoz qabığı, yer qozu, peyin xammalı yanacaq kimi istifadədə gərəklidir.

Bioqaz ən çox Çində, Hindistanda, Cənubi-Şərqi Asiya ölkələrin-də, Mərkəzi Amerika və MDB ölkələrində istehsal edilir. Heyvandarlığın, meşə və ağac emalı təsərrüfatının, məişət tullantılarının iqtisadi potensial həcmi ümumiyyətlə dünyada, eləcə də ayrı-ayrı ölkələrdə müxtəlifdir. Bu, təkcə RF-də ildə 50 mln.ton şərti yanacaq həcminə bərabərdir. Elə ona görə də Moskva vilayətində fəaliyyət göstərən heyvandarlıq fermalarmdan birində üzvi tullantıların biokütləsindən istifadə edərək yaradılmış qurğu hesabına əldə olunan tərkibi təbii yanar qaza müvafiq gələn yanar qaz əsasında ferma binaları qızdırılır və adi qaz plitlərində də istifadə edilərək məişətdə gərəkli olur. Eləcə də həmin bioqazdan daxili yanma mühərriklərinin işləməsində, süni benzin alınmasında istifadə olunur.

Ümumiyyətlə, bütün dünyada alternativ enerji mənbələrindən və eksperiment kimi istifadə olunur, ya da ki, onlar yerli və ya lokal əhəmiyyət kəsb edirlər. Bu ilk növbədə, külək enerjisinə aiddir. Elə ölkələr vardır ki, onların təbii enerji mənbələri ehtiyatı ilə zənginliyi alternativ enerji mənbələrindən istifadə olunmamasına şərait yaradır. Məsələn, Rusiya Federasiyasında əsas enerji mənbələrinin çoxluğu alternativ enerji mənbələrindən elektrik enerjisinin alınması eksperiment xarakteri daşıyır. Lakin ərazinin uzaqlığı, keçilmə çətinliyinin mövcudluğu, əsas elektrik stansiyalarının tikilməsinə ehtiyacın olmaması, istehlakın azlığı belə rayonlarda alternativ enerji

mənbələrindən istifadə olunmasını zəruriləşdirir. Çünki bu həmin rayonlarda elektrik enerjisinə olan istehlakın ödənilməsi üçün alternativi olmayan bir varlıqdır.

Dünyada şəkər qamışından ən çox etil spirti alan ölkə Braziliyadır. Ona görə də ölkədə - kənd yerlərində şəkər qamışıın distillə edə bilən 280-dən çox zavod fəaliyyət göstərir. Nəticədə, ölkə avtoparklarının çox hissəsi ya təmiz etanol əsasında, ya da ki, spirtli-benzinli yanacaq əsasında işləyirlər.

Son vaxtlar dəniz və okean cərəyanlarının enerjisindən də istifadə olunur. Bu, ancaq Yaponiyada eksperiment formasında mövcud olmaqdadır.

Müasir dünya elektroenergetikasının inkişaf xüsusiyyətlərindən biri ayrı-ayrı ölkələrin, regionların daxili enerji sistemlərinin yaradılması, onların biri-biri ilə yüksək gərginlikli elektrik xətləri vasitəsi ilə birləşdirilməsi, hasil olunmuş elektrik enerjisini yüksək gərginlikli beynəlxalq elektrik xətlərlə ötürülməsi hesab edilir. Yüksək gərginlikli elektrik xətləri vasitəsilə biri-biri ilə birləşdirilmiş beynəlxalq enerji sistemləri mövcudlaşdıqda bütün ərazilərin elektrik enerjisi ilə təmin olnuma imkanları möhkəmlənmiş olur, sutkalıq, aylıq və illik elektrik enerjisi ilə təmin olunma qrafikinə əməl olunur, hər növ və hər bir elektrik stansiyasının iqtisadi göstəricisi yaxşılaşır, ərazinin hər bir yerinin tam elektrikləşdirilməsi üçün şərait yaradılır, heç bir bölgənin elektrik enerjisinə ehtiyacı qalmır, hər bir bölgə il boyu tələb olunan miqdarda elektrik enerjisi ala bilir, elektrik enerjisi ilə təmin olunma il boyu sabitləşir, ayrı-ayrı növ elektrik stansiyalarının çatışmayan cəhətləri elektrik təminatında hiss edilmir, ekoloji tarazlıq olduğu kimi saxlanılır.

Vaxtı ilə SSRİ-də 11 birləşmiş enerji sistemi ilə yanaşı Vahid enerji sistemi yaradılmaqla Avropaya istiqamətlənən «Sülh»enerji sistemi də fəaliyyət göstərirdi.

Hal-hazırda hasil olunmuş elektrik enerjisinin yüksək gərginlikli beynəlxalq elektrik xətləri vasitəsi ilə nəql edilməsi xarici Avropa ölkələri, ABŞ və Kanada üçün daha çox xarakterdir.

Elektroenergetikanın inkişaf xüsusiyyətlərindən biri dünyanın qlobal problemlərindən hesab edilən ekoloji tarazlığı qoruyub saxlamaqdır. Kimya, metallurgiya, nəqliyyat, dağ-mədən və sairəyə nisbətən strateji əhəmiyyət kəsb edən elektroenergetika ətraf aləmin təbii halının olduğu kimi qalmasında israrlıdır.

V.2. Metallurgiya

İstehsal vasitələri istehsah sahəsinə daxil olan metallurgiya ağır və yüngül metallar istehsalını özündə birləşdirir. Dövlətin iqtisadi və hərbi qüdrətini əridilmiş metalın kəmiyyət və keyfiyyət göstəricisi müəyyən edir. O, bəşəriyyəti konstruksiya materialları ilə - qara və əlvan metallarla təmin edərək maşınqayırmanın, tikintinin inkişafnın və digər təsərrüfat sahələrinin texniki təchizatının təminatçısı rolunu oynayır.

Metallurgiya iki sahəyə ayrılır. Bunlar qara və əlvan metallurgiyadan ibarətdir. Əhəmiyyət baxımında məhsul istehsalının ölçüsünə görə qara metallurgiya üstünlük təşkil edir.

Qara metallurgiya dünya sənayesinin qədim və aparıcı sahələrindən biri olub filiz və qeyri-filiz xammallarının hasilatından, onların saflaşdırılmasından, çuqun, polad, prokat, ferroərintilər, habelə bir sıra digər son məhsullar əldə edilməsindən ibarətdir.

Maşmqayırmanın və tikintinin inkişafı bilavasitə qara metallurgiyaya çox ehtiyaclıdır. Xalq təsərrüfatınm bir çox sahələri texniki təchizatda qara metallurgiyaya borcludur.

Qara metallurgiyanın inkişafı üçün xammal kimi filizin bu və ya digər növlərindən, dəmir qırıntılarından, ferroərintilərdən, müxtəlif qatışıqlardan geniş istifadə olunursa, kokslaşan kömür və elektrik enerjisi yanacaq kimi çox gərəklidir. Onun məhsulları çuqun, polad, prokat, müxtəlif ölçülü borular və s.-dən ibarətdir.

Müasir metallurgiya üçün xarakterik olan cəhət metalın əsas hissəsinin metallurgiya kombinatlarında istehsal olunmasıdır. Kombinat dedikdə, müxtəlif sənaye sahələrinə aid, texnoloji proses cəhətdən biri-biri ilə qarşılıqlı surətdə əlaqədə olan bir neçə istehsalın bir müəssisədə birləşdirilməsi başa düşülür. Metallurgiyada xammalı ardıcıl surətdə emal edən kombinatlar üstünlük təşkil edir. Həmin kombinatlarda domna peçlərində dəmir filizindən çuqun istehsal olunur, maye halında olan çuqundan və metal qırıntılarından isə poladəridən konvertorlarda, martenlərdə, elektrik peçlənndə polad əridilir və bundan da hazır son məhsul - prokat əldə edilir. Metallurgiyada elmi-texniki tərəqqi metal əridilməsinin getdikcə daha çox məhsuldar üsullarının tətbiq edilməsinə səbəb olur. Nəticədə, poladın keyfiyyəti yüksəlmiş olur. Yüksək keyfiyyətli polad əldə etmək üçün legirləyici (metalların

keyfiyyətini yaxşılaşdıran) metalların - xromun, nikelin, titanın, vanadiumun, volframın dərnirlə ərintisi şəklində olan ferroərintilər tətbiq olunur. Bunların əridilməsi isə çoxlu miqdarda elektrik enerjisi tələb edir. Metal istehsalının ən yeni üsulu - domnasız metal əldə etmək üsuludur. Deyilənlərlə yanaşı qara metallurgiyada istehsalın təmər-küzləşməsi arası kəsilmədən artır. Belə ki, hazırda iri bir domna xeyli sayda olan xırda müəssisələrin verdiyi məhsuldan artıq çuqun verir.

Metallurgiya bir qrup istehsalların, o cümlədən koks-kimya və maşmqayırma istehsallarının inkişafı üçün baza rolunu oynayır.

Metallurgiya müəssisələri bütün məhsul növlərini verə biiən tam dövriyyəli – silsiləli və ya bir neçə məhsul istehsaletmə qüvvəsinə malik olan natamam-yarım dövriyyəli növlərə ayrılırlar. Müasir metallurgiya kombinatlan xammal və yanacaq bazalarında, xammalla yanacaq bazaları arasında, istehlaka yaxın, iri dəniz limanlarında, nəqliyyat növlərinin yaxşı inkişaf edərək qovşaq təşkil etdiyi rayonlarda yeriəşdirilmişlər. Deyılənlər tam silsiləri metallurgıya müəssisələrinin yerləşdırilməsi üçün başlıca prinsiplərdir. Belə müəssisələri yerləşdirərkən, onların su ilə, elektrik enerjisi ilə, təbii qazla təmin olunmasını, hətta təbiətin qorunması zəruriliyini də nəzərə alırlar.

Müasir dünyada qara metallurgiya xammallarla və yanacaqla tam təmin olunsa da onların coğrafi yerləşməsində çox qeyri-bərabərlik hökm sürür. Bunların əksəriyyəti demək olar ki, inkişafda olan ölkələr ərazisi üçün xarakterikdir. Deməli, xammalla yanacaq arasında, istehsalla istehlak arasında da qeyri-bərabərlik mövcuddur. Belə hal, bəzi problemlərin - xüsusi ilə də uzaq məsafələrə daşımaların mövcudlaşmasını zəruriləşdirir.

Qara metallurgiyanın əsas xammalı sayılan dəmir filizi ehtiyatı dünyada 800 mlrd. ton olmaqla Rusiyada, Braziliyada, Avstraliyada, Kanadada, Hindistanda, Çində, CAR-da, ABŞ-da, Liberii-yada, Venesuelada, İsveçdə zəngin ehtiyata malik olan yataqlar aşkarlanmışdır. İldə dünyada 1,06 mlrd. tondan çox dəmir filizi hasilatında Çin, Braziliya, Avstraliya, Rusiya, Ukrayna, ABŞ, Hindistan, Kanada, CAR və s. ölkələr seçilirlər. Son illər Avstraliya, CAR, Braziliya və Liberiyanın zəngin filizlərindən geniş istifadə olunması ABŞ və Qərbi Avropada bir sıra hasilat rayonlarının tənəzzülünə səbəb olmuşdur.

Dəmir filizinin başlıca ixracatçıları Braziliya, Avstraliya, Hindistan, RF, Ukrayna sayılırsa, əsas idxalatçılar Yaponiya, ABŞ və Avropa ölkələridir.

Qara metallurgiyanın böyük əhəmiyyət kəsb edən məhsullarından biri dünyanın 80-dan artıq ölkəsində mövcud olan polad istehsalıdır. Onun inkişaf dinamikasını izləsək aşağıdakıların şahidi olarıq: 1950-ci ildə 200 mln. t, 1958-ci ildə 300 mln. ton, 1970-ci ildə 600 mln. ton, 2000-ci ildə 850 mln. ton, XXI əsrin başlanğıcında isə 1060 mln. ton polad istehsalı müşahidə edilmişdir.

Müasir dünyada qara metal məhsulu istehsalında Şimalla Cənub arasında kəmiyyət göstəriciləri xeyli dəyişmişdir. Belə ki, hal-hazırda Çin də daxil olmaqla Cənub dünyada istehsal olunan poladın 2/5-ni verməkdədir. Qara metallurgiyanın inkişafda olan ölkələrə belə "miqrasiya" etməsi hər şeydən əvvəl həmin ölkələrin sənayeləşməsi, habelə "çirkli" təsərrüfat sahələrinin ABŞ, Yaponiya və Qərbi Avropa ölkələrindən İOÖ-rə doğru istiqamətləndirmə siyasətinin özünə yer tapması iiə bağlıdır.

Polad istehsalında Xarici Asiya regionu ölkələri aparıcı yer tuturlar. Burada Çin dünyada liderlik edərək ildə 182 mln. ton polad istehsal edir. Çində Xalq Respublikası elan olunan - 1949-cu ildə qara metallurgiyadan əsər-əlamət belə yox idi. Hal-hazırda Yaponiya - 110 mln. ton, Koreya Respublikası - 50 mln. tondan çox, Hindistan 40 mln. tondan artıq illik polad məhsulu istehsalı ilə fərqlənirlər.

Regionlar arasında polad istehsalında xarici Avropanın AFR, İtaliya, Fransa, Böyük Britaniya dövlətləri də tanınırlar. Daha doğrusu, polad istehsalı AFR-də - 50 mln. ton, İtaliyada - 30 mln. tondan çox, Fransada - 20 mln. tona yaxın, Böyük Britaniyada - 20 mln. tona qədər təşkil edir. Lakin Şimali Amerikanm ABŞ-ı və Kanadası bu sahədə özünəməxsusluğu ilə tanınırlar. ABŞ ildə 101 mln. ton polad verərək dünyada Çin və Yaponiyadan sonrakı yerə malikdir. Kanadada isə bu məhsulun illik istehsalının kəmiyyət göstəricisi bir o qədər də yüksək deyildir.

Əlbəttə, qara metallurgiya məhsulları istehsalında MDB ölkələrinin adlarını çəkməmək olmaz. Burada RF, Ukrayna, Qazaxıstan fərqlənirlər. İllik polad istehsalında RF-nin xüsusi göstəricisi -60 mln. tona yaxın, Ukraynanınkı isə - 3- mln. tondan çoxdur. Qazaxıstanda - 5,0 mln. ton polad, 4,0 mln. ton prokat istehsal olunmaqdadır. MDB-də Cənub, Ural, Mərkəz, Sibir, Qazaxıstan əsas metallurgiya bazaları vardır. Ümumi filiz və ya

yanacaq ehtiyatlarından istifadə edib, xalq təsərrüfatının metala olan başlıca tələbatını təmin edən metallurgiya zavodları qrupuna əsas metallurgiya bazası deyilir.

Regionların illik polad istehsalında xüsusi çəkiləri - Xarici Asiya - 42,4%, Xarici Avropa - 22,9%, Şimali Amerika - 14,1%, MDB - 11,8%, Latın Amerikası ölkələri - 6,5%, Afrika - 1,0%, Avstraliya və Okeaniya - 0,9% təşkil edir.

Dünya bazarına hər il 250-300 mln. tondan çox qara metal prokatı daxil olur. Başlıca məhsul ixrac edən ölkələrdən Yaponiyanı, Almaniyanı, Fransanı, İtaliyanı, Koreya Respublikasını, Böyük Britaniyanı, Benilüks ölkələrini, idxalatda isə ABŞ-ı, Çini göstərə bilərik. Qeyd etmək lazımdır ki, Yaponiya qara metal məhsulları ixracatında dünyada qabaqcıl yer tutaraq ildə 35,0 mln. xüsusi çəkiyə malikdir. Göstərmək yerinə düşərdi ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişində istifadə olunan borular Yaponiya qara metallurgiya müəssisələrinin məhsullarındandır.

Əlvan metallurgiya, çuqun və polad əridilməsi kimi dünya sənayesinin qədim sahələrindən hesab edilir. O, əlvan metal filizlərinin və ərintilərinin hasilatını, saflaşdırılmasını, eləcə də onların əridilməsini özündə birləşdirir. Elmi-texniki inqilab dövründə hər bir ölkənin elektrikləşdirilməsi onun müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi üçün atom texnikasının, aviasiyanın, raketqayırmanın, habelə qara metallurgiya və kimyanın inkişafı üçün əlvan metallurgiyanın əhəmiyyəti danılmaz olaraq qalır. Bunlardan qalay, qurğuşun korroziyaya qarşı davamlı, bəziləri -titan odadavamını, alüminium, mis, gümüş isə yüksək elektrikkeçirmə qabiliyyətinə malikdirlər.

Əlvan metallar əsas və qeyri-əsas qruplara ayrılırlar. Bunlarda da ağır - mis, qalay, qurğuşun, sink, nikel; yüngül - alüminium, maqnezium, titan; qiymətli - qızıl, gümüş, platin; çətin əriyən -volfram, molibden; nadir - uran, germanium və sairləri mövcuddur. Göstərilən qruplaşdırma əsasında da yüngül metallar və ağır metallar metallurgiyası fərqləndirilir.

Dünyada 70-dən artıq əlvan metal növü istehsal olunur.

Yüngül, yaxşı elektrikkeçirmə qabiliyyətinə malik olan və "qanadlı" metal adlanan alüminium filizləri dünyada ən çox yayılmış xammallara malikdir. Belə ki, alüminium əldə edilməsi üçün boksitdən, alünitdən, nifelindən, sienitdən, kaolindən xammal kimi istifadə olunur. Belə filizlərdən ilk əvvəl alüminium oksidini - gil-

torpağı ayırırlar. 1 ton alüminium metalı almaq üçün 14 min kvt saat elektrik enerjisi işlədilir, 1 ton mis metalı əldə etmək üçün 100 ton mis filizi, 1 ton qalay əldə etmək üçün isə - 300 ton xammal gərək olur. Əlvan metallurgiya məhsullarının əksəriyyəti elektrik tutumlu olduqlarından, o cümlədən alüminium alınması müəssisələri ucuz və çox elektrik enerjisi hasil edən SES, İES, AES yaxınlıqlarında yerləşdirilirlər. Hal-hazırda dünyanın 50-dən artıq ölkəsində alüminium istehsal olunur. Son illərdə dünyada 40 mln. tona qədər alüminium istehsal olunmaqdadır. Alüminium sənayesi ərazi cəhətdən biri-birindən ayrı düşmüş 3 istehsal mərhələsi ilə təmsil olunur. Birinci mərhələdə xammal-alüminium filizi, ikinci mərhələdə alüminium oksidi əldə edilir. Enerji tutumlu üçüncü mərhələ, yəni alüminium istehsalı ucuz elektrik enerjisi ilə zəngin olan yerlərə istiqamətlənir.

Müasir dünyada ABŞ - 3,7 mln. t, RF - 3,2 mln.t, Çin - 2,6 mln.t, Kanada - 2,4 mln.t, Avstraliya - 1,8 mln.t, CAR - 0,7 mln. t alüminium istehsal edirlər.

Dünyada ilk dəfə alüminium alınması üçün boksit hasilatına XIX əsrin əvvəllərində Fransanın Boks yaşayış məntəqəsində başlanılmışdır. Boksit istehsalında birinci onluğa daxil olan ölkələr bunlardır: Avstraliya - 50 mln.t, Qvineya - 20 mln. ton, Braziliya-15 mln. t, Yamayka - 10 mln. tondan çox, Çin - 10 mln. t, Hindistan- 6 mln. t, Venesuela - 5,0 mln. t, RF - 4,0 mln. t, Surinam -4,0 mln. t, Qazaxıstan - 3,0 mln. t. Hal-hazırda İOÖ dünyada istehsal olunan boksitin 50%-ni. yarım fabrikat hesab olunan gil-torpağın - 25%-ni, alüminiumun 20%-ni verirlər.

Dünyada mis alınmasına gərəkli hesab edilən mis filizi ehtiyatı İEÖ-lə İOÖ arasında - 30:70 nisbətindədir. Mis konsentratı istehsalında bu sistem ölkələri arasında - 40:60 nisbəti, qara mis hasilatında - 60:40, saflaşdırılmış mis hasilatında isə 75:25 nisbəti mövcuddur.

Mis konsentratı istehsalında Çili - 3,7 mln. t, ABŞ - 1,9 mln.t, Kanada - 0,7 mln.t, Çin - 0,5 mln.t, Peru - 0,5 mln. t məhsul verməklə tanmırlar.

Beynəlxalq valyuta metalı sayılan qızılın rolu ölçüyəgəlməzdir. XX əsrdə qızıl hasilatı çox sürətlə artmışdır. Belə ki, 1913-cü ildə onun illik hasilatı 650 t olmuşdursa, son illərdə bu 2300 tonu keçmişdir.

Müasir dövrdə dünyanın 100-dən çox ölkəsində qızıl hasil olunur. Bunlardan - CAR - 450 ton, ABŞ - 350 t, Avstraliya - 310 t, Kanada - 170 t, Çin - 160 t, Rusiya - 130 t, Peru - 130 t. illik qızıl hasilatına malikdirlər. Son illərdə Avstraliyada, Çində İndoneziyada qızılın illik hasilatı görünməmiş şəkildə artmaqdadır.

V.3. Maşınqayırma

Maşınqayırma dünya emal sənayesinin aparıcı sahələrindən biri olmaqla əsası 200 il əvvəl İngiltərədə baş verən sənaye inqilabından sonra qoyulmuşdur. O, elmi-texniki tərəqqinin inkişaf səviyyəsini, ölkənin müdafiə qüdrətinin səviyyəsini, habelə digər təsərrüfat sahəbrinin inkişafıın özündə əks etdirir. İnkişaf etmiş maşınqayırma sənayesi ölkənin iqtisadi və hərbi qüdrətini, siyasi müstəqilliyini təmin edir. Sənaye sahəbri arasında istehsal olunan məhsulun dəyərinə və işçilərinin sayına görə birinci yeri tutur. Burada 80 mln.-dan artıq işçi qüvvəsi çalışmaqla dünya sənaye məhsulunun 1/3 -i istehsal olunur. Metallurgiyanın məhsulu maşınqayırma üçün xammal rolunu oynayır. Ölkədə hansı maşınqayırmanın olması ilə, onların miqdarı ilə, nə kimi sürətlə istehsal edilməsilə iqtisadi inkişaf haqqında mühakimə yürütmək olar.

Müasir maşınqayırma çox mürəkkəb sahə hesab edilir. Onun müəssisələri biri-biri ilə, eləcə də başqa sahələrin müəssisələri ib sıx surətdə əlaqədardır.

Müasir maşınları hazırlamaq üçün metal ilə yanaşı plastik kütlə, rezin, parça, boya, taxta və sair tələb olunur. Onlar yüzlərlə, minlərlə hissələrdən hazırlanır. Məsələn, avtomobil 30 min, təyyarə 120 min hissədən ibarətdir. Bütün bu hissələri bir zavodda hazırlamaq əlverişli olmadığından maşınqayırmada hazır məhsulların ayrı-ayrı hissələrinin buraxılışı üzrə ixtisaslaşma aparılır. Maşınların konstruksiyası və istifadə edilən" xammalın müxtəlifliyi ayrı-ayrı hissələr istehsalı üzrə ixtisaslaşdırılmış müəssisələrlə istehsal əlaqələri, yaxud kooperativləşdirmə tələb edir. Belə əlaqələri ancaq inkişaf etmiş nəqliyyat növü həyata keçirə bilər. Bu əsasdan da maşınqayırma müəssisələrinin səmərəli yerləşdirilməsində əlverişli nəqliyyat yollarının olması çox gərəkli sayılır.

Energetika, elektrotexnika, avtomobil, təyyarə, dəzgah və cihazqayırma istehsalı sahələri əmək və elm tutumlu sayılırlar. Bununla əlaqədar olaraq maşınqayırma müəssisələrinin yerləşdirilməsində işçi qüvvəsi, ixtisaslı fəhlə və elmi-texniki kadrların mövcudluğu da nəzərə alınır.

Maşınqayırma zavodları tökmə, dəmirçi-pres, mexaniki və yığma sexlərindən ibarətdir. Metallurgiya müəssisələrindən alınmış xammallar metaltökmə və dəmirçi-pres sexlərində formaya salındıqdan sonra mexaniki sexdə cilalanaraq tələb olunan vəziyyətə - hissəyə çevrilir. Əldə edilmiş həmin maşın hissələrindən, eləcə də digər maşınqayırma zavodlarından alınan cihazlardan, hissələrdən, kimya müəssisəbrindən alınan boya, plastik kütlə və rezinlərdən, toxuculuq kombinatlarından əldə edilən texniki parçadan, meşə sənayesinin ağac emalı müəssisələrindən gətirilən oduncaq hissələrindən maşınqayırma yığma sexlərində hazır məhsul - istənilən maşın növü yığılır.

Maşınqayırma sahələri yaranma tarixinə görə "köhnə", "yeni", "ən yeni" sahələri özündə birləşdirir.

Maşınqayırma üçün xammal istehsalı müəssisələri müxtəlif coğrafi yerləşməyə malik olduğu kimi, maşınqayırma müəssisələri də müxtəlif coğrafiyaya, eləcə də eyni olmayan kəmiyyət-keyfiyyət göstəriciləri ilə səciyyələnirlər. Belə ki, İEÖ-də maşınqayırma sahəsinin verdiyi məhsul ümumi sənaye məhsulunun 35-40%-ni təşkil edir. Həmin ölkələrdə sənayedə çalışanların - 35%-ə qədəri isə maşınqayırma sahəsində cəmləşmişdir.

Məlumdur ki, maşınqayırma sənayenin ən mürəkkəb və differensial sahələrindən biri hesab edilir. Maşınqayırmanın metal emalı da daxil olmaqla 200-dən çox istehsal sahəsi vardır. O, məhsul istehsalının növlərinə, sahələrinin yerləşmə prinsiplərinə, texnoloji proseslərə və s.-yə görə ümumi maşınqayırma, nəqliyyat maşınqayırması, elektron, elektrotexnika, cihazqayırma, kənd təsərrüfatı maşınqayırması, silah istehsalı sahəsi, hərbi-texniki və s. maşınqayırma sahələrinə ayrılır.

Maşınqayırmanın texniki-iqtisadi baxımdan təsnifatında metaltutumlu, əməktutumlu və elmtutumlu sahələri də ayrılır.

Elmi-texniki inqilab dövründə maşınqayırmanın daha çox elmtutumlu sahələrinin inkişafına diqqət yetirilmişdir. Elmin, texnoloji proseslərin inkişafına çəkilən xərclərin 2/3-si maşınqayırmanın bu sahəsinə yönəldilmişdir. Bu, öz əksini aviasiya

sənayesinin əsasında inkişaf tapan aviaraket-kosmik maşınqayırma sahəsində, dəzgahqayırmada, eləcə də gəmiqayırmada tapmışdır.

Müasir maşınqayırmanın ən yeni sahəsi aviaraket-kosmik sənayesi sayılır. Burada müasir raketlər, kosmosda uçan müxtəlif aparatlar, mühərriklər, müxtəlif növ cihazlar və sairə istehsal olunur. Bu sahə elektronika ilə birlikdə daha çox elmtutumlu, əməktutumlu növlər istehsalı kimi tanımr. Belə maşınqayırma növləri istehsah eləcə də daha çox kapitaltutumlu olmaları ilə də məşhurdurlar. Başlıca xüsusiyyətlərindən biri də onların hərbi sənaye kompleksləri ilə sıx bağlılığıdır. Kompleksin ABŞ-da "Makdonnel-Duqlas", "Lokxid Martin", "Boinq", "Nortron", "Yunaytet Texnolodjiz", Qərbi Avropada isə "Aerospasial", "Britiş Eyrspeys", "Daymler-Bents" kimi nəhəng konsern və korporasiyaları fəaliyyət göstərir. Onlar hər il 1000-dən çox hava gəmiləri, eləcə də 1000-nə qədər vertolyot buraxırlar.

Dünyanın 20-dən artıq ölkəsi, o cümlədən ABŞ, RF, Fransa illik vertolyot istehsalında liderlik edirlər. Son vaxtlar bu cərgəyə Braziliya, Argentina, Hindistan, Pakistan da qoşulmuşlar.

Raket və müxtəlif kosmik aparatlar istehsah coğrafı nöqteyi-nəzərdən hələ də kiçik areallara malik olmaqla ABŞ, Rusiya, Fransa və Böyük Britaniya dövlətləri üçün səciyyəvidir. İldən-ilə aviaraket-kosmik maşınqayırma sənayesinin məhsulu artmaqdadır. Belə ki, 1988-ci ildə ümumi dəyəri - 75 mlrd. dollar olan məhsul buraxılmışdırsa, bu XX əsrin sonu XXI əsrin başlanğıcı üçün - 150 mlrd. dollardan çox təşkil etmişdir. Göstərilən kəmiyyət göstəricisinin 100 mlrd. dolları Şimali Amerika və Qərbi Avropa ölkələrinin hesabınadır.

Dəzgahqayırmaya metal emal üçün gərəkli sayılan müxtəlif növ dəzgahlar, dəmirçi-press sexlərində istifadə olunan ləvazimatlar, eləcə də sənaye robotları aid edilir. Ümumi maşınqayırmaya daxil olan bu növlərin məhsul istehsalı ildən-ilə artmaqdadır. Buraxılan illik məhsulun 4/5-nü Qərbi Avropa ölkələri, Şimali Amerika, Yaponiya, Çin verməkdədir. Regionlardan - Qərbi Avropanin-40%, Asiya Sakit okeanı - 35%, Şimali Amerika - 15% xüsusi çəkiyə malikdirlər. Bu sahədə birinci onluğa 5 Avropa, 4 Asiya ölkələri ilə yanaşı ABŞ daxildir. Yaponiya, Almaniya, İtaliya, İsveçrə, ABŞ istehsal etdikləri dəzgahları əsasən ixrac edirlərsə ABŞ, Çin, Almaniya, Koreya Respublikası belə dəzgahları eyni zamanda idxal da etməli olurlar.

Robot texnikası sahəsində Yaponiya dünyada liderlik etməkdədir.

Gəmiqayırma maşınqayırmanın qədim tipik növlərindən biridir. Bu sahədə Koreya Respublikası, Yaponiya, Çin, Almaniya, Polşa, İtaliya, İspaniya, Tayvan, Danimarka, Niderland, Böyük Britaniya seçilirlər.

Dünya maşınqayırmasında bütün nomenklaturaya malik olan Qərbin İEO-indən ABŞ-ı, AFR-i, Böyük Britaniyanın, habelə Yaponiyanı göstərə bilərik. Bu sahədə onların xüsusi çəkiləri - 38% təşkil edir. İxracatda isə bu çəki - 50%-dən çoxdur.

Deyilənləri yekunlaşdırarkən dünyada 3 nəhəng maşınqayırma regionunun ayrıldığının şahidi oluruq. Bunlar Şimali Amerika -ABŞ, Kanada, Meksika, Xarici Avropa, Şərqi və Cənubi-Şərqi Asiya regionlarıdır.

Şimali Amerika regionu ümumdünya maşınqayırma məhsulunun 30%o-dən artığını verməklə burada ABŞ liderlik edir.

Xarici Avropa regionu məhsul istehsalında heç də 1-ci regiondan geri qalmır. Əksinə, Şimali Amerika regionu ilə birinci - ikinci yerləri bölüşdürürlər. Burada AFR, Fransa, Böyük Britaniya, İtaliya, İspaniya tanınırlar.

Şərqi və Cənubi-Şərqi Asiya regionu ümumdünya maşınqayırma məhsulunun 1/5-ni verməklə Yaponiya burada üstün yer tutur. Ümumiyyətlə, Yaponiya maşınqayırma məhsulları ixracatında dünyada liderlik edir. O, məhsulların - 2/3-ni ixrac edin.

Göstərilən regionlar sırasına MDB məkanına daxil oian dövlətləri də əlavə etmək olar. Düzdür, hələlik burada elmtutumlu maşınqayırma sahələri özünə o qədər də yer tapmamışdır. Lakin Rusiyanın bu sahədə dünya ixracatında xüsusi çəkisi -1,0% təşkil edir.

Dünya avtomobil maşınqayırması yeni sahə hesab edilməklə XIX əsrin sonlarında meydana gəlmişdir. Onun dünya təsərrüfatının inkişafında rolu ölçüyə gəlməzdir. Əhəmiyyətinə görə o, ola bilsin ki,

ancaq dünya neft sənayesindən geri qalsın. Deyilənləri nəzərə alaraq avtomobil maşınqayırmasının ölkənin "onurğa sütunu", "lokomotivi", "iqtisadiyyatın barometri" adlandırırlar. O, nəqliyyat maşınqayırmasının əsasını təşkil edir. Bir çox İEÖ-də ümumi milli məhsulun 10%-ə qədərini verir. Maraqlı haldır ki, avtomobil maşınqayırması XX əsrdə ən sürətli inkişafa malik sahələrindən

biri olmuşdur. İkinci Dünya müharibəsi qabağı dünyada ildə - 4,0 mln. avtomobil buraxılırdısa, hal-hazırda bu rəqəm 60 mln-a çatmaqdadır. Bunun 4/5-ü yüngül-minik maşınları, qalanları isə yük və avtobuslardır. Bu sahədə hələ 1950-ci ildə ABŞ-ın xüsusi çəkisi - 83%, Qərbi Avropanınkı isə - 14%-dən çox deyildir. Son vaxtlar məhsul istehsalında ölkələr arasında yerdəyişmələr əmələ gəlmişdir. Avtomobil düzəldilməsində ABŞ, Yaponiya, Almaniya, Fransa, Koreya Respublikası, İspaniya, Böyük Britaniya, Kanada, İtaliya, Braziliya birinci onluğu təşkil edirlər.

Dünyada Amerikanın tanınmış "Ceneral Motors", "Ford Motor", Yaponiyanın "Toyota", "Nissan", "Xonda"; Almaniyanm "Folksvaqen", alman-amerikan "Daymler Kraysler"; İtaliyanın "FtAT"; Fransanın "Reno", "Pejo-Sitroen"; "Cənubi Koreyanın "Deu" avtomobil korporasiyaları fəaliyyət göstərirlər. ABŞ xarici ölkələrdəki müəssisələrinin verdiyi məhsul da daxil olmaqla ildə 19,0 mln. ədəd avtomobil buraxır. Ölkədə 26 ştatın 150-dən artıq şəhərində avtomobil zavodları fəaliyyət göstərir. Miçiqan "avtomobil ştatı", habelə Detroyt "avtomobil paytaxtı" - fəaliyyətdədir.

Avtomobil dünya ticarətində aparıcı yer tutur. Onun ixracat kvotası - 40%-dən artıqdır. ixracatda Yaponiya - 4,6 mln. ədəd, Almaniya - 3,5 mln. ədəd və Fransa seçilirlər. Almaniyada, Fransada, Koreya Respublikasmda ayrı-ayrılıqda adambaşına - 50 avtomobil istehsal olunursa, bu Yaponiyada daha çoxdur.

Elektron sənayesini haqlı olaraq ETİ-nin pioneri hesab edirlər. Onun məhsul istehsalını dörd qrupa ayırmaq mümkündür: 1) informasiya işləmələri üçün gərək olan vəsaitlər; 2) rabitə vasitələri; 3) məişət aparatları istehsalı; 4) elektron komponentləri istehsalı.

İnformasiyanın işlənməsində elektron vəsaitlərinə xüsusi kompüterlərin və ya EHM-nin böyük rolu vardır. Bunlara mikro-EHM, mini -EHM, eləcə də super EHM-ri daxildir. Dünyada mövcud olan yüzlərlə kompüter firmaları içərisində ABŞ-in İBM firması dünyada qabaqcıl yer tutaraq istehsal olunan kompüterlərin yarıdan çoxunu verir. ABŞ-da buraxılmış kompüterlərin ümumi qiyməti - 100 mlrd. dollardan artıqdır. Əsas EHM-i verən Yaponiya bu sahədə dünyada ABŞ-dan sonra 2-ci yeri tutaraq ildə -60 mlrd. dollarlıq məhsul istehsal edə bilir.

Rabitə texnikasında telefon aparatları sahəsi başlıca yer tutmaqla dünyada onların sayı 1,0 mlrd. ədədə yaxmdır. Burada ABŞ, Yaponiya, ARF fərqlənir.

Məişətdə işlədilən elektron aparatlarına isə rəngli televizorlar, çəkiliş aparatları, videomaqnitofonlar, videokameralar, audioaparatlar və s. daxildir. XX əsrin sonlarında dünyada istehsal olunan 150 mln. ədəd televizorun - 40 mln. ədədə qədərini Çin, 30 mln. ədədini Koreya Respublikası, 10 mln. ədədini Malayziya, 8,0 mln-dan çoxunu Yaponiya istehsal etmişdir.

Elektron sənayesinin inkişafında 4 başlıca rayon ayrılır. Bunlar ABŞ, Yaponiya, Qərbi Avropa və Şərqi və Cənubi-Şərqi Asiya rayonlarıdır.

Dünya ticarətində elektron sənayesinin məhsulları daha qabaqcıl yer tutur. Belə ki, bu sahədə Yaponiyanın ixracat kvotası 50%-ə qədər, Qərbi Avropanın ixracat kvotası - 40%, ABŞ-ınkı 1/10-dən çox deyildir.

Lokomotivlər ən çox Hindistanda, Braziliyada, Argentinada, Türkiyədə, RF-də, ABŞ-da, Ukraynada istehsal olunmaqdadır. Meksika, Misir, İran, Tailand, Çili, Kolumbiya vaqonqayırmada qabaqcıl yer tuturlar.

Aviasiya maşınqayırmasında ABŞ liderlik edir. Dünya bazarına bu sahədə istehsal olunmuş məhsulun 2/3-ni göndərir. XX əsrin sonlarında "Boinq" kompaniyasında - 400 hava layneri istifadəyə verilmişdir.

Kənd təsərrüfatı maşınqayırması müəssisələri başlıca olaraq istehlak rayonlarında yerləşdirilməklə ABŞ-da, Kanadada, RF-də, Ukraynada, Avstraliyada, Moldovada, Gürcüstanda, Özbəkistanda və digər yerlərdə fəaliyyətdədir. Traktor parklarında bağ-bostan becərilməsində işlədilən maşınlar nəzərə alınmadan - 30 mln. ədədə qədər traktor vardır. Bunun - 4,8 mln. ədədi ABŞ-da, 2,2 mln. ədədi Yaponiyada, - 1,5 mln. ədədi isə İtaliyadadır.

V.4. Kimya sənayesi

Kimya dünya sənayesinin ən cavan sahələrindən hesab edilsə də, hal-hazırda onun 3 avanqard sahəsindən birinə çevrilmişdir. Kimya sənayesi hər bir ölkənin iqtisadiyyatının müasirləşdirilməsini, ETT-nin nailiyyətlərindən istifadə etmə səviyyəsinin dərəcəsini göstərən etibarlı indikatordur. Onun məhsullarından - plastik kütlələrdən, şüşədən maşmqayırma; kübrələrdən, kimyəvi zəhərləyici maddələrdən kənd təsərrüfatı;

motor yanacağından, sürtgü yağlarından, sintetik yanacaqdan, nəqliyyat, habelə tikinti sənayesi istifadə edir.

Təsərrüfatı xammallarla, digər materiallarla təchiz edən, başqa istehsalların tullantılarını emal edən kimya sənayesinin özü elektrik enerjisinə, ayrı-ayrı növ avadanhqlara, nəqliyyata möhtacdır.

Energetika və maşınqayırma kimi, o da xalq təsərrüfatının demək olar ki, bütün sahələri ilə bilavasitə əlaqədə olub, onların inkişafına və daha düzgün yerləşdirilməsinə güclü təsir göstərir. Onun bir sıra xüsusiyyətləri vardır. Belə ki, o, bir çox keyfiyyətlərə görə natural məhsullardan keyfiyyətli olan yeni növ məhsullar yaradır. Belə məhsulların ayrı-ayrı sahələrə tətbiqi insanların əməyinə, eləcə də kənd təsərrüfatı xammallarına qənaət etmiş olur. Belə ki, natural ipəyə nisbətən kapron istehsalına insanların əmək məsrəfləri xeyli miqdarda azalır. Digər tərəfdən, kimya sənayesinin kombinələşmə baxımından böyük imkanları mövcuddur. Daha doğrusu, kömür, neft, qaz, şist, torf və başqa yanacaq növlərindən həm elektrik enerji, həm də çox qiymətli kimyəvi məhsullar sayılan benzin, parafin əldə etmək məqsədi ilə istifadə olunması enerji-kimya kombinatlarının yaradılmasına imkan yaradır. Kimyanı başqa təsərrüfat sahələri ilə kombinələşdirdikdə koks-kimya, neft-kimya, meşə-kimya, şist-kimya kimi istehsal sahələri yaranır. Deyilənlərlə yanaşı kimya sənayesinin çox böyük xammal və yanacaq bazaları mövcuddur. Belə ki, kimya müxtəlif mineral sərvətlərdən, oduncaqdan, sudan, havadan, çox böyük istehsal tullantılarından geniş surətdə istifadə edir. Lakin kimya sənayesi üçün neftin emalından alman yeni-yeni məhsullar, kokslaşdırılmış kömür əsas və başlıca xammal sayılır.

Kimya sənayesində müxtəlif xammallardan istifadə edilməsi, kombinələşdirmə imkanlarının hədsiz ölçüdə olması kimya müəssisələrini hər yerdə yaratmağa imkan verir. Lakin kimya istehsalları çox elektrik enerjisi və su işlətdiyindən, başlıcası isə ərazinin sanitariya-gigiyena şəraitinə hədsiz mənfi təsir göstərdiyindən müəssisələrin hər yerdə tikilməsi məqsədəuyğun sayılmır.

Kimya sənayesi mineral xammal hasil edən mədən kimyasından; duzların, turşuların, mineral kübrələrin əldə edilməsinə yardımçı olan əsas kimyadan; karbohidrogen xammallarını, yarımfabrikatlar istehsalın zəruriləşdirən üzvi sintez kimyasından; plastik kütlələr, kauçuk, müxtəlif lifiərin əldə edilməsinə kömək

edən polimerlər kimyasından; avtomobil şinləri, polietilen plyonkalarının hazırlanmasını yaradan polimer materiallarının emalı kimyasından ibarətdir.

Yuxarıda göstərilən kimya sahələrinin hər birinin özünəməxsus yerləşdirilməsi prinsipləri mövcuddur. Belə ki, mədən kimyası müəssisələri xammal rayonlarında, əsas kimya müəssisələri istehlak rayonlarında yerləşdirilirlər. Deyilənlərlə yanaşı kalium kübrəsi istehsal edən zavodlar xammal mənbələrinə meyl edir. Təbii qaz və neft istehsalı prosesində əldə edilən qazlardan azot kübrəsi almaq üçün çox geniş istifadə olunur. Bu əsasdan da belə zavodlar neft emalı rayonlarında, habelə magistral qaz kəmərləri boyu uzunu və metallurgiya kombinatlarının yaxınlığında yerləşdirilirlər. Polimer kimyası çoxlu miqdarda isti, elektrik enerjisi və xüsusi xammal tələb etdiyindən onun müəssisələri göstərilən mənbələrə yaxın yerləşdirilir.

Əsas kimyanın ən aparıcı məhsulları mineral kübrələr və müxtəlif turşular istehsalıdır, Kükürd turşusunu daşımaq çətin olduğundan onun müəssisələri istehlak rayonlarında yerləşdirilir. Kükürd turşusunu bəzən metallurgiya kombinaflarmda da əldə edirlər. Burada xammal əlvan metalların əridilməsi zamanı ayrılan kükürdlü qazlar sayılır.

Kükürd turşusu istehsalı XX əsrin son illərində 120 mln. tonu keçmişdir. Bu sahədə ABŞ, Kanada, Meksika, Yaponiya, Fransa, Polşa, Türkmənistan, AFR, İspaniya, RF, Ukrayna, Çin, Braziliya tanınırlar.

Mineral kübrələri dünyanın müxtəlif ölkə və regionlarında istehsal edirlər. Fosfat kübrələri zavodları başlıca olaraq, bu kübrələrin istehlak edildiyi yerlərdə-kənd təsərrüfatının inkişaf etdiyi rayonlarda yerləşdirilir. Yeni superfosfat zavodlarını isə əsas etibarı ilə xammal mənbələri yaxınlığında tikirlər, çünki tərkibində daha çox fosfor olan kübrələr istehsal etmək daha sərfəlidir. İldə dünyada - 150 mln. ton mineral kübrə istehsal olunur, onun da - 40%-ni Xarıci Asiya, -25%-ni Şimali Amerika, 15%-ni MDB, 12%-ni Qərbi Avropa regionu verməkdədir. Ölkələrdən Çin, ABŞ, Kanada, Hindistan, RF, AFR, Belorusiya, İndoneziya, Fransa və Ukrayna birinci onluğa daxildirlər.

Polimer materiallar istehsahnda ABŞ, Qərbi Avropa, Çin, İndoneziya, Venesuela, Meksika, Hindistan, Malayziya, Koreya

Respublikası, Tailand, Tayvan, İran körfəzi sahili ölkələri iri zavodlara malik olmaları ilə tanınırlar.

Dünyada hər il 130 mln. tondan çox plastik kütlə, 40 mln. tondan artıq kimyəvi lif, 10 mln. t sintetik kauçuk istehsal olunur.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olur ki, kimya sənayesinin 5 başlıca regionu vardır. Bunlar illik dünya kimya sənayesi məhsullarının 1/3-ni verən Xarici Avropa, 30% xüsusi çəkiyə malik olan Şimali Amerika, eləcə də Şərqi və Cənub-Şərqi Asiya regionudur. Burada da Yaponiya - 18% xüsusi çəki ilə özünə yer etmişdir.

Son vaxtlar İran körfəzi ölkələri və MDB bölgəsi də ixtisaslaşmış kimya sənayesi regionu kimi tanınmaqdadır.

Kimya sənayesinin dünyada nəhəng firmalarından Transmilli Korporasiyanı göstərə bilərik. Bunlardan amerikanların "Dyupon", almanların - "Bayer", "BASF", "Xyoxst", ingilislərin "İKİ" korporasiyalarını göstərə bilərik.

V.5. Meşə təsərrüfatı

Yer kürəsində kolluqlarla və yeni salınmış meşələrlə birlikdə ümumi meşə sahəsi - 75 mlrd. ha-a çatır. Onun oduncaq ehtiyatı - 385 mlrd. kubmetrdən artıqdır. Yer kürəsində hər birisinin ayrı-ayrılıqda sahəsi 2,0 mlrd. ha olan 2 meşə qurşağı ayrılır. Bunlar Şimal və Cənub meşə qurşaqlarıdır.

Regionlardan - Latın Amerikasında - 1260 mln. ha, Afrikada - 1140 mln. ha, MDB-də 940 mln. ha, Şimali Amerikada - 750 mln. ha, Xarici Asiyada - 660 mln. ha, Xarici Avropada - 195 mln. ha, Avstraliya və Okeaniyada - 180 mln. ha meşə sahəsi vardır.

Ölkələrdən - RF-də meşənin sahəsi 886 mln. ha, oduncaq ehtiyatı - 82 mlrd. kubmetr, Braziliyada sahəsi 572 mln. ha, ehtiyatı - 60 mlrd. kubmetr, Kanadada sahəsi - 453 mln. ha, ehtiyatı - 22 mlrd. kubmetr təşkil edir.

Meşə sənayesi dünya təsərrüfatının ən qədim və məhsuldar sahələrindən hesab edilir. Meşələrin insan həyatında əhəmiyyəti çox böyükdür. O, nəhəng oksigen mənbəyi sayılır. Meşə təkcə sənaye xammalı deyildir. O, torpağı su və külək erroziyasından qoruyur,

torpaqda rütubətliliyi qoruyub saxlayır, çayların daşmasının qarşısını alır, əkin sahələrini, tarlaları məhvedici quru küləklərdən qoruyur. Meşələr hər hansı bir ölkənin milli sərvəti kimi qiymətləndirilir. Meşələr sənayeyə xidmət edərək tikinti materialları, kağız, süni lif, eyni zamanda spirt verir.

Elmi-texniki tərəqqi oduncağı onun tətbiq olunduğu ənənəvi sahələrdən - yanacaq sənayesindən və qismən tikintidən sıxışdırıb çıxararaq, onu neftlə, qazla, betonla, habelə
şüşə ilə əvəz edir.

Maşınqayırma, yüngül sənaye, nəqliyyat, rabitə, tikinti, meşə sənayesi məhsulunun aparıcı istehlakçıları hesab olunurlar. Meşə sənayesinin inkişafı da digər təsərrüfat sahələrindən çox asılıdır. O, öz növbəsində başqa sahələrdən laklar, boyalar, soda, natrium, ağardıcı kimyəvi maddələr, avtomobillər, traktorlar, ağac tədarükü və emalı üçün müxtəlif növ dəzgahlar istehlak edir. Daha doğrusu, meşə sənayesinin daha geniş sahələrarası əlaqələri mövcuddur.

Meşə sənayesi biri-biri ilə qarşılıqlı surətdə əlaqədə olan ağac tədarükü, oduncağın mexaniki emalı və kağız, karton, skipidar, kanifol, yem mayaları alınması üçün oduncağın kimyəvi emalı istehsallarından ibarətdir. Maraqlıdır ki, bir istehsalın məhsulu digəri üçün xammal rolunu oynayır. Belə ki, ağac tədarükü müəssisələri taxta zavodlarına oduncaq verir, əldə olunan taxta mebel fabrikləri üçün əsas xammal sayılır. Ağac tədarükü tullantıları hesab edilən budaq, iynəyarpaqlar, eləcə də ağac emalı tullantıları olan taxta kəpəyi, ağac qabığı və yonqar spirt və yağlı boyalar istehsal etmək üçün meşə-kimya sənayesinə ötürülür. Ona görə də hal-hazırda meşə-kimya kombinatları yaratmağa üstünlük verilir. Çünki burada oduncağın ardıcıl emalı ilə yanaşı onların tullantılarından da tam istifadə etmək mümkünlüyü mövcudlaşır. Bir-birinin yaxınlığında yerləşən, xammal, enerji və nəqliyyatdan birgə istifadə edilməsinə və tullantıların tam emalına əsaslanan, sıx istehsal əlaqələrinə malik olan meşə sənayesi müəssisələri meşə sənayesi kompleksləri adlanırlar.

Ümumiyyətlə, meşə təsərrüfatı üçün meşələrin müxtəlif əhəmiyyəti vardır. Bu sahədə onlar sanitariya meşələri, torpaq, tarla, su qoruyucu və qoruq meşələrinə ayrılırlar.

Meşə sənayesinin yerləşdirilməsinə dair ən mühüm prinsiplərdən biri - meşə sənaye komplekslərini dəniz, su və dəmiryolu nəqliyyatı ilə daha yaxşı təmin olunmuş yerlərdə

tikməkdən ibarətdir. Bu məqsəd üçün böyük çayların mənsəbi, çayların dəmiryolu magistralları ilə kəsişdiyi yerlər xüsusilə sərfəlidir. Meşə sənayesinin bütün sahələrində başlıca məsrəflər - 75%-ə qədər ağac tədarükünün payına düşür. Bu əsasdan da meşə sənayesini yerləşdirməyin digər başlıca prinsipi müəssisələri ağac tədarükü rayonlarına, yəni xammala yaxınlaşdırmaqdan ibarətdir. Deyilənlərlə yanaşı, meşə sənayesinin ayrı-ayrı sahələrinin yerləşdirilməsinə istehlakçının yaxınlığı, habelə su və enerji ilə təchizatı şəraiti də təsir göstərir. Belə ki, hazır mebeli daşımaq, onun hazırlanması üçün olan hissələri daşımaqdan baha başa gəlir. Ona görə də mebel istehsalı müəssisələri müxtəlif sənaye sahələrinə malik, eləcə də əhalisi sıx olan rayonlarda yaradılır.

Sellüloz istehsalı hədsiz dərəcədə suyun olmasını tələb edir. Kağız hazırlanması isə çoxlu miqdarda elektrik enerjisinin vacibliyini şərtləndirir. Deyilənlərə görə də sellüloz-kağız kombinatları göstərilən şərtlərə əməl etməyə əsaslanır.

Qeyd etmək lazımdır ki, meşə materialları hazırlanmasını illik kəmiyyət göstəricisi son illər - 3,4 mlrd. kubmetri keçmişdir. Bu sahədə ABŞ, RF, Kanada, Finlandiya, İsveç, Çin, İndoneziya, Braziliya, Hindistan, Nigeriya, Malayziya, Efiopiya fərqlənirlər.

Oduncağın mexaniki emalında taxta-şalban hazırlanmasının illik göstəricisi - 440 mln. kubmetr təşkil etməklə ABŞ - 110 mln. t., Kanada - 65 mln. ton, habelə Çin, Yaponiya, Rusiya, Braziliya, Hindistan seçilirlər. Taxta-şalban ixracatının aparıcıları - ABŞ, Kanada, İsveç, Finlandiya, Rusiya, Braziliya, Nigeriya, Cənubi-Şərqi Asiya ölkələridir.

Oduncağın kimyəvi emalında kağız, karton, sellülöz, skipidar, kanifol, yem mayaları əldə olunur. Dünyada istehsal olunan sellülozun yarıdan çoxunu ABŞ və Kanada verir. Lakin birinci onluğa son vaxtlar Çin və Braziliya da qatılmışlar. Kağız istehsalının 75%-ni İEÖ verir. Burada da hər nəfərə orta hesabla 160 kq məhsul düşür. Bu göstərici ABŞ və Kanadanın hər birində - 300 kq, Finlandiyada isə - 400 kq-dan artıqdır. İOÖ-də isə bu göstərici -4,2 kq-dan çox deyildir.

Ümumiyyətlə, hər il ABŞ - 86 mln. t, Çin - 32 mln.t, Yaponiya - 31,0 mln. t, Kanada - 19,0 mln.t, AFR - 16 mln.t, Finlandiya -12,1 mln. t, İsveç - 9,8 mln.t, Fransa - 8,6 mln.t, Koreya

Respublikası -8,4 mln. t və İtaliya - 7,5 mln. t kağız və karton məhsulu istehsal edirlər.

V.6. Yüngül sənaye

Dünya təsərrüfatının ən qədim sahələrindən biri hesab edilən yüngül sənaye insanların gündəlik tələbatının ödənilməsinə istiqamətlənən məhsul növləri verir. Belə hal, onun böyük siyasi, mədəni, estetik əhəmiyyət kəsb etməsindən xəbər verir. Eyni zamanda, istehsal olunmuş milli paltarların və ayaqqabıların müxtəlifliyi dünyanın ayrı-ayrı dövlət və regionlarında mövcud olan əməyin, məişətin, milli adət və ənənələrin xüsusiyyətlərini özündə əks etdirmiş olur. Bir çoxları isə yüksək ixtisaslı mütəxəssislərin bədii zövqlə hazırladıqları məhsullardır. Yüngül sənaye modanın, zövqün, bazarın tələbatının gedişini nəzərə alan ən dinamik sahə kimi özünü göstərir. Elmi-texniki tərəqqi də yüngül sənayenin inkişafına və düzgün yerləşdirilməsinə öz təsirini göstərmişdir.

Yüngül sənayenin tərkibi çox mürəkkəbdir. Bu mürəkkəblik get-gedə artmaqdadır. Buraya ip əyirmə, toxuculuq, gön-dəri, xəz, toxuma, trikotaj xalça, ayaqqabı, qalantereya, zərgərlik məmulatları, farfor, toxuma, texniki parça, baş geyimləri, balıqçılıqda istifadə olunan torlar - şəbəkələr istehsal sahələri daxildir. İstehsal olunmuş məhsulların bir çoxu insanlar tərəfindən bilavasitə istehlak edilmək üçün buraxılır, bir hissəsi - texniki parçalar, gön-dəri və s. ağır sənaye tərəfindən işlədilir.

Yüngül sənaye ona bitki xammalı - pambıq, kətan, çətənə, eləcə də heyvandarlıq xammalları sayılan gön-dəri, xəz dəri, yun, barama verən istehsalın 2-ci aparıcı sahəsi sayılan kənd təsərrüfatı ilə sıx surətdə bağlıdır. Kənd təsərrüfatından başqa yüngül sənaye üçün xammal bazası sayılan digər sahə - kimyadır. Üzvi kimya sintetik və üzvi materialları - süni ipək, süni dəri, kimyəvi lif, sintetik kauçuk və s.-ni də yüngül sənayeyə istiqamətləndirir.

Yüngül sənaye müəssisələri başlıca olaraq istehlak, xammal, əmək ehtiyatları bol olan yerlərdə, adət-ənənələrə müvafiq yerləşdirilir. Belə ki, ilkin emal müəssisələri xammal rayonlarında, son məhsullar istehsalları isə istehlak yerlərində - əhalinin çox olduğu sahələrdə yerləşdirilir.

Yüngül sənayenin tikiş sahəsi onun aparıcı məhsul növlərindən birinə çevrilmişdir. O, təyinatına görə çoxsahəli sayılır. Belə məhsul istehsalı İOÖ-rə - xüsusilə Asiya ölkələrinə miqrasiya etmişdir. Bir sözlə, tikişin ən ucuz, sadə, kütləvi növləri istehsalı İEO-də xeyli dərəcədə məhdudlaşdırılmışdır. Qərbi Avropada, Şimali Amerikada tikiş sahəsinin ən modalı, yüksək keyfiyyətli, bahalı növlərinin istehsalı üstünlük təşkil edir. Onların istehsalı çox bahalı natural xammallara əsaslanır. Belə məhsullar istər İEÖ-də, istərsə də İOÖ-də ən çox ixracat üçün nəzərdə tutulur.

Çin, İtaliya, Koreya Respublikası, AFR, Türkiyə, Hindistan, Portuqaliya bu sahədə ixracatda üstünlük təşkil edirlər.

Trikotaj sənayesində analoji hal baş verir. Bu sahələrin məhsulları çox vaxt tikiş sənayesi məhsulları ilə rəqabətə girir. Burada da bahalı məhsullar İEÖ-də, bahalı olmayanları isə əksinə, İOÖ-də buraxılır.

Ayaqqabı sənayesi özünün çoxçeşidliliyi ilə diqqəti cəlb edir. Bu, onun çoxnövlü xammallarının olması ilə də izah olunur. Burada natural və sintetik xammaldan da geniş istifadə edilir. Ümumi məhsulun 1/3-i dəri ayaqqabıların payına düşür.

Rezin ayaqqabıları nəzərə almasaq dünyada ildə - 4,0 mlrd. cüt ayaqqabı istehsal olunur. Son illərdə ayaqqabı istehsalında İOÖ-lər böyük sıçrayışlara nail olmuşlar. Bu sahədə Çin dünyada 40%-dən, Asiya regionunda isə 50%-dən artıq xüsusi çəkiyə malikdir. Qeyd etmək lazımdır ki, Çin ən çox idman və ev ayaqqabıları buraxılışı üzrə ixtisaslaşmışdır. Həmin ayaqqabılar başlıca olaraq Qərbi Avropaya, eləcə də Şimali Amerika ölkələrinə ixrac olunur. Belə ki, nəticədə Çin Qərbi Avropa bazarını 25% ayaqqabı ilə təmin edir.

Çox bahalı, natural xammaldan hazırlanan və yüksək əməktutumlu ayaqqabı növləri istehsalı iqtisadi cəhətdən inkişaf etmiş ölkələr üçün daha çox xarakterikdir. Belə ayaqqabılardan hər il 1,0 mlrd. cüt hazırlanır. Bu sahədə İtaliya liderlik edərək ildə - 500 mln. cütə qədər məhsul verir. Belə ayaqqabıların 90%-i Qərbi Avropa, ABŞ, Kanda bazarları üçün nəzərdə tutulur. İtaliya qiymətli və çox modalı ayaqqabılar buraxmaqla ixtisaslaşmışdır.

ETİ dövründə toxuculuq sənayesi həm struktur, həm də ərazi cəhətdən köklü surətdə dəyişikliyə məruz qalmışdır. Kimyəvi lif

istehsalının sürətli inkişafı toxuculuğun strukturunu və texnologiyasını tamamilə dəyişdirmişdir. Natural - ipək, yun, pambıq parçalara qarşı kimyəvi liflərdən hazırlanan parçalar rəqabət rolunda çıxış etməyə başlamışlar. Hal-hazırda qiyməti çox yüksək olan natural parçalar az miqdarda buraxılır.

Qeyd etmək lazımdır ki, XX əsrin sonlarında XXI əsrin əvvəllərində natural xammal və kimyəvi liflərdən dünyada ümumi parça istehsalı - 130 mlrd. kv. metri ötüb keçmişdir.

Onu da göstərmək yerinə düşər ki, yüngül sənayedə toxuculuq, tikiş, ayaqqabı sahələri liderlik edərək ümumi məhsulun 1/3-ni verirlər. Yüngül sənaye məhsullarının - 45%-i İOÖ-lər hesabına əldə olunur.

Kimyəvi liflərdən toxunan parçalara görə ABŞ, Hindistan, Yaponiya, Koreya Respublikası, Tayvan, Çin, AFR qabaqcıl yerləri tuturlar. Bu parçaların ixracatında isə tanınan dövlətlər Koreya Respublikası, Tayvan və Yaponiyadır.

Kimyəvi liflərdən toxunan parçalardan fərqli olaraq pambıq parça buraxılışında İOÖ irəlidədirlər. Son illər pambıq parça toxunuşu 75 mlrd. kv. metrdən çox olmuşdur. Çində - 24,0 mlrd. kv. metr, Hindistanda - 21,0 mlrd. kv metr, ABŞ-da 4,0 mlrd.kv metrdən artıq, Braziliyada - 1,1 mlrd. kv. metr, Rusiyada - 1,1 mlrd.kv metr, İtaliyada -1,0 mlrd. kv. metr, Yaponiyada - 0,8 mlrd. kv metr, Tayvanda - 0,8 mlrd. kv.metr, AFR-də 0,5 mlrd. kv metr, Fransada isə - 0,5 mlrd.kv metr pambıq parça toxunmuşdur.

Çin əldə olunan pambıq parça ipliyinin - 1/3-ni də verərək dünyada liderlik edir.

Çində adambaşına -19,0 kv.m, Hindistanda 18 kv.m, ABŞ-da -14,5 kv.m pambıq parça toxunur. Pakistan, Hindistan, Misir, Tayvan, Çin, AFR, Yaponiya, İtaliya pambıq parça ixracatında hamı üçün tanınır.

Pambıq parçaya nisbətən yun parça daha mürəkkəb tərkiblə tanınır. Buraya kamvol, yarıyun, zərif mahud, qaba mahud parça növləri daxildir. Toxuculuqda yun parçalar ən bahalı növ hesab olunurlar. Onların hazırlanması ənənəvi olaraq Qərbi və Şərqi Avropa, Şimali Amerika, Asiya ölkələri üçün məqbuldur. Bu sahədə Çin qabaqcıl yerə malikdir. Dünyada ən böyük yun istehsalçıları və ixracatçıları - Avstraliya, Yeni Zelandiya, Argentina, Uruqvay, CAR,

Böyük Britaniya və İspaniya sayılır. Dünyada yun parça toxunmasının 2/3-ni İEÖ-lər verirlər.

Dünyada kətan parça toxunmasını fabrikləri Rusiya, Fransada, Belçikada, Niderlandda, Böyük Britaniyada cəmlənmişdir.

Təbii ipək parça toxunması yenidən sürətlənsə də onun müəssisələri hələ qədimdən Çində, Yaponiyada, Hindistanda mövcud olmuşdur. Bu sahədə «Qədim İpək Yolu» böyük əhəmiyyət kəsb etmişdir.

Toxuculuq sənayesinin xüsusi növündə xalçaçılıq durur. Onun hazırlanmasında kimyəvi liflərdən, yundan, pambıqdan istifadə edilir. Bu sahədə İEÖ-dən ABŞ, Böyük Britaniya, Belçika tanınsalar da, Hindistan həm istehsalçı, həm də ixracatçı rolunda çıxış edir.

V.7. Yeyinti sənayesi

Qədim təsərrüfat sahələrindən sayılan yeyinti sənayesi çoxsahəliliyi ilə tanınır. O, əhalini başlıca ərzaq məhsulları ilə təmin edir. İstər İEÖ-də, istərsə də İOÖ-də yeyinti məhsulları istehsalı gündən-günə artır, öz çeşidini dəyişir. Belə ki, istehlaka, müvafiq olan növlər artırılır və əksinə, tələbatı olmayanları aradan götürülür. Xüsusilə, İEÖ-də sağlamlığın daha da yaxşılaşdırılmasına xidmət edən yeni-yeni növlər istehsala cəlb edilir.

Yeyinti sənayesinin unüyütmə, şəkər, ət, ət məhsulları, süd, süd məhsulları, qənnadı, konserv, yağ, vitamin və s. istehsal edən 30-dan artıq sahəsi vardır.

Başqa sənaye sahələrinə nisbətən, yeyinti sənayesi məhsulları kənd təsərrüfatı ilə daha çox əlaqəlidir. O, kənd təsərrüfatından xammal kimi taxıl, süd, şəkər çuğunduru, şəkər qamışı, kartof, müxtəlif əkinçilik təsərrüfatı məhsulları alaraq bitkiçilik və heyvandarlığa da öz təsirini göstərir. Onun inkişafı isə maşınqayırmadan, elektroenergetikadan, yanacaqdan, nəqliyyatdan çox asılıdır. Buna görə də maşınqayırma, energetika, meşə sənaye sahələri ilə yeyinti sənayesinin sahələrarası istehsal əlaqələri daha da genişlənir.

Yeyinti sənayesi sahələrinin bir qrupu - şəkər, yağ, şərab sahələri xammal mənbələrinə yaxın yerləşdirilirlər. Ət kombinatları istehlakın və heyvandarlığın inkişaf etmiş olduğu yerlərdə yaradılır,

çünki diri mal-qaraya nisbətən, əti daşımaq daha sərfəlidir. Kənd təsərrüfatı xammallarından süd, meyvə və s. daşınma zamanı tez xarab olur. Buna görə də bəzi sahələr istehlaka meyl etməli olurlar. Çörək, makaron, qənnadı istehsalı istehlak yerlərində iri yaşayış məntəqələrində yerləşdirilir. Beləliklə, yeyinti sənayesi məhsullarının inkişafı, yerləşdirilməsi əhalinin miqdarı və yerləşməsi ilə, kənd təsərrüfatı sahəsinin ixtisaslaşması ilə, hazır məhsulun nəql edilməsi şəraiti ilə müəyyən olunur. Deyilənlərlə yanaşı, xammalın müxtəlifliyi və yeyinti məhsulları istehlakının geniş hüdudları yeyinti sənayesi məhsullarının hər yerdə yaradılmasına imkan verir ki, bu da həmin sahəni başqa sahələrdən fərqləndirir. Lakin bəzi yerlərdə bu sahə yalnız yerli əhaliyə xidmət edir, digərlərində isə regionun, ölkənin bir çox rayonları üçün məhsul verir.

Qeyd etmək lazımdır ki, bu sahə eyni zamanda Aqrar Sənaye Kompleksinin bir hissəsidir.

Yeyinti sənayesinin tərkibində ət istehsalı sahəsi çox böyük əhəmiyyət kəsb edir. Son illərdə onun illik istehsalının kəmiyyət göstəricisi 21 i mln. tondan çox olmuşdur. Adambaşına ət istehsalı - 40 kq-a yaxındır. Adambaşına düşən ət istehsalıın kəmiyyət göstəricisi ayrı-ayrı ölkələrdə müxtəlifdir. Bu, Danimarkada - 400 kq-a yaxm, Hindistanda isə - 5,0 kq-dan azdır. istehsal olunmuş ətin strukturasında da fərqlər mövcuddur. ABŞ-da adambaşına düşən donuz əti istehsalı - 31 kq, toyuq əti - 53 kq olduğu halda, dünyada bu müvafiq olaraq - 15 kq və - 9,0 kq təşkil edir. Dünyada ətin ixracat kvotası 5-7,4% arasında dəyişir. Qərbi Avropa - 47% əti ixrac edərək burada Niderland, Fransa, Danimarka dövlətləri fərqlənirlər. Bu sahədə ABŞ-ın xüsusi çəkisi 20% olmaqla dünyada 2-ci, 12% xüsusi çəkiyə malik olan Okeaniya isə dünyada 3-cü yerdədir. AFR, Yaponiya və İtaliya ət idxal edən ölkələrdir.

Maraqlıdır ki, Sakit okeana çıxışı olan ölkələr 70%, Asiya və Cənubi Amerika dəniz məhsullarının 3/4-nü tədarük edirlər. Balıq və müxtəlif dəniz məhsulları verən dünyanın qabaqcıl 10 ölkəsindən 9-u Sakit okean hövzəsində yerləşir. Bu sahədə mübaliğəsiz demək olar ki, Çin dünyada 1-ci yeri tutmaqla ildə 26 mln. ton məhsul verə bilir.

700-dən artıq növü ilə pendir tədarükündə Qərbi Avropa ölkələri həmişə qabaqcıl yer tutmuşlar. Pendir tədarükündə Qərbi Avropadan sonrakı yer Şimali Amerikaya məxsusdur. Hər iki region

dünya pendir tədarükünün 70%-dən artığını verirlər. Şərqi Avropa regionu bu sahədə öz çəkisini 16%-dən 12%-ə endirmişdir. İstehsalın səviyyəsi və adambaşına olan istehsal miqdarı ayrı-ayrı ölkələr üzrə müxtəlifdir. Dünyada bu göstərici adambaşına - 2,6 kq-dırsa, Fransada – 27 kq, Yunanıstanda, Danimarkada və Yeni Zelandiyada - 50 kq-dan artıqdır. Dünyada illik pendir istehsalının - 25%-ni ABŞ, 11%-ni Fransa, 9%-ni Almaniya verməkdədir. Rusiyada ildə adambaşına - 5 kq pendir istehsalı onu hətta Misirdən də (6 kq) geri qoyur.

Ərzaq məhsullarından biri də şəkər sayılır. Adambaşma ildə - 21 kq şəkər istehsal olunursa, Çində bu az - bir neçə kq təşkil edir. Lakin Böyük Britaniyada, Avstraliyada, Kanada və Kubada - 50 kq-dan artıqdır.

Məlumdur ki, şəkərin alınmasının xammalı şəkər çuğunduru və şəkər qamışıdır. Hal-hazırda istehsal olunan şəkərin - 71%-ni şəkər qamışından əldə edirlər. Asiya və Cənubi Amerika regionunun xüsusi çəkisi şəkər istehsalında - 60%-dən çoxdur.

Son illər dünyada - 30 mlrd. litrdən artıq üzünün şərabı istehsalının yarıdan çoxunu İtaliya, Fransa və İspaniya verməkdədir. Pivə buraxılmasında Çexiya, Almaniya, Belçika, ABŞ, Çin fərqlənirlər. ABŞ və Qərbi Avropa ölkələri dünyada istehsal olunan 126 mlrd. litr pivənin – Vi-ni verirlər. Almaniyada 1200-dən çox sayda pivə zavodları fəaliyyətdədirlər. Təkcə Bavariyada - 750 pivə zavodunun olmasını göstərə bilərik. Ölkədə ildə adambaşına-150 litr məhsul istehsal olunur. Ən çox pivə istehsal edən müəssisələr son vaxtlar Çində yaradılmışdır. O ki qaldı Belçika pivəsinə, onun ən böyük istehlakçıları ABŞ, Misir dövlətləridir.

60-dan artıq növü olan tütündən hər il - 5500 mlrd. ədəd papiros düzəldilir. Bunun - 650 mlrd. ədədi ABŞ-da, 750 mlrd. ədədi Avropa Birliyi ölkələrində, 1647 mlrd. ədədi Çində, 175 mlrd. ədədi Braziliyada, 190 mlrd. ədədi RF-də buraxılır. ABŞ öz ölkəsində tələbat üçün az nikotinli, ixracat üçün isə çox nikotinli papiros buraxır. O, Rusiyaya, Avroasiyanın müsəlman ölkələrinə ixrac olunur.

V.8. Aqrar sənaye kompleksi

Aqrar sənaye kompleksi (ASK) hər hansı bir ölkə təsərrüfatının tərkib hissələrindən biridir. Ölkənin sosial-iqtisadi inkişafının, xalqın maddi rifah halının daha da yüksəldilməsi ASK-nın hərtərəfli inkişafı və onun effektivliyinin, səmərəliliyinin daha da artırılması ilə sıx surətdə bağlıdır.

ASK-nın strukturu 3 aparıcı sferadan, istehsal və infrastruktur sahələrdən ibarətdir. Bunlardan 1-cisi ASK-nın istehsal vasitələri istehsalı sahəsini (traktor, digər müxtəlif maşınlar, kimya və s.), 2-cisi kənd təsərrüfatı və meşə təsərrüfatını, 3-cüsü kənd təsərrüfatı məhsullarının toplanmasını, saxlanmasını, emalını və onların reallaşdırılmasını əks etdirir.

ASK-nın sürətli inkişafı isə kənd təsərrüfatının və digər yardımçı sahələrin texniki avadanlıqlarla daha yaxşı təmin edilməsi ilə bağlıdır.

ASK-nın inkişafı və formalaşmasında 80-dən artıq xalq təsərrüfatı sahəsi iştirak edir. O, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə biri-biri ilə əlaqədə olan kənd təsərrüfatı və sənaye müəssisələrinin müəyyən ərazidə birləşməsini təmin edir. Onun əsas vəzifəsi kənd təsərrüfatı məhsulları istehsalının sabit artımı şərti ilə əhalini ərzaq və digər kənd təsərrüfatı məhsulları ilə, heyvandarlığı yemlə, ayrı-ayrı sənaye sahələrini müxtəlif növ xammallarla təmin etməkdən ibarətdir.

ASK-nın inkişafı biri-biri ilə əlaqəli olan çoxlu sayda məsələləri həll edir. Buraya maddi-texniki bazanın təkmilləşdirilməsi, ərzaq probleminin həllinin başlıca istiqamətləri, istehsal və sosial-məişət infrastrukturunun formalaşdırılması, iqtisadi səmərəliliyin daha da yüksəldilməsi təsərrüfat mexanizminin getdikcə təkmilləşdirilməsi və s. daxildir. Onun mahiyyəti ETT-nin, əmək məhsuldarlığının yüksəldilməsi, məhsulun keyfiyyətinin yaxşılaşdırılması və onun dəyərinin aşağı salınmasını təmin etmək şərti ilə həm də kənd təsərrüfatı məhsullarının istehsalını, satışını, daşınmasını, sənaye emalını məqsədyönümlü surətdə birləşdirməkdən ibarətdir. Bunlarla yanaşı o, kənd təsərrüfatı məhsulları istehsalına emaledici sənayenin təsirini daha da gücləndirir.Bunun da nəticəsində kadrların peşə-texniki səviyyəsinə, xammalın keyfiyyətinə və nəqlinin ahəngdarlığına qarşı tələblər daha da artmış olur. Kənd təsərrüfatı ilə emaledici sənaye müəssisələri arasında birbaşa müqavilə əlaqələri keyfiyyətcə yeni pilləyə qalxır. Beləliklə də, əmək və material ehtiyatlarından istifadənin

mövsümiliyi azalır, təsərrüfatların daha möhkəmləndirilməsi və genişləndirilməsi üzrə iri obyektlər tikilməsinə, ən yeni texnika və avadanlıqlar alınmasına yönəltməyə imkan verir. Fondla və enerji ilə təchizatın artımı aqrar əməyini sənaye əməyinin bir növünə çevirmiş olur. Eyni zamanda ASK elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi üçün geniş imkanlar yaradır. Deyilənlərlə yanaşı, ASK inteqrasiyası istehsalın ümumi faydalılığına nəzərəçarpacaq dərəcədə təsir göstərir, istehsalın optimal həcmdə ixtisaslaşdırılmasına, torpaqlardan daha məqsədəuyğun istifadə edilməsinə, çoxillik əkinlərin, ümumi əkin sahələrinin strukturunun daha da təkmilləşdirilməsinə, meyvə-tərəvəz anbarlarından, digər saxlama yerlərindən və soyuducu tikililərdən (obyektlərdən) yaxşı istifadə olunmasına, itki və tullantıların azalmasına şərait yaradır.

ASK kənd təsərrüfatı məhsulları və xammalların istehsalı, emalı, saxlanması və satışı proseslərində qarşıhqlı surətdə əlaqədə olan bütün müəssisələrin səylərini birləşdirməyə imkan verir. Son məhsul buraxılışının məqsədəuyğun təşkilinə, iqtisadi səmərəliliyinin yüksəldilməsinə, onların istehlakçıya vaxtlı-vaxtında çatdırılmasına kömək edir, həm də fəaliyyətləri vahid idarəetmə, planlaşdırma və gəlirlərin bölüşdürülməsi sistemi əsasında qurulan kənd təsərrüfatı və sənaye müəssisələrinin və b. obyektlərin qarşılıqlı istehsal münasibətlərinin təşkilat formalarını nəzərdə tutur.

ASK ictimai istehsalın təşkilinin yeni formalarının yaranmasına və inkişaf etdirilməsinə gətirib çıxarır. O, sənaye müəssisələrinin xammal rayonlarına yaxınlaşdırılmasını təmin edir, işçi qüvvəsindən səmərəli istifadə etməyə və istehsalın rentabelliyini yüksəltməyə imkan verir, kənddə istehsalı daha da təkmilləşdirməyin mühüm vasitəsinə çevrilir.

ASK-nın bütün səviyyələrdə vahid bir tam kimi idarə edilməsi, planlaşdırılması və maliyyələşdirilməsi əsasında kənd təsərrüfatı məhsulları istehsalının və onunla əlaqədə olan digər sahələrin balanslaşdırılma şəklində inkişafını təmin etmək və bununla da ət, süd və b. məhsulların istehsalı və istehlakının daima artırılması əsas vəzifə sayılır.

ASK-mn aparıcı sahəsi kənd təsərrüfatıdır. O, maddi istehsalın sənayedən sonra 2-ci aparıcı sahəsi hesab edilir. Küveyti və Sinqapuru nəzərə almasaq dünyanın elə bir ölkəsi yoxdur ki, əhali orada kənd təsərrüfatı ilə məşğul olmasın. Dünyada elə bir istehsal

sahəsi yoxdur ki, orada da 1,3 mlrd. nəfər (iqtisadi cəhətdən fəal əhalinin - 46%-i) işçi cəmləşmiş olsun. Kənd yerlərində yaşayanların sayı isə - 2,6 mlrd. nəfər təşkil edir. İllik məhsul istehsalının 1/10-i kənd təsərrüfatının payına düşür. Dünya ticarətinin - ixracatında kənd təsərrüfatı məhsullarının çəkisi - 10% təşkil edir. Lakin tərkibinin mürəkkəbliyinə və zənginliyinə görə o heç bir təsərrüfat sahəsinə bənzəmir.

Kənd təsərrüfatının inkişafı ekstensiv və intensiv yollarla təmin edilir. Ekstensiv üsul əkin sahələrinin genişləndirilməsi, əvvəllər istifadə olunmamış torpaq sahələrinin istifadəyə verilməsi, heyvanların sayının çoxaldılması nəticəsində ha hesabı ilə məhsul istehsalını artırmaq intensiv inkişaf yolu adlanır.

Kənd təsərrüfatının intensivliyinə suvarma, kimyalaşdırma, elektrikləşdirmə, mexanikləşdirmədən başqa, əsas istehsal proseslərinin avtomatlaşdırılması nəticəsində nail olmaq mümkündür. Bir sözlə, intensivləşdirmə istehsalın texniki cəhətdən təchizatını daha da yaxşılaşdırmaqla onun səmərəliliyinin artırılması kimi başa düşülür.

Kənd təsərrüfatı dünya regionlarında müxtəlif inkişafa malik olduğundan bu və ya digər tədbirlər həyata keçirilir. Bu sahədə İOÖ-in keçirdiyi tədbirlər daha çox diqqəti cəlb edir. Bu tədbirlərdən biri kənd təsərrfatında "yaşıl inqilab"ın həyata keçirilməsidir. Burada ETİ-in nailiyyətlərindən istifadə edərək kənd təsərrüfatına ha hesabı ilə daha çox məhsul verə bilən bitki sortlarının daxil edilməsi, irriqasiya işlərinin yüksək səviyyədə aparılması, kənd təsərrüfatı sahələrinin sənayeləşdirilməsi - maşınlaşdırılması, kimyalaşdırılması, elektrikləşdirilməsi, avtomatlaşdırılması, bitkilərin qorunmasına lazım olan vasitələrdən istifadə gündəmə gəlir.

"Yaşıl inqilab" tətbiq edərək İOÖ kənd təsərrüfatında xeyli irəliləyişlərə nail olmuşlar. Hətta, Hindistan, Pakistan, Tailand, İndoneziya, Çin hətta taxıl idxalatını da azaltmış, ya da ki, tamamilə yox etmişlər.

Sənayedən fərqli olaraq, kənd təsərrüfatı məhsulları istehsalı relyefi, mikroiqlimi, torpaqları müxtəlif olan çox geniş sahələrdə əldə edilir. Kənd təsərrüfatında bir çox istehsal prosesləri mövsümi xarakter daşıyır, çünki bunlar bitkilərin boy artması və heyvanların

inkişafının təbii şəraiti ilə əlaqədardır. Təbii şərait kənd tasərrüfatı əməyinin gedişinə böyük təsir göstərir.

Mexanikləşdirmə, elektrikləşdirmə, eləcə də kimyalaşdırma - yüksək məhsuldarlı kənd təsərrüfatının inkişafı üçün başlıca şərtlərdən sayılır. Bunları yalnız güclü sənayenin mövcudluğu şəraitində həyata keçirmək mümkündür. Bu sahədə İEÖ seçilirlər.

İqtisadi cəhətdən fəal olan əhalinin - 46 faizinin çalışdığı kənd təsərrüfatının ixtiyarına - 4,9 mlrd. ha və ya ümumi torpaq sahəsinin - 37%-i verilmişdir. Dünyada illik kənd təsərrüfatı məhsulları istehsalının 1/3-ni verən suvarılan torpaqların ümumi sahəsi - 270 mln. ha-ra çatır. Bunun 57 mln.ha-rı Hindistanda, 52 mln. ha-rı Çində və 21 mln. ha-rı ABŞ-da istifadədir. Qeyd etmək lazımdır ki, yer kürəsində deqradasiyaya məruz qalan torpaqlar da vardır ki, onlar da ümumi torpaq sahəsinin - 15-17%-indən çoxdur. Belə torpaqlar Avropada - 23%, Asiyada - 18%, Afrikada - 17%, Cənubi Amerikada - 14%, Okeaniyada - 12% və Şimali Amerikada - 7%-dən çoxdur. Kənd təsərrüfatı üçün yararlı torpaqlar Avropada ümumi torpaqların - 47%-nə, Okeaniyada - 58%-nə, Asiyada isə - 42%-inə bərabərdir. İşlənən torpaqlar ən çox Cənubi və Cənubi - Şərqi Asiya və Şimali Amerika regionundadırsa, ən çox biçənək sahələri Latın Amerikasında və Avstraliyada mövcuddur. Çin, Avstraliya, ABŞ və Rusiya Federasiyası kənd təsərrüfatı üçün yararlı torpaqlarının çoxluğu ilə tanınırlar.

Əhalinin sayının artımı ilə və başqa amillərlə bağlı olaraq adambaşma düşən əkin sahələri də ayrı-ayrı ölkələrdə az və ya çoxdur. Bu, dünyada adambaşına - 0,3 ha, Qazaxıstanda - 1,9 ha, Kanadada - 1,5 ha, Çində - 0,1 ha, Yaponiyada - 0,03 ha-dan çox deyildir. Kənd təsərrüfatına yararlı torpaq sahəsinin - 70%-ni biçənəklər, - 28%-ni əkin sahələri və -2%-ni çoxillik bitki sahələri örtmüşdür.

Qeyd etdik ki, kənd təsərrüfatı bitkiləri yetişdirməklə bərabər heyvanlar saxlamaqla məşğul olan xalq təsərrüfatının aparıcı sahəsi kimi tanınır. Bitkiçilik dünyanın bir çox ölkələrində məhsul istehsalında liderlik etsə də, İEO-in əksəriyyətində heyvandarlıq məhsulları aparıcı rol oynayır. Bununla yanaşı, İOÖ-dən Monqolustanda, Uruqvayda, Mavritaniyada heyvandarlıq məhsulları əkinçiliyə nisbətən çox məhsul verməsi ilə diqqəti cəlb edir. ABŞ-da

heyvandarlıq məhsulları ilə bitkiçilik məhsulları eyni miqdarda məhsul verirlər.

Bitkiçilik sahəsində taxılçılıq, texniki bitkilər becərilməsi, subtropik bitkiçiliyi, bağçılıq, bostan və tərəvəzçilik, üzümçülük, yağlı bitkilər, yem bitkiləri becərilməsi sahələri öz əkslərini tapmışlar.

Ərzaq çatışmamazlığının qarşısının alınmasında, heyvandarlıq üçün yem hazırlanmasında, ayrı-ayrı sənaye sahələri üçün xammal rolunu oynamaqda taxılçılıq təsərrüfatı ölçüyə gəlməz rol oynayır. Onun buğda, qarğıdalı, çəltik, arpa, darı, çovdar, vələmir və bir sıra yerli əhəmiyyət kəsb edən növləri vardır. O, dünyada strateji əhəmiyyət kəsb edən sahə kimi də tanınır.

Müasir dünya taxılçılıq təsərrüfatının əkin sahəsi, ümumi məhsul toplanması, beynəlxalq ticarət və istehlak kimi dörd ayrılmaz hissəsi mövcuddur.

Taxılçılıq təsərrüfatının inkişaf etdirilməsi üçün - 650 mln. ha əkin sahəsi (45%) ayrılmışdır. Dünya regionları, eləcə də ölkələri taxılçılığın kəmiyyət-keyfiyyət göstəricilərində biri-birindən fərqlənirlər. Daha doğrusu, Rusiyada, Böyük Britaniyada, Fransada, İtaliyada, ABŞ-da ümumi əkin sahəsinin 50-60%-i, Polşada, Macarıstanda, Rummiyada - 60-65%, Almaniyada - 70%-dən artığı, Vyetnamda - 80%-i, Yaponiyada - 90%-dən artığı taxılçılıq üçün ayrılmışdır.

Taxılçıhq sahəsində buğda, çəltik və qarğıdalı daha çox əkin sahəsinə malikdir. Daha doğrusu, dünyada buğda becərilməsinə -215 mln. ha, çəltik becərilməsinə - 155 min ha, qarğıdalı becərilməsinə - 140 mln. ha əkin sahəsi ayrılmışdır.

Hər il dünyada 2,2 mlrd. tondan artıq taxıl tədarük olunur ki, burada da - Çin - 504 mln. ton, ABŞ - 350 mln. t, Hindistan - 225 mln. ton, Rusiya- 87 mln. t, Fransa - 65 mln. ton, İndoneziya - 55 mln. ton, Kanada - 50 mln. ton, AFR- 45 mln. ton, Braziliya - 45 mln. ton, Argentina - 35 mln. ton taxıl tədarük edirlər. Tədarük olunmuş taxılın - 876 mln. tonu yemçilikdə istifadə olunur. Bu məqsəd üçün - ABŞ-da -257 mln. t, Avropa İttifaqı ölkələrində - 102 mln. t, Çində - 139 mln. t, Kanadada - 27 mln. t, Rusiyada - 22 mln. t məhsul toplanmışdır.

Hal-hazırda dünyada adambaşına ildə 336 kq-a qədər taxıl tədarük olunduğu göstərilir. Bu, Kanadada - 1716 kq, Macarıstanda -

1204 kq, ABŞ-da 1065 kq, Çində - 333 kq, Yaponiyada - 128 kq-dan çox deyildir.

Taxıl tədarükündə Cənubun xüsusi çəkisi - 55%-dən artıqdır.

Buğda əkinləri üçün ayrılmış 230 mln. ha-dan XX əsrin sonu XXI əsrin başlanğıcında 600 mln. t məhsul toplamlmışdır. Dünyanın 70-dən artıq ölkəsində buğdanın - 20-dən çox növü becərilsə də, üstünlük qnun bərk və yumşaq növlərinin əkilməsinə verilir. Bərk növlərdən makaron, vermişel və s. əldə edilməsində geniş istifadə olunur. Məhsul tədarükündə Çin liderlik edərək ildə -121 mln. t. kəmiyyət göstəricisinə malikdir. Sonrakı yerləri - Hindistan (76 mln. t), ABŞ (63 mln. t), RF (35 mln. t) tuturlar. Buğda ilk dəfə Qabaq Asiyada, sonra isə Aralıq dəniz hövzəsi ölkələrində və Afrikanın Şimal ərazilərində becərilmişdir.

Çovdar ərzaq və yem məhsullarında xammal kimi istifadə olunur. Əkin sahəsi 11 mln. ha, illik toplanan məhsul isə 23 mln. tondan artıqdır. Rusiyada, Polşada, AFR-də, Belorusiyada, Kanadada, ABŞ-da, Çində və Qazaxıstanda becərilir.

Əsasən atçılıq təsərrüfatında yem kimi istifadə edilən yulaf Şimali Amerikada, Qərbi Avropada, Rusiyada, Kanadada, Polşada, AFR-də, Avstraliyada becərilərək əkin sahəsi 16 mln. ha, məhsul tədarükü - 30 mln. tondan artıqdır. Bu sahədə Kanada dünyada 1-ci yeri tutur.

Arpa yem üçün tədarük olunan məhsullar içərisində özünəməxsus yer tutur. Ən çox pivə hazırlanmasında gərəkli sayılan xammaldır. Qərbi Avropada, Şərqi Avropa ölkələrində, Qabaq və Şərqi Asiya regionunda - 64 mln. ha əkin sahəsindən - 150 mln. t məhsul toplanılır. Ölkələrdən RF, Kanada, Ukrayna, AFR, ABŞ, Fransa, İspaniya, Türkiyə seçilirlər. Arpa ən çox pivə alınmasın istifadə olunur. Almaniyada -1200dən artıq pivə istehsal edən müəssisə fəaliyyət göstərir. Burada ildə adambaşına - 150 litr pivə buraxılır. Belçika da həm istehsalına, həm də ixracatına görə qabaqcıl yer tutur. Pivənin ən çox istehlakçısı Çin sayılır. Bu sahədə Çexiyanın da adını çəkməklə dünyada ildə 1,0 mlrd. qektolitr məhsul istehsal olunur.

Qarğıdalı Amerika bitkisi olub - 140 mln. ha əkin sahəsinə, ildə - 600 mln. t məhsul istehsalına malik olan tropik zonanın bitkisi sayılır. Onun 7 növü vardır. O, əsasən Şimali Amerikada, Asiyada becərilir. Son vaxtlar Çin, Braziliya, Meksika, Fransa, Argentina,

CAR, Koreya Respublikası, Malayziya qarğıdalı əkinləri ilə tanınmaqdadırlar. Eyni zamanda, Yaponiya, Koreya Respublikası, Çin, RF, Malayziya ən çox qarğıdalı məhsulu idxal edən ölkələrdir. ABŞ-da qarğıdalı əkilməsi, becərilməsi, yığılması 100% mexanikləşdirilmişdir. Hər il ABŞ-da 268 mln. t qarğıdalı məhsulu toplamlır. Bu, Çində - 137,3 mln. t., Braziliyada - 38 mln. t, Kanadada - 28 mln. t, RF-də 31,2 mln. t. Meksikada - 26 mln. t-dan çox deyildir.

Planetimizin 2,0 mlrd. nəfərə qədər əhalisinin ərzaq məhsulunu çəltik təşkil edir. Onun 70-dən az olmayan növü becərilir. Başlıca olaraq ekvatorial, tropik və subtropik qurşaqlarda becərilir. Onun vətəni Hindistandır. Əkin sahəsi - 151 mln. ha-dır. Ondan da ildə - 600 mln. t məhsul əldə edilir.

Asiya ölkələri illik çəltik məhsulu toplantısının 9/10-nu, yerdə qalanını isə Cənubi Amerika, Şimali Amerika, Afrika ölkələri verirlər. İldə Çin -192 mln. t, Hindistan - 132 mln. t, İndoneziya - 51 mln. t, Banqladeş - 34 mln. t, Vyetnam - 32 mln. t., Myanma - 30 mln. t, Tailand - 25 mln. t., Filippin - 13 mln. t, Yaponiya - 11 mln. t. və Braziliya - 10 mln. t. çəltik məhsulu vermə gücünə malikdir.

Dari və sorqo (darıya oxşar dənli bitki) Afrikada, Asiyada, ABŞ-da, Çində, Hindistanda, MDB məkanında becərilməklə ümumi əkin sahəsi - 83 mln. ha olsa da ildə 25 mln. t məhsul toplamlır. Əsasən heyvandarhğın yemi üçün istifadə olunur.

Soya əsasən ərzaq bitkisi olmaqla ABŞ-da, Çində, Cənubi Amerikada becərilir. Əkin sahəsi - 66 mln. ha-ya çatır. Dünyanın 40-dan artıq ölkəsində becərilməklə illik məhsul toplantısı - 150 mln. tona qədərdir. ABŞ həm tədarükündə, həm də ixracatında liderlik edir. İkinci, üçüncü yerləri Çin və Braziliya tuturlar. ABŞ-da məhsul toplantısı - 75 mln. tondan çoxdur (50%-dən çox).

Taxılçılıq təsərrüfatının ümumi şərhindən sonra qeyd edə bilərik ki, 1970-ci ildə dünya bazarına - 80 mln. t taxıl çıxarılmışdırsa, son illər bu 210 mln. tondan artıq olmuşdur. Aparıcı buğda ixracatçılarına - ABŞ, Kanada, Avstraliya, Fransa; qarğıdalı ixracatçılarına - ABŞ, Fransa, Argentina; çəltin ixracatçılarına - Tailand, ABŞ, Hindistan, Pakistan və Vyetnamı aid etmək mümkündür.

İldə 1-30 mln. ton arasında taxıl idxal edən ölkələrə Yaponiya, RF, Tayvan, Koreya Respublikası, Çin, Misir, Braziliya, İran, İndoneziya, Pakistan, Banqladeş, Filippin, Əlcəzair, Venesuela, Mərakeş, Kuba və Səudiyyə Ərəbistanı misal ola bilər. Buraya az da olsa taxıl idxal edən daha 110 dövlətin adını daxil etmək olar.

Əkinçilik sahəsinin biri də texniki emala malik olmaqla ondan yeyinti, yüngül sənayedə və heyvandarlığın inkişaf etdirilməsində xammal kimi geniş istifadə olunan texniki bitkilər hesab edilir. Onlardan, eyni zamanda, hərbi sənayedə də istifadə etmək gərəkli olur. Bunlardan şəkər alınmasında istifadə olunan - şəkər qamışını və şəkər çuğundurunu, eləcə də, günəbaxan, pambığı, kartofu, lifli kətam, tütünü və başqalarını göstərə bilərik.

Adları sadalanan texniki bitkilər təbii şəraitə çox həssas, daha çox əmək və kapital tutumlu, əmtəəli, ixracat üçün yararlı xüsusiyyətləri ilə tanınırlar. Bunlar tərkib və keyfiyyətlərinə görə (yağlı, şəkərli, kökü meyvəli, həyat tonusunu yüksəldən, narkotik, meyvə) də qruplaşırlar.

Yağ alınmasında geniş istifadə olunanlara günəbaxanı, araxisi, rapsı, küncütü, qıvrımlı kətanı, pambığı, zeytunu, tünq ağacını, palmanı aid edə bilərik. Yağ alınmasında gərəkli olan bitkilərin məhsul toplantısının illik miqdarı ildən-ilə dəyişərək son vaxtlar -350-400 mln. tona çatmışdır.

Günəbaxan Argentinada (6,5 mln. t), Rusiyada (4,2 mln. t.), Ukraynada (2,8 mln. t), ABŞ-da (2,0 mln. t), Fransada (1,9 mln. t), Çində (1,6 mln. t), Hindistanda (1,3 mln. t), Rummiyada (1,2 mln. t) becərilərək illik məhsul tədarükü - 27-30 mln. tona çatır. Onun vətəni Şimali Amerika sayılır. Yayılma arealları şəkər çuğunduru ilə üst-üstə düşür.

Raps yağ alınmasında, eləcə də heyvandarlığın inkişafında yem kimi istifadə olunur. Yazlıq və payızlıq növlərə malik olmaqla yağlılıq dərəcəsi - 50% təşkil edir. Almaniyada, Danimarkada, Finlandiyada, Kanadada, Çində, Hindistanda becərilir. İllik toxum məhsulu tədarükü 50 mln. ton təşkil edir.

Zeytunun dünyada 60-dan az olmayan növü tanınır. O, həmişəyaşıl olmaqla Aralıq dənizi regionunda - İspaniyada, İtaliyada, Yunanıstanda, eləcə də Portuqaliyada, Albaniyada, Maqrib

ölkələrindən olan - Liviyada, Əlcəzairdə, Tunisdə, Mərakeşdə, əlbəttə, Azərbaycanın Abşeron bölgəsində becərilir. Məhsul tədarükündə İtaliya liderlik edir. Azərbaycanda 250 ha bar verən sahədən ildə yağ alınmasında, turşuya qoyulmasında istifadə üçün 300 min ton zeytun məhsulu toplanılır. Dünyada isə ildə - 3,0 mln. ton zeytun məhsulu toplamaq mümkündür.

Araxis 30-dan çox növə malik olmaqla dünyanın 300-400 mm yağıntı düşən bölgələrində - Afrikanın Saxel hissəsində, ABŞ-m Corciya ştatı ərazisində, Hindistanda, Seneqalda, Qambiyada, Malidə, Nigeriyada, Çində, Argentinada becərilir. Onun yağlılıq dərəcəsi - 42%-dən çox olmamaqla təmizlənmiş illik məhsul yığımı - 700 min ton olsa da xam halda o 21 mln. tondan artığa çatır. Hindistan - 6,3 mln. t; Seneqal, Qambiya, Mali, Nigeriya birlikdə - 4,3 mln. ton, ABŞ - 3,0 mln. t məhsul verməklə sonrakı yerlər Çin və Argentinaya məxsusdur.

Palma-tropik və ekvatorial Afrikada, Malayziyada, Hindistanda əkin sahələrinə malikdir.

Kokos palması dünyanın 90-dan çox ölkəsində becərilməklə ümuməkin sahəsi 10 mln. ha-dır. Asiya-Sakit okean regionunda, Okeaniyada əkin sahələrinə malikdir. Onun meyvəsinin hər birisinin çəkisi 1,5-2,5 kq-a çatır. Belə xammallardan nəinki yağ alınır, hətta ondan süd də əldə etmək mümkündür.

Hər il dünyada yuxada göstərilən xammallardan - soyadan ABŞ - 6,0 mln. ton, Braziliya - 2,6 mln. t yağ alırlar. İldə günəbaxandan 8,0 mln. tona qədər yağ alınır ki, onun da 2,0 mln. tonunu MDB məkanı ölkələri verir. Dünyada 4,1 mln. ton zeytun yağının-verən ölkələr -Tspaniya (2,2 mln. t), İtaliya - (0,6 mln. t), Yunanıstan (0,6 mln. t), Portuqaliya (0,4 mln. t) və Tunis (0,2 mln. ton) sayılırlar. Hər il dünyada - 4,0 mln. ton pambıq yağı əldə olunur. Bu sahədə Çin (1,0 mln. t) fərqlənir. İstehsal olunan - 12,1 mln. ton palma yağının istehsalçıları - Malayziya - 6,6 mln. t, İndoneziya - 3,0 mln. t sayılırlar.

Dünyada istehsal olunmuş bitki yağının - 23,0 mln. tonu ixrac olunur.

Şəkər alınmasında ancaq şəkər qamışı və şəkər çuğunduru istifadə olunur.

Şəkər qamışı qədim növ olsa da, şəkər çuğunduru XVIII əsrin sonlarında Almaniyada mövcudlaşmışdır. Belə ki, şəkər çuğundurundan şəkər alınması üçün ilk zavod Almaniyada yaradılmışdır. Müasir dünyada hər iki xammaldan şəkər alınmasının nisbəti 70:30 kimi olmaqla şəkər qamışının xeyrinədir. Şəkər qamışı çoxillik, istiliksevən növ olmaqla tropik və subtropik qurşağın musson iqliminə malik olan ölkələrində geniş sahələrlə tanınır. Onun vegetasiya dövründə illik temperaturun miqdarı - 6000°S-yə qədər olur. Ildə - 1,2 mlrd. ton məhsulun çoxunu (19 mln. ha sahədən) İOÖ-lər verirlər. Bunlara Çini, Kubanı, Braziliyanı, Hindistanı aid etmək olar. İldə - 140 mln. tona qədər şəkə istehsal olunur ki, onun da 100 mln. tonunu şəkər qamışmdan əldə edirlər.

Qeyd etmək lazımdır ki, Braziliya ildə şəkər qamışından 21,0 mln. t, Hindistan - 14,2 mln. t, Çin - 8,6 mln. t, Avstraliya - 5,8 mln. t şəkər istehsalına malikdirlər.

Şəkər çuğundurundan ərzaq məhsulu alınmasında, həm də heyvandarlığın inkişafında yem kimi geniş istifadə olunur. O, mülayim iqlim qurşağının birillik bitkisidir. İllik tədarükü - 300 mln. t (əkin sahəsi - 7,0 mln. ha) olmaqla Ukraynada (31 mln. ton), Rusiyada (26 mln. t), Fransada (26 mln. t), ABŞ-da (23 mln. t) becərilir. Göstərilənlərdən başqa, Niderlandda, Polşada, Türkiyədə, Almaniyada, Çində, Danimarkada, Norveçdə, İsveçdə, Azərbaycanda şəkər çuğunduru əkilir. Qeyd etmək yerinə düşərdi ki, ABŞ hər il şəkər çuğundurundan 7,6 mln. t, Fransa 4,3 mln. t, Almaniya 4,0 mln. t, Türkiyə 2,7 mln. ton şəkər istehsal edirlər.

Texniki bitkilərin aparıcı növlərindən biri də kartofdur. Əsasən mülayim qurşağın Avropa ölkələrində, eləcə də Asiyada, Şimali Amerika regionlarında becərilərək ümumi əkin sahəsi - 20 mln. ha-nı keçərək illik toplanmış məhsulun miqdarı - 300 mln. tondan az deyildir. Bu sahədə Çin - 60 mln. t, RF - 34 mln. t, Hindistan - 23 mln. t, ABŞ - 22 mln. t, Polşa 20 mln. t, Ukrayna - 15 mln. t, AFR-11,0 mln. t, Belorusiya - 8,0 mln. ton, Niderland - 8,0 mln. t, Böyük Britaniya - 7,0 mln. t illik məhsul verməklə seçilirlər. Belarusiya -800 kq, Polşa - 520 kq, Niderland - 500 kq, Ukrayna - 300 kq adambaşma məhsul verirlər. Niderland ildə - 1,5 mln. t kartof məhsulu ixrac edərək bu sahədə liderlik edir. Almaniya, Fransa, Belçika və Kanadada bu ixracat ildə 0,5 -1,0 mln. ton arasında dəyişir.

Ərzaq, yüngül, hərbi sənaye üçün məhsullar alınmasında, eləcə də heyvandarlığın yemi olan jımıx alınmasında pambıqçılığın xüsusi əhəmiyyəti vardır. Pambıq subtropik və tropik qurşaqlarda becərilməklə - 35 mln. ha əkin sahəsinin olması ilə, 20 mln. tondan çox məhsul istehsalı ilə tanınır. Regionlardan - MDB, - 7,9%, Qərbi Avropa - 2,3%, Xarici Asiya - 51,5%, Afrika - 9,0%, Şimali Amerika . 454% və Avstraliya - 3,3% illik məhsul verməklə dünya bazarına məhsul ixrac edirlər. Pambıq lifi verilməsində isə - Çin - 4,1 mln. t, ABŞ - 3,9 mln. t, Hindistan - 2,7 mln. t, Pakistan - 1,9 mln. t, Özbəkistan - 1,2 mln. t, Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğızıstan birlikdə - 2,0 mln. t, Türkiyə - 0,8 mln. t, Avstraliya - 0,7 mln. t, Braziliya - 0,6 mln. t, Yunanıstan - 0,4 mln. t, Misir - 0,2 mln. t məhsul verməklə qədimdən əkin sahələrinə malikdirlər.

Pambıqçılığın inkişafına görə dünyada Şərqi və Cənubi Şərqi Asiya - Çin, Hindistan, Pakistan; Mərkəzi Asiya - Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğızıstan, Qazaxıstan; Cənubi-Qərbi Asiya - Türkiyə, Suriya, İran, İsrail; Qərbi Avropa – Yunaınstan, İspaniya; Afrika - Misir, Sudan, Mali, Kot d İvuar, Burkina - Faso, Benin, Çad, Zimbabre, Mozambik, Tanzaniya, CAR; Şimali Amerika - ABŞ, Meksika; Cənubi Amerika - Braziliya, Argentina, Paraqvay, Peru; Avstraliya; Azərbaycan arealları ayrılır.

Hər il tədarük olunmuş pambığın 1/3-i dünya bazarına çıxarılır. Bu sahədə ABŞ, Özbəkistan, Türkmənistan, Avstraliya, Yunanıstan, Suriya, Misir, Qərbi Afrika ölkələri demək olar ki, "ixtisaslaşmışlar".

Əsasən Avropa bitkisi sayılan uzun lifli kətan Misirdə, Türkiyədə, Hindistanda, ABŞ və Argentinada, Rusiya və Belarusiya ərazilərində becərilir. Onun 230-dan çox növü vardır. Məhsulu ən çox gəmiçilik üçün gərəkli olur.

Cüt - kisələrin, torların, kəndirlərin hazırlanmasında xammal kimi geniş istifadə olunaraq əsasən Banqladeş və Hindistanda becərilir. Burada Hind və Qanq çaylarının deltaları cütün becərilməsi üçün əlverişli şəraitə malikdir.

Cənubi-Şərqi Asiyanın Tailand, İndoneziya, Malayziya ölkələri ərazisində, habelə Hindistanda, Çində, Filippində, Şri-Lankada, Afrikanın Nigeriyasında qeveya ağacından təbii kauçuk

əldə olunur. İldə toplanan 7,0 mln. t təbii kauçuk məhsulunun - 5,0 mln. tona qədərini Tailand, İndoneziya və Malayziya verməkdədir.

Tütün becərilməsi ilə dünyada - 35 mln. işçi qüvvəsi çalışdığı halda 100 mln-dan artıq əhali ondan xeyir götürür. Onun 60-dan artıq növü məlumdur. Hər il 8 mln. tondan az olmayan məhsulun verilməsində ABŞ, Çin, Hindistan, Türkiyə, Pakistan, Yunanıstan, İtaliya, Zimbabre, Malavi, Braziliya, Argentina, Yaponiya, İndoneziya, Koreya Respublikası, Azərbaycan, Gürcüstan kimi dövlətlər iştirak edirlər. Tütün yığılmasında Çin (2,7 mln. t) dünyada 1-ci yer tutursa, 2-ci yer ABŞ-a (0,7 mln. t) məxsusdur. Siqaret buraxılmasında (dünyada 5,5 mln. t) Asiya Çinin (1647 mlrd. ədəd), Yaponiyanın, İndoneziyanın, Koreya Respublikasının, Hindistanın hesabına dünya regionları arasında liderlik edərək - 2,8 mln. t məhsul toplantısı ilə fərqlənir.

Kolumbiya, Şərqi Asiya (Myanma, Çin, Laos), Orta Şərq (Əfqanıstan), Mərkəzi Asiya (Qırğızıstan, Cənubi Qazaxıstan) narkotik məhsullar becərilməsinin başlıca rayonları sayılırlar.

İnsanların həyat tonusunu yüksəldən bitkilərdən çay, kofe və kakaonun adını çəkə bilərik.

Dünyanın 49 ölkəsində 1000-dən artıq növü olan çay qədim bitkilərdən sayılır. Onun vətəni Çin hesab edilir. Onun Çində 6 növü becərılir. İldə dünyada 2-8-3,0 mln. ton məhsul istehsalında Hindistan - 810 min t, Çin - 616 min t, Şri-Lanka, Böyük Britaniya, Keniya, RF, Azərbaycan, Gürcüstan tanınırlar. Keyfiyyətli çay istehsalında Şri-Lanka, Hindistan qabaqda gedirlər.

Kofenin vətəni Efiopiyadır. 40-dan artıq növə malik olmaqla ildə - 6,5 mln. ton məhsul istehsal olunur. Tanınan ölkələr Kolumbiya - 0,73 mln. t, İndoneziya - 0,37 mln. t, Kot d İuvar - 0,28 mln. t, Meksika - 0,22 mln. t, Qvatemala - 0,17 mln. t, Kosta-Rika - 0,15 mln. t məhsul verməklə tanınırlar. "Arabika" növü məhsul istehsalında 1-ci yeri tutsa da "robusta" növü ən bahalı sayılaraq 1,0 tonu 1000 dollara satılır.

Həmişəyaşıl bitki növlərindən sayılan kakaonun vətəni Cənubi Amerikadır. İstehsalı - 3,0 mln. tondan az deyildir. Braziliyada, İndoneziyada, Qanada, Malayziyada, Nigeriyada, Kamerunda, Ekvadorda, Kolumbiyada, Niderlandda, ABŞ-da, Kot d İvuarda əkilir. Kakaonun 1,0 tonu 923 dollara satılır. Məhsul istehsalında Qərbi Afrika 1-ci, Latın Amerikası 2-ci və Cənubi-Şərqi Asiya regionu 3-cü yeri tutur.

Subtropik qurşağın rütubətli areallarında üzümçülük sahəsi inkişaf etdirilir. Onun dünyada 70-dən çox növü tanınır. Əsasən Aralıq dənizi hövzəsi ölkələri üçün səciyyəvi sayılır. Bundan başqa, Yaxın və Orta Şərq, ABŞ (Kaliforniya), Avstraliyanın Viktoriya və Yeni Cənubi Uels ştatları, CAR (Keyptaun) üzüm becərilməsində və məhsul toplanmasında tanınırlar. İtaliya ildə - 13 mln. t üzüm •məhsulu toplamaqla dünyada 1-ci, Fransa isə 2-ci yeri (10 mln. t.) tutur. İldə dünya ölkələrində 10 mln. ha üzüm bağlarından - 60 mln. tondan çox məhsul yığılır. Üzümçülük sahəsi göstərilən ölkələrdə şərab istehsahının çoxluğuna səbəb olmuşdur. Ona görə də Fransada üzüm becərilən bölgənin adı ilə adlandırılan keyfiyyətli şampan, konyak, bordo; İtaliyada vermut, Almaniyada mozel və reyn şərabları, Portuqaliyada portveyn (şirin çaxır), Yunanıstanda konyak məmulatları dünyada şöhrət qazanmışlar. Adambaşına üzüm şərabı istehsalında liderlik edən ölkələr İtaliya (ildə 100 1) və Fransadan (ildə 1001) ibarətdir. Dünyada isə bu kəmiyyət göstəricisi - 5 litrdən az deyildir.

Sitrus bitkilərinə portağal, mandarin, limon, qreyfrut və sair növlərin becərilməsi daxildir. Bunlar da subtropik qurşağının əkinçilik növləridir. Orta illik məhsul toplanması - 100 mln. t təşkil edir. Bunun da - 64,0 mln. tonu portağalin hesabınadır. Cənubi Braziliya, ABŞ, İspaniya, İtaliya portağal tədarükündə qabaqcıl yeri tuturlar. Qreyfrut tədarükündə ABŞ tanırsa, mandarin yetişdirilməsində -Yaponiya dünyada 1-ci yeri tutmaqla, Çin və Cənubi-Şərqi Asiya ölkələri də burada iştirak edirlər.

Tropik Asiyanın bitkisi sayılan (Hindistanm) banan rütubət və istilik sevən növ hesab edilir. İldə toplanan 60 mln. tona qədər bananın 2/5-ni Asiya, '/i-nü Cənubi Amerika verməklə, sonrakı yerləri Şimali və Mərkəzi Amerika, eləcə də Afrika regionu tuturlar. Ən çox banan tədarükü Hindistana, Braziliyaya, Ekvadora, Filippinə, Meksikaya aiddir. Hələ II Dünya müharibəsinə qədər banan ixracatına görə Mərkəzi Amerika ölkələrini haqlı olaraq "banan" respublikaları adlandırmışlar.

Bitkiçiliyin sahələrindən biri də tərəvəzçilikdir. Örtülü təsərrüfatları da nəzərə alsaq tərəvəzçilik ancaq qütblərdə inkişaf etməmişdir. İldə - 600 mln. tona qədər tədarük olunan tərəvəz məhsulunun yığılmasında Asiya - 67%-lə, Avropa 14%-lə, Şimali Amerika - 9%-lə, Afrika - 7%-lə iştirak edir. Dünyada tərəvəz

məhsulu toplanmasında Çin - 39%, Hindistan - 9%, ABŞ- 7% xüsusi çəkiyə malikdir. Bu kampaniyada Türkiyə, İtaliya, İspaniya və Rusiya kimi iri dövlətlər də iştirak edirlər.

Kənd təsərrüfatı üçün ayrılmış yararlı əkin sahələri strukturunda çox da yer tutmayan bağçılıq çox zəhmət tələb edən sahə kimi tanınır. Alma, armud, şaftalı, qoz, fındıq, gilas, albalı, kivi və s. məhsulları toplanmasında Asiyanın xüsusi çəkisi daha çox olmaqla - 40% təşkil edir. İldə orta hesabla - 450 mln. tondan artıq müxtəlif meyvə məhsulları toplanılır. Dünyada il ərzində toplanan meyvənin - 12%-ni Çin, 10%-ni Hindistan, 8%-ni Braziliya, 7,5 %-ni ABŞ verməklə sonrakı yerləri İtaliya və digər dövlətlər tuturlar.

Əkinçilik sahəsinin son illərdə dinamik inkişaf edən sahələrindən biri də gülçülük təsərrüfatıdır. Bu sahə, xüsusi ilə də Şimali Amerika və Qərbi Avropa ölkələri üçün daha çox xarakterdir. Dünyada ən yaxşı tülpan becərilməsi ilə Niderland məşhurdursa, qızılgül becərilməsində Bolqarıstanm tayı-bərabəri yoxdur.

Niderlanda tülpan hələ 400 il bundan əvvəl Türkiyədən gətirilmişdir. İlboyu məhsul verən tülpan isti oranjereyalarda da becərilərək nəinki daxili bazarda realizə olunur, eləcə də AFR-ə, Fransaya, Yaponiyaya, Sinqapura, ABŞ-a, Kanadaya da göndərilir. Onun forma və rənginə görə 1000-ə qədər növləri becərilməkdədir. Yığılan məhsul daha çox Aalsmere şəhərində yaradılmış gül auksionunda realizə olunur. İldə 2,0 mlrd. ədəddən artıq tülpan satışa göndərilir.

Deyilənlər sahəsində Türkiyənin, Fransanın, Hindistanm, Braziliyanın, Kolumbiyanın və bəzi Afrika ölkələrinin özünəməxsusluğu vardır.

Heyvandarlıq dünya kənd təsərrüfatının ikinci aparıcı və ən qədim sahəsi sayılır. Onun strukturu mürəkkəb olmaqla iribuynuzlulardan, xırdabuynuzlulardan, donuzçuluqdan, quşçuluqdan, maralçılıqdan, atçılıqdan, vəhşi heyvanlar saxlanılmasından, arıçılıqdan, ipəkçilik və balıqçılıqdan ibarətdir. O, illik kənd təsərrüfatı məhsulları istehsalının 1/5-ni verir. Göstərilən heyvanların ümumi sayı 5,0 mlrd. başa yaxındır.

Kənd təsərrüfatının əkinçilik sahəsində olduğu kimi heyvandarlığın da inkişaf etdirilməsi intensiv və ekstensiv yollarla həyata keçirilir.

İribuynuzlular demək olar ki, dünya regionları üzrə bərabər yerləşdirilmişlər. Onların sayı - 1,3 mln. başdır. Lakin məhsuldarlığı regionlar üzrə qeyri-bərabərdir. Avropada, Şimali Amerikada iribuynuzlu malqaranın südçülük-ətiçilik və südlük istiqamətlisi saxlanılır. Son illər dünyada 550 mln. ton süd sağılmışdır. Süd sağınında ABŞ, RF, Hindistan, AFR, Fransa irəlidədirlər. ABŞ da ildə hər baş inəkdən - 7,7 min kq süd sağıldığı halda İsraildə bu göstərici - 8,4 min kq-dan çoxdur.

Qərbi Avropa ölkələri dünya süd sağımının 30%-dən çoxunu verirlər. Ətlik istiqamətli növlər isə mülayim və subtropik qurşağın daha çox quraq keçən rayonlarında bəslənilir. Belə ölkələrdən ABŞ-ın, Kanadanın, RF-nm, AFR-in, Avstraliyanın, Yeni Zelandiyanın adını çəkmək olar. XX əsrin sonunda dünyada 220 mln. ton ət istehsal olunmuşdur.

Məlumdur ki, iribuynuzluların sayına görə dini adət-ənənələr əsasında Hindistan liderlik edir. Son illərin məlumatlarına görə Hindistanda iribuynuzluların ümumi sayı 510 mln. başa çatır. Bu kəmiyyət göstəricisi Braziliyada - 165 mln. baş, Çində 140 mln. baş, ABŞ-da - 101 mln. baş, Argentinada - 52 mln. baş, Pakistanda 48 mln. baş, Rusiyada 36 mln. başa qədər çata bilir.

Xırdabuynuzlular dünyada 1,3 mlrd. sayı keçmişlər. Onlar Çində - 135 mln, Avstraliyada - 123 mln, Hindistanda 56 mln, İranda 50 mln, Yeni Zelandiyada - 48 mln, Böyük Britaniyada - 42 mln, Türkiyədə 33 mmrbaşdan artıqdır.

İEÖ-də ətlik-yunluq və ətlik istiqamətli, İOÖ-də isə çoxməqsədli və yun alınması istiqamətində olan növlər bəslənilir. Son illər dünyada - 2,5 mln. ton yun tədarük olunmuşdur. Yun tədarükündə fərqlənən dövlətlərə Avstraliya, Yeni Zelandiya, Çin, Rusiya və Qazaxıstanı misal göstərə bilərik.

Donuzçuluq təsərrüfatı, Şimali Amerikada, Avropada, eləcə də Asiyanın bir çox ölkələrində qədim inkişaf tarixinə malikdir. Mövcud 954 mln. baş donuzun 470 mln. başı Çində saxlanılır. Latın Amerikasından - Braziliya, Meksika, Qərbi Avropadan - AFR, İspaniya, Fransa; Şərqi Avropadan - Rusiya, Polşa donuzçuluğun inkişafında fərqlənirlər.

Keçi saxlanması dünyanın Çin, Hindistan, Somali, Sudan, Efiopiya, Nigeriya, Banqladeş, Pakistan, İran, Türkiyə (anqor keçiləri), ABŞ dövlətləri üçün səciyyəvi olmaqla dünyada onların sayı - 700 mln-dan çoxdur. Onlar süd, ət, yun, dəri, qalantereya məhsulları alınmasında istifadə olunurlar. Çində - 50 mln, Pakistanda - 30 mln, Türkiyədə - 20 mln. keci saxlanılır. Bunun 3,0 mln. başı anqor keçilərinin hesabınadır.

ABŞ-da, Argentinada, Asiya regionunda 60 mlndan artıq at saxlanılır. Bunun 26 mln. başı Amerikada, 17 mln-u Asiyadadır. Müsəlman dünyası xalqları onun ətindən, südündən, ərzaq məhsulları kimi istifadə edirlər.

XX əsrin 2-ci yarısmdan sürətli inkişafa malik olan sahələrdən biri də quşçuluqdur. 14 mlrd-dan çox saya malik olmaqla Çində - 3,1 mlrd. ev quşları saxlanılaraq bu sahədə o, lider sayılır. Sonrakı yerlləri ABŞ, Braziliya, İndoneziya tutur. Son illərdə toyuqların verdikləri yumurta - 47 mln. t və ya 700 mlrd. ədəd təşkil etmişdir. Çin - 400 mlrd. ədəd, Rusiya - 34 mlrd. ədəd, Hindistan - 28 mlrd. ədəd yumurta verməklə göstərilən ardıcıllıqla birinci beşliyə daxil olurlar. Adambaşına düşən yumurta sayında isə Niderland (720 ədəd), Belçika (390 ədəd), Yaponiya (370 ədəd), Çexiya (350 ədəd), Belorusiya (340 ədəd), ABŞ (315 ədəd) və Fransa (350 ədəd) dünyada tanıınrlar.

Heyvandarlıqla balıqçılığın xüsusi yeri vardır. Ondan alınan məhsulların 75 faizi insanların ərzaq məhsulu kimi gərəkli olursa, yerdə qalanından balıq unu, qidalandırıcı əlavələr və balıq yağı alınmasında, heyvanların yemi üçün, eləcə də əczaçılıqda geniş istifadə olunur.

Balıqçılıqda 120 mln. insan çalışır. Ondan ildə 55 mlrd. dollar dəyərində məhsul alınır. Bunların yerinə yetirilməsində 1,3 mln. balıqtutan gəmi iştirak edir.

Balıqçılıq bəşər cəmiyyətinin ən qədim istehsal sahəsi olmaqla öz inkişafında Atlantik, Sakit, Hind və Şimal Buzlu okeanlarına, habelə daxili dəniz və digər sututarlara əsaslanır. XX əsrin sonu üçün yuxanda göstərilən mənbələrdən - 125 mln. t balıq və müxtəlif dəniz məhsulları əldə edilmişdir. Bu sahədə Atlantik okeanı - 28%, Sakit okean - 63%, Hind okeanı -9% xüsusi çəki ilə tanınırlar. Ölkələrdən isə Çin, Peru, Çili, Yaponiya, ABŞ,

Hindistan, İndoneziya, RF, Tailand və Norveç özlərinə məxsus yer tuturlar.

Dünya kənd təsərrüfatının ümumi xarakteristikasından aydın olur ki, onun kəmiyyət, keyfiyyət göstəricilərinin yerinə yetirilməsində heç də bütün regionlar eyni çəkiyə malik deyillər. Bu əsasdan da Asiya, Şimali və Mərkəzi Amerika (xüsusilə ABŞ, Kanada, Meksika), Cənubi Amerika, Qərbi Avropa, Cənubi Avropa, Şərqi Avropa, Mərkəzi-Şərqi Avropa, Afrika, Avstraliya və Okeaniya regionları kənd təsərrüfatının bütün sahələri üzrə, eləcə də ixtisaslaşma dərəcəsinə və s. əlamətlərinə görə biri digərini təkrarlanırlar.

Yekunda onu da qeyd etməliyik ki, XX əsrin sonunda və XXI əsrin başlanğıcında dünya təsərrüfatının beynəlmiləlləşdirilməsi, kənd təsərrüfatının inkişafı həb də təbb olunan səviyyədə deyildir. Apancı texnika, texnologiya İEÖ-də, xüsusilə Şimali Amerika və Avrasiya ölkələrində cəmlşsə də, İOÖ-də insanların həyat səviyyələri ilə yanaşı ölkələrin iqtisadi inkişaf səviyyələrinin aşağı olması hələ də davam edir.

V.9. Nəqliyyat

İstehsalla istehlak arasında əlaqə yaradan, hər bir yaşayış məntəqəsi arasında - kənd, qəsəbə, rayon, şəhər, dövlət, region arasında körpü rolunu oynayan, təsərrüfat sahələrinin işını, inkişafını əlaqələndirən, ölçüyəgəlməz dərəcədə iqtisadi, siyasi, mədəni, strateji əhəmiyyət kəsb edən, sərnişin və hər cür yüklərin daşınması əməliyyatını həyata keçirən, bazar təsərrüfatının ayrılmaz hissəsi sayılan, daxili və xarici bazarın varlığını təmin edən, istehsal olunmuş məhsulun sərfini və istehlakını mövcudlaşdıran nəqliyyat maddi istehsalın sənaye və kənd təsərrüfatından sonrakı 3-cü aparıcı sahəsi hesab edilir. Deyilənlərlə yanaşı nəqliyyat ərazilərin mənimsənilməsinə və əhali məskunlaşmasına, istehsal sahələrinin, zavod və fabriklərin, emal müəssisələrinin mövcudlaşmasına, kənd təsərrüfatının sürətlə inkişafına, şəhər, qəsəbə və kəndlərin salınmasına və formalaşmasına təkan verir. Bir sözlə, o, ölkə və regionlarda məhsuldar qüvvələrin inkişafının və düzgün

yerləşdirilməsinin barometri sayılır. Bunlar azmış kimi, nəqliyyat coğrafi əmək bölgüsünün əsasını təşkil edir. İnkişafı, insan həyatın nəqliyyatsız düşünmək absurddur.

Nəqliyyat təsərrüfatın, rayonların, ölkənin ixtisaslaşmasının və kooperativləşməsinin gedişini daha da sürətləndirir. Nəqliyyat, xalq təsərrüfatına xidmət etməklə yanaşı, həm də çoxlu elektrik enerjisi, yanacaq, metal, oduncaq işlədir.

Nəqliyyat dəmiryolu, avtomobil yolu və boru kəmərləri yollarını birləşdirən - quru yolu, dəniz və çay yollarını əhatə edən - su yolu, elektrik verilişi xətlərini əks etdirən - elektron, eləcə də hava növlərinə ayrılır.

ETİ nəqliyyatın bütün növlərinin inkişafına təsir etmiş, onların sürətini, yükgötürmə qabiliyyətini əhəmiyyətli dərəcədə artırmışdır.

Nəqliyyatın işi haqqında onun yük və sərnişin dövriyyəsinə görə mühakimə yürütmək olar ki, bu da ton -kilometrlərlə hesablanır. Yük dövriyyəsi - müəyyən zaman kəsiyində təyin edilmiş məsafəyə daşınan yüklərin miqdarına deyilir.

Mövcud nəqliyyat növlərinin, nəqliyyat müəssisələrinin və nəqliyyat vasitələrinin cəmi dünya nəqliyyat sistemini yaratmışlar.

Müasir dünya nəqliyyatında 100 mln-dan artıq işçi çalışır. Onun illik daşıdığı yükün miqdarı 46-50 trln ton arasında dəyişir. Yük dövriyyəsi isə 50 t/km-dir.

Dünya nəqliyyatının növlər üzrə ümumi uzunluğu 40 mln. km-dən artıqdır.

Nəqliyyatın inkişafına, əmək məhsuldarlığının 10 dəfəyə qədər artmasına səbəb olan konteynerləşmə prosesidir. Onun yük dövriyyəsinin artması ayrı-ayrı növlərinin daşımalarda xüsusi çəkilərinin də dəyişməsi ilə nəticələnir. Ona görə də, XX əsrin sonu XXI əsrin başlanğıcında dəmiryolu nəqliyyatının yük daşımada xüsusi çəkisi -14%, avtomobil nəqliyyatında 10%, boru kəməri nəqliyyatında 12%, dəniz nəqliyyatında 61%, daxili su nəqliyyatında 3% təşkil etmişdir.

Sərnişin daşımasında isə dəmiryolu nəqliyyatı - 10%, avtomobil nəqliyyatı - 80%, su nəqliyyatı - 1%, hava nəqliyyatı - 9% çəki ilə seçilirlər. Nəqliyyat növlərinin illik daşıdığı

sərnişinlərİn sayı 1,0 trln nəfəri keçmiş olsa da, sərnişin dövriyyəsi - 19 trln sərnişin -kilometr təşkil edir.

Yük və sərnişin daşımaları daxili və kontinentlərarası sahələrə bölünürlər.

Dünya nəqliyyatı daşıdığı yüklərin, sərnişinlərin kəmiyyət-keyfiyyət göstəricilərinə görə region və ölkələr üzrə fərqlənir. Belə hal İEÖ-b İOÖ-lər arasında daha tez nəzərə çarpır. İEO-də yükdaşıma ən çox, texniki təminat və əlaqələr səviyyəsinin yüksəkliyi ilə seçilir. Bu ölkələrdə dünya nəqliyyatının ümumi uzunluğunun, yük və sərnişin dövriyyəsinin - 80%-i həyata keçirilir. Eləcə də şəbəkə sıxlığı, hərəkətetmə qabiliyyəti (sərnişin və nəqliyyatın) burada yüksəkdir. Avtomobil parklarının -4/5-ü, limanların - 2/3-si (yük dövriyyəsinin - 3/4-nü yerinə yetirir) buradadır. Yük dövriyyəsində avtomobil nəqliyyatı - 40%, dəmiryolu - 25%, qalan nəqliyyatlar isə - 35% çəkiyə malikdirlər.

İOÖ-də bu sahədə fərqli parametrlər və müxtəlif kəmiyyət göstəriciləri mövcuddur. Burada nəqliyyat növlərinin ümumi uzunluğunun - 20%-dən bir az artığı, yük dövriyyəsinin - 20%-i, minik üçün olan avtomobil parklarının - 10%-i, yük və avtobus parklarının - 20%-i yerləşir.

Deyilənlərlə yanaşı dünya nəqliyyatı ayrı-ayrı regionlar üzrə də fərqlənir. Bu sahədə Şimali Amerikada inkişaf hərtərəfli öz yüksəkliyi ilə seçilir. Dünya nəqliyyatının ümumi uzunluğunun - 1/3-i bunların ərazisindədir. Avtomobil yollarının və qaz kəmərlərinin uzunluqları isə daha çoxdur. Bir çox nəqliyyat növləri yük dövriyyəsinə görə də dünyada 1-ci yeri tutur. Daxili yük daşımada avtomobil nəqliyyatı - 26%, dəmiryolu nəqliyyatı - 28%, su nəqliyyatı - 18% və boru kəmər nəqliyyatı - 28% xüsusi çəki ilə fərqlənirlər. Sərnişin dövriyyəsində isə fərqli cəhətlər mövcuddur. Bu sahədə avtomobil nəqliyyatının payına 83% xüsusi çəki düşür. Hava nəqliyyatı - 18%-lə və dəmiryolu nəqliyyatı - 1,0%-lə tanınır. Lakin ərazinin böyüklüyü, o cümlədən ABŞ-da və Kanadada nəqliyyat yollarının sıxlıq şəbəkəsinin azlığı ilə nəticələnir. Ona görə də bu, hər 1000 kv. km-də ABŞ-da 30 km, Kanadada - 3 km-dən çox deyildir.

Xarici Avropa bir çox göstəricilərə - sıxlıq şəbəkəsinə, hərəkətin çoxluğuna görə Şimali Amerikadan irəlidədir. Daxili

yükdaşınmada avtomobil nəqliyyatının xüsusi çəkisi - 67%-dirsə, dəmiryolu nəqliyyatı- 19%, su nəqliyyatı - 8% və boru kəməri nəqliyyatı - 6%-lə tanınır. Sərnişin dövriyyəsində: avtomobil nəqliyyatı - 71%, dəmiryolu nəqliyyatı -21% və hava nəqliyyatı - 8%-dən artıq çəkiyə malik deyildir. Nəqliyyat şəbəkə sıxlığına görə dünyada liderlik edir. Daha doğrusu, bu Almaniyada, Fransada, Böyük Britaniyada, Benilüks ölkələrində, İsveçdə, Danimarkada hər 1000 kv.km-də 50-100 km arasında dəyişir. Belçikada bu sıxlıq 1000 kv.km-də - 134 km-dən az deyildir.

Xarici Asiya regionunda fərqli cəhətlərdən biri odur ki, burada Yaponiya, Çin, Hindistan və Pakistan, Cənub-Qərbi Asiya daxili nəqliyyat sistemləri biri-birindən fərqlənirlər. Yaponiyada nəqliyyat yollarının şəbəkə sıxlığı hər 1000 kv.km-də 73 km-dir.

Yuxarıda göstərilən fərqlər Afrikada, Latın Amerikasında, Avstraliyada da müşahidə olunur.

Dəmiryolu nəqliyyatı sənayedə baş vermiş inqilab dövründə yaranaraq bütün XIX əsr boyu və eləcə də XX əsrin 1-ci yarısında çox sürətlə inkişaf etməyə başlamışdır.

Dünyanın 140-dan çox ölkəsində dəmiryolu noqliyyatı vardırsa, 60-dan artıq ölkədə, o cümlədən Yəmən, Oman, Niger, İslandiya, MAR və s. ölkələrdə dəmiryolu nəqliyyatı yoxdur. Belə hal həmin dövlətlərin iqtisadi inkişaf səviyyələri ilə, ya da yerləşdikləri ərazilərin relyefi ilə bağlıdır.

Dəmiryolu nəqliyyatı böyük xalq təsərrüfat əhəmiyyətinə malikdir, ona görə ki, o, çox yük daşıyır, istənilən istiqamətə hərəkət edə bilir və ən əsası o, ilboyu təbii şəraitdən asılı olmayaraq fasiləsiz işləyir.

Dəmiryolların ümumi uzunluğu 1,3 mln. km-dən artıqdır. Onun sıxlığı hər 1000 kv.km-də AFR-də 100 km-ə çatır. Belə maksimial sıxlıq Çexiya və Belçikada da müşahidə olunur. Dünyada buxar dartı qüvvəsi ilə işləyən ilk dəmiryolu Liverpulla - Mançester arasında 1830-cu ildə işə salınmışdır. Həmin ildə ABŞ-da Çarlstonla Oqasta arasında, 1833-cü ildə Fransada, 1835-ci ildə Almaniya və Belçikada, 1837-ci ildə Rusiyada - 26 km uzunluğunda Peterburqla Tsarskoye Selo arasında fəaliyyətə başlamışdır. Hal-hazırda ABŞ-da dəmiryollarının ümumi uzunluğu

- 360 min km-dən azalaraq (1995-ci ildə) 240 min km-ə, Rusiyada - 154 min km-ə, Kanadada - 90 min km-ə, Çində - 66 min km-ə, Hindistanda - 61 min km-ə, Almaniyada - 40 min km-ə qədər çatır.

Son vaxtlar dəmiryollarının elektrikləşdirilməsinə xüsusi fikir verilir. Belə ki, İsveçrə və Gürcüstanda dəmiryolları tam elektrikləşdirilmişdir. ABŞ-da bu 1,0% -dən artıq deyildir, 90% teplovozlar fəaliyyətdədir.

Dəmiryolunun gördüyü ış onun il ərzində daşıdığı yük və sərnişinlərin miqdarı ilə müəyyən edilir. Son vaxtlar dünya dəmir-yollarının yük dövriyyəsi - 5700 mlrd. t/km təşkil etmişdir. Birinci onluğa daxil olan ABŞ (2230 mlrd. t/km), Çin (1225 mlrd. t/km), Rusiya (1200 mlrd. t/km), Hindistan (285 mlrd. t/km), Ukrayna)160 mlrd. t/km), CAR (105 mlrd. t/km), Qazaxıstan (100 mlrd. t/km), Almaniya (75 mlrd. t/km), Polşa (60 mlrd. t/km) və Fransa (53 mlrd. t/km) dəmiryollarının ümumi yük dövriyyəsinin 9/10-na malikdirlər.

Dəmiryollarının ümumi sərnişin dövriyyəsi isə son illərdə - 1900 mlrd. sərnişin kilometrdən çox olmuşdur. Bu sahədə liderliyi Yaponiya həyata keçirərək onun illik kəmiyyət göstəricisi - 2000 km, İsveçrə - 1700 km, Avstriya - 1200 km, Ukrayna, RF, Belorusiya ayrı-ayrılıqda - 1150 km, Fransa - 1000 km, Niderland və Misir hər biri 1000 km-dən artıqdır. Ən uzun magistral dəmiryolu xətti RF-də çəkilmişdir. 2001-ci ildə 100 illiyi qeyd olunan Transsibir magistralının uzunluğu - 10 min km-dən az deyildir.

Avtomobil nəqliyyatı «qapıdan qapıya» adlandırılaraq qısa məsafələrə, dağlıq ərazilərdə yükdaşımada geniş istifadə olunmaqla iqtisadi cəhətdən sərfəlidir. Onun ümumi uzunluğu 30 mln. km-dən az deyildir. Dünyada ən uzun avtomobil yolu yan qolları ilə birlikdə - 45,7 min km olan Panamerikan avtomobil yolu sayılır ki, o da ABŞ-m sərhədlərindən baş götürərək Buenos-Ayresə qədər uzanmışdır.

Dünyanın aparıcı 20 ölkəsində avtomobil yollarının ümumi uzunluğunun - 85%-i cəmləşmişdir. Təkcə ABŞ dünya avtomobil yolları şəbəkəsinin - 26%-nə malik olmaqla bu sahədə əlçatmaz mövqeyə malikdir. Avtomobil yollarının şəbəkə sıxlığında isə Belçika - hər 1000 kv.km ərazidə 4700 km, Yaponiya - 3000 km,

Niderland - 3350 km, Almaniya - 1800 km, İsveçrə - 1800 km, ABŞ -670 km, Braziliya - 230 km, Kanada - 100 km, RF- 34 km, Çin- 13 km olmaqla seçilirlər. Ən az şəbəkə sıxlığı Tropik Afrikanın ölkələrindədir.

Avtomobil nəqliyyatının iş fəaliyyəti də ilboyu daşıdığı yük və sərnişinlərin kəmiyyət göstəricisi ilə qiymətləndirilir. Onun son illərdə yük dövriyyəsi - 3500 mlrd. t/km olsa da, sərnişin daşınmasında əlçatmaz zirvəyə - 11000 mlrd. sərnişin - kilometrə malikdir. Dünya avtomobil parklarında - 600 mln. avtomobil saxlanılır. Hər 1000 nəfərə düşən avtomobilin sayına görə Bruney (575 ədəd), ttaliya (560), ABŞ (520), AFR (500) qabaqdadırlar. Təkcə ABŞ-m avtomobil parklarında 215 mln. avtomobil vardır. Yaponiyanın avtomobil parklarında 70 mln-dan çox, Almaniyada - 45 mln-dan az olmayan avtomobillər vardır.

Dəmiryolu və avtomobil nəqliyyatı ilə birlikdə boru kəməri nəqliyyatı da quru yolu nəqliyyatı sisteminə aid edilir. Onları fərqləndirən cəhət isə daşınan yüklərin məzmunu ilə müəyyən edilir. Boru kəməri nəqliyyatı maye və qaz halında olan yüklərin daşınmasında iştirak etməklə, neft, neft emalı məhsulları və qaz nəql edən kəmərlərə ayrılırlar. Onların inkişafı dünyada neft və qaz sənayesinin inkişaf səviyyəsindən xəbər verir. Neft və neft məhsulları nəql edən boru kəmərləri göstərilən məhsulları istənilən məsafəyə nəql edirlər. Məhsul nəql edən kəməri növlərinin hər üçü istehsalla istehlakı birləşdirməli olurlar.

Qeyd etmək lazımdır ki, boru kəmərləri vasitəsi ilə 2000 km məsafəyə qədər daşınan neft, neft məhsulları rentabelli sayılırlar. Bundan uzaq məsafələrə tankerlərlə daşıma öz rentabelliliyini daha da artırmış olur.

Dünyada 1-ci neft boru xətti cəmi - 6 km uzunluğunda olmaqla 1865-ci ildə ABŞ-da çəkilmişdir. 10 ildən sonra Pensilvaniyanın Pitsburq sənaye mərkəzi 100 km uzunluğu olan yeni neft kəməri ilə birləşdirilmişdi. Latm Amerikasında ilk neft boru kəməri Kolumbiyada 1926-cı ildə, İranda - 1934-cü ildə xarici Avropanın Fransasında - 1948-ci ildə çəkilmişdir. Rusiya ərazisində isə neft emalı məhsulları daşıyan ilk boru kəməri 1907-ci ildə Bakı-Batumini birləşdirməli olmuşdur. Onun uzunluğu 867 km-dən arüqdır. Birinci Dünya müharibəsindən sonra dünyada neft

kəmərlərinin, II Dünya müharibəsindən sonra isə böyük sürətlə qaz kəmərlərinin çəkilişi işləri həyata keçirilmişdir.

Dünyada boru kəmərlərinin ümumi uzunluğu 2,0 mln. km-dən artıqdır. Magistral xətlər başlıca olaraq Cənubi-Qərbi Asiyada, Cənubi-Şərqi Asiyada, Afrikanın simasında, Latın Amerikasında, eləcə də MDB məkanında mövcuddur. Onlar əsasən xammal və istehlak rayonlarında, ixracat üçün əlverişli olan rayonlarda (Səudiyyə Ərəbistanı, İran, İraq, Liviya, Əlcəzair, Venesuela), idxalat rayonlarında formalaşmışlar. Ölkələr üzrə magistral boru kəmərləri MDB, ABŞ, Kanada, Səudiyyə Ərəbistanı üçün xarakterdir. Rusiyadan qərbə doğru istiqamətlənən "Dostluq" neft kəmərinin uzunluğu 5,5 min km-dən artıqdır. Kanadada uzunluğu - 4,8 min km olan Reduoter - Port Kredit, 3,2 min km uzunluğu olan Edmonton - Monreal, eləcə də ABŞ-da neft emalı məhsulları nəql edən və uzunluğu - 2,5 min km olan Xyuston-Nyuyork, 1974-1977-ci illərdə Alyaskanın Pradxo-Bey mədənlərindən Valdizə çəkilmiş və uzunluğu - 1288 km, illik neft buraxma qabiliyyəti 80-120 mln. ton olan Transalyaska neft boru kəmərlərinin adlarını çəkə bilərik.

Magistral qaz kəmərləri MDB, Kanada və ABŞ-a məxsusdur. Bunlardan Urenqoy-Qərbi Avropa (4,5 min km), Transaralıq dənizi: Əlcəzair-İtaliya (2,5 min km), uzunluğu 4,0 min t/km olan Nigeriya - Saxara - Aralıq dənizi - Avropa, uzunluğu - 1050 km olacaq Şahdəniz-Ərzurum qaz kəmərlərini qeyd edə bilərik.

Qeyd etmək lazımdır ki, neft boru kəmərlərinin hər 1000 kv. km ərazidə sıxlığı Niderlandda, Belçikada, Almaniyada, İtaliyada, Böyük Britaniyada, qaz kəmərlərinin sıxlığı isə Niderlandda, Almaniyada (275 km) daha çoxdur.

Son illərdə neft və neft emalı məhsulları daşıyan boru kəmərlərinin yük dövriyyəsi 4,0 trln t/km olduğu halda, qaz boru kəmərinin yük dövriyyəsi - 2,5 trln. t/km -ə çatmışdır. Onu da qeyd etmək lazımdır ki, neft və neft emalı məhsulları nəql edən boru kəmərləri ilə 2,0 mlrd. tondan çox belə məhsullar daşınır.

Maraqlı halı da qeyd etməliyik ki, boru kəmərləri ilə eyni zamanda-xırda-ölçülü, tikinti materialı sayılan çınqıl, eləcə də kömür, başqa nəqliyyat növləri ilə daşınması çətin və qorxulu sayılan kimya məhsulları, dağlıq ərazilərdə yerləşən südçülük

fermalarından süd məhsulu da daşınır. Süd nəql etmək üçün polad borulardan yox, xüsusi ərintilərdən hazırlanmış borulardan və ya şüşə-saxsı borulardan istifadə olunur. Belə süddaşıyan boru kəmərləri İsveçrə və Avstriya üçün səciyyəvidir.

Hava nəqliyyatı bahalı nəqliyyat növü olub tez xarab olan və çatdırılması tez gərək olan yüklərin, son vaxtlar isə sərnişin daşınmasında geniş istifadə olunur. Onun uzunluğu 10 mln. km-dən artıqdır. İldən-ilə yük və sərnişin daşımaları artmaqdadır. XX əsrin sonu, XXI əsrin başlanğıcında sərnişin dövriyyəsi 2230 mlrd. sərnişin-kilometr, yük dövriyyəsi 300 mlrd. t/km-dən artıq olmuşdur.

Dünyada - 15 mindən artıq hava limanı, o cümlədən - 1100 beynəlxalq hava limanı fəaliyyət göstərir. 27 nəhəng hava limanından hər biri ildə 25 mln. sərnişin qəbul edir və göndərir. Bunlardan - 16-sı ABŞ-dä, ikisi Böyük Britaniyada fəaliyyətdədir.

Birinci onluğa - London (Xitrou hava limanı), Frankfurd (Reyn-Mayn), Syanqan, Paris (Şarl de Qoll), Amsterdam (Sxipxol), Sinqa-pur (Çanqi), Tokio (Narita), London (Qetviq), Nyu-York (Kennedi adına) və Banqkok hava limanları daxildir. Nəhəng təyyarə parkları ABŞ-da, Kanadada, Fransada, Avstraliya və Almaniyadadır. Tanınmış aqlomerasiyalardan Nyu-Yorku, Londonu, Parisi, Moskvanı, Tokionu qeyd edə bilərik. Syanqan hava limanı saatda - 70 təyyarə qəbul edir.

Dəniz nəqliyyatı ən ucuz nəqliyyat sayılır. O, ölkələr arasında daşımaların 75%-ə qədərini təmin edir. Daşıdığı yüklərin miqdarı isə ildə 4,0 mlrd. tondan çoxdur. Okeanlarda və dənizlərdə 25 min gəmi vardır. Dünyanın - 2,7 min dəniz limanında olan gəmilər 630 mln. t su tutumuna malikdir. Rotderdam, Sinqapur, Syanqan, Riçards -Bey, Şanxay, Naqoya, İokoqama, Tiba, Kobe, Nyu-York, Filadelfiya, Antverpen, Qavr, Marsel, London və sair kimi nəhəng limanlar formalaşmışdır.

Dəmiryol nəqliyyatından fərqli olaraq, su nəqliyyatı əsasən təbii yollardan istifadə edir. Bu yolların müxtəlif avadanlıqlarla təmin edilməsi çox xərc tələb etmir. O, az yanacaq sərf edir və burada iri həcmli yüklərin daşınmasının maya dəyəri daha aşağıdır. Lakin su nəqliyyatında hərəkət sürəti azdır, daşımalar mövsümi xarakterlidir. Su yollarının istiqaməti lazım olan istiqamətlə heç də

həmişə uyğun gəlmir. Laikn buzqıran gəmilər donanması donan su hövzələrində naviqasiyanın müddətini xeyli artırır, su yolları isə kanallar vasitəsi ilə istənilən istiqamətlərdə bir-biri ilə birləşə bilir. Dəniz daşımaları xarici və kabotaj - öz ölkəsinin limanları arasında daşımalara bölünür. Böyük kabotajla, yəni öz ölkə sahilləri boyunca, lakin öz ölkəsinin müxtəlif dənizlərində yerləşən limalar arasında hərəkət etməklə, kiçik kabotajı, yəni öz sahillari boyunca, lakin bir dəniz, yaxud bir neçə qovuşuq dəniz hüdudunda üzməyi fərqləndirirlər.

Xarici ticarətdə dəniz nəqliyyatının rolu hədsizdir.

Daşımalarda kəmiyyət, keyfiyyət göstəricilərinə görə okeanlar biri-birindən əsaslı surətdə fərqlənirlər. Atlantik okeanı yükdaşımada liderlik edir.

Dəniz daşımalarını kanallar xeyli yaxınlaşdırır. Belə kanallardan Süveyş 1869-cu ildə istifadəyə verilmiş, uzunluğu – 193 km, maksimal eni - 365 m, dərinliyi - 20 metr; Panama - 1914-cü ildə açılmış, uzunluğu - 82 km, maksimal eni - 150 m, orta dərinliyi -12,5 metr; Kil kanalı - 1895-ci ildə açılmış, uzunluğu - 99 m, maksimal eni - 104 m, orta dərinliyi -11,3 metrdən çox deyildir.

Süveyş kanalının illik yük dövriyyəsi 350 mln. t olmaqla buraxma qabiliyyəti sutkada 50, ildə 18 min gəmidən ibarətdir.

Panama kanalı ildə - 14 min gəmi buraxa bilir ki, onların da yükdaşıma qabiliyyəti ildə 150 mln. tondur.

Çay nəqliyyatının ümumi uzunluğu 550 min km-dən artıqdır. O, daxili yükdaşımada əhəmiyyətlidir. Bu sahədə Yansızı, Xuanxe, Missisipi, Amazonka, Yenisey, Volqa, Dunay, Reyn, Müqəddəs Lavrentiya, Böyük Çöllər, Lena, Makkenzi, Konqo, Niger, Nil, Zamberi çayları böyük əhəmiyyətə malikdirlər. Dünyada - 214 beynəlxalq çay hövzəsi vardır. Bundan - 155-i 2 ölkəyə, 36-sı üç ölkəyə, yerdə qalanları isə 4-12 ölkəyə məxsusdur.

Reyn, Amazonka və Zambezi hövzələrinin hər birində 7; Nil, Konqo, Niger hövzəsinin hər birində 9, Dunay hövzəsində - 12 ölkə yerləşir. Lakin hər birisinin hövzəsinin sahəsi 1,0 mln. kv.km olan 13 nəhəng çaydan ancaq dördü - Volqa, Lena, Yansızı və Makkenzi ayrı-ayrılıqda bir ölkə ərazisindən axırlar.

Dünyada ABŞ ən böyük çay və göl flotuna malikdir. Daxili su yollarının yük dövriyyəsinin böyüklüyünə görə, eləcə də Çin, RF, AFR, Kanada qabaqcıl yer tuturlar.

VI. DÜNYA REGİONLARININ BİR SIRA ÖLKƏLƏRİNDƏ MƏHSULDAR QÜVVƏLƏRİN İNKİŞAFI VƏ YERLƏŞDİRİLMƏSİ

AVROPA

Şimaldan - Cənuba - 4050 km, qərbdən - şərqə - 4530 km məsafədə uzanır. Sahəsi - 10,5 mln.kv.km-dir. Əhalisi isə - 687 mln. nəfərdən çoxdur. Kişilərin sayı - 48,7 %, qadınların sayı isə - 51,3 %-dən az deyil. Şəhər-kənd əhalisinin nisbəti - 74,9:25,1 kimidir. Hər kv.km-də əhalinin orta sıxlığı 65,4 nəfərə qədərdir. Ən çox sıxlıq isə Monakoda -21 min nəfər təşkil edir. Əhalinin ən az sıxlığı İspaniyada özünü göstərməklə hər kv.km-də 3 nəfərə qədərdir. Əhalinin təbii artımının orta göstəricisi - 0,01 %, ən çox Albaniyada - 1,25 % və ən az -Ukraynada - 0,68 %-dir. İnsanların ömür sürməsi kişilərdə orta göstərici 68,7 il, qadınlarda 77 il təşkil edir. Ən çox ömür sürmə Andorrada qeyd olunmuşdur ki, bu da kişilər üçün - 80,6 il, qadınlar üçün 86,6 ilə bərabərdir. Ən az ömür sürmə Moldaviya Respublikasındadır - kişilər üçün 60,4 il, qadmlar üçün 69,3 ildən artıqdır.

Əhalinin orta savadlılıq göstəricisi 98 % təşkil edir. Avropada sahəsinə görə ən böyük dövlət Ukraynadır - 603,7 min.kv.km. Əhalisinin sayına görə isə AFR 1-ci yerdə olmaqla 83,25 mln. nəfərə malikdir. İstər əhalisinə, istərsə də sahəsinə görə kiçik dövlət Vatikan sayılır. Hansı ki, sahəsi 0,44 kv.km, əhalisi isə

900 nəfərdir, Ən çox əhalisi olan şəhər Rusiyada yerləşir. Belə ki, Moskvanın əhalisi 10357,8 min nəfərdir.

Ümumi Daxili Məhsulun adambaşına düşən maksimal miqdar -50.000 dollara çatır ki, bu da Lüksemburqda müşahidə olunur. Ən azı isə Bosniya və Hersoqovinada - 1800 dollardır.

Avropada Rusiya da daxil olmaqla 44 ölkə, 1 mülk-Gibraltar yerləşir. İdarə olunmasına görə 31dövlət respublikadır. Bunlardan 4-ü federativ quruluşludur. Serbiya və Çernoqoriya respublika idarəetmə formasına uyğun quruluşa malikdir. 11 monarxiya respublikası vardır. Bunlardan 10-u konstitusiyalı monarxiyadır. Belçika federativ quruluşa, Vatikan isə teokratik - mütləq monarxiyaya malikdir. Avropanın əhalisi demək olar ki, avropoid irqinə mənsubdur. 17 ölkə - Avstriya, Albaniya, Macarıstan, Almaniya, Yunanınstan, Danimarka, İrlandiya, İtaliya, Malta, Norveç, Polşa, Portuqaliya, Finlandiya, Fransa, Çexiya və s. dövlətlərin əhalisinin milli tərkibinin 90 %o-dən çoxu eyni millətdəndir. Rusiya, Böyük Britaniya, İspaniya, İsveçrə və digərləri çoxmillətli hesab olunurlar. Burada slavyan (rus, ukraynalı, polyak, çex, belorus, serb, bolqar və b.), alman, roman, finn-uqor, türk dil qrupları vardır. Ən çox yayılan dillər ingilis, alman, fransız, rus, italyan, ispan, polyak və s.dir. Avropa əhalisinin 90 %-dən çoxu xristian, yerdə qalanları isə müsəlman, idoist dinlərinə mənsubdurlar.

VI. 1. Azərbaycan Respublikası

Sahəsi 86,6 min.kv.km, əhalisi 8,4 mln. nəfərdən çoxdur. Paytaxtı Bakı şəhəridir. İstehsal olunan illik ümumi daxili məhsul 12 mlrd. dollar, adambaşına düşən illik ümumi daxili məhsul isə 1,3 min ABŞ dolları miqdarındadır (1997).

Dövlət quruluşuna gəldikdə 1995-ci ildə qəbul olunmuş Konstitusiyaya əsasən Azərbaycan idarəetmə formasına görə prezidentli respublikadır. Ali Qanunvericilik orqanı Milli Məclis, İcraedici orqan Nazirlər Kabineti hesab edilir. Dövlətin başçısı prezidentdir.

İnzibati bölgüsünə görə Azərbaycan 66 rayon, 69 şəhər və Naxçıvan Muxtar Respublikasına ayrılır.

Əsası 1991-ci ildən qoyulan Yeni Azərbaycan Partiyası aparıcı partiya hesab edilir.

Azərbaycan Cənubi Qafqaz regionunda ərazisinin böyüklüyünə və əhalisinin çoxluğuna görə ən böyük respublikadır. O, regionun şərq hissəsini əhatə edərək birbaşa Xəzər dənizinə çıxışa malikdir. Respublika cənubdan İran İslam Respublikası ilə 765 km, cənubi-qərbdən Türkiyə Respublikası ilə 13 km, Şimaldan Rusiya Federasiyası ilə 397 km, şimal-qərbdən Gürcüstan Respublikası ilə 471 km, qərbdən təcavüzkar Ermənistanla 1007 km, şərqdən donmayan Xəzər dənizi ilə 825 km məsafədə sərhədləşir. Xəzər dənizində yerləşən Abşeron və Bakı arxipellaqları da Azərbaycana aiddir. Beləliklə, 500 km-dən artıq qərbdən-şərqə, 400 km-dən çox bir məsafədə şimaldan cənuba uzanan Azərbaycanın sərhəd xəttinin uzunluğu 3742 km təşkil edir.

Azərbaycan çox əlverişli fiziki-coğrafı, iqtisadi-coğrafı, geosiyasi mövqeyə malikdir. Azərbaycan 18 oktyabar 1991-ci ildə müstəqillik əldə etdikdən sonra Türkiyə, Mərkəzi Asiya dövlətləri ilə iqtisadi-coğrafi mövqeyi bir daha xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. 1962-ci ildə, uzunluğu 343 km-ə çatan Bakı-Türkmənbaşı gəmilərə xətti işə düşdükdən sonra Mərkəzi Asiya Respublikalarının, Rusiya Federasiyasının Sibir, Uzaq Şərq regionlarının, habelə Çin və Yaponiyanın Avropa ölkələri ilə nəqliyyat-iqtisadi əlaqələrində Azərbaycanın iqtisadi-coğrafı mövqeyinin rolu daha da artmışdır. Xəzər hövzəsində dünyanın üçüncü böyük neft rayonunun kəşfi, hasilat və yanacağın dünya bazarına çıxarılması ilə əlaqədar olaraq Azərbaycan Respublikasının geosiyasi mövqeyinin əhəmiyyəti və rolu ölçüyə gəlməz dərəcədə əhəmiyyətli olmuşdur. Qazaxıstan və Türkmənistanın nefti, qazı da Azərbaycan ərazisindən kəmərlər vasitəsilə qərbə - Avropa bazarlarına nəql edilməkdədir. Deyilənlərə görədir ki, dünyanın ABŞ, Böyük Britaniya, Yoponiya, Fransa, İtaliya, Norveç, Səudiyyə Ərəbistanı, Türkiyə kimi dövlətləri və bir sıra digər qonşu dövlətlər Azərbaycanda özlərinin iqtisadi və strateji mövqelərini daha da möhkəmləndirməyə çalışırlar.

Azərbaycanın iqtisadi-coğrafı mövqeyinin əhəmiyyətini səciyyələndirərkən onu başqa ölkələrlə, məsələn, Gürcüstan Respublikası ilə, Özbəkistanla müqayisə etmək, onun harada yerləşməsini, hansı ölkələrlə həmsərhəd olduğunu göstərmək, coğrafi mövqe ilə insanların sosial şəraitinin və təsərrüfat fəaliyyətinin qarşılıqlı əlaqələrini aşkara çıxarmağı vacib hesab etmək lazımdır.

Son illərdə iqtisadi coğrafi movqeyin əlverişli olması ilə əlaqədar İranla, Türkiyə ilə, Rusiya Federasiyası ilə, Gürcüstanla hər cür əlaqələr daha da möhkəmlənir. Astara, Biləsuvar, Cəlilabad, Babək, Sədərək, Qazax, Xaçmaz rayonlarında yaradılmış sərhəd-keçid məntəqələri və şəffaf gömrükxanalar, Araz üzərində salınan yeni körpülər, İranla birgə tikiləcək Ordubad, Xudafərin, Muğan SES-ləri və s. deyilənlərə əyani mümunədir. Gələcəkdə isə İran, Azərbaycan, Gürcüstan, Türkiyə arasında qarşılıqlı enerji verilişi daha da gücləndiriləcəkdir.

Azərbaycan Respublikasının şimal-cənub və şərq-qərb istiqamətli nəqliyyat magistrallarının Avropa və Asiya ölkələri arasında beynəlxalq yük və sərnişin daşımalarında rolu ildən-ilə artırılacaqdır.

Əlverişli dənizkənarı iqtisadi-coğrafi mövqeyi, Volqa-Don və Volqa-Baltik su sistemləri vasitəsi ilə dünya Okeanına çıxışı olan Azərbaycan bir çox ölkələrlə müntəzəm dəniz-nəqliyyat əlaqələrini daha da genişləndirməklə gələcəkdə də bu işi davam etdirəcəkdir.

Gürcüstanın MDB və bir sıra dünya ölkələri ilə dəmiryolu əlaqələri Azərbaycan vasitəsi ilə həyata keçirilir.

Azərbaycan özünün dünyada əlverişli mövqeyi sayəsində Avropanın inkişaf etmiş ölkələri ilə Asiyanın İEOÖ-ləri arasındakı ticarət-iqtisadi və mədəni əlaqələrdə fəal iştirak edir və əhəmiyyətli vasitəçilik xidməti göstərir. Əlverişli coğrafi mövqe Bakı hava limanının da beynəlxaiq əhəmiyyətini və onun çox mühüm nəqliyyat qovşağı kimi rolunu daha da artırır.

Qədim «İpək Yolu»nun bərpa olunması Azərbaycanın Şərqi və Mərkəzi Asiya dövlətiəri ilə Avropa dövlətləri arasında böyük

nəqliyyat-ticarət dəhlizlərinə çevrüməsinə əhəmiyyətli dərəcədə təkan vermişdir.

Yaxın gələcəkdə Rusiya və İran dəmiryollarının Azərbaycan ərazisi vasitəsiiə birləşdiriiməsi planlaşdırılmışdır. Bu məqsədiə İrandan Astara şəhərinədək 250 km məsafədə yeni dəmir yolu xətti çəkilməlidir, Eyni zamanda İran Respublikasının dəmir yolları Pakistan və Hindistan dəmir yolları şəbəkəsi ilə birləşdiriləcəkdir. Nəticədə, Azərbaycan Avropa, Cənubi-Qərbi Asiya və Cənubi Asiya kimi dünyanın, böyük regionlarını bir-biri ilə biriəşdirən müstəsna nəqliyyat dəhlizinə-koridoruna çevriləcəkdir.

Respubiikanın təbii şəraitinin, təbii ehtiyatlarının zəngin və rəngarəng olması insanın əmək fəaliyyətinin və təsərrüfat sahələrinin genişləndirilməsinə və daha da inkişaf etdirilməsi üçün geniş imkanlar açır. Təbii şərait və təbii ehtiyatlar məhsuldar qüvvələrin düzgün yerşləşdirilməsinə və inkişafına təsir edən başlıca amillərdən hesab edilir. Ərazi istehsal komplekslərinin (ƏİK) inkişafı və yerləşdirilməsi bu amillərin yaxşı mənada varlığından asılıdır. Müasir cəmiyyətin maddi-texniki bazasının yaradılması vəzifəsinin həlli bilavasitə təbii şərait və təbii ehtiyatların daha dərindən öyrənilməsi onların düzgün qiymətlədirilməsi, eyni zamanda elmi əsaslarla onlardan səmərəli istifadə olunması və daha yaxşı mühafizə edilməsi ilə bağlıdır. Azərbaycan Respublikasında məhsuldar qüvvələrin inkişafı, onların daha düzgün yerləşdirilməsi ərazinin səth quruluşundan, iqlim elementlərinin münasibliyindən çox asılıdır. Respublikada relyefin mürəkkəbləşməsinə səbəb olan Baş Qafqaz, Kiçik Qafqaz, Talış dağ sistemi, Cənubi Qafqaz regionunda ən böyük düzənlik sayılan Kür-Araz, habelə Lənkəran ovalıqları insanların əmək fəaliyyətlərindən maksimum istifadə olunmasına öz müsbət təsirini əsirgəmirlər. Ərazidə relyefin hündürlüyü dəniz səviyyəsindən mənfi 28 metrdən başlayaraq Bazar düzü zirəvəsində 4466 metrə qədər çatır. Deməli, relyefdə hündürlük amplitudası 4494 m-dən çox deyildir.

Azərbaycan Respublikasının dünyanın orta enliklərində - Güney Qafqazın cənub-şərqində yerləşməsi, onun şərqdə Xəzər dənizi ilə əhatələnməsi insanların əmək fəaliyyətlərinin daha yaxşı tətbiqinə şərait yaradan təbii şərait və təbii ehtiyatlar kəmiyyət,

keyfiyyət göstəricilərinin istənilən səviyyədə olmasına imkanlan daha da artırır. Onu qeyd etmək kifayətdir ki, dünyanın 11 iqlim tipindən 9-u Azərbaycanda olmaqla iqlimin 65 %-i subtropik, 33 %-i isə mülayim xarakterlidir. Havanın soyuq və isti aylardakı gedişi münasib olmaqla mütləq maksimal temperatur Culfa yə Kürdəmirdə +44°S, mütləq minimal temperatur isə 1933-cü ildə Naxçıvanda - 37°S olduğu qeydə alınmışdır. İllik fəal temperaturun cəmi 4700°S -yə çataraq isti sevən bitkilərin, o cümlədən pambıq becərilməsinə hələ qədimdən imkanları daha da artırmışdır. İllik atmosfer yağıntılarının gedişi qeyri bərabər olmaqla ən az Ələt qəsəbəsində - 96 mm, ən çox - 1959-cu ildə Lənkəran - Astara bölgəsinin Gərgəlan sahəsində - 2767 mm olmuşdur.

Azərbaycan hələ qədimdən təbii sərvətlərdən neyf-qaz diyarı kimi tanınmışdı. Belə yataqlar quruda və Xəzər akvatoriyasında fəaliyyət göstərir. Neftin geoloji ehtiyatının 10,5 mlrd.ton, qazın isə 12-15 trln. kubmetrə qədər olduğu müəyyənləşdirilmişdir.

Azərbaycanda ehtiyatına görə dünyada Çindəki yataqdan geri qalan, MDB-də isə tayı-bərabəri olmayan, Daşkəsənin Zəylik sahəsində yerləşən alüminium alınmasında istifadə olunan alunitdən, Naxçıvanın Nehrəm sahəsində ehtiyati-1,0 mlrd. tona çatan daşduzdan, Yuxarı Ağcakənd ərazisində ehtiyatı 35,2 min.ton olan gipsdən, Naxçıvanda Gümüşlü polimetalından, Paraqaçay, Qapıcıq molibdenindən, Kəlbəcərdə Şorbulaq, Ağyataq, Löhçay civəsindən, Daşkəsəndə dəmir filizindən, Qazax rayonunun Daş Salahlı bentonit gilindən,Tovuzun Ağdaş seolitindən, çoxsaylı rəngarəng tikinti daşlarından, Neftçala, Xıllı, Böyük Şor, Şirxan yodlu-bromlu sulardan, Naftalanda müalicə neftindən, ehtiyatı 14 min ton olan Hacıvəlli kvars qumlarından, Zaqatala-Balakən polimetal filizlərindən, Abşeron və Qobustanda çöküntü duz ehtiyatlarından geniş surətdə istifadə olunur. Yuxarıda deyilənlərin əsasında haqlı olaraq Kiçik Qafqazı Azərbaycanın «Urah» adlandırırlar.

Su ehtiyatları dedikdə, buraya çaylar, göllər,süni su anbarları, yeraltı sular, atmosfer suları və s. başa düşülür. Respublikada 8359 daimi və dövri axara malik çay vardır.

Azərbaycanın yeraltı təbii sərvətlərindən biri də sutkası təbii ehtiyatı 18,8 min kubmetr hesablanan mineral sulardır. Bunlar bir

sıra göstəricilərinə görə dünyada tanınan Karlovi Varidən üstün olan Kəlbəcər rayonundakı İstisudan (1-ci, 2-ci), Naxçıvandakı Sirab, Badamlı, Vayxır, Darıdağ mineral sularından, Şuşa rayonundakı Turşsudan, Laçındakı Turşsudan, Dəvəçi rayonundakı müalicə əhəmiyyətli Qalaltı mineral sularından ibarətdir. Deyilənlər əsas götürülərək Azərbaycanı yeraltı suların «muzeyi» adlandırırlar.

Göstərilənlərlə bərabər Azərbaycan zəngin hidroenerji potensialına malikdir. Hidroenerji potensial 43,5 mlrd.kvt. saat hesablanmışdır. Bunun 18 mird. kvt/saatı texniki cəhətdən istehlaka yararlıdır. Yerdə qalanı - 7 mlrd. kvt. Saatı iqtisadi cəhətdən səmərəli. 7 mlrd. kvt. saatının ancaq 21,4 faizindən istifadə olunur. Araz çayının hidroenerji potensialına gəldikdə isə onun 7 mlrd.kvt saatdan çox olmağını qeyd edə bilərik.

Daimi və dövri mövcudlaşan göllər 750-dən çox deyildir.

Azərbaycanda torpaq, meşə ehtiyatları da ölkədə məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsində öz təsirini göstərir. Belə ki, torpaq fondu 8,7 mln. ha-a bərabər olmaqla, meşə sahəsi ümumi ərazinin 11,5 faizini təşkil edərək 1,0 mln.ha-dan çoxdur.

Azərbaycanda kurort-rekreasiya resurslarının xüsusi əhəmiyyəti vardır. Şuşa, Şəki-Zaqatala, Şamaxı, Naxçıvan, Gəncə-Qazax, Xəzər dənizi sahilləri bu sahədə seçilən bölgələrdir.

Azərbaycanda əhali qədim məskunlaşmaya malikdir. Onun milli tərkibinin 91 faizdən çoxunu azərbaycanlılar təşkil edir. Orta sıxlıq 95 nəfərə çatır. Şəhər-kənd əhalisinin nisbəti 52:48 təşkil edir. Əmək ehtiyatları 4400 min nəfərdən çoxdur. Əmək ehtiyatlarından səmərəli istifadə etmək, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasını nəzərdə tutan «Azərbaycan regionlarının iqtisadi inkişaf səviyyəsinin daha da inkişaf etdirilməsi» haqda dövlət proqramı həyata keçirilir.

Azərbaycanda təsərrüfat sahələri bir qayda olaraq maddi və qeyri-maddi istehsal sahələrinə bölünür. Maddi istehsala sənaye, kənd təsərrüfatı, nəqliyyat və rabitə,tikinti, ticarət, ictimai iaişə, tədarük daxildirsə, qeyri-maddi istehsalda elm, maarif, səhiyyə, bədən tərbiyəsi, mənzil təsərrüfatı, idarəetmə sahələri vardır.

Azərbaycan Respublikası deyildiyi kimi əlverişli coğrafi mövqeyə, zəngin və rəngarəng təbii şəraitə və təbii ehtiyatlara

malik olduğundan çoxnövlü təsərrüfat sahələri ilə tanınır. Belə təsərrüfat sahələrindən yanacaq - energetika, metallurgiya, maşınqayırma və metal emalı, kimya və neft-kimya, tikinti materialları istehsah, meşə, xalq istehlakı malları istehsah (yeyinti, yüngül), ASK komplekslərini, nəqliyyat və rabitəni və s. göstərə bilərik

Son illərdə ÜDM-də sənaye 33 %, digər sahələr 31 %, kənd təsərrüfatı və meşə təsərrüfatı 18 %, nəqliyyat və rabitə 14 %>, tikinti 4 % xüsusi çəkiyə malik olmuşdur. Maddi istehsalının ayrı-ayrı sahələrinin xüsusi çəkisi isə belədir: yanacaq sənayesi - 61,6%, yeyinti sənayesi - 15,1%, elektroenergetika - 12,6 %, kimya və neft-kimya - 3,4 %, digər sənaye sahələri - 2,6 %, maşınqayırma - 2,2%, yüngül - 2,9%, metallurgiya - 0,3 %.

Yanacaq - energetika kompleksi (YEK) Azərbaycan təsərrüfatının hələ çox qədimdən aparıcı sahələrindən biri hesab edilir. Müstəqillik yoluna qədəm qoymuş respublikamızın müasir inkişaf mərhələsində suverenliyimizin möhkəmlənməsi və xalqın maddi-rifah halının yüksəldilməsində YEK bir daha strateji əhəmiyyət kəsb edir. Yerli yanacaq-energetika ehtiyatlarına malik olan hər bir ölkənin, o cümlədən Azərbaycanın da müstəqil inkişafı çox rəvan gedir. Zavod və fabriklərin dəzgah və avadanlıqlan, kənd təsərrüfatında işləyən traktor və müxtəlif kombaynlar, nəqliyyat yollarında şütüyən qatarlar, gəmilər və tankerlər, avtomobillər,səmada hərəkət edən -təyyarə və vertolyotlar, hər gün məişətdə işlədilən elektrik cihaz və müxtəlif vasitələr (alətlər), mənzillərin, ictimai binaların qızdınlamasını, insanların hər cür rahatlığını təmin edən bir çox vasitələr məhz YEK-in inkişafı sayəsində hərəkətə gətirilir. Yanacaq-energetika kompleksi ənənəvi olaraq Azərbaycan Respublikası iqtisadiyyatının aparıcı sahəsi olmuş və struktur dəyişikliklərinin, bazar iqtisadiyyatına keçidin müasir mərhələsində də onun əhəmiyyəti daha da artmışdır.

YEK-in aparıcı sahələri yanacaq və elektroenergetikadan ibarətdir. Yanacaq sənayesi özündə hasilat və emal sahələrini birləşdirir. Hasilatın neft, qaz, kömür, torf, şift və odun tədarükü sahələri mövcuddur.

Neft sənayesi Azərbaycanın ən qədim təsərrüfat sahələrindən biridir. O, nəinki iqtisadiyyatın strukturunu

normalaşdırır, eləcə də bütövlükdə ölkənin xalq təsərrüfatını inkişafının bütün mərhələlərində həlledici rol oynamışdır. Onun inkişafı metallurgiya, maşınqayırma və metal emal, kimya və neft-kimya, tikinti materialları istehsah komplekslərinin, yeyinti, yüngül sənaye sahələrinin, eləcə də ASK-nın daha da inkişafı və formalaşmasına səbəb olmuşdur. 150 ıldən artıq bir dövrdə Azərbaycan zəngin elmi-texniki təcrübə toplamış və yüksək ixtisaslı kadrlar və neftçilər ordusu yaratmışdır. Azərbaycan neftçilərinin keçmiş SSRİ-nin, habelə dünyanın çox ölkələrindəki neft yataqlarının axtanılmasında və onların istismara verilməsində əvəzsiz xidmətləri olmuşdur. Bu əsasdan da, Azərbaycan haqlı olaraq «Neft Akademiyası» adlandırılmışlar.

Azərbaycan uzun müddət Çar Rusiyasının, eləcə də SSRİ-nin başlıca neft bölgəsi olub hasil olunan neftin çox hissəsini vermişdir. Belə ki, 1900-1901-ci illərdə Azərbaycan dünya neftinin 51 %-ni, Rusiya neftinin isə 91 %-ni hasil etməkdə idi. Əgər, bu illərdə Rusiyada 14,0 mln.ton neft hasil olunurdusa, onun 11 mln. tondan artığını Azərbaycan neftçiləri hasil edirdilər.

Azərbaycanın neft hasilatı rayonları özlərinin yığcamlılığı ilə seçilir. Belə ki, neft yataqları çox kiçik ərazidə - 3000 kv.km sahədə bir-birinə yaxın - kompakt yerləşərək böyük geoloji ehtiyata malikdirlər. Azərbaycanda neft sənayesi öz inkişafına Abşeron yarımadasının Balaxanı, Sabunçu, Ramana, Suraxanı, Binəqədi, Pirallahı, Bibiheybət mədənlərindən başlasa da 1949-cu ildən Xəzərə doğru istiqamət almışdır. Sənaye üsulu ilə ilk neft 1847-ci ildə Bibiheybət mədənlərində fantan vurmuşdur. 150 illik neft hasilat tarixində yerin təkindən təxminən 1,5 mlrd. ton neft istehsal olunmuşdur ki, onun da 500 mln. tonu Xəzər dənizinin payına düşür. Ölkədə neftə olan tələbatın get-gedə artması Lökbatan -Puta, Zığ, Quşxana, Yasamal, Qala, Qaraçuxur, Duvanın, Neftçala yataqlarını aşkarlanması və onlardan neft hasil olunması ilə nəticələnmişdir. Deyilənlərin nəticəsi kimi qeyd olunmasıdır ki, 1940-cı ildə Azərbaycanda neft hasilatı 22,2 mln.tona, lakin 1941-ci ildə bu maksimal kəmiyyət göstəricisinə - 23,5 mln.tona qədər yüksəlmişdir. Bu göstərici SSRİ-də hasil olunan neftin 75 %-i demək idi. II Dünya müharibəsinin qələbə ilə başa çatmasında o

müddətdə hasil olunmuş 75 mln.ton neftin (ölkədə isə 110 mln. t.) çox böyük rolu olmuşdur.

Son illərdə respublikanın daxili rayonlarında (quruda) Murad-xanlı, Mollakənd, Tərsdəllər, Kəmaləddin yataqları istifadəyə verilsə də, eləcə də quruda yeni neft jataqlarının axtarışına və neft çıxarılmasında müxtəlif texniki yeniliklərin tətbiqinə baxmayaraq hasilatı günün müasir tələbləri səviyyəsinə qaldırmaq və ya heç olmasa onu sabit saxlamaq mümkün olmamışdır. Ona görə də Xəzərə doğru üz tutmaqla son vaxtlar «Azəri», «Günəşli», «Çıraq», «Şahdəniz», «Qarabağ», «Dan Ulduzu», «Əşrəfi», «Lənkəran-dəniz», «Naxçıvan», «Abşeron», «Oğuz», «Kürdaşı», «Araz», «Alov» və «İnam» yataqları aşkarlanmışdır. «Azəri» yatağının ehtiyatının 250 mln. tondan artıq olması müəyyənləşdirilmişdir. Eyni zamanda bu yataqda bir neçə mlrd. kubmetrlərlə qaz ehtiyatının olması bəllidir. Şahdəniz yatağında isə 1,0 trln. kub.metrdən artıq qaz ehtiyatının olması kəşfiyyat aparan müəssisələrə aydın olmuşdur. Qeyd etmək lazımdır ki, indiki dövrdə Azərbaycanın iqtisadi imkanları yuxarıda göstərilən yataqları sərbəst istismar etməyə imkan vermir. Son illərdə Xəzərdə neft hasilatında keçmiş üçün yararlı hesab edilən bir sıra texniki vasitələrin, o cümlədən, «Xəzər», «Şelf», «Bakı», «Dədə Qorqud», «İstiqlal», «Qurtuluş» adlı üzən qazma qurğularının, habelə «Günəşli» adlı stasionar özüllərin tətbiq olunmasına baxmayaraq, şelf zonasının dərinliklərində yerləşən yataqların işlədilməsində müəyyən texniki çətinliklərlə qarşılaşılır. Bu çətinlikləri aradan qaldırmaq üçün yeni yataqların istismarında Azərbaycan dünyanın tanınmış neft şirkətlərinə miiraciət etməklə bu sahədə onlarla əməkdaşlıq etməyə hazır olduqlarını bildirmişdir. Budur, 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikası Dövlət Neft şirkəti (ARDNŞ) ilə dünyanın 6 dövlətinin 11tanınmış neft şirkətləri arasında müqavilə imzalanmışdır. ABŞ-ın sabiq prezidenti Klinton bağlanilmış müqaviləni haqlı olaraq «Əsrin müqaviləsi» adlandırmışdır. Xarici neft şirkətləri ilə ilk müqavılənin imzalanması Xəzər dənizinin Azərbaycan sektorundakı «Günəşli», «Azəri», «Çıraq» yataqlarının birgə işlənməsi üzrə həyata keçirilmişdir. Saziş ABŞ-m «Amoko», «Ekson», «Penzoyl», «Yunokal», Böyük Britaniyanın «Bi-Pi»,

«Remko», Norveçin «Statoyl», Türkiyənin «TRAO», Səudiyyə Ərəbistanın «Delta» neft şirkətləri ilə bağlanmışdır. Müqaviləyə əsasən 30 il müddətində göstərilən yataqlardan 511 mln.ton neft və 55 mlrd. kubmetr qaz çıxarılması nəzərdə tutulmuşdur. Hasil olunan neftin 253 mln.tonu, qazın isə hamısı əvəzsiz olaraq Azərbaycana çatacaqdır ki, bunun da ümumi gəliri 34 mlrd. ABŞ dollarına bərabərdir.

Azərbaycanda indiyə qədər neft sənayesinin daha da inkişafını nəzərdə tutan 15 dövlətin 34 neft şirkəti ilə 24 neft müqaviləsi imzalanmışdır. Bağlanılmış müqavilələrə görə Azərbaycanın neft sənayesinin inkişafına 60 mlrd. ABŞ dolları həcmində sərmayə qoyuluşu nəzərdə tutulmuşdur. Onun da artıq 12 mlrd. dolları Azərbaycana daxil olmuşdur. İmzalanan müqavilələrin nəticəsində yaxın gələcəkdə Azərbaycanda neftin illik hasilatı 100 mln. tona çatacaqdır. İlkin neft 7 noyabrl997-ci ildə «Çıraq-1» yatağından çıxarılmış və 176 km uzunluğunda çəkilmiş sualtı neft borusu ilə Sanqaçal terminalına vurulmağa başlamışdır. Sutkada «Çıraq -1» platformasından 20 min tondan çox neft çıxarılır. Bu vaxta qədər «Çıraq - 1» yatağından 35 min tondan çox (22 mln.barrel) neft, 7 mlrd. kubmetr qaz hasil edilmişdir. Hasil olunmuş neftin 31 mln.tonu 9 iyun 1999-cu ildə istifadəyə verilmiş və uzunluğu 830 km olan Bakı-Supsa neft kəməri ilə Gürcüstan Respublikasına, oradan da Avropa bazarlarına daşınmışdır.

Hal-hazırda Azərbaycanda neftin illik hasilatı 15,3 mln. ton təşkil edir. Bunun 90 %-ə qədəri Xəzərdən çıxarılır. İstehsal olunmuş neftin bir hissəsi Yeni Bakı Neftayırına zavoduna emal üçün göndərilir. Zavodda 90 addan çox yeni emal məhsulları içərisində yüksək keyfiyyətli yağlar, müxtəlif növ benzin, dizel yanacağı, ağ neft və mazut xüsusilə seçilir. Yerli neftayırına zavodlarının eyni zamanda Qazaxıstandan tankerlərlə gətirilən xam nefti də emal edir. Neft məhsullarının çox hissəsi yerli istehlak üçün işlədilir, eləcə də xarici ölkələrə satılır. Xəzərdən çıxarılan, Azərbaycana Qazaxıstandan gətirilən nefti xaricə nəql etmək üçün 1997-ci ildən bərpa edilən, uzunluğu 1411 km-ə çatan Bakı - Novorosiyski, Bakı-Supsa (830 km) neft boru kəmərlərindən, eləcə də Bakı-Batumi dəmir yolundan istifadə olunur. 2005-ci ilin dekabrında işə düşməli olan, ümumi uzunluğu 1767 km-ə çatan

Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru xətti ən mühüm strateji əhəmiyyətə malik olmaqla qonşu ölkələrin daşımalarına da kömək edəcəkdir. BTC neft boru xətti Azərbaycan ərazisində 443 km, Gürcustan ərazisində 248 km və Türkiyə ərazisində 1076 km uzunluğa malik olacaqdır. BTC neft boru kəməri nefti birbaşa Aralıq dənizinə çıxarmağa imkan verəcəkdir. Aktau - Bakı arasında Xəzərin dibindən keçməklə çəkilməsi planlaşdırılan boru kəməri istifadəyə verildikdən sonra Qazaxıstan neftinin artıq trankerlərlə yox, birbaşa həmin kəmərlə dünya bazarına çıxarılması reallaşacaqdır.

Qaz sənayesi Azərbaycanın yanacaq balansında başlıca rol oynayır. 1928-ci ildən başlayaraq Azərbaycanda qaz sahəsi sənayenin apanci növünə çevrilmişdir. Cavan, ən sərfəli, ekoloji baxımdan təmiz, ən ucuz yanacaq növü olan yanar qaz məişətdə, elektrik stansiyalarında, kimya sənayesində və bir sıra digər təsərrüfat sahələrində çox geniş istifadə olunur. Qazın az bir hissəsi müstəqil qaz yataqlarından - Abşeron yarımadası və Xəzər dənizinin akvatoriyası yataqlarından əldə edilir. Müstəqil qaz ehtiyatının 80 %-dən artığı, kondensatının isə 93 %-dən çoxu Xəzər dənizində yerləşən yataqların öhdəsinə düşür. Xəzərdə yerləşən Şahdəniz qaz yatağının cox böyük ehtiyatı müəyyən edilmişdir. Şahdəniz-Tbilisi-Ərzurum qaz boru xətti 2006-ci ildə çəkilərək Gürcüstana, Türkiyəyə, Yunanıstana, Rumuniyaya, İtaliyaya və eləcə də Avropanın digər bazarlarına mavi yanacaq nəql edəcəkdir. Onun uzunluğu 1050 km olacaqdır.

Respublika daxilində ən zəngin qaz yataqları Qaradağ - Qobustan, Gürgən - Zirə zonalarında yerləşir. Azərbaycanda təbii qaz, zavod qazı, səmt qazı almaraq istehlakının ödənilməsinə sərf olunur. 2005-ci ildə Respublikada 5,0 mlrd. kubmetrəqədər qaz hasil olunmuşdur. Qaza olan tələbatının böyüklüyü İran İslam Respublikasından (Naxçıvana), əsasən də Rusiyadan Dərbənd - Qazıməmməd qaz kəməri ilə hər il 5,0 mlrd. kubmetrə qədər (2005-ci il) qaz istehlak olunmasına şərait yaranır.

Fəsillər üzrə qaza olan istehlakın artıb-azalmasından «artıq» qaz əldə edilir. O da 1974-cü ildə tikilmiş Kalmaz və 1988-ci ildən istifadəyə verilmiş Qaradağ süni yeraltı qaz anbarlarına doldurularaq pis vaxtlarında istifadə üçün gərəkli olur.

İstehsalla istehlakı əlaqələndirmək üçün Azərbaycanda 40 min km ümumi uzunluğa malik qaz boru kəmərləri çəkilsə də bunun 5 min kilometrini magistral xətlər təşkil edir.

Azərbaycanda yanacağın digər növlərinin-kömürün, şistin sənaye əhəmiyyəti kəsb etmədiklərinə görə hasil olunmasını nəzərə alaraq onların şərhinin verilməsinə ehtiyac qalmır. Bu ehtiyatlar Xırdalan qəsəbəsi və İsmayıllı rayonu ərazisində aşkarlanmışdır.

Yanacaq-energetika kompleksinin ikinci aparıcı sahəsi elektroenergetikadır. Buraya elektrik stansiyalarından, istilik elektrik mərkəzlərindən (İEM) elektrik enerjisinin, isti suyun, buxarın istehsalı və onların istehlakçıya çatdırılması daxildir. Xalq təsərrüfatında damar rolunu oynayan elektroenergetikanın özünə məxsus xüsusiyyətləri vardır. Belə ki, başqa təsərrüfat sahələrində olduğu kimi istehsal olunmuş məhsul yığılıb anbarlarda saxlanılır,əksinə,hasil olunmuş məhsul birbaşa istehlakçıya göndərilir. Daha doğrusu, nə qədər məhsul tələb olunursa o qədər də istehsal olunur.

Azərbaycanda elektroenergetikanın günün tələbləri səviyyəsində inkişaf etdirmək üçün hər cür imkanlar vardır. Daha doğrusu,yanacaq,su,külək,günəş,geotermik mənbələr mövcuddur. Bu əsasdan da respublikada SES, İES, İEM, KES fəaliyyət göstərir.

İstehlaka müvafiq olaraq elektrik stansiyalarının qədim yaranma tarixi vardır. Hələ 1913-cü ildə ümumi gücü 40 min kvt-a çatan mövcud elektrik stansiyalarından 111 mln. kvt. saat elektrik enerjisi hasil edilmişdir. Bu, orta və kiçik gücə malik 7 elektrik stansiyasının fəaliyyətinin göstəricisi idi. İnqilaba qədər elektrik stansiyasının demək olar ki, hamısı Bakıda cəmləşmişdir. İlk əvvəl Bakıda yerli mazutla işləyən bir neçə kiçik İES-lər yaradılmışdır. Bu stansiyalar tərəfindən istehsal olunan elektrik enerjisi əsasən neft quyularının qazılmasına, neftin hasilatına və emalına işlədilirdi. Stansiyalardan ən böyükləri 45 min kvt gücü olan Belqorod, 9,8 mln. kvt gücü olan Bibiheybət hesab olunaraq müvafiq olaraq 1901-1902-ci illlərdə tikilib istifadəyə verilmişdir. Deyilənlərlə yanaşı Suraxanı (900 kvt), Ramana (4 min kvt), Pirallahı (1,4 min kvt), Zabrat (720 kvt), Sabunçu (700 kvt) İES-ləri də az da olsa elektrik enerjisi hasilatına kömək edirdilər. Əlbəttə, qonşu rayonlarda -Gəncədə, Nuxada, Qubada, Lənkəranda da çoxda

böyük olmayan elektrik stansiyaları fəaliyyətdə idi. Keçən əsrin 20-ci illərində Azərbaycan da QOELRO planına qoşularaq Nuxada, Qubada, Xanlarda, Qoryagində, Xankəndində, Zaqatalada kiçik SES-lər tikilmişdir. Deyilənlərin nəticəsində Bakı ən ucuz elektrik enerjisi istehsal edən sənaye mərkəzi kimi tanınırdı. Bu səbəbdən də SSRİ-də elektriklə işləyən ilk tramvay xətti 1924-cü ildə Bakıda, ilk dəmir yolu xətti də (1926-cı ildə Bakı-Sabunçu-Suraxanı arasında, 20 km məsafədə) işə salınmışdır. Bu dövrlərdə mövcud elektrik stansiyalarının ümumi gücü 71 min kvt-dan çox deyildir. 1940-cı ildə respublikada elektrik enerjisi hasilatı 2,0 mlrd. kvt saata yaxın olmuşdur. İstehlakla əlaqədar olaraq ildən ilə elektrik stansiyalarının sayı, eləcə də məhsul hasilatı artırılırdı. Buna başlıca səbəb respublikada yanacaq sənayesinin sürətlə artması idi. Azərbaycan ən çox elektrik enerjisi hasilatına 1988-ci və 1990-cı illərdə nail olmuşdur. Daha doğrusu, 1988-ci ildə 23,6 mlrd. kvt saat, 1990-cı ildə isə 23,2 mlrd. kvt.saat hasil olunan elektrik enerjisi istehlakı tam ödəyəcək miqdarda olmuşdur. 2004-cü ildə gücü 5,0 mln. kvt-dan çox olan mövcud 15-ə yaxın elektrik stansiyasından və İEM-lərdən 18,5 mlrd. kvt saat elektrik enerjisi hasil edilmişdir. Adambaşına düşən elektrik enerjisinin miqdarı 4 min kvt saatdan çoxdur. Bu da İtaliyadakından xeyli artıqdır.

Tez tikilən, ucuz başa gələn, yanacağa və istehlaka meyl edən, ilboyu sabit elektrik enerjisi hasil edən, tikilməsində çox da böyük ərazi tələb olunmayan, qazla-mazutla işləyən istilik elektrik stansiyaları (İES) dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da illik məhsul istehsalatında böyük xüsusi çəkiyə malikdir. Belə ki, illik elektrik enerjisi hasilatında İES-lərin xüsusi çəkisi 93 %-ə qədərdir. Azərbaycanda yanacaq sənayesinin qədimdən inkişaf etməsi əməyin məhsuldarlığını artırmaq, məhsulun maya dəyərini aşağı salmaq, çox məhsul istehsal etmək, mövcud və yardımçı təsərrüfat sahələrin daha da inkişafını təmin etmək məqsədi ilə elektrik stansiyalarnın, o cümlədən İES-lərin yaradılmasını zəruriləşdirirdi. Bu məqsədə, hələ 1897-ci ildə Bakıda ilk İES - «Qırmızı ulduz stansiyası» yaradılmışdır. Sonralar, 1901-ci ildə Almaniyanın «Simens» firması dünyada ilk dəfə olaraq nadir İES-i Bakıda quraşdırmışdır. Getdikcə elektrik enerjisinə olan tələbat yeni-yeni stansiyaların tikilməsini tələb edirdi. Ona görə də,

1954-cü ildə Xəzər sahilində «Şimal» DRES-i tikilərək elektrik enerjisi hasil etməyə başlamışdır. Qaz və mazutla fəaliyyət göstərən «Şimal» DRES-inin gücü 319 min kvt-dan artıqdır. Hal-hazırda xarici şirkətlər, banklar hesabına fiziki və mənəvi cəhətdən köhnəlmiş qurğular təzələnərək stansiya yenidən modernləşdirilir. Bu işləri həyata keçirmək məqsədi ilə Almaniya və Yaponiya dövlətləri ilə müqavilə imzalanmışdır.

1958-1962-ci illərdə Kür çaymın Əli-Bayramlı hissəsində Avropada ilk açıq tipli, gücü 1,2 mln. kvt olan Əli-Bayramlı DRES-i tikilərək elektrik enerjisinə olan istehlakı indi də ödəməkdədir.

Kür çayının sahilində -Mingəçevir şəhərində, 1981-ci ildə tikilən, 10 bloklu Azərbaycan DRES-inin gücü 3,6 mln. kvt təşkil edir. Qaz və mazutla işləyən stansiya Azərbaycanda illik elektrik enerjisi hasilatının kəmiyyət göstəricisinin artmasına səbəb olmuşdur.

Deyilənlərlə bərabər, Bakı - 1, Gəncə - 1, Sumqayıt - 1, Sumqayıt - 2, Naxçıvan Elektrik Mərkəzləri də yaradılmışdır. Bir qayda olaraq İEM-lər istehlak rayonlarından ən çoxu 20 km məsafədə yerləşdirilirlər. Ona görə də onlar respublikanın başlıca istehlak mərkəzlərində - iri şəhərlərdə yaradılmışlar. 7 iyun 2001-ci ildə Sumqayıtda Yaponiyadan alınmış 90 mln. dollar güzəştli kreditlə 360 min kvt gücü olan və sutkada 480 ton yüksək təzyiqli, temperaturlu buxar verə bilən müasir İEM - buxar - generator qurğusu işə salınmışdır. Deyilənlərin hamısı Azərbaycan energetikasının əsasını təşkil edir.

Azərbaycanda ilk SES Gədəbəy rayonunun Qalakənd yaşayış məntəqəsi ərazisində mis emalı sənayesinin inkişafı ilə əlaqədar olaraq 1890-cı ildə tikilmişdir. SES-lər bir qayda olaraq gec tikilərək bir çox yararlı təbii sərvətlərin yaradılmış süni su dəryaçalarının altında qalmasına səbəb olurlar, eləcə də ən ucuz elektrik enerjisi hasil edirlər və s. Məsələn, Rusiyada 1986-cı ildə istifadəyə verilmiş Sayano - Şuşenski SES-i 25 ilə tikilmişdir. Azərbaycanın hidroenerji ehtiyatlarından hələ tam gücü ilə istifadə olunmur. Respublika çaylarının ümumi hidroenerji potensialı 5,5 mln. kvt miqdarındadır. Göstərilən ehtiyat tam istifadə olunarsa, hər il ancaq çaylar hesabına 43,5 mlrd. kvt saat elektrik enerjisi hasil oluna bilər. Deyilənlər təminat yaratmışdır ki, Respublikanın Kür,

Araz, Tərtər və digər çayları üzərində Mingəçevir, Varvara, Tərtər, Şəmkir, Yenikənd, Araz SES-lərini tikmək mümkün olsun.

O zamanlar Cənubi Qafqazda ən böyük gücə malik SES 1954-cü ildə Kiir çayı üzərində Mingəçevirdə tikilib istifadəyə verilmişdir. Bu, eyni adlı Mingəçevir SES-i idi ki, onun da ümumi gücü 360 min kvt-a çatırdı. Stansiya elektrik enerjisi verməklə yanaşı bir çox kompleks işlərin də görülməsi ilə nəticələnmişdir. Daha doğrusu, ümumi həcmi 16 min kub km su tutumu olan süni dəryaça yaradılmış, başçılıq, turizm, su nəqliyyatı inkişaf etdirilmiş, mikroiqlim şəraiti yaradılmış, Kür-Araz düzənliyinə Yuxarı Qarabağ, Yuxarı Şirvan suvarına kanalları çəkilmiş, çayda illik su axarı tənzimlənmiş, daşqınların qarşısı alınmış, qızdırma xəstəliyinin (malyariyanın) qarşısı alınmış enerji tutumlu təsərrüfat sahələri artırılmış və ən başlıcası Mingəçevir kimi yeni sənaye şəhəri yaradılmışdır. Mingəçevir SES-i hər il 900 - 1,0 mlrd. kvt saata qədər elektrik enerjisi hasil edir.

1957-ci ildə Mingəçevirdən 15 km Yevlax şəhərinə doğru, ümumi gücü 16,5 min kvt olan Varvara SES-i tikilərək ölkədə elektrik enerjisinə olan istehlakının ödənilməsinə xidmət edir.

Deyilənlərlə yanaşı ölkədə məhsuldar qüvvələrin inkişafının və düzgün yerləşdirməsinin bir daha təmin etmək məqsədilə 1971-ci ildə hasil olunmuş məhsulu bərabər bölməklə İran İslam Respublikası ilə müştərək, gücü 22 min kvt olan «Araz» SES-i tikilib istifadəyə verilmişdir. «Araz» SES-i hər il 73 mln. kvt saat elektrik enerjisi hasil edir.

Respublikanın qərb bölgəsində mövcud təbii sərvətləri istehsala cəlb etmək, kənd təsərrüfatı işlərini daha da yaxşılaşdırmaq, yeni-yeni enerji və əmək tutumlu sahələrin varlığını reallaşdırmaq, mərkəzlə əlaqələri daha da möhkəmləndirmək məqsədilə Tərtər çayı üzərində «Sərsənk» SES-ini tikmək çox vacib idi. Bu iş 1976-cı ildə həyata keçirilərək yuxarıda deyilənlərin həllinə köməkçi olmuşdur. Onun gücü 50 min kvt olmaqla ildə 123 mln.kvt.saat elektrik enerjisi verir. Hal-hazırda o erməni təcavüzünə məruz qalmışdır.

Əlbəttə, xalq təsərrüfatmın dinamik inkişafını təmin etmək məqsədi ilə elektrik enerjisindən hərtərəfli, səmərəli, qənaətli istifadə etmək hər bir ölkə, o cümlədən də Azərbaycan üçün də

vacib məsələlərdən hesab edilir. Bu baxımdan 1982-ci ildə respublikamızın şimal-qərbində gücü 380 min kvt, illik elektrik enerji hasilatı 900 mln. kvt saatdan çox olan Şəmkir çayı üzərində eyni adlı SES tikilib istifadəyə verilərək bölgənin elektrik enerjisinə olan illik istehlakını ödəmək mümkün olmuşdur.

Kür çayı üzərindəki gücü 150 min kvt 4 bloklu Yenikənd SES-in yarımçıq qalmış tikintisini başa çatdırmaq üçün Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən 53,2 mln. ABŞ dollar həcmində uzunmüddətli kredit verilmiş və nəticədə 1999-cu ildə tikinti başa çadırılaraq 2000-ci ilin may ayında istifadəyə verilmişdir.

Azərbaycanda ekoloji cəhətdən daha təmiz olan alternativ elektrik enerjisi hasilatı mənbələri sayılan külək, günəş, isti su (geotermal) enerji mənbələrindən də istifadə etmək imkanları da mövcuddur. Təsadüfü deyildir ki, alternativ enerji mənbələrindən yaxın gələcəkdə istifadə edilməsinə dair dövlət sərəncamı artıq verilmişdir. Xəzər dənizi sahili boyunca, eləcə də Abşeron yarımadasında illik orta surəti 9 metr saniyəyə bərabər olan külək enerjisindən daha sox istifadə edərək belə qurğuların yaradılması çox gərəklidir. Günəş enerjisindən respublikada demək olar ki, heç istifadə olunmur. Buna da gələcəkdə xüsusi fikir verilməlidir. Azərbaycanın bir çox bölgələri, o cümlədən Orta Kür, Lənkəran, Astara, habelə Abşeron çox böyük ehtiyatlara və yüksək temperaturlu isti su ehtiyatlarına malikdir ki, onlardan yaşayış və ictimai binalanın qızdırılmasında, isti şitiliklərin yaradılmasında, eləcə də müalicə məqsədlərində istifadə olunması çox gərəklidir.

Azərbaycanın mövcud elektrik stansiyaları yüksək gərginlikli elektrik xətləri ilə əlaqələndirilmiş və vahid energetika şəbəkəsi yaradılmışdır. Respublikada fəaliyyət göstərən energetika şəbəkəsi qonşu dövlətlərin - Rusiyanın, Gürcüstanın, İran İslam Respublikasmın, Türkiyənin energetika şəbəkəsi ilə də əlaqələndirilmişdir. Müasir dövrdə blokadada olan Naxçıvan Türkiyə və İran İslam Respublikasının enerji şəbəkələri ilə əlaqələndirilərək eletrik enerjisinə olan illik istehlakını ödəyə bilir.

Azərbaycan energetika şəbəkəsi elektirk enerjisinə olan tələbatını ödəmək məqsədi ilə Gürcüstanın elektrik şəbəkəsi ilə də birləşdirilmişdir.

Abşeronda Böyükşor gölü sahilində tikiləcək Yeni Bakı İEM-inin istifadəyə verilməsi şəhərin elektrik enerjisi və istilik təchizatını daha da yaxşılaşdırmağa şəraiti reallaşdırmağa kömək edəcəkdir. Digər tərəfdən, Hacıqabul rayonunun Nəvahi yaşayış məntəqəsi yaxmlığında ümumi gücü 3,2 mln. kvt-dan çox olacaq «Yeni Azərbaycan» DRES-i, İran İslam Respublikası və Azərbaycanın Araz çayı üzərində tikəcəkləri Ordubad, «Xudafərin», «Qız qalası» su elektrik stansiyalarının tikilib başa çatması, eləcə də Araz, Qamx, Həkəri, Kür çaylan üzərində tikilməsi nəzərdə tutulan SES-lərin reallaşması təbiəti mühafizə normalarına əməl etməklə, Azərbaycan Respublikasının elektrik enerjisi ilə təchizatını tamlığı ilə yerinə yetirəcəkdir. Bu, eyni zamanda Azərbaycaınn xarici ölkələrə elektrik enerjisi ixrac etməsinə də şərait yaradacaqdır.

Metallurgiya kompleksi ağır sənayenin tərkibində xalq təsərrüfatının başlıca sahəsi olub, bütün digər sənaye sahələrinin, kənd təsərrüfatının, nəqliyyatının, hərbi-strateji sahələrin inkişafının açarını təşkil edir. O, müasir zamanda çox böyük imkanlara malik sənaye kompleksi olub başqa sənaye sahələri ilə də sıxı surətdə əlaqəlidir. Bəllidir ki, hər hansı bir dövlətin iqtisadi və hərbi qüvvəsi bir növ həmin dövlətin istehsal etdiyi metalın kəmiyyət və keyfiyyət göstəriciləri ilə müəyyən edilir. Digər tərəfdən, metallurgiya kompleksi inkişaf etdikcə koks-kimya, maşınqayırma və sair sahələr də inkişaf tapır, ayrı-ayrı sənaye qovşaqlarının, şəhər və qəsəbələrin bərqərar olması mövcudlaşır. Bunlarla yanaşı metallurgiya rayon əmələgətirici faktor kimi də özünü göstərir, məhsulları dövlətin xiarici ticarətində aparıcı rol oynayır. O, iki sahəni özündə birləşdirir. Bunlardan biri müəssisələrinin yaradılarkən xammala, yanacağa, suya, müxtəlif qatışıqlara, əlverişli coğrafi mövqeyə, nəqliyyata, istehlaka meyl edəni - qara metallurgiya, digəri isə müəssisələri çox və ucuz elektrik enerjisi hasilatı mənbələrinə, suya, xammala, istehlaka yaxınlaşanı əlvan metallurgiyadır. Azərbaycanda bu deyilənlərin hamısı ilkin zəminlər olmaqla mövcuddur. Dəmir filizi çıxarılmasından, çuqun, polad əridilməsindən, prokat və başqa metallarla dəmir ərintiləri, ferroərintilər təbəqə dəmir boru, rels və s. istehsalından ibarət olan tam dövriyyəli qara metallurgiya tam, həmin

məhsulların bir neçəsini istehsal edən natamam dövriyyəli müəssisələri mövcuddur. Göstərilən məhsulların alınmasında xammal kimi filizin bu və ya digər növlərindən, müxtəlif qatışıqlardan, habelə yancaq olaraq kömürdən, elektrik enerjisindən istifadə edilir. Respublikada 1954-cü ildə Daşkəsən dağ-mədən kombinatı, filiz saflaşdırma fabriki, 1952-ci ıldə Sumqayıt boru prokat birliyi, Bakıda təkrar qara metallurgiya müəssisəsi, iri maşınqayırma zavodları nəzdində çox da böyük olmayan - kiçik metallurgiya sexləri yaradılmışdır.

Əlvan metallurgiya yüngül metal filizlərinin hasilatından onların saflaşdınlmasından, əridilməsindən, müxtəlif digər ərintilərin əldə edilməsindən ibarətdir. Ölkənin eiektrikləşdirilməsi, müdafiə qüdrətinin daha da möhkəmbndirilməsi, maşınqayırma, elektorotexnika, kimya bir çox digər təsərrüfat sahəbrinin inkişafı və düzgün yerləşdirilməsi üçün onun çox böyük əhəmiyyəti vardır. Əlvan metalların bəziləri korroziyaya, digəri odadavamlılığa, bir çoxu isə yüksək elektrikkeçirmə qabiliyyətinə malikdir. Əlvan metallurgiyanın ağır-mis, qalay, qurğuşun, sink, nikel, yüngül - alminium, maqnezium, titan, qiymətli - qızıl, gümüş, platin, çətin əriyən volfram, molibden, nadir- uran, germanium növləri vardır. Əlvan metallurgiyanın əsas müəssisələri 1955-ci ildə Sumqayıtda yaradılmış alüminium zavodundan, 1965-ci ildə Gəncə şəhərində istifadəyə verilmiş Gil- torpaq istehsalat birliyindən, Bakıda yerləşən əlvan metalların emalı zavodundan ibarətdir. Sumqayıt alüminium zavodu ilkin xammal buraxan müəssisədən alüminiurn prokatı, məftil, məişət soyuduculan üçün buxarlandırıcüar, konserv sənayesi üçün folqa, müxtəlif konstruksiya materialları, borular və sairə buraxan müəssisəyə çevrilmişdir.

Azərbaycan Respublikasında təsərrüfat strukturunun formalaşmasında maşınqayırma kompleksi aparıcı rol oynayır. O, özündə 600 dən artıq müəssisə və istehsal sahələrini birləşdirirdi ki, onlar da 350-dən çox adda müxtəlif növlü məhsullar verirdilər. Bunların içərisində neft maşınqayırmasının xüsusi çəkisi 50 faizdən az deyildir. Bu sahənin inkişafı bilavasitə neft sənayesinin qədimdən yaradılması və inkişafı ib bağlıdır. Keçmişdə 16-dan çox, hal-hazırda neft sənayesinə xidmət edən 8-ə qədər zavod fəaliyyət göstərir. Bunlardan, Səttarxan adma, «Bakı fəhbsi», Keşlə

Maşınqayırması, Sərdarov adma, Qaradağ dəniz özülbri, Binəqədi və s. neft-qaz maşınqayırma zavodlarının adını çəkə bilərik. Onların məhsulları qazma nasos şlanqları, fontan armaturları, kalon başlıqları, nəhəng bloklar, üzən platformalar, mancanaq dəzgahları, qazma baltaları, səyyar qaldırıcı qurğular, pərli baltalar, reduktorlar, hidromat, tökmə polad, tökmə çuqun, dərin kəşfiyyat quyuları qazmaq üçün qovşaqlar və sairdən ibarətdir. Dünyada ilk dəfə buruq qazma işində yeni mərhəb açmış turbin qazma və elektrik qazma qurğuları Bakıda istehsal edilmişdir.

Maşınqayırma kompleksinin aparıcı sahəsi elektrotexnika maşınları istehsalı hesab edilir. Buraya 1975-ci ildən fəaliyyətdə olan məişət kondisionerləri zavodu, 1980-ci ildə yaradılmış «Azərelek-troterm», 1975-ci ildə yaradılmış Azərelektrikişıq Bakı İstehsalat Birliyi, 1962-ci ildə tikilmiş Bakı təcrübə-eksperimental zavodu, 1974-cü ildə tikilmiş Bakı Elektrik Məişət İstehsalat Birliyi, 1960-cı ildə tikilmiş Bakı Soyuducular zavodu, 1947-ci ildə tikilmiş Bakı radio zavodu, Mingəçevirdə «Azərkabel» zavodu, 1961-ci ildə tikiimiş mayesiz transformatorlar zavodu daxildir.

Respublikamızın yeni maşınqayırma sahəbrindən biri də cihazqayırma, avtomatlaşdırma vasitəbri idarəetmə sistemləri istehsalı sahəsidir.

Nəqliyyat və kənd təsərrüfatı maşınlar istehsal edən sahə çox zəif inkişaf etmişdir. Gəmiqayırma, gəmi təmiri, avtomatlaşdırma və avtomobil təmiri zavodlarında yedək gəmiləri, kiçik tankerlər, qazma-kəşfiyyat-bərpa və kran gəmibri, «Dədə Qorqud», «İstiqlal» tipli üzən platformalar istehsal olunıur. Son vaxtlar Gəncə avtomobil zavodu işə düşərək «Oka» adlı minik maşınları buraxır. Mingəçevir kənd təsərrüfatı maşınqayırma zavodu avtoyükləyicilər, xəndək-qazan maşınlar, Zəyəm zavodu isə kənd təsərrüfatı alətləri və suvarma nasoslarının əldə edilməsinə kömək edir.

Kimya və neft-kimya kompleksi ağır sənayenin sahələrindən biri olub mineral xammalların istehsah ilə məşğul olan - dağ-mədən, duz, turşu, mineral kübrələr alınmasına xidmət edən - əsas; karbohidrogen xammalı, müxtəlif yarımfabrikatlar istehsal edən - üzvü sintez plastik kütlə, kauçuk, müxtəlif növləirin alınması - polimerlər; şin, polietilen hazırlanması ilə məşğul olan – polimer

metallarının emalı kimyasını özündə birləşdirir. Onun əsas müəssisələri Bakıda, Sumqayıtda, Gəncədə, Neftçalada, Mingəçevirdə tikilmişdir. İstehsal olunan soda, sulfat turşusu, superfosfat kübrəsi, kükürd, kalium, kübrəsi, tibb preparatlan, yuyucu tozlar, xlor, lak-boya, etil spirti, plastik kütlə, polietüen və sair kimi çox çeşidli məhsulları vardır.

Tikinti materialları kompleksi respublikada mövcud olan istehsal komplekslərinin bütün həlqələri ilə sıx surətdə əlaqəlidir. Sement, dəmir-beton konstruksiyaları, müxtəlif ölçülü pänellər, tikinti daşı, pəncərə və tikinti şüşüəsi, şifer, keramik örtüklər, asbest-sement borular, istilik izolyasiyalan, polimer materiallar, polivinil, linoleum, aqlopirit, perlit, mərmər, travertin, turşuya və odadavamı müxtəlif materiallar, çuqun və dəmirdən hazırlanmış bəzi santexniki məmulatlar, habelə yardımçı tikinti materiallar hesab edilən meşə materialları kompleksin formalaşmasında iştirak edirlər. Bakıda, Gəncədə, Sumqayıtda, Naxçıvanda, Xankəndində - bir sözlə, respublikanın iri sahələrində olan iri evtikmə kombinatları kompleksin daha da inkişaf etdirilməsinə təkan verirlər.

Respublikada ən zəif inkişaf edən sahələrdən biri meşə kompleksidir. Çünki o, yerli mənbələr hesabına sənaye əhəmiyyəti kəsb etmir. Müasir meşələr sanitariya, külək, su, torpaq, yol qoruyucu əhəmiyyət kəsb edirlər. Mövcud meşə sahəsi 1,039 min ha olmaqla ümumi ərazinin 11,5 %-ni örtmüşdür. Onun tərkibi ağacların qırılmasını, oduncağın nəqliyyat magistrallarına daşmasını və emal mərkəzlərinə etdirilmasini əhatə edən ağac tədarükündən; taxta-şalban, faner, kibrit, mebel, tara, müxtəlif tikinti hissələri istehsalna malik olan oduncağın mexaniki emalından və nəhayət, kağız, karton, kanifol, yem mayaları hasilatını əhatə edən oduncağın kimyəvi emalından - meşə kimyasından ibarətdir. Mebeli müxtəlif uzaq məsafələrə daşımağın rentabelli olmamasından onun hissələrinin istehlaka daşımaqla quraşdırılması müəssisələrin düzgün yerləşdirilməsinin başlıca prinsipi sayılır. Ona görə əsas mebel fabrikləri istehlak rayonları olan Bakıda, Gəncədə, Naxçıvanda, Xankəndində, Sumqayıtda istehlaka xidmət edirlər.

Xalq istehlakı malları istehsalı kompleksinin sahələri yüngül və yeyinti sənayesi hesab edilir. Burada yüngül sənaye bir o qədər

də az əhəmiyyət kəsb etmir. Onun toxuculuq, tikiş, toxuma, xalçaçıhq, trikotoj, xəz-dəri, gön-dəri, ayqqabı sahələri vardır. Adları çəkilən sahələrin inkişafi üçün respublikada əlverişli təbii şəraitin münasibliyi, təbii ehtiyatların bolluğu, işçi qüvvəsi, əlverişli nəqliyyat növləri, istehlak kifayət qədərdir. Toxuculuğun pambıq parça, yun parça, ipək parça sahələri ilə yanaşı trikotaj, gön-dəri ayaqqabı fabrikləri istehlak rayonlarında - Bakıda, Gəncədə, Mingəçevirdə yaradılmışdır. Xalçaçılıq demək olar ki, hər yerdə - Bakıda, Gəncədə, Qarabağda, Qazaxda, Agstafada, Quba-Xaçmaz zonasında, digər dağlıq və dağətəyi inzibati rayonlarda qədim inkişaf tarixinə malikdir.

Yeyinti sənayesinin 30-dan çox sahəsi mövcuddur. Çörək, çörək məmulatları, ət və ət məmulatları, şəkər, şəkər tozu, qənnadı məmulatları, süd və süd məhsulları, konservlərin müxtəlif növləri və s. buraya daxildir. Bunların müəssisələrinin çoxu xammala, istehlaka yaxın yerləşdirməyi tələb etsə də bəziləri hər yerdə yerləşdirməyi üstün tutur (çörəkbişirmə).

8,4 mln Azərbaycan əhalisini xidmət sahələrindən ayrı düşünmək ağılsızlıq olardı. Lakin əhalinin sıxlığı, məskunlaşma dərəcəsi, milli tərkibinin müxtəlifliyi xidmət sahələrinə tələbatı artırır, ya da azaldır. Onun maddi-texniki bazasından, inkişaf səviyyəsindən asılı olaraq xidmətin keyfiyyəti və kəmiyyət dərəcəsi də fərqlənir. Xidmət sferasının mənzil - kommunal, pərakəndə ticarət, ictimai iaişə, məişət, elm, təhsil, məktəbəqədər tərbiyə, mədəni xidmət, sosial təminat, istirahət, turizm, maliyə-bank, mülki və hiiquqi mühafizə, rabitə xidməti sahələri mövcuddur. Deyilənlərin hamısı bu və ya digər səviyyədə Azərbaycan Respublikasında öz inkişaf əksini tapmışdır.

Aqrar-sənaye kompleksi (ASK) xalq təsərrüfatı kompleksinin tərkib hissələrindən biridir. ASK kənd təsərrüfat məhsullarını istehsah və emalı sahəsində bir-biri ilə əlaqədə olan kənd təsərrüfatı və sənaye müəssisələrinin hər hansı ərazidə məcmuusunu təşkil edir. Onun başlıca vəzifələrindən biri kənd təsərrüfatı məhsullarının sabit artımını saxlamaq şərti ilə əhalini ərzaq və yeyinti məhsulları ilə, heyvandarlığı isə yemlə, sənayeni müxtəlif xammallarla təmin etməkdir.

Maddi istehsalın ikinci aparıcı sahəsi hesab edilən kənd təsərrüfatının Azərbaycanda daha da inkişaf etməsini təmin etmək üçün əlverişli təbii şərait və zəngin təbii ehtiyat zəminləri vardır. Fəal temperaturun 4700 dərəcəyə çatması, 8,7 mln. ha torpaq sahəsindən 4,4 mln. ha-rının kənd təsərrüfatı üçün yararlı olması danılmaz reallıqlardır. Onun tərkibi əkinçilik və heyvandarlıqdan ibarətdir. Azərbaycanda 1,5 mln. ha əkin sahəsi ayrılmışdır. Adambaşına 0,2 ha əkin sahəsi düşür. Kənd təsərrüfatının illik verdiyi məhsulun 61 %-ni əkinçilik sahəsi verir. Əkinçiliyin sturukturunda taxılçılıq, texniki bitkilər becərilməsi, subtropik bitkiçiliyi, bağçılıq, bostan-çılıq, tərəvəzçilik, üzümçülük sahələri öz əksini tapır.

Deyilənlər içərisində taxılçılığın xüsusi əhəmiyyəti olmaqla 650 min ha əkin sahəsi vardır. Respublikanın 44 inzibati rayonunda taxıl becərilsə də İsmayıllı, Şəki, Şamaxı, Cəlilabad, Masallı fermerləri daha çox taxıl tədarük edirlər. 2003-cü ildə, Azərbaycanda 2,0 mln.ton taxıl tədarük olunmuşdur. İstehlak ödənilmədiyindən hər il yaxın xaricdən xeyli miqdarda taxıl məhsulu idxal olunur.

Texniki bitkiiərdən pambıq, tütün, kartof, şəkər çuğunduru becərilməkdədir, Respublika rayonlarımın 22-ndə pambıq becərmək üçün təbii şərait əlverişli olsa da, vaxtı ilə 850 - 1,0 mln. ton pambıq toplandığı halda, 2004-cü üdə 132 min ton məhsul toplanmışdır. Onun əkin sahəsi də azalaraq 78 min ha-ya enmişdir. Bərdə, Saatlı. Sabirabad aparıcı pambıqçıiıq rayonlarındandır. Gədəbəy, Tovuz, Şəmkir, Qusar, Xaçmaz və s. rayonlardan son illər görünməmiş miqdarda - 605 min ton kartof məhsulu toplanmışdır. Tütünçülük təsərrüfatı Oğuz. Qəbələ, Zaqatala, Qax, Şəki, Şahbuz və s. rayonlar hesabına 17,3 min ton (2004) məhsul vermişdir. Şəkər çuğunduru İmişli, Kürdəmir, Şəki, Naxçıvan və Şərurda becərilir. Toplanan məhsul şəkər alınması üçün Türkiyə və İranın şəkər emalı zavodlarına göndərilir, İmişlidə, Salyanda şəkər çuğunduru emal zavodunun tikintisinə başlanılmışdır.

Subtropik bitklçilikdə Lənkəran, Astara, Zaqatala rayonları çayçılıqla tanınırlar. Son illər 2,7 min ton yaşıl çay yarpağı toplanılmışdır. Lənkəranda, Bakıda, Zaqatalada çay çəkib bükmə fabrikləri tikilmişdir.

Son illərdə Azərbaycanda 269 min ton bostan məhsulları, 500 min ton meyvə, 14 min ha əkin sahəsindən 77 min ton üzüm, 781min ton tərəvəz məhsulu toplanmışdır.

Heyvandarlıqda iribuynuzluların say 2.0 mln. xırda-buynuzluların sayı 6,0 mln, donuzların sayı 20 min baş olmuşdur (2004). Ət tədarükü 196 min ton, süd 1,8 min ton, yumurta 543 min ədəd, yun tədarükü isə 11 min ton təşkil etmişdir.

Nəqliyyat maddi istehsalın 3-cü aparıcı sahəsi olub istehsalla istehlak arasında, ölkələrlə regionlar arasında körpü rolunu oynayır. O ölkələrdə məhsuldar qüvvələrin inkişafı və daha düzgün yerləşdirilməsində, əhali məskunlaşmasında, ərazilərin mənimsənilməsində əvəzsiz rol oynayır. Azərbaycanda nəqliyyatın bütün növlərinin inkişaf etdirilməsi üçün təbii və iqtisadi imkanlar ölçüyə gəlməzdir. Onun dəmir yolu, avtomobil, dəniz və çay yolu, hava boru kəmər və habelə elektron növü bir - biri ilə birbşərək qovşaq təşkil edirlər. Nəqliyyat növlərinin fəaliyyətləri onların il boyu daşıdıqları yüklərin t/km-lərlə miqdarı ilə ölçülür. Burada da dəmir yolu nəqliyyatı aparıcı yer tutur. Ölkədə daşınan yüklərin 70 %-ə qədəri dəmir yolarının öhdəsinə düşür ki, bu da onun il boyu fasiləsiz işləməsi ilə də bağlıdır. Respublikada dəmir yollarının ümumi uzunluğu 2100 km-dən artığa çatmaqla 1400 km-ə qədəri çox yük və sərnişin daşınmasını daha yaxşı təmin etmək məqsədilə elektrikləşdirilmişdir. Azərbaycanda ilk dəmir yolu neft sənayesinin inkişafı ilə əlaqədar olaraq 1880-cı ildə Bakı - Sabunçu - Balaxanı - Suraxanı - araçında 20 km-lik məsafədə çəkilmişdir. Sonralar Bakı neftini dünya bazarına çıxarmaq üçün 1883-cü ildə Bakı-Tbilisi dəmir yolu istifadəyə verilmişdir. 1900-cü ildə Bakı - Dərbənd, 1901-ci ildə Bakı-Mahaçqala xətləri də istifadəyə verilməklə Rusiya istiqamətində daşımalar get-gedə artmağa başlamışdır. 1936-cı ildə Bakı -Mincivan, 1947-ci ildə Mincivan - Culfa dəmir yolları birləşdirilərək məhsul daşımalarının kəmiyyət - keyfiyyət göstəriciləri daha da yaxşılaşdırılmışdır. Dəmir yollarının elektrikləşdirilməsinə SSRİ-də ilk dəfə Azərbaycanda başlanaraq bu iş 1926-cı ldə uzunluğu 20 km-ə bərabər olan Bakı-Sabunçu-Suraxanı arasında həyata keçirilmişdir. Bununla da çox rahat, sürətli və ekoloji cəhətdən sərfəli olan elektrik qatarlarından istifadə olunmuşdur. Bakı'- Astara, Əbt -Culfa (445 km) xətləri Böyük

Vətən müharibəsinin məhsuludur (1941). Suraxanı - Qala (1949), Qala - Artyom (Pırallahı) 1959-cu ildə, Buzovna- Bilgəh, Yeni Suraxanı - Hövsan, Bilgəh - Pirşağı, Bilgəh - Sumqayıt 1968-ci ildə işə salınaraq elektrikləşdirilmişdir. Nəhayət qərb rayonlarının təbii sərvətlərini istehsala daha yaxşı cəlb etmək, toplanmış hər cür məhsulları mərkəzə nəql etməyi asanlaşdırmaq, əlaqələri daha da möhkəmləndirmək məqsədi daşıyan Yevlax-Bərdə - Ağdam xətti 1963-1965-ci illərdə, habelə Ağdam-Xankəndi xətti 1977-ci ildə istifadəyə verilmişdir. Şəki-Zaqatala zonasnı Yevlax stansiyasına qovuşdurmaq məqsədilə 1981-1985-ci illərdə uzunluğu 184 km-ə çatan Yevlax-Balakən dəmiryolu istifadəyə verilmişdir. Nəticədə Filizçayın nadir polimetal filiz ehtiyatlarının və digər sərvətlərin istehsala cəlb edilməsi, Şəki-Zaqatala iqtisadi rayonunun sosial iqtisadi və mədəni həyatının daha da yüksəldilməsi işində bu yolun mühüm əhəmiyyəti olmuşdur.

Deyilənlərlə yanaşı onu da qeyd etməliyik ki, hələ 1967-ci ildə metropoliten istifadəyə verilərək hal-hazırda onun uzunluğu 32,5 km-i keçmişdir. Eləcə də 1960-cı ildə funikulyor, 1924-cü ildə Bakıda tramvay xətləri istifadəyə gərəkli olmuşlar.

«Qapıdan - qapıya» qısa məsafələrə, dağlıq ərazilərdə yük və sərnişin daşımada rentabelli hesab edilən avtomobil nəqliyyatı ölkədə dəmiryolundan sonra yükdaşımada 2-ci, sərnişindaşımada 1-ci yeri tutur. Onun ümumi uzunluğu 25 min km-dən çoxdur. Hazırda res-publika əhəmiyyətli magistral avtomobil yollarından Bakı-Rostov, Bakı-Astara, Bakı-Tbilisi, Yevlax-Balakən xətlərini göstərə bilərik.

Ən bahalı nəqliyyat növü hava nəqliyyatı hesab olunur. Onunla çox saxlanılması mümkün olmayan, tez xabab olan, çatdırılması tez gərək olan yüklər və sərnişinlərin daşınmasına üstünlük verilir. Hal-hazırda respublika daxilində 12 istiqamətə hava xətti fəaliyyət göstərir. Hələ 1924-cü ildən Bakı-Tbilisi, 1926-cı ildən isə Bakı - Moskva hava xətti fəaliyyət göstərməkdədir.

Məlumdur ki, su nəqliyyatı dəniz və çay nəqliyyatına ayrılır. Dəniz nəqliyyatı xüsusi əhəmiyyətə malikdir. Ona görə ki, Xəzər dənizi Avropa ilə Asiya arasında əlverişli mövqedə yerləşərək körpü rolunu oynayır.

Qazaxıstanla, Türkmənistanla, İranla, RF ilə, digər Mərkəzi Asiya dövlətləri ilə ildən-ilə Xəzər dənizi vasitəsilə daşımalarda kəmiyyyət, keyfiyyət göstəriciləri artır. Daşımalar əsasən neft və neft məhsulları, meşə materiallan, taxıl, duz, kənd təsərrüfatı məhsullarından ibarətdir. Bu daşımalarda yaradılmış gəmi-bərələr xüsusi rol oynayırlar. Bunlardan 1962-ci ildə çəkilmiş, uzunluğu 343 km olan Bakı-Türkmənbaşı, Bakı-Bektaş, Bakı-Aktau bərə xətlərini göstərə bilərik. Bu xətlərdə müasir tipli «Azərbaycan», «Dağıstan», «Akademık H.Əliyev», «Professor Gül», «Türkmənistan», «Sabit Orucov» gəmi-bərələri işləməklə müxtəlif məzmunlu yük və sərnişin daşımaqdadırlar.

Azərbaycanda çay nəqliyyatından demək olar ki, istifadə olunmur. Yalnız Kürün ağzından Yevlax şəhərinə qədər az miqdarda çay gəmiçiliyindən istifadə olunur.

Su nəqliyyatı ən ucuz nəqliyyat növü olmaqla respublika iqtisadiyyatında aparıcı əhəmiyyət kəsb edir.

Bu və ya digər region daxlində mövcud elektrik stansiyalarının hamısının bir-biri ilə yüksək gərginlikli elektrik xətləri vasitəsilə birləşdirilərək vahid mərkəzdən idarə olunmaqla hasil olunmuş elektrik enerjisinin istehlakçıya çatdırılması elektron nəqliyyatı vasitəsilə həyata keçirilir. Daşımalarda hələlik çox çeşidli yüklərə malik olmayan boru kəmər nəqliyyatının qədim inkişaf tarixi vardır. Azərbaycanda boru kəmər nəqliyyatının inkişafı neft-qaz sənayesinin inkişafı ilə bağlıdır. Bu məqsədlə Rusıyada ilk dəfə 12 km uzunluğu olan Balaxanı - Qaraşəhər neft boru xətti 1878-ci ildə hasil olunmuş nefti Xəzər sahilindəki neft emalı zavodlarına çatdırmağa səbəb olmuşdur. 1896-1907-ci illərdə çəkilmiş Bakı-Batumi ilk əvvəl ağ neft daşıyan kəmərin uzunluğu 883 km-ə çatmışdır. Nəticədə, Azərbaycan nefti Qara dəniz sahillərinə, oradan da Avropa bazarlarına göndəriimişdir. 1963-cü ildə çəkilmiş 134 km uzunluğu olan Əli-Bayramlı - Bakı neft kəməri də emal zavodunu xam neftlə təmin etməyə nail olmuşdur. Neft Daşları - Bakı, Siyəzən-Bakı, Qroznı-Bakı neft kəmərləri də çəkilərək respublikada məhsuldar qüvvələrin inkişafı və düzgün yerləşdirilməsində çox əhəmiyyətli olmuşlar. 1997-ci ildə işə düşmüş Bakı - Qrozm - Novorosiysk (1411 km), 1999-cu ildə istfadəyə verilmiş, uzunluğu 830 km olan Bakı-Tbilisi-Supsa neft

kəmərləri də Bakı neftinin dünya bazarına çıxanımasında mühüm rol oynayır. 2005-ci ilin 2-ci yarısında işə düşəcək uzunluğu 1767 km-ə catan Bakı-Tbilisi-Ceyhan əsas neft boru xətti vasitəsilə ildə 50-100 mln. tona qədər məhsul dünya bazarına çatdırılacaqdır.

Respublikada mövcud qaz kəmərlərinin uzunluğu 40 min km-ə çatmaqla magistral qaz kəmərlərinin uzunluğu 5 min km-dən çoxdur. Bunlardan Qaradağ - Agstafa - Tbilisi, İran - Astara - Qazıməmməd, Mozdok - Qazıməmməd, Dərbənd - Qazıməmməd, Zirə - Bakı, Neft Daşları - Bakı, Çıraq - Neft Daşları - Bakı qaz kəmərıərinin adını çəkə bilərik. Çəkilməsinə 2005-ci ildə başlanılacıq Şahdəniz-Tbilisi-Ərzurum qaz kəmərlərinin uzunluğu 1050 km olacaqdır.

Neft Daşları estakadalarının uzunluğu 76 km, Şollar - Bakı su kəməri (1-ci) 1916-1917-ci illərdə, 2-ci Şollar-Bakı su kəməri isə 1953-cü ildə çəkilmişdir.

Hal-hazırda Azərbaycan Respublikası dünyanın 109-dan artıq dövləti ilə ticarət əlaqələrinə malikdir.

Dünya ölkələrinin hamısında olduğu kimi Azərbaycanda da fiziki-coğrafi, inzibati, iqtisadi rayonlar ayrılmışdır. Adlarmdan göründüyü kimi rayonlar müxtəlif prinsiplər əsasında ayrılmışlar. Respublikada fiziki coğrafı xüsusiyyətlərinə görə Böyük Qafqaz, Kiçik Qafqaz, Araz, Lənkəran, Naxçıvan böyük coğrafi regionlarını ayırmaq mümkün olduğu halda, təsərrüfäta, əraziyə rəhbərliyi, idarəetməni, nəzarəti daha da yaxşıiaşdırmaq üçün Naxçıvan Muxtar Respublikası, 66 kənd və 13 şəhər rayonu, 69 şəhər, o cümlədən Respublika və Muxtar Respublika tabeçiliyində olan 14 şəhər, 130 şəhər tipli qəsəbə və 4354 kənd inzibati bölgüsü ayrılır. Əməyin coğrafi bölgüsü nəticəsində əmələ gəlmiş hər bir iqtisadi-coğrafı rayon özünün ixtisaslaşmasına, təsərrüfatının inkişaf xüsusiyyətlərinə, coğrafı mövqeyinin özünəməxsusluğuna, həmçinin istehsalın kompleks inkişafı ilə təbii şəraitinə, əmək ehtiyatlarına və insanların milli adət-ənələrinə görə ölkənin qonşu rayonlarından fərqlənən ərazilərdir.

Bu baxımdan, respublikada son illər 10 iqtisadi rayon ayırmaq mümkün olmuşdur. Bunlardan Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala Böyük Qafqaz çoğrafi regionunda yerləşirlər.

1.Abşeron iqtisadi rayonu

Ərazisi-5920kv.km

Əhalisi - 2 238,0 min nəfər

Tərkibinə Bakı, Sumqayıt şəhərləri, Abşeron və Xızı inzibati rayonlan daxildir.

İxtisaslaşmış təsərrüfatı yanacaq-energetiika, metallurgiya, maşınqayırma, kimya və net-kimya, tikinti və meşə, yüngül sənaye sahələridir.

2. Quba-Xaçmaz iqtisadi rayonu

Sahəsi - 70 min kv.km

Əhalisi - 460 min nəfər

Tərkibində - Xaçmaz, Quba, Qusar, Dəvəçi, Siyəzən, inzibati rayonları yerləşir.

İxtisaslaşmış təsərrüfat sahələri yanacaq, yeyinti, xalçaçılıq, meyvəçilik, tərəvəzçilik, kartof və turizmdən ibarətdir.

3.Şəki - Zaqatala iqtisadi rayonu

Sahəsi- 8797kv.km

Əhalisi - 540 min nəfər

Tərkibi - Şəki şəhəri, Oğuz, Qəbələ, Qax, Zaqatala, Balakən, Şəki inzibati rayonlarından ibarətdir.

Bitkiçilik, baramaçılıq, üzümçülük, taxılçılıq, meyvəçilik, ət-süd, ət-yun təmayüllü qoyunçuluq yaxşı inkişaf etmişdir. Respublikada tədarük olunan tütünün 15 %-ni, fındığın 90 %-ni, gül yağımın hamısını, taxılının 17 %-ni, yaşıl çay yarpağının 1,6 %-ni, baramanın 32 %-ni, ətin 9 %-ni verir.

4.Dağlıq Şirvan iqtisadi rayonu

Sahəsi - 7,1 min kv.km.

Əhalisi - 283 min nəfər

Tərkibi - Ağsu, Şamaxı, İsmayıllı və Qobustandan ibarətdir. Üzümçülük, bağçılıq, heyvandarlıq, şərabçılıq inkişaf etmişdir.

Kiçik Qafqaz coğrafi rayonunda Gəncə-Qazax, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın iqtisadi rayonları yerləşir.

5. Gəncə - Qazax iqtisadi rayonu

Tərkibi-Gəncə və Naftalan şəhərləri, Xanlar, Goranboy, Samux, Daşkəsən, Şəmkir, Tovuz, Gədəbəy, Ağstafa, Qazax inzibati rayonlarından ibarətdir.

Sahəsi - 12,4 min kv.km

Əhalisi - 1200,2 min nəfərdir.

Respublika ərazisinin 14,5%-nə, əhalisinin 14,3 %-nə, illik məhsulun 10 %-ə qədərinə malikdir. Metallurgiya, maşınqayırma, yanacaq, kurort, sanatoriya, yüngül, dağ-mədən, taxılçıhq, kartofçuluq inkişaf etmişdir.

6.Kəlbəcər-Laçıniqtisadi rayonu

Sahəsi - 6,4 min kv.km

Əhalisi - 210 min nəfərdir.

Tərkibi-Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı inzibati rayonlarından ibarətdir.

İllik gəlirin 72 %-ni kənd təsərüifatı,24 %-ni sənaye verir. Əsas yeri yeyinti sənayesi, heyvandarlıq, sanatoriya sahəsi tutur.

7. Yuxarı Qarabağ iqtisadi rayonu

Sahəsi - 5,8 min kv.km.

Əhalisi - 612 min nəfər

Tərkibinə - Ağdam, Şuşa, Tərtər, Xocalı, Xocavənd, Fizuli, Cəbrayıl inzibati rayonları, Xankəndi və Şuşa şəhərləri daxildir.

Baramaçılıq,şərabçılıq, meyvə-tərəvəz konservi, unüyütmə, çörəkbişirmə, pambıqtəmizləmə, toxuculuq, tikiş, ipəkçilik, xalçaçılıq, ayaqqabı, gön-dəri sahələri inkişaf etmişdir.

8.Aran iqtisadi rayonu

Sahəsi-21,1 minkv.km

Əhalisi - 1700 min nəfərdir

Tərkibi — Ağcabədi, Bərdə, Beyləqan, Yevlax, Ağdaş, Göyçay, Ucar, Kürdəmir, Zərdab, Imişli, Sabirabad, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Saatlı inzibati rayonları, Yevlax, Mingəçevir və Əli-Bayramlı sahələrindən ibarətdir.

Əhalisinin 70 %-i maddi istehsalda, 30 %-i isə qeyri-maddi istehsal sahəsində çalışır. Yanacaq - energetika, kimya və neft-kimya, maşınqayırma, yüngül, yeyinti, ASK inkişaf etmişdir.

9. Lənkəran-Astara iqtisadi rayonu

Sahəsi -6,1 min kv.km

Əhalisi - 770 min nəfərdir.

Tərkibi - Lənkəran, Cəlilabad, Masallı, Astara, Lerik, Yardımlı inzibati rayonlan və Lənkəran şəhərindən ibarətdir.

Ərazisinin 26 %-i meşə ilə örtülmüşdür, 79 %- əhali maddi istehsalda, 21 %-i qeyri-maddi istehsalda çalışır. Meşə, yeyinti, yüngül, çayçılıq, suptropik bitkiçiliyi inkişaf etmişdir.

10. Naxçıvan iqtisadi rayonu

Sahəsi - 5,5 min kv.km

Əhalisi - 370 min nəfərdir.

Tərkibi - Naxçıvan, Culfa, Ordubad şəhərlərindən; Babək, Culfa, Ordubad, Kəngərli, Sədərək, Şərur, Şahbuz inzibati rayonlarından ibarətdir.

Respublika sənaye məhsulunun 2,8 %-ni, kənd təsərrüfatı məhs0ullarının 3 %-ə qədərini verir. Burada dağ - mədən, meşə, yeyinti, yün-gül, tikinti kombinatları fəaliyyət göstərir. Tütünçüiük, bağçılıq, bara-maçılıq, iri və xırdabuynuzlu mal-qara, donuzçuluq təsərrüfatları da məhsul verən sahələrdəndir.

Cədvəl 12

Azərbaycan Respublikası iqtisadi rayonlarının göstəriciləri

№	Iqtisadi rayonlar	Sahəsi (min kv.km)	Əhalisi (min nəfər)	Tərkibi
1	Abşeron	5920	2,238	Bakı, Sumqayıt şəhərləri, Abşeron və Xızı inzibati rayonu
2	Quba-Xaçmaz	70,0	460,0	Xaçmaz, Quba, Qusar, Dəvəçi, Siyəzən inzibati rayonları
3	Şəki-Zaqatala	8797,0	540,0	Şəki şəhəri, Oğuz, Qəbələ, Qax, Zaqatala, Balakən, Şəki inzibati rayonları

4	Dağlıq Şirvan	7,1	283,0	Ağsu, Şamaxı, İsmayıllı, Qobustan inzibati rayonları
5	Gəncə - Qazax	12,4	1200,2	Gəncə, Naftalan şəhərləri, Xanlar, Goranboy, Samux, Daşkəsən, Şəmkir, Tovuz, Gədəbəy, Ağstafa, Qazax inzibati rayonları
6	Kəlbəcər - Laçın	6,4	210,0	Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı inzibati rayonları
7	Yuxarı Qarabağ	5,8	612,0	Ağdam, Şuşa, Tərtər, Xocalı, Xocavənd, Fizuli, Cəbrayıl inzibati rayonları, Xankəndi və Şuşa şəhərləri
8	Aran iqtisadi rayonu	21,1	1,700	Ağcabədi, Bərdə, Ucar, Beyləqan, Yevlax, Ağdaş, Göyçay, Kürdəmir, Zərdab, Imişli, Sabirabad, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Saatlı inzibati rayonları; Yevlax, Mingəçevir və Əli Bayramlı şəhərləri
9	Lənkəran – Astara	6,1	770,0	Lənkəran şəhəri, Cəlilabad, Masallı, Astara, Lerik, Yardımlı inzibati rayonları
10	Naxçıvan	5,5	370,0	Naxçıvan, Culfa, Ordubad şəhərləri; Babək, Culfa, Ordubad, Kəngərli, Sədərək, Şərur, Şahbuz inzibati rayonları

VI.2. Almaniya Federativ Respublikası

Sahəsi - 357,0 min kv.km

Əhalisi - 82,3 mln. nəfərdən çoxdur.

Paytaxt - Berlin

Ümumi Daxili Məhsulun miqdarı - 19 trln.dollar

Adambaşına düşən ÜDM - 26,6 min dollar

İqtisadi inkişaf səviyyəsinə görə o dünyanın ABŞ, Çin və Yaponiyadan sonra 4-cüsüdür. Lakin Avropada ixracat məhsullarının miqdarına görə 1-ci yerdə olsa da dünyada ABŞ-dan sonrakı 2-ci yerə malikdir. Eləcə də əhalisin sayına, iqtisadi, elmi-texniki potensialının böyüklüyünə, qərb sənaye kompleksinin inkişaf səviyyəsinə görə Avropada ona tay olan ölkə yoxdur. Deyilənlərlə yanaşı pul vahidi olan alınan markası dünyada 2-ci ehtiyat valyuta sayılır. Digər tərəfdən də xarici ölkələrdə qoyulan yüksək məbləğdə - 325 mlrd. marka kapital qoyuluşu da çox yüksək miqdar sayılır. AFR dünyada ÜDM-dən elmi-tədqiqat və təcrübə - kostruktor işlərinin həyata keçirilməsinə xərclənən ayırmalarının miqdarına görə də özünə qabaqcıl yer tutur. Ölkə çox geniş beynəlxalq əlaqələrə malikdir. Dünyanın demək olar bütün ölkələri ilə diplomatik əlaqələr yaratmışdır. 230-dan artıq xarici nümayəndəliklə səciyyələnən AFR 1955 -ci ildən NATO-nun (Şimali Atlantika blokunun), 1973-cü ildən BMT-nin, eləcə də Avropa Şurasının üzvüdür. O əlverişli coğrafi, geosiyasi mövqeyə malikdir. Avropanın mərkəzində yerləşməsini onun 9 ölkə ilə : Niderland, Belçika, Çexiya, Lüksemburq, Fransa, İsveçrə, Avstriya, Polşa və Danimarka ilə sərhədləşməsindən aydın görmək olur. Digər tərəfdən, onun Avropanın mərkəzində yerləşməsi transmagistral nəqliyyat növlərinin enlik və uzunluq istiqamətində ərazidən keçməsinə də şərait yaratmışdır. Dünya okeanına birbaşa çıxışının olması və qonşu ölkələrin tanınmış iri limanlarına yaxınlığı da ölkənin iqtisadi inkişafının zəminlərindən hesab edilir. Ölkənin iqtisadi-coğrafi mövqeyin əlverişliliyi Qannoverdə, Kölndə, Frankfurt-Maynda, Leypsiqdə dünya miqyaslı məşhur yarmarkaların keçirilməsinə səbəb olur. Ölkə şimaldan - cənuba 876 km, enlik istiqamətində isə 640 km-dən artıq bir ərazidə uzanır.

Ölkənin geosiyasi mövqeyi 1990-cı ilin oktyabrın 3-ndə alman dövlətinin bir-biri ilə birləşməsindən sonra daha da dəyişmişdir. (Şərqi Almaniya da Şimali Atlantika blokunun - NATO-nun üzvü hesab edilmişdir). Onun nəticəsində Almaniya ərazisi 43 %, əhalisi isə 67 %-dən çox artmışdır.

Ərazinin mülayim iqlimi insanların yaşayışma, onların əmək fəaliyyətlərindən maksimum istifadə etməyə, xüsusilə də kənd təsərrüfatına imkan verir. Düzənliklərdə qış ayının temperaturu +1°-S, dağlarda - 6°-S-yə, yayda isə +20°"S-yə bərabər olur. Yağıntıların illik gedişi 600-2000 mm (Bavariya Alplarmda) arasında dəyişməkdədir. Relyefdə ən hündür nöqtə Bavariya Alplarının Suqşpitse zirvəsində 2963 m-ə çatır. Ərazi relyefi təsərrüfat işlərinin görülməsində müsbət təsirini göstərir. Ərazidə bərəkətli və məhsuldar topaqlar əkinçiliyin inkişafı və müxtəlif növlərin yerləşdirilməsi üçün zəmin yaradır. Əsasən, podzol və boz meşə torpaqları üstünlük təşkil edir. AFR-də demək olar ki, təbii meşələrdən əsər-əlamət qalmamışdır. Təbii bitki örtüyü ancaq qoruqlarda qalmışdır. Ərazinin 40 %-dən çoxu antropogen meşələrlə örtülmüşdür. Belə hal, oduncağa olan tələbatı 70 % yerli mənbələr hesabına ödəməyə imkan verir. Çaylar əsasən cənubdan cənub-şərqə doğru axmaqla xeyli hidroenerji potensialına malikdir, gəmiçilik üçün gərəklidir, suvarmaya, məişətdə istifadəyə yararlıdır və s. Bunlardan Reyn, Vezer, Elba, Morel, Mayne, Nekkore, Emsa, Dunay çaylarının adlarını çəkə bilərik. Əhilinin şirin suya olan tələbatının 90 %-i yeraltı sular hesabınadır. Müalicə əhəmiyyətli mineral sular əsasında Baden-Baden və başqa kurortlar fəaliyyət göstərirlər. Ölkənin cənubunda yerləşən Baden ən böyük göllərdən biri hesab olunur. Hər il çaylarla 235 mln. ton yanacaq, filiz, tikinti materialları, ərzaq məhsulları daşımır. Avropanın ən böyük çay limanı Duysburq buradä yerləşərək hər il 40 mln. tondan artıq yük daşıması ilə tanınır.

Mineral-xammal təbii sərvətləri vaxtı ilə iqtisadi inkişafa yaxşı təsir etsələr də son illərdə onların çoxunun istehsah hətta dayandırılmışdır. Kömür ehtiyatına görə AFR Qərbi Avropada 1-ci yeri tutur. Onun da ehtiyatı Rur, Saar, Axen, Lauzis, Nijnereyn yataqlarında olmaqla 230 mlrd. ton təşkil edir. Qonur kömür əsasən açıq üsulla hasil edilir. Ölkədə 80-cı illərdən dəmir-filizi (ehtiyat

7,5 mlrd. ton) və uran istehsalı dayandırılmışdır. Qannoverdə, Verra çayı hövzəsində kalium duzu ehtiyatı aşkarlanmışdır. Bu əsasdan da AFR kalium duzu və kalium kübrəsi əldə edilməsində dünyada qabaqcıl yerlərdən birini tutur. Məşhur farfor sənayesi - Meyssendə, ölkədə tapılan kaolin xammallarına əsaslanır.Ölkənin şimal hissəsində - Şimali Almaniya düzənliyində ehtiyatı 70 mln. ton olan neft, ehtiyatı 340 mlrd. kub m-ə çatan təbii qaz aşkarlanmışdır. Ərazidə pirit, barit,tikinti materialları xammalları, gil, şüşə alınmasında xammal kimi işlədilən qumun xüsusi növlü ehtiyatları da müəyyən edilmişdir.

Əhalisinin sayına - 82,3 mln. nəfər, sıxlığının yüksəkliyinə (230 nəfər), urbanizasiya səviyyəsinə (87 %) görə Avropa ölkələri içərisində ən qabaqcılı AFR-dir. Əhalinin sayı ən çox Türkiyədən,Italiyadan,keçmiş,Yuqoslaviyadan,Yunanıstandan,Port uqaliyadan köçüb gedən immiqrantlar hesabına ildən - ilə artmaqdadır. Gəlmə əhalinin sayı 7,0 mln. nəfəri ötmüşdür. Hal-hazırda hər 1000 nəfərə doğum 9,3 nəfər, ölüm isə 10,5 nəfərə bərabərdir. Deməli, təbii artımın koofisenti - 1,2 promıl təşkil edir. Urbanizasiyanın qüvvətli getməsi ilə tanınan AFR-də şəhər əhalisinin xüsusi çəkisi 87 %-dən artıqdır. Reyn-Rur meqalopolisi Reyn-Rur, Reyn - Mayn, Reyn -Nekkar və Hollandiyanın Randstadası hesabına formalaşmışdır. Bu, dünyada dövlətlərarası meqalopolis adlanır. Qadınların işə çox cəlb olunması (55 %) təbii artıma öz mənfi təsirini göstərir. Pensionerlərin xüsusi çəkisi 20 %-dəıi çoxdur. Orta ömür kişilər üçün 74,3 il, qadınlar üçün 81 ilə qədərdir. Qəbul edilmiş dövlət dili alman dili sayılır. İşçi qüvvəsinin 37 %-i sənayedə. 3 %-i kənd təsərrüfatında, 60 %-i xidmət sferasında çalışır.

İşsizlərin burada sayı 5,0 mln. nəfəri keçmişdir. Hər birisinin əhalisinin sayı 1,0 mln.dan artıq olan Berlin, Hamburq, Münxen şəhərləri vardır. Ölkədə xristian, islarm dinləri mövcuddur.

İnzibati - ərazi quruluşuna görə federativ dövlət hesab edilən AFR-də 16 torpaq bölgüsü ayrılır. Bunlar Baden Vyurtemberq, Bavariya, Berlin, Brandenburq, Bremen, Qamburq, Nessen, Meklenburq - Perednyana Pameraniya, Reynland-Pfalts, Şimali Reyn- Vestfaliya, Saar, Aşağı Saksosoriya, Saksoniya- Anqalt, Tyurinqiya, Slezvit-Qolşteyn torpaqlarından ibarətdir. Xüsusi səlahiyyətlərə və

konstitusiyaya malik olmaqla təhsil haqqında özlərinin hər birinin qanunu vardır. ARF-idarəetmə formasına görə parlamentli respublikadır. Prezidentin rolu burada çox azdır. Ali qanunvericilik orqanı Parlamentdir. Parlament iki palatadan: bun-destaq və bundespatdan ibarətdir. Bundestaq ümumi əhali tərəfindən 4 il müddətinə seçilir. Hökuməti federal kansler formalaşdırır. Ölkədə 865 min üzvü olan ASDP aparıcı partiya hesab edilir.

Müasir Almaniya dünyanınn ən inkişaf etmiş ölkələrindən biridir. Haqq olaraq Almaniyanı sosial-iqtisadi inkişaf göstəricilərinə görə dünya təsərrüfatının lokomotivi adlandırırlar. Onun iqtisadiyyatının əsasını sənaye təşkil edir. Sənayenin ölkədə 50 minə yaxın müəssisəsi fəaliyyət göstərməklə ümumi işçi qüvvəsinin 7,0 mln-a qədərini özünə cəlb etmişdir. Ölkədə istehsal olunan Ümumi Daxili Məhsulun 35 - %-ə qədərini (625 mlrd. dollarlıq) verən sənayenin dünya sənaye məhsulu sistemində 6,42 %çəkisi vardır ki, bu da onu dünyanın 4-cüsü (ABŞ, Çin, Yaponiyada sonra) hesab etməyə imkan verir, II Dünya müharibəsinə qədər sənayenin əsasını metallurgiya, ağır maşınqayırma və hərbi sənaye təşkil edirdi. ADR-lə birləşdikdən sonra şəra hissədə ümumi əhalinin 20 %-i yasasa da, ölkənin sənaye məhsulunda hasilat sahəsi qərbdə 2 %, şərqdə 9 %-dən çox deyildir. Lakin AFR-də emal sənayesinin xüsusi çəkisi daha yüksəkdir. Get-gedə ölkədə bir neçə yerli hasilat sahələri öz fəaliyyətini dayandırmaqla daha çox elm tutumlu sahələrin inkişafına fikir verilir. Son illər ən çox avtomobil, aerokosmik, neft emalı, atom energetikası, elektronika sahələri vüsət alır. Göstərilənlər o qədər sürətlə inkişaf edir ki, nəticədə istehlakın ödənilməsi tam öz əksini tapır. Belə ki, son illər neft emalı - 35 dəfə, avtomobil sahəsi - 12 dəfə, kimya - 7 dəfə artmışdır. Bunlarla yanaşı, qədim şəhərlərdən Rur və Saarda kömür hasilatı, süni parçalarla əvəz olunan toxucluq, dəmir filizi (heç hasil olunmur) hasilatı çox zəifləmişdir. Müasir Almaniya dəzgah, müxtəlif istehsal vasitələri, avtomobil, üzvi kimya məhsulları ixracatına görə dünyada ən qabaqcıl yerlərdən birini tutur. Ölkənin bütün iri sənaye kompaniyaları transmilli korporasiyalar kimi fəaliyyət göstərirlər. Bunlardan aviakosmik, hərbi sənaye, avtomobil sahəsi üzrə «Daymler - Kraysler», «Folksvaqonverke», elektrotexnika sahəsi üzrə «Siems»,

energetika, dağ-mədən sənayesi üzrə «FEBA», kimya üzrə «Xyoxst», «BASF», «Bayer», metallurgiya, maşınqayırma üzrə «Tissen-Krupp», bir daha avtomobil üzrə ixtisaslaşan «BMV», «Opel» konsernlərinin adlarını çəkə bilərik.

«Folksvaqenverke» ABŞ-da, Braziiiyada, İspaniyada, Meksikada, Çində, Çexiyada filiallara, «Mersedes - Bens» («Daymler - Kraysler»in hissəsi) konserni isə dünyanın 15 ölkəsində, o cümlədən, İtaliyada, Kanadada, Yaponiyada, CAR-da satış məntəqələrinə malikdir. ETİ dövrü istehsalının daha da cəmləşməsinə səbəb olmuşdur. Daha doğrusu, ölkədə məşhur olan 4 böyük metallurgiya konsemi metal əridilməsinin 90 %-ni, avtomobil konsernləri 60 % sərnişin avtomobiliərini, neft emalı konserni isə 70 % benzin hasil etmə qüvvəsinə malikdir. Sənayedə çalışan 32 % işçi qüvvəsinin 390 min nəfəri təkcə «Simens» kosernində çalışır.

Sənaye sahələri içərisində yanacaq - energetika, metallurgiya, maşınqayırma, kimya, meşə, tikinti, yüngül, yeyinti növləri öz məhsulları ilə istehsala xidmət edirlər. Yanacaq-energetikasınm inkişafının 50%-dən çoxu gətirmə xammala əsaslanır. Ölkənin illik yanacaq və enerji tələbatı 480 mln. tondan çox olmasa da bunun 330 mln. tutunu idxai edilməlı olur. Özündə isə illik hasilat 200 mln. tondan çox deyiidir. Aiman iqtisadiyyatı ənənəvi olaraq həmişə kömürə əsaslanmışdır. Ona görə də Almaniyam müharibəyə qədər «kömür ölkəsi» adlandırırdıiar. 50-ci illərdə ölkədə kömürün ümumi hasilatı 160 min. tona qədər çatmışdır. Son illər hasilatın kəmiyyət göstəricisi 210 mln. tona yüksəlmişdir. Hal-hazırda AFR ABŞ-dan, Polşadan CAR-dan, Avstraliyadan kömür idxal edir. Yanacaq-energetikada neft və qaz başlıca rol oynayır. Yanacaq - energetika balansında neft - 40 %, kömür - 30 %, qaz 20 %, atom enerjisi - 10 % xüsusi çəkiyə malikdir. Ölkəyə neft RF-dən, İran körvəzi ölkələrindən, Nigeriya və Liviyadan, Şimal dənizindən boru kəmərləri ilə, tankerlərlə daşınır. Qərbi Avropada Almaniya ən çox neft və neft məhsulları idxal edən dövlət kimi tanınır. Daha doğrusu, ildə 110 mln. ton məhsul emal etmə gücünə malik olan NEZ-lər 130-140 mln. tondan az olmayaraq neft idxal edirlər. Həmin idxalat Liviya, Səudiyyə Ərəbistanı, RF (25 mln. t), Norveç (22 mln. t), Böyük Britaniya (17

mln. t), Suriya, Əlcəzair, Qazaxıstan, Anqola, Danimarka, Nigeriya, Konqo, Azərbaycan, Venesuela, Niderland, Tunis hesabına ödənilir. Neft emalı müəssisələri Hamburqda, Kölndə, Karlsruedə, İnqolştadda, Şvedtdə yaradılmışdır. Qaz sənayesi yerli mənbələrlə yanaşı, Niderlanddan, Şimal dənizinin Norveç sektorundan, Rusiyadan alınma yanacaq əsasında inkişaf etdirilir. Yerli mənbələr hesabına ildə 4,0 mln. t neft hasil olunur ki, bu da istehlakın 5 %-ni ödəyir. Hər il AFR 200 mln. tona qədər neft və neft məhsulları idxal edir. RF, başqa ölkələr birlikdə AFR-ə «Dostluq» neft kəməri ilə son illər 40 mln. ton neft ixrac etmişdir. Qaz hasilatı yerli mənbələr hesabına ən çox 20 mlrd. kubmetrdən artıq olmur. RF-dən hər il 33 mlrd. kubmetr qaz idxal olunur. Ümumiyyətlə, ölkə hər il 68 mlrd. kubmetr qaz idxal etməyə məcburdur. Ölkə tələbatının 30 %-i RF hesabına ödənilir. İstehlaka xidmət etmək üçün Rotterdam - Köln, Vilhelmsxafen - Köln, Marsel - Karslrue, Qenuya - Karlsrue - İnqolştadt, Triest -İnqolştodt neft kəmərləri çəkilmişdir.

Elektroenergetikanın özünəməxsusluğu vardır. Elektrik enerjisi hasilatında İES-lər başlıca rol oynayırlar. İES-lər Rur və Saar kömür hövzələrində kömürlə, şimaldan liman şəhərlərində gətirmə qazla, neft emalı mərkəzlərində mazutla işləyən İES-lər illik tələbatı ödəyəcək miqdarda elektrik enerjisi hasil edirlər. Aşağı Reyn hövzəsində qonur kömüriə işləyən 6 böyüık İES-in 12,0 mln. kVt gücü vardır. Kömür hövzələrindən uzaqda yerləşdirilən AES-lər əsasən 80-cı illərdən Avstraliyadan, CAR-dan, Kanadadan və Fransadan gətirmə urana əsaslanmaqla enerji əldə edilməsində 34 % xüsusi çəkiyə malikdirlər. Belə ki, 20 bloka, 22,4 mln. kvt gücə malik olan AES-lər ildə 170 mlrd. kvt. saat elektrik enerjisi hasil edirlər. Ölkənin şərqində mövcud olan «Nord» (Qrayfsvald şəhəri yaxmhğmda) və Raynsberq şəhəri yaxmhğmdakı AES-lər bağlanmışdır. SES-lər ölkənin cənubunda yerləşən çaylar üzərində tikilərək ümumi hasilatda 60 %-ə qədər elektrik enerjisi hasil edə bilirlər.

Alternativ enerji mənbələrindən biri külək enerjisi sayılır. Qərbi Avropanın 14 ölkəsində, o cümlədən də AFR-də də külək elektrik stansiyaları qədim tarixə malikdir. Bu sahədə o ancaq Danimarkadan geri qalır. Almaniya KES-ləri böyük gücə malik olması ilə başqa dövlətlərdən fərqlənir. Şimal dənizi sahillərində -

Şlezviq - Qolşteyn ərazilərində, Qrevenbrok külək enerjisi parkında 2000-ci ildə ən böyük gücə malik KES istifadəyə verilmişdir. Hal-hazırda AFR-də KES-lərin ümumi gücü 4,0 mln. kvt, elektrik enerjisi hasilatı isə 6,0 mlrd. kvt saatı keçmişdir. Almaniya hər il qonşu ölkələrə 34 mlrd. kvt saatdan artıq elektrik enerjisi ixrac edir. AFR-də elektrik stansiyalarının ümumi gücü 90 mln. kvt - dan artıqdır. Onlanın illik elektrik enerjisi hasilatı 565 mlrd. kvt saat olmaqla ölkə dünyada ABŞ, Çin, Yaponiya, RF, Kanadadan sonrakı 6-cı yeri tutur.

Metallurgiya kompleksində qara metallurgiya sahəsi xüsusilə seçilir. Onun məhsulları polad, prokat, çuqundan ibarətdir. Göstərilən məhsullar istehsalına görə AFR Qərbi Avropada liderlik edirsə, dünyada 5-ci yeri özünə təmin etmişdir. Belə ki, illik polad istehsalı 46,0 mln. t, çuqun 30 mln. t-dan artıqlır. Əsas zavodlar Rur, Aşağı Reyn, Saar, Aşağı Saksoniya, Bremen rayonlarındadır. Poladın alınması oksigen-konvertor və elektrik əritmə üsulları ilə həyata keçirilir. Əlvan metallurgiya başlıca olaraq gətirmə xammala və toplanmış yerli əlvan metal qırıntılarına əsaslanır. Alüminium - 0,6 mln. t, mis - 0,6 mln. t hasilatı ilə səciyyələnir. Alüminium əridilməsində Qərbi Avropada ancaq Norveçdən geri qalır. Essen, Norf, Fyörde, Qamburq, Työtinq zavodiarına malikdir. Mis əridilməsi isə Qamburq və Lyünen zavodlarında həyata keçirilir.

Maşınqayırma alman sənayesinin özəyini təşkil edir. Mövcud 7000 müəssisədə 1,6 mln. işçi çalışır. Onun 20000-dən artıq çeşidli, keyfiyyətli məhsulu vardır. İstehsal etdiyi dəzgahlarının 50 %-dən çoxu ixrac olunur. Metallurgiya və prokat zavodları avadanlıqları məhsulları ilə dünya bazarlarını40 % təmin edir. Deyilənlərlə yanaşı ağac emalı, plastik kütlələr istehsah məhsullarından dünya bazarının 40 % tələbatını ödəyir. Maşınqayırmanın əsas zavodları ölkənin cənub-qərbində Baden - Vyurtemberq və Reyn-Rur rayonunda yaradılmışdır. Zavodlardan ən məşhurlan «Tissen -Krupp», «Mannesman», Münxen, Nyurnberq, Erlanqen, Manqeym, Berlin, Leypsiq, Hamburq sayırlar. Bremen, Emden, Rostok, Kil, Hamburq dünyada tanman gəmiqayırma ilə məşhurdurlar. Optik - cihazlar Baden - Vyurtemberq və Tyurinqiya rayonlarında əldə edilir. Aerokosmik

sənayenin mərkəzləri Münxen, Ausburq, Hamburq, Bremen hesab edilir.

Elektrotexnika və elektron sənayesində işləyənlərin sayı 1,0 mln-dan çoxdur. Bunun məhsulları energetika avadanlıqları ilə yanaşı EHM, texnikası, informasiya texnikası, məişət elektronikası, AES-lər üçün reaktorlar quraşdırılmışdır. «Klassik elektrotexnika» məhsulu istehsalına görə (20 %) o, ancaq ABŞ-dan (25 %) geri qalır. EHM-ə görə AFR ABŞ-ı, Yaponiyanı qabağa buraxır. «Simens» konserni telekommunikasiya texnikası və kompüterlər buraxır ki, bu sahədə də Yaponiyanm «Matsuşita elektrik» indən geri qəlir. AFR məişətdə gərəkli olan qabyuyanlara görə ABŞ-dan, tozsorana görə ABŞ və Yaponiyadan sonrakı yeri tutur.

Batareyalara görə dünyada üçüncü yeri tutur. AFR hər il 47 mln. keyfiyyətli telefon aparatları buraxır. Son illərdə 6,0 mln-a qədər televizor, 3,0 mln-dan artıq videotexniki aparat, 1,5 mln. telefaks aparatı, 2,0 mln. radiotelefon buraxmışdır. «Simens», «Boş» müəssisələri avtomobillər üçün soyuducular və elektrik avadanlıqları buraxılışı üzrə ixtisaslaşmışdır.

Avtomobilqayırma bütün göstəricilərinə görə alman ağır sənayesinin dirəyi hesab edilir. İldə 5,4 mln. ədəd avtomobil buraxan AFR dünyada ABŞ, Yaponiyadan soıra 3-cü yeri tutur. Almaniyanın hər min nəfərinə 500 avtomobil düşür. Bu da dünyada İtaliya və ABŞ-dan (520) sonra 3-cü yer deməkdir. Burada, 100-dən artıq modelin buraxılmasında 650 mindən artıq işçi çalışır. Avtomobillərin 43 %-i ixrac olunur. Ölkədə «Folqsvagen», «Mersedes - Bens», «BMV», «Ford-Verke», «Opel» avtomobil firmalarının zavodları Volfsburq, Ştuttqart, Kyöln, Ryusselsxaym və Münxendə yaradılmışdır.

Kimya sənayesi məhsulunun 2/5-ni Şimali Reyn-Vestfali rayonu verir. Sənaye sahəsində 800 mindən artıq işçi çahşır. AFR kimay məhsulları ixracatına görə dünyada liderlik edir (13 %). Burada plastik kütlə, sintetik liflər, sintetik kauçuk, formaseptik məmulatlar, turşu, gübrələr və s. məhsullar istehsal olunur. Kimyanın aparıcı «Bayer», «Xyoxst», BASF şirkətləri fəaliyyət göstərirlər. «Bayer» Reyn-Rur rayonunda, «Xyoxst» Frankfurd- na-Maynda, BASF isə Lyudviqsfendə hakimlik edirlər. Kimyanın inkişafında koks-kimya, neft emalı, AES-lər böyük rol oynayırlar.

İllik sənaye məhsulunun 1/10-ni verən kimya sənayesi ekoloji tarazlığının pozulmasında heç də əlvan metallurgiyadan geri qalmır.

Yüngül sənaye emal sahəsinin 14 %-ə qədər məhsulunu verməkdədir. Onun məhsulunun 1/10-isə ixrac olunur. Aparıcı sahələrdən biri toxuculuq hesab edilir ki, orada da emal sahəsində çalışanların 4 %-ə qədəri cəmləşmişdir. Ölkədə toxuculuqda çalışanların 4/5-ü Şimali Reyn -Vestfali, Baden - Vyurtemberq və Bavariyada yerləşən müəssisələrdə çalışırlar. Toxuculuğun ən böyük mərkəzi iri şəhərlərə meyl etməklə, o cümlədən Frankfurtda yaradılmışdır. İxtisaslaşmış ayaqqabı fabriki isə Pirmazen şəhərindədir.

Yeyinti sənayesi çox çeşidliliyi ilə seçilir. Un və un məhsulları, ət və ət məhsullan, süd və süd məhsulları, qənnadı məmulatı, şəkər tozu, müxtəlif növ konservlər, pivə, çörək və çörək məmulatları sahələri əsasən istehlaka və xammala meyl edirlər. Yerli imkanlar olsa da xeyli miqdarda ət idxal edir. Ölkədə mal-qara yağı 470 min ton, süd 28 mln. ton, xeyli miqdarda siqaret, şəkər, 0,8 mln. ton yumurta tədarük olunur.

Dünyanın ən nəhəngi sayılan Almaniyada 1200-dən artıq pivə tozu, zavodların fəaliyyət göstərir. Təkcə Bavariyada 750 belə pivə bişirən zavod mövcuddur. Dünyada hər il 1,0 mlrd. dekolitr məhsul istehsalından Almaniyada adambaşına 150 litr pivə düşür.

AFR şokolad əldə edilməsi üçün hər il 305 min ton kakao idxal edir.

Ölkədə xidmət sahələri ÜDM-da 68 % xüsusi çəki ilə tanınır. Bu dünya ölkələri içərisində 7-ci yer (ABŞ, Fransa, Belçika, Kanada, Avstraliya, Avstriyadan sonra) deməkdir.

Almaniya ABŞ-dan sonra ən çox kənd təsərrüfatı məhsulları idxal edən ölkə hesab olunur. Bununla yanaşı, onun ixracatda da rolu az deyildir. Avropa İttifaqında da ən çox süd və ət məhsulları istehsal edən ölkə kimi də tanınır. Taxıl tədarükündə isə Fransadan geri qalır. Kənd təsərrüfatında ərazinin 50 %-i -12,1 mln. ha istifadə olunur. Lakin ÜDM istehsalında kənd təsərrüfatının payı 1%-dən artıq deyildir. Kənd təsərrüfatında illik ümumi məhsul istehsalının 60 %-dən artığını heyvandarlaq sahəsi verməkdədir. Heyvandarlıqda da iribuynuzlular və donuzçuluğun payı daha

çoxdur. Əkin sahələri ümumi ərazinin 35 %-dən çoxunu əhatə etmir.

Bunun da çoxu yem bitkilərinin becərilməsinə aid edilir. Yem bitkiləri çatışmadığından onun xeyli hissəsini xaricdən gətirmək lazım gəlir. Kənd təsərrüfatında ölkədə mövcud olan işçi qüvvəsinin 5 %-i məşğuldur. Əhali yerli mənbələr hesabına taxılla, südlə, yağla, kartofla yaxşı təmir olunmuşdur. Əkin sahəsinin 70 %-i taxılçılıqda istifadə olunur. Başlıca ərzaq bitkisi buğda becərilməsindən ibarətdir (1/3) ki, bu da kənd təsərrüfatı məhsullarının 5 %-ni verir.

Əsasən şəkər çuğunduru becərilən Aşağı Reyn rayonunda, habelə Qarsın şimal dağətəyi ərazilərində buğda becərilir. Heyvandarlığın yemi, eləcə də pivə alınması üçün arpa becərilməkdədir. Çox yerlərdə çovdar, vələmir də əkilir. Kartofçuluq geniş yayılmışdır. İldə 17 mln. ton kartof tədarük olunur. Yem bitkilərindən yem çuğunduru, qarğıdah, kökümeyvəlilər, yonca becərilməkdədir. Üzüm Yuxarı Reyn, Mozel, Mayn, Naye, çay vadilərində, bağçılıq, tərəvəzçilik isə Yuxan Reyn, Aşağı Elba, Mayn, Nekkar çay dərələrində inkişaf etdirilir.

Heyvandarlıqda iribuynuzlular, donuzçuluq, quşçuluq inkişaf edən sahələrdəndir. Ölkədə 16 mln. baş iribuynuzlu saxlanılır ki, o da şərqi Avropada ancaq Fransadan geri qalmaq deməkdir. 24 mln. baş donuzun saxlaılmasına görə o Qərbi Avropada 1-ci yer tutur. Südllük heyvandarlıq şimal hissədə və Alpm ətəklərində, ətlik istiqamətli maldarlıq isə cənub və dağlıq rayonlarda, donuzçuluq demək olar ki, hər yerdə inkişaf etdirilmişdir.

AFR-də məhsuldar qüvvələrin inkişafı və düzgün yerləşdirilməsini təmin etmək məqsədilə nəqliyyatın gərək olan növlərinin hamısı inkişaf etmişdir. Nəqliyyat növlərinin sıxlığına görə ölkə dünyada birinci yerlərdən birini tutur. Dəniz yollarının sıxlığında Yaponiya, Belçika və Niderlanddan geri qalır. Belə ki, hər 100 kv.km sahəyə 12,5 km istifadədə olan dəmir yolu, 200 km-ə qədər avtomobil, 2 km daxili su yolu düşür. Nəqliyyat ölkədə bir ildə hasil olunmuş elektrik enerjisinin 1/5-ni istehlak edir. Nəqliyyat növləri içərisində 54 % yük dövriyyəsinə - 280 mlrd. ton/km, 90 %-dən artıq sərnişin daşımasına malik olan uzunluğu 0,7

mln. km-ə çatan avtomobil nəqliyyatıdır. Avtomobil parklarında 45 mln-dan çox avtomobil vardır ki, bu da ona Avropada birinci yeri tutmağa imkan verir. Avtomobil nəqliyyatının ilk yük dövriyyəsi 200 mlrd. ton km, sıxlığı isə 1800 kv km -də 1000 km-dən çoxdur. Orta Almaniya kanalı daxili su yollarının (uzunluğu 7,0 min km) fəaliyyətini, həm də onun rolunu xeyli artırmışdır.

Gəmiçilik Reyn və Elba çaylarında yaxşı inkişaf etmişdir. Çay limanı olan Duysburqun illik yükdaşıma qabiliyyəti - 50 mln. ton, Karlspuenin - 12 mln. t, Kölninki isə - 10 mln. tondan artıqdır. Xarici iqtisadi əlaqələrin yaradılmasında yük dövriyyəsinə görə (6,5 mln. t) dünyada 20-ci yeri tutan dəniz nəqiiyyatı böyük əhəmiyyət kəsb edir. Başlıca dəniz limanlarından olan Hamburqun yük dövriyyəsi -55 'mln. ton, neft limanı sayılan Vilhelmsxafenin - 16 mln. t., Bremenin - 15 mln. t, Rostokun - 14 mln. t, Lyubekin - 12 mln. t yük daşıması vardır. Konteyner daşımalarının tonnajına görə AFR dünyada 4-cü yeri tutmaqla ABŞ, Panama və Tayvandan geri qalır. Su nəqliyyatının yük dövriyyəsində xüsusi çəkisi 21 % təşkil edir. Hava nəqliyyatı beynəlxaq əhəmiyyət kəsb edir. Dünyanın ən böyük aviakompaniyası olan «Doyçe Lyuftqanza» bütün kontinentfərə istiqamətlənən xətlərə malikdir. Frankfurt Avropada ən böyük hava limanına çevrilərək ildə 40 mln. sərnişinə xidmət edir. Limanlarda 1030-dan artıq gəmi saxlanılır. Münxenin sərnişin dövriyyəsi - 15 mln. nəfər, Düsseldorfun - 8 mln. nəfər, Berlindəki Şenefeld aeroportu ildən ilə genişləndirilərək - 10 min nəfər sərnişinə qulluq edir. Uzunluğu 44 min km olan dəmiryollarının yük dövriyyəsi 25 %-dən (75 mlrd. ton km) çox deyildir. Onun 85 %-i elektrikləşdirilmişdir.

Iri sürətli qatarlarının hərəkət etdiyi dəmiryollarının mövcudluğuna görə AFR Qərbi Avropada tanınır. Belə ki, Köln - Frankfurt - Mayn (180km), Berlin - Qannover (260 km), Manheym Ştutqart, Effurd-Leyspik-Halle və başqa xətlər iti sürətli qatarlarının istifadəsinə verilmişdir.

Onu göstərmək kifayətdir ki, nəticədə Berlin Qannover arası məsafə 4 saat müddətinə yox, 1,5 saata qət edilmiş olur. Ölkənin iti sürətli qatarlarının hərəkət etdiyi dəmir yolları qonşu ölkələrin dəmiryolları şəbəkələri ilə də birləşdirilmişdir. Bunlara misal olaraq

Almaniya - Belçika -, Almaniya - Fransa («Reyn-Roni»), Almaniya - İsveçrə dəmiryolu xətlərini göstərmək oiar. Almaniyada boru - kəmər nəqiiyyatının inkişafı əsasən gətirmə xammallarla bağiıdır. RF-dən çəkilən «Yamal - Avropa» qaz kəmərindən məhsulu qəbul etmək üçün «Steqal», «Medal», «Yaqal», «Vidal» qaz xətləri artıq hazırdır. Ölkədə emal mərkəzlərindən istehlaka istiqamətlənən boru kəmər nəqliyyatının 110 min km-ə qədər ümumi uzunluğu vardır. Bundan 8 min km-ni neft və neft məhsulları daşıyan xətt, 98 min km.-ini isə qaz nəql edən xətlər təşkil edir. Hər il ölkəyə uzunluğu 442 km-ə çatan Ekofisk - Emden kəməri ilə 20 mlrd. kubmetr qaz idxal olunur. Norveçin şimal dənizi sektorundan isə Almaniyaya, Böyük Britaniyaya, Belçikaya, Avstriyaya, İspaniyaya, Çexiyaya idxal olunmuş qazın miqdarı 50 rnlrd. kubmetr təşkil edir.

Xarici ticarətin həcminə görə - 1,2 trln dollar AFR dünyada ancaq ABŞ-dan geri qalır. Xarici ticarət balansı sistematik olaraq müsbət xarakterlidir. Ölkə aktiv ticarət balansına malikdir, ona görə ki, ixracat 543 mlrd. dollar, idxalat isə 470 mlrd. dollar təşkil edir. Xarici ticarətin satış və coğrafi strukturu dövlətin beynəlxalq coğrafı əmək bölgüsündə iştirakının xarakterini əks etdirir. İxracatda əsasən nəqliyyat vasitələri - avtomobil, müxtəlif maşınqayırma məhsulları, kimya, elektrotexnika, elektronika, ərzaq məhsullar, tütün məmulatı; idxalatda isə müxtəlif xammallar, yanacaq məhsulları, investisiya malları üstünlük təşkil edir. AFR-in ticarət əlaqələri əsasən ABŞ, Fransa, Böyük Britaniya, Kanada ilə həyata keçirilir. Ölkəyə qoyulan xarici kapitalın miqdarı 203 mlrd. marka təşkil edir ki, burada da əsasən ABŞ və Fransa fərqlənir. Lakin AFR-in xarici ölkələrə qoyduğu kapitalın miqdarı isə 325 mlrd. markadan az deyildir. Fransanın neft kompaniyası «Elf akiten» AFR-də «Leyna 2000» neft emal zavodunun tikilməsinə 5,0 mlrd. marka investisiya qoymuşdur. Müasir Almaniya üçün Rusiya Federasiyası neft, qaz, AFR isə Rusiyaya maşın və avadanlıqlar, dəmiyolu vaqonları, kimyəvi maddələr, ərzaq məhsulları ixrac edir.

Ölkə ərazisində bir-birindən təsərrüfat, iqtisadi inkişaf, kompleks sosial-iqtisadi problemlərə və s. xüsusiyyətlərinə görə fərqlənən Şimal, Cənub, Şərq rayonları ayrılır. Şimalda Rur kömür metallurgiya kompleksi, gəmiqayırma, başlıca kənd təsərrüfatı

sahələri, südçülük, heyvandarlıq, taxıl, meşə, məhsuldar torpaqları olan Qamburq, Bremen, Şlezviq- Golşteyn, Aşağı Saksoniy, Şimali Reyn -Vestfaliya əraziləri yerləşir.

Cənub yeni sənaye sahələrinə, avtomobil, kompüter, elmi-tədqiqat və təhsil müəssisələri, 200-də artıq elektron firmaları, aerokosmik və hərbi sənaye kompleksləri inkişaf edən Nekkaru, Bavariya və s. ərazələri özündə birləşdirir.

Şərq keçmiş ADP ərazisini əhatə edir. Daha doğrusu, buraya Meklenburq-Qabaq Pomeraniya, Berlin, Brandenburq, Saksoniya, Tyurinqiya, Saksoniya-Anqalt torpaqları daxildir. Az urbanizasiyalı, aqrar, gəmiqayırma, heyvandarlaq, elektrotexnika, optika, poliqrafiya, tipoqrafiya, dünya miqyaslı yarmarka, kağız fabriki, farfor, buğda, şəkər qamışı, ov tüfəngi, ağac emalı, keramika, şüşə və avtomobil istehsalı şəhərlərinə malikdir.

VI.3. Böyük Britaniya

Sahəsi - 244,1 min kv.km

Əhalisi - 60 mln. nəfər

Paytaxtı -London şəhəridir.

ÜDM- 1,525 trlndollar

ÜDM (hər nəfərə düşən) - 25,4 min dollar

Böyük Britaniya, iqtisadi inkişaf səviyyəsinə görə ABŞ, Çin, Yaponiya, AFR, Hindistan, Fransadan sonra 7-ci yeri tutur. O kapitalist istehsal üsulunun vətəni hesab edilir. XVIII əsrdə baş vermiş böyük inqilab Avropanın digər ölkələrinə nisbətən burada kapitalist əvvəl inkişafına zəminlik yaratrmışdır. Nəticədə Böyük Britaniya dünyanın nəhəng dəniz dövlətinə çevrilərək onun çox geniş və zəngin ərazilərini zəbt etmək imkanı qazanmışdır. İkinci Dünya müharibəsi başlanana qədər onun 35 mln. kv.km.sahəsi və 700 mln. nəfərə qədər əhalisi olan mülkləri olmuşdur. Sonrakı illərdə həmin mülklərin əksəriyyətində milli azadlıq hərəkatının qüvvətlənməsi onların çoxunun müstəqillik qazanmasına səbəb olmuşdur. Buna baxmayaraq son illərə qədər əhalisi 6,0 mln-dan

çox olan 14 müstəmləkə və asılı sahələrə nəzarət etməkdə davam edir. Bundan başqa, 1931-ci ildə Millətlər Birliyini yaradaraq hal-hazırda xeyli xüsusi çəkisi və nüfuzu olan 53 keçmiş, dominionunu və koloniyasını (indi müxtəlif statuslu müstəqil dövlətləri) özündə birləşdirir. XIX əsrin ortalarında dünya sənaye məhsulunun yarıdan çoxunu verməklə dünyanın aparıcı və qüvvətli imperiyası kimi tanınan Böyük Britaniya XX əsrin əvvəllərindən bu mövqeyini get-gedə itirmişdir. Lakin yenə də ən inkişaf etmiş dövlət kimi dünyada tanınmaqdadır. Belə ki, indi dünya sənaye məhsulunun - 6 %-dən çoxunu verməklə, aparıcı «7-lər qrupu»na daxildir. Müasir dünyada ÜDM-dan elmi-tədqiqat işlərinə və təcrübə-konstruktor araşdırmalarına ayırmalara (2,2 %) görə dünyada özünəməxsus yer tutur. Bununla yanaşı, son illərdə Nobel mükafatı alanların sayına görə (70) o ancaq ABŞ-dan (179) geri qalır, dünya miqyaslı Oksford (1167-ci il), habelə 1209-cu ildən fəaliyyətdə olan məşhur Kembriç Universitetinə malikdir. Deyilənlərlə yanaşı, ÜDM- da xüsusi çəkisi 70 %-dən artıq olan xidmət sferasına görə bir çox Avropa ölkələrini keçərək ABŞ-a yaxınlaşmaqdadır. 1273-cü ildən XX əsrin 70-ci llərinə - Şimal dənizinin şelf zonasında neft istehsah dövrünə qədər Böyük Britaniyada yanacaqda hegemonluğu kömür sənayesi etmişdir. 1970-ci ildən ölkə neft-qaz hasilatında tələbatı ödəyəcək miqdarda məhsul istehsal edərək hətta neft məhsulundan ixrac da etməyə başlamışdır. 1956-cı ildə dünyada ilk «Kolder - Xoll» (Kembricdə) AES-nin istifadəyə verilməsi (1954-cü ildə Obninskini nəzərə almasaq) ilə bağlı olan atom dövründə 14 AES-in tikilməsi XX əsrin 70-ci illərinə qədər davam etmişdir. Şimal dənizi köməyə gəldikdən sonra yanacaqda karbohidrogen məhsulları istehlakı ödənilməsində liderlik etməyə başlamışdır. Digər tərəfdən, Böyük Britaniya əmək məhsuldarlığı yüksək olan Avropada ən inkişaf etmiş kənd təsərrüfatına da malikdir. Böyük Britaniya urbanizasiyanın səviyyəsinə görə də - 91 % dünya ölkələri içərisində ən qabaqcıl dövlət sayılır. Göstərilənlərlə yanaşı, o, hələ İkinci Dünya müharibəsi qabağı dünyaya ilk yeni şəhərsalma təcrübəsini təqdim etmişdir.

Əlverişli coğrafı və geosiyasi mövqeyə malik olan Böyük Britaniya Avropanm şimal-qərbində yerləşən ada dövlətidir. O şimaldan 360 km məsafədə İrlandiya ilə, qərbdən Atlantik okeanı

suları ilə, cənub-şərqdən eni 220 km olan La-Manş və eni 33 km olan Pa - de - Kale boğazları ilə əhatələnmişdir. Sahil xəttinin uzunluğu 12429 km-dən artıqdır. Ölkə rəsmi olaraq ərazisinin 90 %-dən artığını təşkil edən ən böyük adanın adı ilə «İngiltərə» adlanır. Onun tərkibində İngiltərə, Şotlandiya, Uels, Şimali İrlandiya tarixi coğrafi ərazilərlə, habelə 5,5 mindən artıq ada, o cümlədən Men, Anqlsi, Uayt, Daxili Qebrid, Xarici Qebrid, Orkney, Şotland və sair adalar yerləşirlər. Dominion və kaloniyalardan böyük gəlir götürən, La-Manş və Pa-de-Kale boğazlarından keçən mühüm dəniz ticarət yollarında əlverişli coğrafı mövqeyə malik olan Böyük Britaniya Yer kürəsinin bütün regionlan ilə əlaqə yaratmağa imkan qazanmışdır. Ölkədə dəmir filizi və kömür yataqlarının bir-birinə yaxın yerləşməsi metallurgiyanın güclü inkişafına, bu isə müstəmləkələrin ələ keçirilməsində və Dünya okeanında hökmranlıq edilməsində başlıca rol oynayan güclü dəniz donanmasının yaradılmasına imkan vermişdir. XX əsrin sonuna qədər Böyük Britaniya Avrasiya materiki ilə yalmz La-Manş və Pa-de-Kale boğazları ilə əlaqə saxlaya bilirdisə, 1994-cü ildən Kale və Divr arasında «avrotunnel»in istifadəyə verilməsi ölkəni digər Avropa ölkələri dünyasına daha da yaxınlaşdırmağa səbəb olmuşdur. Böyük Britaniyanın donmayan dənizlərlə əhatə olunması onun iqtisadi inkişafına xarici ticarətinin il boyu davam etməsinə imkanı daha da artırmışdır.

Ərazinin təbii şəraiti və təbii ehtiyatlarının münasibliyi iqtisadi inkişafa xidmət edən başlıca zəminlər hesab olunurlar. Relyefdə düzənliklər, təpəli düzənliklər, hündürlüyü 800 metrə çatan Pennin və hündürlüyü 1343 metrdən çox olmayan (Ben - Nevis zirvəsi) Qrampian dağlıq sahələr bir-biri ilə uzaqlaşaraq insanların əmək fəaliyyətlərinin tətbiq olunmasında heç bir maneçilik törətmirlər. Təbii şəraitin aparıcı elementi olan iqlim mülayim kontinental okean xarakterlidir. Belə hal havaların qeyri sabit, dumanlı, çiskinli. küləkli keçməsinə səbəb olur. Ölkənin qışı çox yumşaq və rütubətli, yanvarın orta temperaturu şimal-şərqdə 3,5°S, cənub-qərbdə 5,5°S təşkil edir. Cənub-qərbdən ölkəyə daxil olan isti okean hava axımları qışda temperatur gedişinin yüksəlməsinə, yağışlı havaların baş verməsinə səbəb olur. Şərqdən,

şimal-şərqdən uzunmüddətli soyuq havaların gəlməsi - 18°S temperaturun baş verməsi ilə nəticələnir. Yay sərin keçir, Temperaturun gedişi ərazinin müxtəlif yerlərində 12-32°S arasında dəyişir. Atmosfer yağıtılarının illik gedişi də dəyişkən olmaqla - ərazi üzərə 600-2000 mm-dən artığa çatır. Çox da uzun olmayan sulu çaylarından Severnini - 354 km, Temzanı -340 km, eləcə də Merseyam, Taynanı, Uiram, Xamberi, Klaydam, Tisi qeyd edə bilərik. Çaylardan dağlıq ərazilərdə elektrik enerjisinin alınmasında, suvarmada, nəqliyyatda istifadə olunur.

Çəkilmiş kanallann ümumi uzunluğu 350 km-dən artıq olmamaqla onlardan nəqliyyatda da istifadə edilir. Şimali-Qərbi İngiltərə və Şimali Şotlandiya dağ göllərinə malikdirlər. Onların möcüzəli sahilləri il boyu çoxlu sayda turistlərin və idmançılarının axımına səbəb olur. Çox da məhsuldar olmayan podzol, qonur meşə torpaq növlərindən əkinçilikdə geniş istifadə olunur. Ərazinin 9%-ə qədəri meşə ilə örtülü olsa da onlar su qoruyucu və istirahət xarakterlidir. Ölkənin oduncağa olan tələbatının ancaq 15 %-ni ödəmək mümkündür. Əgər, dağlıq və çay dərələrində yabanı meşələr mövcuddursa, mədəni ağac növləri, parklar ölkənin hər bir ərazisi üçün adi hal olmuşdur.

Böyük Britaniyada təsərrüfatının ərazi strukturunun formalaşmasında təbii şərait - təbii ehtiyat faktoru başlıca rol oynamışdır. Xüsusilə, alçaq dağlıq sahələrin ətəklərində, Şotlandiya düzənliyi ərazisində mövcud olan 6 böyük və çoxlu sayda xırda kömür yataqlarının aşkarlanması və onlardan istehsal qədim sənaye rayonlarının əmələ gəlməsinə səbəb olmuşdur. Ölkədə ümumi kömür ehtiyatı 190 mlrd. ton təşkil edir. Neft ehtiyatı - 7,0 mlrd. tondan artıq deyil. Əsasən Şimal dənizi hövzəsində aşkarlanmışdır. 1975-ci ildən sənaye əhəmiyyətli Fortis, Brent, Ninian, Payper, Beril, Statford və başqa mədənlər aşkar edilmişdir. Leman, İndefatiqeybl, Xevett yataqlarında - 4,0 trln kubmetr qaz ehtiyatı vardır. 1960-cı ilə qədər ölkədə olan tələbat kömürdən alman qaza əsaslamırdı. Tərkibində dəmirin xüsusi çəkisi 28%o olan dəmir filizi başlıca olaraq Norttempşirdədir. Ehtiyatı 6,0 mlrd. tondan azdır. Gümüş, qurğüşün, qalay,mis ehtiyatı Kornuoll adasındadır. Darem və Çeşirdə - daş duz, Yorkşirdə - kalium duzu, Kormuollda - volfram bu və ya digər ölçüdə ehtiyatlara malikdir.

Qeyd etmək lazımdır ki.aşkarlanmış mineral təbii sərvətlər qədimdən istehsala malik olduqlarından onların çoxunun ehtiyatı ya tükənmiş, ya da ki, tükənmək üzrədir. Bu səbəbdən də müvafiq təsərrüfat sahələri gətirmə xammalara əsaslanırlar.

Tarixi-coğrafi xüsusiyyətlərinə nəzər saldıqda aydın olur ki, başqa Avropa ölkələrinə nisbətən kapitalist inkişaf yoluna daha tez qədəm qoyması Böyük Britaniyanın aparıcı bir dövlət olmasına səbəb olmuşdur. Daha doğrusu, o, XIX əsrin əvvəllərində dünya sənaye məhsulunun yarıdan çoxunu vermiş sənaye çevrilişinin beşiyi, dünyanın sənaye emalatxanasının mərkəzi olmuş, aparıcı dəniz flotlarına malik olmuş (hər gəmidən 9-u ingilis gəmisi), dəniz yollarında liderlik etmiş, dünyanın birinci müstəmləkə dövləti sayılmış, London dövrün ən böyük şəhəri olmaqla dünyanın maliyyə mərkəzinə çevrilmişdir. Sonralar ABŞ və Almaniya kimi dövlətlərin sürətli inkişaf etməsi Böyük Britaniyanın bu və ya digər sahədə çəkisinin azalmasının zəruriləşdirmişdir. Bunlara baxmayaraq, 1949-cu ildən Şimali Atlantika Blokunun (NATO) üzvü olmaqla dünyanın nüvə dövləti kimi tanınmış, habelə Avropa Biriiyinin üzvlüyünə qəbul olunmuşdur. Böyük Britaniyanm əvvəllər Britaniya imperiyasına daxil olan ölkələrin birliyini yaratmış və ona hal-hazırda rəhbərlik edir. Bu, keçmiş müstəmləkə ölkələri ilə əlaqələri tənzimləyən özünəməxsus iqtisadi birlik formalarından biridir. Struktur dəyişikliklərinin nəticəsində Böyük Britaniya daha çox elm tutumlu istehsal sahələrinin yaradılmasını həyata keçirməyə başlayaraq, nəticədə təsərrüfat sahələrinin məhsul çəkisinə görə «böyük yeddilər» də beşinci yerə çıxmışdır.

Böyük Britaniya dövlət quruluşuna görə parlamentli monarxiyadır. Monarx fəaliyyət dairəsi çox dar çərçivədə olmaqla yalnız «şahlıq edir, idarə etmir». 1952-ci ildən ölkənin başlıcası kraliça Yelizavetadır. Qanunvericilik hakimiyyəti 2 palatalı parlamentə məxsusdur. Yuxarı palataya - lordlar palatasina ömürlük seçilmiş 1200 lord, 2 arxiyepiskop və 24 yepiskop, aşağı-millətlər palatasına isə birbaşa və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilmiş 651 deputat daxildir.

İcraedici hakimiyyət Nazirlər Kabinetinin əlində cəmləşmişdir. Baş nazir vəzifəsinə millətlər palatasında üstünlük təşkil edən partiyanın lideri seçilir. Ölkədə Konstitusiya yoxdur. Əsas qanunu 2 palatalı

parlament tərəfindən qəbul edilən qanunvericilik aktları əvəz edir. Milli bayram - kraliçanın anadan olduğu gün - iyul aymm 2-si 6-cı günü keçirilir. Konservativ partiya 1867-ci ildən fəaliyyətdədir. 1890-cı ildən yaranan Leyboristlər partiyası 1997-ci ildə hakimiyyətə gəlmişdir. Ölkə, tarixən çox qüvvətli Britaniya Konqresi, Ümumi Federasiya, tred yuniarlarının Şotlandiya və Uels Konqresi adıı həmkarlar birliklərinə malikdir. Son illər ölkədə milli məsələlər çox gərgin xarakter almaqdadır, Belə ki, Şotland və Şimali İrlandiya problemləri hələ də mövcuddur. Böyük Britaniya BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvüdür. Bununla yanaşı ATƏT-in, Avropa Şurasının, Avropa Birliyinin və digər beynəlxalq təşkilatlarının da üzvüdür. İnzibati ərazi bölgüsünə İngiltərə, Şotlandiya, Uels və Şimali İrlandiya tərkibində 47 əyalət, 7 mərkəzi əyalət, 26 rayon, 9 vilayət və 3 ada daxildir. Böyük Britaniya, İngiltərə, Bermud, Britaniya Virginiyası, Kaymanov, Terks, Karkos, Montserratt, Folklend, Pitkern, Xenderson, Müqəddəs Yelena və bir sıra başqa müstəməkə ada ərazilərinə də malikdir. Eləcə də Gibraltar Böyük Britaniyaya aiddir.

60 mln. əhalisi olan Böyük Britaniya bu sahədə Avropa ölkələri içərisində AFR-dən geri qalmaqla dünyada 17-ci yeri tutur. Əhalinin 83%-i İngiltərədə, 9%-i Şotlandiyada, 5 %-i Uelsdə, 3 %-i Şimali İrlandiyada yaşayır. Təbii artım hər 1000 nəfər hesabı ilə 2 nəfərə (doğum - 13 nəfər, ölüm - 11 nəfər) qədərdir. İnsanların orta ömür sürməsi kişilərdə 75,3 il, qadınlarda - 80 ildən artıqdır. Böyük Britaniya Avropada ən az uşaq ölümünə malik olan (1000 nəfərdə 6 nəfər) ölkə kimi tanınır. Əhalinin orta sıxlığı 244,3 nəfərdir. Onun milli tərkibində ingilislər -81,5%, Şotlandlar - 10 %>, irlandlar 4 % xüsusi çəkiyə malikdir. Şəhər əhalisinin çəkisi 89 %-dir. Paytaxt olan Londonda - 7,37 mln. əhali yaşayır. Fəal əhalinin - 28 %-i maddi istehsalının aparıcı sahəsi hesab edilən sənayedə, 2 %-i kənd təsərrüfatında, 70 %-i isə xidmət sferasında çalışmaqdadır. Ölkədə 27 mln. nəfər işləyən əhali vardır. İngilis dili dövlət dili olmaqla dünyada 500 mln. insan bu dildə ünsiyyət saxlayır.

Təsərrüfatın ümunıi xarakteristikasına diqqət yetirdikdə aydm olur ki, ölkədə maddi və qeyri-maddi istehsal sahələri bu və ya digər səviyyədə inkişaf etmişdir. Yanacaq-energetika, metallurgiya, maşınqayırma, kimya, yüngül, yeyinti sənaye sahələri

ilə yanaşı kənd təsərrüfatı, nəqliyyatı xidmət sahələri sferası ölkədə məhsuldar qüvvələrin sürətli inkişafı və düzgün yerləşdirilməsində aparıcı rol oynamışlar. Sənayenin ÜDM istehsalında - 25 % xüsusi çəkisi vardır. Kənd təsərrüfatı Ümumi Daxili Məhsul istehsalmda - 1 %-dən çox olmamaqla, xidmət sahələri 70 %-dən artıq xüsusi çəki ilə tanınır. Böyük Britaniyanın iqtisadi inkişafının xarakter xüsuisyyətlərindən biri orada xırda və orta müəssisələrin daha çox üstünlük təşkil etməsidir. Xırda biznes özündə 35 % işçi qüvvəsini birləşdirərək - 21 % mal dövriyyəsi ilə tanınır. Emal sahəsinin strukturunda ən çox inkişaf edən növlər kimyadan," neft emalıdan, elektron sahəsindən, optik ləvazimatlardan, rezintexniki məhsullardan və plastik kütlələrdən ibarətdir.

Ölkənin iqtisadi inkişafında yanacaq-energetika xüsusi yer tutur. Balansda - 30 % kömür, - 62 % neft və qaz, - 8 %ohidro və atom enerjisi vardır. Son illər ölkədə neftin və qazın artımı kömürə olan tələbatı xeyli sıxışdırmışdır. Şaxtaların çoxu bağlanmış,hasilat öz maksimum həddinə 1913-cü ildə 300 mln. tona çatmışdırsa, hal-hazırda bu 50 mln. tona qədərdir. Çıxarılan yerli kömür baha başa gəldiyindən (550 m dərinlikdə yerləşir) ildə 15-20 mln. tona qədər kömür idxal etməli olur. XX əsrin 80-cı illərinə qədər neft sənayesi gətirmə xammal əsasında inkişaf etməkdə idi. Bu illərdə ölkənin neft hasilatı 150 min tondan (Derbişir qraflığmda) çox olmamışdır. Lakin 1975-ci ildən Şimal dənizi ərazisindən neft hasilatının baş verməsi ölkəni dünyada neft dövləti kimi tanıtdırmağa səbəb olmuşdur. Hal-hazırda Böyük Britaniyada 137 mln. ton neft hasil olunur. «Britiş Petroleum» və «Şell» aparıcı neft korporasiyalarındandır. Hər il Fransaya, İtaliyaya, Niderlanda, AFR-ə, ABŞ-a -85 mln. tondan artıq neft ixrac edir. Ölkədə neft emalı müəssisələrinin çoxu texnoloji cəhətdən Şimal dənizinin yüngül neftini emal etmək üzrə ixtisaslaşmadığından ölkə hər il 50 mln-dan çox xarİci ölkələrdən xam neft almalı olur. Bu, əsasən, Yaxın Şərq ölkələri hesabına həyata keçirilir. İldə 100 mln. ton neft emal edə bilən Milford - Xeyven, Pembruq, Stenlou, Tisport, Şell-Xeyven, Sayttempton, Qreyndjmut, İmminqem və Salom - Vo kimi NEZ-ləri (onların sayı 25-dən çoxdur) fəaliyyət göstərir. Hasil olunmuş neft və gətirilmə neft emal müəssisələrinə uzunluğu - 2,5 min km-dən artıq olan neft kəmərləri vasitəsilə çatdırılır. XIX əsrin

başlanğıcından 1960-cı ilin ortalarına qədər olan dövrdə qaz yanacağı kömürdən alınma hesabına ödənilirdisə, 1967-ci ildən şelf zonasından bu yanacaq növünü hasil etmək mümkün olmuşdur. Bu əsasdan da Böyük Britaniya son illər yerli mənbələr hesabına yanar qaz hasilatını 110 mlrd. kubmetrə çatdırmışdır, Bu da RF, ABŞ, Kanadadan sonrakı 4-cü yer deməkdir. Lakin tələbat tam ödənilmədiyindən hər il Norveçdən boru kəməri ilə 3 mlrd. kubmetr yanar qaz London-Lanka-Şir magistral qaz boru xəttinə əlavə olunur.

Yanacaq energetika kompleksinin aparıcı sahələrindən biri də, başqa təsərrüfat sahələrindən fərqli olaraq hasil olunmuş məhsulun sonrakı məqsədlərdə istifadə üçün yığılıb anbarlarda saxlanıla bilməsi mümkün olmayan elektroenergetikadır. Onun SES, AES, İES və alternativ mənbələri mövcuddur. Böyük Britaniya kapitalist dünyasında 1956-cı ildə ilk AES (Kolder-Xoll) quraşdıran dövlət hesab edilir. Eyni zamanda, sonrakı illərdə AES-lər Xanterstonda - Eyr qraflığında, Berklidə (Qlosterşir), Dandjiessdə (Kend qraflığmda) tikilmişdir. AES-lərdən adambaşına düşən illik elektrik enerjisinin miqdarına görə ABŞ-dan, Fransadan, AFR-dən və Kanadadan geri qalır. AES-lərin 13,0 mln. kvt-dan artıq gücü və 36 bloku vardır. İllik elektrik enerjisinin 28 %-ə qədəri (95 mlrd. kvt saat) AES-lərdən alınır.

İri şəhərlərdə, xammal rayonlarında fəaliyyət göstərən İES-lər kömürlə işləyərək illik elektrik enerjisi hasilatının - 70,3 %-ni verə bilir. Böyük gücə malik olan İES-lər Londonda, Xay-Marixemdə, Torp - Marçda, Taksford yaxınlığında (Hottinqemşirdə) istehlakın ödənilməsinə xidmət edirlər.

SES-lər çox da böyük olmamaqla Şotlandiya və Şimali İrlandiya ərazisində fəaliyyət göstərməklə - 2 %-ə qədər elektrik enerjisi verə bilirlər.

Alternativ - külək və qabarma elektrik stansiyasına malikdir. Böyük Britaniya göstərilən mənbələr hesabına hər il 350 mlrd. kvt saat elektrik enerjisi hasil edərək dünya ölkələri arasında 9-cu yerdədir. Ölkənin elektrik enerji sistemi La-Manş boğazından keçməklə Fransanın enerji sistemi ilə əlaqələndirilmişdir. Son illər Böyük Britaniya YEK-də-380 mln. tut məhsul istehsal etmişdir. İllik tələbat - 330 mln. tut, ixracat isə - 145 mln. tutdan az deyildir.

Metallurgiya Böyük Britaniyanın qədim sənaye komplekslərindən hesab edilir. Yerli dəmir filizi ehtiyatları tükəndiyindən - 80 % xammalı Kanadadan, Braziliyadan, İsveçdən almağa məcbur olur. Ona görə də başlıca metallurgiya zavodları sahil zonalarında: Skantropda (Xambera yaxınlığında), Cənubi Uelsdə (Port-Tolbort və Llanueri), Tissaydda (Lakenbi - Redkar), Şotlandiyada (Ravenskreyq), Şeffilddə yerləşdirilmişdir. Qara metallurgiya müəssisələri ildə 18 mln. tondan çox polad əridə bilirlər. Əlvan metallurgiyanın sahil zonalarında yerləşməsinə səbəb gətirmə xammalların mövcudluğudur. Ona görə də Temzada,' Cənubi Uelsdə, Lankaşirdə əlvan metal əridən müəssisələr fəaiiyyətdədir. Digər tərəfdən, Şotlandiyada yerləşən SES-lər yaxinlığinda, Linmut AES-i yaxınlığında da alüminium zavodları mövcuddur. Deyilənlərlə yanaşı təkrar əlvan metallurgiya müəssisələri iri maşınqayırma mərkəzlərində - Qərbi Midlenddə, Böyük Londonda və Lankaşirdə yaradılmışdır.

Britaniya sənayesinin aparıcı sahələrindən biri də maşinnqayırmadır. Ümumi sənaye məhsulunun - 42 %-ni, ixracat məhsullarinin isə - 45 %-dən çoxunu verir. İstehsal səviyyəsində ABŞ-dan, Yaponiyadan, Almaniyadan və Fransadan geri qalır. Struktur müxtəlifliyində isə Avropada AFR-i qabağa buraxır. Böyük Britaniya maşınqayırmanm yüksək ixtisaslı kadrlarla təmin olunmuş standart olmayan, bahalı və yüksək keyfiyyətli növlərinin buraxılışı üzrə ixtisaslaşmışdır. Məhsul istehsalının digərlərinə nisbətən yüksəkliyinə və işçi qüvvəsinin çoxluğuna görə ümumi maşınqayırma, yəni - yol texnikası, energetika avadanlıqları - turbogeneratorlar, buxar qazanları, AES-lər üçün müxtəlif qurğular, kənd təsərrüfatı texnikası, tibb ləvazimatı qabaqcıl yer tutur. Dünyada Britaniya traktorları şöhrətə malikdr. Son illər dəzgahqayırma, kimya üçün avadanlıqlar xüsusi inkişaf sürəti almışdır. Ölkədə hər il 3,0 mln. ədəd avtomobil buraxılır. «Rolls-Roys», «Britiş Leyland» adlı yerli avtokompaniyalan fəaliyyət göstərir. Aparıcı zavodlar Böyük London (Luton), Birmingem, Koventri, Derbi, Birestol, Liverpul, Oksford aqlomerasiyalarında yaradılmışdır. «Rover», «Ford», «Yaquar», «Voksxoll», «Talbot», «Xon-da», «Nissan» və «Toyota» xarici avtomobil

korporasiyalarının filialları da məhsul istehsah ilə məşğuldurlar. İldə dünya bazarlarına - 600 mindən artıq avtomobil ixrac olunur.

1965-ci ilə qədər Böyük Britaniya maşınqayırmada dünyada liderlik etmişdir. Son illər şelf zonasında neft və qaz yataqlarının işlənməsi üçün yeni-yeni gəmi növləri düzəldilmişdir. Yanacaq gəmilərinin yarıya qədəri Klaydsaydda düzəldilir. Ölkədə 100-dən artıq gəmi nəqliyyatda istifadə olunur. Bundan başqa, Berkenxed, Barrau, Portsmut, Plimut, Belfast kimi gəmiqayırma mərkəzləri vardır. XX əsrin 90-cı illərində Böyük Britaniya elm tutumlu maşınqayırmaya xüsusi fikir vermişdir. Buraya elektron sənayesi daxildir ki, o da dünya sənaye məhsulunda - 9%-ə qədər xüsusi çəki ilə tanınır. Böyük Britaniya elektron sənayesinə, habelə elmi-tədqiqat işlərinin aparılmasına ayrılan xərclərdə - 35 % Avropada 1-ci yerdə durur.

«İnterneşnl kompüters limitel» («Ay-Si-El») kompaniyasına malik EHM-ri buraxılışının buna misal göstərə bilərik. Rabitə və xidmət sferasında kompüterləşmə prosesi ən yüksək səviyyədə həyata keçirilməkdədir. Böyük Britaniya müxtəlif məqsədlər üçün istifadə olunan yarımkeçirici cihazlar buraxmaqda Avropa ölkələri içərisində AFR-dən sonrakı yeri tutur. Aerokosmik sənaye sahəsində də Böyük Britaniya özünəməxsus yer tutur. Hərbi-sənaye kompleksinin inkişafına dünyada 20 kompaniya xidmət edirsə, onun üçü ingilislərə məxsusdur (ABŞ-da- 10, Fransada - 5, Almaniyada - 1). «Britiş aerospeys», «Djeneral elektrik» və «Rals-Reyn» kompaniyaları buna misal ola bilər. Bu kompaniyalar aviasiya mühərrikləri, təyyarələr, aviaraket texnikaları buraxılması üzrə ixtisaslaşmışlar. Elektron sənayesi məhsulları istehsah Böyük London üçün xarakterdirsə, aviaraketqayırma sənayesi Bristal, London, Derbi şəhərlərində cəmlənmişdir.

Çox dinamik inkişaf edən təsərrüfatlardan biri də kimya sənayesidir. Onun xammalının çox vaxtlar neft emalı sahəsinin məhsulları təşkil etməkdədir. Göstərilən sənaye sahəsinin verdiyi məhsulun illik miqdarına görə ölkə Avropada, Almaniya və Fransadan sonrakı 3-cü yeri tutur. Onun aparıcı məhsulları əsasən üzvi sintezə aiddir. Aparıcı «İmperiel kemik indastriz» kimya korporasiyası dünya kimya korporasiyaları arasında 6-cı olmaqla Böyük Britaniyada kimya sənayesinin illik məhsulunun 50 %-ni

verir. Sintetik liflər, piastik kütlələr, yerli boyalar, formaseptik məmulatlar (dünya ixracatında 12 % xüsusi çəkisi var) istehsalı ilə bərabər kimyanın qədim sahəsi sayılan əsas kimya da - mineral kübrə, soda, turşu, xlor istehsalına da xüsusi fikir verilir. Neft emalı əsasında neft-kimya Şotlandiyada, Qreyndjmutda, İmminqemdə məhsul verməkdədir. İldə 12 mln. t kübrə, 3,6 mln. t plastik kütlə, 0,14 mln. t sintetik kauçuk istehsal olunur.

Ölkədə gündəlk tələbatının ödənilməsinə xidmət edən yüngül sənayenin toxuculuq, toxuma, trikotoj, ayaqqabı istehsah fabrikləri bir qayda olaraq iri sənaye şəhərlərində hələ çox qədimdən inkişaf tapmışdır. Ucuz işçi qüvvəsi bolluğu ölkədə toxuculuğun inkişafıına təkan verən amillərdən hesab edilir. Pambıq parça, sintetik liflər sahələri bu qəbildəndir. Pambıq parça toxunuşu üçün xammal ABŞ-dan, Niderlanddan, Sudandan, Braziliyadan idxal olunur. Yun parçanın toxunuşu üçün isə xam yun məhsulu Avstraliyadan, Yeni Zelandiyadan, CAR-dan gətirilir. Böyük Britaniya illik yun tədarükünü - 65'min tona çatdırmaqla dünyada 7-ci yeri tutur. Son illərdə ölkədə 200 mln. metrdən çox pambıq parça, 190 mln. kv.m yun parça, xeyli miqdarda sintetik parçalar toxunmuşdur. Pambıq parça - Lonkaşirdə, yun parça - Yorkşirdə, trikotaj - Şərqi Midlenddə, kətan parça - Şinmali İrlandiyada toxunmaqdadır. İngilis yun parçası və hazır tikili paltarları dünya şöhrəti qazanmışdır. Haqqlı olaraq Qlazqonu ölkənin «xalça» paytaxtı adlandırırlar. Toxunmuş parçaların çoxu Avropa Birliyi ölkələrinə ixrac olunur.

Böyük Britaniya özünün müxtəlif çeşidli yeyinti, tikinti, meşə, sənaye sahələri ilə yanaşı xidmət sahəsi sferası ilə də Avropada tanınmaqdadır.

İkinci Dünya müharibəsinə qədər ölkədə maddi istehsalın 2-ci aparcı sahəsi hesab edilən kənd təsərrüfatının inkişafına bir o qədər də diqqət yetirilmirdi. Görünür buna səbəb ingilis imperiyasının müstəmləkə xarakter daşıması olmuşdur. Son iilərdə kənd təsərrüfatının ayrı-ayn inkişafına xüsusi yer verilir. Belə ki, 2004-cü ildə ÜDM-də onun çəkisi - 1,6 %-i keçmişdir. Ölkədə mövcud işçi qüvvəsinin - 80 %-ə qədəri bu sferada çalışır. Kənd təsərrüfat məhsulları istehlakının 80 %-ni ödədiyindən xüsusi ilə Avropa ölkələrindən bu və ya digər məhsulları almaq üçün ölkəyə

xammallar idxal olunur. Böyük Britaniyanın kənd təsərrüfatı yüksək səviyyədə mexanikləşdirilməsi ilə tanınır. Ölkədə çoxlu miqdarda mövcud olan lendlordlar demək olar ki, bütün torpaqları arendaya vermişlər. Əkilən torpaqlar - 1,3 mln. ha, otlaq və biçənəklər - 6 mln. ha təşkil etməklə torpaq sahəsinin 77 %-dən çoxu kənd təsərrüfatda istifadə olunur. Hektar hesabı ilə məhsul əldə edilməsinə görə (1725 dollar) Böyük Britaniya (BB) dünyada Yaponiya, İsveçrə, Niderland, Belçika, AFR-dən sonrakı 6-cı yeri tutur. Lakin hər bir fermer ildə 95 nəfərin istehlakını ödəyəcək miqdarda məhsul tədarük etdiyindən BB dünyada ancaq Yaponiyadan geri qalır. BB-da hər birisinin orta hesabla 70 ha torpaq sahəsi olan 244000 fermer təsərrüfatı fəaliyyət göstərir. Belə hal BB-m Avropada ən qabaqcıl yer tutmağa sövq edirsə, dünyada ABŞ və Kanadadan geri qoyur. Kənd təsərrüfatı məhsulları istehsalında heyvandarlığının payı 80 %-dən artıqdır. Ölkə təbii şəraitinə müvafiq olan rayonlarda saxlanılan iribuynuzlular -13,0 mln. başdan az deyildir. Burada südlük, ətlik-südlük istiqamətində ixtisaslaşma aparılır. Bununla yanaşı ət və yun alınması istiqamətində saxlanılan xırdabuynuzluların sayı - 43 mln. başı keçmişdir. Texniki bitkilər becərilən bölgələrdə, iri sahələr ətrafında sayı - 8,0 mln. başdan artıq olan donuzçuluq və eləcə də quşçuluq sahələri özlərinə inkişaf arealları tapmışlar. İstər iribuynuzlular və istərsə də xırdabuynuzlular təbii şəraitləri əlverişli olan Şotlandiyada, Uelsdə, Şimali İrlandiyada, ölkənin İngiltərə hissəsində bəslənilməkdədir. BB ət tədarükünə görə (40 mln. tona yaxın) dünyada 11-ci yeri tutaraq ildə adambaşına 66 kq məhsul əldə edə bilir. Eyni zamanda BB mal əti ixrac edir. İldə hər nəfərə düşən südün kəmiyyət göstəricisi - 235 kq-dan cox olmaqla ümumi illik məhsulu - 14,0 mln. tondan az olmur.

Bitkiçilikdə taxılçılıq aparıcı sahədir. Taxılçılıq üçün ayrılmış sahənin - 60 %-ni buğda və 37 %-ni arpa əkinləri təşkil edir, Hər ha-dan 73 sentner məhsul götürülməsində BB- yalnız ABŞ, RF, Türkiyə və Pakistanla müqayisə edilə bilər. Onun illik məhsul tədarükü - 16-20 mln. ton arasında dəyişilir (dünyada 5-ci yerdədir). Xüsusilə heyvandarlığın yemi üçün ildə - 6,0 mln. ton arpa, 100 min tondan çox vələnir - tədarük olunur. Bunlarla yanaşı, heyvandarlığın inkişafı üçün - 1,5 - 3,0 mln. tona qədər qarğıdalı

məhsulu da idxal edir. Ümumiyyətlə, taxılçılığın balansı aktivdir. Məhsuldarlığı hər ha- dan 393 sentnerə çatan kartofçuluğun illik məhsulu - 8,0 mln. tondan artıqdır. Texniki bitkilərdən illik məhsul toplantısı - 8,0 mln. ton, məhsuldarlığı hektar hesabı ilə - 411 sentnerə çatan şəkər çuğunduru da becərilir.

Hər il, Böyiik Britaniya - 17 mlrd. dollarlıq yeyinti və kənd təsərrüfatı məhsulları ixrac edir. İdxalatda isə bu - 32 mlrd. dollardan artıqdır.

Ölkədə nəqliyyat sistemi çox yaxşı inkişaf etmişdir.

Böyük Britaniyanın coğrafi mövqeyi-adalarda yerləşməsi, iqtisadiyyatının xarici əlaqələrdən və Britaniya imperiyasının müstəmləkə siyasətindən asılılığı onu hələ çox qədimdən dünyanın böyük dəniz dövləti kimi tanıtdırmışdır. Bu liderlik 2-ci Dünya müharibəsinə qədər davam etsə də sonralar ABŞ bu sahədə onu 2-ci yerə sıxışdırmışdır. Hal-hazırda BB xarici ticarətinin 98 %-ni dəniz nəqliyyatı ilə həyata keçirir. Gəmi tərsanələrində 1000-dən artıq tanker refrijerator, meşə daşıyan, filiz daşıyan, sərnişin daşıyan gəmi vardır. Dəniz flotu üçün xarakter cəhət odur ki, yük daşıyan gəmilər sərnişin daşıyanlardan çoxluq təşkil edir. XX əsrin 90-cı illərinin ortalarında Britaniya limanlarından keçməklə 600 mnln-dan çox yük daşımaq mümkün olmuşdur. BB-nin hər birisinin yük dövriyyəsi -1,0 mln. tondan çox olan 36 və hər birisinin illik dövriyyəsi - 10 mln. tondan artıq olan 13 limanı fəaliyyət göstərir. London (66 mln. ton), Liverpol, Qlazqo, Sallom Vo (40 mln. t), Milford-Xeyven (35 mln. ton), Sautqempton (32mln. t), İmminqem (20 mln. t), Tyurt-Tolbot (11 mlnt), Redkar və digər limanların adlarını çəkə bilərik. Ölkə çoxsaylı çaylara, gəmiçilik kanallarına malik olsa da onların rolu bir o qədər hiss edilmir. Çox vaxtı onlar rekreasiya məqsədlərində yaralanırlar.

Parklarında 25 mln-dan artıq avtomobili birləşdirən avtomobil nəqliyyatı daxili yük və sərnişindaşımada aparıcı yer tutur. Ölkə ailəsinin 68 %-nin avtomobili olduğu qeydə alınmışdır. Ailənin 23 %-nin 2-3 avtomobili vardır. Bərk örtüklü avtomobil yollarını uzunluğu 400 min km-dən az deyildir. Avtomobil nəqliyyatının rolu və əhəmiyyəti gündən-günə artmaqdadır.

Dəmiryolu nəqliyyatı İngiltərədə hələ 1825-ci ildə Mançestrlə-Liverpul arasında ilk dəmir yolu xətti çəkiləndən inkişaf

etməyə başlamışdır. Müasir BB-da dəmir yolları get-gedə azalaraq 17 min km-ə enmişdir. Dəmir yolları şəbəkəsinin sıxlığı hər 1000 kv. km-də-68 km-dir. Onun 31 %-i elektrikləşdirilmişdir. Ümumiyyətlə ölkənin coğrafi mövqeyi bir növ dəmiryollarının inkişafına və yerləşməsinə öz təsirini göstərməyə bilmir. BB bir növ Avropa ölkələrindən təcrid olunmuşdur. Bu çatışmazlığı aradan qaldırmaq məqsədilə hələ XIX əsrin başlanğıcında fransız mühəndisi Alber Matyonun layihəsinə əsasən La-Manşm ən ensiz yeri olan Pa-de-Kale ilə Duvr arasında sualtı tunelin çəkilməsi fikri irəli sürülmüşdür. Nəhayət 1987-ci ildə, həmin layihələrin həyata keçirilməsi haqda ingilis-fransız razılaşmasına nail olunmuşdur. «Əsrin tikintisi»nin reallaşmasında aşağıdakı xronoloji ardıcıllıq mövcuddur: 1987-ci ildə tikintiyə başlanılmış, 1991-ci ilin iyununda Avrotunelin çəkilişi başa çatmış, 1994-cü ilin mayında İngiltərənin kraliçası II Yelizaveta və Fransa prezidenti Fransua Mitteranın iştirakı ilə təntənəli açıiışı olmuş və 1994-cü ilin noyabrında London - Paris arasında qatarlarının kommersiya hərəkəti həyata keçirilmişdir. Texniki layihəyə əsasən Pa-de-Kale ilə Duvr arasında suyun 40 m dərinliyindən keçməklə 3 paralel xətt çəkilmişdir. Hər 250 metrdən göstərilən xətlər bir-biri ilə eninə qalereyalarla birləşdirilmişdir. 37 km su altından keçən Avrotunnelin uzunluğu 50 km-ə çatır. Deyilənlərlə yanaşı yeraltı keçidlər, Folkstondd, Koledə, Londonda, Parisdə beynəlxalq terminallar da tikilib istifadəyə verilmişdir. Baxmayaraq ki, tunel çox baha başa gəlmişdir, o özünü doğrultmuşdur. Bu vaxta qədər həmin xətlə 22 mln-dan artıq sərnişin daşınmışdır. Nəticədə, London-Paris arasındakı məsafə 3 saata qət olunursa, bunun 20 dəqiqəsi ancaq tunneldən keçmə vaxtıdır. Beləliklə, Pa-de-Kale-Duvr arası Avrotunnel BB-nı qonşu Avropa dövlətləri ilə birbaşa əlaqələndirməyə, iqtisadi inkişafa səbəb olmuşdur.

Beynəlxalq daşımalarda aviasiya nəqliyyatından geniş istifadə olunur. Londonun Xitrou hava limanı dünya əhəmiyyəti kəsb edən limandır. Hava nəqliyyatı ilə ildə 100 mln-dan artıq sərnişin daşmır. Cavan nəqliyyat növlərindən biri boru kəmər nəqliyyatıdır. Onun ümumi uzunluğu - 17 min km-dən artıqdır. Bunun 4,0 min km-i neft, 13 min km-i isə qaz kəmərlərinə aiddir. İstehlakın ödənilməsində əvəzsiz əhəmiyyət kəsb edir. Ölkə neft

kəmərlərinin səviyyəsinə görə qonşu ölkələrdən əhəmiyyətli dərəcədə fərqlənir.

Çoxsahəli xarici iqtäsadi əlaqələrdə ticarət aparıcı yer tutur. Xarici ticarət dövriyyəsi 595 mlrd. dollardır. İxracat - 280 mlrd. dollar həcmindədir, idxalat xeyli çox - 315 mlrd. dollardan az deyildir. Deməli, xarici ticarət saldosu aktiv deyildir. BB-nin ticarət tərəfdaşları ən çox Avropa Birliyi və Şimali Amerika ölkələridir. İxracatda Avropa Birliyi ölkələri - 53 %, Şimali Amerika - 14% xüsusi çəkiyə malikdir. Lakin bu ayrı-ayrı ölkələrdə - Almaniyada 13,2 %, ABŞ-da - 12,6 %, Fransada - 12,6 %, Niderlandda 7,3 %xüsusi çəki ilə seçilirlər. İxracatın strukturunda başlıca yeri hazır məhsullar - xüsusilə maşınqayırma sahəsinin məhsulları, son illərdə isə elmtutumlu və kimya məhsulları böyük çəki ilə fərqləniriər. XX əsrin sonlarından başlayaraq neft və taxıl məhsulları ixaracı da gəlir gətirən sahələrə çevrilmişdir.

Əlbəttə, hər hansı ölkə xarici ticarət əlaqələrini yalmz bu və ya digər məhsulu ixrac etməklə başa vurmur, eləcə də daha çox gərəkli məhsulların idxalına da fikir verir. Bu baxımdan idxalatdan AB-51%, Şimali Amerika ölkələri - 13 %, ölkələrdən isə Almaniya - 15,2 %, ABŞ - 11,9 %, Fransa 10,5% Niderland 6,8 %, Yaponiya 65 % xüsusi çəki ilə iştirak edirlər. Son vaxtlar çay Hindistandan, Şri-Lankadan, pambıq və cut Pakistindan, qurğuşun Malayziyadan, neft Küveytdən daxil olaraq (50 %) gətiriiən məhsulların çeşidi xeyli artırılmışdır. Qeyd etmək gərəkdir ki, BB adambaşına illik işlədilən çayın miqdarına görə dünyada 1-ci yeri tutur.

Deyilənlərlə yanaşı, BB dünyada çox kapital ixrac edən ölkə kimi də tanınır. Lakin amerikan kapitanı ölkədə avtomobil sahəsinə 50 %-dən artıq sərmayə qoyuluşu ilə fərqlənir. Böyük Britaniya dünyanın nəhəng maliyyə mərkəzi kimi də öz funksiyasını ildən- ilə daha da artırır. Dünyanın 20 tanınmış bankları arasmda 7-ci yeri tutan «XSBK Xoldinqs» və 17-ci yerə malik «Vestminster Benk» ingilislərə məxsusdur.

İqtisadi-sosial fərqlərin mövcudluğu daxildə ayrı-ayrı regionların ayrılmasına səbəb olmuşdur. Bu əsasdan da ölkədə 8 iqtisadi rayon ayırmaq mümkündür. Bunlar Cənubi İngiltərə, Midlend, Lankaşir, Yorkşir, Şimal rayonu, Şotlandiya, Uels və Şimali İrlandiyadan (Olsteıı) ibarətdir.

Ən böyük və iqtisadi cəhətdən inkişaf etmiş iqtisadi rayon - Cənubi İngiltərədir. Ölkə ərazisinin 30 %-ə qədərini əhatə edərək ümumi əhalinin - 40 %-i burada cəmləşmişdir. İqtisadi gücündə sənaye məhsulları - 33 %, kənd təsərrüfatı məhsulları tədarükü - 40 % təşkil edir. Ölkənin paytaxtı London burada yerləşdiyindən onun ətrafında Britaniya hökuməti formalaşmış, çoxlu sayda ticarət və maliyyə müəssisələri yaradılımışdır. London indi də dünya miqsaylı liman və maliyyə mərkəzi kimi tanınır. Elektronika, aviaraket sahəsi, avtomobil, kimya, kağız-sellüloz, ixtisaslı kadrlar, elmi tədqiqat müəssisələri Oksford və Kembric Universitetləri, çoxlu sayda xidmət sahələri vardır.

İqtisadi inkişaf potensialına görə 2-ci rayon Midlend hesab edilir. Belə ki, burada ümumi əhalinin 15 %-i yerləşir, ərazinin 10 %-i vardır, 20 % sənaye məhsulu istehsal olunur. Əlverişli coğrafi mövqeyi olan Midlendi bəzən «Qara İngiltərə» adlandırırlar ona görə ki, o qara metallurgiyanın beşiyi hesab edilir. Yüngül, yeyinti, avtomobil, kömür, dəmir filizi sahələri ilə tanınır. Birmingem, Koventri, Stok-on-Trent şəhərlərinə malikdir.

İllik sənaye məhsulunun 15 %-nə, ərazinin - 3%-nə, əhalinin 12 %-nə malik olan Lankaşir rayonu pambıq parça toxuculuğuna, əlvan metallurgiyaya, kimyaya, atom və maşınqayırma sənaye sahələrinə malikdir. Mançester Merseysayd Liverpol aqlomerasiyaları əhalinin sayının çoxluğu ilə seçilir. Südlük istiqamətli heyvandarlıq kənd təsərrüfatının aparıcı sahəsidir.

Xüsusi çəkisinə görə Yokşir sonrakı yerlərdən birini tutur. Ölkə ərazisinin 6 %-nə malik olmaqda 10 % əhali burada cəmləşmişdir. Sənaye məhsulu istehsalıda 10 % xüsusi çəkidə yun tədarükü ilə bərabər polad əridilməsi, kömür hasilatı, avtomobil aparıcı sahələrdən hesab olunurlar. Ölkənin poladının 1/3-ni (1-ci yer tutur) verən iqtisadi rayonda Şeffild (1,1 mln. əhali), Lids (705 min nəfər), Bredford (456 min nəfər) və Qalifaks şəhərləri təsərrüfatının müxtəlif sahələri üzrə ixtisaslaşmışlar. Qull, İmminqem limanları çox böyük iqtisadi əhəmiyyət kəsb edirlər. Ərazinin şimal hissəsi taxılçıhq üzrə, şəhər ətrafları isə tərəvəzçilik üzrə ixtisaslaşmışlar.

Şotlandiyanın 32 % ərazisində ümumi əhalinin 10 %-i yaşayır. Sənaye məhsulunun - 10 %-ə qədəri rayonun payına düşür.

Klayd-says aqlomerasiyası Qlazqo ilə birlikdə əhalinin 50 %-nə malikdir. Qlazqo Şotlandiyanın sənaye mərkəzi hesab edilir. Kömür hasilatı metallurgiya, ağır maşınqayırma, ölkədə mövcud SES-lərin 80%-i, neft kimyası vardır. Qrendjmut , Edinburq, Aberdm kimi bir sıra sənaye mərkəzləri fəaliyyət göstərir. Çoxsahəli kənd təsərrüfatında südçülük maldarlığı, yem bitkiləri əkini,dağlıq sahələrdə zərif yunlu qoyunçuluq inkişaf etmişdir.

Uels kömür metallurgiya rayonu kimi tanınır. Qara metallurgiyanın Port-Tolbot kimi poladəritmə mərkəzi vardır. Nyuport, Suonsi ətrafında əlvan metallurgiya müəssisələri yaradılmışdır. Milford-Xeyvenddə, Pembrukedə neft-kimya, Kardif limanında metallurgiya və maşınqayırma sahələri hələ qədimdən yaradılmışdır. Ekstensiv xarakterli kənd təsərrüfatında ətli-yunlun qoyunçuluq, çay dərələrində isə əkincilik sahəsi xarakterdir.

Şimali İrlandiya ölkənin bir o qədər də inkişaf edən rayonu kimi tanınır. Ölkənin 6,0 % sahəsini, 3 % əhalisini özündə birləşdirməklə illik sənaye məhsulunun-1,5 %-ni istehsal edir. Rayon Böyük Britaniyaya 1921-ci ildə birləşdirilmişdir. Böyük Britaniyada Olster problemi ən kəskin məsələlərdən biri kimi hələ də qalmaqdadır. Rayonda əhalinin əksər hissəsi kənd təsərrüfatı ilə məşğuldur. Qoyunçuluq, tərəvəzçilik, yem bitkilərinin becərilməsi, iribuynuzlulardan cavan heyvanların ət alınması üçün bəslənilməsi xarakterdir. Əsas sənaye sahələri əhalisi 350 min nəfərdən artıq olan Belfasda cəmlənmişdir. Bunlar gəmiqayırmadan, toxumadan, avtomobilqayırmadan, cihazqayırmadan və sintetik liflərin istehsalından ibarətdir.

VI.4. Fransa

Sahəsi - 544 min kv. Km
Əhalisi - 61,0 mln. nəfər
Paytaxtı - Paris şəhəridir.

ÜDM-1610mlrd. Dollar

ÜDM - adambaşına 25,7 min dollar

Fransa, hələ qədimdən dünya iqtisadiyyatında, eləcə də beynəlxalq münasibətlərdə çox böyük rol oynayır. O iqtisadi qüvvəsinə görə dünyanın 6-cı ölkəsi sayılır. Burada inkişaf edən elmtutumlu müasir sənaye sahələrinin yüksək intensivliyi ilə seçilən kənd təsərrüfatının və səviyyəli xidmət sahəsi sferasının mövcudluğu Fransanı dünyada tanıtdırmışdır. İldə 75 mln-dan artıq turisti qəbul edə bilməsi də ölkə üçün şöhrət gətirmişdir. O dünyada maşınqayırma, yüksək səviyyəli aqrar sənaye kompleksi ilə də tanınır. Fransa Böyük Britaniya ilə birlikdə səsdən iti sürətə malik «Konkord» hava sərnişin gəmisinin, eləcə də digər Avropa dövlətlərinin iştirakı ilə «Arian» kosmik gəmisinin yaradıcısıdır. Dünya ölkələri içərisində AES-lərdən elektrik enerjisi alınmasında (75 %) 2-ci yeri tutur. Dünyanın İEÖ-Iərindən olan «yeddilər» içərisində özünə layiqli yer tutur.

Avropa Şurasında Fransa dünyanın nüvə və kosmik dövləti sayılmaqla Şimali Atlantika blokunun (NATO-nun) üzvüdür. «Tomson», «Laqarder» qrupları hərbi sənaye məhsulları istehsalında dünyada tanınır. Fransa BMT-nin TŞ-nın daimi üzvlərindən biridir. O, eyni zamanda Avropa İttifaqının, Avropa Şurasının, Yevratomun, MAQATE-nin, İNTERPOL-un, OESP-nin, MOK-m, VTO-nun, YUNESKO-nun, MAR-m, EKA-nm, ELB-in,FAO-nun, VMO-nun, KOKOM-un, İSO-nun, MTP-nin, İFAD-m iştirakçısıdır. Dünyanın ən gözəl şəhərlərindən biri olan Parisdə bir çox beynəlxalq təşkilatlar, eləcə də iri dünya banklarının 25-dən artıq idarələri yerləşir. Parisin fəaliyyəti dünyada bu deyilənlərlə məhdudlaşmır, eləcə də o BMT-nin təhsil, elm və mədəniyyət üzrə dövlətlərarası təşkilatlarının - YUNESKO-nun yerləşdiyi mərkəz hesab edilir. Qvadelupa, Martiniki, Reyonon və Fransa Qvianası zamor departamentləri, zamor əyalətləri olan Fransa Polizeniyası, Yeni Kaledoniya, Uolis, Futana, Cənub və Antarktika adalan sahəsi və zamor əyalətləri cəmiyyətləri - Mayotta, Sen-Pyer, Mikolon keçmişdən nəhəng müstəmləkələrinin qalıqları kimi indi də Fransam tanıtmaqdadır. Onların ümumilikdə sahəsi 135 min kv. km, əhalisi isə 2,0 mln. nəfərə yaxındır. Fransa Qvianasında yerləşən Kuru kosmadromu dünyada tanınır. Fransa Yaxın Şərq və

Balkan problemlərinin həllində əhəmiyyətli dərəcədə rol oynayır. Deyilənlərlə yanaşı, Fransa çox fəal geosiyasi xətt həyata keçirir. Fransa hərbi kontingentləri bir çox ölkələrdə - Almaniyada, Bosniyada və Hersoqovinada, Cibutidə, MAR-nda təmsil olunurlar.

Fransanın çox əlverişli coğrafi və geosiyasi mövqeyi vardır. O Avropanın qərb qurtaracağında yerləşərək Atlantik, Aralıq dənizi və Pireney ətrafında yerləşən dövlət kimi tanınır. O, iki tərəfdən - Atlantik okeanı və Aralıq dənizi suları ilə əhatə olunmuşdur. Ölkənin tərkibinə Aralıq dənizində yerləşən Korsika adası da daxildir. Ölkə La-Manş və Pa-de-Kale boğazı vasitəsilə şimal dənizinə çıxış əldə edərək özünün coğrafi yerləşməsinin əlverişliliyini daha da artırmış olur. Ölkənin sahil xəttinin uzunluğu 3427 km-dən artıqdır. Sahillərinin formasına görə fransızlar ölkələrini «Ekzaqon» adlandırırlar. Dəniz və quru yolu əlaqələrinin münasibliyi, beynəlxalq yolların kəsişdikləri yerdə yerləşməsi Fransanın qədimdən iqtisadi mövqeyinin güclənməsinə, bu da öz növbəsində ölkə təsərrüfatının, iqtisadi inkişaf sürətinin, ticarət və mədəni əlaqələrin artmasına imkanı daha da artırmışdır. Onun coğrafi mövqeyinin əlverişliliyi Şimal, Ardenn, Lotoringiya, Elzas, Lion regionlarının Avropa meqolopolisi ilə birləşməyə imkan vermişdir. Eyni zamanda əlverişli mövqe bir çox ölkələrə inteqrasiya əlaqələrinin artması prosesini daha da artırmışdır. Qeyd etmək lazımdır ki, Fransanın Afrika kontinentinə yaxınlığının da özünəməxsusluğu vardır. Hələ vaxtı ilə bir neçə Afrika dövləti Fransa müstəmləkə imperiyasının tərkibində olmaqla fransızların oraya axımlarına şərait yaratmışdır. Əlcəzairdən gələn fransızların ildən ilə artması müşahidə olunur. Belçika, Andorra, Monako ilə qonşuluğu «mədəni inteqrasiya»nm get-gedə artmasını sürətləndirir. Almaniya ilə qonşuluğu isə daha da çox geosiyasi əhəmiyyət kəsb edir. Hal-hazırda hər iki dövlət daha çox əməkdaşlıq və inteqrasiya sərhədinə malikdirlər. Deyilənlərlə yanaşı, 1987-ci ildən çəkilməyə başlayan, uzunluğu 50 km olan Pa-de-Kale boğazının 40 m dərinliyindən keçməklə Paris və Londonun əlaqələndirilməsini həyata keçirən Avrotunnelin 1994-cü ildən fəaliyyət göstərməsinin də xüsusi əhəmiyyəti vardır. Fransa dünya birliyində ekoloji cəhətdən ən təmiz AES şəbəkəsi ilə də tanınır.

Fransa mürəkkəb təbii şəraitə və inkişaf ehtiyatlarına malik yeraltı və yerüstü sərvətlərlə səciyyələnən dövlətdir. Ərazi relyefi eyni sahəyə malik olan dağlıq və düzənliklərdən ibarətdir. Şimali Fransa Haronn, Elzas düzənliklərinin kənd təsərrüfatının, ümumiyyətlə ölkədə məhsuldar qüvvələrin düzgün yerləşdirilməsində və inkişaf etdirilməsində ölçüyəgəlməz əhəmiyyəti vardır. Ərazinin 50 %-ni maksimal hündürlüyü Monblan zirvəsində 4810 m-ə çatan Alp, Pireney, Yura, Vogez, Ardenn dağlıq sahələri təşkil edir. Maraqlı hal odur ki, Monblan mövcud olan qar və buzlaqların hesabına Avropanın mərkəzinin su tənzimləyicisi rolunu oynayır. Burada ən böyük Mer-de-Qlas buzlağı yerləşir ki, buraya da il ərzində ən çox turist gəlməkdədir. Ərazinin iqlimi əsasən Atlantik hava kütlələrinin təsirindən formalaşır. Burada - qərbdə sırf dəniz, cənubda Aralıq dənizinin subtropik və şərqdə mülayim kontinental iqlim tipləri hakimdir. Dağlarda isə o yüksəklik qanunauyğunluğu əsasında dəyişərək nisbətən sərt xarakterlidir. Ölkənin qərbində orta yanvar temperaturu +7°S təşkil etdiyi halda, orta iyul +22°S-dən artığa çatır. Aralıq dənizi sahillərində isə iyulun orta temperaturu + 24°S-yə qədər qalxa bilir. Atmosfer yağıntıları isə 800-1000 nın arasında dəyişir, dağlarda bu 2000 mm-ə çatır. Relyefdə olduğu kimi yumşaq və mülayim iqlim xüsusiyyətləri ölkə kənd təsərrüfatının inkişafında başlıca rol oynayır.

Xüsusilə kənd təsərrüfatı üçün yararlı olan torpaq ehtiyatları podzol, çəhrayı, boz-meşə torpaq növlərindən ibarətdir.

Ərazinin çox hissəsi enliyarpaqlı meşə zonasında yerləşir. O, ümumi ərazinin 30 %-ni örtmüşdür. Sahəsi 14 min kv km, illik ehtiyatı 55 mln. kub m-dir. İnsanların təsərrüfat fəaliyyətləri ilə əlaqədar olaraq meşə örtüyü antropogen təsirlərə çox məruz qalmışlar. Ona görə də Fransada mədəni bitki növləri, xüsusi ilə son illərdə daha çox artmaqdadır.

Atmosfer yağıntılarının kifayət qədər olması, relyef xüsusiyyətlərinin səviyyəliliyi Fransada çay şəbəkəsinin sıxlığına və sayına öz müsbət təsirini göstərir. Buraya suvarma, elektrik enerjisi alınması və nəqliyyat məqsədilə istifadədə gərəkli olan Sena, Luara, Yironda, Rona, Haronn, Dordoni çaylarının adlarını çəkə bilərik. Çayların illik hidroenerji potensialı 100 mlrd. kvt saat

təşkil etməklə Avropada ancaq Norveç və İsveçdən geri qalır. Demək olar ki, bütün çaylar bir-birilə enlik istiqamətində kanallar vasitəsilə əlaqələndirilmişdir.

Fransa özünün rekreasiya resursları-çimərlikləri, dağ və meşə massivləri, çoxlu sayda tarixi abidələri, mineral bulaqları, buzlaqları və s. ilə də turistlərin gəlişini özünə cəlb edirlər.

Yerüstü təbii sorvətlərə nisbətən mineral ehtiyatları Fransanın ətrafında yerləşdiyi ölkələrdən bir o qədər də fərqləndirmir. Dəmir filizi ehtiyatı-8,5 mlrd. ton, kömürün ehtiyatı-12 mlrd. ton (Elzas, Saar, Lotaringiya), boksit ehtiyatı-200 mln. t, kalium duzu ehtiyatı-1,8 mlrd. ton, uran fılizi ehtiyatı-100 min ton, neft ehtiyatı-33 mln. t, qaz ehtiyatı-255 mlrd. kubmetr (Lak yatağı) təşkil edir.

Qərbi Avropada yerləşən Fransa Prezident respublika idarəetmə formasına malikdir.

Qanunvericilik orqanı Parlamentdir. 1958-ci ildə qəbul olunmuş Konstitusiyaya görə Parlament Milli Məclis və senatlardan ibarət olmaqla 2 palatadan ibarətdir. Bu palatalar eyni zamanda Yuxarı və Aşağı palatalar adlanırlar. Ölkənin başçısı ümumxalq səsvermə yolu ilə 7 il müddətinə seçilən çox böyük səlahiyyətlərə malik prezidentdir. Prezident hökuməti-Nazirlər Sovetini, ayrı-ayrı nazirləri təyin edir, əslində o, parlament qarşısında heç bir məsuliyyət daşımayaraq Ali Baş Komandan vəzifəsini də yerinə yetirir. Ölkə 22 vilayətə ayrılır ki, onlarda da 96 departament mövcuddur.

Fransa II Dünya müharibəsi ərəfəsində sahəsi 12 mln. kv km, əhalisi 70 mln. nəfərdən artıq olan mülklərə malik idi. Müharibədən sonrakı illərdə milli azadlıq hərəkatının nəticəsi olaraq əksər mülklərdən əl çəkməli olmuşdur. Ölkədə 1-ci respublika 1792-ci ildə elan edilmişdir. 1789-cu il 14 iyul günü Bastiliyanının alınması ölkədə milli bayram elan edilmişdir. 300 mindən artıq üzvü olan Kommunist partiyası, Fransa sosialist parityası, Fransa demokratlar ittifaqı və sair aparıcı partiyalardır. 2,4 mln. üzvü olan Ümumi Əmək konfederasiyası həmkarlar ittifaqı isə böyük təşkilatlardan sayılır.

Əhalisinin 95 %-ni fransızlar təşkil edir. Hər 1000 nəfər hesabı ilə doğum 13 nəfər, ölüm 9,0 nəfərdən çoxdur. Təbii artım 4 nəfərdən artıq deyildir. Əhalinin orta sıxlığı hər kv km-da 110 nəfər təşkil edir. Kişilər üçün orta ömür sürmə - 75,2 il, qadınlar üçün 83,1 il olmaqla Avropada 1-ci, dünyada Yaponiyadan sonra 2-ci yeri tutur. Şəhər əhalisinin xüsusi çəkisi 76 %-ə bərabərdir. Əmək ehtiyatları ümumi əhalinin 24,2 min. nəfərini əhatə edir. Bunlardan sənayedə 31,3 %, kənd təsərrüfatında 7,3%, xidmət sahəsində 61,5% işçi qüvvəsi çalışır.

Fransada 800-dən artıq aqlomerasiya qeydə alınmışdır. 3 dövlət sərhədi təmasında yerləşən Lodvi (Lotaringiya)-Atyus (Belçika)-Eş (Lüksemburq), Sen-Lui-Myuluz (Elzas)-Bazel (İsveçrə)-Lerrux və Beyl (AFR), Tyunvil (Lotaringiya)-Lyuksemburq -Mertsinq (Saar) beynəlxalq aqlomerasiyalar hesab olunurlar. Fransa dünyada qədim mədəniyyət və təhsil ənənələri ilə fərqlənən bir diyar hesab edilir. Mövcud 90 universitetdən çoxu, o cümlədən Sorbonn dünya şöhrətinə malikdir. Ölkədə hər 1000 nəfərə 30 tələbə düşür. Təhsilə hər il büdcədən 37,5%>-dən çox ayırmalar mövcuddur ki, bu da Avropada ən yüksək göstərici hesab edilir. ETİ-nin nəticəsində Sofiya-Antipolis (160 müəssisə), Moblan (140 müəssisə), Monpel (65 müəssisə), Annesi (20 müəssisə) texnopolisləri yaradılmışdır. Yaşlı əhalinin sosial strukturunda çinovniklər, ziyalılar, qulluqçular - 37 %>, fəhlələr - 14,7 %>, kənd təsərrüfatı istehsalçılan - 1,6 %, pensionerlər - 21,1 %, tələbələr, hərbiçilər, işsizlər- 25,6 % xüsusi çəkiyə malikdirlər. İşsizlərin 11,8 % olması Fransanı Avropada 5-ci yeri tutmağa səbəb olmuşdur. İşçilər ən çox yaşı 25-ə qədər olan gənclər arasında, heç bir ixtisası olmayanlar və kənd təsərrüfatında çalışanlar arasında, qadınlar arasında müşahidə edilir. Dövlət dili fransız dilidir.

İqtisadi potensialına görə Fransa Avropa ölkələri arasında AFR-dən geri qalır. Sənaye ölkəsi sayılan Fransada kənd təsərrüfatının, eiəcə də qeyri-istehsal sahələrinin də iqtisadi inkişafda böyük rolu vardır. ÜDM-də xidmət sahələri - 69 %, sənaye 26 %>, kənd təsərrüfatı-3 % təşkil edir. İqtisadiyyatın prioritet sahələrindən aviakosmik və hərbi sənaye kompleksləri, avtomobil sahəsi, parfümeriya, yeyinti kompleksi və telekommunikasiya xüsusi yer tutur. ÜDM-nin 2,24%-i elmi-

tədqiqat, konstruktur işlərinə ayrılır. Elmi-tədqiqat və konstruktor işlərindən ayrılan vəsaitin 50 %>-dən artığı emal sahəsində farmoseptikaya, aviakosmik sənaye kompleksinə, informasiya texnikasına, rabitəyə sərf edilir. Dünya bazarlarında Fransanın elm tutumlu məhsullarının xüsusi çəkisi - 8 %>-dirsə, biotexnologiyanınkı 10 %>-dən az deyildir. Ölkə iqtisadiyyatında bir neçə sənaye monopoliyalarının və banklarının rolu əvəzsizdir.

Bunlardan Elf-Akiten (neft', kimya sahəsi), Reno (avtomobil), Alkatel (telekommunikasiya və nəqliyyat), Yeneral dezo (su təsərrüfatı), PSA (avtomobil), Total (neft, kimya), Lionnez dezo (su təsərrüfatı), Pejo (avtomobil), Ron Pulenk (kimya), Buqe (tikinti), Elf-Akiten (neft-kimya) kompaniyalarının böyük rolu vardır.

Fransada bank işi də yaxşı inkişaf edən sahələrdənbir. Dünyanın 25 tanınmış bankından dördünü fransız bankları təşkil edir. Başlıca bank əməliyyatlarının aparılmasına görə Paris dünyada 5-ci yeri tutur. 360 Fransa bankının 10 mindən artıq filialları vardır. «Kredi-Lionne» və «Sosete General» aparıcı Paris bankları əmanətlərin çoxunu toplayırlar. Xarici investisiyalar da çox fəal yerləşdirilmişlər. Xarici TMR-ları xidmət sahəsində çalışanların 25 %>-ə qədərini özünə cəlb etmişdir. İstehsalın mərkəzləşdirilməsinə görə Frans'a AFR və Böyük Britaniyadan geri qalır. İxracat məhsullarının 80 %o-dan çoxunu sənaye məhsulları tutur. Yüksək inkişaf etmiş sənaye - aqrar ölkəsi olan Fransa dünya iqtisadi inkişafında ən çox sənaye məhsulları ilə iştirak edir. Sənaye strukturu mürəkkəb olmaqla yanacaq-energetika, maşınqayırma, metallurgiya, kimya, neft-kimya, meşə, tikinti, habelə yüngül və yeyinti sahələrindən ibarətdir. Aparıcı yeri istehsal vasitələri istehsal - ağır sənayenin əsasən emal sahəsi tutur. Fransa sənayesi enerji və maşınlarla təchizatında dünyada ABŞ, Yaponiya və AFR-don geri qalır. Ölkə texniki-iqtisadi göstəricilərinə görə ağır sənayedə geri qalsa da yüngül və yeyinti sənaye sahələrinin xüsusi əhəmiyyəti vardır. Onlar Fransa sənayesinin qədim sahələrini təşkii etməklə toxuculuğu (xüsusilə ipək parça), paltar sahəsini, tualet məmulatları sahəsini, zinət əşyalarını - əlcək, ətriyyat, zərgərlik əşyalarını və s.ni əhatə edərək əvvəllər ölkə ixracatında əsas məhsullardan hesab olunurdular. Yerli təsərrüfat sahələri isə metallurgiyadan, maşınqayırmadan (xüsusilə təyyarə sahəsi),

elektrotexnikadan, elektron sənayesindən, kimyadan, neft-kimyadan, neft emalından, hərbi sənayedən, aerokosmik sahədən, süni ipəkdən, plastik kütlələrdən, sintetik parçalardan ibarətdir.

Hər bir ölkənin, o cümlədən də Fransanın iqtisadi inkişaf barometrini onun yanacaq-energetika kompleksinin inkişaf səviyyəsi göstərir. Ölkənin enerji balansında neft - 40 %, elektroenergetika - 35,5 %, qaz - 13,7 %, kömür - 6,3 %, alternativ enerji növləri - 4,7 % xüsusi çəkiyə malikdir. Fransa Avropada ən çox elektrik enerjisi ixrac edən ölkə hesab edilir. Onun illik ixracatı - 38 % və ya 65 mlrd. kvt saatdan artıqdır. İtaliya, Böyük Britaniya, AFR Fransadan elektrik enerjisi idxal edən dövlətlərdir. Hətta fransız elektroenergetikası əsasında. Almaniyanın Lüdviqsxafen şəhərində BASF firmasının nəhəng Zavodu işləməkdədir. Enerji daşıyıcılarına görə yerli mənbələr hesabıının Fransanın tələbatının - 49%-i ödənilir. İldə lotaringiyadan, Mərkəzin Cənub hövzəsindən 6,5 mln. t kömür hasilatı ilə bərabər ABŞ-dan, Avstriyadan, CAR-dan 13 luix... tondan çox hazır məhsul alınır. Çünki daxili kömür hövzələrində laylar çox nazik, keyfiyyətsiz olduğundan gətirmə yanacağa üstünlük verilir.

Başlıca kömür hasil edənfirma «Şarbonaj de Frans»dır. Neft hasilatı yerli mənbələr hesabına-2,0 mln. ton təşkil etsə də hər il 100 mln. tondan artıq məhsul idxal olunur. Səudiyyə Ərəbistandan, İrandan, Norveçdən, Böyük Britaniyadan, Əlcəzairdən, Konqodan, Qabondan, Nigeriyadan, BƏƏ-dən neft idxal olunur. «Elf-Akiten», «Fransanın baş neft komnaniiyası) (KFP), eləcə də «Total» kompaniyaları sahil zonalarında yerləşən Marsel, Qavr, Bordo, Strastburq şəhərlərinin neft emalı zavodlarında müxtəlif növ neft məhsullarının alınması ilə məşğuldurlar.

Niderlanddan, Böyük Britaniyadan, Norveç və Əlcəzairdən idxal etməklə yerli Lak mədənlərindən ildə - 4,0 mlrd. kubmetrə qədər qaz istehsal edə bilir. RF-dən hər il 11,0 mlrd. kub m. təbii qaz idxai edir. Ümumiyyətlə, ölkə hər il 42,0 mlrd.kub m. qaz almalı olur. Qaz hasilatı ilə «Qaz de Frans» firması məşğul olur.

Son illərdə elektroenergetikanın məhsul həcmi 540 mlrd. kvt saata çatmaqla Fransa dünyada 8-ci yerə çıxmışdır. Fransa dünyada ən çox elektrik enerjisi ixrac edən ölkələrdən biri hesab edilir. Çünki onun elektrik enerjisinin illik ixracatı 73 mlrd. Kvt saatdan

çoxdur. Ölkədə yanacaq-enerji resursları ilə kasıbçılıq AES-lərə üstünlük verilməsinə səbəb olmuşdur. AES-lər, əsasən yerli La-Kruazyer, Lodev uran filizlərindən, eləcə də Nigerdən, Qabon və CAR-dan gətirmə xammallardan istifadə edərək illik elektrik enerji hasilatının 78,5 %-ni - 375 mlrd. kvt saatını verə bilir. Fransada 63 bloklu AES-lərin 63 mln. kvt gücü vardır. Son illərdə onların sayı 63-ə çatmışdır. AES-lər illik elektrik enerjisi hasilatına görə ABŞ-dan geri qalsa da illik elektrik enerjisinin faizlə çəkisində ancaq Litvadan sonrakı yeri tutur. AES-lər demək olar ki, ölkənin hər bir rayonunda fəaliyyət göstərir. Bu sahədə, xüsusilə, Rona, Luara çayları hövzələri fərqlənirlər. «Kojema», «Framatem» enerji kompaniyaları bu sahəyə rəhbərlik edirlər. Əldə olunan elektrik enerjisinin 14,3 %-ni Şərqi Fransada, Alpda, Rona və Reyn çaylan üzərində hər birisinin gücü 300-500 min kvt arasında dəyişən SES-lər verir. İES-lər az olsalar da kömür və mazut əsasında elektrik enerjisinin alınmasında iştirak edirlər. Onlar başlıca olaraq, iri şəhərlərdə, kömür hövzələrində, dəniz limanlarında yaradılmışlar. Ənənəvi elektrik enerjisi mənbələri ilə yanaşı Franşada alternativ mənbələrdən də istifadə olunur. Bunlara geotermal, sularm qabarma-çəkilməsi, günəş enerji mənbələri aiddir. Qabarma elektrik stansiyası 1966-cıı ldə La-Manş sahillərininiri Rans sayı mənsəbində yaradılmışdır. Rans İl-de-Frans və Akvitaniyanın 200 m-ə yaxın əhalisi Geotermal elektrik stansiyasından bəhrələnirlər. 150° dərəcə istiliyi olan yeraltı termal sulardan birbaşa binaların qızdırılmasında istifadə olunur. Ölkə əhalisinin 100 mindən artığı Günəş elektrik stansiyasmm verdiyi enerjidən gərəklənirlər. Pireneydə yaradümış günəş elektrik stansiyasının baha başa gəldiyindən fəaliyyəti dayandırılmışdır. Paris ölkənin əsas enerji şəbəkəsi rolunu oynayır. Qeyd etmək lazımdır ki, yaradılmış birləşmiş elektrik şəbəkəsi nəinki daxili istehlakı əlaqələndirir, habelə qonşu dövlətlərin elektrik şəbəkəsi ilə də birləşdirilmişdir. Fransanın illik yanacaq və enerjiyə olan tələbatı - 330 mln. tut təşkil etsə də, bunun 210 mln. tutu istehlakı ödəmək məqsədi ilə idxal olunur. Yerli hasilat 170 mln. tutdan çox deyildir.

Metallurgiya kompleksi ağır sənayenin aparıcı sahələrindən biri olaraq yerli və gətirmə xammallara əsasən fəaliyyət göstərir. Onun ənənəvi rayonlarından hesab edilən Şimal və Lotaringiyada

yerli kokslaşan kömürün və dəmir filizlərinin uzlaşması məhsul istehsalının kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəkliyinə səbəb olur. Eləcə də Lyo Kryozo və Kaen (Normandiyada) metallurgiya rayonlan ildə 14 mln. tona qədər çuqun, 20 mln. tondan çox polad istehsal etməyə kömək edirlər. Metallurgiya müəssisələrinin tam fəaliyyətinin həyata keçirilməsi üçün ildə 20 mln. tondan artıq dəmir filizi idxal olunur. Hal-hazırda qara metallurgiya sahəsində ancaq mini (xırda) zavodların tikilməsinə üstünlük verilir ki, onlar da başlıca olaraq metal qırıntılarının əmələ gəlməsi ilə əlaqədar olaraq maşınqayırma müəssisələrinə yaxın yerləşdirilirlər. «Yuzinor-Sasilar» metallurgiya kombinatı monopoliyalıq edir.

Daha çox enerji və xammal tutumlu sahə olan əlvan metallurgiyada aparıcı yeri alüminium sahəsi tutur. İldə 0,9 mln. ton məhsul verən bu sahə Provansının boksitlərinə, dağ çaylarının elektrik enerjisinə əsaslanır. Mərkəzi massivin İssuari sahəsində də fəaliyyət göstərən alüminium zavodu istehlakın ödənilməsinə yönəldilən məhsul istehsal edir. İldə Fransa-0,6 mln. ton mis məhsullarını xaricdən almalı olur.

Maşınqayırma Fransa təsürrüfatının döyünən ürəyi, düşünən beynidir. Çünki burada elektrotexnika, elektronika, metalkəsən dəzgahlar, gəmilər, aviakosmik və hərbi sənaye kompleksləri, avtomobil başlıca məhsul verən sahələr kimi tanınırlar. Maşınqayırmada ölkə fəhlə və ışçi qüvvəsinin 2/5-si çalışır. Franskont sahəsi, Paris rayonu, Rona-Alp regionu daha çox maşınqayırma məhsullarının olması ilə tanınırlar. Maşıqayırmada ən prioritet sahələrdən sayılan aviakosmik kompleksdir. Bu sahədə başqa ölkələrlə korporasiya və qabaqcıl texnologiyanın tətbiqi keyfiyyətin yüksəldilməsinə, maya dəyərin aşağı salınmasına səbəb olur. Belə hal dünya bazarında ən çox gəlir mənbəyinin yaranması deməkdir. Avtobusların istehsalına xidmət edən «Erbas industri» layihəsində SNEKMA, «Aero-spasyal», «Mesye» fransız firmaları iiə yanaşı Almaniyanın «Daym-ler-Bents», ingilislərin «Britiş Erspeys», ispanların «Kasa», hollandların «Fokker» fırması fəal iştirak edirlər. Həmin avtobuslar Tuluzda, Paris aqlomeriyasında istehsal olunurlar. Avropa İttifaqı ölkələrinin peyklərinin buraxılmasında köməklik edən yerli «Arian» kosmik raketlərin

fəaliyyətinin 60 %-ni Fransa maliyyələşdirir. Kosmik raketlərin buraxılışında eyni zamanda nəhəng - «Dosso Aviason» və «Sektant Avionik» firmaları da fəaldırlar. Tuluzda fəaliyyət göstərən «Aerospasyal»yə Bordo aqlomerasiyasındakı zavodlar aerokosmik texnikanın istehsal mərkəzləri hesab olunurlar. SNEKMA müəssisələri əsasən Paris aqlomerasiyası ərazisində yaradılmışdır.

Fransa, hərbi sənaye məhsulları ixracatma görə dünya ölkələri arasmda birinci 5-liyə daxildir. Belə ki, o, ən çox silah və hərbi texnika satışı ilə dünyada tanınır. İnformatika vasitələri buraxüışı «İBM-Frans», «Byul», «Xyulett-Pakkard-Frans» firmalarma həvalə edilmişdir. Kompüter quraşdırılması zavodu Monpele şəhərində olmaqla, «İBM-Frans» firmasına məxsusdur.

Fransa ildə 620 mln. dollar dəyərində müxtəlif dəzgahlar buraxır ki, onun da 200 mln. dollar dəyərində olanını ixrac edir.

Gəmiqayırma, əsasən xarici sifarişlərin yerinə yetiriməsilə nəhəng quru yük daşıya bilən gəmilər istehsalı ilə məşğuldur. Hərbi gəmilərin buraxılması ilə Brest, Şerbur, Tulon zavodları tanınır. Ölkə, eləcə də dünyada elektrovoz, vaqon və başqa lokomativ maşınqayırma məhsullarının ixracatı ilə də məşhurdur.

Fransa sənayesində avtomobili maşınqayırması xüsusi yer tutur. Hər il istehsal etdiyi 3,6 mln. avtomobilin yandan çoxu ixrac edilir. Onun ən böyük firmaları «Reno», «Pejo-Sitroyen», «Fiat-Frans», «Ford- Frans» hesab edilir. «Rono» zavodu Parisətrafı Bulon-Biyankurda yerləşərək 46 min işçiyə malikdir. Onun digər zavodları Lion və Normandiya rayonlarında fəaliyyət göstərir. Trans milli korporasiya hesab edilən «Rono»nun xarici filiallarında 400 min işçi çalışır. Belə filiallar İspaniyada, Portuqaliyada, Belçikada, Sloveniyada, Mərakeşdə yaradılmışdır. Lion rayonunda fəaliyyət göstərən «Reno Boikyul» firması əsasən avtobuslar, yük maşınları buraxılışı ilə tanınır. «Pejo» firması Monbelyar-Soşo şəhərində yerləşir ki, o da 20 min nəfər işçi qüvvəsinə malikdir. «Pejo»nun Paris regionunda, Lotaringiyada, eləcə də ölkənin şimalında da zavodları vardır. 12 mindən artıq işçi qüvvəsi olan «Sitroyen» zavodu Sartre-de-Bretan şəhərində yaradılmışdır. Ölkənin avtomobil parklarında 32 mln-dan artıq avtomobil vardır. Hər 1000 nəfərdən 440 nəfəri avtomobil sahibidir. Fransada əsasən yerli avtomobillərin alınmasına üstünlük verilir. Yerli bazarın

tələbatının ödənilməsində «Reno»-29,2 %, «Pejo»-17,7 %, «Sitron»-12,5 % çəkiyə malikdirlər. Xarici maşınların xüsusi çəkisi 46 % olmaqla «Ford», «Fiat» «Folksfagen» markalarına üstünlük verilir. Yapon avtomobillərinin 3,2 %-dən çox çəkisi yoxdur.

Atom enerjisi ilə məşğul olan kommisariat bu sahədə elmi-tədqiqat işlərinin aparılmasını həyata keçirir. «Franatom» atom reaktorları istehsalı ilə məşğuldur. Rona çayı hövzəsində yerləşən Pyerlat və Markul atom sənayesinin mərkəzləri sayılırlar.

Bu illərdə kənd təsərrüfatının yüksək səviyyədə mexanikləşdirilməsi, onun məhsullarına olan tələbatın artması, traktorlar üçün Qrenoblda neftmaşınqayırma avadanlıqları düzəldə bilən zavodun yaradılmasına səbəb olmuşdur. Fransa, Qərbi Avropada ən böyük kombayn parklarına malik olan dövlət hesab edilir.

Ümumiyyətlə, Fransa maşınqayırması Parisdə, Lion və Şimal rayonlarında özünün yüksək konsentrasiyalılığı ilə digər Qərbi Avropa dövlətlərindən fərqlənməkdədir.

ETİ-nin nailiyyətlərinin yüksək səviyyədə tətbiqi, təsərrüfatın bütün sahələrində kimya məhsullarının daha çox işlədilməsi kimya sənayesinin 5 dəfədən çox artmasına səbəb olmuşdur. Onun kübrə, rezin, plastik kütlə (ildə 1,0 mln. ton), sintetik kauçuk (0,6 mln. ton), müxtəlif liflər, yuyucu toz və müxtəlif vasitələr, tibb ləvazimatları, ətriyyat, soda, turşu, duz, meşə-kimya, kömür-kimya sahələri müxtəlif coğrafi yerləşmələrə malikdir. Müəssisələrin yerləşməsi xammalla, tələbatla, çox işçi qüvvəsinin mövcudluğu ilə, əlverişli mövqe ilə bağlıdır. Belə ki, yerli xammallar əsasında Şimalda -kömür-kimya, Lotaringiyada kömür-kimya və soda istehsalı, Elzasda - kalium kübrəsi (ildə 3,0 mln. t), Landda meşə-kimya, gətirmə xammala əsasən Marsel, Qavra, Bordo və Aşağı Sena sənaye qovşaqlarında neft-kimya, ucuz elektrik enerjisi əsasında Alpda, Pirineydə, Lakda elektrokimya, Lion rayonunda toxuculuğun inkişafı müxtəlif növ kimya istehsalına səbəb olmuşlar. Paris özünün əczaçıhq, ətriyyat məhsulları ilə dünya şöhrəti qazanmışdır. Avtomobil şinləri istehsalı da ölkənin paytaxtı üçün xarakterikdir. Klermon-Ferran və Monlyussonda isə iri rezin məmulatları zavodlarının varlığı ucuz yerli işçi qüvvələrinin olmasına əsaslanmışdır. Ölkədə - Lion və

Strastburq şəhərlərindən keçən boru kəmərlərinin mövcudluğu əsasında yeni-yeni kimya müəssisələrinin yaradılması həyata vəsiqə almışdır. Ümumiyyətlə, ölkənin kimya sənayesində -«Ron-Pulenk», «Sen-Qoben», «Elf Atoşem», «Er Likid» adlı nəhəng firmalar fəaliyyət göstərirlər. Əczaçılıq və ətriyyat sahəsinin aparıcı firmaları «Opeal», «Russel», UKLAF, «İv Roşe», «Sandor» hesab olunurlar.

Yüngül sənayenin ən qədim sahələrindən birini - toxuculuğu qeyd edə bilərik. İri şəhərlərdə müəssisələrə malik olsa da son vaxtlar pambıq parça, yun parça toxuçuluğu xeyli geriləmişdir.

Toxuculuğu inkişaf etdirmək üçün ABŞ-dan pambıq, Avstraliyadan, CAR-dan yun almaqdadır. İldə 0,5 mlrd. kv metr pambıq parça toxunur (adambaşma 7,8 kv m). Son vaxtlar tikili mallar və modalar məhsul buraxılışında üstünlük təşkil etməkdədir. Ümumiyyətlə, toxuculuq əsasən 3 başlıca rayonda: Lill, Rube, Turkuen şəhərlə-rində; Elzas və Voqez də (Myuluz şəhərində); Lion şəhəri və Rona hövzəsi hissələrində cəmlənmişdir. Təbii ipək toxuculuğu Lionda tut baglarının olmasından baramaçığın mövcudluguna əsaslanır. Eləcə də ayaqqabı buraxılışı iri şəhərlərdə fabriklərə malik olmaqla keyfiyyətli məhsulları ilə dünya şöhrəti qazanmışdır.

Yeyinti sənayesi əhalinin yerləşməsi ilə əlaqədar olaraq ölkənin hər yerində müəssisələrə malikdir. Buraxılan məhsulların çeşidi çox, keyfıyyəti isə daha yüksəkdir. Ümumiyyətlə, ölkədə 400-dən artıq növə malik olmaqla pendir, şəkər çuğunduruna əsaslanan şəkər, müxtəlif növ konservlər, şokolad, çörəkbişirmə, qənnadı, spirt, şərab məhsulları aparıcı sahələrdir. Hər il 52 mln. hektolitr üzüm şərabını yerli xammallar hesabına əldə edir. Adambaşına düşən üzüm şərabına görə - 100 litr, eləcə də keyfıyyətinə görə Fransa dünyada 1-ci yeri tutur. Ölkədə konyak, bordo, kaqor, pivə, almadan almalı sidr, şampan şərabları dünya əhəmiyyəti kəsb edirlər. Şəkər çuğundurundan alman şəkərin miqdarına görə - 4,5 mln. ton kapitalist ölkələri içərisində 2-ci yerə malikdir. O, eyni zamanda İspaniyadan, İtaliyadan ucuz üzüm şərabı da idxal edir.

Deyilənlərlə yanaşı Fransa iqtisadiyyatının inkişafında meşə, tıkinti, habelə xidmət sferası sahələri də böyük rol oynayır. Meşə

sənayesində sellüloz, karton, kağız əldə edilməsi və sair aparıcı yer tuturlar. İldə 9,0 mln. ton karton istehsalı da meşə sənayesinin məhsullarından sayılır.

Dünya kənd təsərrüfatı məhsulları istehsalının 3,1 %-ni verən Fransa dünyada 5-ci yeri, Avropada isə 1-ci yeri tutur. Taxıl, mal əti, şəkər çuğunduru və yağlı bitkilər tədarükünə görə Avropa Birliyi ölkələri içərisində birinci, şərab əldə edilməsinə, şəkər çuğunduru tədarükünə görə isə dünyada ikinci, süd sağımına görə Avropada ikinci yerdə durur. Belə ki, dünyada buğda tədarükünə və ixracatına görə qabaqcıl yer tutur. Arpa və buğdanın 2/3 - si, qarğıdalı məhsulunun isə yarısından çoxu ixrac olunur. Fransa buğda, şəkər, şərab, mal-qara yağı, mal və toyuq əti ilə əhalisini tam təmin edə bilir. Kənd təsərrüfatı strukturu göründüyü kimi çoxsahəliliyi ilə (o cümlədən gülçülüklə) seçilərək demək olar ki, əkinçilik və heyvandarhq illik məhsul tədarükündə biri-birindən bir o qədər də fərqlənmirlər.

Kənd təsərrüfatında ümumi ərazinin 3/5-i istifadə olunur. Belə ki, kənd təsərrüfatı üçün istifadə olunan sahə 34 mln. hektardan az deyildir. Bunun 55 %-ni əkin sahəsi, 37 % -ni otlaq və biçənəklər, 8 %-ni bağçılıq, bostançılıq və üzümçülük sahəsi tutur. Əkin sahələrinin irriqasiya işlərinin aparılması və istifadə olunmayan yararsız torpaqlar hesabına daha da genişləndirilməsi mümkünlüyü vardır. Fransa bahalı şərab növlərini, pendiri, buğdanı, şəkəri, əti ixrac etdiyi halda, yemlik taxılı, xüsusilə qarğıdalını, yağlı bitkilərin toxum növlərini, üzüm şərabının ucuz növlərini, subtropik və tropik bitki məhsullarını, o cümlədən kofeni, kakaonu, çayı, tropik meyvələri, yüngül sənayenin inkişafına xidmət edən bəzi xam məhsulları (pambığı və s.) idxal edir.

Kənd təsərrüfatının taxılçılıq üçün əkilən sahənin 50%-indən artığı buğda (1/4), qarğıdalı, arpa, çovdar, yulaf becərilməsində istifadə olunur. Ölkənin hər yerində buğda becərilsə də, Sena, Luara, Haron çayları boyu yerləşən düzənliklər onun başlıca rayonları hesab edilir. Hər il 65 mln. ton taxıl məhsulu toplansa da onun 35 mln. tonu buğda məhsulu hesabınadır. Əsasən heyvandarlığın yemi üçün qarğıdalı, arpa becərilməsi Fransanın cənub-qərbində, çovdar becərilməsi ərazinin şimalında, yulaf becərilməsi isə şimal-qərb rayonlarında həyata keçirilir.

Suyun, günəşli günlərin, temperatur gedişinin münasib olduğu Rona çayı hövzəsində çəltik becərilir. Texniki bitkilərdən əsas yeri şəkər çuğunduru tutur. Onun da əkin sahələri ölkənin şimal rayonları üçün xarakterdir. Yəni onun becərildiyi rayonlar Pikardiya, Flandriya və Şimali Fransa düzənlikləri sahələridir. İldə 30 mln. tona qədər şəkər çuğunduru məhsulu toplanılır.

Ölkənin şimal və Paris rayonlarında kətan da becərilməkdədir. Yağlı bitkilərdən - raps Paris regionunda, zeytun Aralıq dənizi rayonlarında becərilir. Tütün-Elzas sahəsində, kartof - ölkənin hər yerində, xüsusilə də Bretani ərazisində, tərəvəz - Paris, Voklyuz, Finisiter ərazilərnidə, bağçılıq Normandiyi, Bretani, Elzas, Lotaringiya, Aralıq dənizi sahili, Lazur, Korsika, Provans ərazilərində becərilir. Provans əyaləti gülçülüyün vətəni hesab olunur. Fransanın La-Manş, Lanqedok (40 %), cənub-qərb (25 %) ərazilərinin Haron, Dordoni; Şarantı, Şampan, Lion, Rona-Luara-Sona çay vadiləri ərazilərində becərilən üzüm bağlarından (2,0 mln. ha) hər il 10 mln. tondan çox məhsul toplanılır. Üzüm məhsulunun toplanmasına və şərab istehsalına görə Fransa dünyada ancaq İtaliyadan sonrakı 2-ci yeri tutur. Üzümçülük təsərrüfatı Fransanın əsasən 14 aparıcı rayonunda inkişaf etdirilmişdir. Heç də təsadüfü deyildir ki, Fransanı bağlar və üzümlüklər ölkəsi adlandırırlar.

Bağlarda alma, armud, gavalı, şaftalı, albalı, ərik, qoz, zeytun, almanın dessert və xüsusi növü (yeyinti sənayesi xammalı kimi istifadə olunurlar), sitrus meyvələri və badam becərilməsinə üstünlük verilirsə, bostan və tərəvəzçilikdə - faraş tərəvəz, faraş kartof, kələm, pomidor, rəngli kələm, ənginar, qulançar, xiyar becərilməsi üstünlük təşkil edir. Fransanın Konyak şəhərində konyak firmalarının ofisləri yerləşir ki, onlar da dünyada çox tanınan «Napoleon» konyakı məhsulunu dünya bazarına istiqamətləndirirlər. Ölkənin Şampan əyalətində becərilən xüsusi növ üzümdən «Şampan» şərabı düzəldirilir. Onun dünyada tayı bərabəri yoxdur.

Fransanın Bretani, Normandiya rayonlarında almadan insanların çox xoşladıqları sidr çaxırı alınır. Eləcə də Provansada becərilən güllərdən ətriyyat sahəsində geniş istifadə olunur.

Kənd təsərrüfatının 2-ci sahəsi heyvandarlıqdır. Hər bir yer üçün xarakter olan iribuynuzlu, xırdabuynuzlu, donuz, ev quşları

saxlanılmaqla arıçılıq, baramaçılıq, balıqçılıq sahələri də inkişaf etmişdir. Ölkədə iribuynuzlular - 30 mln. başa qədər olmaqla əsasən südçülük və ətçilik istiqamətində ixtisaslaşdırılmışdır. Bu istiqamətlənmə təbii şəraitlə, digər tərəfdən də iri bazara yaxınlıqla bağlıdır. Süd və süd məhsulları ASK-da 19 % təşkil edir. Onun illik tədarükünün kəmiyyət göstəricisi - (inək südünün) - 25 mln. tona çatır. Adambaşına 430 kq süd məhsulu əldə olunur. Ət məhsullarının ASK-da xüsusi çəkisi - 18 %, spirtli içkilərin xüsusi çəkisi -24 %-dən çoxdur. İllik ət tədarükü adambaşına - 115 kq olmaqla -6,3 mln. tondan artıq deyildir. Iribuynuzlular Bretani, Normandiya, Laura, Lumuzen, Şarol rayonlarında inkişaf etdirilmişdir. Sayı - 16 mln. başa çatan donuzçuluq təsərrüfatı isə iri şəhərlər ətrafında, kartof və şəkər çuğunduru becərilən rayonlarda inkişaf etdirilməkdədir. Xırdabuynuzluların (10 mln. baş) inkişaf etdirildiyi fermalar isə Mərkəzi massivdə və ölkənin cənub-qərb hissəsindədir.

İri quşçuluq fabrikləri Paris rayonunun şimal və qərb hissəsində, ayrı-ayrı iri şəhərlər ətrafında yerləşərək əhalini təzə ət, yumurta və digər məhsullarla təmin edir. Fransa ildə 2,1 mln. ton quş əti tədarük etməklə Avropada 1-ci yeri tutur.

Balıqçılıq Atlantik okeanının şimal və sahil zonasında həyata keçirilir. Onun inkişafında Konkarno, Qilvinek, Buon-Şyur-Mer, Loryan, Mazen, Olepon, Arkaşon limanları əhəmiyyət kəsb edirlər. Ölkə çaylarında farel balığı yetişdirilir.

Təbii imkanların mövcudluğu ölkədə baramaçılıq və arıçılığın inkişafına diqqəti daha da artırır.

Qeyd etmək lazımdır ki, Fransa ildə 36 mlrd. dollarlıq ərzaq və kənd təsərrüfatı məhsulları ixrac edirsə, 30 mlrd. dollarlıq ərzaq və kənd təsərrüfatı məhsullarını istehlakın ödənilməsi üçün idxal edir.

Fransa yüksək inkişaf etmiş nəqliyyat sisteminə malikdir. Müxtəlif nəqliyyat növləri şaxələnmiş konfıqurasiyaya malikdır. Bu sahədə Paris xüsusilə seçilir. Demək olar ki, ölkə paytaxtının yüksək keyfıyyətli avtomobil və iri sürətlə hərəkət edən qatarlara malik olan dəmir yollarının bütün digər şəhərlərlə əlaqəsi vardır. Bu sözləri hələlik Mərkəzi massivlə Pireneyə aid etmək gərəksizdir. Şəhərlərarası sərnişindaşımada avtomobil nəqliyyatı aparıcı yer

tutur. Onun sərnişin və yükdaşımada xüsusi çəkisi 74 %-dən az deyildir. Avtomobil yollarının uzunluğu (bərk örtüklü) 900 min km-ə bərabərdir. Yüksək keyfiyyətli 4 cərgəli avtomobil yolları çəkilmişdir. Ölkənin paytaxtı Paris Bordo, Marsel, Tuluza, Bayonna, Lion, Moluz və digər şəhərlərlə avtomobil yolları ilə birləşdirilmişdir. Avtomobil nəqliyyatının yük dövriyyəsi 160 mlrd.ton.km-dən artıqdır. Dəmiryolu nəqliyyatına xidmət edən xətlərin ümumi uzunluğu 32 min km olsa da, onun 14,2 min km-ri elektrikləşdirilmişdir. Dəmir yollarını sıxlığı hər 1000 kv km-də 58 km-dən çoxdur. Dəmir yolu ilə sərnişindaşımalarında Fransa Avropada 1-ci, yük dövriyyəsində isə - 53 mlrd.ton.km 2-ci yeri tutur. Sərnişinlərin ən çox daşındığı xətt Paris-Lion-Marsel hesab edilir ki, orada da yüksək sürətə (200-500 km saat) malik olan lokomativ maşınlarmdan -qatarlardan istifadə olunur. Fransada yüksək sürətli dəmir yolu xətləri 1987-ci ildən çəkilməyə başlamışdır. Bu Paris-Lion xəttidir. Onun uzunluğu 417 km-dən az deyil. Sonralar Paris-Lion xətti Marselə qədər uzadılaraq uzunluğu 878 km-ə çatan Cənub-Şərq magistralı alınmışdır. Fəaliyyətdə olan Cənub-Qərb magistralı («Akvitaniya») Paris-Bordo (700 km) xəttindən ibarətdir. Paris -«Sever» (Belçika sərhədində), Paris-Strasburq (460 km) - «Şərq», Paris-Bretan («Qərb») yüksək sürətli dəmir yolları xətləri də sərnişin və yükdaşımalarında fəal iştirak edirlər. Ölkədə böyük sürətli dəmir yolu xətlərinin istifadəyə verilməsi əsasən, iqtisadi səmərəlilik və vaxta qənaət olunmasına əsaslanır. Gələcəkdə, bu xətlər qonşu ölkələrin böyük sürətə malik olan dəmiryolu xətləri ilə birləşdirilməsi həyata keçiriləcəkdir. Artıq Fransa - Belçika, Fransa - Böyük Britaniya, Fransa - İtaliya, Fransa - AFR («Reyn - Rona»), Fransa - İspaniya arasında bu plan həyata keçirilmişdir.

Daxili su yolları - çaylar, kanallar, suvarma kanalları bir-birilə əlaqələndirilərək demək olar ki, ölkənin hər yerində mövcuddur. Daxili su yollarının uzunluğu 10 min km-rə yaxın olmaqla daxili yükdaşımada 3% çəkiyə malikdir. Burada əsasən taxıl, tikinti materialları, kömür daşımalarına üstünlük verilir. Daşımalarda Sena -Sona kanalı fərqlənir. Paris, Strasburq, Ruan, Bordo, Qavr, Dyun-kerk və Mets başlıca çay limanlarındandır. Fransanın dəniz flotunda ildə 90 mln. tona yaxm yükdaşıyan 210

müxtəlif yükgötürmə qabiliyyətli gəmi vardır. Yük tutumuna görə o dünyada 25-ci yeri tutur. Dəniz limanları olan Marselin yükdaşıma gücü - 95 mln. ton (62,3mln. ton neft məhsulları), Qavrın - 56,2 mln. ton, Dyurkerkin -40 mln. ton, Nant - Sen - Nazerin - 25 mln. t, Ruanm - 24 mln. ton, Bordonun - 9 mln. tondur. Deyilənlərlə yanaşı ixtisaslaşmasına görə çox da böyük olmayan Antifer (neft), Bulon (kömür, şəkər), Brest (ev quşları ixracatı), Şerbur və Denn (meyvə-tərəvəz) , Sen-Malo (kübrə), Kole (kömür, metal); sərnişin daşımalarına görə La-Manş sahillərində Kale- 20,1 mln, Bulon - 900 min sərnişin ; hərbi-dəniz bazası - Brest və Tulon limanları da fəaliyyət göstərir.

Fransa, tələbatı ödəyə bilən, müxtəlif istiqamətli boru kəmər nəqliyyatı ilə Qərbi Avropada xüsusi yer tutur. Ölkədə neft kəmərləri 7,5 min km uzunluğa malikdirsə, qaz kəmərlərinin uzunluğu 25 min km-dən az deyildir. Yükdaşımada boru kəmər nəqliyyatının xüsusi çəkisi 2 %-dən artıqdır. Qərbi Avropada ən böyük neft kəməri hesab edilən Fos-Strasburq - Karlsruenin (AFR) uzunluğu 765 km-dən artıqdır. Neft emalı zavodlarının əksəriyyəti onun üzərində yerləşir. Parisə neft və neft məhsulları Qavrdan daxil olur. Aralıq dənizi limanları 1990-cı ildən Əlcəzairdən maye qaz alaraq ölkənin daxili rayonlarına boru kəmərləri vasitəsilə istiqamətləndirir. Eyni zamanda tələbat Hollandiyadan, Şimal dənizindən, Rusiyadan idxal olunmuş qaz hesabına da ödənilməkdədir. Yerli Lak qaz mədənləri də bu sahədə az rol oynamır.

Ən bahalı nəqliyyat hesab edilən hava nəqliyyatı ilə çatdırılması tez gərək olan yüklərin daşınmasına üstünlük verilir. Hava daşımalarına görə Fransa dünyada 5-ci yeri tutur. Çünki o, ildə 100 mln. nəfər sərnişin, 1,4 mlrd. ton yük daşıyıyır. Fəaliyyətdə olan Şarl de-Qol hava limanı ildə 50 mln. nəfər sərnişinə xidmət edir. Bundan başqa, Orli, Nitsa, Marsel, Lion, Tuluza, Bordo, Paris hava limanları da idxal və ixrac əməliyyatlarında fəal iştirak edirlər.

Turizm və rekreasiya təsərrüfatının inkişafı və yerləşdirilməsində Fransa dünyada tanınan ölkələrdəndir. Bu təsərrüfatın illik gəliri 5,7 mlrd. frank olmaqla ildə 75,5 mln-dan artıq turisti qəbul edə bilən 900 min işçisi vardır. Turizm və rekreasiya təsərrüfatının inkişafında 14 mindən çox abidə və

heykəltaraşlıq mənbələri, 1200-dən cox muzey, 6 milli və 25 regional park, 100-ə qədər qoruq, xeyli sayda yasaq mənbələrinin böyük rolu olmuşdur. Paris özünün muzeyləri, qədimi tikililəri, yaşayış məhəllələri və mədəni yaşayış həyatı ilə dünyanın 2-ci mərkəzi hesab edilərək hər il 25 mln-dan çox turistin gəlməsinə şərait yaradır. Ölkədə dağ kurort sahələrinin, dağlıq sahələrin mövcudluğu, iqlim kurortlarının, isti bulaqların, qeyzerlərin mövcudluğu, çimərlik müddətinin çoxluğu, suların qabarma-çəkilməsinin, idman düşərgə bazalarının, Aralıq dənzi kurort zonasının, dəniz sahili çimərliklərin, Lazur sahilin, ilboyu münasib temperatur şəraitinin mövcudluğu turizm və rekreasiya sahəsinin ildən ilə daha da artmasına imkan verir. Ümumiyyətlə, Qərbi Avropada turizm-rekreasiya rayonlaşması aparılarkən Qərb, Cənub, Mərkəz-Şərq, Şimal rayonlarının ayrılmasına üstünlük verilir.

Bunların daxilində isə sahil zonası, dağlıq, göllərətrafı və çay hövzələri üzrə ixtisaslaşmanın ayrılması məqsədyönlü sayılır. Fransada da deyilənlərin hamısı turistləri özünə cəlb edən mənbələrdir. Ona görə də Aralıq dənizi hövzəsində turizm təsərrüfatının inikşafında Fransa ilə İtaliya arasında liderlik uğrunda həmişə mübarizə getmişdir.

Xarici-iqtisadi əlaqələrdə bazar iqtisadiyyatı, yerli istehsal növləri, yerli və gətirmə xammal və yanacaq resursları, beynəlxalq təşkilatlarda daha çox iştiraketmə və sair göstəricilər Fransanı dünya iqtisadiyyatına daha çox inteqrasiya etməsinə şərait yaradır. Xarici ticarətin ÜDM-də xüsusi çəkisi bu əsasdan da - 22 % təşkil edir. Daha doğrusu, ixracat - 305,0 mlrd. dollar təşkil edirsə, idxalatın çəkisi - 270 mlrd. dollardan çox deyildir. Xarici ticarət saldosunun balansı müsbətdir. İxracatda hazır məhsullar - 79 %, o cümlədən müxtəlif maşın və texniki avadanlıqlar - 40 %, kənd təsərrüfatı məhsulları - 16,5 %-dən az deyildir. İdxal olunan məhsullarda isə hazır məhsulların xüsusi çəkisi - 76 %, ərzaq məhsullarının xüsusi çəkisi 11,2 %, enerji daşıyıcılarının - 7,7 % xüsusi çəkisi mövcuddur. İdxal olunan məhsullarda Avropa Birliyi xüsusi rol oynayırsa (64 %), ixracatda da onların rolu üstünlüyə malikdir. (64 %). Başlıca ticarət tərəfdaşları- AFR, İtaliya, Böyük Britaniya, İspaniya, Benilyuks ölkələri, ABŞ, Yaponiya, Mərakeş sayılır. Fransanın Parisdə birbaşa investisiya qoyuluşu - 130 mlrd.

frank təşkil etdiyi halda, xarici investisiyalarının miqdarı 110 mlrd. frankdan çox deyildir.

Fransanın iqtisadi inkişafında daxili fərqlərin mövcudluğu, təsərrüfat sahələrinin ixtisaslaşma müxtəlifliyi və s. amillər burada 7 iqtisadi rayonun ayrılmasını zəruriləşdirir. Bunlar aşağıdakılardan ibarətdir:

1. Paris rayonu emal sahəsinin qüvvətliliyi ilə, dünyanın ən böyük və gözəl şəhərə malik olması ilə, bir çox beynəlxalq təşkilatların burada yerləşməsilə, ölkənin siyasi həyatı hesab edilməsi ilə, iri aqlomerasiya olması ilə, əhali orta sıxlılığın çoxluğu ilə, kənd təsərrüfatının yüksək inkişafı ilə, yeyinti və yüngül sənayenin aparıcılığı ilə fərqlənir.
2. Şimal rayonunda toxuculuq, toxuma maşınları, dağ-mədən və dəmiryolu avadanlıqları, metallurgiya və metal emalı, ixtisaslı kadrlar, kimya, elmi-tədqiqat institutları, universitetlər mövcuddur.
3. Şərq rayonu özündə Lotaringiyanı, Elzası, Frankşkonteni birləşdirir. Burada üzüm, tərəvəz, buğda, tütün, xmel, südlük-ətlik istiqamətli heyvandarlıq, metallurgiya, kömür sənayesi, kimyanın yeni sahələri, «Pejo» avtomobil zavodu, saat, elektroenergetika, elektrometallurgiya, şin, sintetik liflər, ipək parça, yarmarka, dağ kurortu, formaseptika inkişafdadır.
4. Qərbdə Breton, Laura, Puatu-Şaranta regionu yerləşir. Başlıca olaraq kənd təsərrüfatının yüksək inkişaf etməsi ilə tanınır. Ət, süd, buğda, kartof, vələmir, tərəvəz, konyak, gəmiqayırma sahəsi üzrə ixtisaslaşmışdır.
5. Lion rayonu Rona - Alp və Overn regionunu əhatə edərək elektroenergetika, elektrometallurgiya, elektrotexnika, süni lif sahəsi inkişaf taparaq Lion, Sent-Eten, Klermon-Ferran sənaye şəhərlərinə malikdir.
6. Cənub-Qərb Akvitaniyanı, Pireneyi, Limuzeni əhatə etməklə elm tutumlu sahələrin olması ilə tanmır. Aviaraket maşınqayırması, neft, qaz, meşə, hidroenerji ehtiyatları, yeyinti, alüminium, hərbi və kimya sahələri üzrə ixtisaslaşmışdır.
7. Aralıq dənizi rayonu Provans-Lazur sahillərini, Korsikam, Lanqedoku, Russüonu özündə birləşdirir. İntensiv inkişafa

malik əmtəəlik kənd təsərrüfatı, üzümçülük, bağçılıq, qoyunçuluq, yeyinti sənayesi, şərabçılıq, informatika, universitetlər, kurort və turizm, iri aqlomerasiya, neft emalı, neft-kimya, metallurgiya, aviasiya maşınqayırması, əhali axını olması ilə tanınır.

VI. 5. İtaliya

Sahəsi - 301,2 min kv. m.

Əhalisi - 57,72 mln. nəfər

Paytaxtı - Roma şəhəridir.

ÜDM - 45 trln dollar

Hər nəfərə düşən ÜDM - 25 min dollar

İtaliya-Cənubi Avropada yerləşməklə Aralıq dənizi hövzəsi dövlətləri arasında mərkəzi mövqe tutur. Materikin Apennin yarımadasını, qitənin Sardiniya, Siciliya, Elba adaları ilə birlikdə 70-dən artıq arxipelaq və xırda - Lipar, Eqad və sair adaları əhatə edir. O dünyanın yüksək inkişaf etmiş yeddi dövlətindən biridir. İtaliya, iki məşhur coğrafi regionda - Qərbi Avropa və Aralıq dənizi regionunda özünəməxsus həyat tərzi, sosial iqtisadi inkişaf xüsusiyyətləri, məskunlaşma, spesifik təbii şərait amillərinə malik olan ölkə kimi tanınır. Onu, çox zəngin tarixə və dünya mədəniyyətindəki xidmətlərinə görə haqlı olaraq Avropa sivilizasiyasının beşiyi adlandırırlar.

İtaliyanın çox əlverişli çoğrafi və geosiyasi mövqeyi vardır. Şimaldan - 430 km məsafədə Avstriya, 740 km İsveçrə, Şimal - qərbdən - 488 km Fransa, şərqdən - 199 km məsafədə Sloveniya ilə sərhədləşir. Bununla yanaşı, İtaliya, cənubdarı, qərbdən Aralıq dənizinin, şərqdən Adriatik dənizinin suları ilə əhatələnmişdir. Ümumi sərhəd uzunluğu 1899,2 km, sahil xəttinin uzunluğu isə 4996 km.-ə çatır. Onun Aralıq dənizinin mərkəzi hissəsində yerləşməsi, Qərb və Şərq ticarət yolları astanasında mövcudluğu əsrlərdən bəri öz əhəmiyyətini itirməmişdir.

Xüsusilə də XX əsrdə Yaxın Şərq neftinin Qərbi Avropaya ötürülməsində onun rolu danılmaz olmuşdur. Şimali Atlantika

İttifaqı da (NATO) ölkənin strateji mövqedə yerləşməsindən o siyasi, hərbi məqsədlərinin həyata keçirilməsində çox gərəklənir. İtaliyanın ərazisində Avropanın iki mikrodövləti - Vatikan və San-Marino yerləşir. Deyilənlərlə yanaşı, ölkənin əlverişli dəniz sahillərinə malik olması bu hissədə əhalinin daha çox məskunlaşmasına, daxili rayonlara nisbətən bu hissənin iqtisadi inkişafının yüksək olmasına səbəb olmuşdur.

Dövlət quruluşuna nəzər saldıqda onun başında prezident durmaqla 1946-cı ildən demokratik parlament respublikası olduğunu görürük. Parlamentin hər iki palatası tərəfindən 7 il müddətə seçilən prezident 50 yaşından az olmamalıdır. İcraedici hakimiyyət Nazirlər Sovetinə məxsusdur. Ali qanunvericilik orqanı respublika Senatından və Deputatlar palatasından ibarət olan Parlamentdir. Ölkənin tərkibində - 20 vilayət ayrılır. İtaliya 1861-ci il martın 17-dən müstəqil dövlət kimi fəaliyyət göstərir.

Ölkədə 1999-cu ildən kapitalist dünyasında ən qüvvətli partiya sayılan Kommunist partiyası da fəaliyyət göstərir. İtaliya Avropa Şurasının, Avropa İttifaqının, ATƏT-in, Avratomun, NATO-nun və bir sıra digər beynəlxalq təşkilatların üzvüdür.

Ərazinin təbii şəraiti və təbii ehtiyatları iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edir. O, tipik dəniz və dağlıq ölkə sayılır. Ərazinin 1/4 hissəsini dağlar təşkil edir. İtaliya Alpları ərazinin şimalında yerləşməklə relyefi 4810 m maksimal hündürlüyə malikdir. Yarımadada hündürlüyü 2914 metrə çatan Apennin dağları yerləşir. Burada çoxlu sayda fəaliyyətdə olan vulkanlar, o cümlədən Vezuviy (1277m) və Etna (2914 m) vulkanları vardır. Dağlıq ərazilər insanların əmək fəaliyyətinin maksimum tətbiq edilməsinə imkan vermir. Ölkə ərazisinin 1/7-ni tutan ən böyük düzənlik Padan hesab edilir. Bundan başqa, çay vadilərində, sahil zorialarında ensiz düzənlik sahələri kənd təsərrüfatının inkişafı üçün imkanlar yaradır.

Yeraltı təbii sərvətlərdən kömür (ehtiyatı 1,0 mlrd. ton), neft (1,8 mln. t), qaz (18 mlrd. kubmetr), polimetal filizləri, sink, qurğuşun, kalium duzu, tikinti materialları xammalları, şpat, xörək duzu ehtiyatları aşkarlanmışdır.

Ölkənin iqlimi yumşaq və istidir. Alpın ətəklərində orta iyul temperaturu +22°S, Padan düzənliyində + 24°S, adalarda +28°S

temperatur qeydə alınmışdır. Orta yanvar temperaturu 0°S ilə 12°S arasında dəyişir. Atmosfer yağıntıları 600-3000 mm arasındadır. İqlim elementlərinin illik gedişi insanların əmək fəaliyyətlərinin tətbiqi üçün münasibdir. İqlimin gedişi, ərazi relyefi, Tirren, Adriatik, İon hövzələrinə malik 652 km uzunluğu olan Po, Tibr çaylarının və onların qollarının əmələ gəlməsinə səbəb olmuşdur. Suvarmada elektrik enerjisinin alınmasında, nəqliyyatda çaylardan istifadə olunur. Ölkədə Laqo - Madjore, Komo, Qarda gölləri də vardır.

Qonur meşə, allüvial, dağ-meşə torpaqları əkinçilikdə geniş istifadə olunur.

Yüksək dağlıq sahələri nəzərə almasaq ölkə ərazisində mədəni landşaft üstünlük təşkil edir. Meşə ümumi ərazinin 22 %-ni örtmüşdür (başlıca olaraq dağlıq ərazilərdə).

Əhalinin 94 %-i italyanlardan ibarətdir. Dövlət dili italyan dilidir. Əhalinin orta sıxlığı 192 nəfərdir. Təbii artım - 0,12 %-dir. Kişilər arasında orta ömr sürmə 76,1 il, qadınlar arasında bu göstərici - 82,6 ilə bərabərdir. Şəhər- kənd əhalisinin nisbəti - 67 : 33 kimidir. Fəal əhali 22,8 mln. nəfərə qədərdir. Xidmət sahsində işçi qüvvəsinin 61 %-i, sənayedə - 32 %-i, kənd təsərrüfatında 7 %-i çalışmaqdadır. Əsasən Şimali Afrikadan, Şərqi Avropadan və digər ölkələrdən olan immiqrantlar 1,1 mln-dan artığa çatmaqdadır. Milan (3,8 mln. nəfər), Roma (3,1 mln. nəfər), Neapol (3,1 mln. nəfər) ən böyük aqlomerasiyalardandır.

Təsərrüfatın ümumi xarakteristikasına fikir verdikdə İtaliyanın yüksək inkişaf etmiş dünya əhəmiyyətli sənaye və aqrar ölkə olduğunu söyləyə bilərik. Hər nəfərə düşən daxili məhsulun illik miqdarına görə İtaliya Böyük Britaniyadan bir neçə dəfə qabaqda olsa da Almaniyadan, Fransadan, hətta Avropanın inkişaf etmiş bir sıra digər ölkələrindən geri qalır. Sənayedə çalışanlar 30 %-dən çox deyildir. İtaliya sənayesinin əhəmiyyətli hissəsi FİAT, «Montedi-son», «Pirelli» və digər iri monopoliyaların əlində cəmləşmişdir. İqtisadiyyatında dövlət strukturunun xüsusi çəkisi əhəmiyyətli dərəcədə yer tutmaqla dövlətin nəzarəti də ona çox böyükdür.

Ölkədə sənaye məhsulları istehsalının illik dəyəri 330 mlrd. dollar təşkil edir. Aksioner birliklərdə ixtisaslaşdırılmış dövlət

orqanlarının rolu ildən ilə daha da artır. Deyilənlərlə yanaşı qonşu ölkələrdən fərqi hasilat sahəsi ilə emal sahələri arasında çox uyğunsuzluğun olmasıdır.

Belə ki, hasilat sahəsi bir o qədər də seçilmir. Çünki təbii sərvətlərin çeşidi çox olsa da onların ehtiyatı artıq tükənmək üzrədir. Hasilat sənayesini inkişaf etdirmək üçün əsasən yerli qurğuşun və sink ehtiyatlarından istifadə olunur. Hər il - 16 mln. tona qədər dəmir filizi idxal edir. Mərmər, qranit, tuf, trafertin, sement üçün müxtəlif xammallardan tikinti sənayesində geniş istifadə olunur.

Emal sənayesi tamamilə gətirmə xammallara əsaslanır. Onun maşınqayırma, elektroenergetika, metallurgiya, kimya, neft-kimya və s. sahələri vardır. Qara metallurgiya hər il - 28 mln. ton polad, 12 mln. tondan çox çuqun məhsulu verir. Ölkədə 3 qara metallurgiya kombinatı fəaliyyət göstərir. Bunlardan Taranto, Kornilyano (Genuya) və Pombinonu göstərə bilərik. Hasil olunan poladın 60 %-i elektrik peçlərində, qalanı isə kovvertor peçlərindən əldə edilir. İtaliya qara metallurgiyası dünya bazarı üçün əsasən iri diametrli borular buraxmaq üzrə ixtisasiaşmışdır. Alüminium hasilatı isə ölkənin Şimal-Şərq hissəsində elektroenergetikanın inkişafına və gil-torpaq xammalına əsaslanır. Ona görə də iri alüminium zavodları Porto-Vesmedə, Sardiniyada yaradılmışdır. Bunlara baxmayaraq hər il xarici ölkələrdən hazır alüminium məhsulu da gətirilməli olur. Yerli istehsal 200 min tona qədərdir. Qurğuşun - sink sənayesinin inkişafı Sardiniya və Alp hesabına, eləcə də gətirmə xammallar əsasında Portovesme, Pantenossa, Krotone, Porto-Marqera şəhərlərində yaradılmış zavodlar hesabınadır. Nəticədə, hər il 130 min tondan artıq qurğuşun və 270 min tona qədər sink əldə edilir. Peve-Verqonte, Marqera, Breşiya şəhərlərində mövcud zavodlar hər il-86 min ton saflaşdırılmış və 106 min ton miss ərintisi məhsulu verə bilirlər. Buna baxmayaraq, İtaliya hər il - 0,6 mln. ton mis məhsulunu idxal edir.

Axırıncı onilliklərdə ölkə energetikasının strukturu köklü sürətdə dəyişdirilmişdir. O, enerji resurslarına görə çox kasıbdır. Yerli mənbələr hesabına illik tələbatın ancaq 15 %-i ödənilir. Baxmayaraq ki, Padan düzonliyində, Adriatik dənizinin Siciliya sahillərinə yaxın ərazilərdə çox da böyük olmayan neft və qaz

yataqlarından müəyyən miqdarda yanacaq növləri hasil olunur (5 mln. ton neft), istehlakın ödənilməsi ən çox gətirmə məhsullar əsasında yerinə yetirilir. Ona görə də ölkənin sahil zonalarında gətirmə neft əsasında böyük neft emalı zavodlan fəaliyyət göstərməkdədir. Həmin yanacaq Yaxın Şərqdən, Şimali Afrikadan, Rusiyadan idxal olunmaqdadır. Hər il İtaliya - 100 mln. tona qədər idxal etdiyi neft ölkənin Trekat, Sannadzaro - de - Buorqond, Kremon, Mantus, Marqer, Bussol (Qenuya), Spesi, Ravenn, Taranto, Auqusta NEZ-lərində emal olunur. Mövcud emal zavodlarının illik gücü - 100 mln. tondan artıqdır. İllik qaza olan tələbat Trans Avropa (AFR-İsveçrə-Milan), eləcə də 1982-ci ildən istifadədə olan, uzunluğu 2,5 min km-dən artıq Trans Aralıq dənizi (Əlcəzairdən) qaz kəmərləri vasitəsilə ödənilir. Əlcəzair - İtaliya qaz kəməri 600 km məsafədə Aralıq dənizinin dibi ilə keçir. Rusiya hər il İtaliyaya 17 mlrd. kubmetr qaz ixrac edir. Ölkə hər il 56 mlrd. kubmetr qaz idxal etməli olur. Yerli kömür istehsalı (1,0 mln. t) tələbatın 10 %-ni ödəyə bilir. Hasilat Sardiniyanın cənubi-qərb hissəsində, Toskanada, Umbridə həyata keçirilir. İtalİyada az miqdarda odun kömürü və torf hasil olunur.

YEK-in ikinci aparıcısı elektroenergetika hesab edilir. Ölkədə mövcud elektrik stansiyalarının gücü 72 mln. kv t-dan artıqdır. İllik elektrik enerjisi hasilatı 260 mlrd.kvt. saat olmaqla dünya ölkələri arasında 11-ci yeri tutur. Ona görə də istehlakın tam ödənilməsi üçün elektrik enerjisini idxal etməli olur. Məhsulun çox hissəsi mazutla işləyən İES-lərdən alınır. İstehsalın, həm də istehlakın çox hissəsi ölkənin Şimalında cəmlənmişdir. Elektrik stansiyalarının əksəriyyəti birləşmiş elektrik şəbəkələri ilə əlaqələndirilmişdir. Böyük gücə malik olmayan çoxlu sayda SES-lər mövcuddur. Çernobıl hadisəsindən sonra ölkədə elektrik enerjisi hasil edən 4 AES (gücləri 650 min kvt) 1987-ci ildə keçirilmiş referendum əsasında fəaliyyətlərini dayandırmışlar. Ölkədə alternativ enerji mənbələrindən də geniş istifadə olunur. Belə ki, ilk geotermik elektrik stansiyası hələ 1913-cü ildə Toskano əyalətinin Larderello məntəqəsində fəaliyyətə başlamışdır. Sonrakı illərdə onların sayı get-gedə daha da artırılmışdır. Ölkədə günəş elektrik stansiyaları da fəaliyyət göstərir. İtaliyanın illik yanacaq - enerji tələbatı 230 mln. tut təşkil edirsə, onun 220 mln. tutunu ıdxal edir.

Maşınqayırma işçilərin sayına və verdiyi məhsulun miqdarına görə böyük xüsusi çəki ilə seçilir. 2,2 mln. işçini özünə cəlb edən maşınqayırma emal sənayesinin 30 %-dən çox məhsulunu, ölkə ixracatının 20 %-dən artığını verir. Onun tərkibində avtomobil, traktor, müxtəlif maşın hissələri, motoroller, motosklet, müxtəlif tutumlu və məqsədli gəmilər, dəzgahlar, elektrotexnika və s. sahələri vardır. Deyilənlərin hər birisinin özünəməxsusluğu olsa da avtomobil sahəsinin rolu və əhəmiyyəti daha qabarıq hər il 1,7 mln. ədəd avtomobil istehsalı sahəsində (dünyada 9-cu yer) 130 mindən artıq işçi çalışır. Məhsulun çoxu dünya bazarına çıxanılır. Avtomobil sahəsini nəinki İtaliyada, habelə dünyada ən böyük avtomobil konserni hesab edilən «FİAT» əlinə almışdır. «FİAT»-ı haqlı olaraq «respublikada imperiya» adlandırırlar. Ona görə ki, onun ixtiyarında bir neçə tikinti kompaniyaları, avtomobil nəqliyyatı, gəmiçilik təsərrüfatı, «Stampa» Turin qəzeti, mehmanxanalar, çoxlu sayda satış mağazaları, stadionlar, Turin «paytaxtı» hansı ki, özünün «Mirafori» avtomobil zavodu vardır. Bir çox yardımçı və xidmət sahələri onun ixtiyarında fəaliyyət göstərir. FİAT-m mərkəzi hesab edilən Turin get-gedə öz fəaliyyət dairəsini genişləndirməkdədir. Belə ki, o Milan yaxınlığında yerləşən Lombardidə, Neapol yaxınlığında yerləşən Kampanidə, Siciliyanm Terminilmereze şəhərində, eləcə də xarici ölkələrdə, o cümlədən RF-də filial və zavodlarını yaratmışdır. Bunlardan başqa, FİAT öz tərkibində - «Ferrari» və «Marepati» (idman yarışlarında gərək olan maşınlar), «Autobyanka», «Alfa-Romeo», «Lança» firmalarına da yer vermişdir. Ölkə 1000 nəfər hesabı ilə adambaşına düşən avtomobilin sayına görə diinyada birinci yeri tutur. Belə ki, hər 1000 nəfərdən 560-ı avtomobil sahibidir. FİAT, eyni zamanda, eksportuna görə dünya bazarında 1-ci yeri tutan tırtıllı traktor istehsalı üzrə də ixtisaslaşmışdır. Digər tərəfdən, onun ixtiyarında olan Emiliya-Romanyanın, Turinin, Milanın kənd təsərrüfatı rayonlarının belə traktorlara çox böyük ehtiyacı vardır. Deyilənlər azmış kimi FİAT, Turin və onun ətraflarında fəaliyyət göstərən diyircəkli podşibnik buraxan müəssisələrə də monopoliyalıq edir.

İtaliya dünyada ilk motorollerlər buraxan zavodlara da malikdir. Motocikl və motoroller zavodları Pontedera şəhərində olsa da belə zavodlar ən çox şimal rayonlan üçün səciyyəvidir.

İtaliya dəniz dövləti olduğundan hələ çox qədimdən müxtəlif məqsədli və müxtəlif tutumlu gəmilər buraxan zavodlara malik olmuşdur. Konteyner daşıyan, qatışıq yüklər daşıyan, sualtı qazma və tədqiqat işlərinin aparılmasına gərək olan platformaların quraşdırılmasına üstünlük verilir. Ən böyük tərsanələr Monfalkonda, Adriatik dənizi sahillərində, Porto-Marqerdə və Ankonnedə yaradılmışdır. Deyilənlərlə yanaşı ən qədim və böyük gəmiqayırma zavodları Liquri dənizi sahillərində - Genuya - Sestridə, Riva-Triqozodo, Spesiyada, Petra - Liquridə, Livornoda, Viaredjoda, eləcə də cənubda Kastellamare - di - Stabiya (Neapol yaxınlığında) və Palermoda fəaliyyət göstərirlər. Tərsanələrdə 1400-dən çox sayda gəmilərə malik maşınqayırma sahəsi emal sənayesinin 33 % məhsulunu verir.

Milan, Breşi, Boloniya dəzgahqayırmanın mərkəzləridir. Elektrotexnika sənayesi Milan, Komo, Baresse, Berqamo, Neapol, Bari, Turin, Spetsil, Pordenon, Konelyano, Forli şəhərlərində müəssisələrə malikdirlər. İtaliya «Dzanussi», «İndezit» və başqa markalı soyuducular və paltaryuyan maşınlar buraxılmasına görə dünyada 3-cü yeri tutur.

Elektron sənayesi son illər çox sürətli inkişaf edən sahələrdən hesab olunur. Belə ki, Qərbi Avropada hasil edilən radio-elektron məhsullarının 10 %-ni İtaliyanının Milan, Roma əyaləti, Neapol və onun ətrafında olan zavodları verməkdədir. Bundan başqa, müasir dəzgahlar, elektrotexnika, kontor ləvazimatı və digər ənənəvi sahələr də elektron sənayesi ilə sıxı surətdə bağlıdır.

İtaliya bütün dünyaya göndərilən yazı və hesablama maşınları ilə məşhurdur. Onun başlıca firması «01ivetti» olmaqla İlvea, Turin, Milan, Neapol şəhərlərindəki müəssisələri məhsul verir.

Paviya, Montsa, Milan, Turin, Taranto qədimdən toxuculuğun və toxumanın mərkəzləri hesab edildiyi kimi, müasir dövrdə də tikiş maşınlan sahəsinin mərkəzləri sayılırlar.

İtaliya təsərrüfatında aparıcı sahələrdən biri də çoxnövlü kimya sənayesidir. Onun əsasən plastik kütlə, lak, boya, əczaçılıq, natural essensiya, efir yağı, spirt, körək duzu, sintetik kauçuk (0,5 mln. t), kalium duzu və kübrə məhsulları ölkənin bütün əraziləri üçün xarakterdir. Dünyanın ən nəhəng kimya konsernlərindən biri - «Montedison» və ENİ dövlət birliyi burada yerləşir. Bu konsern və birliyin verdiyi əsasən plastik kütlə, kimyəvi lif (1,0 mln. t), lak, boya və əczaçılıq məhsullarıdır. Liquriyada, Siciliyada, Kolabriyada güldən, meyvədən, xüsusilə berqamot (sitrus meyvəsidir) meyvəsindən qədim ənənəvi sahə hesab edilən təbii essensiya və efir yağı alınır. Əldə edilən essensiyadan çay, qənnadı və ətriyyat sahəsində geniş istifadə edilir. Hər il italyan kimyaçıları yeni-yeni və çox mürəkkəb məhsul növləri istehsal edərək onların çeşidlərini dəyişirlər.

Şimalda yerləşən Milan, Ro, Novara, Trekata, Çezano - Maderno qədim kimya sənayesi mərkəzləridirsə, Mantus, Ravenn, Ferrar, Porto - Marger isə neft-kimya kombinatlarına malikdir. Ölkənin cənub hissəsində yerləşən Priolo, Djela, Neapol, Kalyar, Porto - Torres şəhərləri istehsal etdikləri plastik kütlələri, lakı, boyaları, sintetik kauçuku, kimyəvi lifləri ölkənin digər rayonlarına, habelə xarici ölkələrə ixrac edirlər. Neft və qaza əsaslanan azot kübrəsi Novar, Merano, Montaro, Buss, Kroton şəhərlərində, kalium kübrəsi Siciliyanın kalium duzu xammalına əsaslanmaqla Porto Empedokl mərkəzinə malikdir.

Əczaçılıq məmulatları istehsalı qədim sahələrdəndir. Milan, Bressi, Turin, Roma və s. şəhərlər çoxlu sayda belə məhsullar istehsal edən müəssisələrlə tanınırlar.

İtaliya üçün qədim təsərrüfat şəhərləri özündə yüngül sənayeni də birləşdirir. Sahənin aparıcı növü toxuculuqdur. Toxuculuqda məxmər, ipək, mahud və kətan parça sahələri aparıcı yer tuturiar. İxracatın 1/10-ni pambıq, yun, ipək, süni və sintetik liflər, cut, kətan və qatışıq liflərdən ibarət parçalar təşkil edir. 50 mindən artıq işçini əhatə edən pambıq parça toxuculuğu ölkənin hər yerində toxuma mərkəzlərinə malik olmaqla xammalını Özbəkistandan, Türkmənistandan, ABŞ-dan almaqdadır. Bu əsasdan da ildə - 1,0 mlrd. kv.m pambıq parça toxunur (hər nəfərə 17,1 kv.metr). Avstraliyadan, Fransadan, Yeni Zelandiyadan, CAR-dan alınan

xammallar əsasında 100 minə qədər işçi qüvvəsi ildə 0,8 mlrd. kv. metr yun parça toxuyur. Əgər, elektroenergetikanın, suyun, işçi qüvvəsinin, istehlakın olmasına əsaslanaraq pambıq parça toxuculuğu ən çox şimal hissədə yerləşdirilmişsə, yun parça toxuma mərkəzləri Pemont, Veneto, Toskano, Prato şəhərlərində mövcudlaşmışdır. Tut bağlarına əsaslanaraq barama məhsulu əldə olunduğundan Komo, Trevizo şəhərlərində və Kampaniya vilayətində ipək parça fabrikləri yaradılmışdır. Cənub rayonları sintetik parçalar məkanı hesab olunur. İtaliya, Avropada ən çox və keyfiyyətli trikotaj məhsulları buraxmaqla tanınır. Moden, Karp, Emiliya -Romanya, Lombardiya, Pemont trikotaj mərəkəzlərinə malikdir.

İtaliya dünya bazarına tikili mallar, keyfiyyətli və bahalı ayaqqabılar ixracı ilə hələ çox qədimdən məşhurdur. Dünya bazarında satılan hər 3 ayaqqabıdan biri italyan ayaqqabısıdır. Hər il Milanda beynəlxalq ayaqqabı yarmarkası keçirilir. Fetr şlyapalan - Alessandriyada, ipək qalstuklar - Turində, eləcə də idman və xizəkçi ayaqqabısı buraxılışına görə dünyada tanınır.

Ölkədə kənd təsərrüfatına əsaslanan çox sayda xırda yarıkustar müəssisələr bazasında yeyinti sənayesi inkişaf etməyə başlamışdır. O məhsul istehsalına görə maşınqayırmadan və kimyadan sonrakı 3-cü yeri tutur. İşçi qüvvəsinin sayına görə də yeyinti sənayesi maşınqayırma və toxuculuq sənayesindən sonrakı yeri tutaraq 500 min aktiv əmək ehtiyatlarına malikdir. Onun dünya əhəmiyyətli meyvə-tərəvəz konservi, şəkər, makaron sahələri, zeytun yağı, üzüm şərabı, tomat sahələri iqtisadi cəhətdən gəlirli hesab olunurlar. Hər il - 56 mln. hektalitr üzüm şərabı verərək dünyada Fransa ilə 1-2-ci yerləri bölürlər. Dünyada tədarük olunan zeytun yağımının 35%-ni İtaliya verməklə üzüm şərabı ilə birlikdə onu dünya bazarına ixrac edir. Keyfiyyətli pendir dünya bazarında İtaliyanın reytinqini daha da artırmışdır. Bir qayda olaraq yeyinti sənayesi müəssisələri ölkənin hər bir yeri üçün müqabildir.İtaliya hər il 16 mlrd. dollarlıq ərzaq və kənd təsərrüfatı məhsulları istehsal etməklə bərabər 20 mlrd. dollarlıq belə məhsulları idxal etməyə məcburdur.

Xammal ehtiyatının bolluğu, istehlakın gündən-günə artması tikinti sənaye kompleksinin inkişafını daha vacibləndirir. Yerli

tələbatla yanaşı Qərbi Avropa bazarının sementə olan istehlakının 20 %-ni İtaliya məhsulu ödəyir, Alpm ətəkləri, Neapolun, Tarantonun, Porto-Torresin ətraf rayonları böyük sement zavodları ilə tanınır.

İtaliyada farfor-fayans sahəsi də yaxşı inkişaf etmişdir. Fayansın vətənəi Fayents şəhəri hesab edilir. Bədii estetik şüşələr buraxılışı sahəsində isə Venetsiya şöhrət qazanmışdır. Ölkədə mövcud olan 500-dən çox şüşə zavodları əsasən Şimali və Mərkəzi İtaliyada yerləşməklə avtomobillər üçün bərk növ şüşələr, ayrı-ayrı laboratoriyalar üçün qablar, optik aparatlar üçün şüşələr, xrustal, lövhə şüşələr istehsalı ilə məşğuldurlar.

Əlbəttə, hər bir ölkədə olduğu kimi, İtaliyada da istehlakın ödənilməsini təmin etmək məqsədilə yerli və gətirmə xammalların əsasında meşə sənayesi də inkişaf etmişdir. Onun məhsullarından olan - İtalyan mebellərinin dünya şöhrətli olmaları bütün ölkələrə məlumdur.

Ümumiyyətlə, Avropa üçün turist-rekreasiya rayonlaşması aparılarkən Qərb, Cənub, Mərkəzi-Şərq, Şimal rayonları ayrılır. Bunlarda da sırf ixtisaslaşma həyata keçirilərkən dəniz sahili, dağlıq, göllər ətrafı və çaylar boyu turizm rayonlarını ayırmaq mümkün olur. Burada da Aralıq dənizi hövzəsi nəinki Avropada, habelə dünyada əsas turist təsərrüfatı rayonu kimi tanınır. Nəticədə Fransa və İtaliya - hər ikisi Aralıq dənizi hövzəsinə malik olduqlarından bu sahədə həmişə liderlik uğrunda yarışmışlar. İtaliyanın turizm -rekreasiya təsərrüfatı bu regionda İtaliya Riverası, Liquri, Tirren, Adriatik dənizləri hövzələrində inkişaf etmişdir. Göstərilən rayonlarda San-Remo, Rapallo, Portofino, Neapol, Sorrento, Venetsiya Riverası kimi kurort mərkəzləri fəaliyyət göstərir. Ölkə hər il 41,2 mln. turisti qəbul etməklə dünya ölkələri içərisində Fransa (75 mln. nəfər), ABŞ (51 mln. nəfər) və İspaniyadan (49,0 mln. nəfər) sonra 4-cü yeri tutur.

Mehmanxanaların və kempinqlərin sayına görə İtaliya Avropada 1-ci, dünyada isə 3-cü yerdədir. Tarixi və mədəni abidələrin sayına görə dünyada liderlik edir.

Maddi istehsalının 2-ci aparıcı sahəsini kənd təsərrüfatı tutur. O ölkə təsərrüfatının inkişafında 6% xüsusi çəkiyə malikdir. Onun verdiyi məhsullar yeyinti sənayesinin inkişafında tələbatın 80

%-ni ödəyə bilir. Avropa İttifaqı ölkələri sistemində özünün ənənəvi sahələri olan meyvəçilik, tərəvəzçilik, üzümçülük üzrə ixtisaslaşmasını saxlamışdır. Ölkədə kənd təsərrüfatının əsasını əkinçilik təşkil edir. Ümumi əkin sahəsi kənd təsərrüfatı üçün ayrılmış torpaqların 1/3 %-ni əhatə edir. Suvarılan torpaqların 2,9 mln. ha sahəsi vardır. Əkinçilikdə taxılçılıq üçün 50 % şumlanan sahə alınmışdır. Bərk buğda növünün becərilməsinə üstünlük verilir. Bu da makaron, vermişel hazırlanmasında daha çox gərəklidir. Buğda başlıca olaraq Emiliya - Romanyedə, Apuliyada, Siciliyada becərilir. Dağ ətəklərində, Padan düzənliyinin qərb suvarılan ərazilərində isə çəltik əkinləri vardır. Yüksək keyfiyyətli düyü ixrac olunan məhsullardandır. Hər il ölkədə 20 mln. tondan çox taxıl toplanılır. Göy noxud əsasən yeyinti sənayesində işlədilməklə çoxu xarici ölkələrə ixrac olunur. Ölkənin bir çox yerlərində, əsasən də Kampani rayonunda kartof becərilir. İri və xırda təsərrüfatlarda açıq havada və örtülü istixanalarda (Şimal və Cənubda) pomidor, kələm, müxtəlif növ salat məhsulları, soğan, xiyar, ənginar (artişok), qulançar və bostan bitkiləri yetişdirilir. Hər il 6,0 mİn. tondan artıq pomidor məhsulu toplanılır ki, bu da ona dünyada ABŞ-dan sonrakı yeri tutmağa imkan verir. İldə Emiliya - Romanye, Kampani və Apuli rayonlarından - 15 mln. tondan artıq tərəvəz toplamaq mümkün olur. Ərazinin nisbətən alçaq sahələrində, o cümlədən Roviqo əyalətində ölkə üçün aparıcı texniki bitki hesab edilən şəkər çuğunduru becərilir. Təsadüfən İtaliyanı «Avropanın birinci bağı» adlandırmırlar. Bağlardan hər il 18 mln. tondan artıq alma, armud, gavah, şaftalı, ərik, gilas, (albah), qoz , əncil, sitrus meyvələri məhsulları toplanılır. Bunların əksəriyyəti Şimalda, Toskanada, Kampani ərazilərindən alınan məhsullardır. Cənub ərazilərinin bağ məhsulları isə badamdan, yunan qozundan, fındıqdan ibarətdir.

İtaliya Aralıq dənizi hövzəsində İspaniyadan sonra ən çox sitrus meyvələri toplayan dövlət kimi tanınır. Sitrus meyvələrinin toplanmasının illik kəmiyyət göstəricisi - 4,0 mln. ton təşkil edir. Mandarin, portağal, limon, qreyfrut, qabığından efir yağı əldə edilən armud (berqamont), kinotto, limettu meyvələri isə Cənubda becərilərək toplanılır.

İtaliyada üzümün 250-dən çox növündən ildə - 13 mln. t məhsul toplanılaraq çox hissəsi ixrac olunur. Bu sahədə İtaliya birinci yeri tutur. Dünyada 10 mln. ha sahəyə malik olan üzüm bağlarından ildə 60 mln. tondan çox məhsul toplanılır. Bunun 1/5-i çaxır alınmasında istifadə olunur. İtaliya bu sahədə fərqlənməklə ildə 57-60 mln. hektolitr üzüm çaxırı əldə edə bilir. Dünyada adambaşına üzüm şərabı orta hesabla - 5 litrdirsə, bu İtaliyada 100 ildən az deyiidir. Zeytun bağlarına və zeytun yag hasilatına gorə dünyada İspaniyadan geri qalır. İldə -3,5 mln. ton zeytun məhsulu toplanılır ki, bu da dünyada 1-ci yer deməkdir. Üzüm və zeytun başlıca olaraq Apuliya vilayəti üçün səciyyəvidir.

Ölkədə kənd təsərrüfatı məhsulları içərisində gül xüsusi yer tutur. Onun özü, toxumu, soğanağı eyni zamanda ətriyyat sənaye inkişafı üçün ixrac olunur.

Ixrac olunan kənd təsərrüfatı məhsullarından biri də qoz sayılır. Qoz toplanmasına görə İtaliya dünyada 2-ci yeri tutur.

İllik məhsul istehsalında heyvandarlıq bitkiçilikdən geri qalır. İribuynuzlular otlaq və biçənək sahələrinin bol olduğu Şimal əraziləri üçün xarakterdir. Xırdabuynuzlular hələ qədimdən Sardiniyada inkişaf etdiyirlmişdir. Donuzçuluq (8,0 mln. baş) şəkər çuğundurunun tullantılarına əsaslaraq Emiliya - Romanye və Lombardiya hissələri üçün, quşçuluq təsərrüfatı isə bütün iri şəhər ətraflarında inkişaf etdirilmişdir. Balıqçılıq zəif inkişaf etsə də, (ətraf dənizlər balıq növlərindən kasıbdırlar) onların emalı sahil zonalarında mövcudlaşan balıq emalı zonalarında həyata keçirilir.

Hər il ölkədə 4,0 mln. tondan çox ət tədarük olunur. İllik adambaşına düşən ətin miqdarı 70 kq təşkil edir. İnək südünün illik tədarükü 11 mln. ton olmaqla adambaşına 90 kq-dır.

İtaliyada xidmət sahələri sferası yüksək keyfiyyətliliyi ilə dünyada məşhurdur. Burada fəal əhalinin 61 %-i çalışmaqdadır. Məlumdur ki, nəqliyyat, bank, ticarət, qonaq evləri, təhsil, səhiyyə, hesablama sahələri, informasiya, müxtəlif növ məsləhətxanalar, rabitə, idarəçilik sahələri buraya daxildir.

Nəqliyyatın bütün növlərinin inkişafı İtaliya üçün səciyyəvidir. Quru yolu, su yolu, hava, boru kəmər, eiektron növləri xüsusi çəkilərinə görə bir-birindən fərqlənirlər. Sərnişin daşımada -

90 %, yük daşımada - 80-% xüsusi çəkisi olan avtomobil nəqliyyatıdır. Başlıca yolları Milan Varessi, Turin-Milan-Florensiya–Roma Neapol,-Redjo - dİ - Kalabriyadan ibarətdir. Avtomobil yolları-nm uzunluğu-310 min km-dən artıqdır. Avtomobil nəqliyyatının illik yük dövriyyəsi 200 mird. ton km-dən artıqdır. Avtomobil parklarında 33 mln. avtomobil cəmləşmişdir. İti sürətə malik olan Turin Milan-Boloniya-Florensiya-Roma - Neapol, Milan-Genuya, Milan-Venetsiya-Triyest, Neapol-Salerno dəmir yol xətləri vardır. 16 min km ümumi uzunluqlu dəmir yollarının yandan çoxu (65 %) elektrikləşdirilrmşdir. Hər 1000 kv km sahəyə 53 km dəmir yolu xətti sıxıığı mövcuddur. Yük dövriyyəsi böyük deyildir.

Dəniz nəqliyyatı tarixən ölkə üçün böyük əhəmiyyət kəsb etmişdir. İstər daxili yük və sərnişin daşımada, istərsə də xarici kaporajda onun rolu və əhəmıyyətı ölçüyə gəlməzdır. Dənız limanlarında 1400-don artıq saya malik olan gəmilərin tonnajı 8,0 mln. brt təşkil edir, Ölkə sahillərində 144 liman fəaliyyət göstərir ki, onlardan da ən böyüyü iilik yükdaşıması - 40 mln. ton olan Genuyadır. Daxili su yollarının da özünəməxsusluğu vardır.

Ərazinin şimaldan cənuba 1300 km-dən çox uzanma konfiqurasiyası hava nəqliyyatının rolunu və əhəmiyyətini daha da artırmışdir. Hər il 26 mln-dan çox sərnişin daşmır. Ölkədə beynəlxalq əhəmiyyətli Roma, Milan, Neapol, Bolonya, Genuya, Turin, Venetsiya, Piza hava limanları vardır.

Boru-kəmər nəqliyyatı istər yerli mənbələr və istərsə də gətirmə yanacaq növləri əsasında istehsalla istehlakı bir-biri ilə birləşdirir. Nəticədə ölkə üzrə məhsuldar qüvvələrin inkişafı və düzgün yerləşdirilməsinə əməl olunur.

Elektron nəqliyyatından ayrı-ayrı elektrik stansiyalarından əldə edilmiş elektrik enerjisinin yüksək gərginlikli elektrik xətləri ilə istehlakçıya çatdırılmasında istifadə olunur.

İtaliya üçün xarici ticarətin xüsusi əhəmiyyəti vardır. Çünki çoxlu sayda sənaye və kənd təsərrüfatı sahələri xarici bazar üçün məhsullar istehsal edir. İxracatda ümumi məhsulun 10 %>-dən çoxunu avtomobil və onun hissələri sahəsi verir. Bununla yanaşı müxtəlif aparatlar - elektron, yazı və hesablama maşınları, metallurgiya, kimya, parça, paltar, ayaqqabı, kağız, mebel, şərab, meyvə, tərəvəz, makaron, qənnadı məsrəflər məmulatları ixrac

olunur. İdxalatda yanacaq və digər xammallar üstünlük təşkil edir. İtaliyanın ticarət tərfdaşları - Avropa Birliyi ölkələri, ABŞ, Yaxın Şərq, Şimali Afrika ölkələridir. Ümumiyyətlə, İtaliya ildə 240 mlrd. dollarlıq (4,5 %) məhsul ixrac edirsə, 210 mlrd. dollarlıq məhsulu (3,8 %) idxal edir. Göründüyü kimi xarici ticarət saldosu balansı müsbətdir.

İtaliyanın daxili fərqlərinə nəzər saldıqda ənənəvi olaraq onun Şimal, Mərkəz, Cənub ərazilərinə bölündüyünün şahidi oluruq. Lakin belə iqtisadi bölgünü həmişəlik hesab etmək mümkünsüzlüyündən son illərdə ərazilər üzrə təsərrüfat sahələrinin inkişafı və ixtisaslaşma dəyişikliklərinin mövcudluğu Şimal-Qərb, Şimal-Şərq, Mərkəz, Cənub rayonlarının ayrılmasına imkan vermişdi.

Şimal-Qərb ölkənin dəyişməz olaraq iqtisadi inkişafının özəyini təşkil edir, Burada rəngarəng sənaye sahələri ilə yanaşı quvvətli və muasır 3-cü sektor fəaliyyətdədır.

Şimal-Şərq özünün orta və xırda sənaye sahələrinin nıövcudluğu iiə fərqlənir. Neft emaiı, neft-kimya, energetika, alüminium sənaye sahələrinin olunması ilə səciyyələnir.

Mərkəz Toskanam, Umbriyanı, Markeni, Latsionu əhatə edir. Turizm sahəsi, toxuculuq, ayaqqabı, mebel, ərzaq məhsulları ilə tanınır.

Cənub, ölkənin əvvəlki rayonlarından iqtisadi inkişaf baxımına görə əhəmiyyətli dərəcədə geri qalır.

VI.6. Rusiya Federasiyası

Sahəsi - 17,1 mln. kv. m

Əhalisi - 145,5 mln. nəfər

ÜDM - 585,3 mlrd. dollar

Adambaşına düşən məhsul istehsalı - 4,0 min dollar

Ərazisi qərbdən - şərqə 10 min km, şimaldan - cənuba 4 min km məsafədə uzanır;

Türkiyə və Misir kimi Rusiya Federasiyası da 2 qitədə yerləşərək (Avroasiya taleli) Qazaxıstanla 7200 km, Ukrayna ilə 1270 km, Belarusiya ilə 990 km, Estoniya ilə 437 km, Azərbaycanla 367 km, Litva ilə 304 km, Latviya ilə 250 km, Gürcüstanla 250 km, eləcə də Çinlə 4300 km, Monqolustanla 3005 km, Norveçlə 196 km, Polşa ilə 244 km, Finlandiya ilə 1269 km və KXDR-lə 17 km sərhəd xəttinə malikdir.

Çoxsahəli təsərrüfatının inkişafına müxtəlif və zəngin təbii şəraiti, təbii ehtiyatları müsbət təsir edir.

Dünyanın yeganəsidir ki, xammaların bütün nomenklaturasına görə Mendeleyevin Dövri Sistemində olan elementlərin hamısı ilə sənaye əhəmiyyətinə malik olmaqla təmin olunmuşdur;

Ərazinin 40 %-ni tayqa,11 %-ni tundra təşkil edir;

Dəmir filizinin balans ehtiyatı 70 mlrd. tondur:

Kalium duzu ehtiyatına görə dünyada 1-ci yeri tutur;

Yanacaq enerjı ehtıyatları dünya əhəmiyyəti kəsb edir;

Neft ehliyatı 27,0 mlrd. tona qədərdir (dünya ehtiyatının 13 %>-i);

Təbii qaz ehtiyatına görə dünyada 1-ci yerdə durur ki, onun da kəmiyyət göstəricisi 48,1 trln kubmetr təşkil edir (dünya ehtiyatının 32 %-i);

Kömürün ümumi ehtiyatı 6000 mlrd. ton olmaqla dünya ehtiyatının 45 %>-nə bərabərdir;

Ölkədə 2,5 mln.çay, 3 mln.göl, 45 min kubkm. şirin su ehtiyatı vardır;

İllik nəzəri hidroenerji potensialı 2,9 trln. kv.t. saatdırsa bunun texniki potensialı 1,7 trln kvt. saat, iqtisadi potensialı 850 mlrd. kvt.saatdan çox deyil, gücü 320 mln. kvt-a çatır;

Dünya oduncaq ehtiyatının 25 %u-i buradadır. Onun kəmiyyət göstəricisi 82 mlrd. kubmetrdir, (dünya oduncaq ehtiyatının - 23 %-i). Meşənin sahəsi 886 mln. hektardır (20 %). Meşə sahəsinə və oduncaq ehtiyatına görə dünyada ölkələr arasında

1-ci, regionlarda isə ancaq Latın Amerikasından geri qahr. Hər nəfərə düşən meşə sahəsinə görə - 5,2 ha və oduncaq ehtiyatına görə - 560 kub m. Kanadadan sonrakı - 2- ci yeri tutur;

Dünyada ən soyuq iqlimə malik olması ilə tanınır (Oymyakonda, Verxoyanskidə temperatur amplitudası - 78°S-ə çatır);

Sahəsi 31,5 min kv. km olan dünyanın ən dərin gölü (1620 m) Baykal burada yerləşir;

Adambaşına düşən su təchizatına görə dünyada 1-ci yeri tutur;

Daimi donuşluq ümumi ərazinin 11,0 mln.kv. km.-ni örtür;

Federativ dövlət olmaqla respublika idarəetmə üsuluna malikdir. Burada 89 subyektdən 21 respublika, 6 ölkə, 49 vilayət, 10 muxtar mahal, 1 muxtar vilayətə ayrılır;

Ölkədə 100-dən artıq xalq yaşayır, rusların xüsusi çəkisi 82 %-dir, xristian, islam, buddizm dinləri aparıcıdır;

Illik sənaye məhsulu istehsalı 60 % təşkil edir. Maddi istehsal sahəsinin 70 % xüsusi çəkisi vardır;

Dünya sənaye məhsulunun 4,47 %o-ni verir;

Maşınqayırmanın illik məhsul istehsalında 18,3 %, yanacaq sanayesinin 16 4.% eloktroenergetikanın 13,1%,yeyinti sənayesinin 12,0,qara metallurgiyanın 9,1%,kimya neft-kimyanın 8,1 % xüsusi çəkiləri qeydə almmışdır;

Ölkənin illik yanacaq-enerji tələbatı 900 mln, tut-a bərabərdir;

Hər il 540 mln, tut həcmində yanacaq-enerji məhsulları ixrac edir;

Son illər 324 mln. t neft, 584 mlrd. kubmetr qaz, 258 mln. ton kömür hasil olunur;

Ölkədə 600 İES, 100 SES, 9 AES və eləcə də KES, GES, Geotermal ES, QES fəaliyyət göstərməklə ümumi gücləri 214 mln. kvt-dan çoxdur. Onlar hər il 878 mlrd. kvt. saat elektrik enerjisi və 800 mln. Qkal istilik hasil edirlər. Elektrik stansiyaları bir-biri ilə 2,5 mln. km. uzunluğa malik olan yüksək gərginlikli elektrik xətləri ilə birləşdirilmişdir. İES-lər illik enerji hasilatının 69 %-ni verərək Perm (4800 MVt), Reftin (3800 MVt), Kastroma (3600 MVt),

Konakov (2000 MVt), İriklin (2000 MVt), Surqut - 2 (4800 MVt) və s-dən ibarət olmaqla qazla, kömürlə, mazutla işləyərək elektrik enerjisi, kommunal təsərrüfatın və isti ştilliklərin qızdırılması üçün isti su və buxar hasil edirlər. Mövcud elektrik stansiyalarının gücü 148,7 mln. kvt-dan çoxdur;

Dünyada ilk AES RF-də ümumi gücü 5 min kvt olmaqla Kaluqa vilayətinin Obninski sahəsində 1954-cü ildə yaradılmışdır. Sonralar, yəni 1958-ci ildə ilk AES İngiltərədə və 1957-ci ildə ABŞ-da yaradılmışdır. AES-lərin elektrik enerjisi hasilatında xüsusi çəkiləri 14 %-dən artıqdır. Burada 9 sayda 29 bloklu AES-in ümumi gücü 21,3 mln. kvt (dünyada olan AES-lərin 6 %-i) təşkil edir ki, onların da illik elektrik enerji hasilatı 118 mlrd. kvt.saatdır. Ölkədə hər birinin ümumi gücü 4 mln. kvt olan Leninqrad, Kursk, Balakov, gücü 3000 kvt Smolenski, 2000 kvt-dan çox olan Kalinin, 1760 kvt Kola və habelə uzaq Çukotkada 50 kvt gücü olan Bilibino AES-ləri fəaliyyət göstərir. Hər AES reaktorunun işləmə müddəti 25-70 il təşkil edir. Sonradan ya o məhv edilir, ya da yeni sahədə təzəsi yaradılır;

Ölkə ərazisində dünya hidroenerji potensialının 12 %-inin olması müəyyən edilmişdir, SES-lərdən alınan illik elektrik enerjisinin hasilatına görə ölkə Kanada və ABŞ-dan sonrakı 3-cü yeri tutur. SES-lərin illik elektrik enerji hasilatında xüsusi cəkisi 14 % olmaqla 44,1 mln. kvt. gücə malikdirlər. Sayano-Şuşensk (6400 kvi), Krasnoyarsk (6000 kvt), Bratsk (4500 kvt), Ust-İlim (4200 kvt), Voljski (2500 kvt), Volqoqrad (2400 kvt), Kuybışcv (2300 kvt), Bureya (2000 kvt), Zeya (1000 kvt) SES-ləri ilə yanaşı ümumi gücü 1200 kvt olan Zaqorsk (Moskva vilayətində) HAES-i və alternativ mənbələr hesabma Kola yanmadasında Kisloquba QES-i (1968-ci ildə tikilərək gücü 400 kvt-dir), 1967-ci ildə tikilmiş Kamçatkanın Paujetsk hövzəsindəki geo İES-i və 1985-ci ildə Krımda tikilmiş GES-i qeyd edə bilərik;

Ölkədə qara metal filizlərinin hasilatının, saflaşdırılmasının, aqlomerasiyasının, odadavamlı metalların hasilatını, qeyri filiz xammallarının əldə edilməsini, kömürün kokslaşdırılması, çuqunun, poladın, prokatın və ferroərintilərin əridilərək yerli məhsulun əidə edilməsini, sənaye təyinatlı metal məsrəflər məmulatlarının istehsalını və qara metalların təkrar işlənməsini özündə birləşdirən

qara metallurgiyanın Mərkəz, Ural, Sibir bazaları ildə 87 mln. ton dəmir filizi, 50 mln. ton polad istehsal etməyə imkan verir;

İldə 610 min ton mis hasil edilir.

Mineral gübrənin iilik hasilatı 10,0 mln. tondur;

Adambaşına 7,4 kv.metr pambıq parçanın illik əldə edilməsi 1,1 mlrd. kv.metrdən çox deyildir;

Avtomobil zavodları: N.Novqorod, Naberejm Çelnı, Ulyanovsk, Miass, Moskva, Tolyatti, Likino şəhərlərindədir;

Aviasiya maşınlarının zavodları Volqaboyu, Mərkəz, Ural rayonlarında cəmlənmişdir;

Dəmiryolu maşınları müəssisələri Kolomna, Brjanski, Kaşira, Lyudinovo, Murom, N.TaqiI, Novoaltaysk, Abakan, Mıtişa, Sankt-Peterburq və s-də yerləşir.

Çay və dənız gəmıləri əldə edən nıüəssisələr Sankt-Peterburq, Vıborq, Kalininqrad, Arxangelsk, Novorosiysk, Həştərxan, Volqoqrad, Vladivostok, N.Novqorod, Rıbinsk, Samara, Omsk, Novosibirsk, Krasnoyarsk, Rostov - Donda yerləşir;

Traktor zavodlan Volqoqradda, Lipetskdə, Vladimirdə, Çelyabinskdə, R.ubtsovada, Sankt-Peterburqda yaradılmışdır;

Dünya kənd təsərrüfatı məhsullarının 2,0 %-ə qədərini verərək 12-ci yeri tutur. Dünyada əkin sahəsi 20 mln.ha, məhsul toplantısının ıllik miqdarı 300 mln. tondan çox olan əsasən mülayim qurşağın bitkisi hesab edilən kartof toplanmasında 2-ci yeri tutur. Belə ki, illik məhsul tədarükü 34 mln. ton təşkil edir. İllik taxıl tədarükü 60 mln. ton, şəkər çuğunduru 14,2 mln. ton, yun 60 min ton, ət 2,3 mln, ton, süd 33,2 mln. ton təşkil edir. Şimali Qafqaz ölkənin ən böyük bağçılıq bazasıdır. Kənd tosərrüfatının 2-ci aparıcı sahəsi iribuynuzlulardan, donuzçuluqdan, quşçuluqdan, maralçılıq və atçılıqdan, balıqçılıqdan ibarət olan heyvandarlıqdır. Belə ki, 30 mln. baş iribuynuzlu, 17 mln. baş donuz saxlanılır;

Nəqliyyatda dəmir yolları 154 min km (dünyada 2-cidir)olmaqla onun 47 %-i elektrikləşdirilmişdir;

İİk dəmir yolları 26 km uzunluğa malik Sankt-Peterburqla-Tsarskoye Selo (Pavlovsk) arasında 1837-ci ildə və 1851-ci ildə Sankt-Peterburq-Moskva arasında fəaliyyət göstərir.

Avtomobil yolları 900 min km (avtomobil parklarında 22 mln. maşın var), qaz kəmərləri 63 min km-dir. Magistral qaz kəməri ilk dəfə 1946-cı ildə Saratov - Moskva arasında - (840 km) çəkilmişdİr. Neft kəmərləri 150 min km-ə çatmaqla boru-kəmər nəqliyyatı 213,0 min km uzunluğa malikdir. Belə vəziyyət onu ABŞ-dan sonra dünyada 2-ci yerdə saxlayır:

Limanlarda 4700-dən artıq gəmiləri vardır;

Daxili su yollarının uzunluğu 84 min km olsa da onun fəaliyyətdə olan hissəsi 47 min km-dir;

6 şəhərdə: Moskva, Sankt-Peterburq, N.Novqorod, Samara, Yekaterinburq və Novosibirskdə ümumi uzunluğu 390 km olan metro nəqliyyatı fəaliyyət göstərir;

Elektron nəqliyyatından hasil olunmuş elektrik enerjisinin istehlakçıya çatdırılmasında istifadə olunur;

Avtobus marşrutlarının ümumi uzunluğu 2,0 mln. km-dir;

Dəmir yollarının yük dövriyyəsi 2004-cü il üçün 1,2 trln ton/k olmuşdur;

Ərazidə mövcud müxtəlifliyə görə Ural da daxil olmaqla Qərb və Qərbi Sibiri, Şərqi Sibiri, Uzaq Şərqi özündə birləşdirən şərq ıqtısadı zonası ayrılır. (Qərb iqtisadi zonasına 8 iqtisadi rayon, Şərq iqtisadi zonasına isə Qərbi Sibir, Şərqi Sibir, Uzaq Şərq iqtisadi rayonları daxildir. Deməli, ölkədə 11 iqtisadi rayon ayırmaq mümkündür.

VII. A S İ Y A

Asiya şimaldan cənuba (adalarla birlikdə) - 10,5 min km, qərbdən şərqə - 12,5 min km məsafədə uzanır. Sahəsi 44,4 mln. kv. km-dir. Əhalisi 3761 mln. nəfər təşkil edir. Onlardan 52,1 % kişilər, 47,9 %-ni qadınlardır. Şəhər-kənd əhalisinin nisbəti 37,6:62,4-ə olan kimidir. Əhalinin hər kv.km -də orta sıxlığı 84,7 nəfərdir. Ən çox sıxlıq Sinqapurda - 6742 nəfərə çatır. Ən az əhali sıxlığı Monqolustanda hər kv km-də 1,72 nəfərdir. Təbii artıma gəldikdə, illik orta artım -1,1 %, ən çox artım Yəməndə - 3,40 %, ən az artım isə Gürcüstanda - 0,31 %-dir. Əhalinin orta ömür sürməsi kişilər üçün - 68,8 il, qadınlar üçün - 66,4 ildir. Uzunömürlülük kişilərdə - 77,7 il (Yaponiyada), qadınlarda yenə Yaponiyada - 84,2 ilə çatır.

Ən az ömür sürmə Əfqanıstanda müşahidə edilir. Bu, kişilərdə -47,3 il, qadınlarda 45,8 ili ötmüşdür. Asiyada savadlığın orta göstərici 71 % olmaqla Yaponiyada 99 %-ə, ən az Nepalda 26 % təşkil edir. Regionda Çin ən böyük əraziyə və əhaliyə malikdir. Daha doğrusu, onun sahəsi 950098 min kv km-dir. Əhalisi son illərin məlumatına əsasən - 1304,8 mln. nəfərdən artıqdır. Ən az əraziyə və əhaliyə malik olan dövlət isə Maldiv respublikasıdır. Onun sahəsi 298 kv km, əhalisi 380,2 min nəfərə qədərdir. Əhalisi çox olan şəhərlər Çin və Yaponiyadadır. Tokionun şəhərətrafı bölgələrlə birlikdə - 12,24 mln, nəfər, Pekinin isə - 13,7 mln. nəfər əhalisinin olması qeydə alınmışdır. Dünyada şəhərlər üzrə hər kv.km-də maksimal sıxlıq Pekində müşahidə edilir ki, o da 26 min nəfərdən çoxdur. Adambaşına düşən Ümumi Daxili Məhsulun ən çox göstəricisi Yaponiyada - 28 min dollar, ən az göstəricisi isə Şərqi Timorda - 500 dollar təşkil edir.

Asiyada 48 dövlət, iki xüsusi satışa malik olan ərazi vardır. Bu, Sakit okeanda Britaniya ərazisindən və Fələstindən ibarətdir. İdarə olunma formasına görə 34 respublika, 14 monarxiya mövcuddur. Deyilənlərdən 4-ü federativ quruluşa, 9-u konstitusiyalı mönarxiya, 5-i isə mütləq monarxiyaya malik olan dövlətlərdir. Asiya əhalisinin irqi, milli və dil tərkibi çox mürəkkəbdir. Burada bəşəriyyətin 4 aparıcı irqi mövcuddur. Bu monqoloid, avropoid, avstraloid və neqroid irqləridir. Deyilənlərlə yanaşı regionda mindən artıq xalq yaşayır ki, onlar da 200-dən artıq dil və dialektə malikdirlər.

Hindistan, İndoneziya, Flippin, İran, Əfqanıstan, Pakistan, Malayziya və digərləri çoxmillətli dövlət sayılırlar. Banqladeş, Yəmən, Kampusiya, Çin, Koreya Xalq Demokratik Respublikası, Maldiv, Yaponiya azsaylı milli tərkibə malik olan dövlətlərdir. Göstərilənlər içərisində eyni millətdən olanlar ayrı-ayrılıqda 90 %-dən çox xüsusi çəkiyə malikdirlər. Dövlətlərdə aparıcı dillər dövlətlərin adına müvafiq gəlirlər. İslam, induizm, buddizm dinləri aparıcı sayılır.

VII. 1. Çin Xalq Respuhlikası

Sahəsi - 9598 min kv.km.

Əhaiisi - 1304,8 mln. nəfər

Paytaxtı - Pekin şəhəri

ÜDM - 4,9 trln dollar

ÜDM - hər nəfərə - 4600 dollar

Sahəsinin böyüklüyünə görə dünyanın 3-cüsü olan Çin Xalq Respublikası əlverişli coğrafi və geosiyasi mövqeyə malik olmaqla Mərkəzi və Şərqi Asiyada yerləşir. Çin, şimal-şərqdən və şimal-qərbdən - 3645 km məsafədə RF ilə, şimal-şərqdən - 1416 km məsafədə Şimali Koreya ilə, şimal qərbdən - 1533 km məsafədə Qazaxıstanla, 858 km məsafədə Qırğızıstanla, qərbdən - 523 km məsafədə Pakistanla, 414 km - Tacikistanla, 76 km - Əfqanıstanla, cənub-qərbdən 3380 km məsafədə Hindistanla, 2185 km məsafədə Myanma ilə, 1281 km məsafədə Vyetnamla, 1236 km məsafədə Nepalla, 470 km məsafədə Butanla, 423 km məsafədə Laosla, şimaldan 4673 km Monqolustanla, cənub-şərqdən Aomınla (Makao) 34 km məsafədə sərhədə malikdir. Cənubdan Sakit okeamn Cənubi-Çin və şərqdən San vəŞərqi Çin dənizlərinin suları ilə əhatələnmişdir. Qkeanda yerləşən 5000-dən artıq adalar da Çinə aiddir. Beləliklə, onun sərhədinin ümumi uzunluğu 22143,34 km, sahil xəttinin uzunluğu isə - 14500 km-dən az deyildir. Çin dünyanın 15-ə qədər dövləti və ərazisi iiə sərhədə malikdir. Ölkənin ərazisi şərqdən-qərbə 5700 km, şimaldan cənuba doğru 3650 km məsafədə uzanmışdır. Çin Xalq Respublikası ərazisinin nəhəng ölçüyə malik olması, böyük regionda mərkəzi mövqeyi, dünya Okeanına açıqlığı geosiyasi vəziyyətinin əlverişli olmasına dəlalət edir.

Axırmcı onilliklərdə ölçüyə gəlməz dərəcədə inkişafı dünya siyasəti və iqtisadiyyatında liderliyinin mövcud olması nəinki Asiya-Sakit okean regionunda, habelə bütün dünyada onun təsir dairəsini genişləndirmişdir. ÇXR-nın xarici siyasət kursunun formalaşması ölkələrin dinc yanaşı yaşamasının 5 başlıca prinsiplərinə əsaslanır. Bu da öz əksini qəbul edilmiş Konstitusiyada tapmışdır. Bu, ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi, bir-birinə hücüm etməmək, biri-digərinin daxili işlərinə qarışmamaq, bərabərlik və qarşılıqlı

hörmət, sülh şəraitində yaşamaq prinsipləridir. Çin rəhbərlərinin nəzərincə sülh şəraitində yaşamaq, prinsipi yeni beynəlxalq siyasi və iqtisadi baxımının fundamentini təşkil etməlidir. ÇXR-nın prioritet məsələlərindən biri «bir ölkə iki sistem» formulası əsasında ölkələr birliyini təşkil edilməsidir.

ÇXR-sı BMT-nin üzvü olmaqla onun Təhlükəsizlik Şurasıının daimi fəaliyyət göstərən 5 üzvündən biridir. Onun ixtisaslaşmış strukturlarının fəal iştirakçısıdır. XX əsrin 80-cı illərinin başlanğıcından BVF-nun, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının, daha sonralar Asiya İnkişaf Bankının (AİB) və Asiya Sakit Okean İqtisadi Şurasının üzvü seçilmişdir. Sakit okean sahillərindən başlayan Dalyan - Xarbin - Mancuriya, Pekin - Eren - Xoto (Erlyan) - Ulanbator dəmir yolu xətləri sonradan Transsibir xətti ilə birləşərək Avropa ölkələri ilə hər cür əlaqələrin yaradılmasına inıkan yaradır. Digər tərəfdən, dünyanın ən nəhəng çayları sayılan Yansızı, Xuanxe ölkənin uzaq daxili rayonlarından dünya okeanına çıxmağa imkan verir. Çünki həmin çayların 2,3 min km-i gəmiçilik üçün yararlıdır. Ölkənin əhatə olunduğu dənizlər isə gəmiçiliyin və balıqçılıq təsərrüfatının inkişafını zəruriləşdirir.

Ölkədə məhsuldar qüvvələrin inkişaf və düzgün yerləşdirilməsində təbii şərait və təbii ehtiyatlar əhəmiyyətli rol oynayır. Ərazi relyefinin 85 %-i dəniz səviyyəsindən 500 metr, xeyli hissəsi isə 1000 metr hündürlükdə yerləşir. Səth quruluşunun meyilliyi qərbdən şərqə doğru tədrici olaraq alçalır. Ümumiyyətlə, təbii şəraitin aparıcı elementi olan relyefin 2/3 hissəsini dağlıq və 12 %-i düzənlik sahələr təşkil edir. Cənub-qərbdə orta hündürlüyü 4500 m-dən az olmayan (dünyada ən hündür), sahəsi - 2,3 mln. kv.km təşkil edən Şinxay -Tiğet yaylası yerləşir. Qərbdən enlik istiqamətində bir sıra dag silsilələri şərqə dotru istiqamət almışdır. Şimaldan isə Monqol Altayının tirələri əraziyə daxil olur. Cənubdan Nepal sərhədində məşhur Himalayın dünyada ən hündür zirvəsi hesab edilən Comolunqma - 8842 m yerləşir. Himalayla yanaşı Çinin şimal sərhədində biri - birinə paralel uzanan Tyanşan, Atıntaqa, Kunlun və bir sıra digər dağlar ərazinin səth quruluşunu daha da mürəkkəbləşdirir. Göstərilən dağlar arasında Cunqari, Tarim və başqa düzənliklər ölkədə kənd təsərrüfatının inkişafına xidmət edir. Tyanşanın şərq hissəsində - 154 m dəniz səviyyəsindən

alçaqda yerləşən Turfan depressiyası mövcuddur. Ölkənin şərqində düzənliklər çox da hündür olmayan yaylalar. orta hündürlüyə malik olan dağlar relyefə miirəkkəblik gətirirlər. Tsinlin dağından Şimala Lyoslu yayla yerləşir, LyosİIu yayladan şərqə Böyük Çin düzənliyi böyük ərazini əhatə edir.

Ümumiyyəılə, mürəkkəb və çox növlü ərazi relyefində büzlaq və qar örtüyü ilə örtülmüş dağlar, zirvələr, düzənliklər, yaylalar, dağarası çökəklikiər heç də insanların əmək fəaliyyətlərinin təsiri nəticəsində yaradüan məhsuldar qüvvəiərin inkişafına və düzgün yerləşdirilməsinə mənfi təsir etmir, əksinə, beiə mürəkkəb şərait əməyin məhsuldarlığının daima artırılmasına diqqəti daha da artırmağı tələb edir.

Mürəkkəb və müxtəlif geoloji quruluşa maliklik ərazidə dünyada məlum olan yeraltı sərvətiərdən 150-sinin mövcudluğuna şərait yaratmışdır. Bu əsasdan da Çin, dünyada təbii sərvətlərlə zəngin olan döviət kimi tanınır. Kömür, qara və əlvan nadir metal filizləri, mədən kimyası və qeyri filiz ehtiyatlarına görə dünya əhəmiyyəti kəsb edir. Onu da qeyd etmək lazımdır ki, ölkənin qərb rayonlarınının yeraltı və yerüstü təbii sərvətləri hələ kifayət qədər mənimsənilməmişdir. Kömür ehtiyatları öikənin hər yerində aşkarlansa da başlıca yataqlar Şimal və Şimal - Şərq rayonlarındandır. Şanxay, Şensin, Kayluan, Yansızı hovzəsi, Xeqan, Fuşun, Fusin kimi kömür hövzələri olan regionlar mövcuddur. Çində ümumi kömür ehtiyatı 6 trln ton olmaqla dünyada qabaqcıl yeri tutur. Ümumi ərazinin 1/20-i kömürlü sahədir. Karbohidrogen ehtiyatlarından eyni zamanda neftin və qazın olmasını da göstərə bilərik. Əvvəllər, neft ehtiyatlarının aşkarlanması çox zəif həyata keçirilirdisə də xalq inqilabından sonra (1949-cu ü) sovet mütəxəssisləri ərazidə yeni-yeni neft yataqlarının aşkar edilməsində böyük köməkliklər etmişiər. Iri neft yataqları Çinin qərbində müəyyənləşdirilmişdir. Onlardan Karamayl - Cunqari vadisini, Yuymını - Qansu əyaləti son illərdə şelf zonasını Yançanı - Şensi əyalətini, habelə Saydam çökəkliyini, Siçuanın mərkəzini, Şimali-Şərqi Çini göstərə bilərik. ÇXR-də neftli sahə 4,0 mln. kv km, ehtiyatı isə 13 mlrd. tondan artıqdır. Ehtiyatı 30 trln kubmetr, sahəsi 4,5 mln. kv km olan təbii qaz yataqları Siçuan çökəkliyində aşkarlanmışdır. Çin eyni zamanda 60

mlrd. tondan çox ehtiyata malık olan yanar şiştlə də dünyada tanınır. ölkənin şimal-şərq ərazisinin Fuşunya rayonunda, Cənubi Çinin Quandun əyalətində şist hasil olunur. Ehtiyatı - 10 mlrd. tona qədərdir.

Filiz ehtiyatlarına görə Çin fərqlənir. Belə ki, 13,0 mlrd. ton dəmir filizi ehtiyatının olması Çini dünyada 3-cü yerdə saxlayır. Xüsusi növ poladın alınmaşı üçün ölkədə volfram, molibden, marqans kimi dünya əhəmiyyətli xammal ehtiyatlarının olması müəyyənləşdirilmişdir. ÇXR-nın cənub mərkəz rayonlarında əlvan metallurgiya xammalları - boksit, mis, qalay, civə, sürmə, qızıl, gümüş fılizi ehtiyatları vardır. Deyilənlərdən başqa, xörək duzu, daş duz, fosforit xammalları da təbii sərvətlərdən hesab olunur. Mis filizi ehtiyatına görə Çin dünyada 2-ci yerdədir.

Uran ehtiyatından AES-lərin fəaliyyət göstərməsində istifadə olunur. Onun ehtiyatı 800 min ton olmaqla 200-dən artıq yatağa malikdir. Çində 10 mird. tondan çox yanar şist ehtiyatı aşkarlanmışdır. Hələlik ondan geniş istifadə olunmur. Geotermal enerji ehtiyatı Çində - 3,0 mlrd. tutdursa, günəş enerjisi ehtiyatı ölkənin hər yeri üçün səciyyəvi olmaqla ildə - 1,0 mlrd. kvt. saatdan artıqdır.

Çinin coğrafıı mövqeyi, relyefi, ərazinin en və uzunluq ıstiqamətində büyük məsafədə uzanması, dünyanın ən böyük okean hesab edilən Sakit okeana şərqdən açıqlığı iqlimin formalaşmasına təsir edən amillər sayıİır. Bu səbəbdən də ölkənin qərb hissəsinin iqlimi kəskin kontinental, şərqinin iqlimi isə musson xarakterlidir. Umumiyyətlə, mülayim, subtropik, tropik iqlim qurşaqları enlik istiqamətində biri-birini əvəz ediiiər: çox yağmurlu olan şərq hissədə yay isti, qış isə soyuq keçir. Orta yanvar temperaturu - 30°S, cənubda +18°Ş qeydə alınmışdır, Şimal-şərqdə və daxiii Monqolustanda +2Ü-28°S iyul ayının orta temperaturu müşahidə edilir. Şimalda və qərbdə illik atmosfer yağıntılarının miqdarı 50 - 800 mm arasında dəyişirsə, şərqdə və cənubda bu 2500 mm-dən artığa çatır. Qeyd etmək lazımdır ki, ərazinin 90 %-i mülayim, yerdə qalan cənub hissəsi isə subtropik və tropik iqlim qurşağına duşur.

İqlim müxtəlifliyi ölkədə zəngin aqloiqlim ehtiyatlarının, şimaldan cənuba, eləcə də qərbdən şərqə biri-digərlərini əvəz edən

landşaftın mövcudlaşmasına imkan vermişdir. İqlim elementlərinin yaxşı mənada gedişi, ərazi relyefi ölkədə hidroqrafiya şəbəkəsinin səviyyəli inkişafına öz təsiri göstərir. 50 mindən artıq çay, xeyli sayda göllər, yeraltı su ehtiyatları bolluğu onlardan təsərrüfatının bu və ya digər hissəsində istifadə olunmalarına imkanları daha da artırır. Əsasən yağış, qar və buzlaqlardan qidalanan ərazi çaylarından Yanzısı, Xuanxe, Amur, Xuayxe, Çjusyan Sakit okean hövzəsinə aid olanlardır. Yarkənd, Aksu, Tanın çayları çox da böyük olmamaqla qərbdən enlik istiqamətində axırlar. Daxili sulardan enerji alınmasında, suvarmada, gəmiçilikdə geniş istifadə olunur. Yansızı çayı su axınına görə Asiyada birinci, dünyada isə dördüncü yerdədir. O, həm də ən böyük dəniz gəmilərinin hərəkət etməsində yararlıdır. Onun üzərində dünyada ən böyük Sansya SES-inin yaradılması işləri həyata keçirilir. SES-in gücü 20 mln. kvt olmalıdır. Yansızı çayı üzərində ümumi gücü 200 mln. kvt-a çatan SES-lər tikmək mümkünlüyü və onlardan ildə - 1,0 trln ktv saat elektrik enerjisi alına bilinməsi artır dövlət tərəfindən sübut olunmuşdur. Çin çaylarının hidropotensialı 680 mln. ktv-dan artığa çatır. Hələlik bundan çox az istifadə oluınur. Çində Poyanxu, Xunszexu, Tayxu kımi şirin sulu, Kıukunor, Lobnor şor sulu göllər mövcuddur.

Meşə örtüyü dağlıq ərazilərdə iistüniük təşkil etməklə 162 mln. ha-dan artıq deyildir. Əhəmiyyətli ağac növləri mövcuddur.

Yansızı çayı hövzəsindən cənubda, habelə Sıçuan vadisində qırmızı torpaqlar geniş əraziyə malik olmaqla çəltik becərilməsində ıstifadə olunur. Şimali və Şimal-Qərbi Çində yayılan şabalıdı torpaqlar payızlıq btığda, lobya, kartof becərilməsi üçün yararhdır. Ölkənin şimal - şərqinda qara torpaq növləri öz məhsuldarlığı ilə seçilir. Şimali Çin düzənliyi ərazisi Tayxu gölü ətrafı və Yansızı çayının aşağı axımları allüvial torpaqlarla tanınır.

Qeyd etmək lazımdır ki, ərazi torpaqları erroziyaya çox məruz qalmışdır. Ətraf mühitin qorunmasına Çin hər il ÜDM-dan 0,7 % ayırmalara məcbur olur. Ölkədə ümumi sahəsi 72 mln. ha olan 799 sayda dövlət qoruğu fəaliyyət göstərir. Eləcə də ekoloji tarazlığı saxlamaq üçün fəalıyyət göstərən 2157 təşkilatda 92 mindən artıq işçi qüvvəsi çalışır. Mövcud 32000 ali növ bitkini, 1186 növ quşu, 2091 növ quruda yaşayan onurğalıları, 200 növ

yeraltı sularda ya-şayan canlılar aləmini qoruyub saxlamaq başlıca vəzifə kimi onların qarşısında əsas məsələ kimi durur.

Çin dünyanın ən qədim dövlətlərindən biri sayılır. Hələ eramızdan əvvəl, 2-ci min illikdə Xuanxe sahıllərində döviətin ilk elementləra mövcud olmuşudr. Sonralar mərkəzləşmiş Tsin imperiyasının əsası qoyulmuşdur. Nəhayət, Çin 1999-cu ilin oktyabrından sosialist inkişaf yoluna qədəm qoyaraq müasir formasını almışdır. Dövlət quruluşuna nəzər saldıqda 1 oktyabr 1949-cu ildən yaranmış və 1982-ci il Konstitusiyasına görə hal-hazırda sosialist unitar dövlətidir. Ali hakimiyyət orqanı xalq nümayəndələrinin Ümumi Çin Yığıncağı hesab edilir. Yığıncaq qanunvericilik fəaliyyətini həyata keçirir, öikənin inkişafı haqqında başlıca məsələlər üzrə qərarlar təklif edir, XNÜÇY Daimi komitəsinin üzvlərini, Çin Xalq Respublikasının sədrini və müavinlərini seçir, Dövlət Şurasının başçısına və onun müavinlərinə olan namizədləri, eləcə də hökumətin digər üzvlərini təsdiq edir. Deyilənlərlə yanaşı, Mərkəzi hərbi Şuranın və Ali xalq məhkəməsinin sədrini və Baş prokuroru seçir. XNÜÇY-nın sessiyası ildə bir dəfə çağrılaraq 5 il müddətində səlahiyyətiərə malikdir. Dövlət Şurası dövlətin alı inzıbatı orqanıdır. Mərkəzi hərbi şura bütün hərbi qüvvələrə - ÇXAO-na, polis orqanlarına, xalq süvarilərinə rəhbərlik edir. Ölkodo 23 oyalət, 5 muxtar rayon, mərkəzə tabe olan 4 şəhər, Syanqan və Aomın xüsusi inzibati rayon (2), yerlərdə dövləti əyalət, uyezd, qəsəbə xalq yığıncaqları nümayəndələri və müvafiq yerli xalq nümayəndələn təmsil olunur. Bunlarla yanaşı, Çində 30 muxtar vilayət, 124 muxtar uyezd (Somona) fəaliyyət göstərməkdədir.

Çində əsası 1921-ci ildən qoyulmuş və 1949-cu ildan aparıcı hesab edilən Çin Kommunist Partiyasının 55 mln-dan artıq üzvü vardır. Bundan başqa, Demokratik partiya (49 min üzvii), 120 min üzvü olan Demokratik dəstə (Liqa), 63 min üzvü olan Demokratik quruculuq assosiasiyası, Demokratiyanın inkişafına təsir edən assosiasiya (58 min üzvü), Eəhlə-demokratik partiyası (58 min üzvü), Ədalət milli partiyası (14 min üzvü), 3 sentyabr Cəmiyyəti (60 min üzvü) və 1400 üzvü olan Tayvan demokratik özünü idarəetmə dəstəsi patiyaları da fəaliyyət göstərirlər.

Əhalisi - sayına görə Çin 1-ci yeri tutur. Ölkədə dünya əhalisinin 21 %-dən artığı cəmləşmişdir. Hər hansı ölkədə əhalinin sayını müəyyən etmək məqsədi ilə onun sıyahıya alınması əməliyyatı aparılır. Bu məqsədlə 1949-cu ildən son vaxtlara qədər ölkədə 5 dəfə əhalinin siyahıya alınması aparılmışdır. Nəticədə 1959-cu ildə aparılan ilk sıyahıyaalmaya görə ölkədə 583 mln. nəfər əhalinin olması qeydə alınmışdır. İkinci siyahıyaalmada - 1964-cü iidə bu say 695 mln. nəfəri keçmişdir. Əhalinin sürətlə artması prosesi öz kəmiyyət göstəricisini sayca 3-cü siyahıyaalmada - yəni 1983-cü ildə 1008 mln. nəfərə çatdırmışdır, 4-cü siyahıyaalma - 1990-cı il onu göstərdiki artımın kəmiyyət göstəricisi artıq 1134 mln. nəfəri keçmişdir. 1993-cü il Çinin əhalisi 1. 185 mln, 5-ci siyahıyaalmada - 2000-ci ildə - 1261 mln. nəfər, 2005-ci ildə bu say 1.300 mlndan artıq olmuşdur. Bınu, 2055-ci ilin yanvar ayının il axşamında doğulmuş oğlan uşağından müəyyən etmək mümkündür. Göründüyü kimi, ÇXR-sı yarandığı gündən bu vaxta qədər əhali 3 dəfəyə yaxın artmışdır. Bu onu göstərir ki, dünya əhalisinin hər 4,5 nəfərindən biri çinlidir. Qeyd etmək lazımdır ki, əgər dövlət tərəfindən əhalinin təbii artımının tənzimləyən demokratik siyasət həyata keçirilməsəydi əhalinin sayı daha da çox ola bilərdi. Demokratik siyasətin həyata keçirilməsi məsələsi ilk dofə 1978-ci ildə Konstitusiya tərəfindən təsdiqlənmiş və qəbul edilmiş ailə planlaşdırılması məsələsində qanuniləşdirilmişdir. Sonrakı mərhələlərdə isə ailə qurulmasında yaş həddləri xeyli dəyişdirilmişdir. Daha doğrusu, ailə qurularkən oğlanlar üçün aşağı yaş həddi 24 il, qızlar üçün 22 il qəbul edilmisdir Bununla yanaşı maddi maraqlandırma və hətta cəza tədbirləri də hökm sürür. Əhali artımıının nəzarətdə saxlamaq məqsədilə 1981-ci iidən doğumun planlaşdırılması Dövlət Komissiyası da fəaliyyət göstərir. Ölkənin həyata keçirdiyi demokratik siyasətin məqsədı çoxuşaqlılığın qarşısının alınmasıdır. Ona görə də ölkədə «iki uşaq yaxşıdır, 3 uşaq həddən artıq çoxdur, 4-cü uşaq səfdir> kəlamı hükm sürür. Dövlət, bu siyasəti həyata keçirərkən əlbəttə, ölkənin torpaq sahəsini, iqtisadi inkişaf durumunu, işsizliyüi və digər bir sıra amillərin vacibliyini dİqqətdən kənarda qoymur. Deyilənlərin nəticəsində Çin əhalinin təbii artımının 1-ci tipinin nümayəndəsi kimi çıxış edir. Hətta əhali təbii artımının 1-ci tipinin 3-cü fazası özünü göstərir. Yəni-doğum

az, ölüm az, təbii artımının əvvəlkilərə nisbətən az formulası mövcuddur. Ona görə də hər min nəfər hesabı ilə doğulan 14 nəfər, ölən 7 nəfər, təbii artım 7 nəfər təşkil edir. Əhalinin illik mütləq artımı 10,2 mln. nəfərdən artıq deyildir. Deməli, əhali ölkədə hər il 10 % artmış olur. Müüəyyən olunmuşdur ki, hər il ölkədə - 10 mln. yeni ailə qurulur. Bu, ABŞ-da - 2,4 mln, Banqladeşdə - 1,2 mln, Rusiyada - 1,1 mln. təşkil edir. Ona görə də, dövlət əhalinin təbii artımına təsir edən yeni - yeni daha sərt tədbirlərin həyata keçirilməsi üzərində düşünür. Görüləsi tədbirlər nəticəsində 2010 - cu ildə ölkədə əhalinin sayı -1,4 mlrd. nəfər, 2025-ci ildə - 1,5 mlrd. nəfər, 2050-ci ildə isə - 1515 mln. nəfər olması gözlənilir. Aydın olur ki, əhalinin illik artımının sürəti xeyli zəifləyəcəkdir.

Çin dünyanın çoxmillətli ölkələrindən biridir. Çinlilər ümumi əhalinin - 93 %-ni təşkii edir. Ölkədə az saylı xalqların 55 qrupu vardır. Onların içərisində ən çox əhalisi olanı çjuanlardır ki, onun da əhalisinin sayı 16,0 mln-a çatır. Ölkədə sitayiş olunan daosizm, buddizm (Lamaizm), islam, katolik və protestant dinləri vardır. Ölkənin Şimal-Qərbində yaşayan islam dininə sitayiş edirlər. Şanxayda, Pekində əsasən katolik və protestat dinlərinə sitayiş edənlər yaşayırlar. Provoslavlar isə Xarbində yaşayanlardır. Ölkə üzrə əhalinin qeyri bərabər yerləşməsi əsaslı təsərrüfat çətinlikləri yaradır. Şərqdə əhalinin sıxlığı 1 kv km-də 600 nəfərdən çox olduğu halda, Tibet Muxtar rayonunda bu göstərici 1-2 nəfərə enir. Əhalinin hər kv. km-də orta sıxlığı 136 nəfərdən çox deyildir. Lakin bu sıxlıq Pekində daha yüksəkdir. Belə ki, nəikni Çində, habelə bütün dünyada əhalinin maksimal sıxlığı öz əksini Pekində taparaq hər kv. km-də - 26 minə çatmaqdadır. Kişilər üçün orta yaş həddi - 70 il, qadınlar üçün - 74 ildir. Şəhər əhalisi - 36 %, kənd əhalisi - 64 %-ə çatır. Ona görə də urbanizasiyanın səviyyəsi - 40 % təşkil etsə də bu orta dünya göstəricisindən xeyli aşağıdır. Lakin dünyanın heç bir ölkəsində Çində olduğu qədər - 550 mln. nəfər şəhər əhalisi və milyonçu (50-yə qədər) şəhər yoxdur. Şəhərlərin çoxu ölkənin şərqində yerləşir. Ən iri şəhərləri Pekin, Şanxay, Tuantszin, Şenyan sayılır. Pekin nəinki Çində habelə dünyada ən böyük sahələrdən biri olmaqla ətrafları ilə birlikdə - 13,6 mln. əhaliyə malikdir. Çinin siyasi, inzibati, iqtisadi və mədəni mərkəzidir. Pekin ölkənin inzibati mərkəzidirsə, ətrafları ilə birlikdə - 14,2 mln. əhalisi olan

Şanxay isə onun iqtisadi mərkəzi sayılır. Çində - kişilərin sayı - 51,4 %, qadınların sayı isə - 48,6 %-dir. Əmək ehtiyatları ümumi əhalinin -53 %-ni, Daha doğrusu, - 710 mln. nəfərini əhatə edir. Fəal əhali ölkədə - 59 %-dən az deyil. İşsizlər ümumi əhalinin - 3,2 %-nə çatır.

Müasir Çin dünya təsərrüfatında özünün aparıcı mövqeyi olan yüksək inkişafa malik sənaye-aqrar ölkələrindən birisidir. Hələ XX əsrin ortalarına qədər Çin dünyanın geridə qalmış aqrar ölkələrindən biri sayılırdı. Bəzən onu Asiyanın «xəstə adamı» adlandırırdılar. Sosializm quruculuğunun ilk illərində (1949-cu ildən) ÇXR çətin və ziddiyyətli tarixi bir yol keçmiş, böhranlarla rastlaşmışdır. 80-cı illərin axırlarından aparılan siyasət nəticəsində ölkə böhran vəziyyətindən çıxarılmışdır. Sosialist quruculuğunun daha da təkmilləşdirilməsi məqsədi ilə sənayeni, kond təsərrüfatının, müdafiəni, elm və texnikanı daha da inkişaf etdirmək üçün 4 modernləşmə proqramı həyata keçirilməkdədir. Bu proqram ölkəni mərhələlər üzrə XXI əsrin ortalarmadək yiiksək inkişaf etmiş sosialist dövlətinə çevirmək məqsədi daşıyır. Son illər aparılan siyasət və görülən tədbirlər nəticəsində Çində istər illik ÜDM-nin xüsusi çəkisi və istərsə də adambaşına istehsai olunan ÜDM -nın miqdarı əhalinin iqtisadi-sosial vəziyyətinin yaxşılaşdırılması baxımından köklü sürətdə dəyişmişdir. Bu da Çinin dünya iqtisadiyyatında rolunu və yerini əsaslı surətdə irəliyə aparmışdır. Daha doğrusu, ölkə dəmir filizi, çuqun, volfram, sink, qalay, mineral kübrə, sement, radio-priyomnik, televizor, paltaryuyan maşın, velosiped, ayaqqabı, taxıl məhsulları, kartof, araxis (yerfindığı), meyvə, tərəvəz, bitkiyağı, ət, yumurta, bahq, dəniz məhsulları, siqaret və pambıq məhsulu tədarükünə görə dünyada 1-ci; qurğuşun, manqan, molibden, elektrik enerjisi, məişət soyuducusu, kimyəvi lif, qarğıdalı, çay, xam yun tədarükünə və dəmiryollarının yük dövriyyəsinə, qızıl valyutası ehtiyatına, sənaye məhsulu istehsalının dəyərinə və sairəyə görə isə 2-ci yerə çıxmışdır. Deyilənlər hamısı iqtisadiyyatının sahə strukturunun dəyişdirilməsi, islahatların aparılması, xarici kapitalın axınına yaradılan şərait, azad bölgələrin yaradılması, dövlət - kooperativ - xüsusiyyətçilik münasibətlərindən istifadə və sair sosial - iqtisadi dəyişikliklərin köklü surətdə həyata keçirilməsinin məhsullarıdır.

Son illərdə ÜDM strukturunda kənd təsərrüfatının xüsusi çəkisi - 14 %, sənayenin xüsusi çəkisi isə 53 % təşkil etməklə, əvvəldə qeyd edildiyi kimi, ÇXR aqrar ölkədən yüksək surətdə inkişaf edən sənaye-aqrar ölkəsinə çevrilmişdir. Elm tutumlu sahələrin - kompüter, mikroelektrotexnika, biotexnika, ətraf mühitin qorunması texnikası, robot, intensiv kənd təsərrüfatı,eləcə də yerin süni peyklərinin buraxılması üçün kosmik-raket sənayesinin inkişafı ölçüyəgəlməz inkişaf sürəti almışdır. Həyata keçirilən islahatın 20-ci ilində ölkənin iqtisadi inkişafı - 6 dəfədən çox, adambaşına düşən məhsul istehsalı - 5 dəfəyə yaxın, fəhlələrin əmək haqqı - 10 dəfə, kəndlilərin gəliri - 16 dəfə artmışdır. Kasıbların sayı - 250 mln-dan - 80 mln-a enmişdir. Qəbul olunmuş 10-cu - 5 illik plana (2001-2005-ci illər) əsasən Çin iqtisadiyyatı böyük sürətlə, intensiv yolla inkişaf etməklə dünya iqtisadiyyatına daha sıx qovuşacaqdır. Bu müddət ərzində Çin insan tərəfindən idarə olunan hava gəmisini kosmosa buraxmağı və aya ekspedisiya uçuşunu təşkil etməyi qarşıya məqsəd qoymuşdur. Dünya bankının ekspertləri belə hesab edirlər ki, Çin 2020-ci ildə ÜDM istehsal həcminə görə hətta ABŞ-ı 1,4 dəfə ötüb keçərək dünyanın super dövlətinə çevriləcəkdir. 2002-ci ildə keçirilmiş Çin KP-nm XVI qurultayı ÜDM istehsalının həcminin 2020-ci ilə qədər 4 dəfə artırılmasına və ortabablar təbəqəsinin formalaşmasının qarşıya əsas məqsəd kimi qoymuşdur.

Çində həyata keçirilən tədbirlər nəticəsində təsərrüfatının strukturunda sənayenin payı - 53 %, kənd təsərrüfätı - 14 %, xidmət sferası - 31 % təşkil edir.

Ölkənin qısa müddətdə belə sürətlə hərtərəfli inkişafını haqlı olaraq Çin möcüzələri adlandırırlar.

Çində, iqtisadiyyatın sürətli inkişafı xalqın həyat səviyyəsinin daha da yüksəldilməsinə xidmət edən uzunmüddətli sənaye məhsulları növləri istehsalına söykənir. Belə ki, hələ XX əsrin 90-cı illərinin ortalarında şəhər əhalisinin 90 %-dən çoxu rəngli televizorla, paltaryuyan maşınlarla, məişət soyuducuları ilə, 30 %-dən artığı çəkiliş kameraları və kondisionerlərlə təmin edilmişlər. Kənd yaşayış yerlərində isə hər 100 nəfərdən 81 nəfərinin televizoru, 5 nəfərinin məişət soyuducusu, 17 nəfərinin paltaryuyan maşını olmuşdur. Şəhər və kəndlərdə yaşayış sahəsi 2

dəfədən çox artırılmışdır. ÜDM-nin 53 %-ni verən sənayenin yanacaq-energetika, metallurgiya, maşınqayırma, kimya, neft-kimya, tikinti, meşə, yeyinti, yüngül sahələri xalqın istehlakına müvafiq məhsullar istehsal etməkdədir. İllik sənaye məhsulu istehsalına görə - 1115 mlrd. dollarlıq ancaq ABŞ-dan (2025 mlrd. dollarlıq) geri qalır.

Yanacaq-energetika kompleksinin (YEK) əsasmı yerli ehtiyatlarının mövcudluğu taşkil edir. Yanacaq-energetika balansında kömür 75 %, neft-17 %, qaz-20 %, elektrik enerjisi-6 % yer tutur.

Kompleksin strukturunda böyük xüsusi çəkisi olan qədim ənənəvi mənbələrdən sayılan kömürün əhəmiyyətli rolu vardır. Onun 300-dən artıq yatağı aşkar edilmişdir. İstifadə olan - 16 məşhur kömür şaxtasının hər biri ildə 10 mln. tondan artıq məhsul istehsal edir. Bunlardan Datun (Şansi), Kayluan (Xebey), Pindinşan (Xenan), Xuaybey (Anxoy), Yançsou (Şandun), Syuyçjou (Tzyansu), Tzusi (Xeyluntsizyan), Tefa (Lyaonin) şaxtalarının adlarnı çəkə bilərik. Ölkədə mövcud kömür yataqlarından hər il - 1,4 mlrd. tona qədər məhsul istehsalı Çini dünyada 1-ci yerdə saxlayır. Hər il Yaponiyaya, Koreya Respublikasına xeyli miqdarda kömür ixrac edir.

Yanacaq sahəsində 2-ci yeri tutan neft sənayesinin o qədər də qədim inkişaf tarixi yoxdur. Yerli neft istehsalına 1960-cı ildə Datsin neft mədənlərindən başlanılmışdır. Şenlik (Şandun), Lyaoxes (Lyaonin) mədənlərindən neft hasilatı 1970-ci ilə aiddir. Son illər Tarim, Turfan-Xamiy, Cunqari (Sintsizyan - Uyğur Muxtar Respublikası), habelə dənizin Boxay körfəzindən və Cənubi- Çin dənizinin şelf zonasından neft hasil olunmaqdadır. Son illər RF-nin Sibir ərazisindən boru kəməri vasitəsilə neft-qaz idxalının reallaşdırmaq məqsədilə Rus-Çin layihəsi həyata keçirilir. İllik istehlakı ödəmək məqsədi ilə hər il - 162 mln. ton neft hasil olunmaqla 90 mln. ton xam nefti də (İndoneziyadan, Malayziyadan, İran körfəzi sahili dövlətlərindən) idxal edilir. İllik neft ixracı 30 mln. tondur. Çin neftini əsasən Yaponiya və KXDR idxal edirlər. Son illərdə neft sənayesinin qüvvətli emal sahəsi də yaradılmışdır. Deyilənlərin nəticəsi olaraq göstərə bilərik ki, ÇXR neft hasilatına görə dünyanın 5-ci ölkəsinə çevrilmişdir.

Ən ucuz və keyfiyyətli yanacaq növü təbii qazdır. Onun illik hasilatı - 30 mlrd. kubmetrdən çox deyildir. Müasir Çində dənizin şelf zonasında da qaz yataqlan aşkarlanmışdır.

YEK-də elektroenergetika xüsusi yer tutur. Çünki elektrik enerjisi hasilatında dünyanın 2-cisi hesab edilən Çində hər il - 1,4 trln kvt-saata qədər məhsul əldə edilir. Mövcud elektrik stansiyalarının gücü 200 mln. kvt-ı keçmişdir. Onun İES, SES, AES, GeoİES, GES, QES, KES növləri istehlaka xidmət edirlər. İES-lər illik elektrik enerji hasilatının 4/5-nü verməklə, başlıca olaraq bərk yanacaq-kömür əsasında fəaliyyət göstərirlər. Onların çoxu xammal rayonlarında - Fuşunda, Fusində, ya da kı, ölkənin iri şəhərləri olan Pekində, Şanxayda, Syanqanda, Ninbada yerləşdirilmişdir. Təkcə Şanxayda ölkənin istilik elektrik stansiyalarının - 20 %-ə qədəri cəmlənmişdir. Hidroenerji potensialına görə Çin dünyada tanınır. Burada əsasən Yansızı və Xuanxe çaylarının gücündən istifadəyə geniş yer verilir. Çünki təkcə Yansızı ildə - 1,0 min kub km su axıdır. Bu əsasdan da Çində su enerjisindən geniş istifadə olunması barədə geniş Dövlət planı qəbul edilmişdir. Ən böyük kaskadlar Yansızı və Xuanxe çayları üzərində yaradılır. Dünyanın ən sulu çayı sayılan Yansızı üzərində ümumi gücü 20,0 mln. kvt, 26 turbinli, bəndinin hündürlüyü - 180 metrə və uzunluğu - 2,5 km, su anbarının uzunluğu -700 km -dən artıq, anbarın su tutumu 1Omlrd. kubmetr, illik elektrik enerjisi hasilatı 85 mlrd. kvt saat olan Sansya SES-nin birinci bloku 2003-cü ildə istifadəyə verilmişdir. Tam gücü ilə onun 2009-cu ildə işə düşəcəyi planlaşdırılmışdır. SES-in tikilməsinə - 70 mlrd. dollar xərcin gərək olması müəyyənləşdiribdir. Tikintinin baha başa gəlməsi xarici investisiyaların ölkəyə axımını tələb edir. Birinci blokunun tikintisinə alman, Kanada, fransız, İsveçrə firmaları investisiya qoymaqdadırlar. İnvıestisiyaların artırılması üçün hələ 1000-ə qədər kontraktların imzalanması tələb olunur. Su qovşağı tikilərkən böyük iqtisadi səmərəlilik əldə ediləcəkdir. Hər il 40 mln. ton kömürə qənaət olunacaq uzunluğu 9000 km-dən artıq yüksək gərginlikli ötürücü elektrik xəttinin çəkilməsi milli dəyərlərə söykənən ölkə enerji sisteminin formalaşdırılacağına imkan verəcəkdir. Bununla yanaşı Sunqari çayı üzərində gücü 570 min kvt olan Fınman, Yansızı üzərində gücü - 400 min kvt-dan cox olmayan

Qeçjoubo SES-ləri xeyli vaxtdır kı fəaliyyətdədirlər. Mövcud SES-lərdən hər il hasil olunan enerjinin 19 %-i alınır. Bu vaxta qədər çayların hidropotensialının 10 %~ə qədərindən istifadə olunmuşdur.

Yansızı üzərində gücü 75 mln. kvt -dan çox olan 20 SES-dən ibarət kaskadın (orta illik elektrik enerji hasilatı 365 mlrd. kvt saat olmaqla) yaradılmasına başlanılmış və hər birisinin gücü - lOmln. kvt-dan az olmayan 11 SES-dən ibarət yeni kaskadın yaradılması planlaşdırılmışdır. Bununla yanaşı Xuanxe çayı üzərində də 15 SES-i birləşdirəcək kaskadın yaradılması nəzərdə tutulur. Hal-hazırda ÇXR SES-lərin gücünə görə - 75 mln. kvt dünyada 2-ci yerə, onlardan alınan elektrik enerjisinin illik miqdarına görə - 220 mlrd. kvt saat - 4-cü yerə çıxmışdır,

Atom enerjisindən istifadə etmək Çinə son illərdə nəsib olmuşdur. 1991-ci ilin axırlarında Şanxaydan cənub qərbdə gücü - 300 min kvt olan ilk AES - Tsızinşan istifadəyə verilmişdir. Bu, ancaq çinli mütəxəssislərin layihələri əsasında yaradılmışdır. Sonralar 1994-cü ildə gücü 900 min kvt-a çatan Davan AES-ini (Quandun əyalətində), 1997-ci ildə Rusiya ilə bağlanan müqaviləyə əsasən gücü - 2,0 mln. kvt Lyanyunqan AES-ini (Tsizyansu əyalətində) tikmək mümkün olmuşdur. Bunların nəticəsində Çin atom enerji blokların sayına (6 ədəd) və onun ümumi gücünə görə (4,9 mln. kvt) dünyada 14-cü yeri tutmaqdadır. İllik elektrik enerji istehsalında AES-in xüsusi çəkisi - 1,5 %-ə qədərdir.

Qeyri-ənənəvi enerji mənbələrindən ÇXR-da hələ qədimdən istifadə olunur. Ölkədə sahil zonalarında QES fəaliyyətdədir. 1986-cı ildə gücü - 3,2 mln. kvt olan Tszyan QES-i istifadəyə verilmişdir. Tibetin Lxas ərazisində geotermal mənbələrə əsaslanan Geo İES xeyli vaxtdır ki (1970-ci ildən) quraşdırılmışdır. Dünyanın 200-dən artıq ölkəsində belə elektrik stansiyaları vardır. Ölkənin bir çox rayonlarında da günəş, külək qurğuları işə salınmışdır.

Onu da qeyd etmək yerinə düşərdi ki, XX əsrin 80-cı illərinin sonuna qədər odun yanacaq kimi enerjiyə olan tələbatın 25 %-ə qədərini ödəyirdi.

Ümumiyyətlə, YEK-in illik məhsul istehsalı 1.300 mln. tutdursa, illik istehlak 1250 mln. tutdan çox deyildir. Deməli, YEK-in illik məhsul istehsalının saldosu aktivdir.

Metallurgiya kompleksi Çində yanacaq - energetika kompleksi kimi qədim və prioritet sahələrdən biridir. Burada xüsusilə qara metallurgiya əhəmiyyətli dərrəcədə məhsul istehsalının kəmiyyət-keyfiyyət göstəricilərinin tələb olunan səviyyədə olması ilə seçilir. Çində qara metallurgiyanın 1500-dən artıq tam və natamam dövriyyəli müəssisələri fəaliyyət göstərir. Ona görə ki, zəngin yerli filiz xammalları, kokslaşan kömürü, eləcə də məhsullara olan tələbatı böyükdür. Çin dəmir filizi ehtiyatına görə (13,0 mlrd. ton) dünyada 3-cü, manqan filizinə görə 6-cı (270 mln. ton), molibden filizinə görə (1,2 mln. ton) 3-cü, volfram ehtiyatına görə (1,5 mln. t, dünya ehtiyatının 40 %-i) 1-ci yeri tutur. 1949-cu ilə qədər qara metallurgiyası olmayan bir ölkə son illərdə dəmir filizi istehsalının 224 mln. tona (idxalatı - 65 - 70 mln. tondur), polad əridilməsini 182 mln. tona (dünyada 850 mln. ton) çatdırmaqla dünyada 1-ci yerə çıxmışdır. Ölkədə yerli xammala, yanacağa əsaslanan 5 qara metallurgiya bazası formalaşmışdır. Birinci qara metallurgiya bazası Şimal-Şərqi Çində formalaşaraq Anşan dəmir filizinə, Fuşun və Fusin kokslaşan kömürünə əsaslanan Anşan metallurgiya kombinatı ilə tanınır. Kombinat ildə - 8,0 mln. ton polad, bir o qədərdə çuqun əridir. Anşan qara metallurgiya kombinatında 150 mindən artıq işçi qüvvəsi vardır. Bundan başqa, bu bazada Bensi, Fuşun, Dalyan qara metallurgiya zavodları da fəaliyyətdədir. İkinci qara metallurgiya bazası Şimali Çində yerləşməklə Pekin, Tyantsin, Tanşan iri zavodları ilə tanınır. Üçüncü qara metallurgiya bazası Şimali Çinin Daxili Monqolustan muxtar rayonunda yerləşən Baotoda fəaliyyətdə olan iri metallurgiya kombinatı sayılır. Yansızı çayının aşağı axmında mövcud qara metallurgiya bazası sayca 4-cüdür. Burada 1985-ci ildən məhsul verən Baoşan metallurgiya kombinatı istehsal göstəricisinə görə Anşandan geri qalaraq ildə - 7,0 mln. ton polad, - 7,0 mln. t çuqun, - 6,0 mln. tona qədər prokat istehsal edir. Kombinat Yaponiya və Almaniya mütəxəssislərinin köməklikləri ilə tikilərək həcmi - 4,0 min kubmetr olan dünyada ən nəhəng domna peçinə, oksigen konvertinə, prokat qurğusuna malikdir. Məhsul əldə edilməsi üçün xammal Avstraliyadan idxal olunur. Ölkənin 5-ci metallurgiya bazası Yansızı çayının orta axınıda yaradılmış Uxan metallurgiya kombinatıdır. Mərkəzin xammalına

və yanacağına əsaslanaraq ən əvvəl rayonun maşınqayırma sənayesi üçün gərəklidir.

Qara metallurgiyanın inkişafında yerli dəmir filizi bir o qədər də keyfiyyətli olmadığından hər il xarici ölkələrdən - 110 mln. tondan çox xammal almaqdadır. Yaxın gələcəkdə, ölkədə tələbata müvafiq olaraq polad əridilməsinin - 300 mln. tona çatması xammalın - dəmir filizinin də idxalını artıracaqdır.

Əlvan metallurgiyanın inkişaf etdirilməsi üçün əlverişli yerli təbii imkanlar mövcuddur. Boksit, polimetal filizlər, tələbat Çində alüminium, mis, qalay, qurğuşun, volfram kimi əlvan metalların istehsalını gündən-günə daha da artırır. Əlvan metallurgiyanın başlıca müəssisələri Şimali-Şərqi Çində, Mərkəzi Çində, Şanxayda fəaliyyət göstərir. Hər il ölkədə - 9,0 mln. ton boksit, xeyli miqdarda gil-torpaq, dünyada istehsal olunan volframın 50 %-i, alüminium -2,6 mln. ton, mis - 1,2 mln. ton, qızıl - 160 ton istehsal olunur.

Maşınqayırma və metalemah çoxçeşidliliyi ilə seçilir. Məhsullarının içərisində ağır sənaye avadanlıqları və toxuculuq sənayesinə gərək olan maşınlar üstünlük təşkil edir. Bunlarla yanaşı elektronika, elektrotexnika, avtomobilqayırma sahəsi sürətlə inkişaf edir. Müasir texnoloji avadanlıqlarla silahlanmış sahələrlə yanaşı, kustar, xırda maşınqayırma zavodları da vardır. Şimali Çində ağır maşınqayırmanın dağ - mədən avadanlıqları, Şimali-Şərqi Çində ağır maşınqayırmanın bir başqa növü (Xarbində, Senyanda) istehsalı müəssisələri vardır. Ölkədə dəzgahqayırma inkişaf etsə də inkişaf etmiş ölkələrdən daha mürəkkəb və müasir dəzgahları idxal edir. Ən böyük dəzgahqayırma müəssisələri Şimali-Şərqi Çinin Şenyan, Dalyan şəhərlərində, eləcə də Yansızı çayının mənbələrinə yaxın-Şanxay, Mankin, Usi şəhərlərində, habelə Pekində mövcuddur. Çinin həyatında nəqliyyat maşmqayırması xüsusi yer tutur. Ərazinin en və uzunluq istiqamətində çox məsadə uzanması, çayların hətta dəniz gəmiləri üçün yararlılığı və onlar vasitəsilə dənizə çıxma imkanının varlığı ölkədə müxtəlif məqsədli və yük tutumlu gəmilərin, parovozların, vaqonların, avtomobillərin istehsal ölunmasına zəminləri daha da artırır. Çin gəmiqayırma sahəsində dünyanın birinci-10 dövləti sırasına daxildir. Şanxay, Dalyan, Çauncjou, Uxan müxtəlif növ gəmiqayırma mərkəzləridir.

Dəmiryolu maşınqayırma mərkəzləri isə Şenyan, Dalyan, Aolyan, Pekin, Tsindao, Uxan sayılırlar. Dünyada 6-7-ci yeri tutmaqla avtomobil sahəsində Çançun və Şiyan şəhərləri fərqlənir. Son illərdə xarici kapitalın iştirakı ilə birgə müəssisələrin sayı artmaqdadır. Şanxayda, Tyansızın şəhərlərində ildə - 40 mln. velosiped buraxılır. Ölkədə 300 mln. velosipedin olması onu dünyanın 1-ci dövləti sayılmağa imkan verir. Dünyada isə cəmi 800 mln. velosipedin olması məlumdur. Elektron, elektrotexnika və cihazqayırma sənayesi məhsullarına olan tələbatın gündən-günə artması radio-qəbul-edici, nıaqnitofon, kompüter, məişət aparatları, televizor, saat, paltaryuyan maşın, məişət soyuducusu, məişət dondurucu (morozilnik), ventilyator (sərinləşdirici) məhsulları istehsalını daha da zəruri edir. Hər il 36 mln. ədəd televizor buraxılır. Bu, dünyada 1-ci yer deməkdir.

Son illər kosmosun fəthi ilə bağlı texnikanın istehsalına da xüsusi fikir verilir.

Elektron maşınları istehsal edən zavod Xarbində, turbin və buxar qazanları istehsalı zavodu Şanxayda; parovoz, vaqonqayırma Lyuyd, traktor və şarik- podşipnik zavodu Loyanda yaradılmışdır. Toxuculuq və tikiş sahəsi üçün lazım olan texniki avadanlıqlar istehsalı sahəsi də tələb olunan səviyyədədir. Məişətdə istifadə olunan tikiş maşınları buraxılışında Çinin dünyada tayı-bərabəri yoxdur.

Çin Xalq Respublikası ildə - 1,1 mlrd. dollarlıq silah ixrac edirsə, 2,4 mlrd. dollarlıq silahı ölkənin tələbatı üçün xarici ölkələrdən idxal etməli olur.

Kimya sənayesi yerli xammallara əsaslanır. Onun mineral kübrə, polimerlər, kimyəvi lif, etilen, plastik kütlə, sintetik və təbii kauçuk, əczaçılıq məhsulları kimi sahələri vardır. Mineral kübrə istehsalılna görə o dünyada 1-ci (28 mln. t), kimyəvi lif buraxılışına görə 2-ci yeri tutur (4,2 mln. t). Toxuculuq sənayesinə gərək olan kimyəvi lif başlıca olaraq dəniz sahili əyalətlərində - Şanxayda, Pekində, Nankində, Lancjouda istehsal fabriklərinə malikdir. İldə - 6,2 mln. ton plastik kütlə və - 560 min ton sitetik istehsalma da malikdir. Ölkədə istehsal olunmuş əczaçılığın dərman ləvazimatı ixrac olunur. Şanxay əczaçılıq məhsullarının - 50 %-dən çoxunu verir.

Meşə sənayesinin daha da inkişaf etdirilməsi üçün hələ feodalizm dövründən onun ehtiyatı istifadə olunmaqdadır. Ona görə də oduncaq ehtiyatı - 6,0 mlrd. kubmetrdən çox deyildir. Burada tut ağaclarının olması ölkədə ipəkçiliyin inkişafına hələ qədimdən təsir etməkdədir. Subtropik ağac növü olan tunq, kamfora, boya, BAM-buk, tis və başqa ağac növləri meşələrin tərkibini daha da zənginləşdirir. Ölkənin əsasən cənub-şərqində yayılan tut bağlarından ildə 5-6 dəfə yarpaq toplanaraq barama qurdlarının yeminə göndərilir. Siçuan, Xuan əyalətlərində, habelə Quansi - Çjuan muxtar ərazisində tunq ağacları mövcuddur ki, onun da məhsulunun toplanmasına görə Çin dünyada 1-ci yeri tutur. Tayvandakı kamfora ağacının məhsulu (kamfora almması üçün) dünya məhsulunun 30 %-dən çoxunu təşkil edir. Meşənin verdiyi əsas məhsullardan biri də kağız-sellülozdur (32 mln. ton).

Tikinti materiallan istehsalı kompleksinin iri evtikmə kombinatları böyük sənaye şəhərləri üçün xarakterdir. Tikinti daşı, kərpic, şifer, keramik Örtük, mərmər, sement, şüşə tikintidə işlədilən məhsullardır.

Ənənəvi və aparıcı təsərrüfat sahələrindən biri də yerli mənbələr əsasında inkişaf tapan yüngül sənayedir. O əhalinin işlə təmin olunmasına, kənd təsərrüfatının, müvafiq maşınqayırmanın daha sürətlə inkişaf etməsinə çox böyük təsir edir. Toxuculuq yüngül sənayenin aparıcısıdır. Hindistan, ABŞ, Yaponiyadan (birlikdə) çox pambıq parça toxuyan Çin dünyada 1-ci yeri tutur. Toxunan parçanın kəmiyyət göstəricisi - 24,0 mlrd. kv metrdən çoxdur. Hər nəfərə 19 kv metr pambıq parça toxunur. Fabrikləri əsasən qadın əməyinin üstünlük təşkil etdiyi iri şəhərlərdə - Şanxayda, Pekində, Sianda, Çjençjouda, Sindaoda yerləşmişdir. Çin hələ qədimdən ipək parça toxunuşunun vətəni hesab edilir. Fabrikləri Şanxayda, Xançjouda, Usidə yaradılmışdır. Toxunmuş ipək parçalar həm də ixrac olunur. Xarbin şəhərində kətan parça toxuyan fabrik fəaliyyətdədir. Yüngül sənayenin toxuma, trikotaj, gön-dəri, ayaqqabı sahələri də əsasən istehlak rayonlarında fəaliyyətdədir. Dünyada ayaqqabının - 40%-ni Çin verir. İldə dünyada 4,0 mlrd. cüt ayaqqabı əhalinin istehlakına göndərilir. Əmək tutumlu sahələrdən hesab edilən hazır paltar və ayaqqabı məhsulu xarici ölkələrə də ixrac olunur. Çin, Qərbi Avropa

bazarının idman və ev ayaqqablarına (domaşniki) olan tələbatının 25 %-ni ödəyir. Yun parça toxunmasında da Çinin özünün xüsusi yeri vardır. Belə ki, son illərdə yün parca toxunuşu - 6,0 mlrd. kv, metri (yun tədarükünün miqdarı 290 min ton dünyada 2-ci yer) keçmişdir ki, bu da dünyada 1-ci yer deməkdir.

Əhalisi çox ölan ölkə üçün doğurdan da yeyinti sənayesinin əhəmiyyəti ölçüyə gəlməzdir. Xarakter hal odur ki, bu sahə yerli kənd təsərrüfatı məhsulları xammallarına əsaslanır. Aparıcı sahə isə taxıl və yağlı bitki xammallarının emalından alınan məhsullardır. Maraqlıdır ki, Çin əhalisinin ət məhsullarına bir o qədər də marağı yoxdur. Ümumiyyətlə, Çin yeyinti sənayesi xırda və kustar müəssisələrdən ibarət olmaqla bir o qədər də mexanikləşdirilməmiş və alçaq texnikaya malikdir. Ölkənin hər bir yeri üçün səciyyəvi olan yeyinti sənayesinin mexanikləşdirilməmiş və yüksək texniki avadanlıqlara malik olan daha iri müəssisələri ixrac üçün konserv, dondurulmuş tərəvəz və meyvə ixrac edir. Çəltik təmızləyən müəssisələrin ən nəhəngləri Şimali və Cənubi Çinin Şanxay, Uxan, Çanşa şəhərlərində fəaliyyətdədir. Unüyütmə müəssisələri Şimal sənaye rayonunda və Şimal-Şərqi Çinin Yansızı və Xuanxe çayları vadilərində mövcuddur. Onun tullantıları isə heyvandarlığın inkişafına yönəldilmişdir. Yerfındığı, soya, raps, pambıq becərilən rayonlarda yağ əldə edilməsinə kömək edən müəssisələr salınmışdır. İldə 1,0 mln. ton pambıq yağı əldə etmək mümkündür (dünyada bu məbləğ - 4,0 mln. tondur). Çində hər il ancaq şəkər qamışından -9,0 mln. tona qədər, şəkər çuğundurundan - 9,1 mln. t. şəkər alınır. Müəssisələri başlıca olaraq xammal rayonlarına yaxın yerləşdirmişdir. Tullantıları heyvandarlıqda yem kimi gərəklidir.

Ət tədarükünün donuz, mal-qara, qoyun, quş heyvandarlıq növləri xammal verən mənbələrdir. İldə - 74,0 mln. ton ət tədarükü ölkəni dünyada 1-ci yerə sövq edir. Onun xeyli hissəsi ixrac olunur. Adambaşına - 6 kq məhsul düşən inək südünün illik tədarükü isə - 8,0 mln. tona yaxındır.

Dünyada ildə - 5,5 trln ədəd siqaret buraxılırsa, onun -1,7 trln ədədi ÇXR-nm məhsuludur. Əlbəttə, Çin bu sahədə dünya ölkələrinin hamısından qabaqdadır.

Hamıya məlumdur ki, Çin çayın vətənidir. Hələ XIX əsrin sonuna qədər dünya istehlakının 90 %-ni ödəyən Çin, hal-hazırda

dünyada qara çay tədarükünə görə ancaq Hindistandan geri qalır. Yaşıl çay satışında isə o, yenə dünyada liderlik edir. Çay emalı fabrikləri xammal rayonlarına yaxın yerləşdirilmişdir. İldə - 890 min ton məhsul toplanılır. Bunun - 550 min tonu qara çay, 340 min tonu yaşıl çaydan ibarətdir.

Bilmək lazımdır ki, ÇXR-sı dünyada ən çox pivə istehlak edən ölkələrdəndir. Konserv sənayesinin mümkün olan bütün növləri ölkə üçün müqabildir.

Kənd təsərrüfatı ÜDM istehsalında - 14 % məhsul verməklə tanınır. Çin dünyanın ən çox kənd təsərrüfatı məhsulları istehsal edən ölkələrindən biridir. İqtisadiyyatın inkişafında böyük rol oynayan kənd təsərrüfatında - 450 mln-dan artıq işçi qüvvəsi çalışır. İllik məhsul istehsalında heyvandarlığa nisbətən üstünlüyü əkinçilik sahəsi tutur. Əhalinin də çox hissəsi bu sahə ilə məşğuldur. Əkinçilik üçün ümumi ərazinin 100 mln. ha-ı (9,9 %) ayrılmışdır. Bunun 50,3 mln. hektarı süni suvarmaya məruz qalır. Çəltik, buğda, qarğıdalı, darı, arpa, qaolyan, batat, tərəvəz, pambıq, kətan, eut, kənaf, noxud, soya, paxla, çətənə, lifli bitki olan rami və bağçılıq əkinçiliyin əsas sahələridir. Əsasən yüngül, yeyinti sənaye sahələri və ixracatı üçün xammal verən kənd təsərrüfatında taxılçılığın xüsusi çəkisi xeyli böyükdür. Belə ki, çəltik üçün ümumi əkin sahəsinin 1/5-i, ümumən taxılçılıq üçün 1/2-i ayrılmışdır. Çəltik əsasən Yansızı çayı hövzəsində, sahil zonasında becərilir. Aqroiqlim ehtiyatları ölkənin cənub və cənub-şərq rayonlarında ildə 2-3 dəfə məhsul götürməyə imkan verir. İllik məhsul tədarükü - 182 mln. ton olmaqla dünyada birinci yeri tutur. Çəltiyin 1000-dən çox növü olmaqla samanından heyvanların, o cümlədən quşların yemi üçün geniş istifadə olunur. Eyni zamanda, o, kağız, papaq, çanta, yelpik, həsir alınmasında çox gərəklidir. Deyilənlərlə yanaşı, su ilə örtülmüş çəltik əkin sahələri balıqçılıq təsərrüfatı üçün yararlıdır.

Taxılçılıqda əhəmiyyətinə görə 2-ci sayılan buğda becərilməsidir. Əkin sahələri Böyük Çin düzənliyindən şimalda və şimal -şərqə, Xuanxe və Yansızı çayları hövzələrində üstünlük təşkil edir. Lakin dünyada ən hündür yerdə - Tibetin 4000 metr hündür ərazilərində də buğda becərilir. Onun illik tədarükü - 115 mln. tondan az deyildir. Bu, dünyada 1-ci yer deməkdir. Qeyd etmək lazımdır ki, buğdanın dünyada 20-dən çox növü müəyyən

edilmişdir. Qarğıdalı becərilməsi Lyaodun yarımadasından tutmuş Şimali Çin düzənliyi də daxil olmaqla cənub-qərb sərhədinə qədər olan ərazilərdə həyata keçirilir. Çin, ildə - 75 mln. ton qarğıdalı məhsulu tədarük edərək dünyada ildə - 265 mln. ton məhsul tədarük edən ABŞ -dan geri qalır. Ölkənin hər yerində becərilən batat məhsulu tədarükü Çini dünyada 1-ci yerdə saxlayır. Hər il heyvandarlığın inkişafı üçün - 140 mln. tona qədər qarğıdalıdan, arpadan, darıdan və qaolyandan ibarət yem məhsulu tədarük olunur. Yağ alınmasında yerfındığı (araxis), raps, küncüt xüsusi rol oynayır. Paxlalılar fəsiləsindən soya (onun vətəni Çindir), noxud, paxla demək olar ki, ölkənin hər yerində becərilir. Soya Çində hələ - 4 min il bundan əvvəl becərilməyə başlanılmışdır. Hər il -15 mln. tondan çox soya məhsulu toplanılır.

Kökümeyvəli bitkilərdən - şirin kartof, batat, ağ kartof, yams, taro, maniok ölkənin hər yerində becərilir. Ərzaq məhsulları rasionunda batatın xüsusi yeri vardır. İldə 50 mln. tondan çox kartof məhsulu tədarük edərək dünyada 2-ci yeri tutur.

Texniki bitkilərdən pambıq, şəkər qamışı, şəkər çuğunduru, çay, tütün Şimali Çin düzənliyində və Lyos yaylasında (pambıq), Yansızı çay dərəsindən cənubda (çay), Siçuan əyalətində (şəkər qamışı, çay, tərəvəz, tütün, sitrus meyvələri), Cənubi Çinin tropik zonasında (şəkər çuğunduru), Daxili Monqolustanda becərilirlər. Şəkər qamışı toplanmasında Braziliya və Hindistandan geri qalır. Xuanxe və Yansızı çayları hövzələrində süni suvarmaya əsaslanmayan pambıq becərilməsi həyata keçirilir. Çin pambıq toplanmasında dünyanın 1-ci dövlətidir. Çünki illik məhsul toplanmasının kəmiyyət göstəricisi - 4,1 mln. tondan çoxdur. İldə 940 min ton təmizlənmiş pambıq tayına malik olur. Pambığın dünyada əkin sahəsi - 35 mln. ha, illik toplanan məhsulu - 20 mln. ton olmaqla becərilməsi ilə dünyanın 41 dövləti, o cümlədən də Çin məşğuldur. Pambığın dünyada 35 -dən az olmayan növü məlumdur.

Tütünçülük Şandun, Xenan, Anxoy əraziləri üçün səciyyəlidir. Tərəvəzçilik və bağçılıq xüsusi yer tutur. Çin dünyada meyvə-tərəvəz məhsulları toplanmasında 1-ci yerdə durur. Dünyada il ərzində toplanmış tərəvəzin - 39%-ni, meyvənin isə - 12 %-ni verir. Dünyada ildə 400 mln. ton təzə meyvə tədarük olunursa,

orada Çin, Hindistan, Braziliya, ABŞ, İtaliya birinci beşliyi təşkil edən ölkələrdir.

Çin mandarin toplanmasında ancaq Yaponiyadan geri qalır. Dünyada sitrus meyvələri toplantısının illik kəmiyyət göstəricisi isə -50 mln. tondan artıqdır.

Heyvandarlığın donuzçuluq, iribuynuzlular, xırdabuynuzlular, quşçuluq, baramaçılıq, arıçılıq, bahqçılıq sahələri bu və ya digər səviyyədə özünə yer tapmışdır. Ölkənin şərqində əkinçiliyin üstün yer tutması ilə əlaqədar olaraq heyvandarlığın bəzi növlərinin saxlanması yardımçı sahə sayılır. Ət tədarükündə - 90 % xüsusi çəkiyə malik olan donuzçuluq təsərrüfatında - 470 mln, başa qədər donuz saxlanılır. Bu dünyada saxlanılan - 960 mln-dan az olmayan donuzların - 47 %-dən çoxu deməkdir. Donuzçuluğun inkişafı taxıl, texniki bitkilər və yeyinti sənayesi tullantılarına əsaslanır. Qoyun və keçinin saxlanıldığı bölgə ölkənin şimali, Daxili Monqolustan, cənubun və qərbin dağətəyi ərazilərdir. 182 mln. baş xırdabuynuzlu saxlayan ÇXR-nm dünya ölkələrinə liderlik etməyə haqqı vardır.Qoyunçuluqdan əldə edilən yun tədarükünə görə - 290 min ton Çin dünyada ancaq ildə 680 min ton məhsul verən Avstraliyadan geri qalır. Saxlanılan keçilərin - 50 mln. baş olmasında da Çin dünyada əlçatmaz bir mövqeyə malikdir. Qeyd etmək lazımdır ki, Çin, diri çəkidə donuz və xırdabuynuzluların ixracatında da dünyada qabaqcıl yer tutur. Əhalini ərzaq məhsulları ilə təmin etməkdə iribuynuzluların da əhəmiyyəti danılmazdır. Onların sayı - 165 mln. başa çatmaqla Hindistan, Braziliyadan sonrakı 3-cü yeri özünə təmin edir.

Şəhərətrafı sahə sayılan quşçuluqda da Çin dünyada 1-ci yerdədir. Əgər dünyada - 13,5 mlrd. baş quş saxlanılırsa onun - 3,1 mlrdı Çindədir. Bunlar hər il ölkəyə - 11,4 mln. ton yumurta məhsulu verirlər ki, bu da dünyada 1-ci yerə bərabərdir.

Arıçılıq alçaq dağlıq və dağətəyi ərazilərdə, 4 min il inkişaf tarixinə malik baramaçalıq isə əsasən xammal rayonlarında - tut ağacları becərilən bölgələrdə inkişaf etdirilmişdir.

Dünyada 1-ci yeri tutmaqla hər il Çin - 36,5 mln. ton balıq və müxtəlif dəniz heyvanları ovlayır (dünya ovunun 1/4 -i). Ölkədə balıqçılıq sahəsini daha da inkişaf etdirmək məqsədilə süni su hövzələrində, akvariumlarda - dəniz sahilinin xüsusi nəzarət

zonalarında saxlanma hesabına hər il - 10 mln. ton balıq məhsulları əldə olunur.

Çin ildə - 16 mird, dollarlıq ərzaq və kənd təsərrüfatı məhsulları ixrac etdiyinə baxmayaraq, hər il 19 mlrd. dollarlıq məhsulları idxal etməli olur.

Çin ərazisinin böyüklüyü, ərazidə məhsuldar qüvvələrin düzgün yerləşdirilməsi, nəqliyyat növlərinin daha da inkişaf etdirilməsini zəruriləşdirir. Onun relyefi ayrı-ayrı nəqliyyat növlərinin daha da inkişaf etdirilməsinə öz təsirini göstərir. Dəmir yolu, avtomobil, su, hava, boru-kəmər, elektron nəqliyyat növləri inkişaf tarixinə və sürətinə görə bir-birindən fərqlənir. İlk dəmir yolu xətti XIX əsrin sonunda çəkilməyə başlamışdır. İkinci Dünya müharibəsi ərəfəsində cəmi.- 21 min km uzunluğa malik olan dəmir yolu xətti var idi. Müasir dövrdə Çin dəmiryollarının uzunluğuna görə ABŞ, RF, Hindistan, Kanadadan sonrakı 5-ci yeri tutur. Daha doğrusu, ölkədə 66 min km uzunluğunda dəmir yolları vardır ki, onun da 23 %-i elektrikləşdirilmişdir. Sıxlıq hər 1000 kv km-də - 8 km-dən çox deyildir. Ölkənin qərbində və cənub-qərbində relyeflə əlaqədar olaraq dəmir yolu xətti yoxdur. Hələ də parovozlardan geniş istifadə olunur.Meridional istiqamətdə - Pekin - Quancjou, Pekin - Şanxay, Pekin - Tozyulun, Pekin - Xarbin; enlik istiqamətində - Lyanyun-qan - Lançjou - Urumçi - Alaşan (Qazaxıstan sərhədi) - Rotterdam (1992-ci ildən) dəmir yolu xətləri fəaliyyət göstərir. Cənubi- Şərqi Çinin keçilməz yerlərindən isə Çendu-Çuntsin, Baotszi-Çendu, Çendu - Kunmin xətləri ölkədə yük və sərnişin daşımasına xidmət edirlər. 1996-1999-cı illərdə uzunluğu - 255 km-ə bərabər olan Pekin - Syanqan (yan qollan ilə birlikdə) xətti də istifadəyə verilmişdir. Qeyd etmək lazımdır ki, digər nəqliyyat növlərinin inkişafı dəmir yolu nəqliyyatının yük və sərnişin daşımada xüsusi çəkisini get-gedə xeyli azaltmışdır. Dəniz və daxili su, avtomobil, hava, boru-kəmər nəqliyyatı son illərdə ölkədə məhsuldar qüvvələrin inkişafına və düzgün yerləşdirilməsinə öz töhfələrini daha da artırmışlar. Xüsusilə xarici iqtisadi əlaqələrin yerinə yetirilməsində dəniz nəqliyyatı Şanxay, Syanqan, Dalyan, Tsindao, Xuanpu, Tyantszın limanlarının köməkliyi ilə böyük əhəmiyyət kəsb etməkdədir. Enlik istiqamətində çay nəqliyyatında Yansızı çayının rolu daha da

artmışdır. Belə ki, çay nəqliyyatı ilə daşınan daşımaların - 80 %-nı Yansızı öz öhdəsinə götürmüşdür. Daxili su yollarının uzunluğuna görə Çin dünyada 1-ci yeri tutur. Dünyada gəmiçilik üçün yararlı olan daxili su yollarının ümumi uzunluğu 550 min km-dirsə, bunun 110 min km-i Çinin ərazisindədir. Bununla yanaşı yükdaşıyan heyvanlardan, at arabasından, velosipeddən də istifadə olunur. Hava nəqliyyatı ilə hər il - 55 mln. sərnişin daşınır. Ən böyük hava limanı Pekin, Şanxay, Syanqan (saatda 70 təyyarə qəbul edir) sayılır. Ölkədə YEK-in sürətli inkişaf boru-kəmər nəqliyyatının inkişafını daha da zəruriləşdirir. Şimal- Qərbdə, Mərkəzdə, istehsalla NEZ-lər arasında mövcud olan neft kəmərlərinin uzunluğu - 11 min km, qaz kəmərlərinin uzunluğu isə - 6 min km təşkil edir.

Avtomobil nəqliyyatı daxili daşımalarda son illər daha əhəmiyyətli olmuşdur. Avtomobil yollarının uzunluğu - 1,3 mln. km-ri keçmişdir.

İslahat dövründə Çinin iqtisadi əlaqələri əhəmiyyətli dərəcədə yüksəlmişdir. Hal-hazırda hazır paltar, toxuculuq sənayesi məhsulları, məişətdə işlədilən elektrotexnika avadanlıqları, yanacaq və xammallar ixrac etdiyi halda bir sıra digər məhsulları idxal edir.Çinin başlıca ticarət tərəfdaşları ABŞ, Yaponiya, Koreya Respublikası, Almaniya, Cənubi-Şərqi Asiya ölkələri, Rusiya Federasiyasıdır. Ölkəyə daxil olan xarici sərmayələrin miqdarına görə ABŞ-dan sonra dünyada 2-ci yerdə durur. İldə 180 mlrd. dollarlıq məhsul ixrac edirsə, 145 mlrd. dollarlıq məhsul alır. Deməli, xarici ticarətin saldosu aktivdir.

Ərazi planlaşdırılmasının daha da təkmilləşdirilməsi məqsədilə hələ XX əsrin 80-ci illərində 3 iqtisadi zonanın ayrılması irəli sürülmüşdür. Bunlar Mərkəz, Şərq, Qərb zonalarıdır. Ayrılmış zonalara iqtisadi - coğrafı və iqtisadi - statistika nöqteyi- nəzərdən yanaşdıqda 12 sayda şərq, 9 sayda mərkəz və 10 sayda qərb bölgülərini də ayırmaq mümkündür.

Şərq zonası iqtisadi baxımdan ən inkişaf etmişi hesab edilir. İri sənaye mərkəzləri və qovşaqlarına, inkişaf etmiş kənd təsərrüfatına, magistral nəqliyyat xətlərinə, dəniz limanlarının hamısına, iri şəhərlərə malikdir. Xuanpu çayı üzərində yerləşən Şanxay dünyanın ən böyük dəniz limanı və şəhərlərindən biri olmaqla bu zonada yerləşir. Ölkənin ən lazımlı sənaye şəhəri olan

Şanxayda 10 minlərlə müəssisələr ən müasir metallurgiya kombinatı, ölkədə 1-ci AES və sərbəst iqtisadi zona yaradılmışdır. Onun ətrafında isə peyk şəhərləri salınmışdır. Çinin iqtisadi mərkəzi ilə yanaşı onun paytaxtı - Pekin şəhəri də bu zonadadır. Pekin dənizdən 170 km içərilərə doğru Böyük Çin düzənliyində yerləşir. Burada diqqəti cəlb edən tarixi və mədəni abidələr, idarəetmə orqanları, dünya ölkələrinin səfirlikləri, çoxlu sayda universitetlər, institutlar, elmi-tədqiqat müəssisələri vardır.

Mərkəzi zona çoxlu sayda yanacaq və elektroenergetika, kimya, neft-kimya, xammal və yarımfabrikat, ərzaq malları istehsal edən müəssisələrə malikdur,

Qərb zonada heyvandarlıq, xammalların emalı müəssisələri üstünlük təşkil edir.

VII.2. Hindistan Respublikası

Sahəsi - 3287,8 min. kv.km

Əhalisi - 1045,84 mln. nəfər

Paytaxtı - Dehli şəhəri.

ÜDM - 2,02 trln. dollar

ÜDM - Adambaşma - 3000 dollar

Hindistan Cənubi Asiyanın Hindistan yarımadasını, şimaldan böyük Hind-Qanq düzənliyinin çox hissəsini və Himalay dağlarının az bir hissəsini əhatə edir. Onun tərkibinə eləcə də Ərəbistan yarımadasında yerləşən Lakkadiv (Lakşadvip) mərcan adaları, Benqal körfəzində özünə yer tapan Andaman və Nikobar adaları da daxildir. Ölkə şimal-qərbdən Pakistan (2912 km) və Əfqanıstanda, şimaldan Çinlə (3380 km), Nepalla (1690 km)və Butanla (605 km), şərqdən Myanma ilə (1463 km), Banqladeşlə (4053 km) sərhədləşir. Hindistanı cənubdan Hind okeanının və Şri-Lankanı ayıran Palk boğazının, qərbdən Ərəbistan dənizinin, şərqdən Benqal körfəzinin suları əhatələyir. Dövlət sərhədinin uzunluğu - 14103 km, sahil xəttinin uzunluğu isə - 7000 km-dən artıqdır. Ərazi şimaldan-cənuba, yəni dünyanın ən hündür

zirvələrinə malik olan Himalaydan Komarin burnuna qədər - 3214 km, qərbdən-şərqə isə 2933 km məsafədə uzanmışdır. Hal-hazırda Hindistanın Banqladeşlə, Çinlə, Pakistanla ərazi mübahisələri mövcuddur. Cənubi Asiya regionu ərazilərindən keçən beynəlxalq ticarət yolu Asiya ölkələrini Avropa, Afrika, Avstraliya ilə birləşdirərək Hindistanın coğrafi mövqeyinin əlverişliliyini daha da artırmış olur. Hindistanın iqtisadi coğrafi mövqeyi (İCM) ölkə təsərrüfatının inkişafına müsbət təsir edir. Quru sərhədləri çətin dağlıq ərazilərdən keçdiyindən onun iqtisadi əlaqələrində o qədər də əhəmiyyət kəsb etmir. Lakin sahil xətti bir-birinə əks olan Qərb və Şərq ölkələri ilə hər cür əlaqələrin genişləndirilməsi üçün əlverişli imkanlar yaradır və ölkənin həyatında aparıcı rol oynayır.

Hindistanın təbii şəraiti və təbii ehtiyatları təsərrüfat sahələrinin inkişafı üçün məqbul sayıla bilər. Ərazinin relyefi əsasən Hind-Qanq ovalığından və Dekan yaylasından təşkil olunmuşdur. Dekan yaylası hər tərəfdən Şərqi və Qərbi Qat dağları ilə əhatələnərək demək olar ki, bütün Hindistan yarımadasını əhatə edir. Hind-Qanq ovalığı isə 2 hissədən ibarət olmaqla şərqdə rütubətli tropik Qanq və Brahmaputra vadilərindən, eləcə də qərbdən quraqlıq keçən Tar səhrasından ibarətdir. Relyef şimaldan dünyanın ən yüksək zirvələri ilə tanınan Himalay dağları ilə daha da mürəkkəbləşir. Bu sahədə hündürlüyü - 8611 metrə çatan Çoqari, 8586 m-dən az olmayan Kançendjanqa və hündürlüyü 8126 m olan Nanqaparbat zirvələri yerləşməklə xeyli çətinliklər yaradır. Belə relyef formaları özlərinə müvafiq zəngin və çoxçeşidli faydalı qazmtılarla tanmırlar. Bunların çoxu ölkənin şimal şərqində aşkarlanmışdır. Orisa və Bixar ştatları təmasında Sinqbxum dəmir filizi ehtiyatı mövcuddur. Yüksək keyfiyyətli dəmir filizinin ehtiyatı - 22 mlrd. tondan artıqdır. Bixar, Qərbi Benqal, Madxya-Pradeş ştatlarında və digər ərazilərdə ehtiyatı - 202 mlrd. tondan çox olan kömür aşkarlanmşdır. Enerji tutumlu neft, qaz, toriy, uran ehtiyatları müxtəlif coğrafi yerləşməsi ilə məlumdur. Son illər şelf zonasında da yeni-yeni neft yataqlarının olması müəyyən edilmişdir. Assam ştatının neft ehtiyatı da böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə, ölkədə neft ehtiyatı 0,6 mlrd. tondan çoxdur. Cənubi Hindistanda boksit, xromit, manqan, qrafit, almaz, qızıl yataqlarının böyük əhəmiyyəti vardır. Təbii qaz Qudjarat

ştatında, kontinental şelfdə və Kambey körfəzində istehsal üçün gərəklidir. Uran yataqları Radjastxan ştatındadır.

Subekvatorial və tropik enliklərdə yerləşən Hindistanın iqlimi musson xarakterlidir. Şimaldan Himalay dağları arktik hava axımlarının qarşısını aldığından Hindistan dünyanın ən isti ölkələrindən sayılır. Düzənliklərdə yanvarın orta temperaturu şimalda +15°S, cənubda +27°S-yə çatır. 0°S-dən aşağı temperaturu ancaq dağlarda müşahidə olunur. İsti ayının temperaturu +40°S-yə qədər qalxa bilir. Atmosfer yağıntılarının 80 %-i yay mussonları vaxtı düşür. Ərazidə atmosfer yağıntıları - 60 - 12000 nın arasında dəyişir. Ən çox yağıntı Şillenq yaylasının Çerropunca məntəqəsində müşahidə olunur (12000 mm). Tar səhrasında isə bəzən heç yağıntı müşahidə edilmir. Ölkənin başlıca təbii sərvəti torpaq örtüyüdür. Ümumi torpaq fondunun 51 %-i becərilən sahələrdir. Bu-166 mln. ha-dan artıqdır. Bunun 90 mln. ha-ra qədəri suvarılır. Məhsuldar allüvial, qara və gilli torpaqlardan bəzən ildə 2-3 dəfə məhsul götürmək mümkün olur (iqlimin də təsirindən). Təbii otlaq sahələri ümumi ərazinin - 5 %-dən çoxunu əhatə edir.

Təsərrüfat məqsədləri üçün çatışmayan meşələr ümumi ərazinin 22 %-ni təşkil etməklə 145 mln. ha-dan çoxdur.

Hindistanda 75 milli park, 419 qoruq və 8 biosfer stansiyası yaradılmışdır.

Hindistan Respublikası su ehtiyatı ilə çox da tanınan ölkələrdən hesab edilmir. Mövcud çaylar başlıca olaraq suvamada və elektrik enerjisi alınmasında istifadə olunurlar. Dünya su ehtiyatının 6 %-ə qədəri Hindistanın payına düşür. Son illərdə su ehtiyatının -83 %-i suvarmada, - 4,5 %-i məişətdə, - 2,7 %, sənayedə və - 1,8 %-i elektrik enerjisi alınmasında istifadə edilir. Ümumi hidroenerji potensialı - 75 mln. kvt gücündə olmaqla ildə 600 mlrd. kvt saat təşkil edir. Qanq, Hind, Braxmaputra çayları ümumi su ehtiyatının 80 %-ə qədərinə, Maxanaqa, Qodavari, Krişna, Kaveri - 14 %-ə və Narbada, Tapti isə - 5 %-ə qədərinə malikdir.

Tarixi coğrafi xüsusiyyətlərindən danışarkən görürük ki, eramızdan əvvəl ll minilliyin başlanğıcında Hind çayı hövzəsində qədim Xarappa, Moxendjo Daro mədəniyyəti meydana gəlmişdir. Bu, eramızdan əvvəl ll minilliyin ortalarına qədər davam etmişdir.

Sonralar Qanq çayı hövzəsində Maqadxa, Kaşi, Koşalı dövlətləri mövcudlaşmışdır. 1498-ci ildə 1-ci avropalı Vasko de Qamannın gəmiləri Kəlküttə sahillərinə yan alaraq Afrikadan yan keçməklə Hindistana dəniz yolunu açmışdır. XVII əsrin başlanğıcında ingilislər Hindistana daxil olurlar. XVIII əsrin 2-ci yarısından avropalıların müstəmləkəçilik hərəkətləri artıq özünü göstərməyə başlayır. İngilislərin müstəmləkəçilik siyasəti XIX əsrin ortalarında Pəncalın zəbt edilməsi ilə başa çatır. II Dünya müharibəsindən sonra Mahatma Qandinin, Nehrunun rəhbərliyi ilə milli azadlıq hərəkatının daha da qüvvətlənməsi ingilislərin müstəmləkədən əl çəkməsinə səbəb olmuşdur. 1947-ci ildə Hindistan İngiltərənin rəhbərlik etdiyi Birlikdə qalmaqla siyasi müstəqilliyə nail olmuşdur. Nəhayət, 26 yanvar 1950-ci ildə müstəqil Hindistan Respublika elan edilərək qəbul olunmuş Konstitusiyaya görə tam müstəqil dövlətə çevrilmişdir. Lakin dini xüsusiyyətlərinə görə Hindistan 2 hissəyə -induizmə malik olan Hindistan İttifaqına və müsəlman dininə malik olan Şərqi və Qərbi Pakistana (2 hissədən) ayrılmışdır.

Dövlət quruluşunda idarəetmə və inzibati- ərazi quruluşu formaları başa düşülür. 200-ildən artıq bir dövrdə Hindistan Böyük Britaniyanın mülkü hesab edilmiş, 15 avqust 1947-ci ildə dominion hüququ almış və nəhayət 26 yanvar 1950-ci ildə Britaniya Birliyi sistemində tərkibində 28 ştat, 7 müttəfiq ərazini birləşdirən parlamentli federativ respublika elan edilmişdir. Qanunvericilik hakimiyyəti 2 palatalı Parlamentə məxsusdur. Aşağı-Xalq palatası 5 il müddətinə seçilmiş 552 üzvdən, Yuxarı palata-Ştatlar Şurası 250 üzvdən ibarətdir. 5 il müddətinə seçilən ölkənin başçısı prezident Baş Naziri, Baş Nazirin təklifi ilə digər nazirlikləri təyin edir. Faktiki olaraq icraedici hakimiyyət baş nazirə məxsusdur.

Hindistanda 350-yə qədər siyasi partiya fəaliyyət göstərir. Bunların içərisində 1885-ci ildən əsası qoyulmuş Hindistan Milli konqress partiyası ən aparıcı hesab edilir. Bundan başqa, HKP, Canat dal partiyaları da vardır.

Əhalinin birinci siyahıyaalınması hələ 1872-ci ildə aparılmışdır. Bu vaxta qədər əhalinin siyahıyaalınması hər 10 ildən bir aparılmaqdadır. Axırıncı siyahıyaalınma 2001-ci ildə həyata keçirilmişdir. 1027 mln, əhalinin olması ilə yanaşı orta illik artım

1,93% təşkil etmişdir. 2002-ci ildə ölkə əhalisinin sayı 1045,84 mln. nəfər, təbii artım isə - 1,52 % olmuşdur, Hər kv km -də orta sıxlıq 330,1 nəfərə bərabərdir. Kişilər üçün orta ömür - 62,6 il, qadınlar üçün - 63,9 ildən artıq deyildir. Çoxmillətli Hindistanda hindular -28 %, benqallar - 17 %, bixarlar - 8 %, teluqlar - 6%, maatxlar -6%, pəncalələr - 5 %, tamillar - 5 % təşkil edir. Dövlət dili hindu, ingilis dilləridir. 81 % - iduislər, - 12 % müsəlmanlar, qalanları isə xristianlar, sinqxlər, buddistlərdir. Şəhər əhalisi - 28 %-dir. Paytaxtı Dehlidə 11,3 mln, Bombeydə 17,5 mln, Kəlküttədə - 12,7 mln. nəfər əhali vardır. Milyonçu şəhərlərin sayı-20-dən çoxdur. 450 mln. əmək ehtiyatları vardır. Fəal əhali isə 38 %-dən artıqdır. 30 milyondan çox işsizlər qeydə alınmışdır.

Yarım əsrdən artıqdır ki, dini konflikt Hindistan- Pakistan sərhədində stabilliyin tez-tez pozulmasına səbəb olur.

Təsərrüfatın inkişafına görə Hindistan inkişaf etməkdə olan aqrar-sənaye ölkəsi sayılır. Son illər ənənəvi təsərrüfat sahəbrindən hesab edilən kənd təsərrüfatı ilə yanaşı hasilat və emal sahəbrinin əhəmiyyətli dərəcədə artıqlığı hiss olunur. Belə ki, müasir Hindistan dünyada ən çox kömür hasil və ixrac edən, iri qara metallurgiya, maşınqayırma, elektrik avadanlıqları, məişətdə işlədilən elektrik avadanlıqları, kimya məhsulları istehsal edən dövlətə çevrilmişdir. Deyilənlərlə yanaşı, inkişaf etməkdə olan ölkəbr içərisində ilk dəfə atom enerjisindən istifadə edən dövlət kimi də tanınır. Aerokosmik sahəyə çox diqqət yetirilir, Yerin süni peyki buraxılmışdır, yəni elmi texniki mərkəzlər yaranır və sairə. Göründüyü kimi Hindistan müstəqillik ilbrində bir çox təsərrüfat sahələrinin inkişafında əhəmiyyətli nailiyyətbr qazanmışdır. Ölkədə çoxukladlı sənaye kompleksi formalaşmışdır. Onların verdikləri məhsullar dünya standartlarından heç də geri qalmır. «Yaşıl inqilab»ın keçirilməsi təsirindən kənd təsərrüfatı məhsulları istehsalında kəmiyyət -keyfiyyət göstəriciləri xeyli yüksəlmiş, nəticədə əhalinin taxıl məhsullarına olan tələbatı da yerli tədarük hesabına ödənilməkdədir. Ölkədə məhsuldar qüvvələrin inkişafı və düzgün yerləşdirilməsində öz əhəmiyyətini əsirgəməyən nəqliyyat kompleks şəkildə öz inkişafını tapmışdır. Hal-hazırda ÜDM-də kənd təsərrüfatının məhsul çəkisinin 25 %-i, sənayenin xüsusi çəkisinin - 25 %, (275 mlrd. dollar dəyərində), xidmət sahəsinin

xüsusi çəkisinin 50 %-ə yaxın olması ölkənin dinamik inkişafından xəbər verir. Dövlət strukturunun ÜDM-də xüsusi çəkisi artaraq - 25 %-i ötmüşdür. Sənayenin strukturunda toxuculuq - 17 %, yeyinti - 11 %, neft- qaz - 14 %, maşınqayırma - 12 % təşkil etməsi sənayeləşmədəki nailiyyətlərindən xəbər verir. Təsərrüfatın ərazi strukturunda Bombeyin, Kəlküttənin, Mədrəsin, Dehlinin qədim ənənəvi sənaye mərkəzləri rolunu oynamalarının indi də davam etdirilməsi ətraf rayonların iqtisadi inkişafına təkan verməsinə şəraiti daha da artırır. Nəticədə, yeni Rixan - Sinqraul yanacaq-energetika kompleksi (YEK), Barauni, Koyyali və Matxuredə neftemalı zavodlan, Bokar, Durqapur, Bisakxapatnamə, Rouzkələ və Bxilai sənaye mərkəzləri yeni sahələr kimi şöhrət qazanmışlar. Daha doğrusu, Hindistanın ÜDM-nun dünya təsərrüfatında miqdarı - xüsusi çəkisi 4,16 %, sənayedə - 3,2 %, kənd təsərrüfatında - 11 % və dünya ixracatında -2,7 %-ə bərabər olmuşdur. Onun belə sürətli iqtisadi-sosial inkişafının əsasən elmi potensialı ildən – ilə artması təşkil etmişdir. Belə ki, Hindistan elmi işçilərin və alilərin sayına görə geridə qalmış ölkədən dünyada 2-ci yeri tutan ölkəyə çevrilmişdir. Bu sahənin inkişafına ölkə hər il ÜDM-dən - 0,83 % ayırmalar verməkdədir.

Sənaye sahələri içərisində YEK, metallurgiya, maşınqayırma, kimya, meşə, tikinti, yüngül, yeyinti, habelə xidmət sahələri sferası, turizm təsərrüfatı ölkədə məhsuldar qüvvələrin inkişafı və düzgün yerləşdirilməsində apancı əhəmiyyət kəsb edirlər.

Zəngin təbii resursları olan Hindistanın müstəmləkə vəziyyətində olanda «Britaniya tacının mirvarisi» adlandırılması təsadüfü deyildir.

Müasir energetika bazasının yaradılması ölkədə SES-lərin mövcudlaşması ilə bağlıdır. SES-lər kompleks hidrotexniki qovşaqlarının yaradılması ilə müşayiət olunur. Eyni zamanda bu işlərin həyata keçirilməsində suvarma sistemlərinin bərqərar olmasına xüsusi fikir verilir. Elektroenergetikanın AES, İES, SES, KES, GES, QES kimi mənbələri yaradılmışdır. Bunlar içərisində üstünlük İES-lərə verilir. Enerji balansında - 72,14 % İES-lər (60,1 mln. kvt), 25,19 % SES-lər (21,0 mln. kvt) xüsusi çəki ilə tanınırlar. İES-lər əsasən kömürlə işləyərək xammal və istehlak rayonlarında,

o cümlədən iri şəhərlərdə yaradılmışlar. SES-lər demək olar ki, ölkənin bütün iri çayları üzərində fəaliyyət göstərir. Satlac çayı üzərində ən böyük hidroenerji qovşağı - Bxakra - Nanqal (1948-1970-ci illərdə, 1,2 mln. kvt) yaradılmışdır. Bundan başqa, Şaravati, Çambal, Maxanadi, Damodar çayları üzərində də belə qurğular fəaliyyətdədir. Hidroenerji potensialı - 75 mln. kvt olan çayların enerjisindən hələlik - 14 %-i istifadə olunur.

AES-lər yerli uran və tori xammalına əsaslanırlar. Hal-hazırda 3 AES fəaliyyət göstərir. Maxaraştra ştatında - Tarapurda, Rad-jastxan ştatında - Rana Pratar Naqarda AES-lər elektrik enerjisi hasil edirlər. Ölkənin digər ştatlarında, o cümlədən Tamilnad ştatında yeni 5 AES istifadəyə verilmək ərəfəsindədir. Mövcud AES-lər -10 blokdan ibarət olmaqla 1,7 mln. kvt gücə malikdir. Elektrik enerjisi hasilatında AES-lərin xüsusi çəkisi - 4,0 %-dən çox (13 mlrd. kvt saat) deyildir. İlk 2 AES amerikan və kanadalı mütəxəssislərin texniki köməkləri sayəsində yaradılmışdır. Bonbey yaxınlığında (Trombedə) dünyada ən böyük atom tədqiqatı mərkəzi fəaliyyət göstərir. Nüvə yanacağı hasilatı kompleksi mərkəzi Heydərabada açılmışdır.

Qeyri-ənənəvi enerji mənbələri olan GES, KES? QES azda olsa istehlakın ödənilməsinə kömək edirlər. Külək elektrik stansiyalarının gücünə görə ABŞ və AFR-dən sonrakı 3-cü yeri tutur. Göstərilən mənbələr hesabına Hindistanda - 450 mlrd. kvt saat elektrik enerjisi hasil edilir. Buna baxmayaraq adambaşına düşən elektrik enerjisi hasilatına görə Hindistan yenə də bir neçə ölkədən geri qalır.

Hindistanda 5 regional enerji sistemi fəaliyyətdədir. Şimal, Qərb, Cənub, Şərq, Şimal-Şərq enerji sistemləri ölkə ştatlarının hamısını elektrik enerjisi ilə təmin edir. Mövcud regional enerji sistemləri bir-birilə birləşdirilərək vahid enerji sistemi yaradılır. Belə hal, ölkə ərazisinin il boyu bərabər və fasiləsiz elektrik enerjisi ilə təmin olunmasına kömək edəcəkdir. Müstəqillik dövründə Hindistanın yanacaq sənayesində də irəliləmələr baş veşmişdir. Enerji daşıyıcıları içərisində kömürün xüsusi çəkisi daha böyükdür. Onun hasilatı 350 mln-a çatır. Daxili rayonlarla yanaşı Kambey körfəzinin şelf zonasında da neft hasil olunmaqdadır. Yaxın və Orta Şərq ölkələri ilə qarşılıqlı əlaqələrin nəticəsində yanacaq sənayesi

tələbata müvafıq olaraq inkişaf edir. Ölkədə 12 neft emalı zavodu müxtəlif yanacaq məhsullarının əldə olunmasına xidmət edir. İldə 35-40 mln. tona qədər neft emal və hasil olunur. Neftə olan hasilatın ödənilməsində RF də iştirak edir. Yanacaq kimi ayrı-ayrı bitki və heyvan tullantılarından əldə olunan peyin, kərmə, təzəkdən və odundan geniş istfadə olunur. XX əsrin 80-ci illərinin sonuna qədər odun yanacaq enerjisinə olan tələbatın 33 %-ni ödəyirdi. Bunların tullantılarından isə kənd təsərrüfatının inkişafında kübrə kimi istifadə olunur.

Hindistanda yanacaq-energetika kompleksi ildə 340 mln. tut məhsul istehsal etsə də 400 mln. tut miqdarında məhsul idxal edilir.

Ağır sənayenin aparıcı sahələrindən biri də metallurgiyadır. Qara metallurgiyanın rolu və xüsusi çəkisi daha böyükdür. Yerli xammal və yanacağa əsaslanan qara metallurgiya müəssisələri müstəqillik illərində daha da yeniləşdirilmişdir. SSRİ-nin köməkliyi ilə hər birinin gücü 4,0 mln. ton polad əridə bilən Bxilai və Bokaro metallurgiya kombinatları müstəqillik dövrünün müəssisələridir. Qara metallurgiya müəssisələri əsasən ölkənin şərq hissəsində cəmləşmişdir. Kəlküttə - Damador çayı vadisi ölkənin başlıca kömür-metallurgiya bazası rayonu sayılır ki, onu da haqlı olaraq «Hindistan Ruru» adlandırırlar. Eyni zamanda, iri qara metallurgiya kombinatları Cəmşidpurda, Durqapurda, Rourkeldə də mövcuddur. Hər il hindistanda 75 mln. ton dəmir filizi, 27 mln. ton polad istehsal olunur (2004-cü il).

Əlvan metallurgiya da ölkənin şərqində müəssisələrə malikdir. Burada yerləşən yataqlardan hər il-6,0 mln. t boksit istehsal olunur. Alüminium əridən zavodlar su, enerji və xammal rayonlarına meyl etmişdir.

Yüksək sürətlə inkişaf edən sahələrdən biri də maşınqayırma və metal emalıdır. Metalkəsən dəzgahlar, teplovoz, gəmi, avtomobil, traktor, təyyarə, vertolyot göstərilən kompleksin məhsullarıdır. Elektron sənayesi kompüter, rabitə avadanlığı, AES-lər üçün avadanhqlar, kosmik tədqiqatlar üçün avadanlıqlar istehsal edir. Maşınqayırmanın aparıcı müəssisələri Bombeydə, Kəlküttədə, Mədrəsdə, Heydərabadda, Banqalorda, Durqapurda, Çittarad-janda, Rançidə, Bxopalda yerləşdirilmişdir. Mədrəsdə - vaqonqa-yırma, Heydərabadda - dəqiq maşınqayırma, Banqalorda - avia-siya və

elektrotexnika, Vişakxapatnamda - gəmiqayıma, Durqa-purda - ağırmaşınqayırma sahələri inkişaf etmişdir. Radioelektron sənayesinə görə Hindistan Xarici Asiyada Yaponiyadan sonrakı 2-ci yeri tutur. Rəngli televizor, maqnitofon, rabitə vasitələri, EHM ölkənin işçi qüvvəsi və iqtisadi kadrları çox olan iri, orta və xırda şəhərlərdə buraxılır. İldə 1,6 mlrd. dollarlıq silah idxal olunur. Deyilənlərə baxmayaraq ölkənin maşınqayırma məhsullarına olan tələbatın ödənilmədiyindən, o ildən-ilə daha da inkişaf etdirilir.

Kimya və neft-kimya sənayesi kompleksi mineral kübrələr (azot kübrəsi istehsalına görə dünyada 4-cü yerdədir), sürtkü yağlan, plastik kütlə, kimyəvi lif, sintetik kauçuk, əczaçılıq, boyaq maddələri, rənglər, yuyucu tozlar istehsalı ilə tanınır. Müəssisələri xırda və orta sahələrdədir.

Tikinti materialları kompleksi yerli xammallara əsaslanmaqla xammal və iri şəhərlər üçün səciyyəvidir. Mərmər, tikinti daşı, sement, şifer, şüşə, dəmir-beton birləşmələri və sair istehsal olunur. Tikinti materialları içərisində sement istehsalı 90 mln. tonu keçmişdir. Bu sahədə Hindistan dünyanın 5-ci dövlətidir.

Qeyd edildiyi kimi meşə ərazinin əlçatmaz dağlıq hissələrində yayıldığından, eləcə də meşə örtüyünün azlığı meşə sənayesində oduncaq çatışmamazlığına səbəb olur. Ona görə də meşə materiallarının tədarükü, mexaniki və kimyəvi emalı kağız-seluloz, karton əldə edilməsi çətinləşir. İri mebel fabrikləri iri şəhərlərdə yaradılmışdır.

Hindistan iqtisadiyyatının ənənəvi sahələrindən biri sayılan yüngül sənaye pambıq parça və cut parça toxuculuğudur. Toxuculuğun inkişafı yerli xammalların olması ilə bağlıdır. Toxuculuq müəssisələri ölkənin hər bir yeri üçün səciyyəvi olsa da Bombey, Əhmadabadda pambıq-parça, Kəlküttə isə - cut toxuculuğu ilə daha çox seçilir. Hindistanda hər il 17,4 mlrd. kv met pambıq parça toxunur. Toxuculuq məhsulları ixracatın 33 %-ni təşkil edir. Karnataka ipək parça toxuculuğunun mərkəzidilr. İllik toxunan ipək parçanın miqdarına görə dünyada ancaq Çindən geri qalır. Əl ilə toxunan parçalarda - 10 mln. işçi qüvvəsi çalışır. Qoyunçuluğun inkişafı ilə əlaqədar ildə 45 min ton yun tədarük olunur ki, bu da yun parça toxuculuğuna istiqamətlənir.

Yeyinti sənayesi həm daxili tələbat üçün, həm də ixracat üçün məhsullar istehsal edir. Onun ən apancı sahələrindən biri çay tədarüküdür. Fabrikləri Kəlküttədə və ölkənin cənubunda cəmləşmişdir. İldə-0,8 mln. ton qara çay tədarük edir. Çay ixracatında Hindistan dünyada 1-ci yeri tutur. Bununla yanaşı, ildə - 14,2 mln. t şəkər (şəkər qamışından), 4,6 mln. ət (dünyada 7-ci yer), 70 mln. t-süd (adambaşına - 70 kq), dünyada 5-ci yeri tutmaqla - 28 mlrd. ədəd yumurta, dünyada - 6-cı yeri tutmaqla - 5,3 mln. ton balıq və balıq məhsulları tədarük olunur.

Hindistanda kino sənayesi hələ cox qədimlərdən inkişaf etmişdir. İldə 700-dən artıq film çəkilərək dünyada 1-ci yeri tutur.

Kustar xalq sənətkarlığı sahəsi parça, məişət əşyaları, sadə kənd təsərrüfatı alətləri, müxtəlif növ ərzaq məhsulları, bəzək əşyaları, suvenirlər düzəldilməsi ilə məşğuldur.

Hindistan qədim əkinçilik mədəniyyətinə malik olan ölkədir. Cənubi Asiya regionu çəltiyin, pambığın, badımcanın, xiyarın, limonun, portağalin, şəkər qamışının, küncütün vətənidir. Ölkədə kənd təsərrüfatnı inkişaf etdirmək üçün əlverişli təbii şərait mövcuddur. Torpaq fondu strukturunda 56 % ərazi işlənən torpaqlardan ibarətdir, Bu sahədə Hindistan dünyada ancaq ABŞ-dan geri qalır. Onun sahəsi 166,1 mln. ha-dan çoxdur. Aqroiqlim ehtiyatlarının bolluğu il boyu əkinçiliklə məşğul olmağa imkan verir. Əksər rayonlarda fəal temperaturun illik miqdarı 8000°-yə çatır. Atmosfer yağıntılarının qeyri-bərabər paylanması və azlığı ərazinin 1/3 -nin süni suvarmaya məruz qalmasına səbəb olur. Suvarılan torpaqların ərazisinin çoxluğuna görə Hindistan dünyada 1-ci yerdə durur. Təbii şəraitin müxtəlifliyinə görə ölkə ərazisini 3 iri kənd təsərrüfatı rayonuna ayırmaq olur. Birinci kənd təsərrüfatı rayonu Pəncab, Xaryana, Uttararançal, Uttar - Pradeş ştatlarını; 2-ci kənd təsərrüfatı rayonu Qərbi Benqaliya, Bixar, Orissa, Carxand, Cxattisqarx, Uttar-Pradeş (az bir hissəsini) ştatları ərazisini və 3-cü kənd təsərrüfatı rayonu Dekan yaylasının əsas hissəsini əhatə edir. Ən məhsuldar torpaqlar Qanq, Brahmaputra və digər çayların geniş vadilərində yerləşir. İstinin bolluğu, suvarmanın geniş tətbiqi il boyu 2-3 dəfə məhsul götürməyə imkan verir.

Hindistanın aqrar bölməsində fəal əhalinin 60 %-i çalışmaqdadır. Kənd təsərrüfatı ÜDM-nin 25 %-ni verir.

Kənd təsərrüfatının aparıcı sahəsi əkinçilikdir. O ümumi kənd təsərrüfatı məhsulunun 4/5-nü verir. Ərazi əkinçiliyində çəltik, buğda, qarğıdalı, pambıq, darı, cut, şəkər qamışı, tütün, çay, bağçılıq, bostançılıq, şəkər çuğunduru sahələri inkişaf etdirilmişdir.

Hindinstanda yay və qış kənd təsərrüfatı mövsümü vardır. İsti mövsümdə - yay mövsümündə (may-sentyabr) çəltik, pambıq, cut; qış mövsümündə (sentyabr-aprel) buğda, arpa və s. becərilir. Məhsulun çoxu musson yağışlarının üstünlük təşkil etdiyi yay vaxtı toplanılır. Çəltik başlıca olaraq çayların deltalarında, atmosfer yağıntıları bol olan məhsuldar torpaqlı düzənliklərdə, o cümlədən Pəncab, Xaryan, Qərbi Uttar Pradeşa, Quajarat, Tamünad ərazilərində becərilir. Çəltik istehlakına olan tələbatın böyüklüyü onun istehsalının ildən-ilə artırılmasının tələb edir. Belə hal çəltiyin ixracatını xeyli azaldır. Çəltik istehsalının illik kəmiyyət göstəricisi -132 mln. tondan çoxdur. Buğda qış fəslində suvarılan torpaqlarda becərilir.

Məhsul toplantısı 76,0 mln. tondur. Taxıl bitkilərindən - qarğıdalı, arpa, darı suvarılmayan torpaqlarda becərilməkdədir. Ərzaq məhsulları üçün xammal hesab edilən illik taxıl tədarükünün kəmiyyət göstəricisi - 235 mln. tondan artıqdır.

Paxlalılar, kartof əhalinin ərzaq məhsulları ilə təmin olunmasında heç də az rol oynamırlar. Hər il ölkədə - 23 mln. tondan artıq kartof məhsulu toplanılır.

Texniki bitkilər Hindistan üçün çox səciyyəvidir. Qısa lifli pambıq növü suvarılma aparılmadan Dekan yaylasında, uzun lifli növ isə süni suvarma tətbiq etməklə becərilməkdədir. Pambığın illik yığım miqdarı - 2,7 mln. tondan artıqdır. Qərbi Benqal ştatında, çox əhəmiyyət kəsb edən cut becərilir. Çay plantasiyaları ölkənin şimal-şərqində və cənubunda dağətəyi ərazilərdə becərilir (Assamda). İllik məhsul yığımı 0,8 mln. tondur. İldə onun tədarükünü-1,0 mln. tona çatdırmaq qarşıya qoyulmuşdur. Hindistan və Çin dünyada tədarük olunan çayın (2,0 mln. tondan çox) 60 %-dən artığını verirlər. Eyni zamanda, illik çaya ən çox tələbatı olan ölkələr Çin və Hindistan hesab edilir. Bu sahədə sonrakı yerləri Böyük Britaniya, Yaponiya və Rusiya Federasiyası tutur. Hindistan şəkər qamışı plantasiyalarının çoxluğuna görə dünyada 1-ci yeri tutur. Cənub və Qərbi Hindistanda Utqar Pradeş və Bixar ərazilərinin suvarılan

torpaqlarında şəkər qamışı becərilir. Tütün becərilməsi onu məhsul toplanmasına görə dünyanın 3-cü dövləti hesab etməyə imkan vermişdir (435 min ton). Şəkər çuğunduru suvarılrnayan torpaq-lara malik olan ərazilər üçün xarakterdir. Ən çox şokər alınmasında istifadə olunur, tullantısı isə heyvandarlığın yemi üçün gərəkli sayılır. Hindistan üçün çox da ənənəvi olmayan soya, günəbaxan son illərdə becərilməkdədir. Deyilənlərlə yanaşı, kauçuk ağacı, kokos palması, banan, ananas, manqo, sitrus növlərindən limon da becərilir. Dünyada toplanan - 10 mln. ton limon tədarükündə Hindistan 3-cü, dünyada 60 mln. ton banan toplanmasında isə 1-ci yerdədir. Kofe (200 min ton), cənubda yerləşən Karnataka ştatının dağlıq ərazilərində plantasiyalara malikdir. Tədarük olunan məhsulun 80 %-dən çoxunu ixrac edir. Yağlı bitkilərdən yerfindığı (araxis), raps, xardal, küncüt, toxumluq kətan və günəbaxan məhsullarının birlikdə toplanma miqdarı 25 mln. tondan çoxdur.

Qeyd etmək lazımdır ki, Hindistan taxıl məhsullarına olan tələbatı demək olar ki, yerli mənbələr hesabına ödəyir.

Heyvandarlıq kənd təsərrüfatının 2-ci aparıcı sahəsidir. Ölkədə ümumi heyvanların sayı - 500 mln. başdan çoxdur. İribuynuzlular kəndli təsərrüfatlarında əsasən qoşqu və yükdaşıma vasitəsi kimi istifadə olunur. Onun ətindən yox, dərisindən, gönündən, südündən geniş istifadə edilir. Xırdabuynuzlularda qoyun və keçi saxlanılır. İldə 45 min ton yun tədarük olunur. Dünyada saxlanılan - 500 mln. baş keçinin - 100 mln. başı Hindistandadır. Keçi südü ən qiymətli məhsul hesab edilir. Ölkədə saxlanılan donuzların sayı - 15 mln-dan çoxdur.

Sahil zonalarında inkişafa malik olan balıq və digər dəniz heyvanları ovlanması ölkədə ərzaq məsələsinin yaxşılaşmasına imkan verməlidir.

Quşçuluq əhalini yumurta, təzə ət, tük və sairlə təmin etdiyindən şəhərətrafı təsərrüfat hesab edilir.

Arıçılıq, baramaçılıq yeni inkişaf edən sahələrdən sayılır.

İnkişaf etməkdə olan ölkələr içərisində Hindistan nisbətən inkişaf etmiş nəqliyyat növlərinə malikdir. Dəmir yollarının uzunluğu - 64 min km olmaqla 23 %-i elektrikləşdirilmişdir. Dəmiryollarının hər 1000 kv km-də sıxlığı 18 km-dən çox deyildir. Yük dövriyyəsi 285

mlrd. ton/km-dir. Başlıca dəmiryolları Qanq dərəsi boyu uzunu və sahil zonasında çəkilmişdir. Bombey, Kəlküttə, Mədrəs və Dehlidən ölkənin daxilinə doğru istiqamətlənən dəmiryolları fəaliyyətdədir. Yükdaşımada - 40 %, sərnişindaşımada - 20 % çəkisi vardır. Əksər rayonlarda bərk örtüklü avtomobil yolları yoxdur. Onun ümumi uzunluğu - 3,4 mln. km-dən artıqdır. Daxili yükdaşımada avtomobil nəqliyyatı 2-ci yeri tutur. Daxili su yolları bir o qədər də əhəmiyyət kəsb etmir. Ümumi uzunluğu - 18,2 min km-ində gəmilər hərəkətə malikdir. Onun yükdaşımada xüsusi çəkisi -1%-ə qədərdir. Ölkədə 11 başlıca, 140-a qədər xırda ticarət kapotajlı dəniz limanları fəaliyyətdədir. Dəniz nəqliyyatının yük daşıması - 424 mln. tondan artıqdır. Bombey, Çennai, Visakxapatnan, Kandla, Marmaqan, Kəlküttə kimi dəniz limanları salınmışdır. Ölkənin dəniz flotunda 970 gəmi saxlanılır.

Hava nəqliyyatı daxili və beynəlxalq daşımalarda geniş istifadə olunur. Boru-kəmər nəqliyyatı istehsalla istehlakı birləşdirərək tələb olunan səviyyəyə çatmamışdır.

Xarici ticarət Hindistan iqtisadiyyatında əhəmiyyətli rol oynayır. Lakin o hələ beynəlxalq bazara zəif cəlb olunmuşdur. Xarici ticarət dövriyyəsi - 86,5 mlrd. dollar təşkil edir. Bunun - 36,3 mlrd. dolları ixracat, 50,2 mlrd. dolları isə idxal məhsullarından ibarətdir. Dünya ticarətində - 0,6 % xüsusi çəki ilə tanınır. 7500 növdən çox məhsulu dünyanın 190-dan çox ölkəsinə ixrac etdiyi halda, 140 ölkədən 6000 növ məhsulu idxal etməli olur. Xarici ticarət dövriyyəsində Asiya və Okeaniya dövlətlərinin - 40 %-dən çox, Qərbi Avropa ölkələrinin - 30 %-ə qədər, Şərqi Avropa ölkələrinin - 5 %-ə qədər, Afrika ölkələrinin - 5 %-ə qədər, ABŞ və başqa ölkələrinin - 20 %-dən artıq iştirakları vardır. Hindistan parça və tikili malları - 29 %, qızıl ləvazimatı və qiymətli daş-qaşı -18%, kənd təsərrüfatı xammalları və ərzaq məhsulları - 16%, müxtəlif maşınları - 7%, çayı-21%, eləcə də filiz, tibb ləvazimatı və sair məhsulları ixrac edir. İdxalatda isə - 17 %yanacaq məhsulları, -15% maşın və avadanlıqlar yer tutur. Aparıcı ticarət tərəfdaşları -ABŞ, AFR, Yaponiya, Böyük Britaniya, Honkonq, Cənubi Asiya ölkələri və Cənub-Şərqi Asiya ölkələridir. Xarici maliyyə borcunun çoxluğuna (85 mlrd. dollar) görə İEÖO - içərisində Braziliya və Meksikadan sonrakı 3-cü yeri tutur.

Hindistanda mövcud daxili inkişaf fərqlərinə görə 7 başlıca makrorayon ayrılır. Bunlar Şimal-Mərkəz, Şimal - Qərb, Şərq, Şimal-Şərq, Mərkəz, Qərb və Cənubi Hindistan makrorayonlarıdır.

Şimal - Mərkəz Hindistan - böyük Qanq düzənliyində yerləşən, sahəsi 294411 kv km, əhalisi - 139112 min nəfərdən artıq olan Uttar Pradeş ştatını əhatə edir. Buğda, şəkər qamışı, paxlalı və yağlı bitkilər, kartof, manqo, banan becərilir, çoxsaylı iribuynuzlular, hidrotexniki qovşaq, Aliqarx Naror atom-sənaye kompleksi olmaqla Kanpur, Aqra, Varanasi, Allahabad, Lakxnay və Dehli şəhərlərinə malikdir.

Şimali - Qərbi Hindistan - Pəncab (20282 min nəfər əhalisi), Xaryana (16464min əhalisi), Radjastxan (44006 min nəfər), Ximaça Pradeş (5171 min nəfər), Cammu və Kəşmir (7719 min nəfər) ştatların əhatə edərək inkişaf etmiş irriqasiya və kənd təsərrüfatına, orta və xırda sənaye sahələrinə, apancı buğda və pambıq qurşağına, çəltik, yağlı bitkilər, şəkər qamışı becərilməsinə, iribuynuzlu mal-qara saxlanılmasına, yeyinti sənayesi sahələrinə, toxuculuq, trikotaj, tikili mallar, metal emalı və maşınqayırma sahələrinə malikdir. Bxakra SES-i (1,1 mln. kvt), Bxakra - Nanqal hidrotexniki qurğusu, eləcə də Caypur şəhəri buradadır.

Şərq rayonu - Qərbi Benqaliya (68078 min nəfər), Sikim (406 min), Bixan (86374 min nəfər), Orissa (60.000 nəfər) ştatlarını əhatə edir. Burada böyük iqtisadi potensial, kömür-metallurgiya bazası, ağır maşınqayırma, iri dağmədən müəssisələri, cut fabrikləri yerləşir. Cəmşidpur, Kəlküttə sənaye qovşaqları formalaşmışdır.

Şimal - Şərq - Assam (22414 min nəfər əhali), Meqxalaya (1775 min), Tripura (2757 min), Manipur (1837 min nəfər), Mizoram (690 min nəfər), Naqolend (1210 min nəfər), Arunaçal Prades (865 min nəfər) ştatlarnı əhatə etməklə Braxmaputra çayına, strateji əhəmiyyətə, 1/3 hidroenerji potensialına, meşə örtüyünə, aqroiqlim ehtiyatlarına, çay, cut, çəltik, ananas, banan, kartof, tərəvəz, meyvə, becərilməsinə və NEZ-lərə malikdir.

Mərkəz Madxya Pradeş (443446 kv. km sahəyə, 66 mln. əhaliyə) ştatının əhatə edir. Zəngin təbii sərvətlərə, çəltik, buğda, qarğıdalı, paxlahlar, pambıq becərilməsinə, yeyinti, tikinti, ağac emalı, metal emalı sahələrinə, Bxilai metallurgiya kombinatına malikdir.

Qərbi Hindistan - Maxaraştra (78937 min nəfər əhalisi), Qud-jarat (41310 min nəfər), Qoa (1170 min nəfər) ştatlarını, Dadra Naqarxaveli (102 min nəfər) ərazilərini əhatə edir. Yüksək urbanizasiyaya, milyonçu şəhərlərlə tanınmaqla (Bombey, Puna, Surat, Badodaru, Əhmədabad), pambıqçılığa, kimyaya, tikiş maşını, süni lif, elm tutumlu sahələrə, neft hasilatına, neft - kimyaya, nüvə silahı tədqiqinə malikdir.

Cənubi Hindistan - Tamilland (55859 min nəfər əhalisi), Andxra Pradeş (6508 min nəfər), Kanataka (977 min nəfər), Kerala (29098 min nəfər) ştatlarının, Pon dişeri (808 min nəfər), Andaman və Nikobar (281 min nəfər) adalarını əhatə edir. Böyük limanları ilə, urbanizasiyanın çoxluğu və savadlılığın yüksəkliliyi ilə, yüngül sənayenin yüksək dərəcədə inkişafı ilə, yeyinti sənayesi ilə, maşınqayırma ilə, şəkər çuğunduru, yağlı bitkilər becərməklə, meyvə, tərəvəz, kokos palması toplanması ilə, darı becərilməsi ilə fərqlənir.

VIL3. Yaponiya

Sahəsi - 377,8 min kv. km

Əhalisi - 127,1 mln. nəfər

Paytaxtı - Tokio

Ümumi Daxili Məhsulun illik miqdarı - 2930 mlrd. dollar

Adambaşına düşən illik daxili məhsul 28 min dollar

Yaponiya Şərqi Asiyada yerləşərək ərazinin böyüklüyünə görə Asiyada Vyetnam (330 min kv.km) və Malayziya ilə (336,7 min kv. km), Avropada AFR (356,96 min kv.km) və Norveçlə müqayisə edilə bilər. Lakin o Fransadan (551 min kv.km), İspaniyadan (505,9 min kv. km), habelə İndoneziyadan (1,9 mln. kv. km) ərazisinin böyüklüyünə görə xeyli geri qalır. Bununla yanaşı, Yaponiya yerləşmə konfiqurasiyasna görə dünyanın bir çox ölkələrindən fərqlənərək şimal-şərqdən cənub-qərbə doğru 3500 km məsafədə uzanan arxipelaq dövlətidir. Onun tərkibində irili-xırdalı 4000-dən çox adalar olsa da ərazinin özəyini 4 böyük ada - Xonsyu (230,4 min kv.km), Kyusyu (42,0 min kv.km), Sikoku (17,8 min kv.km) və ərazisi 77,7 min kv.km olan Xokkaydo təşkil edir.

Deyilənlərlə yanaşı, Ryukyu arxipelaqına aid 200-dən artıq və eləcə də xeyli uzaqda Sakit okeanda yerləşmiş bir neçə o qədər də böyük olmayan adalar qrupu da Yaponiyanın himayəsindədir. Ölkə, şimaldan Oxot dənizi ilə, şərqdən və cənub-şərqdən Sakit okeanla, qərbdən Yapon və Şərqi Çin dənizi ilə, cənubdan Xonsyu, Sikoku və Xyusyo adaları arasmda yerləşən Daxili Yapon dənizi suları ilə əhatələnmişdir. Göründüyü kimi, Yaponiya bir növ dəniz ölkəsi də hesab edilir. Lakin onu əhatə edən dənizlərin heç biri donmadığından il boyu balıqçılıqla məşğul olmağa, ticarət əlaqələrini həyata keçirməyə imkan yaradır. Yaradılmış süni adalar hesabına dəniz sahili sənaye zonaları da get-gedə artırılır. Adalarla birlikdə kəskin parçalanmış sahil xəttinin uzunluğu 32 min km-dən artığa çatır ki, bu da ekvatorun uzunluğunun 3/4-nə bərabərdir. Yaponiya ərazisinin elə bir yeri yoxdur ki, o dəniz sahilindən 120 km-dən az məsafədə yerləşsin. Ona görə də Yaponiyanın həyatında dənizlərin rolu ölçüyə gəlməzdir. Yaponiya materikdən Oxot, Yapon, Şimali Çin dənizləri ilə ayrılır. Ərazinin materikə ən yaxm yeri Koreya boğazı hesab edilərək uzunluğu 220 km məsafəyə malikdir.

Yaponiyanın iqtisadi, siyasi-coğrafı vəziyyətində son illər çox böyük dəyişikliklər əmələ gəlmişdir. XIX əsrin sonuna qədər onun dəniz-ticarət əlaqələri Asiyaya doğru istiqamətlənmişdir. Burada Şimali Çin dənizi çox böyük rol oynamışdır. Bununla yanaşı, hələ XIV əsrdə Koreya boğazı vasitəsilə Koreyaya, daha sonralar Çinə daxil olmuşdur. Lakin XIX əsrin sonuncu illərindən Sakit okeanm ticarət yollarının imkanlarından da istifadə etməyə başlamışdır. Hal-hazırda Yaponiya demək olar ki, Asiya-Sakit okean regionunda mərkəzi mövqe tutur. Belə vəziyyət Yaponiyaya xammalların, yanacağın, sənaye məhsullarının idxal olunmasını, eləcə də hazır sənaye və kənd təsərrüfatı məhsullarının ixrac olunmasnı daha da sürətləndirir. Yaponiya Rusiya Federasiyasından Oxot və Yapon dənizi ilə ayrılır. Oxot dənizinə Yaponiyanının ən şimal adalarından hesab edilən Xokkaydo, Yapon dənizinə isə Xonsyu və Xokkaydo adalanrının bütün qərb sahilləri daha yaxmdır. RF ilə münasibətlərin yaradılmasında Kuril adaları xüsusi yer tutur. Bu da vulkan mənşəli adalardan ibarət olmaqla Xokkaydo ilə Kamçatka arasında 1200 km məsafədə uzanır. İkinci Dünya

müharibəsindən sonra Kuril adalarınıntaleyi məsələsi iki dövlət arasında mübahisə predmetinə çevrilmişdir. Bu, hər şeydən əvvəl yaponların özlərinin Şimal əraziləri adlandırdıqları Kuril tirəsinin İturup, Kunaşir, Sikotan və Xabomai adalarına aiddir. Doğurdan da bu adalar 1855-ci ildə bağlanılmış Şimod traktına əsasən Yaponiyaya məxsus olmuşdur. 1945-ci ildə yaponların II Dünya müharibəsində məğlub olmaları ilə bağlı olaraq Kuril adaları bütünlükdə SSRİ-yə verilmişdir. 1951-ci ildə Sülh müqaviləsi müzakirə olunarkən (Kuril adalarının nə SSRİ-nin, nə də ki, Yaponiyanın ərazisi olmadığı göstərilirdi) Sovet hökuməti həmin müqaviləyə imza atmamış və onun 2000-ci ilə qədər təxirə salınmasını məsləhət bilmişdir. Göründüyü kimi, Kuril adaları məsələsi problem kimi hələ də qalmaqdadır.

Yaponiya, Asiyada dünyanın yeganə inkişaf etmiş ölkəsi kimi tanınsa da başlıca partnyorları hesab edilən digər inkişaf etmiş ölkələrdən və regionlardan - ABŞ-dan, qərbi Avropadan xeyli aralıda yerləşməsi onun xarici iqtisadi əlaqələrinin yerinə yetirilməsi baxımından bir o qədər də əlverişli coğrafi mövqeyinin olmamasını göstərir. Daha doğrusu, Qərbi Avropa öikələrindən 20 min km uzaqda yerləşən Yaponiya ABŞ-dan-9 min km məsafədədir.

Geoekoloji movqe baxımından Yaponiya atmosferin, eləcə də, dünya okeanının çirkləndirilməsi anlamında çox günahlı dövlətlər-dən biri sayılır. Bununla, Yaponiya Şərqi və Cənubi-Şərqi Asiya regionu ölkələrinə daha çox neqativ təsir etməkdədir. Atmosferə, dünya okeanına bütün ölkələr tərəfindən atılan tullantılarda Yaponiyanın xüsusi çəkisi 5 % təşkil edir. Yaponiya ərazisinin 75 %-i hündürlüyü 3778 metrə çatan Fudziyama dağlıq relyef formasına malikdir. Dağ zirvələrinin əksəriyyətini sönmüş və fəaliyyətdə olan 150 vulkan təşkil edir. Bunlardan 15-i fəaliyyətdə olanlardır. Ərazidə vulkan və zəlzələlərin təkrarlanması insanların əmək fəaliyyətinə çox böyük təsir edir. Düzənliklər sahil zonasında, ensiz çay dərələrində əkinçiliyin inkişafında, əhalinin çox cəmləşməsində, əmək fəaliyyətinin çoxlüğündə əhəmiyyətlidirlər. Bunlardan ən böyüyü paytaxt aqlomerasiyasının yerləşdiyi düzənlikdir. Onun sahəsi 13 min kv km-dən çox deyildir. Ərazi

relyefinin indi də formalaşmasının 1500-dən çox seysmik hadisənin baş verməsi bir daha təsdiq edir.

Təbii şəraitin aparıcı elementi olan iqlim Yaponiya üçün çox münasibdir. İqlimin formalaşmasına yayda tayfunlarla, leysan yağışlarla müşahidə olunan mussonlar, isti okean cərəyanı hesab edilən Kurosio və soyuq okean cərəyan olan Oyasio çox böyük təsir etməkdədir. Qış mussonları Sibirdən soyuq hava kütlələrinin ölkəyə daxil olması ilə nəticələnir və çoxlu miqdarda qar yağmasına səbəb olur. Ümumiyyətlə, ölkənin iqlimi şimaldan cənuba doğru dəyişən musson, okean xarakterli olmaqla Xokkaydoda mülayim, Ryukyuda tropik xarakterlidir. Qış temperaturu şimalda - 9°-ll°S, yay temperaturu +150-20°S qeyd olunursa, cənubda qış ayının orta temperaturu +16°-18°S arasında, yayınkı isə +26°-28°S arasında dəyişir. Orta illik yağıntıların miqdarı 1700-2000 mm arasında tərəddüd edirsə, minimum yağıntılar Xokkaydoya düşərək 800 mm-dən bir az artığa çatır. Maksimal yağıntılar Ryukyu adası rayonunda 3000 mm-dən artığa bərabər olur. İqlimin belə xarakterdə olması miüxtəlif kənd təsərrüfatı məhsulları əldə etməyə, insanların əmək fəaliyyətlərinin maksimum tətbiqinə, ildə 2-3 dəfə məhsul götürülməsinə şərait yaradır. Bunun nəticəsində ölkənin hər yerində 2-3 dəfə məhsul verən çəltik becərilir, çay, sitrus bitkiləri, üzüm, bağçılıq-bostançılıq sahələri, cənubda isə hətta tropik bitki növləri yaxşı məhsul verirlər.

Çox sulu, qışa, iti sürətə, nəqliyyat üçün əlverişli olmayan, əsasən suvarmada, elektrik enerjisinin alınmasında, sənayedə, məişətdə istifadə edilən çoxlu sayda çaylara məxsusdur. Onlardan ən uzunu Xonsyu adasında yerləşən Sinano hesab edilir ki, onun da uzunluğu 367 km-dən çox deyildir. Çoxsaylı dağ və azsulu laqun göllər diqqəti cəlb edir. Ümumiyyətlə, daxili su mənbələri kənd təsərrüfatının, sənayenin, məişətin inkişafına xidmətdə böyük rol oy-nayırlar. Lakin ölkədə digər mənbələrlə yanaşı dərinliyi 425-ə çatan Tadzava, ən böyük Biva gölləri olsa da su çatışmamazlığı müşahidə edilir.

İstifadə olunan əsasən podzol, torflu, qırmızı, boz-meşə torpaqları torpaq fondunun 13 %-ni, otlaq və biçənəklər isə - 4 %>-ni təşkil edir. Torpaqlarda şimalda kartof becərilməsindən tutmuş,

cənubda şəkər qamışı da daxil olmaqla müxtəlif kənd təsərrüfatı bitkiləri becərilir.

Çoxlu miqdarda atmosfer yağıntılarının olması, il ərzində günəşli günlərin sayının çoxluğu Yaponiyada meşələrin ümumi ərazinin 70 %-ni örtməyə imkan vermişdir. Adambaşına düşən meşə sahəsi 0,2 hektardan çox deyildir. Meşə ehtiyatı kifayət etmədiyindən çoxlu miqdarda meşə materialları idxal olunur.

Ərazinin böyük məsafədə meridional istiqamətdə uzanması, adalardan ibarət olması, relyefin mürəkkəbliyi, ölkə ərazisi iqliminin müxtəlifliyi Yaponiyada nadir təbii şərait kompleksinin yaranmasına səbəb olmuşdur. Yaponiya İEÖ ölkələr içərisində faydalı qazıntı növ və ehtiyatlarına görə heç də tanınmır. Hətta elə təbii sərvətlər - mineral sərvətlər vardır ki, onların istehsalı dayandırılımışdır. Demək olar ki, ölkədə ayrı-ayrı təsərrüfat sahələrinin inkişafınnı gətirmə xammallardan asılılığı başlıca problem hesab edilir.

İdxal olunan mineral xammalların faizlə xüsusi çəkisinə fikir verdikdə onun dəmir filizi-99%, sink-86%, manqan-100%, nikel-100%, xromit-100 %, kobalt-100%, boksit-99%, volfram-100%, mis-100%, qalay-100%, qurğuşun-95%, fosfor-100% təşkil etdiyini görərik.

Yerli kömür, neft, qaz yanacaq ehtiyatları aşkar edilmişdir. Kömür ehtiyatı 8,7 mlrd. ton olmaqla Xokkaydo (İsikari, Yubari hövzələroi), Xonsyu (Dzeban hövzəsi), Kyusyu (Tikuxo hövzəsi) adaları ərazisində aşkarlanmışdır. Akita, Niiqata və Yaponiya dənizi sahillərində neft yataqları aşkarlanaraq ehtiyatı 200 mln. tondan çox deyildir. Xonsyunun şimal hissəsində ehtiyatı 30 mlrd. kubmetrə çatan təbii qaz yataqları vardır. Deyilənlərlə yanaşı, ehtiyatı 0,2 mlrd. ton olan dəmir filizi, 4,5 mln. ton manqan, 0,4 mln. t xromit, 1,5 mln. ton mis, 1,9 mln. ton qurğuşun, 7,8 mln. ton sink, 10 mln. t prit ehtiyatları aşkarlanmışdır.

Dövlət quruluşuna nəzər saldıqda Yaponiya Konstitusiyalı monarxiyadır. 1947-ci ildə qəbul edilmiş Konstitusiyaya görə imperator «dövlətin və xalq birliyinin» simvolu hesab olunur. İmperator hökumətin məsləhəti və razılığı ilə dövlət işlərində fəaliyyət göstərir. Ali qanunverici orqan nümayəndələr və məşvərətçi palatalardan ibarət Parlamentdir. Yaponiyada icraedici

orqan Baş nazir başçılıq edən Nazirlər Kabinetidir. Ölkədə aparıcı partiya 1955-ci ildə yaradılmış liberal- demokratlar partiyası sayılır. Sinsito, Sakiqake, Sosial demokrat, Yaponiya Kommunist parityaları da fəaliyyət göstərir. Yaponiya inzibati ərazi bölgüsünə görə 47 prefekturadan və 14 dairədən ibarət olan Xokkaydo vilayətindən təşkil olunmuşdur. O, BMT-nin, «böyük yeddilər»in, ASEAN-m, ATES-in üzvüdür.

Yaponiya əhalisinin sayına görə hər birisinin əhalisi ayrı-ayrılıqda 100 mln-dan çox olan 11 ölkə içərisində 9-cu yeri tutur. Axırmcı 100 ildə yaponların sayı 3 dəfə çox artmışdır. O, dünya əhalisinin 2 %o-dən artığına malikdir. 1920-ci ildən hər 5 ildən bir əhalinin siyahıyaalınması həyata keçirilir. Əhalinin təbii artımında olan nisbət belədir: 9,5/1000:7,4/1000. Orta ömür sürmə 81 il təşkil etməklə, bu, qadınlar üçün 85, kişilər üçün 78 il təşkil edir. Yaponiya dünyada əhalisinin yüksək olması ilə tanınır. Əhalinin milli tərkibində yaponlar əksəriyyəti - 99,9 % təşkil edir. Eyni zamanda burada koreyalılar, çinlilər də yaşamaqdadır. Xaricdə yaşayan yaponlar ən çox ABŞ-da, Braziliyada, Böyük Britaniyada (cəmi 780 min) qeydə alınmışlar. Əhali ölkə üzrə çox qeyri-bərabər yerləşmişdir. Orta sıxlıq 341 nəfər təşkil etdiyi halda, maksimal sıxlıq sənaye qurşağında hər kvadrat kilometrdə 10000 nəfəri keçir. Ölkədə ailə qurulması üçün yaş həddi kişilərdə 28, qadınlarda 26 yaş qəbul edilmişdir. Yaponiya dünyada ən az uşaq ölümünə malik olması ilə də tanımr. O urbanizasiya səviyyəsi yüksək olan ölkələr sırasına daxildir. Ölkədə 11 milyonçu şəhər olmaqla ümumi şəhərlərin sayı 650-dən artıqdır.

Yaponiyada Keyxin (sahəsi 7 min kv.km, əhalisi 29 mln. nəfər), Xansin (4,5 min kv km sahəsi, 16 mln. nəfər əhalisi), Tyüke (3,2 mln. kv.km sahəsi, 8 min. nəfər əhalisi), eləcə də Fukuoka, Sapporo aqlomerasiyalan dünyada tanınırlar. Bir neçə şəhər aqlomerasiyaları birləşərək Tokaydo meqalopolisinin formalaşmasma səbəb olmuşlar. Meqalopolis Tokio və Osaki ərazilərini birləşdirməkiə 70 min kv.km sahəyə, 70 mln. nəfər əhaliyə, 700 km məsafəyə malikdir.

Tokaydo meqalopolisinin formalaşmasında avtomobil maşınqayırmasının əhəmiyyətli dərəcədə rolu olmuşdur. O, ölkə sənaye məhsulunun 3/4-nü verir. Əhalinin sosial strukturunda

muzdla tutulmuş fəhlələr 75 % xüsusi çəkiyə malikdir. Şəhər əhalisinin xüsusi cəkisi 79 %-dən çoxdur. Tokio ölkənin böyük elmi-tədqiqat, siyasi, inzibati idarəetmə, kadr hazırlığı, mədəniyyət, incəsənət mərkəzi olmaqla dünyaınn ən nəhəng şəhərlərindən hesab edilir. Onun 26,4 mln-dan çox əhalisi vardır. Şəhərdə 4 mln. ev olmaqla küçələrinin uzunluğu ekvatorun uzunluğunun yarısından çox - 22 min km-dən artıqdır. Yaxşı deyirlər: Yaponiya Tokiodan başlayır.

Ölkədə sintoizm və buddizm apancı dinlər hesab olunurlar.

Yaponiyada təlim və təhsil məktəbəqədər, orta məktəb, ali təhsil sisteminə aynhr. Orta məktəbə 6 yaşından getməklə 6 il başlanğıc, 3 il orta təhsilin 1-ci pilləsi, 3 il 2-ci pillə olmaqla - 6+3+3 formasındadır. Ali təhsilin müddəti isə 4 ildir (tibb ixtisasında isə 6 ildir). Təhsil sistemində orta məktəb bazası əsasında təhsil müddəti 2-3 il davam edən aşağı kolleclər də fəaliyyət göstərir. Yaponiya yüksək mədəniyyət və savadlılar ölkəsidir.

Yaponiya dünya iqtisadiyyatında ABŞ-dan sonrakı yeri tutur. Asiya-Sakit okean regionunda isə liderliyi əldə saxlayır. O, nadir ölkədir ki, qısa zaman kəsiyində orta inkişaf etmiş ölkədən sürətlə inkişaf edən ölkəyə çevrilmişdir. Belə ki, II Dünya müharibəsindən iqtisadiyyatı dağılmış olan Yaponiya hələ keçən əsrin 70-ci illərindən Ümumi Daxili Məhsul istehsalına görə dünyada 2-ci yerə çıxmışdır. Təsadüfü deyildir ki, bunu ədəbiyyatlarında «yapon möcüzələri» adlandırırlar. Hal-hazırkı Yaponiya dünyanın nəhəng maliyyə mərkəzi sayılmaqla dünyanın 6 iri transmilli korporasiyasına malikdir (TMK). Adambaşına düşən milli gəlirə görə İsveçrə və Lüksemburqdan sonra 3-cü yeri tutur, gəmiqayırmada, minik maşınlarının buraxılmasında, dəzgahqayırmada, elektron məhsulları buraxılışında, robotlar düzəldilməsində, mikroelektronika məhsulları buraxılışında dünyada 1-ci yeri tutur. Avtomobil parkına görə ABŞ-dan sonra 2-ci yeri, nəqliyyat sahəsi sıxlığına görə dünyada 1-cidir. AES-lərin tikilməsinə gec başlasa da bu sahədə böyük nailiyyətlərə (20 AES-ə) malikdir, məişətində daha çox elektron cihaz və kompüter vardır, yüksək urbanizasiyası, uzunömürlülüyü və az uşaq ölümü ilə seçilir. Az torqaq sahəsinə malik olsa da özünün tələbatının 50%-ni

yerli kənd təsərrüfatı məhsulları ilə ödəyir. Nadir ölkədir ki, istehsalın intensivləşdirilməsi və məhsuldarlığın daha artırılmasına görə ABŞ və Qərbi Avropa ölkələrindən qabaqdadır.

Yerli xammal bazasının və o cümlədən yanacaq-energetika resurslarının kifayət qədər olmadığına baxmayaraq, dünya əhalisinin 2 %-i, dünya ərazisinin 0,3 %-i payına düşən Yaponiya ÜDM-a görə İEÖ sistemində 2-ci, ixracatının həcminə görə isə AFR və ABŞ-dan geri qalaraq 3-cü yeri tutmaqdadır. Göründüyü kimi, resurslar ilə kasıb olan ölkə dünya bazarından ucuz xammalı alıb, nisbətən bahalı hazır məhsullar satmaq məqsədilə ixracat əhəmiyyətli təsərrüfat sahələrini sürətlə inkişaf etdirir. Dünya bazarında yüksək rəqabət qabiliyyətliliyini saxlamaq məqsədilə ölkə iqtisadiyyatında, xüsusilə sənaye dairəsində daima struktur dəyişiklikləri həyata keçirilmiş, getdikcə daha çox mürəkkəb istehsal sahələri yaradılmışdır. Onun nəticəsidir ki, ixrac edilən məhsulların əlavə dəyərinin çəkisi daima yüksəlmişdir. Müasir dövrdə ölkə iqtisadiyyatının strukturunda,. xüsusilə radioelektronika, cihazqayırma, zərif kimya məhsulları, aviakosmik kimi müasir sahələrin, həm də elm, maliyyə, ticarət və təsərrüfatının digər qeyri-istehsal sahələrinin inkişafına yönəldilən yeni mərhələyə keçirilmişdir. Deyiiənlərlə yanaşı, o emaledici sənaye sahələrinin bir çoxunu daha böyük bazara, ucuz işçi qüvvəsinə, sabit valyutaya malik olan ölkələrə köçürməkdədir. Beləliklə, təsərrüfatın sahəvi strukturunda edilən dəyişikliklər başlıca olaraq iki istiqamətdə həyata keçirilir. Bunlardan biri, material və əmək tutumlu istehsalın xaricə köçürülməsi, digəri isə müasir texnologiya ilə «ən yeni» elm tutumlu sahələrin daha da inkişaf etdirilməsi yoludur.

İndi olduqca sürətli avtomobil və dəmiryollarının çəkilməsi özü üçün çox böyük əhəmiyyət kəsb edən və adaları bir-biri ilə birləşdirən tunel və körpülərin yaradılması, müasir super texnologiya, robotlar və başqa texniki nailiyyətlərin varlığı Yaponiyada adi hal kimi qarşılanır.

Yapon dövlətinin insan həyatının bütün sahələrində əldə etdiyi nailiyyətlər dünyanın müasir siyasi xəritəsində olan dövlətləri heyran etmişdir. Hazırkı Yaponiya dünya bazarını ən müasir avtomobillərlə, elektron cihazları ilə, kompüter və robot texnikası

ilə, onların həyatında gərək olan müasir digər mallarla təmin etməkdədir. Bu azmış kimi, o öz kapitalını dünya ölkələrinə,o cümlədən dünya bankı sayılan ölkələrin təsərrüfatlarına təkidlə daxil edir, bir-birinin ardınca ABŞ-da, Avropa ölkələrində, Avstraliyada, Asiyanın tanınmış ölkələrində, Afrikada öz texnologiyasnı tətbiq etməklə müasir tələblərə uyğun məhsul verən sənaye sahələrini mövcudlaşdırır. Təkcə onu qeyd etmək gərəkdir ki, hazırda ABŞ-da 1 milyondan artıq yerli işçi qüvvəsi yaponların yaratmış olduqları müəssəisələrdə çalışırlar.

İkinci Dünya müharibəsində məğlub olan bir ölkənin kosmik sürətlə inkişaf etdirilməsinin, onun dünya iqtisadiyyatında apancı yer tutmasının və ümumiyyətlə onun «iqtisadi möcüzəsinin» səbəbi amerikanların söylədikləri kimi düzgün qurulmuş təhsil sistemi ilə bağlıdır.

Qeyd etmək lazımıdır ki, aparıcı xüsusi şirkətlərə dövlət yardımının olması, əhalinin təhsil və mədəniyyətinin səviyyə yüksəkliyi, istehsal nailiyyətləri, əmək intizamının daha yüksək olması, böyük sayda kiçik müəssisələrin varlığı, zaman və məkanla hesablaşmaq vərdişi, ETT-nin nailiyyətlərinin səviyyəli tətbiqi yapon iqtisadiyyatının, yapon «iqtisadi möcüzələrinin» əsaslarından hesab edilməlidir.

Yaponiyada təsərrüfat sahələrinin - maddi istehsalın 1-ci sahəsi hesab edilən sənayenin, maddi istehsalın 2-ci sahəsi sayılan kənd təsərrüfatının, onun 3-cü aparıcısı yerində duran nəqliyyat və rabitə sahəsinin, eləcə də xidmət sahəsi sferasının müasir tələblərə cavab verə biləcək səviyyədə inkişaf etdirilməsinin elmi əsaslara söykənən zəminləri vardır. Dünya sənaye məhsulunun 8,2 %-ni verən ölkə təsərrüfatında sənayenitn yanacaq-energetika, maşınqayırma və metal emalı, metallurgiya, kimya və neft-kimya, tikinti, meşə, xalq istehlakı malları istehsalı kompleksləri (yeyinti, yüngül) ETT-nin nailiyyətlərinin bacarıqlı tətbiq edilməsi sayəsində günün tələbləri səviyyəsində inkişaf etmişdir. Ölkədə fəaliyyət göstərən və 3,0 mln-dan artıq işçini cəmləşdirən 5,2 mln. sənaye müəssisələri 2002-ci ildə 800 mlrd. dollarlıq məhsul (31 %) istehsal edərək yalnız ABŞ və Çindən sonrakı yeri tutmuşdur. Yaponiya sənayesi ilə əlaqəli olanların sayı çox olsa da orada çalışanları 13 mln. nəfərdən artıqdır.

Yaponiyanın illik yanacıq və enerji məhsullarına olan tələbatının həcmi 650 mln. tut təşkil edir. Lakin bunun 575 mln. tutunu xaricdən almalı olur.

Yanacaq energetika kompleksi demək olar ki, yerli xammallardan məhrumdur. Ölkə neft neft və təbii qazın hamısını idxal edir. Yerli mənbələr hesabına yanacağın 18 %-i ödənilir. YEK balansında 1990-cı ilə nisbətən neft 58,3 %-dən 50 %-ə, qaz 10 %-dən 12,0 %-ə, kömür 17 %-dən 18 %-ə qalxmış, su enerjisi 4,9 %-dən 4 %-ə enmiş, atom enerjisi 9 %-dən 13 %-ə, geotermal enerji 0,1 %-dən 0,2 °/o-ə çatmış, digər alternativ enerji 13 %-dən 1,0%-ə enmişdir. Əsasən Xokkaydoda istehsal olunan illik kömürün kəmiyyət göstəricisi əvəllər 60 mln. ton təşkil etsə də son vaxtlar bu 4,0 mln. tondan çox olmamışdır. Avstraliyadan, Kanadadan, ABŞ-dan, RF-dən hər il 130 mln. tondan çox kömür idxal edir. Bu əsasdan da o Avstraliyada -21, Kanadada - 5, RF-də-1 birgə kömür şaxtalarına malikdir. Yanacağın neft sahəsi hasilatı yerli tələbatın 0,2 %-ni ödəyərək 0,8 mln. tondan artıq deyildir. İstehlakın ödənilməsi üçün hər il 80 %-dən çox neft Yaxın və Orta Şərq ölkələrindən idxal olunur. Ölkədə ildə 250 mln. ton neft emal edə bilən neft emalı zavodları xaricdən 280 mln. ton xam neft idxal edir. NEZ-lərin tam əksəriyyəti sahil zonalarında yerləşdirilmişdir. Ən keyfiyyətli və ucuz yanacaq növü hesab edilən təbii qaz hasilatı yerli mənbələr hesabına 3,0 mlrd. kubmetrdən çox deyildir. Hər il maye halında idxal olunan təbii qaz İndoneziyadan, Bruneydən 50 mln. ton miqdarında gətirilir. İdxal olunan qazın 75 %-dən çoxu İES-lərdə yanacaq kimi istifadə olunur. İdxal xammala əsaslanan yanacaq-energetika kompleksi qənaət üsulu, enerji istifadəsinin həcminin azalması ilə fərqlənir.

II Dünya müharibəsindən sonra Yaponiyanın sürətlə iqtisadi inkişafı öz əksini elektroenergetikada da tapmışdır. Belə ki, 1950-ci ildə - 45 mlrd. kvt saat, 1980 -cı ildə 578 mlrd. kvt saat, 2000-ci ildə 1080 mlrd. kvt saat, 2002-ci ildə 1115 mlrd. kvt saat elektrik enerjisi hasil edilərək Yaponiya ABŞ, Çinlə birlikdə 1-ci 3-lüyü təşkil edən ölkəyə çevrilmişdir. Ölkə elektroenergetikanm inkişafmda bir-birindən seçilən 4 mərhələdən keçmişdir. Birinci mərhələdə SES-lərin məhsul istehsalında xüsusi çəkisi 50-ci illərdə 85%, 60-cı illərdə 50 %, sonrakı illərdə isə xeyli azalmışdır.

Yaponiyada 600-dən artıq mövcud SES-lərin əksəriyyəti çox da böyük olmamaqla Xonsyunun qısa, lakin iti axara malik çoxsulu çaylan üzərində yaradılmışdır. 2-ci mərhələdə əsasən yerli kömürlə işləyən İES-lər üstünlük təşkil edirlər.

Onların hər birisinin maksimal gücü 3-4 mln. kvt arasında dəyişir. Kasima, Saderqaura, Aneqasaki, Tita, Ximedzi İES-ləri Sakit okean və Daxili Yapon dənizi boyu uzunu - gətirmə yanacağa əsaslanmaqla Tokio, Naqoi, Osaki şəhərləri yaxınlıqlarında yerləşdirilərək elektrik enerjisi hasilatında 80 % xüsusi çəkiyə malik olmuşlar. III mərhələ 1970-ci ilin ortalarında başlanır. Əsasən Avstraliyadan gətirilmə kömürə əsaslanan (neftin bahalaşması əsasında idxalın azalması səbəbindən) İES-lər məhsul istehsalında yenə də üstünlük təşkil edirlər. Deyilənlərlə yanaşı, Malayziyadan, İndoneziyadan, Bruneydən, BƏƏ-dən, Alyaskadan gətirilən maye qaz yanacağından da geniş istifadə olunmuşdur. 1970-ci illərin ortalarında ölkədə enerji böhranı baş verdiyi andan alternativ enerji mənbələrindən də istifadə olunmağa başlanmışdır. Belə ki, burada külək, günəş, qabarma-çəkilmə, geotermal enerji mənbələri də istehlaka xidmət etməkdədir. Lakin bu mərhələdə atom enerjisinə də üstünlük verilməyə başlamışdır. 1965-ci ilin başlanğıcında amerikan və fransız firmalarının lisenziyaları əsasında Tokio yaxınlığında ilk AES-in tikilməsinə icazə verilmişdir. 1980-cı ilin ortalarında ümumi gücü 10,8mln. kvt olan və nəinki Yaponiyada, eləcə də bütün dünyada ən böyük AES hesab edilən Fukusima tikilərək elektrik enerjisi hasil etməyə başlamışdı. Bundan başqa, gücü 3,4 mln. kvt olan Takaxama eləcədə Xitati, Kaşivazaki - Kariva (8,2 mln. kvt) AES-ləri dəniz sahillərində tikilərək enerji hasilatında 35 % (320 mlrd. kvt saat) xüsusi çəkiyə malikdirlər. Onların sayı 20 olmaqla 53 reaktora, 45 mln. kvt gücə malikdir. Gələcəkdə AES-lərin illik elektrik enerjisi hasilatında xüsusi çəkilərinin 43 %-ə çatdırılması nəzərdə tutulur. Elektroenergetikanın 4-cü mərhələsi müasir dövrü əhatə edir. Ölkədə 220 mln. kvt gücə malik elektrik stansiyaları fəaliyyət göstərir. Bunlardan da SES, HAES-lərin məhsul istehsalında 10 %-ə qədər, İES-lər 55 %-ə qədər xüsusi çəkiləri vardır.

Bundan başqa, ölkədə günəş, 1920-ci ildə tikilmiş GeoİES-də fəaliyyət göstərir. Yaxın gələcəkdə, yəni 2010-cu ilə qədər ölkədə

maye yanacaqla işləyən stansiyaların sayı azalmaqla kömürlə işləyən İES-lərin sayı artırılacaq (hal-hazırda kömürlə işləyən İES-lərin sayı 60-dan çoxdur), AES-lərdən alman elektrik enerjisinin illik miqdarı 480 mlrd. kvt saata çatdırılacaq, alternativ mənbələrə üstünlük veriləcəkdir. XXI əsrin birinci 10 ilində ölkədə hasil olunan illik elektrik enerjisinin 2 %-ə qədərini Günəşdən alınan enerji təşkil etməlidir. Külək elektrik stansiyalarının tikintisi də nəzərdə tutulmuşdur. Yaponiya elektroenergetikasının inkişaf etmiş ölkələrin elektroenergetikasından fərqli cəhəti ondadır ki, burada, məişətdə nisbətən elektrik enerjisinə az tələbat vardır. Yaponiya dəyəri 16 mlrd. dollar, uzunluğu 1800 km, ilik enerji ötürmə qabiliyyəti 30 mln. kvt saata çata bilən Yaponiya - Saxalin - Yaponiya «enerji mosu»nun çəkilişində iştirak etməyə razılıq vermişdir. Yaponiyada enerjidən daha səmərəli istifadə etmək Qanununa müvafiq olaraq gələcəkdə milli təsərrüfatın bütün sahələrində enerjini qorumaq, ona qənaət etmək, ondan səmərəli istifadə etməyin ümumxalq işi olduğu vurğulanır.

Qara və əlvan metallar istehsalı metallurgiya kompleksini formalaşdıran başlıca sahələr hesab edilir. Qara metallurgiya sənayenin baza sahələrindən biri olmaqla Yaponiyanın ixtisaslaşdırılmış beynəlxalq təsərrüfat sahələrindən sayılır. Onun verdiyi məhsullar polad, prokat, çuqun və s-dən ibarətdir. Texniki təchizat baxımından polad əritmə müəssisələrinin səviyyəsi ABŞ və Qərbi Avropa ölkələri ilə müqayisədə çox yüksək hesab edilir. Müəssisələrdə polad əridilməsinin 70%-b oksigen konvertoru, 30 %-i itsə elektriklə polad əridilməsi (elektrik sobalarında) üsulu ilə aparrlır. Qeyd etmək lazımdır ki, Yaponiya uzun illər ildə 20-30 mln. ton ABŞ-a, Çinə, Cənubi-Şərqi və Cənubi-Qərbi Asiya ölkələrinə polad və prokat məhsulu ixrac edirdi. Eyni zamanda o ildə Avstraliyadan, Braziliyadan 130 mln. t dəmir filizi, Avstraliyadan çoxlu miqdarda kömür idxal edən ölkə kimi tanınır. Yapon qara metallurgiyası yüksək dərəcədə istehsal və ərazi təmərküzləşməsiilə də tanınır.

Qərbin İEÖ-ində fəaliyyət göstərən 14 nəhəng qara metallurgiya müəssisələrindən ildə hər biri 7 mln. ton-dan çox məhsul verə bilən 8-i Yaponiyadadır. Bunlardan ildə 16 mln. ton polad məhsulu verə bilən müəssisə Fukuyama şəhərində, ildə 10 mln. ton məhsul verən

Midzusimada, Kimisuda Kasimada fəaliyyət göstərir. Hal-hazırda Yaponiya ildə 111 mln. ton polad əridərək dünyada Çindən sonra 2-ci yeri tutur. Yaponiya hər il ABŞ-a, Çinə, Cənubi-Şərqi Asiya ölkələrinə 30 mln. tondan çox polad ixrac edərək bu sahədə dünyada liderlik edir. Metallurgiyanın ən çox su, elektrik və material tutumlu sahəsi olan əlvan metallurgiya ekoloji baxımdan ən «cirkli» təsərrüfat sayılır. Bu əsasdan da ölkədə onun istehsal tərkibində əsaslı dəyişikliklər aparılır. Üstünlük xaricdən gətirilmə məhsullara verilir.

Maşmqayırmanın illik məhsul istehsalının miqdarına görə Yaponiya dünyada ancaq ABŞ-dan geri qalır. Maşınqayırma özünün universal strukturaya malik olmasıilə, tam nomenklaturalılığı ilə tanınır. Onun çox sahəsi beynəlxalq ixtisaslaşmış sahə kimi özünü göstərir. Maşınqayırma məhsullarının ixracatına görə Yaponiya dünyanın 1-cisi hesab edilir. İxracatda əsas yeri dəzgah, avtomobil, sənaye robotları, ümumi təyinatlı elektron avadanlıqları, ofislər üçün müxtəlif avadanlıqlar tutur. Dünyada isə tibb texnikası, çox yüksək dəqiqlikli vasitələr buraxılışı, inteqral sxemlər buraxmasına görə 2-ci yeri tutur. Ölkədə iri ağır maşınqayırma, dəzgahqayırma, kənd təsəsərrüfatı maşınları, yüngül və yeyinti sənaye avadanlıqları, elektronika, radio-televizor, nəqliyyat maşınqayırma zavodları fəaliyyət göstərir.

Deyilənlərdən aydın olur ki, maşınqayırmada ölkə sənayesinin döyünən ürəyini təşkil edir. Yaponiyada maşınqayırma köhnə, yeni və ən yeni növ sahələri özündə birləşdirir. Gəmiqayırma Yapon müəssisələrinin ən qədimi hesab edilir. O, iri tonnajlı, nəhəng ölçülü, quru və ya ədədi məhsul daşıyan, son vaxtlar daha mürəkkəb gəmilər istehsalı ilə tanınır. Göstərilən gəmilərin yük tutumu dünya gəmilərinin yük tutumunun 40 %-ni təşkil edir. Gəmiqayırma məhsullarına görə Yaponiya dünyada liderlik edir. Bu sahədə Koreya Respublikası ancaq Yaponiyadan geri qalır. Gəmiqayırma və gəmitəmiri müəssisələri ölkənin bütün sahil zonalarında yaradılsa da, onların ən böyükləri daha iri limanları - İokoqamada, Naqasakidə, Kobedə fəaliyyət göstərir. Maşınqayırmanın yeni sahələrindən biri də dəzgahqayırmadır. 1982-ci ildə Yaponiya bu sahədə liderliyi ələ almışdır. Get-gedə bu sahədə təkmilləşdirmə aparılaraq hesablama proqramlan ilə idarə

olunan dəzgahlar, sənaye robotları düzəldilməsinə keçilmişdir. Qeyd etmək lazımdır ki, dünya parklarında olan 780 min sənaye robotunun 420 mini Yaponiya parkındadır ki, bu sahədə də onun tayı-bərabəri olan ölkə yoxdur. Yaponiya üçün maşınqayırmanın yeni növlərindən biri də avtomobil quraşdırılması hesab edilir. Bu sahə Beynəlxalq Əmək Bölgüsündə Yaponiyanın «üzünü» əks etdirən güzgü hesab edilir. Ölkədə və ölkədən kənarda fəaliyyət göstərən yapon avtomobil müəssisələrində 6 mln-dan çox işçi xidmət edir. Yaponiyada avtomobil quraşdırılması ildən-ilə artır. Belə ki, 1960-cı ildə cəmisi 760 min ədəd avtomobil buraxılmışdırsa müasir dövrdə onun sayı 13,0 mln. ədədə çataraq dünyada 2-ci yeri özünə təmin etmişdir (ABŞ-dan sonra). Ölkədə hər 1000 nəfərdən 370-nin avtomobili vardır. Bu, onu dünya ölkələri içərisində 16-cı yerdə saxlayır. Hər il dünya bazarına ixrac etdiyi avtomobillərin alıcıları Cənubi-Şərqi Asiya, Şimali Amerika, Qərbi Avropa, Avstraliya, Meksika, Hindistan, Çin, CAR, Latın Amerikası ölkələridir. Xarici ölkələrdə «Toyota» (5,2 mln. avtomobil, 105 işçisi var), «Folksvaqen» (250 min nəfər işçisi, 3,5 mln. avtomobil buraxır), «Nissan» (2,6 mln. avtomobil), «Mazda», «Xonda» (2,3 mln. avtomobil buraxır), «Mitsubisi» avtomobil konsernləri zavodlarının filiallarını yaratmışlar. Avtomobil mərkəzləri Tokio, Osaka, Naqoya şəhərləri hesab edilir. Nəhayət, maşınqayırmanın ən yeni sahəsi olan elektron maşınqayırması da səviyyəli inkişafa malikdir. Buraya radio-elektronika, yarımkeçiricilər, telekommunikasiya məmulatları, optika lifləri, lazerlər, videomaqnitofonlar, çəkiliş kameraları, videokasetlər və fotoaparatlar aiddir. Bu sahədə aparıcı «Xitaçi», NEK, «Toşiba», «Fudzi», «Soni», «Mitsubisi elektrik», «Masusita elektrik indastriz», «Şarp» firmaları fəaliyyət göstərir. Yaponiya məişət elektronika avadanlıqlarına və elektron apparatlarına görə dünyada liderlik edir. Rəngli televizorların dünya istehsalında xüsusi çəkisi 60 %-ildə 15 mln. ədəd, videomaqnitofonlarınkı isə 90 %-dən az deyildir. Elmtutumlu sahə ümumsənaye məhsulunun 15 %-ni əhatə edir.

Yaponiyada kimya sənayesi də prioritet sahələrdən hesab edilir. Onun mərkəzləri Sakit okean sənaye qurşağına uyğun gəlir (85 %). Tokio aqlomerasiyasının Kavasaki, Tibo, İokoqama mər-kəzləri,

eləcə də Osakinin Ximedzi müəssisələri əsasən gətirmə xammallar əsasında işləyirlər. Kimya məhsulları kübrələr, turşu, duz, qələvi, boyalar, polietilən, kosmetik məmulatlar, etanol, etilen, sintetik liflər, əczaçılıq və s-dən ibarətdir. Məhsulların həcminə görə bu sahədə Yaponiya dünyada 2-ci yeri tutaraq, ancaq ABŞ-dan geri qalır. Eyni zamanda onun məhsulları ixrac olunur. Hal-hazırda Yaponiya Şərqi Asiya, Cənubi-Şərqi Asiya regionu ölkələri sistemində neft-kimya sənayesinin «özəyini» təşkil edir. Tokiodan şərqə doğru dünyada ən böyük neft-kimya kombinatı - Kasima fəaliyyətdədir. Belə kombinatlar Naqoidən cənubda da, Daxili Yapon dənizi sahilində də yaradılmışdır. Kimyanın «Asaxi Kemikl indastri», «Mitsubisi Kemikl», «Asaxi qlass» və sair korporasiyaları fəaliyyət göstərir.

Yaponiyada tikinti, meşə, yüngül, yeyinti sənaye sahələri də istehlaka xidmət edirlər. Ölkənin hər yerində meşə sənayesinin taxta-şalban, ağac emalı müəssisələri fəaliyyət göstərir. Ölkədə meşə sahəsi 25 mln. ha-dan artıqdır. Yaponiya hər il 75 mln. kubmetr meşə məhsulları idxal edir. Onun məhsulları faner, hazır ölçü qabları, məişətdə işlədilən müxtəlif ləvazimat məhsulları, idman üçün müxtəlif avadanlıqlar, selüloz-kağız və sairdən ibarətdir. Faner tədarükünə görə dünyada ABŞ və Kanadadan sonrakı yeri tutur.

Yaponiya hələ qədimdən ixtisaslaşmış sahə kimi farfor-fayans sənayesi ilə dünyada tanınır. Burada keramika, xüsusilə də kənd rayonlarında seçilir. Bunların əksəriyyəti Xonsyu adalarında mövcud olan gil və kaolin xammalına əsaslanır. Ən çox xaricə ixrac olunan farfor - fayans qab-qacaq məhsulları Yaponiyanı dünyada tanıdır. Son vaxtlar onların yeni növlərinin: istilik keçirməyən növləri, şüşənin xüsusi növü, texniki aparatların düzəldilməsi mənimsənilmişdir.

Yaponiyada ağır sənaye sahələrinə daha çox diqqət verilməsi ilk baxışda yeyinti və yüngül sənayenin inkişaf etdirilməsindən xəbər verir. Bu, əslində belə deyildir. Cəmiyyət yarandığı gündən göstərilən sahəyə fikir verilmiş və indi də verilməkdədir. Bu xüsusilə toxuculuq (pambıq parça, yun parça, xüsusilə ipək parça) və yeyinti sənayesinə aiddir. Natural məhsullarla yanaşı kimya texnologiyasının tətbiqi süni parçaların

əldə edilməsində çox böyük əhəmiyyət kəsb edir. Burada Yaponiya üçün ənənəvi olan milli paltarlar, ayaqqabılar, zontik (çətir), veyerlər-yelpiklər, oyuncaqlar, ev şeyləri üstünlük təşkil edir. Baxmayaraq ki, toxuculuq məhsulları ixrac olunur, göstərilən məhsulların əksəriyyəti daxili bazar üçündür.

Yeyinti sənayesi çoxçeşidli sahələrdən hesab olunur. Bunların çeşidli məhsullarına düyü, düyü arağı G'ake), çay, ernal olunmuş balıq məhsulları, pivə, müxtəlif növ konservlər, tütün, şəkər və un məmulatlarını aid etmək olar. Demək olar ki, yeyinti sənaye müəssisələri xammala, istehlaka, bəzilərininki isə hər yerə meyl etmişdir.

Maddi istehsalını 2-ci sahəsi sayılan kənd təsərrüfatı yapon iqtisadiyyatında əhəmiyyətli rol oynayır. Kənd təsərrüfatında işləyənlərin sayı 6,0 mln. nəfərdən çox deyildir. İldən-ilə əhalinin kəndlərdən şəhərlərə axını kənd təsərrüfatı məhsulları istehsalının və kənddə işləyənlərin sayının azalmasında özünü göstərir. ÜDM tədarükündə kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi 1,0 %-dən çoxdur. Yaponiya kənd təsərrüfatı üçün xarakter cəhət orada əməyin, əkinçilik və heyvandarlığın, torpağın məhsuldarlığının yüksək olmasıdır. Kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi ümumi torpaq fondunun 15%-ni əhatə edir. Bu, 5,3 mln. ha-dan artıqdır. Kənd təsərrüfatı istehsalının başlıca xüsusiyyəti onun əmtəəlik məhsul tədarük etməsidir. Baxmayaraq ki, ölkədə kənd təsərrüfatı yüksək dərəcədə mekanikləşdirilib, kimyalaşdırılıb onun tədarük etdiyi məhsul istehlakın 49 %-ni ödəyə bilir. Ona görə də, Yaponiya ölkə tələbatını ödəmək məqsədilə xarici ölkələrdən kənd təsərrüfatı məhsulları (62 mlrd. dollar miqdarında) almalı olur. Ölkədə bitkiçilik illik kənd təsərrüfatı məhsullarının 70 %-ni tədarük edir. Ölkənin çox yerində ildə eyni sahədən 2-3 dəfə məhsul götürmək mümkün olur. Bu, xüsusilə, ölkənin hər yeri üçün xarakter olan çəltikçilik təsərrüfatına aiddir. Əkin sahələrinin 90 %-dən çoxu taxılçılıqda istifadə olunur. Hər il ölkədə 15,0 mln. ton çəltik məhsulu toplamaq mümkündür. O, ümumi becərilən ərazinin 50 %-ə qədərini təşkil edir.

Çəltiyin hər hektardan məhsuldarlığı 7 tona qədərdir. Dəniz sahilinin ensiz ərazilərində, daxili bölgələrin çay vadilərində, mövcud düzənlik və ovalıqlarda buğda, çovdar, arpa, soya, şəkər

çuğunduru, yulaf, qarğıdalı, paxlalı bitkilər, bağçılıq, tütün, çay, sitrus bitkilərindən limon, mandarin becərilir. Haqlı olaraq Yaponiyanı xarici Asiyada başlıca çay becərən dövlətlərdən biri hesab edirlər. Bağçılıq, bostançılıq və tərəvəzçilik məhsullarının toplanmasının illik kəmiyyət göstəricilərinə görə Yaponiya dünyada Çindən, Hindistandan, ABŞ və Türkiyədən geri qalsa da, mandarin toplanmasında onun tayı-bərabəri yoxdur. Lakin ölkə tələbatını ödəmək üçün şəkər, qarğıdalı (heyvandarlığın inkişafı üçün), pambıq, yun məhsulları idxal edir. Yerli çəltik, tərəvəz, quş əti, donuz əti, meyvə tədarükü ib yerli tələbatın 70 %-i ödənilir. Əkinçilikdə deyilənlərlə yanaşı, gülçülük, dekorativ növlərb təmin olunan bağçılıq təsərrüfatı aparıcı yerə malikdir.

Heyvandarlıq tarixən inkişaf etmiş sahə kimi tanınır. Onun quşçuluq, tut bağları əsasında baramaçılıq, iribuynuzlular, xırda-buynuzlular, donuzçuluq, balıqçılıq sahələri inkişaf etmişdir. Yaponiya balıq ovlanmasına və müxtəlif dəniz heyvanları məhsulları tədarükünə görə dünyada ən qabaqcıl ölkə hesab edilmişdir. Əvvəllər ildə 15 mln. ton balıq ovlanırdısa, son illərdə bu miqdar 5,4 mln. ton təşkil etmişdir. Bu da, Çindən, Peru və Çilidən sonrakı 4-cü yer deməkdir.

Yaponiyada sənayenin sürətli inkişafı, rayonlararası və beynəlxalq əlaqələrin daha da dərinləşməsi, ixracatdan və idxalatdan asılılığın getdikcə yüksəlməsi, insanların bir yerdən digər yerə hərəkəti nəqliyyatın bu və ya digər növünün daha da inkişaf etdirilməsinə zərurəti daha da artırmışdı. Ölkə nəqliyyat sisteminin xarakteri Qərbi Avropa ölkələrini andırsa da, istər sərnişin və istərsə də yükdaşımada onların hər bir ölkəsindən çox-çox qabaqdadır. Burada daxili su və boru kəmər nəqliyyatın dan başqa digər nəqliyyat növləri yüksək səviyyədə inkişaf etmişdir. Nəqliyyat növbri içərisində sərnişin və yükdaşımada avtomobil nəqliyyatı 1-ci yer tutur (310 mlrd. ton.km). Sərnişindaşımada onun xüsusi çəkisi 64 %, yükdaşımada isə daha yüksək - 90 %-dən az deyildir. Ölkədə nəqliyyat sistemini formalaşdırmaqdan ötrü mövcud 4 böyük adalar arasında sualtı tunellərin, eləcə də körpülərin yaradılmasının çox böyük əhəmiyyəti vardır. Yaponiyada avtomobil yollarının ümumi uzunluğu 1,2 mln. km olmaqla dünyada ABŞ, Hindistan, Braziliya və Çindən sonrakı 5-ci

yeri tutur. Avtomobil yollarının sıxlığına görə o dünyada liderlik edir. Ölkədə avtomobil yolları bir neçə yan paralel cərgələrdən ibarətdir. Mövcud avtomobil yolları ölkə ərazisində dəmir yollarına paralel istiqamətlidirbr. Avtomobil parklarında 70 mln. avtomobil vardır.

Dəmir yolu ölkə nəqliyyatının özəyini təşkil edir. Dəmiryolları yüksək səviyyədə texniki təchizata malik olmaqla get-gedə daşımalarda xüsusi çəkisini azaldır. Onların uzunluğu 20 min km olmaqla son vaxtlar iti sürətə malik olan (saatda 552 km) qatarlarla təchiz olunmuşdur. Dəmiryollarının uzunluğuna görə Yaponiya dünyada 16-cı yeri, yükdövriyyəsinə görə isə 13-cü yeri özünə təmin etmişdir. Lakin sərnişin dövriyyəsində (400 mlrd. sərnişin km) birinciliyi əldə saxlayır. Ölkədə əsas yollar (60 %) elektrikləşdirilmişdir.

Yaponiya dünyanın ən böyük dəniz dövlətidir. Bütün xarici ticarət əlaqələrinin 98 %-i dəniz nəqliyyatı ilə həyata keçirilir. Ölkə dəniz flotunda 10 mindən artıq gəmi vardır (dünyada 1-ci yeri tutur). Tonnajına görə dünyada o, Panama, Liberiya, Yunanıstan, Baham və Kiprdən sonrakı 6-cı yerə malikdir. Xarici ticarət əlaqələrinin yaradılmasında Tokio, İokoqama, Tiba, Kavosaki, Osaka, Kobe, Naqoya limanları əhəmiyyətlidir. Ümumiyyətlə yük dövriyyəsində dəniz nəqliyyatı 2-ci hesab olunur. İllik tonnaj 17,1 mln. brt təşkil edir. Son illər xarici ticarətdə aviasiya nəqliyyatının da rolu durmadan artmaqdadır. Xüsusilə də özünü sərnişindaşımada daha qabarıq göstərir. 1955-ci ildən ölkədə Osaki yaxınlığında nəhəng Kansay hava limanı da fəaliyyət göstərir. Ümumiyyətlə, Yaponiyada göstərilərindən başqa, Kanada, Narita hava limanlan da sərnişindaşımada çox gərəklidirbr. Sərnişindaşımada (95 mln. nəfər) Yaponiya dünyada ancaq ABŞ-dan geri qalsa da ondan sonrakı 2-ci yeri tutur.

Ölkədə metro xətti də iri şəhərlərdə fəaliyyətdədir.

Yaponiya üçün xarici iqtisadi fəaliyyətin müxtəlifliyi xarakterdir. Burada əlaqələrin müxtəlif formalarının artmasına baxmayaraq ticarət yenə də üstünlük təşkil edir. Xarici ticarət dövriyyəsinin 850 mlrd. dollar təşkil etməsi onu ABŞ və Almaniyadan geri qoyur. Bu, dünya ixracatının 8 %-dən çoxu deməkdir. Dünya idaxalatında isə Yaponiyanın çəkisi 5 %-dən az

deyil. İxracat məhsulları avtomobil, dəniz gəmiləri, televizor, kompüter, inteqral sistemlər, optik aparatlar, sintetik liflər, avtomobil şinbri, çuqun, polad və s. təşkil edirlər. İdxalatda isə yanacaq məhsulları, müxtəlif növ xammallar, kömür, dəmir filizi, əlvan metal filizləri üstünlük təşkil edir.

Ümumiyyətlə, Yaponiya öz xarici iqtisadi əlaqələrini ABŞ-la, AFR-lə, Avstraliya, Kanada, Koreya Respublikası, Çin, İran körfəzi sahili dövlətləri, Böyük Britaniya, Tayvan, Sinqapur və başqa dövlətlərlə həyata keçirir. Dünyada tanınmış 500 ən iri transmilli korporasiyalardan Yaponiyada mövcud olanları Toyota Motor, Nissan Motor, Ffonda Motor, Hitaxi, Sonu, NES, Toşiba, Fujitsu, Sanon xarici iqtisadi əlaqələrdə çox böyük fəaliyyət göstərirlər.

Yaponiyada məhsuldar qüvvələrin yerləşdirilməsində başlıca xüsusiyyətlərdən biri odur ki, əhali və təsərrüfat sahələrinin çoxu Sakit okean qurşağında cəmləşmişdir. Belə ki, Tokaydo meqalopolisinin mövcudluğu əhalinin 3/4-nün bu hissədə cəmləşməsinə, onların 80 %-dən artığının mövcud sənaye sahələrinə cəlb olunmasına, sənaye və kənd təsərrüfatı məhsullarının yarıdan çoxunun Sakit okean qurşağında yerləşməsinə şərait yaratmışdır.

Regional ayırmalardan biri də Kanto düzənliyi yerləşən sənaye qurşağıdır. Bu, ərazisinə görə Sakit okean qurşağından geri qalmaqla başlıca olaraq kənd təsərrüfatı məhsulları istehsalı ilə seçilir. Lakin təsərrüfatın ərazi strukturunun bir-birindən fərqli olması ölkə də ayrılmış regionlardan başqa 8 iqtisadi rayonu ayırmağa imkan verir. Bunlardan Kanto, Kinki vəTyubu Sakit okean qurşağında yerləşməklə ölkənin mərkəzi rayonuna aid edilir.

Kanto (Qumma, İbaraki, Totiqi, Kanaqava, Saytama, Tiba, Tokio prefekturalarını əhatə edir) Yaponiyanının başlıca iqtisadi Rayonu hesab edilməklə ölkə ərazisinin 10 %-ni, əhalisinin 30 %-ni özündə birləşdirir. Ümumi Daxili Məhsulun 40 %-i burada hasil olunur. Qüvvətli ticarət, xidmət sferasına, emal sənayesinə malik olmaqla nəinki ölkənin, habelə dünyanın siyasi, maliyyə, beynəlxalq informasiya mərkəzi sayılır.

Tyubu iqtisadi rayonu Niiqata, Toyama, Naqano, Fukui, Ysikava, Qifu, Ayti, Sidzyoka, Yamanasi prefekturalarını əhatə edərək ölkə avtomobilinin 35-%-ni verməklə, metal emalı, əlvan

metallurgiya, neft istehsalı, habelə inkişaf etmiş kənd təsərrüfatı sahələrinə malikdir.

Kinki iqtisadi rayonu Kioto, Nara, Siqa, Vakayama, Osaka, Xioqo, Mio prefekturalarını əhatə edən Osaka aqlomerasiyasını özündə birləşdirir. Məhsul istehsalında ancaq Kantodan geri qalan inkişaf etmiş rayondur. İxtisaslaşdırılmış metallurgiya kompleksinə, kimyaya, özünə məxsus mədəni və tarixi xüsusiyyətlərə, orta inkişaf etmiş kənd təsərrüfatına malikdir. Yaponiyanın qədim paytaxtları olan Nara və Kioto burada yerləşirlər.

Tottori, Simane, Yamaqati, Xirosima, Okayana prefekturalarına malik olan Tyuqoku iqtisadi rayonu Koreya adasından cənub - qərbdə - Daxili Yapon dənizinin şimal sahilində yerləşir. Ölkənin inkişaf etmiş ağır sənaye rayonu sayılır. Əsas mineral sərvətlərə malik olmaqla maşınqayırma yaxşı inkişaf etmişdir. Xirosimada isə gəmiqayırma, avtomobü sənaye sahələri, eləcə də kən təsərrüfatında çəltik, üzüm, sitrus bitkiləri becərilir.

Sikoku iqtisadi rayonuna Karava, Tokusima, Koti, Exime prefekturaları daxildir. Ticarət və xidmət sferası yaxşı inkişaf etmişdir, yüngül sənaye və ağır sənayenin maşınqayırması vardır. Nüxamada ağır maşınqayırma, ərazinin cənubunda isə subtropik əkinçiliyi və balıqçılıq təsərrüfatı məhsul verən sahələrdəndir.

Naqasaki, Sara, Fukuoka, Oita, Kumamata, Karosima, Miyadzoki və Okinava prefekturalarına malik olan Kyusyu iqtisadi rayonu kömür, neft-kimya, metallurgiya, elmtutumlu sahələr - yarımkeçiricilər, inteqral sxemlər sahəsi ilə, çəltik, buğda, arpa becərməklə, iribuynuzluların 20 faizinə malik olmaqla tanınır.

Toxoku iqtisadi rayonunda Akita, Aomari, İvate, Miyaqi, Fukusima, Yamaqati prefekturaları yerləşir. Az təbii ehtiyatlara malik olmaqla neft, dəmir filizi, qalay, sink hasil olunur. Emal sənayesinin səviyyəsi aşağı, xidmət sferasını səviyyəsi isə yüksəkdir. Kənd təsərrüfatı sahələri, meşə təsərrüfatı, balıq ovu özünə yer tapmışdır. Senday başlıca iqtisadi mərkəz hesab edilir.

Xokkaydo iqtisadi rayonu ancaq Xokkaydo prefekturasına malikdir. Ölkənin ən geri qalmış rayonudur. Hasilat sənayesinə, neft-kimyaya, metal emalına, meşə sənayesinə, habelə kənd təsərrüfatının inkişaf etmiş bəzi növlərinə malikdir. Sapporo

iqtisadi mərkəz sayılır və İ972-ci ildə dünya olimpiya oyunlarının keçirildiyi şəhərdir.

VIIL ŞİMALİ AMERİKA

Şimali Amerika Qərbdən şərqə - 4700 km, şimaldan cənuba 8000km məsafədə uzanmaqla adalarla birlikdə 24,2 mln.kv.km. sahəyə və 500 mln. nəfərə qədər əhaliyə malikdir. Əhalisinin 49,6 %- ni kişilər, 50,4 %-ni qadınlar təşkil edir. Şəhər əhalisi 77,2%-dirsə, kənd əhalisi 22,8%-dən az deyil (Latın Amerikası daxil olmadan). Əhalinin hər kv.km-də orta sıxlığı 20,1 min nəfərdir. Ən çox sıxlıq Barbadosda müşahidə edilməklə 1 kv.km-də 643,3 nəfər, ən az süxlüq Kanadada 3,2 nəfərdir. Əhalinin orta illik artım göstəricisi 1 %-dən çox deyildir. Bu sahədə o maksimal əhali artımı ilə fərqlənir (2,75 %). Ən az əhali artımı Kanadada olmaqla 0,35 %-dir. Müşahidə edilən orta ömür sürmə kişilərdə 70,5 il, qadınlarda 76,1 il, maksimal ömür sürmə Kanadada müşahidə edilməklə kişilərdə 76,3 il, qadmlarda 83,2 ildir, Ən az ömür sürmə Haitidədir. Belə ki, kişilər 50 yaşa qədər, qadınlar 51,2 ilə qədər ömür sürürlər.Şimali Amerikada savadlılığın orta göstəricisi 82 %-dir. Bahanı adalarında bu 98 %, Haitidə isə 45 %-dir. Ərazisinə görə ən böyük dövlət Kanada sayılırsa, ən çox əhali ABŞ-da müşahidə edilir. Ən an ərazisi və əhalisi olan Sent-Kits və Nevis sayılır. Bunların 261,6 kv.km. ərazisi, 39 min nəfər əhalisi vardır. Ən çox əhalisi olan şəhər (18,1 mln. nəfər) Mexikodadır.

Adambaşına düşən Ümumi Daxili Məhsulun illik miqdarı ABŞ-da maksimal həddə çatır. Daha doğrusu, bu 36,3 min dollardan artıqdır. Adambaşına düşən ən az Ümumi Daxili Məhsulun illik miqdarı isə Haitidə - 1,7 min dollar təşkil edir.

Şimali Amerikada müstəqil 10 materik, 13 ada dövləti və 13 müstəqil olmayan ərazi vardır. 13 respublika, o cümlədən 2 federativ dövlət mövcuddur. Böyük Britaniyanın rəhbərlik etdiyi Birlik qrupuna buradan 12 dövlət daxildir. ABŞ-m əhalisinin 80 %-dən çoxu və Kanada əhalisinin 90 %-dən artığı Avropa mənşəlidir. Ən böyük neqroid qrupu ABŞ-da məskunlaşmışdır.

Amerikalılar, meksikalılar, anqlokandlar, kubalılar üstünlük təşkil edirlər. ABŞ-da, Kanadada əsas dövlət dili ingilis dilidir. Meksikada, Mərkəzi Amerika dövlətlərindən Dominikan Respublikasında, Kubada dövlət dili ispan dilidir. Kanadada, Haitidə dövlət dili fransız dili hesab olunur.

Dini əqidələrində katoliklər üstünlük təşkil edir. Bunlarla yanaşı induistlər, müsəlmanlar, buddistlər və provoslavlar xeyli saya malikdir.

VIII. 1. Kanada

Kanada Şimali Amerika materikinin şimal hissəsində yerləşərək Şimal Buzlu, Antlantik və Sakit okean suları ilə əhatələnir. Sahəsinin böyüklüyünə görə o dünyada ancaq Rusiya Federasiyasından sonrakı yeri tutur. Paytaxtı Ottava şəhəridir. Onun sahəsi 10,0 mln. kv.km olmaqla şimaldan cənuba 4600 km, qərbdən şərqə 5100 km məsafədə uzanmışdır. Sahil xəttinin 243791 km olması onu dünya ölkələri içərisində liderlik etməyə sövq edir. Ölkə cənubdan, şimal-qərbdən ABŞ-la, eləcə də okean suları vasitəsilə Rusiya və Danimarka ilə sərhədə malikdir. Sahil suları ilin xeyli vaxtı donsalar da, iqtisadi cəhətdən hədsiz əhəmiyyətə malik olan cənub-şərq və cənub-qərb sahil suları-hansı ki, Sakit okeanının Vankuver və Atlantik okeanının Qalifaks limanlan yerləşir donmurlar.

Kanadanın keçmişini izləsək aydm olur ki, hələ 1000 il bundan əvvəl Şimali Amerikanın şərq sahilləri normanlara məlum idi. Fədakar Avropa dənizçiləri Nyufaundlend adasının (Sent-Cons sahəsində) ilk sakinləri olmuşlar. 1603-cü ildə fransızlar Müqəddəs Lavrentiya çayının aşağı hissəsini tutaraq oranı əvvəlcə Yeni Fransa, sonradan isə Kvebek adlandırmışlar. 1670-ci ildə isə ingilislərin «Hudzon körfəzi kompaniyası» mövcudlaşır. XVII əsrin ortalarına qədər fransızlarının mülkləri hesab edilən Aşağı Kanada və ingilislərin ixtiyarında olan Yuxarı Kanada coğrafi məfhumu mövcud olur. XVII əsrin 2-ci yarısında Kanada tamamilə fransızların müstəmləkəsinə çevrilmişdi (1663-cü ildən). Lakin sonralar İngiltərə ilə Fransa arasında gedən 7 illik müharibənin

nəticəsi olaraq Kanada 1763-cü ildən ingilislərin müstəmləkəsinə çevrilir. 1 iyul 1867-ci ildə Britaniyanın Şimali Amerika aktına əsasən Kanada dominian hüququnu qazanmış olur. 1 iyul milli bayram - Kanada günü kimi qeyd olunur. Nəhayət, 1931-ci ildə İngiltərə hökuməti Kanadaya daxili və xarici siyasət yeritməkdə müstəqillik, 1982-ci ildə isə hüquqi müstəqillik vermişdir. Hal-hazırda Kanada Böyük Britaniyanın rəhbərlik etdiyi Birliyin üzvü olmaqla nominal olaraq Böyük Britaniya kraliçası dövlətin başçısı sayılır. O Nyufaundlend, Şahzadə Eduard adası, Yeni Şotlandiya, Nyu-Bransuik, Krebek, Ontario, Manitoba, Saskaçevan, Alberta, Britaniya Kolumbiya inzibati - ərazi bölgülərinə, Yukon və Şimal-Qərb ərazilərinə sahib olmaqla federativ quruluşa malikdir. Hər əyalətin başında nominal olaraq general-qubernator durur. O, dövlət quruluşuna görə müstəqil, suveren bir dövlətdir. Qanunvericilik hakimiyyəti qanunverici assambleya, icraedici hakimiyyət isə Nazirlər Kabineti tərəfindən icra olunur. Əraziləri federal hökumət tərəfindən təyin olunmuş çinovniklər idarə edirlər. ABŞ-n ştatlarında olduğu kimi, hər əyalət (10+2) özünə məxsus emblema daşıyır.

Başqa dövlətlərdə olduğu kimi Kanadanın da gerbi, bayrağı, himni vardır. Lakin 1965-ci ilə qədər Kanadanın müstəqil bayrağı olmamışdır. Həmin ildən müəyyən ölçülərə malik ağ fonlu parçaların kənarları boyu 2 dünya okeanı arasında yerləşmə rəmzini əks etdirən 2 qırmızı zolaqlı, mərkəzində isə sülh, birlik rəmzini əks etdirən qırmızı ağcaqayın yarpağı əks olunmuş bayraq parlament tərəfindən təsdiq edilmişdir.

Kanada təbii şəraitinə görə coğrafı yerləşməsinə çox möhtacdır, Sərt iqlim şəraitinin olması, xüsusilə şimalda, yeraltı təbii sərvətlərin aşkarlanmasına, mənimsənilməsinə, eləcə də əhali məskunlaşmasma öz mənfı təsirini göstərmişdir. Elə ərazilər vardır ki, bu vaxta qədər hələ də mənimsənilməmişdir. Ərazinin relyefı mürəkkəbdir, mərkəz hissədə düzənliklər, qərbdə isə Kordilyerin hündürlüyü 6045 metrə çatan Loqan zirvəsi yerləşir. Cənub-şərqdə isə orta dağlıq sayılan Appalaçm ayrı-ayrı tirələri ərazi relyefini mürəkkəbləşdirir. Ərazinin yarıdan çoxunu qədim Kanada şitinin üzərində yerləşən sərt iqlim şəraitinə malik və zəif mənimsənilən Lavrentiya yaylası tutur. Hudzon körfəzi sahili boyu, eləcə də

Arktika arxipellaqı adaları demək olar ki, insan ayağı dəyməmiş yerlərdir. Ərazinin mərkəzində, çay dərələrində yerləşən düzənliklər, Daxili düzənlik çox məskunlaşmış və iqtisadi cəhətdən inkişafa malik olan relyef sahələridir.

Kanada qütb, subarktika və mülayim iqlim qurşaqlarında yerləşir. Kordilyerdə təbii zonalar yüksəkliyə qalxdıqca dəyişməkdədir. Ərazinin 40 %-ində ümumi əhalinin 0,3 %-i yaşayır. Belə hal, əlbəttə, iqtisadi inkişafa mənfi təsirini göstərməyə bilməz. Əhali məskunlaşmasının çoxu ABŞ-ia sərhəddə - cənub hissədədir. Relyefdən, eləcə də iqlim zonalarından asılı olaraq atmosfer yağıntıları 200 - 2700 mm araısında dəyişir. Temperatur amplitudasının dəyişkənliyi də ərazinin böyüklüyü və coğrafı yerləşməsi ilə əlaqələndirilir. Yanvar temperaturu -35°S, cənubda +4°S-dirsə, orta iyul temperaturu şimalda +3-5°S, cənubda +20°S-yə qalxır. Əgər yayda şimalda ərazi sükut içərisindədirsə, cənubda - Böyük göllər rayonunda bu dövürdə üzüm yetişmiş olur. Alçaq temperatur şəraitində, çox da böyük olmayan atmosfer yağıntıları, ərazinin çox hissəsində mövcud olan daimi donuşluq torpaq və bitki örtüyünün zəifliyindən xəbər verir. Cənuba doğru tundra, meşətundra, tayqa meşələri və çöllər biri-digərini əvəz edir. İstifadə olunan torpaqlar ərazinin 15 %-ni təşkil edir.

Kanada su ehtiyatı ilə zəngindir. Belə ki, planetin şirin su ehtiyatının 20 %-i 3 okean hövzəsinə aid olunan Müqəddəs Lavrentiya, Böyük göllər, Makkenzi, Kolumbiya, Freyzer, Yukon, Atabaska, Saskaçevan, Niaqara çaylan hesabına burada yerləşir. Kanada adambaşına düşən şirin su miqdarına ~ 115 min kubmetr görə Yeni Zelandiyadan və Konqo Demokratik Respublikasında sonrakı 3-cü yeri tutur. Bütün təsərrüfat sahələrinin illik suya olan tələbatı 40 kub km-dir. Adambaşına isə sutkada bu miqdar çox böyük göstəriciyə - 4650 litrə çatır. Çaylar və göllər çox böyük nəqliyyat, elektroenergetika, kənd təsərrüfatı, eləcə də balıqçılıq üçün əhəmiyyətlidirlər. Burada məşhur Niaqara şəlaləsi də turistlərin diqqətini özünə cəlb edir.

Ərazinin yarıdan çoxunu meşə örtmüşdür. Onun sahəsi 450 mln. ha olmaqla 165 mln. hektan sənaye əhəmiyyəti kəsb edır. Oduncaq ehtiyatı 22 mlrd. kubmetrdir ki, bu da onu dünyada RF-dən və Braziliyadan geri qoyur.

Kanada bütün faydalı qazıntı təbii sərvətlərinə malikdir. Burada çox böyük ehtiyata malik dəmir filizi, əlvan və qiymətli metal filizləri, uran, neft, qaz, kalium duzu, kömür, xromit, asbest, nikel yataqları aşkarlanmışdır. Kordilyerlərdə əlvan və qiymətli nəcib metal fiizləri, kömür yataqları istismar olunur. Daxili düzənliklərdə neft, qaz, kömür (ehtiyatı 582 mlrd. ton) istehlak üçün yararlıdır. Kanada dünya sink və nikel ehtiyatının 2/3-nə, uran və qurğuşunun 2/5-nə, dəmir filizinin (Labrador yarmadasında) titanm, misin 1/3-nə malikdir. Son illər neftin ehtiyatının 24 mlrd. tona çatdığının müəyyən etmişlər ki, bu da onu Səudiyyə Ərəbistanından - 36 mlrd. t, Rusiya Federasiyasından - 27,0 mlrd. ton - sonrakı 3-cü yeri tutmağa imkan verir.

Kanadanın paytaxtı Ottava şəhəri hesab edilməklə əhalisi 32,0 mln. nəfərdən artıqdır. O, «köçürmə kapitalist» ölkəsi olmaqla hindlilər və eskimoslardan (inuitlərdən) ibarət yerli əhaliyə malikdir. Dövlət dili ingilis və fransız dilləridir. Kanada çoxmillətli ölkədir. 100-dən çox etnik qrup 10-dan çox dildə danışırlar. Bunlar ingilislər, fransızlar, çinlilər, italyanlar, almanlar, portuqallar, polyaklar, ukrayınlar, ispanlar, hollandlar və yunanlardan ibarətdir. Əhali ölkə üzrə çox qeyri-bərabər yerləşmişdir. Təbii şəraitdən asılı olaraq əhalinin 90 %-ə qədəri cənub sərhəd zolağında yerləşmişdir. Orta sıxlıq hər kv.km-də 3,2 nəfərdən çox deyildir. Şimalda isə hər 3 kv.km-ə 1 nəfər adam düşür. Əhalinin 40 %-ə qədərini ingilis mənşəli kanadalılar, 27 %-ni fransız mənşəli kanadalılar, 6 %-ni almanlar, ukraynlar və ruslar - 3%-ni, yerli əhali hesab edilən hindlilər və eskimoslar isə 2,0 %-ni təşkil edirlər. Əhalinin təbii artımında hər 1000 nəfər hesabı ilə doğum - 13,3 nəfər, ölüm - 7,7 nəfər, təbii artım 5,6 nəfər təşkil edir. Hər il ölkəyə 200 mindən çox insan immiqrasiya edir. Avropa və Asiyadan gələnlər - 35 %, Latın Amerikasından immiqrasiya olunanlar - 10 %, ABŞ-dan gələnlər isə - 5 % təşkil edir. Orta ömür kişilər üçün - 75 il, qadınlar üçün - 82 ildir. Kanada urbanizasiyanın daha çox getdiyi ölkə kimi də tanınır. Şəhər-kənd əhalisi 77:23 nisbətindədir. Ən iri - milyonçu şəhərlər -Toronto, Monreal, Vankuver, Ottava, Edmonton olmaqla hamısıda ümumi əhalinin 10 mln-dan artığı yaşayır. Əhalinin sosial-iqtisadi strukturu tipik yüksək inkişaf etmiş ölkələrdəki kimidir. Sənayedə və nəqliyyatda işçi qüvvəsi 21 %, kənd

təsərrüfatında - 4 %, xidmət sferasında - 75 % cəmlənmişdir. İşsizlər ümumi əhalinin 4-5 %o-ni təşkil edir.

Müasir Kanada dünyanın ən yüksək inkişaf etmiş ölkələrindən biri olmaqla «böyük yeddilər»ə daxildir. Eyni zamanda Kanada yüksək inkişaf etmiş ölkələr içərisində ən çox xarici kapitaldan asılı olanıdır. Bu da onun sosial - iqtisadi və siyasi həyatının başlıca xüsusiyyətlərini əks etdirir. Ümumi Daxili Məhsul istehsalı 850 mlrd. dollar, adambaşına düşən illik Ümumi Daxili Məhsul isə 29,4 min dollar təşkil edir. Kanada Ümumi Daxili Məhsul və sənaye məhsulu həcminə görə dünya məhsulunun 2 %-ni verərək 8-ci yeri tutur. O, adambaşına düşən elektrik enerjisi, nikel, sink, asbest, qəzet kağızı buraxılmasında dünyada liderlik edir. Ümumi Daxili Məhsul istehsalında sənaye - 27 %, kənd təsərrüfatı - 2,0 %, xidmət sahəsi - 71% xüsusi çəikyə malikdir. Əməyin məhsuldarlığına görə Kanada dünyada ancaq ABŞ-dan geri qalır (93 %). Kanada iqtisadiyyatı ölkə üzrə çox qeyri-bərabər yerləşmişdir. Onun əsas hissəsi cənub qurtaracaqlarında cəmlənmişdir. İqtisadiyyatda ixrac olunan xammallarm rolu və xüsusi çəkisi çox böyükdür. Növündən asılı olaraq onun 25-60 %-i ixrac olunur. Amerika iqtisadiyyatı ilə sıx əlaqə tam formalaşmışdır. Belə ki, ABŞ Kanadanın böyük ticarət və investor tərəfdaşı hesab edilir. Digər tərəfdən, ABŞ, Kanada, Meksika arasında Şimali Amerika azad ticarət assosiasiyası müqaviləsi - NAFTA qüvvəyə minmişdir. Çöllərdə yertləşən əyalətlər əhalinin yerləşməsinin maksimumuna malikdir.

Sənaye maddi istehsalının əsasını təşkil etməklə texniki təchizatının yüksəkliyi ilə fərqlənir. O Ümumi Daxili Məhsulun 1/3-ni verməklə aktiv əhalinin 25 %-dən çoxunu özünə cəlb etmiş və ixrac olunan məhsullarının 30 %-dən artığını verir. Emaledici sahələr aparıcı rol oynayırlar. Neft, qaz, meşə, selüloz-kağız, əlvan metallurgiya, avtomobil aparıcıdır. Eyni zamanda Kanada dağ-mədən sənayesi məhsulları istehsalına və ixracatına görə dünyada liderlik edir. İllik məhsul istehsalının 35 %-ni inkişaf etmiş çoxsahəli maşınqayırma verir. Onun aparıcı sahələri avtomobil, nəqliyyat maşınqayırması üçün müxtəlif növ avadanlıqlar, elektrotexniki vasitələrdir. Toronto, Monreal, Vankuver, Ottava, Qamilton, Qalifaks, Ontariyo başlıca avtomobil, aviatexnika,

radioelektron məhsulları, cihazlar, dəzgahlar istehsal edən mərkəzlərdir. Zavodlar ən çox hərbi sənaye məhsulları istehsalı ilə bağlıdır. Əslində, onlar amerikan hərbi sənaye komplekisnin ayrılmaz hissələridir. Kanada son illər 3,0 mln. ədədə qədər avtomobil buraxaraq dünyada 8-ci yeri özünə təmin etmişdir. Hər 1000 nəfərdən 460-mn avtomobilinin olması Kanadanı dünyada 7-ci yerdə saxlayır. İstehsala və ixracata müvafiq olaraq ölkədə kənd təsərrüfatı, dağ-mədən və meşə sənayeləri üçün maşın və avadanlıqlar da istehsal edilir.

Aparıcı yerlərdən birini ümumi məhsul istehsalında 19 % çəkiyə malik olan yeyinti sənayesi tutur. Unüyütmə və un müəssisələri başlıca olaraq xammal rayonlarına əsasən düzənlik əyalətlərinə, Britaniya Kolumbiyasına müvafiq gəlir. Ölkənin iri şəhərlərində isə bir qayda olaraq istehlaka müvafiq qənnadı, çörəkbişirmə və konserv müəssisələri yaradılmışdır. Hər il adambaşına 120 kq, ümumən isə 3,3 mln. tondan çox ət, 7,4 mln. ton süd (adambaşına 255 kq) tədarük olunur.

Məhsul istehsalında 13 % xüsusi çəkisi olan metallurgiya sənaye sahələri sistemində 3-cüsüdür. Qara metallurgiya ölkənin milli kapitalının nəzarətindədir. Başlıca mərkəz Ontario gölünün qərb sahilində yerləşən Qamilton, eləcə də Su-Sent-Mari, Uellend, Sidni hesab edilir. Onun xammalı Labradorda yerləşən dəmir filizi kompleksidir. O, ildə 9,0 mln. ton çuqun, 15,0 mln. ton polad istehsalına malikdir. Əlvan metallurgiyaya nəzarəti amerikan və ingilis kapitalı edir. O əsasən xammala, elektrik enerjisinə və istehlaka meyllidir. Son illər əlvan metallurgiya məhsullarının kəmiyyət-keyfiyyət göstəriciləri çox artmışdır. Burada saflaşdırılmış mis, qalay, qurğuşun, nikel, sink fərqlənir. Alüminium istehsalına görə Kanada dünyada ABŞ-dan sonra 2-ci, ixracatında isə 1-ci yeri tutur. Dünyada ən böyük alüminium zavodları Kanadada olmaqla Sikutimi - Yonker, Kitimate, Be-Komo, İl-Malin hesab edilir. Sadberi, Tompson, Sallivan, Port-Kolbern, Kitimat, Treyl, Vallifild şəhərlərində isə nikel, sink, mis zavodları fəaliyyət göstərir.

Zəngin yerli xammallara əsaslanan meşə və ağac emalı sənayesinin illik məhsul istehsalında 13 % xüsusi çəkisi göstərilir. Keçmişdən Kanada sənayesinə liderlik edən bu sahəyə hal-hazırda

nəzarəti milli kapital edir. Meşə materiallarının 70 %-i Britaniya Kolumbiyasında əldə edilir. Təsərrüfatda 800 min işçi çalışır. Onun verdiyi illik məhsul 50 mlrd. dollardan artıqdır. Kanadada hər nəfərə 11 ha meşə sahəsi, 750 min kubmetr oduncaq ehtiyatı düşür ki, bu sahədə də dünyada ölkənin tayı-bərabəri yoxdur. Yararlı oduncaq tədarükünə görə Kanada ABŞ-dan geri qalsa da (2-ci yeri tutur), adambaşına düşən miqdarda (1,0 kubmetr) ilə onu qabaqlayaraq dünyada 1-ci yerdə durur. Ölkədə meşə tədarükü ilə hər birisində 1,5 min nəfər əhalisi olan 900-dən artıq yaşayış məntəqəsi məşğuldur. Taxta-şalban hazırlanmasında Kanada 2-ci yeri tutur (ABŞ-dan sonra). Lakin adambaşına düşən taxta-şalbanın miqdarına (2 kubmetr) görə o yenə də dünya ölkələri içərisində liderliyi heç kimə verməmişdir. Sellüloz tədarükündə də Kanada dünyada ABŞ-dan sonra 2-cidir. Kağız və kartonda isə ABŞ, Çin və Yaponiyadan sonrakı yerə malikdir. Adambaşına düşən kağız əldə edilməsində - 630 kq dünyada Kanadadan qabaq Finlandiya və İsveç durur. Kanada dünyada qəzet kağızı (Trua-River) buraxmaqda (1/4-dən artıq) liderlik edir. Kanadada meşə və agac emalı sənayesi ixtisaslaşmış beynəlxalq təsərrüfat növü sayılır. İxracatda 14% xüsusi çəkisi olan meşə və ağac emalı sahəsi Kanada üçün böyük əhəmiyyət kəsb edən kənd təsərrüfatı məhsulları ixracatmdan qabaqdadır. Təsərrüfatın məhsullarından ABŞ-a 65%, Avropa İttifaqı ölkələrinə - 15 %, Yaponiyaya - 11 % göndərilir. Meşə ixracatında dünyada Kanadanın payı - 23 %, ABŞ-ın payı - 13 %, Finlandiyamn payı - 10 %, İsveçin payı- 9% təşkil edir. Kanada dünya bazarını 60 % qəzet kağızı ilə təmin edir. Hər il 19 mln. kub m oduncaq, 20 mln. ton kağız və karton hazırlamaq mümkün olur. Meşə və ağac emalı sənayesi müəssisələri bir qayda olaraq çox da böyük olmayan şəhərlər üçün xarakterdir.

Son illər xüsusi inkişafa malik olan kimya sənayesi Kanadada illik ümumi məhsul istehsalında 11 % xüsusi çəki ilə tanınır. Yerli neft, qaz, kalium duzu, kükürd və eləcə də neft emalına əsaslanan kimyanın dağ-mədən, əsas, üzvi və polimerlər kimyasının məhsulları istehlaka yönəldilmişdir. Onun əsas məhsulları kübrə, polimerlər, plastik kütlələr, sintetik kauçuk, kənd təsərrüfatı ziyanvericilərinə qarşı zəhərləyici maddələr istehsal olunur. Kanada illik kübrə istehsalına - 12,5 mln. ton görə dünyada

3-cü yeri tutur. Mineral kübrə istehsalının başlıca mərkəzləri Sarniya, Ontario, Kvebek, Monreal, Toronto, Niaqara-Fols, Kitçener hesab edilirlər.

Kanada yeraltı sərvətlərlə zəngin olduğundan dağ-mədən sənayesi ixtisaslaşmış təsərrüfat sahəsi kimi özünə yer tapmışdır. Bu sahədə o ancaq ABŞ-dan geri qalır. Kanada ixracatının 1/3-ni mineral sərvətlər təşkil edir. Ölkə nikel, sink, asbest, kalium istehsalına görə dünyada liderlik edir. Platin, dəmir filizi, uran, mis, gümüş hasilatında isə dünyada 2-3-cü yerləri bölüşdürür. Dağ-mədən sənayesində 350 mindən artıq işçi çalışır. O Ümumi Daxili Məhsul istehsalında 4 % xüssusi çəki ilə özünə yer tutur. Ölkədə 26 növ metal filizi, 24 növ qeyri-filiz xammalları, eləcə də yanacağın bütün növləri hasil edilir. Onu demək kifayətdir ki, Qərb dünyasında mövcud olan kalium duzunun 4/5-ü, nikelin 2/3-si, uranın 2/5-si (10 min ton), dəmir filizinin 1/3-i burada yerləşir. Dağ-mədən sənayesində mübaliğəsiz demək olar ki, neft və qaz sahəsi verdiyi məhsulların miqdarına görə 1-ci - 2-ci yerləri tutur. Komlpeksin xüsusiyyətlərindən biri onun məhsullarının çox hissəsinin ixrac olumasıdır. Daha doğrusu, onun məhsullarınm 60 %-i ABŞ-a, 25 %-i Qərbi Avropa ölkələrinə, 10 %-i Yaponiyaya ixrac olunur. Dağ-mədən sənayesi üzrə rayonlaşdırmada Cənub və Şimali Kanada seçilirlər. Son illərdə Kanadada dəmir filizi - 39,0 mln. ton (bunun 26 mln. tonu ixrac olunur), kalium duzu - 9,0 mln. ton, qızıl - 150 ton, gümüş - 1,2 mln. ton, uran - 10,4 ton istehsal olunmuşdur. Göstərilənlərin əksəriyyəti ölkənin cənubunda istehsal olunmuşdur. Bunlar Ontarionun Sadberi nikel və mis mədənlərindən, Elliot-Leyk, Blaind-Riverin uran, Kvebekin Noranda mis, Sefferfildin dəmir filizi, Saskaçevan əyalətinin Esterxeyzi kalhım duzu və eləcə də Manitobanın Tampson nikel mədənləridir. Kanada arxipelaqında isə polimetal filizləri, neft, qaz, Şimal-Qərbdə Anvil, Paynt-Poynt polimetal filiz mədənləri vardır.

Kanadanın həyatında energetikanın özünəməxsusluğu vardır. Kanadanın illik yanacaq və enerji tələbatının həcmi 330 min tut-a bərabərdir. Lakin Kanada 240 min tut həcmində bu məhsullardan ixrac edir. Yerli hasilat isə 500 mln. tutdur. Yanacaq energetika balansında neft - 35 %, qaz-37 %, kömür - 13 %, hidroenerji - 9 %-ə qədər, atom enerjisi - 2,4%-dən artıq deyildir.

Son illərdə ölkədə yarıdan çoxu ixrac olunan neft istehsah 125 mln. ton, dünyada RF və ABŞ-dan sonrakı 3-cü yeri tutmaqla 170 mlrd. kubmetr qaz, 80 mln. ton kömür (dünyada 9-cu yerə), 585 mlrd. kvt. saat elektrik enerjisi hasil edilmişdir. Kanadanın başlıca neft və qaz hasilatı rayonları Alberta, Saskaçevan, Britaniya Kolumbiyası (Pembina, Redioter mədənləri) sayılır. Göstərilən əyalətlərdən qərbə və şərqə doğru transkanada boru kəmər xətləri çəkilmişdir. Kanadada 75 min kv.km sahəsi olan cox böyük ehtiyata malik (130 mldr t) bitumlaşmış yanar şist yataqları da aşkar edilmişdir. Ondan 40 mlrd. tona qədər neft almaq mümkündür. Lakin həmin neftin hasilatının baha başa gəlməsi ondan hələlik istifadənin mümkünsüzlüyünə səbəb olmuşdur. Neft, qaz ABŞ-a ixrac edilsə də ölkənin şərq əyalətləri göstərilən məhsulları idxal edirlər. İnkişaf etmiş neft emalı müəssisələrinin əsasları Monrealda (istehsalın 1/3), Sarnidə, Vankuverdə, Edmontonda yerləşirlər. Kömür başlıca olaraq Albertada - 40 mln. tona qədər, Britaniya Kolumbiyasında - 25 mln. ton həcmində istehsal olunaraq ildə 80 mln. tondan artıq hasilata malikdir. Kömür Sakit okean limanları vasitəsilə Yaponiyaya ixrac olunur. Ölkənin şərqində kömür ancaq Yeni Şotlandiya ərazisində istehsal olunur.

Elektrik enerjisi istehsalında Kanada dünyada ABŞ, Çin, Yaponiya, Rusiyadan sonrakı 5-ci yeri tutur. İllik elektrik enerjisi hasilatında SES-lərin xüsusi çəkisi 60 %-dən az deyildir. Hər birisinin gücü 5 mln. kvt-dan çox olan La-Qrand (5,3 mln. kvt.), Çerçill - Fals (5,2 mln. kvt) və sair SES-ləri elektrik enerjisi hasıl edərək istehlaka xidmət edirlər. SES-lər əsasən Nelson, Müqəddəs Lavrentiya, Niaqara, Belsimi, Pis-River, Kolumbiya çayları üzərində fəaliyyət göstərirlər. La-Qrand SES-i 1979-cu ildə, Çerçill -Fals isə 1971-ci ildə tikilmişdir. İllik elektrik enerjisinin 18 %-ə qədərini verən AES-lər isə Ontario, Kvebek, Nyu-Bransuik əyalətlərində yerləşirlər. Onlar 16 enerji blokuna, 12,0 mln. kvt gücə, 75 mlrd. kvt saat elektrik enerjisi hasilatına malikdirlər. İstehlaka və yanacağa meyl edən İES-lər də az rol oynamırlar. Kanada və ABŞ sahillərini yuyan Atlantik okeanının Fandi körfəzində 1984-cü ildə, Qərb yarımkürəsində ilk dəfə Qabarma elektrik stansiyası (QES) yaradılaraq o enerji sisteminə qoşulmuşdur. Əgər, dünyada adambaşma ildə 2500 kvt-saat elektrik

enerjisi hasil olunursa, bu Kanadada 18000 kvt-saatdan az deyildir. Bu ABŞ-da 14 min, Fran-sada - 9 min, Almaniyada - 7 min, Yaponiyada - 8 min, Norveçdə ən çox - 29 min kvt-saatdan çoxdur.

Kanada dünyanın ən çox kənd təsərrüfatı məhsulları istehsal edən ölkələrindən biridir. Onun inkişafı üçün daha əlverişli şərait yaradan aqroiqlim ehtiyatlarının olması və Kanadanın cənubunda böyük sahə tutan düzənlik və yaylaların mövcudluğudur. Ərazidə mülayim kontinental iqlim hökm sürür. Ölkə ərazisinin 80 mln. ha-rı kənd təsərrüfatı üçün yararlıdır. Kanadada çoxsahəli kənd təsərrüfatı texniki cəhətdən yaxşı təchiz olunaraq istehsalın konsentrasiyası, əmtəəliliyi, ixtisaslaşması və əmək məhsuldarlığının yüksəkliyi ilə tanınır. Yerli mənbələr hesabına ölkənin kənd təsərrüfatı əhalinin istehlakını tam ödəməklə bərabər ixracatda onun xüsusi çəkisi 40 %-dən artıqdır. Kənd təsərrüfatı məhsulları istehsalı ölkə üzrə çox qeyri-bərabər yerləşmişdir. Satlıq məhsulun 70 %-i başlıca olaraq Ontario, Saskaçevan, Alberta əyalətlərinin payına düşür. Bu sahədə Atlantik sahili əyalətlər 2 % xüsusi çəkiyə malikdir. Şimal əyalətlərində isə bu kəmiyyət göstəricisi daha da aşağıdır. İstifadə olunan torpaqların 60 %-ni əkin sahələri, yerdə qalanı isə otlaq və biçənək sahələri təşkil edir. Kanada kənd təsərrüfatı məhsullarının ixracatını son illər 35 mlrd. dollara, idxalatınkını isə 15 mlrd. dollara çatdırmışdır. Əmtəəlik məhsulun istehsalında heyvandarlığın xüsusi çəkisi əkinçiliyə nisbətən daha çoxdur. Son illər heyvandarlığın kəmiyyət - keyfiyyət göstəriciləri durmadan artır. Belə ki, iribuynuzlular 7,0 mln. başdan 13,0 mln. başa, donuzların sayı 9 mln. başdan 12,0 mln. başa, xırdabuynuzlular 480 min başdan 700 min başa çatmışdı. Quşçuluq, donuzçuluq başlıca olaraq əhalisi çox olan istehlak rayonlarına - şəhərlərə və iri yaşayış məntəqələrinə meyl etmişdir. Heyvandarlığın ətçilik istiqaməti əsasən çöllərdə yerləşən əyalətlər üçün xarakterikdirsə, südçülük istiqaməti mərkəz və şərq əyalətləri - göllərətrafı və Müqəddəs Lavrentiya çayı hövzəsi əyalətləri üçün məqbuldur. Balıqçılığın inkişafı ilə 26,0 min işçi qüvvəsi məşğuldur. İllik dəniz heyvanları tutulmasının miqdarı 1,3 mln. tondursa, bunun 800 min tonunu balıq övu təşkil edir. Ovlanan balığın 3/4-nü Atlantik okeanı akvatoriyası, o cümlədən məşhur Nyufaundlend bankası verir. Qərbdə isə bu Vankuver adası

rayonudur. Dəniz ovu məhsulları emalının başlıca mərkəzləri Atlantik ətrafı əyalətlərində və eləcə də Britaniya Kolumbiyasında yerləşdirilmişdir. Xəzlik heyvan ovu da Kanada üçün çox gərəklidir. Ölkədə iri vəhşi heyvanlar saxlanılan fermalar yaradılmışdır ki, onların da sayı 2,5 mindən artığa çatır. Burada su samuru - norka, tülkü, su siçovulu (nutriya), şinşilla kimi heyvanlar artırılır. Bunların genişləndirilməsi ən çox Ontarioda, Albertada, Kvebekdə həyata keçirilir.

Əmtəəlik kənd təsərrüfatı məhsulunun 40 %-ni əkinçilik sahəsi verir. Əkinçiliyin quruluşu hal-hazırda taxılçılıq qalmaq şərti ilə yem bitkilərinin - qarğıdalının, rapsın xeyrinə dəyişdirilir. Hər il ölkədə taxıl tədarükü 60 mln. ton təşkil edir ki, bunun da 40 mln. tona qədərini buğda məhsulu tutur. Adambaşına düşən buğda toplanmasına görə Kanada dünya ölkələri içərisində liderlik edərək, onun ixracatında da qabaqcıl yer tutur. Yem bitkiləri və buğdadan başqa tərəvəz, kartof, tütün, bağçılıq da çox gəlir verən sahələr hesab edilir.

Maddi istehsalda 3-cü sahə hesab edilən nəqliyyat ölkənin axan qan damarı, onun onurğası, düşünən beyni hesab edilir. Ərazinin böyüklüyü, təsərrüfat sahələrinin ölkə üzrə qeyri-bərabər yerləşdirilməsi nəqliyyata ehtiyacın çoxalmasına səbəb olmuşdur. Buna görə də nəqliyyat növlərinin özləri də qeyri-bərabər yerləşdirilmişdir. Nəqliyyatın hər 1000 kv.km. hesabı ilə sıxlığı 3 km-dən çox deyildir. Nəqliyyat yolları demək olar ki, şimal hissədə yox dərəcəsindədir. Ümumiyyətlə, nəqliyyat yollarının əksəriyyəti enlik istiqamətlidir. Uzunluğu 97389 km-dən artıq olan dəmir yolları yükdaşımada 1-ci yeri tutur. Dəmir yollarının uzunluğuna görə ABŞ-dan, RF-dən sonrakı yeri özünə təmin etmişdir. Dəmir yollarının sıxlığı hər 1000 kv.km-də 10 km təşkil edir. Transkontinental başlıca dəmir yolu sayılır. O, şərqdən - Qalifaksdan başlayaraq qərbə - Vankuverə qədər uzanır. Avtomobil nəqliyyatı son illər çox sürətlə qurularaq sərnişin dövriyyəsində liderlik etməklə 900 min km uzunluğa malikdir. Avtomobil parklarında 20 mln-dan artıq sayda maşın cəmləşmişdir. Avtomobil yollarının sıxlığı 1000 kv.km-də 100 km-dən artıq deyildir.

Su nəqliyyatının da əhəmiyyətini qeyd etmək lazımdır. Daxili su yollarının uzunluğu 3000 km-dir. Burada göl və dəniz

nəqliyyatından da söhbət açmaq lazımdır. Xüsusilə də amerikan mütəxəssisləri ilə birlikdə 4 min km məsafədə çəkilmiş böyük dəniz yolu (Böyük göllərlə Atlantik sahillərini birləşdirir) istifadəyə verildikdən sonra su nəqliyyatının əhəmiyyəti daha da artmışdır. Müqəddəs Lavrentiya çayının Monreal, Kvebek, Sent-İl və 50 mln. ton yükdaşıma qabiliyyətinə malik Vankuver, habelə Qalifaks, Sen-Djons dəniz limanlarının olmasını qeyd edə bilərik. Dəniz nəqliyyatı ilə xarici iqtisadi əlaqələrin saxlanılması həyata keçirilir ki, burada da başlıca olaraq xarici donanmaların dəniz gəmilərindən istifadə edilir.

Boru-kəmər xətləri əsasən neft, neft emalı məhsulları, qaz daşımalarında gərəklidirlər. Yük dövriyyəsinə görə ölkədə 3-cü nəqliyyat növü hesab edilir. Onlar, əsasən hasilat yerlərindən istehlak rayonlarına - Alberta, Manitoba əyalətlərinə və ABŞ-a istiqamət olmuşlar. Edmonton - Redjauna - Çikaqo neft kəməri ən magistral xətt sayılır. Ölkədə neft kəmərləri xətlərinin uzunluğu 50,0 min km, qaz kəmərlərinin uzunluğu iisə 100 min km-dən çoxdur. Qeyd etmək lazımdır ki, Kanada dünyada ən uzun magistrai qaz kəmərlərinə malikdir. Mövcud qaz kəmərləri ilə Kanada hər il - ABŞ-a 70 mlrd. kubmetrə qədər qaz ixrac edir.

Hava xətlərinin uzunluğuna görə Kanada ancaq ABŞ-dan geri qalır. Ölkədə 300-dən artıq hava limanları fəaliyyət göstərirlər ki, təkcə Toronto hava limanı ildə 29,0 mln. sərnişinə qulluq edir. Başqa hava limanları Monrealda (Mirabel, Dorval), Vankuverdə, Qanderedə, Ottavada fəlaiyyət göstərir.

Kanadanın iqtisadiyyatı dünya təsərrüfatı ilə daha çox inteqrasiya olunmuşdur. Dünya əhalisinin 0,5 %-nə malik olan ölkə dünya bazarına 4 %-ə qədər məhsul ixrac edir. Onun xarici ticarət dövriyyəsi 415 mlrd. dollardan çoxdur. Son illərdə eksport məhsullarının həcmi 305 mlrd. dollar (dünya ixracatının 5,7 %-i) olmuşdursa, idxal etdiyi məhsullar 270 mlrd. dollar (dünya idxalatının 5,3 %-i) tutmuşdur. Göründüyü kimi, xarici ticarət balansı müsbət sayılmalıdır. Ümumi Daxili Məhsuldan eksport 22 %o-dən artıqdır. Ölkənin ixrac və idxal məhsulları bir-birindən fərqlənir. Eksportda - ixracatda xammal, yarımfabrikat (72 %>), hazır məhsullar (28 %), idxalatda isə 60 % hazır məhsullar yer tutur. Xarici ticarətin ixracatında ABŞ-m 80 %, idxalatında isə 75

% çəkisi vardır. Eksportda-ixracatda sonrakı yerləri Yaponiya - 4,5 %, Böyük Britaniya - 1,5 %, Cənubi Koreya, AFR, Çin, idxalatda isə Yaponiya - 5,6 %, Böyük Britaniya - 2,5 %, Meksika - 2,2 % və Almaniya, Çin tuturlar. Kanadanın iqtisadi inkişafına qoyulan xarici investisiyaların 80%-i ABŞ-dan gəlir. Kanadaya birbaşa qoyulan investisiyalarda eyni zamanda Böyük Britaniya, Yaponiya, AFR, Fransa, İsveçrə fərqlənirlər. Deyilənlərlə yanaşı, Kanadanın da kapital qoyuluşu ABŞ-da get-gedə artaraq 60 % təşkil edir.

Kanadanın daxili fərqlərinə nəzər saldıqda orada 5 böyük: - Mərkəz, Atlantik, Çöllər, Britaniya Kolumbiyası, Şimali Kanada regionlarının - iqtisadi rayonlarının olmasını görürük.

Mərkəz Ontario və Kvebek əyalətlərini əhatə edərək ölkə ərazisinin 1/4-nə, əhalinin isə 60 %-nə malikdir. Yüksək dərəcədə urbanizasiyaya malikdir. Burada ölkə emal sənayesinin 3/4-ü yerləşərək avtomobillərin buraxılışının 100 %-nə malikdir, dağ-mədən, yeyinti, yüngül, kağız-sellüloz sənaye sahələri vardır.

Çöllər rayonuna Manitoba, Saskaçevan, Alberta əyalətləri daxil olaraq 13 % əhaliyə, Ümumi Daxili Məhsul istehsalının 23 %>-nə, lideri olduğu dağ-mədən sənayesinə, kənd təsərrüfatı məhsulları istehsalına, 40 % dünya kalium duzu ehtiyatına, neft, qaz, uran yataqlarına malikdir.

Britaniya Kolumbiyası rayonu bölgə ərazisinin 9,5 %-ni tutaraq bir çox yerüstü təbii sərvətlərə, minerallara, inkişaf etmiş kənd təsərrüfatma malikdir. Burada Vankuver, Viktoriya (Britaniya Kolumbiyasmm paytaxtı) şəhərləri yerləşir.

Atlantik rayonu Nyufaundlend, Novaya Şotlandiya, Müqəddəs Şahzadə Eduard və Nyu-Brunvik adaları sahəsini əhatə edir. Əhalisi 4,0 mln-dan artıqdır. Rayon Ümumi Daxili Məhsulun 6 %-ə qədərini verir. Dəmir filizi, barit, kömür, torf istehsalı ilə tanınır.

Şimali Kanada ölkə ərazisinin 4,0 mln. kv.km-rini (39%>) əhatə edərək Uaytxors, Yellounayf şəhərlərinə malikdir. Mineral ehtiyatlar (sink, mis, nikel, qızıl, sürmə, volfram və s.), dağ-mədən sənayesi, yanacaq sənayesi ehtiyatları ilə tanınır.

VIII.2. Amerika Birləşmiş Ştatları

Sahəsi - 9363 min kv.km

Əhalisi - 298 mln. nəfər

Paytaxtı - Vaşinqton şəhəridir.

İllik Ümumi Daxili Məhsul istehsalı - 10,0 trln dollar

Adambaşına düşən Ümumi Daxili Məhsul - 36,3 min dollar

Amerika Birləşmiş Ştatlan (ABŞ) Şimali Amerikada yerləşərək ərazisinin böyüklüyünə görə dünyada RF, Kanada, Çindən sonrakı 4-cü yeri tutur. Qərbdən şərqə 4,7 min km, şimaldan cənuba 3,0 min km məsafədə uzanır. 5 saat qurşağından keçən Amerika Birləşmiş ştatlarının quru sərhədlərinin uzunluğu 12219 km-dən çoxdur. (Kanada ilə 6416 km, Kanada ilə Alyaska arasında 2477 km, Meksika ilə 3326 km). Su sərhədinin uzunluğu isə 12 min km-dir. Hava nəqliyyatı ilə ölkə ərazisini qərbdən-şərqə qət etmək üçün 5,5 saat vaxt kifayət edir. ABŞ-ın ərazisi 3 hissədən ibarətdir. Əsas hissə - 7,8 mln. kv.km, Alyaska - 1,5 mln. kv.km., Sakit okean arxipelaqlarından biri olan Havay adaları isə - 16,7 min kv km. əraziyə malikdir.

Bununla yanaşı, Puerto-Riko, Karib hövzəsində yerləşən Virgin adalarının bir hissəsi, Sakit okeanın Quam adası adlı mülkləri də vardır. Eyni zamanda, ABŞ Sakit okeanda yerləşən Marian, Marşall və Karolin adalarının çox hissəsinə də nəzarət edir. ABŞ-ı qərbdən əhatə edən Sakit okean, şərqdən Atlantik okeanı suları onun iqtisadi coğrafi mövqeyini müəyyən edən başlıca amillərdəndir. Okeanlarla əhatə olunması onun Avropa və Asiya ölkələri ilə ticarət - iqtisadi əlaqələrini asanlaşdırmaqla yanaşı, həm də onu bu rayonlarda baş verən dağıdıcı müharibələrdən yan keçməyə səbəb olmuşdur. Əlverişli fiziki, iqtisadi, geosiyasi mövqeyi onun iqtisadi inkişafına, əhalinin maddi rifah halının daha da yaxşılaşdırılmasına tarix boyu öz müsbət təsirini göstərmişdir.

ABŞ-ın ərazisinin formalaşması 3 başlıca mərhələdən keçmişdir. Bunlar XVI-XX əsrlər arası dövrləri əhatə edir. İlk əvvəl 1565-ci ildə ispanlar tərəfindən Floridadakı Sent-Oqyustin şəhərində əhali məskunlaşması həyata keçirilmiş, bir neçə ərazilər pulla satın alınmış, o cümlədən Alyaska 1867-ci ildə Rusiyadan 100

il müddətinə 7,2 mln. dollara satın alınaraq get-gedə ərazi qərbə doğru genişləndirilmişdir. XVII əsrdə indiki ABŞ-ın şərq hissəsinin Atlan-tik okeanı sahillərində İngiltərənin 13 müstəmləkə mülkü mövcudlaşmış və onlar 1775-ci ildən müstəqillik uğrunda apardıqları müharibə nəticəsində 1776-cı ildə Filadelfiyada müstəqillik haqda deklarasiya qəbul etmişlər. Elə o vaxtdan da İngiltərə ilə bütün ticarət əlaqələri kəsilmiş və hər cür ingilis mallarının satışı boykot edilmişdir. Əvvəllər həmin 13 ştat Şimali Amerika Birləşmiş Ştatları adlansalar da müstəqillik qazandıqdan sonra Amerika Birləşmiş Ştatlan adını daşımışlar. Bu vaxt hakimiyyətə burjuaziya və plantasiya sahibləri gəlmişlər. Get-gedə bir neçə ərazilər yenidən pulla satın alınaraq qərbə doğru genişləndirmə aparılmşıdır. O cümlədən 1806-cı ildə 13 ştatdan ibarət müstəqil ABŞ iik Konstitusiyasını 1787-ci ildə qəbul etmişdir.

ABŞ 50 ştatdan və dövlətin paytaxtı - Vaşinqton yerləşən Kolumbiya federal mahalından (1871-ci ildən təsis edilmişdir) ibarət olmaqla federativ dövlət quruluşuna malikdir. Dövlətə, hökumətə, hərbi qüvvələrə prezident başçılıq edir. Prezident və vitse-prezident hər 4 ildən bir seçilirlər. Dövlətin başçısı yalnız 2 dəfə seçilmə hüququna malikdir. Ali qanunvericilik orqanı Konqres hesab edilir. O, Senat və Nümayəndələr Palatasından ibarətdir. Senat 6 il müddətinə, hər ştatdan 2 nəfər olmaqla 100 nəfər hesabına formalaşır. Onun tərkibi hər 4-cü il 33 faiz təzələnir. Nümayəndələr Palatası isə hər 2 ildən bir dəyişərək ştatlardakı əhalinin sayına uyğun olaraq seçilir. Qanunvericilik hüququ Konqresə mənsub olmasına baxmayaraq, Prezident Konqres tərəfindən qəbul edilmiş bütün qanunları təsdiq etməklə yanaşı onlara veta qoymaq hüququna da malikdir. Hər bir ştatın konstitusiyası, qanunverici və icaredici orqanları, seçkili qubernatoru, rəmzləri vardır. ABŞ-da iki partiya: Demokratlar və Respublikaçılar partiyası mövcuddur. Demokratlar çoxsaylı, respublikaçılar isə çoxkapitallı olmaları ilə tanınırlar. Hər bir dövlətdə olduğu kimi, ABŞ-da da bayraq, gerb, himn dövlət rəmzləri hesab edilirlər. İlk bayraq 1776-cı ilin iyul ayında Kontinental konqresdə təsdiq olunaraq bu vaxta qədər ştatların sayının artması ilə əlaqədar olaraq 25 dəfə dəyişikliyə məruz

qalmışdır. Bayrağın yuxarı sol küncündə göy rəngli fon üzərində düzbucaqlıda ştatların sayına müvafıq ağ rəngli 5 guşəli ulduz, habelə ümumi fon üzərində ilk ştatların rəmzini əks etdirən 13 ağ və qırmızı zolaq həkk edilmişdir. Dövlət bayrağında edilmiş axırıncı dəyişiklik 1960-cı ildə Havay ərazisinə ştat hüququnun verilməsi ilə bağlıdır. Bir qayda olaraq dövlət bayrağında aparılan dəyişiklik ancaq 4 iyul müstəqillik günündə aparılır. Dövlət gerbi qartal şəklini təsvir edir. Qartal caynaqlarında sülh simvolu sayılan zeytun budağını və müharibə simvolu hesab edilən 13 sayda ox dəstəsini, dimdiyində isə latınca «müxtəliflikdə birlik» ifadəsi yazılmış lent tutmuşdur.

Bir müddət ölkənin paytaxtının müəyyən edilməsi üstündə şimal və cənub ştatları arasında gərgin mübahisələr baş vermişdir. Mövcud gərginliyi aradan qaldırmaq üçün konqres yeni paytaxt tikilənə qədər 1790-cı ildə 10 il müddətinə paytaxt olmaq üçün namizəd olan şəhərlər içərisində üstünlüyü Filadelfiyaya vermək haqda qərar qəbul etmişdir. Yeni paytaxtın yerinin seçilməsi isə ölkənin ilk prezidenti Corc Vaşinqtona həvalə edilmişdir. 1792-ci ildə Prezidentin iqamətgahı olan Ağ evin, 1793-cü ildə isə Prezident Vaşinqton tərəfindən konqresin iqamətgahı sayılan Kapitoliyanın bünövrəsinin ilk daşı qoyulmuşdur. Ağ ev 1829-cu ildə, Kapitoliya isə 1865-ci ildə tikilib istifadəyə verilmişdir. Lakin 1800-cü ildə Konqress və Prezident Filadelfiyadan yeni paytaxta - Vaşinqtona köçürülmüşdür. Bu, ölkənin 2-ci prezidenti olan Çon Adamsın dövründə baş vermişdir. Çünki 1799-cu ildə Corc Vaşinqton artıq dünyasını dəyişmişdir.

ABŞ-ın dünyanın super dövləti olmasının başlıca səbəblərindən biri onun əlverişli coğrafı mövqeyinin varlığı, çox rəngarəng təbii şəraitinin olması, sənaye əhəmiyyəti kəsb edən zəngin yeraltı və yerüstü təbii sərvətlərinin və digər şərtlərin mövcudluğudur. Onu təbii şəraitinin mürəkkəbliyinə görə ancaq Rusiya ilə müqayisə etmək olar. Meridional istiqamətində uzanan relyef formalarından ən hündür zirvəsi Mak-Kinli (6193 m) olan Kordilyer dağları, orta yüksəkliyə malik olan Appalaç dağlıq sahəsi, mərkəzdə yerləşən Böyük və Mərkəzi düzənliklər, sahil zonalarında yerləşən Sakit okean sahili və Atlantik okeanı sahili,

Meksika körfəzi sahili düzənliklər, habelə dağarası çökəkliklər, dərələr, səhralar ərazi relyefini daha da mürəkkəbləşdirir.

İqlimin mürəkkəbliyi Alyaskanın Arktika zonasında, Floridanın, Kaliforniyanın, Texasın, Havayın subtropik və hətta tropik zonada yerləşmələri ilə izah olunur. Şimalda orta qış temperaturu -30°S, cənubda isə +20°S təşkil etdiyi halda orta yay temperaturu şimalda +5°S, cənubda bu göstərici +32°S-dən az deyildir. Mütləq maksimum Kaliforniyanın cənubunda yerləşən Ölüm Dərəsində (dəniz səviyyəsindən - 58 m alçaqda yerləşir) + 58°S təşkil edir. Atmosfer yağıntıları Vaşinqton, Oreqon, Havay ştatları ərazilərində 2500 - 12000 mm arasında dəyişir. Aqroiqlim ehtiyatlarına nəzər saldıqda şimalda Kanada ilə sərhəd rayonlarında şaxtasız günlərin sayı 5-6 ay təşkil edirsə, cənubda bu 250 gündən artığa çatır.

Lakin bu deyilənlər insanların əmək fəaliyyətlərinin tətbiqində heç də mənfi rol oynamırlar, əksinə, ölkə ərazisində məhsuldar qüvvələrin inkişafı və düzgün yerləşdirilməsində öz müsbət təsirlərini göstərirlər. Dağlıq ərazilər özlərinin zəngin yeraltı, yerüstü təbii sərvətləri ilə tanınırlarsa, düzən ərazilər, dağarası çökəkliklər, çay vadiləri əkinçiliyin, insan məskunlaşmalarının hələ çox qədimdən maksimum inkişaf etdiyi bölgələr hesab edilirlər.

Mineral təbii sərvətlərin coğrafiyası ərazinin geoloji quruluşu və reiyefi ilə tamamilə uzlaşır. ABŞ dünyanın ən zəngin və daha çox ehtiyatla tanınan kömür, uran, mis, molibden, qalay, qurğuşun, sink, qızıl, fosforit, təbii qaz və neft yataqları ilə tanınır. Sənaye əhəmiyyətli neft ehtiyatı 5,0 mlrd. ton olmaqla əsasən Alyaskada (Braqxo - Bey yatağı 3,2 mlrd. ton), Texas və Luiziana ştatlarında, Sakit okean sahil zonasında (Kaliforniya ştatında) aşkarlanmışdır. Sənaye əhəmiyyətli qaz ehtiyatı isə 5,4 trln. kubmetrdən çoxdur ki, onlar da Oklaxoma, Kanzas və digər ştatların ərazisindədir. Qaz ehtiyatına görə ABŞ dünyada ancaq RF-dən (48,1 trln kubmetr) geri qalır. Adları çəkilən ştatlar ümumi qaz ehtiyatının 10%-nə, neft ehtiyatının isə 45 %-nə malikdir. Deyilənlərdən başqa, ABŞ alternativ mənbələrdən - bitumlaşmış şist və qum, habelə kömür ehtiyatları ilə də tanınır. Bunlar əsasən Kolorado, Yuta, Vayominq ştatlarında, habelə Böyük düzənliklər

ərazisində çox ehtiyatla tanınırlar. Yanacaq-energetika xammalları içərisində ümumi ehtiyatı - 1,6 trln t-dan az olmayan kömürdür. Ən çox Şərq, Daxili, Cənub, Böyük düzənlik, Qayalı dağlıq, Sakit okean sahili əyalətlərində böyük ehtiyatla aşkarlanmışdır. Təkcə Appalaç kömür hövzəsinin uzunluğu 1200 km, eni 250 km, laylarının qalınlığı isə 1200 metrdən az deyildir. Hövzənin kömür ehtiyatı isə 340 mrld tondan çoxdur. Alyaskada da böyük kömür ehtiyatı sənaye əhəmiyyəti kəsb edir. Dəmir filizi ehtiyatı 5,0 mlrd. ton olsa da dünyada Braziliya, Kanada, Avstraliya və İndoneziyadan sonrakı 5-ci yeri tutur. Əsas yataqları Minnesotda, Miçiqanda, Birminqemdə mövcuddur. Nadir və qiymətli metal filizləri yataqları dağlıq ərazilərdə, Kaliforniya və Alyaskada yerləşir. Molibden 3,7 trln t, qurğuşun 26,0 mlrd. t, qızıl 9,1 min ton, sink 48,7 mln. t ehtiyata malikdirlər. Vayominq, Kolorado, Yuta, Nyu-Meksika (Ambrosiya-Leyk) ştatlarında aşkarlanan uran filizi ehtiyatı 114,0 min ton olmaqla dünyada 1-ci yer ABŞ-a məxsusdur. Qeyri-filiz faydalı qazmtılarından Florida, Şimali Karolina, Aydaxo ştatlarında yerin dərin yataqlarında aşkarlanan fosforit, Meksika körfəzi sahillərində isə kükürd yataqları mövcuddur. Bir sözlə, ABŞ hər cür mineral sərvətlərə malik olsa da ayrı-ayrı sənaye sahələrini daha da inkişaf etdirmək üçün xarici ölkələrdən nikel, manqan, kobalt, boksit, kalium duzu, qalay xammalları almaqdadır.Torpaq-bitki qurşaqları əsasən meridional istiqamətdə dəyişirlər. Məlumdur ki, dünyada meşənin ümumi sahəsi 51,2 mlrd. ha, oduncaq ehtiyatı isə 385 mlrd. kubmetr təşkil edir. Meşə sahəsinin çoxluğuna görə dünyada RF 1-ci yeri (886 mln. ha), 2-ci yeri Braziliya (572 mln. ha), 3-cü yeri Kanada (453 mln.ha) və dördüncü yeri ABŞ tutur. Ölkə ərazisinin 296 mln. hektarı və ya 32,3 %-i meşə ilə örtülmüşdür. Su ehtiyatı ölkə ərazisində çox qeyri-bərabər paylanmışdır. Su ehtiyatında Missisipi, Kolumbiya, Kolorado çayları, bir-biri ilə birləşdirilərək dünyada ən böyük göl sistemi yaratmış Yuxarı-Miçiqan-Huron-Ontario-Eri göllərinin və yeraltı suların çox böyük əhəmiyyəti vardır. Onlar ən çox - 45 % kənd təsərrüfatında və sənayedə istifadə olunurlar. Habelə nəqliyyatda, enerji alınmasında çox gərəklidirlər. Ölkə çaylarının illik hidroenerji potensialı 700 mlrd. kvt-saatdan artıq olmaqla onun hələlik 70 %-ə qədərindən istifadə olunur. Axırıncı on illiklərdə ölkədə yaranmış su problemlərini həll etmək məqsədi

ilə Sahil kanalı çəkilmiş, Los-Anjeles şəhərinin su problemi həll edilmiş, Alabama ştatı ərazisindən axan Arkanzas və Tombiqbi çayları yenidən rekonstruksiya edilmiş və nəhayət, yeraltı sulardan daha geniş istifadə etmək məqsədi ilə yeni-yeni mənbələr və üsullar axtarılır. Çoxlu sayda (54) milli parklar və qoruqlar hər il turistlərin diqqətini daha çox özünə cəlb edir. Belə milli parklardan dünyada tanınan Yellouston (Vayominqo ştatmda) və Kaliforniyada yerləşən Yosemitini göstərə bilərik.

Əhəmiyyətli sərvətlərdən biri də balıq və digər dəniz heyvanları sayılır. Bu sahədə Şimal-Şərq sahilləri akvatoriyası, Meksika körfəzi və eləcə də Alyaskanın sahil zonaları daha zəngin hesab edilir.

Məhsuldar qüvvələrin ən aparıcı sahəsi olan əhalinin sayına görə ABŞ dünyada Çin və Hindistandan sonrakı 3-cü yeri tutur. Belə ki, Çində - 1,3 mlrd. (2005-ci il yanvar ayının 1-nə olan məlumat), Hindistanda - 1,1 mlrd, ABŞ-da 298 mln. nəfərdən artıq əhali qeydə alınmışdır. Ölkə Konstitusiyasına müvafiq olaraq hər 10 ildən bir əhalinin ümumi siyahıyaalınması prosesi həyata keçirilir. 1790-cı ildəki əhalinin ilk siyahıyaalınmasında ABŞ-da 4,0 mln. əhalinin olması müəyyən edilmişdir. Əhalinin formalaşmasında təbii artımla yanaşı immiqrasiya böyük rol oynamışdır. Belə ki, son illərə qədər Avropadan, Asiyadan, Afrikadan, Amerikadan 60 mln. nəfərdən çox insan ABŞ-a immiqrasiya olunmuşdur. Əhalinin artım sürəti 1,0%, doğumun orta illik koeffisienti - 15/1000 təşkil edir. Ölüm koeffisienti - 9/1000, kişilər üçün orta ömür sürmə - 74,5 il, qadınlar üçün orta ömür sürmə - 80,2 ildən artıqdır. Ümumiyyətlə, əhalinin orta ömür sürməsi 77,1 il təşkil edir. Əhalinin 86 %-ni Avropa mənşəli amerikanlar, 14 %-ni neqrlər təşkil edir. Haqlı olaraq ABŞ-ı immiqrasiya ölkəsi adlandırırlar. Ölkədə 35 mln-dan artıq zənci, 2,0 mln-dan çox hindli, 30 mln-dan az olmayaraq ispan dilli xalqlar yaşayırlar. Bir qayda olaraq əhali ölkədə müxtəlif səbəblərdən qeyri-bərabər yerləşsələr də orta sıxlıq 30 nəfərdən az deyildir. Şimal-Şərqdə maksimal sıxlıq 200 nəfərə çatır. ABŞ-ı həm də urbanizasiyanın çox sürətlə getdiyi bir region kimi də tanıyırlar. Belə ki, ümumi əhalinin 75 %-dən artığı şəhərlərdə, 25%-i isə kəndlərdə yaşayır. ABŞ-da urbanizasiya, suburbanizasiya,

rurbanizasiya, qiperurbanizasiya prosesləri də mövcud olmaqla bunlar müxtəlif tədqiqatçılar tərəfindən çox dəqiq araşdırılmışdır. Milyoner şəhərlər - 10, aqlomerasiyalar 113-dür. Şəhər əhalisinin daha çox konsentrasiya olunduğu forma isə meqalopolis hesab edilir. Haqlı olaraq ABŞ-ı meqalopolislərin vətəni hesab edirlər. Dünyada 60-a qədər formalaşmış və formalaşmaqda olan meqalopolisdən 5-i ABŞ-dadır. Bunlardan ən böyüyü Atlantik sahili-Boston-Vaşinqton və ya Bosvaş sayılır. O da 170 min kv.km əraziyə, 40 aqlomerasiyaya, 60 mln-dan artıq əhaliyə malik olmaqla 1000 km-dən artıq məsafədə uzanır. 35 aqlomerasiyanın-Çikaqo-Detroyt-Klivlend-Miluoki-Pitsburq və s-ri birləşdirən Cipits meqalopolisi isə böyüklüyünə görə 2-ci hesab edilir. 160 min kv.km sahəsi, 900 km uzunluğa və 35 mln. nəfər əhalisi vardır. Lakin Sakit okean sahili boyunca Sansan: San-Fransisko-San Diyeqo meqalopolisi özünəməxsusluğu ilə seçilir. Onun 100 min kv.km sahəsi, 18 aqlomerasiyası, 800 km uzunluğu və 20 mln. əhalisi vardır. Deyilənlərlə yanaşı, Şərqi-Florida və eləcə də Xyuston - Yeni Orleanı birləşdirən Meksikaətrafı meqalopolisləri də vardır. Göstərilən meqalopolislərdə ölkə əhalisinin 50 %-dən artığı cəmləşmişdir. Meqalopolislərin yenilərinin əmələ gəlməsi davam etməkdədir.

Əhalinin miqrasiyası ən çox şimal «Qar qurşağı»ndan cənub-da yerləşən «Günəş qurşağı»na doğrudur. Amerika Birləşmiş Ştat-ları müasir Qərb dünyasının başlıca iqtisadi, siyasi və hərbi mərkəzi hesab edilir. O, dünyada Ümumi Daxili Məhsul istehsalına, sənaye məhsulu istehsalına (20 %), ticarət dövriyyəsinə (15 %), eləcə də elm - texnikaya çəkilən xərcə görə 1-ci yeri tutur. Ümumi Daxili Məhsul istehsalı 10 trln dollar təşkil etdiyi halda, adambaşına düşən illik məhsul tədarükü 36,3 min dollardan artıqdır. O, dünya iqtisadiyyatında 25 % xüsusi çəkiyə malikdir. Deyilənlərlə yanaşı, ABŞ ən çox kapital ixrac və idxal edən ölkə olmaqla bərabər dünya bazarına yüksək miqdarda sənaye və kənd təsərrüfatı məhsulları çıxaran dövlət kimi də tanınır. Eləcə də ən çox xammal, yarımfabrikat və digər məhsullar idxal edən ölkədir.

Amerika iqtisadiyyatının struktur əsasını maddi və qeyri-maddi istehsal sahələri təşkil edir. Qeyri-maddi istehsal sahəsi-xüsusilə qulluq sferası ÜDM istehsalında 73 %, maddi istehsal

sahəsinin sənaye sahəsi 25 %, kənd təsərrüfatı məhsulları istehsalı sahəsi isə 2 % xüsusi çəkiyə malikdir. Belə hal ölkədə sənayeləşmənin böyük vüsət almasından xəbər verir. ABŞ-m iqtisadiyyatı durmadan inkişaf edən azad bazar iqtisadiyyatıdır. Ölkədə fəaliyyət göstərən bazar iqtisadi sistemi daima təkmilləşdirilmiş, həm istehlakçının, həm də istehsalçının «səsini» eşitməyə imkan verən bazarın tənzimlənməsi zərurəti yaranmışdır. Hökumət özəl müəssisələri müxtəlif yollarla tənzimləyir və onlara nəzarət edir, infilyasiyanın qarşısını almaq üçün əsaslı tədbirlər görür. Rəqabət məhdud olan sahələrdə isə qiymətlərin «insafsızcasına» yüksəldilməsinin qarşısını alır. Əksər hallarda nəzarət ictimaiyyəti qorumaq naminə həyata keçirilir. ABŞ-da iqtisadi faydalılığa zərər yetirmədən əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönəldilən və azad bazar rəqabətli cəmiyyətdən köklü fərqlənən iqtisadi sistem, insana layiq cəmiyyət tam formalaşmışdır. ABŞ-m dünya səhnəsinə fəal daxil olması XX əsrin əvvəllərinə təsadü edir. Ölkə iqtisadiyyatının sürətlə inkişaf etməsinə, onun super dövlətə çevrilməsinə feodal mülkiyyətlərinin olmaması, torpaqların fermerlərə verilməsi, böyük daxili bazarın mövcudruğu, Avropa ölkələrindən daha təsəbbüskar əhalinin və kapitalın axını, təbii ehtiyatların çoxluğu və rəngarəngliyi, işçi qüvvəsinin çatışmazlığı və onun bahalı olması əsasında texnikanın böyük sürətlə inkişaf etdirilməsi, dəniz yollarının tikintisinə geniş yer verilməsi, su yollarının daha da genişləndirilməsi, coğrafi mövqeyinin əiverişliliyi, qərb və şərq tərəfindən birbaşa dünya okeanına çıxışa malik olması ölkə daxilində müharibələrin olmaması, I və II Dünya müharibələrinin nəticələrindən bəhrələnməsi, Avropa və Asiya müharibələrindən uzaqlığı, XX əsrin əvvəllərindən ölkəyə «ağıllar axını» siyasətinin yeridilməsi və s. amillər səbəb olmuşdur. Bütün bunların nəticəsində sənayenin inkişaf səviyyəsinə, kənd təsərrüfatının yüksək dərəcədə mexanikləşdirilməsinə və kimyalaşdırılmasına görə «Köhnə Dünya» ölkələrini çox-çox arxada qoymuşdur. 1991-ci ilin dekabr ayının 8-ndə SSRİ-nin dünyanın müasir-siyasi xəritəsindən silinməsindən sonra dünyada ABŞ-m hər sahədə 1-ci olmasın iddia edən başqa qüvvə qalmamışdır. 15 ilə yaxmdır ki, iqtisadi və hərbi potensialına görə dünyanın 1 -cisi hesab edilən ABŞ planetimizi təkbaşına idarə etmək imkanına nail olmuşdur. Bununla yanaşı,

ABŞ-m siyasi xadimləri yaxşı dərk edirlər ki, bu vəzifəni uzun müddət qoruyub saxlamaq üçün dünyada və onun ayrı-ayrı regionlarında baş verən bütün hadisələr düzgün qiymətləndirilməli və münaqişəli məsələlərdə öz həllini tapmalıdır.

Amerika Birləşmiş Ştatları müasir dövrdə dünya inteqrasiyasından daha yaxşı və çox bəhrələnərək özünün iqtisadi-coğrafi mövqeyini daha da möhkəmləndirir. Ölkənin bir çox ştatlarının ÜDM göstəriciləri də bir çox bazar iqtisadiyyatına malik olan İEÖ-lərdən irəlidədir. ÜDM istehsalında Kaliforniya ştatının xüsusi çəkisi 12,6 %, Nyu-Yorkun xüsusi çəkisi 8,2 %, Texasın xüsıısi çəkisi isə 6 % təşkil edir. Kaliforniya İtaliyadan, Texas İspaniyadan, Massaçusets ştatı isə Belçikadan üstündür. Dövlət içərisində «dövlət» hesab edilən Kaliforniya sahəsinə görə -411 min kv.km-Yaponiyadan, Avropanın başlıca İEÖ-dən (Fransadan başqa) irəlidədir. İstehsal həcminə görə Kaliforniya dünyada yalnız ABŞ-m yerdə qalan 49 ştatından (birlikdə), Yaponiya, AFR, Fransa və Böyük Britaniyadan geridə qalır. Əhalisinin adambaşına düşən ÜDM istehsalına görə isə heç bir ölkədən geri qalmır. O, həm ölkənin illik sənayesinin başlıca bazasıdır, həm də ABŞ-ın ixracatında birinci yeri tutur.

Cədvəl l3

ABŞ-ın formalaşmış meqalopolisləri

№	Meqalopolislərin adı	Aqlomerasiyalarm sayı	Sahəsi mın kv.km.	1 Əhalisi mln.nəfər	Əhalinin kv.km-də sıxlığı	Uzunluğu km
1	Şimal-Şərq (Atlantik sahili) Bosvaş: (Boston-Vaşinqton)	40	170	50	300	1000

2	Göllər ətrafı (Çipits: Çikaqo-	35	160	35	220	900
3	Kaliforniya (Sansan: - San Fransisko-San	15	100	20	180	800
4	Şərqi Florida					
5	Meksika ətrafı					

Sənaye maddi istehsalının aparıcı sahəsi olmaqla xalq təsərrüfatının struktorunda başlıca yer tutur. Ümumi Daxili Məhsul istehsalında onun xüsusi çəkisi 25 % təşkil edir. Aktiv əhalinin 16%-i burada cəmləşərək ixrac olunan məhsulun 2/3-ni verir. Amerikan sənayesinin başlıca xüsusiyyətlərindən biri onun yüksək dərəcədə texniki səviyyəyə malik olması, avtomatlaşmanın və kompüterləşmənin müasir səviyyəyə çatması və əmək məhsuldarlığının yüksəkliyidir. Onun başlıca aparıcı sahələri emaledici, dağmədən və energetika hesab edilir. İllik məhsul istehsalının 75 %-i emaledici sahənin payına düşür. Bu sahənin inkişafına Elmi-Texniki Tərəqqinin (ETT') nailiyyətlərinin çox böyük təsiri vardır. Sənaye sahələri, o cümlədən emaledici sahə daha çox ərazi təmərküzləşməsi ilo səciyyələnir. Emaledici sahənin 1/4 -i cəmi 3 ştatın - Kaliforniyanının (10 %), Texasın (8 %>) və Oqayonun (6 %) payına düşür. Lakin dağ-mədən sənayesində bu ştatlar - 37 % xüsusi çəkiyə malik olmaqla Texasda 25 %, Kaliforniyada 7 %, Alyaskada 5 %, Oqayoda 0,1 % təmərküzləşmə vardır. Baxmayaraq ki, yerli yancaq - energetika ehtiyatları çoxdur, bu hesaba tələbatın 80 % ödənilir. Son illər yanacaq-energetika balansında əsaslı dəyişikliklər aparılaraq neftin xüsusi çəkisi 13 %-dən 38%-ə, qazın xüsusi çəkisi 4 %-dən 28 %-ə, atomun xüsusi çəkisi «0»-dan 7 %-ə, su və digər resursların xüsusi çəkisi 4 %-dən 5 %-ə çatdırılmış və kömürün xüsusi çəkisi 79%-dən 22%-ə endirilmişdir. Göründüyü kimi balansda neft və qazın xüsusi varlığı

70 %-ə qədər qaldırılrmşdır. Hal-hazırda atmosferin enerji mənbələrinin axtarılıb tapılmasına xüsusi fikir verir.

Yanacaq-energetika kompleksi (YEK) ABŞ iqtisadiyyatında aparıcı yer tutaraq ümumi məhsul istehsalında 8 %-ə qədər xüsusi çəkiyə malikdir. Ölkənin illik yanacaq və enerji tələbatı 3,1 mlrd. tut təşkil edir. ABŞ ildə xarici ölkələrdən 810 mln. tut miqdarında yanacaq və enerji məhsulları idxal edir. Yerli istehsal isə 2500 mln. tutdur. YEK-də, 15-dən çox ştatda aşkarlanaraq illik hasilatı 1,1 mlrd. tondan çox olan kömür ən çox Appalaç hövzəsindən (400 mln. t), Vayominq ştatından (300 mln. t), Qərbi Virciniya ştatından (170 mln. t), Kontukki ştatından (150 mln. t), Pensilvaniyadan (70 mlnt) istehsal olunur. Bu sahədə ABŞ dünyada Çindən sonrakı yeri tutur. Açıq üsulla daha çox hasil olunan kömür (2/3 hissəsi) şaxtaları yiiksək dərəcədə mexanikləşdirilmişdir. Son vaxtlar kömürün qazlaşdırılmasına və onların boru-kəmər nəqliyyatı ilə nəql olunmasına xüsusi fikir verilir. Bu məqsəd üçün çəkilmiş boru-kəmərləri Qayalı dağlardan şərqə və cənub-şərqə doğru istiqamətlənmişdir. Müasir dövrdə hasil olunmuş kömürün 83 %-indən İES-lərin işləməsində istifadə olunur. Hər il ABŞ dünya bazarına 100 mln. ton kömür nəql edir.

YEK-in strukturunda strateji əhəmiyyət kəsb edən neftin xüsusi yeri və əhəmiyyəti vardır. Belə ki, neftin hesabına yanacağa və enerjiyə olan illik tələbatın 60 %-ə qədəri ödənilir. Onun 150 ildən artıq inkişaf tarixi vardır. Əvvəlki neft quyusu Pensilvaniyanın qərb hissəsində (Bredford yaxmlığında) qazılmış olsa da sənaye üsulu ilə ilk quyuqazma Appalaçqabagı hövzədə 1859-cu ildə həyata keçirilmişdir. Ölkədə neft ehtiyatının kifayət qədər olmasına baxmayaraq xaricdən gətirmələrə üstünlük verilir. İdxal neft və neft məhsulları hələlik 60 %-ə qədər xüsusi çəkiyə malikdir. Daha doğrusu, son illər ölkədə hasil olunan neft 404 mln. ton təşkil etmişsə idxal olunan neft 550 mln. tondan az olmamışdır. Göründüyü kimi, neftin iilik əldə edilməsinin kəmiyyət göstəricisi 1,0 mlrd. tona çatmaqdadır. ABŞ idxal etdiyi nefti başlıca olaraq Kanadadan, Venesueladan, İran körfəzi sahili dövlətlərindən gətirir. ABŞ-da 20-dən artıq ştatda 15 mindən çox neft yatağında 3,0 mln-a qədər neft quyusu fəaliyyət göstərir. Ən çox neft hasilatı 1972-ci ilə təsadüf edir ki, o da 530 mln. ton təşkil etmişdir. Ölkədə hasil

olunan illik neftin 9/10 hissəsini 5 ştat-Texas Alyaska, Luiziana, Kaliforniya və Oklaxoma verir. Ümumiyyətlə, aparıcı neft rayonları 3-dur. Bunlar Mərkəzi Cənub-Qərb, Cənubi Kaliforniya və ən cavan-18 mart 1968-ci ildən istifadə olan Alyaskadan ibarətdir. Texasda-175 min, Oklaxomada-90 min, Kaliforniyada-40 min və Luizianada-25 min neft quyusu fəaliyyət göstərir. Alyaska hal-hazırda 110 mln. ton neft əldə edilməsinə kömək edir (əsasən Pradxo-Bey mədənlərində). Alyaskada hasil olunan nefti ölkənin mərkəzinə çatdırmaq üçün Kanadadan keçməklə 14 mlrd. dollara başa gələn, borularının diametri 120 sm olan, ildə 120 mln. t məhsul buraxma imkanına malik və ümumi uzunluğu 1288 km-dən artıq neft-boru kəməri 20 iyul 1977-ci ildə istifadəyə verilmişdir. ABŞ-da deyilənlərlə yanaşı, neft emalı sahəsi də sürətlə inkişaf edir. Mövcud 190 NEZ-dən hər il 750 mln. t neft və neft məhsulları artır.

ABŞ-da mövcud neft emalı zavodlarının 90 %-dən artığı Texasda (50 %),Luiziana və Kaliforniyada (ayrı-ayrılıqda hər birində 20 %) yerləşir. Beytaun, Leyk-Çarlz, Botan-Ruj, Port-Arbur, Texas-Siti, El-Sequnda kimi iri NEZ-lərin adlarını çəkə bilərik. Eksson, Mobil, Tanneko, Sokal, Amoko, Royal-Şelli, Cenerai-Motors, Qalfoyl və s. kimi neft şirkətləri ABŞ-ı neft hasilatına görə dünyada Səudiyyə Ərəbistandan sonrakı yeri tutmaga səbəb olmuşlar. YEK-in tərkibində ən qiymətli və ən keyfiyyətli yanacaq növü təbii yanar qazdır. Ölkənin neft rayonları ilə üst-üstə düşən qaz yataqları Texasda (32%), Luizianada, Oklaxomada, Yeni Meksikada, Vayo-minqdə, Kaliforniyada, Kanzasda, Aİyaskada yerləşməklə istehsal olunur. Deyilənlərlə yanaşı, qaza olan tələbatı ödəmək üçün Kanadadan və Meksikadan da qaz idxal olunur (50 mlrd. kubmetr). Hər il ölkədə 570 mlrd. kubmetr təbii qaz hasilatı ölkəni dünyada ancaq Rusiya Federasiyasından sonrakı yeri tutmağa səbəb olmuşdur.

Cədvəl 14

ABŞ-m neft hasilatı və idxalı

№	İllər	Hasilatı mln.t .	İdxal min. t	Idxalın tələbatda %-lə çəkisi
1	1950	295	25	7,8
2	1960	350	50	12,5
3	1972	530	160	28,0
4	1980	425	260	37,4
5	1990	370	305	45,0
6	2000	355	445	55,6
7	2004	404	460	58,0

YEK-də elektronenergetikanın özünəməxsusluğu vardır. Demək olar ki, ABŞ bu sahədə bütün kəmiyyət göstəricilərinə görə dünyada liderlik edir.

Cədvəl 15

ABŞ-da elektrik enerjisi hasilatı

№	Illər	Elektrik enerjisi hasilatı mlrd.kvt.saat
1	1960	844
2	1970	1740
3	1980	2463
4	1990	3215
5	2000	3980
6	2004	4110

Cədvəl 16

ABŞ-da atom energetikası

№	İllər	Fəaliyyətdə olan reaktorlar	Elektrik enerji. hasilatı (mlrd. kvt.saat)	İllik istehsalda çəkisi (%)
1	1970	50	135,7	7,8
2	1980	70	251,1	11,0
3	1990	111	643,0	20,0
4	2000	104	740,0	20,0
5	2004	104	780,0	20,0

Daha doğrusu, ABŞ-da mövcud elektrik stansiyalarınm gücü 800 mln. kvt-dan artıq, elektrik enerji hasilatı 4,0 trln kvt.saatdan çox, elektrik enerjisinə olan tələbat daha böyük, ayrı-ayrı ölkələrlə müqayisədə hər nəfərə düşən elektrik enerjisinin miqdarı daha yüksək - 15,0 min kvt.saatdan artıq, AES-lərin sayı - 35, AES-lərin fəaliyyətdə olan bloklarının sayı - 112, AES-lərin ümumi gücü - 112 mln. Kvt, AES-lərdən alınan elektrik enerjisinin illik miqdarı 740 mlrd. kvt. saat,SES-lərdən alman elektrik enerjisinin miqdarına görə Kanada ilə 1-2-ci yerləri belməsi, ən iri SES kaskondlarına malikliyi səciyyəvidir. Son 50 ildə ölkədə hasil olunan elektrik enerjisinin məhsul miqdarı 10 dəfədən çox artmışdır. Demək olar ki, ölkənin bütün ştatlarında elektrik enerjisi hasil olunsa da elektrik stansiyalarının çoxu Tennesi və Vaşinqton ştatları ərazisində cəmləşmişdir. Belə ki, hələ 30-cu illərdən Tennisi çayı üzrənidə ən böyük AES kaskadlarının tikintisinə başlanılmış və İES və AES-lərin sayı get-gedə artılırmışdır. Elektroenergetikanın hasilat strukturu İES-dən, AES-dən, GES-dən,SES-dən, KES-dən, GeoİES-dən, Qabarma-çəkilmə elektrik stansiyalarından ibarətdir. Burada illik elektrik enerjisi hasilatmm 70 %-ni kömürlə, qazla, mazutla fəaliyyət göstərən, hər yerə-əsasən xammal və istehlak rayonlarına daha çox meyl edən İES-lər verirlər. Onlar ən çox Appalaç, İllinoy, Qərb Daxili hövzələr, Arizona kömür hövzələri hesabına işləyərək hər biri 3,5 mln.kvt gücə çatırlar (məsələ, «Navako» və s).

AES-lər ABŞ-da 50-ci illərin sonlarından inkişaf etməyə başlamışdır. Lakin 1979-cu ilin martında Pensilvaniya ştatının Harrisberq şəhərində tikilmiş Tri-Mayl-Aylend AES-ində baş verən qəzadan sonra bir müddət onların tikintisinə qadağa qoyulmuşdur. 2001-ci ildən yenidən AES-lərin tikintisi böyük vüsət almağa başlamışdır. Ən çox AES Şimalda (3/4), Qərbdə - 10 % tikilmişdir. ABŞ üçün AES-lərin tikilməsinin başlıca xüsusiyyəti onların ən çox istehlak rayonlarında yaradılmasıdır. Bu əsasdan da AES-lər ən çox meqalopolislər ərazisindədir. Son vaxtlar isə əksinə əhalinin seyrək olduğu bölgələrdə, iri sənaye mərkəzlərindən xeyli kənarda, su mənbələrinə yaxm yerləşdirilməsinə üstünlük verilir. Ona görə də AES-lərin əksəriyyəti Atlantik və Sakit okean sahillərində, Böyük göllər ətrafında, Missisipi və digər böyük çaylar boyu uzunu yerləşdirilmişdir. Onlardan ən böyükləri Arizona ştatında Palo-Verde, Tennessi ştatında Sekvoyya, eləcə də Cənubi Texas və başqa AES-lərdir.

ABŞ-da çaylar ölkə təsərrüfatında kompleks tədbirlərin həyata keçirilməsində daha geniş istifadə olunur. Əvvəla-Missisipi, Missuri, Ohoyo, Hudzon çaylarından nəqliyyat üçün, Kolumbiya və Kolorado çayları hidroenerji üçün, bir çoxları su təzhizatı və suvarma üçün istifadə olunursa, digərlərindən - Alyaskadakı Yukondan bu vaxta qədər istifadə olunmur.

Elektrik enerji hasilatında SES-lərin xüsusi çəkisi 8 %-dən artıqdır. SES-lərdən elektrik enerjisi hasilatına görə ABŞ şimal qonşusu Kanada ilə 1-2-ci yerləri öz aralarında bölüşdürürlər. Ölkə çayları üzərində 1300-dən çox SES tikilmişdir. Demək olar ki, hər bir ştat ərazisində bir və ya bir neçə SES fəaliyyət göstərir. Bu baxımdan da, xüsusi ilə 2 rayon -Şimal - Qərb və Yuxarı Cənub seçilirlər. Bunlar ən böyük SES kaskadlarına malikdirlər. Vaşinqton ştatı ərazisində - Kolumbiya çayı, üzərində tikintisinə 1933-cü ildən başlanılmış və ümumi gücü 10,8 mln.kvt-a catan Qrand - Kuli SES-i tikilənə qədər o suvarma məqsədi daşısa da, sonradan ondan elektrik enerjisi alınmasına üstünlük verilmişdir. Hal-hazırda həmin hövzə üzərində 50 bənd tikilərək 80 SES yaradılmışdır ki, o da dünyada ən böyük SES kaskadını əmələ gətirməklə 21 mln. kvt gücə malikdir. SES kaskadı da öz ətrafında bir çox elektrik tutumlu sənayeni, o cümlədən hərbi sənayeni yerləşdirməyə səbəb

olmuşdur. 2-ci böyük SES kaskadı 1933-cü ildən Tennesi çayı üzərində yaradılmışdır. Kaskad 30-dan artıq bəndə və SES-ə malik olmaqla 40 mln. kvt gücü keçmişdir.

Göstərilənlərlə yanaşı, Kolorado və Niaqara çayları hövzələrində də hələ 1936, 1966-cı illərdə ayn-ayrıhqda ümumi gücləri 2,4 mln. kvt-dan artıq olan bir neçə SES-lər tikilib istifadəyə verilmişdir. Bunlardan Quver, Qlen-Kanan, Robert Mozesi SES-ini qeyd edə bilərik.

Qeyri-ənənəvi və ya alternativ enerji mənbələri çox olsa da onlardan hələlik kifayət qədər istifadə olunmur. Onların illik elektrik enerji hasilatında 2 %-ə qədər xüsusi çəkiləri vardır. Bunlara günəş, külək, qabarma - çəkilmə, geotermal mənbələr daxildir. Deyilənlər içərisində yerin tükənməyən daxili enerjisi və ya istisindən istifadə edərək yaradılan GeoİES-lər heç də az rol oynamırlar. Onlar ölkənin 19 ştatında, o cümlədən Havay, Nevada, Yuta, Kaliforniya (2 mln. kvt olan «Qeyzes») ştatlarında 20 sayda yaradılaraq 3,2 mln. kvt-a çatan gücləri vardır. Günəş elektrik stansiyalan çox böyük vüsət almışdır. Bunun ən çox quraşdırıldığı region ildə 350-dən artıq günəşli günlərə malik olan «Günəşli qurşaq»dır. Kalifonrniya ştatının Mokave səhreyi-biabanında çoxlu sayda günəş və digər alternativ elektrik stansiyalarından 2,0 mln. nəfərə qədər insan bəhrələnir. Külək elektrik stansiyaları 1981-ci ildən Kaliforniya ştatında işləməyə başlayaraq ümumi gücünə-3,0 mln. kvt və sayına görə-2000-dən artıq dünyada 1-ci yeri tutur. Ölkənin keçmiş prezidenti B.Klintonun təşəbbüsü ilə (1993-cü ildən) KES-lər hər cür vergidən azaddırlar (maddi maraqlandırma üçün). Ona görə də Ayova, Men, Minnesota, Vaşinqton istehsalında böyük düzənliklərdə gələcəkdə KES-lərin yaradılmasına xüsusi fikir veriləcəkdir. Okean sularının qabarma-çəkilmə enerjisindən istifadə-nin də özünə məxsusluğu vardır. Ölkədə ilk QÇES 1984-cü ildə Kanada ilə birlikdə Atlantik okeanının Fandi körfəzi sahillərində dalğaların hündürlüyünün 18 metrə qədər qalxması nəticəsində əldə edilən enerji əsasında yaradılmışdır,

Metallurgiya hələ XIX əsrin 70-ci illərindən inkişaf etməyə başlayaraq ölkənin qədim tipik sənaye sahələrindən hesab edilir. İlk illər metallurgiya kompleksi yerli təbii ehtiyatlar əsasında inkişaf etdirilmişdir. Sonralar metallurgiya məhsulları istehsah Qərbin bir

sıra inkişaf etmiş ölkələrində olduğu kimi azalaraq necə deyərlər öz böhran həddinə çatmışdır. Buna ümumən material tutumlu istehsalm azalması, yerli dəmir filizi xammalları ehtiyatlarının azalması, «çirkli» istehsal sahələrinin bilərəkdən inkişaf etməkdə olan ölkələr (İEOÖ) ərazisinə keçirilməsi, gətirilmə metallara üstünlük verilməsi səbəb olmuşdur. ABŞ-ın qara metallurgiyasını xarakter xüsusiyyətlərindən biri onların illik istehsal güclərinin daha böyük olmalarıdır. Fəaliyyət göstərən 65 zavodun hər birinin istehsal gücü 1-25 mln. t arasında dəyişir. Lap son illərdə (2003-cü ildə) fəaliyyət göstərən 140 qara metallurgiya müəssisələri ildə 92 mln. ton polad istehsal etmişdir. Lakin mövcud zavodların illik kəmiyyət göstəricisi öz maksimal həddinə 1970-ci ildə çataraq 132 mln. t polad hasilatı ilə səciyyələnir. Hal-hazırda ABŞ ildə ayrı-ayrılıqda 25 mln. t prokat və polad idxal edərək bu sahədə dünyada liderlik edir. Qara metallurgiyanın ən qədim rayonu Şimali-Appalaç sayılır. Burada yerli yanacağın - kömürün və xammalın-dəmir filizinin zənginliyi Pitsburq, Yanqstaun, Uoppon metallurgiya mərkəzlərinin yaradılmasına imkan vermişdir. Yerli kömürə, dəmir filizinə əsaslanaraq yaranma tarixinə görə (XIX əsrdə) 2-ci metallurgiya bazası Göllərətrafı hesab olunur. Miçiqan, Eri gölləri boyu uzunu ardıcıl düzülən Miluoki, Çikaqo, Detroyt, Tolido, Klivlend, Buffalo kimi qara metallurgiya mərkəzləri formalaşaraq istehlaka müvafıq ağır sənaye kompleksinin bu bölgədə cəmləşməsinə səbəb olmuşdur. Qara metallurgiyanın 3-cü rayonu Atlantik-sahili bölgədir. Məhsul istehsalı Kanadadan, eləcə də inkişaf etməkdə olan Braziliyadan, Venesueladan idxal olunan yüksək keyfiyyətli dəmir filizinə əsaslanır. Bu əsasdan da Sparruas - Pount (Baltii-morda), Betlex (Filadelfiyada) kimi kombinatlar yaradılmışdır. Göründüyü kimi ölkənin 65 %-dən artıq metalını verən 3 əsas qara metallurgiya rayonu Sənaye qurşağında yerləşir. Sənaye qurşağından kənarda yerləşənlər isə Birminqem, Cənubi Appalaç, Xyuston, Los-Andjelesdədir.

Əlvan metallurgiya müəssisələri də müxtəlif prinsip və zəminlərə əsaslanır. Daha doğrusu, ağır əlvan metalların müəssisələrinin yerləşməsində xammal faktoru başlıca rol oynayır. Ona görə də başlıca misəritmə zavodları Dağhq ştatlarda - Arizonada (Morensi), Yeni-Meksikada, Yutada, Vayominqdə

yaradılmışdır. Atlantikət-rafı ştatlarda yaradılmış zavodlar isə tələbata müvafiq olaraq Kanadadan gətirmə xammala əsaslanır. Alüminium sənayesi isə başlıca olaraq Qvineyadan, Qayanadan, Yamaykadan, Surinamdan gətirmə xammala və yerli, ucuz elektrik enerjisi mənbələrinə istiqamətlənmişdir. Ona görə də başlıca alüminium əridilməsi müəssisələri Kolorado və Tennesi (Alkoada) çayları hövzələrində, Meksika körfəzi sahillərində (Korpus - Kristi, Şalmet), Oqayo (Reyvensviddə) çay dərəsində, Sakit okeanın Takoma, Spokan hissələrində fəaliyyətdədir.

Maşınqayırma amerikan sənayesinin döyünən ürəyi, vuran nəbzi hesab edilir. Çoxsahəli kompleks olan maşınqayırma ümumi ölkə sənayesinin 40 % məhsulunu, ixracatını isə 50 %-ni verir. Ölkədə işləyənlərin 40 %-ni özündə cəmləşdirmişdir. ABŞ-da maşınqayırmanın metal emalı, ümumi nəqliyyat, elektrotexnika, elektron, cihazqayırma, dəqiq maşınqayırma sahələri də vardır. Çox mürəkkəb struktura malik olan maşınqayırmanın nəqliyyatı və kənd təsərrüfatı maşınları, cihazlar, kompüter texnikası və s. istehsalına görə dünyada liderlik edən dövlətlərdən biri kimi tanınır. Xüsusilə, son illərdə aviaraket - kosmik, eləcə də ətraf mühitin mühafizəsinə dair müxtəlif növ maşınlar istehsalı ABŞ-da sürətlə inkişaf edir. Müasir maşınqayırmada Elmi-Texniki Tərəqqinin nailiyyətindən geniş istifadə edilir. Maşınqayırmanın aparıcı sahələrinə çox nəhəng monopoliyalar nəzarət edir. Ölkədə maşınqayırmanın coğrafiyası çox genişdir. Onun 3/4 hissəsi Şimal makroregionunun ərazisində yerləşir. Qərb və Cənub makroregionunda, xüsusilə aviaraket-kosmik maşınqayırma ilə yanaşı radioelektronika sənayesi böyük sürətlə inkişaf edir. Müxtəlif maşınqayırma məhsullarının istehsalına görə ABŞ-ın dünyada tayı-bərabəri yoxdur. Bu sahənin yerləşməsi əsasən şəhərlərin, aqlomerasiyaların, eləcə də meqalopolislərin coğrafiyası ilə uyğun gəlir. Bu meqalopolislərin hər birində müxtəlif sənaye sahələrinin olmasına baxmayaraq, ayrı-ayrı ştatlar daha dar ixtisaslaşdırma ilə fərqlənir. On minlərlə müəssisələrə, firmalara, ayrı-ayrı sahələrə rəhbərlik edən monopoliyalara malik olan maşınqayırma ABŞ-in simasını müəyyən edən kompleks sahəsidir.

Nəqliyyat maşınqayırmasının əsasını təşkil edən avtomobil sənayesi amerikan iqtisadiyyatında ölçüyəgəlməz əhəmiyyəti kəsb

edir. Ölkədə ilk avtomobil müəssisəsi 1893-cü ildə Çikaqoda yaradılsa da Detroyt şəhərində yaradılmış zavodda ilk «Ford - 1» avtomobili 16 iyun 1903-cü ildə buraxılmışdır. Bununla da avtomobil sənayesinin erası başlamışdır. 1900-cü ildə ABŞ-da 8000 avtomobil vardırsa, bu, 1930-cu ildə 30 mln-a, 1950 -ci ildə dünya istehsalımnın 83 %-nə, son illərdə isə 200 mln-dan artıq saya çatmışdır. Ölkədə hər min nəfərdən 520-nin avtomobili vardır. Bu dünyada İtaliyadan (560) sonrakı 2-ci yer deməkdir. Təsadüfü deyildir ki, el arasında «Amerikanı avtomobil yaratmışdır» sözləri səslənir. Amerikanın avtomobil sənayesində 13,0 mln. nəfər və ya sənayedə çalışanların 17%-i işləyir. O, ümumi emal sənayesinin 25 %-ni verir. Digər tərəfdən, avtomobil sənayesi hər il ölkədə istehsal olunan natural kauçukun 79 %-ni, qurğuşunun 63 %-ni, müxtəlif rezin məmulatlarının 59 %-ni, neft məhsullarının 30 %-ni, şüşənin - 25 %-ni, sintetik kauçukun 57 %-ni, çuqunun 34 %-ni, alüminiumun 27 %-ni, sinkin 23 %-ni, poladın 15 %-ni, misin 11 %-ni, plastik kütlənin 4 %-ni işlətməli olur. Avtomobil satışını tənzimləmək üçün 25 minə qədər satış yeri mövcuddur. Mövcud 50 ştatdan 26-cında 150 şəhər avtomobil istehsal edən zavoda malikdir. Lakin ölkənin «avtomobil ştatı» Miçiqan, «avtomobil paytaxtı» isə Detroyd hesab edilir. Istehsal olunan avtomobillərin 90 %-dən çoxunu 3 nəhəng korporasiya - «Djeneral Motors» (48 %), «Ford» və «Kraysler» verir. «Djeneral Motors» 40 yığma zavoduna malikdir. Yerli avtomobillər 75 %-ə qədər yerli tələbat üçün istifadə olunur, yerdə qalan 25 % tələbat isə Yapon avtomobilləri hesabına ödənilir. 4-5 % avtomobillər ixrac olunur. Göstərilən avtomobil korporasiyalarının illik gəliri (ildə 15 mln. ədəd avtomobil satılır) 15 mlrd. dollar təşkil edir. Hər il avtomobillər təkmilləşdirilərək 1997-ci ildə Nevada da saatda 1200 km sürətə malik olan idman avtomobilləri sınaqdan çıxarılmışdır. «Djeneral Motors» (7,6 mln), «Ford Motor» (6,6 mln) və «Kraysler» indiki «Daymler Kraysler» (4,5 mln) avtomobil korporasiyaları xaricdəki müəssisələri ilə birlikdə hər il 19 mln. ədəd avtomobil buraxırlar. Bunun dünyada illik hasilatı isə 51,1 mln. təşkil edir. Dirborn, Pontiak, Flinq, Detroyt, Çikaqo, Tolido, Klivlend, Buffalo, Kentukki, Viskonsin, İllinoy, Kaliforniya və digər şəhərlərdə avtomobil buraxılmaqla ölkənin avtomobil parklarında 215 mln-dan artıq maşın saxlanılır.

Aviasiya maşınqayırması təsərrüfatın aparıcı sahələrindən birinə çevrilmişdir. Onun bazasında raket və kosmos texnikası daha sürətlə özünə yer taparaq aviaraket kosmik sahə kimi ABŞ-ı dünyada tanıtmışdır. Aviaraket - kosmik sənayesinin tərkibi hesab edilən aviasiya sənayesi, xüsusilə II Dünya müharibəsi dövrü daha sürətlə inkişaf edərək hələ 1938-ci ildə 15, 1943-cü ildə isə 86 zavoda malik olmuşdur. Bunun aparıcı korporasiyaları - «Boinq», «Mak-Dannel-Duqlas», «Jeneral-daynemiks» hesab edilir. Aviasiya müəssisələrinin 30 %-i Kaliforniyanın Los-Anjeles, San-Dieqo şəhərlərində, «Boinq» isə Şimal-Qərbin Sietl hissəsində, Dallasda, Ford-Uertdə, Uiçioda, Kanzas-Sitidə, Atlantada, Şimal-Şərqdə cəmləşmişdir. «Boinq» korporasiyası müəssisələrində son illərdə 400-ə qədər hava layneri istehsal olunmuşdur. Kompleksin raket-kosmik sahəsi xüsusilə II Dünya müharibəsindən sonra inkişaf sürəti almışdır. Bunlar Kaliforniyada, Qərb ştatlarında, Şimal-Şərqdə, Cənubda daha çox müəssisələrə malikdir. Elektronika və elektron sənayesi XIX əsrin sonralarından Şimal-Şərqin Bostonunda, Atlantiksahili meqalopolisdə, eləcə də Göllərsahili bölgədə «Djeneräl Elektrik», «Motorola», «Vestinqauz» iri korporasiyalarına malikdir. Onların istehsal etdikləri məhsullar həm sənaye əhəmiyyətli, həm də məişətdə istifadə edilir. Dünya EHM bazarına ABŞ-m «Ay-Bi-Em» firması nəzarət edir ki, orada da 300 mindən artıq işçi çalışır.

Gəmiqayırma sürətlə inkişaf edərək əsasən Atlantik okeanı və Meksika körfəzi sahillərnidə, Böyük göllər rayonunda yerləşdirilmişdir.

Nisbətən cavan sahələrdən biri radioelektron sənayesi hesab edilir. Bu Kaliforniyada (40 %), Texasda, Floridada mərkəzlərlə səciyyələnir. Dünya kompüterlərinin 20 %-indən çoxu ABŞ-m payına düşür.

Kimya illik sənaye məhsulunun 10 %-dən çoxunu verir. Onun məhsulları duz, turşu, kübrə, koks, lak, boya, partlayıcı maddələr, polimerlər, plastik kütlələr, sintetik kauçuk, lif və sairədən ibarətdir. Başlıca mərkəzləri Xyuston, Bomont, Baton - Ruj, Pensakola, Los-Anjeles, San-Fransisko və sairədir.

Mürəkkəb sahələarası komplekslərdən biri də atom sənayesidir. Buraya xammal hasilatı, onun saflaşdırılması, atom

yanacağının əldə edilməsi və silah düzəldilməsi daxildir. Uran xammalı əsasən Nyu-Meksikada, Koloradoda, Vayonminqdə istehsal olunur (150 min tona qədər). Bu, dünya istehsalının 20 %-ə qədəri deməkdir. Uran-235 Tennesidə, Kentukkidə, silah istehsalı isə Nyu-Meksikada, Koloradoda, Texasda zavodlara malikdir.

ABŞ-da ağır sənayenin inkişaf edən sahələrindən biri də meşə və tikinti materialları istehsal kompleksləridir. Meşənin ağac tədarükü, xammalın mexaniki emalı, kimyəvi emal sahələri vardır. Dünyada əldə edilən 200 mln. ton kağızın 15 mln. tonunu ABŞ verərək dünyada bu sahədə liderliyi öz əlində saxlayır. Hər il ölkədə 100 mln. t-dan artıq ağac material hazırlanır. İldən-ilə yaşayış və ictimai quruculuq işləri artdıqca tikinti materiallarına olan tələbat da yüksəlir. Onun sement istehsah sahəsi xüsusi olaraq seçilir.

Amerikan yüngül sənayesinin aparıcı sahələrindən ən ümdəsi toxuculuqdur. Toxuculuğun vətəni Yeni Anqliyadır. Pambıq -parça fabriki ilk dəfə XVIII əsrin sonunda Bostonda yaradılmışdır. Fabrikləri Cənubi Karolinanm Şarlott, Qripsboro, Qripvill şəhərlərində, Alabamanın Atlanta, Tennesinin Çattarnuqa şəhərlərində yaradılmışdır. İldə 4,0 mlrd. kv.m pambıq parça toxunur. Yun parça, sintetik parça sahələri də vardır. ABŞ Argentinadan, Avstraliyadan, Çindən hər cür toxuculuq xammalı məhsulları da alır.

Ən zəngin və çoxnövlü təsərrüfat sahələrindən biri yeyinti sənayesidir. Yeyinti sənayesinin inkişafı kənd təsərrüfatının inkişafı ilə üzvi surətdə bağlıdır. İri istehsal birlikləri ən çox məhsul vermələri ilə tanınırlar. Belə ki, spirtli və spirtsiz içkilər, müxtəlif növ ət və meyvə-tərəvəz konservləri, ət, süd və süd məhsulları, qənnadı məmulatları, un və un məmulatları yeyinti sənayesinin əsasmı təşkil etməklə istehlakın ödənilməsinə xidmət edirlər. «Koka-Kola», «Pepsi-Kola» kompaniyaları ümumi yeyinti məhsullarının 35 %-ni, 45 % isə müxtəlif növ konservlərin, un məhsullarının, baqqaliyə məhsullarının öhdəsindədir. Meyvə-tərəvəz konservləri müəssisələri əsasən Kaliforniyada, Texasda, Floridada, un məhsullan Kanzas-Sitidə, Çikaqoda, Minneapolis-Senpolda, Buffaloda, toyuq əti müəssisələri isə Cənub-Qərbdə yerləşmişlər. Hər il ABŞ-da dünyada tədarük olunan 220 mln. ton ətin 70 mln. tonu, 140 mln. ton şəkərin 4,0 mln. tonu, 5,5 trl ədəd

papirosun 700 mlrd. ədədi buraxılır. Qeyd etmək lazımdır ki, ABŞ-da əsasən 2 növ papiros buraxılır. Az nekatinli -1,2-1,5 %, efir yağlı və qatranlı papiros növləri əsasən yerli istehlak üçün nəzərdə tutulursa, çox nekatini, efir yağlı və qatranlı növlər isə ixrac olunurlar.

Maddi istehsalının 2-ci aparıcı sahəsi kənd təsərrüfatıdır. Baxmayaraq ki, aktiv əhalinin 3 %-i kənd təsərrüfatı sferasında çalışır, o, ümumi illik məhsulun 2 %-dən artığını vermir. İlahiyyat ABŞ-a eiə bir ərazi bəxş etmişdir ki, orada mövcud təbii-resurs amili kənd təsərrüfatının inkişafının daha da sürətləndirməyə mane ola bilmir. Ölkə geniş torpaq sahələrinə və torpaq fondunun əlverişli strukturuna malikdir. Lakin kənd təsərrüfatına az da olsa öz mənfi təsirini göstərən yararsız torpaq sahələrinə Kordilyer və Appalaçın dağlıq əraziləri, Atlantik okeanının bataqlaşmış ovalıqlan, Alyaskanın çox hissəsi və səhralar aiddir. Əkin sahələri Şərq, otlaq sahələri isə Qərb hissədə üstünlük təşkil edir. Aqroiqlim ehtiyatları əhəmiyyətli dərəcədə ərazinin mülayim, subtropik qurşaqlarma, habelə Floridanın cənubunda və Havayın tropik qurşağında kənd təsərrüfatının əkinçilik növlərinin becərilməsi imkanları daha da artır. Lakin Qərbə doğru iqlim dəyişkənliyinin baş verməsi (100 dərəcəlik meridiandan qərbə) əkinçiliyin süni suvarma əsasında inkişaf etdirilməsini tələb edir. Ona görə də süni suvarılan torpaqların 3/4 hissəsi Qərbin payma düşür. Ümumiyyətlə, ABŞ-ın kənd təsərrüfatı yüksək məhsuldarlığı, material-texniki təchizatlığı, ixtisaslaşma və konsentrasiyası ilə tanınır. Becərilən torpaq sahəsi 186 mln. hektar (ərazinin 20 %-i), o cümlədən əkin sahəsi 136 mln. hektar (15 %) təşkil edir. Otlaq və biçənək 27 mln. ha, təbii otlaq-239 mln. ha-dır (25 %). İstehsal olunan məhsulların dəyəri 250 mlrd. dollar həcmində olmaqla Kaliforniya (12 %), Texas (6 %), Ayova -5 % xüsusi çəkiyə malikdir. Kənd təsərrüfatının aparıcı sahəsi əkinçilikdir. Təkcə Texasın, Ayovanın, İllinoyun, Kanzasın, Şimali Dakotun payına əkin sahəsinin 40 %-i düşür. Əkinçiliyin 40 % məhsulunu Kaliforniya, İllinoys, Ayova, Texas, Florida ştatları verir. Taxılçılıq böyük əhəmiyyət kəsb edərək istehlak üçün məhsul tədarük olunmasına xidmət edir. Onun strukturu buğda, qarğıdalı, çəitik və sairədən ibarətdir. Taxılçılıqda illik məhsul tədarükü 360 mln.

tondan artıqdır. Bu sahədə ABŞ dünyada ancaq Çindən geri qalır. Taxılçılığın əsasında qarğıdalı durur ki, onun illik yığımı 270 mln. ton təşkil edir. «Buğda qurşağı» meridional istiqamətdə Şimali Dikota və Martanıdan cənubda Texasa qədər uzanaraq hər il 66 mln. tona qədər məhsul verməklə ölkəni ancaq Çindən sonrakı yeri tutmağa sövq etmişdir. Meksika körfəzi sahili boyu, Missisipi hövzəsində, Kaliforniyanın cənubunda istilik və su sevən taxıl növü - çəltik becərilir. ABŞ-da illik çəltik tədarükü 8,0 mln. tondan artıqdır. Pambıq, şəkər çuğunduru, tütün texniki bitkilərin əsası hesab olunurlar. Qədim «pambıq qurşağı» Missisipi ilə Appalaç arasında yerləşir. Hal-hazırda Texas, Kaliforniya - 40 %, Missisipi, Corciya, Arxanzas - 28% illik pambıq yığınına malikdir. İllik pambıq tədarükü ölkədə 3,5 mln. tondan az deyildir. Ölkədə 2 əsrdən artıqdır ki, pambıq becərüir. Tütünçülük başlıca olaraq cənub-şərq ştatları üçün səciyyəvidir.

Ümumilikdə ildə 30 mln. tona qədər şəkər çuğunduru, xeyli miqdarda mandarin, portağal toplanılır.

Yem bitkilərindən soya, sorqo becərilir. Soya məhsulu toplanmasında - 75 mln. tonla ABŞ dünyada liderlik edir.

Tərəvəzçilik, meyvəçilik ölkənin müxtəlif bölgələri üçün xarakterdir. Bunlar ən çox Atlantik okeanı sahillərində tədarük olunur. Sakit okean sahil zonasında, Kaliforniya dərəsində, Texasın cənubunda, Floridada subtropik bitkiləri - siırus növləri, üzüm, o cümlədən faraş tərəvəz becərilməkdədir. Şəkər qamışı Meksika körfəzi sahillərində və Havay adalarında, şəkər çuğunduru Göllərətrafı və dağlıq ştatlarda, tütün Virciniyada və Kentukki ştatlarında yetişdirilir. Aralıq dənizi iqliminə malik olan Kaliforniyada dünya yığımının yansına bərabər olan limon, dünya yığımının 1/3-nə çatan portağal məhsulu tədarük olunur. Kaliforniya, həm də ərik, şaftalı, badam bağlarına malikdir. Burada ölkənin digər ştatlarına təzə meyvə, faraş tərəvəz, meyvə konservləri, müxtəlif növ şirələr göndərilir. Kənd təsərrüfatının əkinçilik sahəsinin xarakter xüsusiyyətlərindən ABŞ üçün biri odur ki, ayrı-ayrı növlərin əkin sahələri 1000 km-lərlə uzanan «buğda qurşağı», «qarğıdalı qurşağı», «pambıq qurşağı», «tütünçülük qurşağı» yaratmalarıdır. Eyni zamanda da aydın olur ki, ABŞ dünya bazarına ən çox buğda və qarğıdalı ixrac edən ölkə sayılır. Bu

sahədə - buğda sahəsində Kanada, Argentina Avstraliya, Fransa ilə, qarğıdalı ixracatında isə Braziliya ilə rəqabət aparır. O da aydındır ki, otlaq sahəsinin böyüklüyünə görə - 240 mln. ha - ABŞ dünyada Avstraliya və Çindən sonrakı 3-cü yerdədir. Kənd təsərrüfatının aparıcı sahəsi olan heyvandarlığın məhsul istehsalında xüsusi çəkisi 52% təşkil edir. İribuynuzlularm sayı 101 mln. başdan artıq olmaqla dünyada Hindistan və Çindən sonrakı 3-cü yeri tutur. Xırdabuynuzlular 10 mln. başa qədər, donuzlar isə 60 mln. başdan çox deyildir. Ölkə kənd təsərrüfatında əmtəəlik məhsul tədarükündə heyvandarlıq xüsusi yer tutur. Heyvandarlıqda həm südlük, həm də ətiik istiqamətli qaramal bəslənməsinə xüsusi diqqət yetirilir. Südlük istiqamət daha çox Göllərətrafı, ətlik heyvandarlıq isə Böyük düzənliyin quraq cənub hissəsində və dağlıq ştatlarda inkişaf etdirilir. Amerikan broylerləri hər il 3,0 mlrd. toyuq yetişdirilir. Ən böyük broylerlər Corciya, Şimali Karolina ştatlarında yerləşərək istehlakı təzə ət, yumurta, quş tükü məhsulları ilə təmin edir.

Ölkədə balıq ovu və balıq yetişdirilməsi ilə yanaşı arıçıhq təsərrüfatlarına da xüsusi fıkir verilir.

Kənd təsərrüfatı, həm də böyük həcmdə, müxtəlif növ məhsul istehsalı ilə, yüksək əmək məhsuldarlığı və ixtisaslaşdırmanın yüksəkliyi ilə səciyyələnir. Kənd təsərrüfatının elektrik enerjisi ilə, traktorla, kombaynla, kübrə ilə təmin olunmasında ABŞ-ın tayı-bərabəri olan ölkə yoxdur. Kənd təsərrüfatı məhsullarının ümumi istehsalına görə ABŞ dünyada Çin və Hindistandan sonrakı yeri tutsa da məhsul ixracatına görə 1-cidir. İxrac etdiyi kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 71 mlrd. dollardan artıq olmaqla bu hər il artmaqdadır. Belə ki, hər il ixrac etdiyi başlıca məhsullardan-yem məhsulları-13 %, buğda-10 %, paxlahlar-9 %, ət - 7 %, pambıq-4 % xüsusi çəki ilə səciyyələnirlər. İxrac olunan məhsulların 50 %-ə qədərinin başlıca alınılan - Yaponiya, Qərbi Avropa ölkələri, Kanadadır. İdxal olunan kənd təsərrüfatı məhsulları tropik meyvələrdən, banandan, ananasda.n, kofe və ətdən ibarət olmaqla ümumi dəyəri 66 mlrd. dollar təşkil edir.

ABŞ maddi istehsalın 3-cü aparıcı sahəsi hesab edilən, yüksək dərəcə də inkişaf etmiş nəqliyyat növlərinə malikdir. İqtisadiyyatın bazar ehtiyacı üçün əmtəə istehsaletmə qabiliyyəti,

əhalinin yüksək artımı və hərəkəti, xarici və daxili iqtisadi əlaqələrin böyük vüsət alması, ölkə ərazisinin böyüklüyü, iqtisadi-coğrafı mövqeyin vəziyyəti, məhsuldar qüvvələrin ərazidə yüksək inkişafı və daha düzgün yerləşdirilməsi, ərazi mənimsənilməsi, əhali məskunlaşması və sair məsələlər nəqliyyatın bu və ya digər növünün sürətlə inkişaf etdirilməsinə tələbatı daha da artırmışdır. Müasir dövrdə nəqliyyatda 10 mln-a yaxın işçi vardır. Yük dövriyyəsində dəmir yolu-32 % (2230 mlrd. ton em), avtomobil-24,5 %, dəniz nəqliyyatı-18 %, boru-kəmər nəqliyyatı-14 %, çay nəqliyyatı -11,0%, hava nəqliyyatı-0,5% xüsusi çəkiyə malikdir. Sərnişin-daşımada isə əksinə, avtomobil nəqliyyatının xüsusi çəkisi - 82 %, hava nəqliyyatının-17,5 % və dəmir yolu nəqliyyatının-0,5% təşkil edir. ABŞ-ın və Kanadanın nəqliyyat sistemləri birlikdə xüsusi olaraq Şimali Amerika nəqliyyat tipini yaratmışlar. Nəqliyyatın xarakter xüsusiyyətlərinə görə ABŞ-ın tayı-bərabəri olan 2-ci dövlət dünya xəritəsində yoxdur. Belə ki, o, dəmir yollarının, avtomobil və boru kəməri yollarının uzunluğuna görə, dəmir yollarının yük dövriyyəsinə, avtomobil və hava nəqliyyatının yük və sərnişin dövriyyəsinə görə, avtomobil parkının kəmiyyət-keyfiyyət göstəricilərinə görə, hava limanlarının sayına və sərnişin buraxma qabiliyyətinə görə, Yaponiya ilə birlikdə «ucuz» bayraqlar altında hərəkət edən gəmilərin yükdaşıma tonnajına görə ABŞ dünyada liderlik edir. Deyilənlərlə yanaşı, ABŞ nəqliyyatı uzaq məsafələrə yük və sərnişindaşıması ilə, şəhərlərarası və beynəlxalq daşımalarda və əlaqələrdə ağılasığmaz səviyyədə inkişaf, yüksək dərəcədə texniki təchizat, nəqliyyat növlərinin artıqlığı və sıxlığı ilə də dünyada fərqlənir. Bununla bərabər, nəqliyyat, digər istehsal sahələrinin təsiri ilə inkişaf edirsə, əksinə, nəqliyyatın özü də məhsuldar qüvvələrin ixtisaslaşmasına, korporasiyasına, düzgün yerləşdirilməsinə müsbət təsir edir. O öz inkişafında illik elektrik enerjisinin 1/4-ni, maye yanacağın Vi-ni istehlak edir. Avtomobil nəqliyyatının inkişafı suburbanizasiyanın, əhalinin tez-tez bir yerdən başqa yerə hərəkət etməsi prosesini daha da artırır.

Avtomobil nəqliyyatına xidmət edən avtomobil yollarının ümumi uzunluğu 8,0 mln. km-ə çatır. Ölkə meridional və enlik istiqamətində bərk örtüklü avtomobil yollarına malikdir. ABŞ ümumi uzunluğu 45,7 min km-ə (yan qollarla birlikdə) çatan və

1930-cu ildən tikilən Panamerikan avtomobil yolu ilə bir çox ölkələrlə, hətta Buenos-Ayres şəhəri ilə də əlaqə saxlaya bilir. Şəhər daşımalarının 98%-i, beynəlxalq daşımaların 85 %-i və işə gedib qayıtmaların 84%-i avtomobil nəqliyyatının öhdəsinə düşür. ABŞ-da 13 min yaşayış məntəqəsinin 90 mln-a qədər əhalisinin hamısı başqa nəqliyyat növü olmadığından ancaq avtomobil nəqliyyatından gərəklənirlər. Müasir avtomobil parklarında 215 mln. ədəd avtomobil saxlanılır. Onun sıxlığı 1000 kv km-də 670 km təşkil edir. Yük dövriyyəsi isə 1450 mlrd. ton km-dən artıqdır.

ABŞ-ın tarixi inkişafında dəmir yolu nəqliyyatımn ölçüyə gəlməz rolu olmuşdur. Dəmir yollarının çəkilişi hər istiqamətə olduğundan, il boyu fasiləsiz işlədiyindən yük dövriyyəsi böyükdür (2230 mlrd. ton. km). 1913-cü ildə ölkədə dəmir yollarının uzunluğu -413 min km-dən artıq idisə, bu 1950-ci ildə - 360 min km, 2002-ci ildə 240 min km-ə enmişdir (dünyada 1-ci yerdədir). Onun sıxlığı hər İOÖO kv km-də 30 km-dən artıq, yük dövriyyəsi isə 2230 mlrd. ton km-dir. Lakin ölkədə mövcud dəmiryollarının ancaq 1,0 %-i elek-trikləşdirilmişdir. Buna səbəb neft monopoliyalanın yeritdikləri siyasətdir. Onlar istəyirlər ki, dəmir yollarında teplovozlardan geniş istifadə edilərək neft və neft məhsullarından yanacaq kimi daha çox istifadə edilsin. Dəmiryolları en və uzunluq istiqamətlərində Sakit okean sahilləri ilə Atlantik okeanı sahillərini birləşdirir. Ölkədə meridional istiqamətdə də 10 magistral dəmir yolu xətləri keçir. Bir çox xətlər isə ərazinin Kanada və Meksika ilə birləşdirilməsinə səbəb olmuşdur. Dəmir yolları ilə daşman başlıca yüklər emal sənaye məhsullarından, dağmədən, kənd təsərrüfatı və meşə materiallarından ibarətdir. Ölkədə başlıca dəmir yolu qovşaqları Çikaqoda, Nyu-Yorkda, Detroytda və Atlantadadır, Çikaqoda 30 dəmiryolu, 9 avtomobil yolu, eləcə də 24 boru kəməri magistarla bir-biri ilə birləşərək qovşaq təşkil edirlər. Qeyd etmək lazımdır ki, üdə 50 mln. sərnişin qəbul edə bilən dünyanın ən böyük hava limanı Oxeyr də Çikaqoda yerləşir. Kütləvi yük daşınmasında dəniz kapotajının və daxili su yollarının əhəmiyyəti heç də az deyildir. Çoxlu sayda çay və göllərin mövcudluğu il boyu gəmilərin naviqasiyasının imkanlarım daha da artırır. Dünyanın ən böyük göl sistemi - Böyük göllər burada yerləşir. Daxili su yollarının ümumi

uzunluğu Missisipi, Missuri, Oqayo, Arkanzas, Kolorado, Kolumbiya, Niaqara və s. Çaylarının , eləcə də Böyük Çölləri Atlantik okean sahilləri ilə birləşdirən və XIX əsrdən fəaliyyətdə olan Eri kanah, Çesapik -Delaver kanalı daxili su yollarının uzunluğunun 45 min km-dən artığa çatmasına imkan vermişdir. Bunun çoxu ölkənin şərq hissəsinin payına düşür. Uzunluğu 4,0 min km-dən artıq olan, əsasən hərbi mühəndislər korpusunun köməkliyi ilə 1930-cu ildən istifadədə olan, möcüzəli Sahil kanalı Meksika körfəzi boyu uzunu-Rio -Qrande çayının mənsəbindən Sent-Marksa (Florida) qədər uzanır. Onun 2-ci qolu isə - Mayamidən Bostona qədər Atlantik okeanı sahil boyu xeyli məsafədə uzanır. Kanalla daşman yüksək neft, neft məhsulları, kimyəvi maddələr, tikinti materialları, kömür, pambıq və sairədir. Daxili daşımalarda eləcə də Böyük göllər -Müqəddəs Lavrentiya su sisteminin də özünə məxsusluğu vardır. Göstərilən su sisteminin sahillərində Kanada və ABŞ-ın böyük limanlan-Çikaqo, Dulut, Detroyt, Buffalo, Qamilton, Toronto, Monreal yerləşirlər. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, göstərilən daxili su sistemi Kanada ilə birlikdə yaradılmışdır. Dəniz nəqliyyatı başlıca olaraq xarici iqtisadi əlaqələrin yerinə yetirilməsinə xidmət edir. Dəniz nəqliyyatında 600-dən artıq gəmi vardır ki, onun da 130-dan çoxu xarici bayraqlar altında («ucuz») hərəkət edirlər. Hal-hazırda amerikan dəniz donanmasının daşıdığı xarici ticarət yükünün illik miqdarı 1,1 mlrd. tondan artıqdır. İxrac və idxal yüklərinin illik miqdan xeyli fərqlidir. Belə ki, Meksika körfəzi limanları hesabına ixracat məhsulları 44%, Atlantik okeanı limanları hesabına isə 24 % təşkil edir ki, onun da illik miqdarı 355 mln. tondan çoxdur. İdxalat məhsullarının illik miqdarı 540 mln.t olmaqla Atlantik okeanı limanları hesabına 36 %, Meksika körfəzi limanları isə 38 % xüsusi çəki ilə fərqlənirlər. Son illərdə ABŞ-da yeni iri dəniz limanları formalaşmışdır. Bunlardan Cənubi Luiziananı (yük dövriyyəsi 204 mln. t) qeyd edə bilərik. Missisipi delta limanları-400 mln. t, Xyuston-165 mln. t, Nyu-York-135 mln. t, Yeni Orlean-89 mln. t yükdaşımalan ilə tanınırlar. Ölkədə dəniz nəqliyyatı o qədər yüksək inkişaf etmişdir ki, o çox vaxtı liman-sənaye komplekslərinin yaranmasına səbəb olur. Son vaxtlara qədər hər birinin illik yük dövriyyəsi 40 mln. tondan çox olan 11, hər birinin yük dövriyyəsi 20-40 mln. ton arasında dəyişən 8 liman

formalaşmışdır. Yük dövriyyəsinə görə 1-ci yeri Atlantik okeanının limanları - Nyu-York, Filadelfiya, Baltimor, Xyuston, Tampa və eləcə də kömür limanı sayılan Xempton - Rads tutur.

Aviasiya nəqliyyatı (hava) yük və sərnişindaşımada başqalarından çox da fərqli deyildir. Lakin sərnişindaşımada başlıca rol oynayır (son illərdə 760 mln. nəfərə qədər sərnişin daşınmışdır). Demək olar ki, bütün şəhərlər bir-biri ilə hava nəqliyyatı ilə əlaqələndirilmişdir. Nyu-York Los-Anjeleslə, Çikaqo Bostonla, Mayami ilə daha sıx əlaqələrə malikdir. ABŞ-ın 5 hava limanı vardır ki, onlar da Çikaqoda Oxeyr, Atlantada Xartsfild, Dallas-Ford-Uert, Denverdə Steplton və Los Andjelesdən ibarətdir. ABŞ dünyada ən böyük aviasiya parkına malikdir. Ölkədə 5000 dövlət hava limanı mövcuddur. Dünyada fəaliyyət göstərən 27 beynəlxalq hava limanından 16-sı ABŞ-dadır.

Boru kəmər nəqliyyatı başqa ölkələrə nisbətən ABŞ-da qədim tarixə malikdir. O ölkədə diaqonal istiqamətli konfiqurasiyaya malikdir. Onun ümumi uzunluğu 730 min (qaz kəmərləri 450 min km-dən çox, neft kəmərləri isə 280 min km) km-dən artıq olmaqla bütün ölkənin tələbatım ödəyəcək istiqamətlərə şaxələnmişdir. Boru kəmər nəqliyyatının uzunluğuna görə ABŞ dünyada 1-ci yeri tutur. Yanacaq rayonları olan Cənub-Qərbdən baş götürərək ölkənin mərkəzini, şimal-şərq ştatlarıın-başlıca istehlak rayonların birləşdirir. Neft məhsulları daşıyan Xyuston - Nyu-York boru kəmərinin uzunluğu 2,5 min km-dən artıqdır. Boru-kəmər nəqliyyatı ilə əsasən neft, neft-emalı məhsulları, təbii qaz nəql olunsa da son illər çox da uzaq olmayan məsafələrə kömür, xırda ölçülü tikinti materialları da daşınmaqdadır. Ölkədə ən uzun neft kəməri 1977-ci ildən fəaliyyətdə olan transalyaska-Bradxo Bey-Valdiz xəttidir. Hər il bu xətlə 90 mln. tona qədər neft ölkənin mərkəzinə, Texasın neft emalı zavodlarına nəql edilir.

Amerika Birləşmiş Ştatlarının xarici iqtisadi əlaqələri ildən-ilə daha da genişlənir. Dünyanın digər ölkələrinə nisbətən ABŞ-ın dünya bazarından asılılığı o qədər də çox deyildir. Lakin ildən-ilə bu asılılıq artmaqdadır. İdxal məhsullarının xüsusi çəkisi 1222 mlrd. dollar, ixracınkı isə 773 mlrd. dollardan çox deyildir. Xarici ticarətin ölçüsünə - dövriyyəsinə görə ABŞ dünya ölkələri içərisində liderlik edir. Onun dövriyyəsi 14 % - 2,5 trln dollardır.

İxracatın 78 %-ni emal sənaye məhsulları, 9 %-ni isə kənd təsərrüfatı məhsulları tutur. İxracat məhsullarında silah satışı aparıcı hesab edilir ki, bu sahədə də ABŞ dünyada 1-ci yerdədir. Get-gedə idxalatda ancaq sənaye məhsullarının xüsusi çəkisi 80 %-ə çatmışdır. Burada avtomobillər -13 %, elektrik avadanlığı-10 %, texniki avadanlıqlar-7 %, paltar-5 % və s. təşkil edir. Ölkənin iqtisadi əlaqələrində Kanada - 20 % (380 mlrd. dollarlıq mal dövriyyəsi), Yaponiya (investisiya qoyuluşuna görə 1-ci yeri tutur), Meksika, Çin, AFR (birlikdə 50 %) başlıca tərəfdaşlarıdır. Yaponiya kompaniyalan ABŞ-da avtomobil zavodu, radio istehsal edən müəssisələr tikmişdir. Amerikaya əhəmiyyətli dərəcədə kapital qoyuluşu Böyük Britaniyadan, neft sahəsinə Niderlanddan, kimyaya Almaniyadan daxil olmaqdadır. ABŞ dünya bazarını 15 % sənaye məhsulları ilə, 50 % buğda ilə, 30 % soya və tütünlə, 70 % qarğıdalı ilə təmin edir. ABŞ-ın dünya iqtisadiyyatında iştirakının başlıca aspekti amerikan dollarının qlobal funksiya daşıması ilə şərh olunur.

Təsərrüfatın ərazi strukturunun yetkinliyi ABŞ kimi böyük bir ölkədə iqtisadi rayonlaşmanın həyata keçirilməsini daha da zəruri edir. Bu əsasdan da Şimal-Şərq, Orta Qərb, Cənub, Qərb makrorayonlarını ayırmaq mümkündür. Göstərilən regionlar da öz növbəsində 9 iqtisadi rayona ayrılır. Bunlar biri-birindən fərqlənən Yeni İngiltərədən, Orta Atlantikadan, Şimal-Şərq Mərkəzdən, Şimal-Qərb Mərkəzdən, Cənubi Atlantikadan, Cənub-Şərq Mərkəzdən, Cənub-Qərb Mərkəzdən, Dağlıq ştatdan, Sakit okean ştatından ibarətdir. Haqlı olaraq Nyu-Yorku ABŞ-m iqtisadi paytaxtı, Kaliforniyanı «Qızıl ştat», Los-Anjelesi isə dünyada ən nəhəng aerokosmik sənayenin mərkəzi adlandırırlar.

IX. CƏNUBİ AMERİKA

Panama bərzəxi Amerika qitəsini 2 hissəyə - Şimali və Cənubi Amerikaya ayırırsa, həmin bərzəxdən keçən 1904-1914-cü illərdə amerkanlar tərəfindən çəkilmiş və uzunluğu - 82 km, eni 150-305 km-ə qədər, ən dayaz yeri-12 m, slyüzlarının sayı-3, buraxdığı gəmilərin tonnajı-65-70 min ton, yük dövriyyəsi-200 mln.

ton, sutkada gəmi buraxma dövriyyəsi-24 gəmi, gəmilərin keçmə müddəti-9 saat təşkil edən Panama kanalı onu birləşdirir.

Cənubi Amerikanınn sahəsi adalarla birlikdə - 18,28 mln. kvkm olmaqla şimaldan cənuba -7200 km, qərbdən şərqə-5000 km məsafədə uzanır. Sahil xəttinin uzunluğu-26000 km-dir. Əhalisi - 354,88 mln. nəfərdir. Bunun-49,8 %-ni kişilər, 50,2 faizini qadınlar təşkil edir. Şəhər-kənd əhalisinin nisbəti-75,4: 24,6 kimdir. Əhalinin hər kv km-də orta sıxlığı - 19,4 nəfər, ən çox sıxlıq Ekvadorda - 47,4 nəfər, ən az sıxlıq isə Surinamda - 2,7 nəfərdən çox deyildir. Əhalinin təbii artımının orta göstəricisi -1,1 %, ən çox artım Paraqvayda - 2,58 % təşkil edir. Regionda ən az təbii artım Uruqvaydadır - 0,93%. İnsanların-qadın-kişi arasmda ömür sürməsi də eyni deyildir. Orta ömür sürmə kişilər üçün - 67,4 il, qadınlar üçün - 73,8 ilə qədərdir. Uzun ömür sürmə kişilər arasında-72,8 ilə çatır ki, bu da Çilidə müşahidə edilir. Qadınlar arasında da uzun ömür sürmə Çili üçün xas olmaqla-79,6 ilə çatır. Az ömür sürmə kişilərdə - 59,4 il (Braziliyada), qadınlarda-65,3 ildən artıqdır (Qayanada). Əhalinin orta hesabla 95 %-i savadlılardan ibarətdir. Bu sahədə Qayana dövləti seçilir (98 %). Nisbətən az savadlılar Boliviyadadır - 83%. Cənubi Amerika regionunda istər ərazisinə və istərsə də əhalisinin sayına görə fərqlənən dövlətlər vardır. Burada 12 müstəqil dövlət, eləcə də Argentina aə Böyük Britaniya arasında mübahisəli oian Folklend - Malvin adaları yerləşir. Deyilənlərlə yanaşı, Fransanın mülkü hesab edilən Qviana torpaqları da buradadır. Bütün dövlətlər respublika idarəetmə formasına, 3 dövlət isə federativ inzibati ərazi bölgüsünə malikdir. Əhalinin milli tərkibinin çoxu hind-avropa mənşəli xalqlardan ibarətdir. Materikin şimal-şərqində Afrika mənşəli xalqlar yaşayırlar. Ən çox saylı xalq braziliyalılar, kolumbiyalılar, argentinalılar, venesuelalılar, çilililər, perudan olanlar hesab olunurlar.

Boliviyada, Peruda, Ekvadorda çoxluğu təşkil edənlər hindlilərdir. Əksər ölkələrdə ispan dili aparıcı hesab olunur. Braziliyada portuqal, Qayanada-ingilis, Surinamda-liderland dili hakimdir. Peruda əsas ispan dili olsa da hindlilərin keçua və aymara dilləri də özünə yer tapmışdır. Dini baxımdan Cənubi Amerikada - 77 % katolik, qalanları isə hinduistlər, protestantlar, müsəlmanlar, iudaistlər, pravoslavlardır. Cənubi Amerikada ən böyük dövlət

ərazisi-8512 min kv km, paytaxtı Brazilia olan Braziliya hesab edilir. Ərazinin kiçikliyinə görə Surinam -163,3 min kv.km, əhalisinin azlığına görə isə - 436,5 min nəfər olan yenə də Surinam tanınır. San-Paulu -18,5 mln. nəfər əhali ilə regionda 1-ciyeritutur.

Ümumi Daxili Məhsulun adambaşına düşən ən çox illik miqdarına görə Argentina-10,2 min dollar, ən az Boliviya-2,6 min dollar tanınır.

IX.I. Braziliya Federativ Respublikası

Sahəsi - 8512 min kv.km

Əhalisi - 180 mln. nəfər

Paytaxtı - Brazilia şəhəridir.

İllik Ümumi Daxili Məhsul istehsalı - 1,1 trln dollardan çox

Adambaşına düşən Ümumi Daxili Məhsul - 7,4 min dollar Braziliya Cənubi Amerikanın mərkəzi və şərq hissəsində yerləşir. O, qərbdən 1224 km-lik məsafədə Argentina ilə, 3400 km məsafədə Boliviya ilə, 1290 km məsafədə Paraqvayla, 1560 km məsafədə Peru ilə, şimalda -2200km məsafədə Venesuela ilə, 1119 km məsafədə Qayana ilə, 673 km məsafədə Fransa Qvianası ilə, 597 km məsafədə Surinamla, şimal-qərbdə 1643 km məsafədə Kolumbiya ilə, cənubda 985 km məsafədə Uruqvayla sərhədləşir. Şərqdə və şimalda Atlantik okeanın suları ilə əhatələnir. Sahil xəttinin uzunluğu 7491 km olmaqla quru sərhədi 16000 km məsafəyə malikdir. Braziliya, istər sahəsinin böyüklüyünə və istərsə də əhalisinin sayına görə dünyada 5-ci dövlət kimi tanınır. O quru sərhədinin uzunluğuna, sərhədində yerləşən dövlətlərin sayına (10) görə yalnız dünyada Çin və Rusiya Federasiyasından geri qalır. Onun əlverişli coğrafi mövqeyi vardır.

Dünya okeanı ilə sərhədləşməsi xarici aləmə çıxışını təmin etmiş olur. Braziliyanın özündən zəif ölkələrlə əhatələnməsi, super dövlət olan ABŞ-la okeanla, hava nəqliyyatı ilə, eləcə də dünyanın ən uzun avtomobil yolu olan (yan qolları ilə birlikdə 45,7 min km) Panamerikanla hər cür əlaqə saxlaya bilməsi onun coğrafi mövqeyinin əlverişliliyindən xəbər verir. Digər tərəfdən, ölkə ərazisinin en (şimaldan-cənuba 4320 km) və uzunluq istiqamətində

çox böyük məsafədə uzanması, ümumiyyətlə, Latın Amerikasında olan xüsusiyyətlərin hamısının burada da mövcud olmasına şərait yaratmışdır. Deyilənlər azmış kimi iri liman şəhərlərinin varlığı çoxlu sayda dünya ölkələri ilə iqtisadi əlaqələrin yaradılmasının təminatçısı rolunu oynamaqdadır. Ölkənin coğrafi mövqeyinin xüsusiyyətləri müstəmləkə vəziyyətinə düşməyə, eləcə də ondan azad olmağa, habelə xarici kapitalın və transmilli korporasiyanın ölkəyə çox asan daxil olmasına öz təsirini göstərmişdir.

Portuqaliyalılar 1500-cü ildə Braziliyaya daxil olaraq 3 əsrdən artıq bir dövrdə onu əsarət altında saxlamışdır. Göstərilən müddətdə portuqaliyalılar ərazinin zəngin almaz və qızıl təbii sərvətlərini istədiyi miqdarda mənimsəyə bilmişlər. Təsadüfü deyildir ki, Braziliya XVIII əsrdə dünyada hasil olunan qızılın 50 %-dən artığım vermişdir. Nəhayət, Braziliya, 1822-ci ildə müstəqilliyini elan etmiş və 1889-cu ildə monarxiya taxt-tacını devirərək respublika idarəetmə formasma keçmişdir. Hal-hazırda inzibati ərazi quruluşuna görə federativ respublika olan Braziliyada 26 ştat və paytaxtı Brazilia yerləşən federal əyalət vardır. Ölkənin axırıncı Konstitusiyası 5 oktyabr 1988-ci ildə qəbul edilmişdir. Konstitusiyaya görə ölkənin və hökumətin başçısı, ali baş komandan prezidentdir. Qanunvericilik hakimiyyəti 2 palatalı (senat və deputatlar palatası) parlamentə məxsusdur. Ən apancı Braziliya sosial demokratlar, Braziliya demokratik hərəkatlar, liberal cəbhə və Sosial-demokratlar partiyası fəaliyyət göstərir.

Braziliya ərazisinin böyüklüyü, en və uzunluq istiqamətində xeyli məsafədə uzanması təbii şəraitin müxtəlifiiyindən xəbər verir. Ölkə relyefinin mürəkkəbləşməsi dünyanın ən böyük düzənliyinin, yaylasının və And dağlarının olması ilə bağlıdır. Amazon düzənliyi And dağlarından başlayaraq Atlantik okeanına qədər 3200 km məsafədə yerləşməklə 5 mln. kv.km-dən artıq ərazini əhatə edir. O, şimaldan Qviana və cənubdan hündürlüyü Bandeyra zirvəsində 2890 metrə çatan Braziliya yaylası ilə əhatələnir. Amazon düzənliyinin səthi az parçalanaraq enli dərələrlə, çoxlu sayda sulu çaylarla, çoxtərkibli meşə ilə müşahidə olunur. Braziliya yaylası isə qalıq dağlarla, təpələrlə, çoxsahəli hündür düzənliklərlə əks olunan relyefə malikdir. Ölkə ərazisinin ümumi relyefi qərbdən-şərqə doğru meyillidir. Şimal hissə hələ də az mənimsənildiyindən ən çox

məskunlaşma Braziliya yaylasının sahil zonalarında həyata keçirilmişdir.

Ümumiyyətlə, ərazi böyüklüyü yeraltı və yerüstü təbii sərvətlər bolluğu deməkdirsə, bu Braziliyaya da aiddir. Belə ki, ərazinin təbii sərvətləri tələb olunan səviyyədə öyrənilməsə də mineral sərvətlərin sənaye əhəmiyyətli 50-dən artıq növü aşkarlanmışdır. Latın Amerikasında mövcud bərpa olunan, bərpa olunmayan, tükənməyən təbii sərvətlərin hamısı Braziliya ərazisində mövcuddur. Dəmir filizi, titan, kobalt, pirit, xromit, manqan, boksit, qalay, qurğuşun, dağ xrustalı, barit, apatit, molibden, volfram, sürmə, nəcib və qiymətli metal filizləri, mis, şora, neft, qaz, kömür, nadir metal filizləri, torpaq örtüyü, su ehtiyatı, meşə örtüyü, aqroiqlim ehtiyatları, rekreasiya və iqlim ehtiyatları Braziliyaın nəinki Latın Amerikası regionunda, habelə dünyada tanıdır. Qeyd etmək yerinə düşərdi ki, Braziliya filizlərinin kəmiyyət və keyfiyyət göstəricilərinə görə regionda 1-ci dövlət hesab edilir. Sonrakı yerləri ardıcıl olaraq Meksika, Çili, Peru, Kolumbiya tutur. Dəmir filizi ehtiyatları ilə təmin olunmasına görə Braziliya kapitalist dünyasında ən qabaqcıl yer tutur. Ehtiyatı 80-100 mlrd. tondan çox aşkarlanan dəmir filizi Para ştatının Karojas (18 mlrd. ton), Minas-Yerays və Matu-Qrasu ştatlarında hasil olunur. Xammalda metalın xüsusi çəkisi 65-70 %-ə çatır.

Yanacaq ehtiyatlarında Braziliya bir o qədər də tanınmır. Ona görə də bu sahədə geoloji axtarış işləri müasir dövrdə də aparılmaqdadır. Nəticədə kontinental şelf zonasında yeni-yeni neft yataqları aşkar edilmişdir. Onu da qeyd etmək lazımdır ki, Braziliya dənizdə dünyada ən dərin quyu qazılmasında liderlər arasına çıxmışdır. Neft ehtiyatları Atlantik okeanı sahili boyunda, Amazon, Paran, Parnaib düzənliklərində, Amazon çayı hövzəsində (Madeyra çayı axını boyu), Baiya və Serjipi ştatları ərazisində yataqlara malikdir. Hələlik 170 mlrd. kubmetr ehtiyata malik olan qaz yataqları tapılmışdır. Ölkənin cənubunda ehtiyatı 12 mlrd. tondan çox olan kömür aşkarlanmışdır. Əsasən Riu-Qrandi-du-Sul, Santa-Katarina və Parana ştatları kömür yataqlarına malikdir. Ehtiyatı 40-100 mln. ton arasında dəyişən şist Braziliyanın cənub və cənub-şərq hissəsində xeyli ərazidə müəyyən edilmişdir.

Deyilənlərdən başqa, manqan - Serra-du-Nabiu, Morro-du-Urukum mədənlərində, nikel - Qeyas və Minas - Yerayç ştatlarında, xromit filizi-cənubda, titan - Atlantik okeanın sahillərində, boksit - Minas - Yerays ştatında, mis filizi Baia ştatının Karaiba mədənlərində, 100-dən artıq mədənlərə malik olan polimetal filiz ehtiyatları Ribeyra çayı dərəsində, fosforit - Pernambuku ştatında, apatit - San - Paulu ştatında olmaqla hasilatları ölkədə müvafiq təsərrüfat sahələrinin inkişafmın xidmət etmişdir.

Braziliya 4 iqlim qurşağında yerləşdiyindən onun elementlərinin keyfiyyət göstəriciləri təkrarlanmır. Ekvatorial, subekvatorial, tropik, subtropik iqlim qurşaqları enlik istiqamətində qərbdən şərqə doğru uzanırlar. Qərbi Amazoniyada daimi isti və rütubətli ekvatorial, Amazoniyanın şimalında və Braziliya yaylasının mərkəzində rütubətli yayı və quru qışı olan subekvatorial, yaylanın şərq hissəsində isti və rütubətli tropik və habelə ölkənin cənubunda subtropik iqlim hakimdir. Maksimal yağıntılar qərbdə 3000 mm-dən çox olmur. Ən az yağıntılar Braziliya yaylasının şimal-şərqində 500 mm təşkil edir. Orta yanvar temperaturu 23-29°S arasında, iyul isə 16-24°S arasında dəyişir. Belə hal kənd təsərrüfatı işlərinin maksimum həyata keçirilməsinə şərait yaradır. İl ərzində 8000 fəal temperaturun olması şəkər qamışının, kofenin, kakaonun, kauçuk bitkisinin becərilməsinə imkan verir.

Şirin su ehtiyatı ilə Braziliya çox zəngindir. Burada dünyanın ən sulu çaylarından Amazonu göstərə bilərik. Uzunluğu 6400 km olmaqla hər il Atlantik okeanına -7000 kubmetr (Latın Amerikasında çayların illik su axıını 10,5 min kubmetrdir) su axıdır. Parana, Uruqvay, Paraqvay çaylan da ölkədə məhsuldar qüvvələrin inkişafı və düzgün yerləşdirilməsində əhəmiyyətli rol oynayırlar. Çaylarda okean gəmilərindən istifadə olunur. Onlar, əkinçiliyin inkişafına kömək edən böyük deltalarla səciyyələnirlər. Amazon çayının hidroenerji potensialı - 280 mln. kvt-dan artıqdır. Təkcə San-Fransiskonun hidroenerji potensialı - 14,5 mln. kvt təşkil edir. Maraqlı hal odur ki, Amazon çayı dünyanın yeganələrindəndir ki, yan qolları ilə yer kürəsinin hər iki planetinin yeraltı və yerüstü sularından qidalanır. O eyni zamanda dünyada mövcud olan 214 beynəlxalq çay hövzələrindən biridir.

Məlumdur ki, dünyada 51,2 mlrd. ha meşə sahəsinin 385 mlrd. kubmetr oduncaq ehtiyatı vardır. Bunun 1,3 mlrd. ha-rı və 10 mlrd. kubmetri Latın Amerikasındadır. Latın Amerikasında da Braziliya bu sahədə fərqlənir. Braziliyada 572 mln. ha meşə sahəsinin - 110 mlrd. kubmetr oduncaq ehtiyatının olduğu müəyyən edilmişdir ki, bundan da adambaşına 3,2 ha-dan artıq meşə sahəsi düşür. Əsas meşə sahələri qırmızı torpaqlar üzərində inkişaf etmişdir. Amazo-niyanın meşələrində 4000-dən artıq ağac növü, o cümlədən kauçuk şirəsi verən kauçuk ağacı geniş ərazilərdə yayılmışdır. Hələ I Dünya müharibəsindən əvvəl Braziliya dünya bazarına ən çox təbii kauçuk ixrac edən ölkə kimi tanınırdı. O ixracat məhsullarının 60 %-ni təşkil edirdi. Sonralar süni kauçuk əldə edilməsi təbii kauçukun tədarükünə meyli əhəmiyyətli dərəcədə azalmışdır. Məhsuldar torpaqların olması əkinçilik təsərrüfatına xidmət edir.

Braziliya əhali potensialına görə dünyada 5-ci yeri tutur. 180 mln. əhalinin 60 mln.-a qədərini əmək ehtiyatları təşkil edir. Əhalinin hər kv.km-də orta sıxlığı 21 nəfərdən çoxdur. İllik təbii artım 0,87 %-dir. Kişilərin orta ömür sürməsi - 59,4 il, qadınlarda isə - 67,1 ildən artıqdır. Əhalinin milli tərkibində metislər, mulətlar, zəncilər, Avropadan gələnlər - 95 %-dən artıq xüsusi çəkiyə malikdir. Portuqallar, almanlar, yaponlar da yaşayırlar. Əsas dili - dövlət dili portuqal dilidir. O, 75 % təşkil edir. Şəhər əhalisi kənd əhalisindən çoxdur. Şəhərdə ümumi əhalinin - 81 %-dən çoxu cəmləşmişdir. Paytaxtı əhalisi 2043,2 min nəfər olan Braziliadır (1960-cı ildən). San-Paulu, Rio-de-Yaneyro, Beluo-Orizonti, Salvador, Fortaleza, Resifi ən böyük aqlomerasiyalar sayılırlar. Rio-de-Yaneyro və San-Paulu aqlomerasiyaları yaxın gələcəkdə birləşərək XXI əsrin qiqant meqalopolisini yaradacaqlar.

Braziliyada ərazinin böyüklüyü, mineral təbii sərvətlərin növ və ehtiyat etibarı ilə çoxluğu, yararlı torpaq sahələrinin varlığı, hidroenerji potensialının böyük həcmdə özünə yer tapması, zəngin meşə örtüyünə malikliyi, dünya okeanına birbaşa çıxışının olması, iqlim və aqroiqlim ehtiyatlarının tələb olunan səviyyədə olması, ölkədə məhsuldar qüvvələrin düzgün yerləşdirilməsinə və sürətli inkişafına təkan verir. Əhalinin sayına görə dünyanın 1-ci 5-liyinə daxil olaraq ildə 3,0 mln-dan artıq təbii əhali artımına malik olması

da iqtisadi inkişafın zəminlərindən hesab edilir. Göstərilənlərin hamısı Braziliyanı İEOÖ-in lideri adlandırmağa haqq qazandırmışdır. Tropik ölkələrin nəhəngi sayılan Braziliya ÜDM istehsalında Latın Amerikası regionunda 2-ci, İOÖ sırasında isə Hindistandan sonra 2-ci yeri tutur. O nəinki Latın Amerikası ölkələrinin, habelə dünya iqtisadiyyatının inkişafında aparıcı mövqeyə malikdir. Braziliya iqtisadi inkişafında «şəkərli», «qızılı», «kofeli» mərhələlərdən keçmişdir. Hal-hazırda isə çoxsahəli təsərrüfat növlərinin inkişaf mərhələsini yaşayır. XX əsrdən ölkə «3-cü dünyanın» aparıcısı olmaqla ÜDM istehsalı həcminə görə (1,0 trln dollardan çox) 1-ci onluğa daxil olaraq 9-cu yeri tutur. Dünya məhsulunun 3 %-ə qədərini verən müasir Braziliya nəinki kənd təsərrüfatı məhsulları, mineral xammallar, habelə hazır ağır sənaye məhsulları ixrac edərək hərbi sənaye kompleksini, xarici kapitalın ölkəyə daxil olması hesabına elm tutumlu sahələrdən elektron, aviasiya maşınqayırması, atom, dəqiq mexanika, biotexnologiya və s. növlərin inkişafı ilə şöhrət qazanmışdır. Braziliya yanacağa qənaət etmək naminə şəkər qamışının tullantılarından alman etil spirtini avtomobil sənayesində yanacaq kimi istifadə edən yeganə ölkəyə çevrilmişdir. Avtomobil istehsalında (2,0 mln. ədəd) dünyada 7-ci yeri, ən böyük gücə malik SES-ə, kofe, şəkər qamışı, banan məhsulu toplanmasında isə 1-ci yeri tutan Braziliya soya, portağal məhsulu toplanmasında dünyada ancaq ABŞ-dan geri qalaraq 2-ci yeri tutur. Eyni zamanda Braziliyada əhalinin və təsərrüfat sahələrinin yerləşdirilməsinin okean sahili tipi üsulu üstünlük təşkil edir. Bu əsasdan da okean sahili 300-350 km eninə malik olan zolaqda ümumi əhalinin və təsərrüfat sahələrinin 9/10 hissəsi yerləşdirilmişdir. Belə hal, ölkə daxili ərazilərinin az mənimsənilməsinə və məskunlaşmasına səbəb olmuşdur. Bu əsasdan da Rio-de-Janeyro rayonunda əhalinin sıxlığı Amazoniyadakından 800 dəfə çoxdur. Rio-de-Janeyro, San-Paulu, Belu-Orizonti şəhər rayonları arasını «sənaye üçbucağı» adlandırırlar ki, onların da hər biri təsərrüfat sahələri ixtisaslaşmasına görə bir-birindən fərqlənir.

Maraqlı odur ki, xarici ölkələrə 230 mlrd; dollar borcunun olması onu dünya ölkələri arasında «liderlik» etməyə sövq etmişdir.

Sənaye-aqrar ölkə hesab edilən Braziliya böyük iqtisadi inkişaf potensialına malikdir. ÜDM-də sənayenin xüsusi çəkisi 32 %-dən artıqdır. Dünya sənaye məhsulunun 2 %-ni verir. Onun dağ-mədən, energetika, metallurgiya, maşınqayırma, kimya, neft-kimya, tikinti, meşə, yüngül və yeyinti sahələri ilə yanaşı kurort və turizm, xidmət sferası kimi inkişaf edən sahələri mövcuddur. Sənaye ölkənin «tanışlıq vəsiqəsi» rolunu oynayır, Dağ-mədən sənayesində hasilat sahəsi əsas yer tutur. Dəmir filizi hasilatına və ixaracatına görə dünyada 1-ci yeri tutur. İldə 200 mln. tona qədər dərnir filizi əsasən Minas-Jerays və Karajasda istehsal olunur. Bunun 160 mln. tonu ixrac edilir. Manqan filizi Amapada, Minas- Jerays və Matu-Qrosu ştatları ərazisində hasil olunaraq 80 %-dən çox dünya bazarına cıxarılır. Mis, sink, qurğuşun, nikel hasilatı daxili bazar üçün kifayət edir. Strateji xammallardan niobiy, berilliy, tantal, sirkoniya, kristallik kvars hasilatı məhsulları dünya bazarının aparıcı növləri sayılır (xüsusilə ABŞ üçün). İldən-ilə uran (Posus-di-Kaldas, Olin-da), toriy (Araşa, Minas0-Yerays), monasit qumu (Espiritu - Santu ştatmda), qızıl, almaz, qiymətli daşlar hasilatı artır. Boksit hasilatına (Amazoniyada 13 mln. ton) görə Braziliya dünyada 3-cü yeri tutsa da qalay hasilatında, oduncaq tədarükündə dünyanın birinci 5 ölkəsi sırasında özünə yer etmişdir. Qızıl hasilatında dünyanın 4-cü dövlətidir. Ehtiyatı 1,8 min ton, hasilatı 6,5 tondan çoxdur.

Energetikanın inkişafına fikir verdikdə neftin, qazın, kömürün, elektrik enerjisinin, odunun, odun kömürünün enerji balansında xüsusi çəkiləri ildən-ilə dəyişməkdədir. Enerji balansında neft və qaz

- 44 %, odun və odun kömürü - 29 %>, hidroenerji - 24 %, daş kömür
- 3 %-ə qədər xüsusi çəki ilə tanmırlar. Kömür əsasən Santa-Katarina və Riu - du- Sul ştatlarında ildə 20 mln. tondan artıq istehsal olunur. XX əsrin 80-cı illərindən neft axtarışı işlərinin aparılması geniş həyata keçirildiyindən Braziliya Latın Amerikasında bu sahədə xüsusi yer tutmağa başlamışdır.

Onun illik hasilatı 60 mln. tondan artığa çatmışdır. Bala ştatının Rekonkavu rayonunda, Serjipi və Alaqoas ştatlarında, ən çox

dənizin şelf zonasında neft hasilatı həyata keçirilir. Neft hasilatının illik artımı idxal olunmanın qarşısını xeyli almışdır. Hasilata «Retrobraz»
dövlət neft kompaniyası başçılıq edir. Dövlət tərəfindən Rio-de-Janeyroda, Kabatanda ildə 100 mln. ton xam neft emal edə bilən müasir NEZ-lər yaradılmışdır. Avtomobil mühərriklərinin işə gətirilməsi üçün şəkər qamışından əldə edilən etil spirtindən yanacaq kimi geniş istifadə olunur. Səmt və zavod qazından istifadə olunur.

Energitikanın tərkibində elektroenergetikanın özünə məxsusluğu vardır. Burada İES, AES, SES və alternativ mənbələr elektro-energetikanın inkişafında başlıca zəminlər hesab olunurlar. Ölkədə hasil olunan 340 mlrd. kvt saat elektrik enerjisinin 90 %-ni SES-lər verir. (245 mlrd. kvt saat). 1955-ci ildə tikilmiş və gücü - 3,4 mln. kvt olan Paulo-Afonso SES-i, 1973-cü ildə tikilmiş İlya-Salteyra (3,2 mln. kvt) SES-i, 1987-ci ildə tikilmiş və gücü 5,0 mln. kvt olan Ksindo SES-i və dünyada ən böyük gücə malik olan «İtaypu» SES-i vardır. «İtaypu» SES-i 1984-cü ildə Paraqvay dövlətinin birgə əməkdaşlığı ilə Parana çayı üzərində tikilərək gücü 12,6 mln. kvt-dan çoxdur. Onun gücünün 14,0 mln. kvt-a çatdırılması həyata keçirilir.

Braziliyada ilk AES 1977-ci ildə Rio-de-Janeyro ştatında fəaliyyətə başlamışdır. Onun - 0,6 mln. kvt gücü vardır. O, ildə - 4,0 mlrd. kvt-saat elektrik enerjisi hasil edərək ümumi elektrik enerjisi hasilatının 1,0 %-ni verə bilir. Gələcəkdə AES-lərə üstünlük verilməsi əsas məqsəd kimi qarşıda durur. İES-lər iri sənaye şəhərləri və xammal rayonlarında, alternativ növlər isə əsas mənbə rayonlarında yaradılaraq istehlaka xidmət edirlər.

Qeyd etmək lazımdır ki, Braziliyanın illik yanacaq və elektrik enerjisinə olan tələbatı - 155 mln. tutdan çox deyüdir.

Metallurgiya kompleksi qara və əlvan metallurgiya sahələrini birləşdirir. Qara metallurgiyanın inkişafı yerli yüksək keyfiyyətli dəmir filizinə və gətirmə kokslaşan kömürə əsaslanır. İllik polad istehsalında (28-30 mln. ton) dünyanın 1-ci 10 dövləti sırasında Braziliyanın da adı vardır. Ən böyük qara metallurgiya zavodları Minas-Jerays və San-Paulu ştatlarında fəaliyyətdədir.

Əlvan metallurgiyanın inkişaf etdirilməsi üçün əlverişli şərait vardır. Boksit, mis filizləri istehsalının kifayət qədər olması, elektrik enerjisinin və suyun bolluğu alüminium, mis sahəsinin inikişafını daha da vacib edir. Nəticədə, ildə-1,3 mln. ton alüminium istehsal etmək mümkün olmuşdur. İstehsal olunmuş alüminiumun çox hissəsi ixrac üçün yararlı hesab edilir. Ona görə də Braziliya alüminium ixrac edən aparıcı dövlətlər sırasındadır.

Emal sənayesində maşınqayırma və metal emalı sahəsi məhsul istehsalı miqdarına görə liderlik edir. Onun məhsullarına tələbat ildən-ilə artır. Nəqliyyat maşınqayırmasının avtomobil sahəsi xüsusilə seçilir. Minik maşınları daxili bazar üçün nəzərdə tutulursa, istehsal olunmuş avtobuslar Latın Amerikası ölkələrinin avtomobil parklarının istehlakı üçün ixrac olunur. Avtomobil maşınqayırmasında çalışan 300 mindən artıq işçi qüvvəsi ildə 2,0 mln. ədədə qədər avtomobil istehsal edirlər. Avtmobil parklarında 16 mln-dan çox maşın vardır.

Avtomobil maşınqayırması xarici korporasiyaların 20 mlrd. dollar miqdarında qoyduqları sərmayə əsasında daha da inkişaf etməkdədir. Xarici korporasiyalardan - «Djeneral Motors», «Ford», «Daymler Kraysler», «Folksvaqen», FİAT, «Reno», BMV, «Toyota»nı göstərə bilərik. Yaxın illərdə avtomobil istehsalını — 2,5-3,0 mln. ədədə artırmaq nəzərdə tutulur.

Gəmiqayırma Yapon firmalarının nəzarəti altmdadır. Gəmiqayırmanın ən çox inkişaf etdiyi vaxt XIX əsrin 60-cı illərində baş vermiş «Braziliya iqtisadi möcüzəsi» dövrünə təsadüf edir. İri dəniz limanları böyük gəmi tərsanələrinə malikdir. Braziliyanın beynəlxalq əmək bölgüsündə iştirakı və xarici ticarətin inkişafına daha çox diqqət verməsi milli ticarət flotunun yaradılmasını daha da sürətləndirmişdir. O, Latın Amerikasında dəniz gəmiləri ixrac edən 1-ci ölkə sayılır.

Aviasiya maşınqayırması da sürətlə inkişaf edir. Onun 25-dən artıq növü istehsal olunur.

Latm Amerikası ölkələri içərisində Braziliya dəzgahqayırma sahəsi ilə də tanınır.

Eyni zamanda, o müxtəlif silah növləri istehsalı və ixracı ilə də məşğuldur.

Maşınqayırmanın ən prioritet sahələrindən biri Braziliya üçün elektron-hesablama texnikası sayılır. Yerli müəssisələr informasiya vasitələrinə olan tələbatın 60 %-ə qədərini ödəyə bilirlər. Elektro-nika, kompüter texnikası sahəsində də məhsullarini kompüterlər, mikrokalkulyatorlar istehlaka xidmət edirlər.

İstehlakın mövcudluğu kənd təsərrüfatı maşınlarında traktor istehsalına marağı artırmışdır.

Radio, televizor, çəkiliş kameraları, dəqiq cihazlar, telefon aparatları, müxtəlif məişət avadanlıqlan istehsalı işçi qüvvəsinin, ixtisaslı kadrların olması ilə bərabər az metal tələb etmələri əsasında yaradılmışlar.

Deyilənlərdən belə nəticəyə gəlmək olur ki, maşınqayırma müəssisələri əsasən San-Paulu və Rio-de-Janeyro mərkəzlərində cəmləşmişdir. Braziliya sənayesinin dinamik sahələrindən biri kimya və neft-kimya kompleksidir. Müxtəlif kəmiyyət-keyfiyyət göstəriciləri ilə tanınan kaustik soda, müxtəlif turşular, boya maddələri, azot və fosfor kübrələri, sintetik liflər, sintetik kauçuk, plastik kütlə, partladıcı maddələr istehsalı ilə məşğuldur. Müxtəlif çeşidli bu məhsullar istehsalı ölkədə istehlakı ödəməklə yanaşı məhsuldar qüvvələrin daha dinamik inkişafını və düzgün yerləşdirilməsini təmin edir. Neft emalı sahəsinin mövcudluğu neft-kimya kompleksinin inkişafını zəruriləşdirir. Nəticədə Kubatanda, Baia və Riu-Qrandi-du-Sul ştatlarında neft-kimya kompleksinin müəssisələri məhsul verməkdədir.

Braziliyada yüksək inkişaf dinamikasına malik hərbi sənaye kompleksi mövcuddur. Müxtəlif növ silah istehsalı sahəsi yaradılmışdır ki, onun da çox hissəsi ixrac olunur.

Atom sənayesinin inkişafı yerli təbii sərvətlər ehtiyatının çoxluğu ilə də bağlıdır.

Kosmosun tədqiq edilməsi proqramının həyata keçirilməsinə də əməl olunur.

Braziliyada çoxlu sayda meşə örtüyünün mövcudluğu (ərazinin 60 %-i) oduncaq, taxta-şalban, mebel, faner, hazır evlər, kağız, karton, selülloz məhsulları istehsal edən meşə sənaye sahəsinin formalaşmasına şərait yaratmışdır. Bir qayda olaraq oduncaq tədarükü (260 mln. kubmetr) xammal rayonlarında əldə

olunursa, iri mebel fabrikləri ən çox istehlaka yaxın iri şəhərlərdə yaradılmışdır. İldə - 18,0 mln. kubmetr meşə materialı-taxta-şalban hazırlanır. Tikintinin çörəyi hesab edilən sement, habelə dəmir-beton konstruksiyaları, tikinti daşı, mərmər, şifer, keramik örtüklər, tikinti şüşəsi və sair istehsalı müəssisələri tikinti sənayesinin inkişafından xəbər verir. İri evtikmə kombinatları iri və orta şəhərlərdə cəmləşmişdir. Bu əsasdan da Braziliyada 50 mərtəbəyə qədər çoxlu sayda göydələnlər San-Paulu, Rio-de-Janeyro və başqa şəhərlərdə tikilmişdir.

Hər yer üçün xarakter olan yeyinti sənaye müəssisələri şəkər, ət və ət məhsulları, qənnadı məmulatları, un və un məhsulları, çörək və çörək məmulatları, müxtəlif növ konservlər, tütün məmulatı, çay, kakao, kofe əldə edilməsinə səbəb olmuşdur. Şəkər və şəkər tozu, müxtəlif növ konservlər, ət və ət məhsulları xammal rayonlarına meyl edirlərsə, uzaq məsafələrə daşınması mümkün olmayan, tez xarab olan ərzaq məhsulları istehsah müəssisələri istehlaka meyl edirlər. Çörəkbişirmə sähəsi isə hər bir yerdə inkişaf tapmışdır. Son illərdə şəkər qamışından - 21,0 mln. ton şəkər əldə edilmişdir (çoxunu ixrac edir). Braziliya portağal şirəsi buraxılmasına görə dünyada 1-ci yeri tutur. Onun tullantıları isə heyvandarlığın yemi kimi gərəklidir.

Soyadan hər il - 2,6 mln. ton yağ alınır. Siqaret alınması - 175 mlrd. ədəd təşkil edir. Hər il - 11,2 mln. ton ət məhsulu verir ki, bundan da adambaş;na - 70 kq düşür. İstehsal olunmuş quş ətinin çoxu ixracatda aparıcı yer tutur. Əldə edilmiş 21,6 mln. ton inək südündən adambaşına - 135 kq məhsul - süd düşür. Hazır yeyinti sənayesinin məhsulu kimi dünyada 1-ci yeri tutmaqla ildə - 1,6 mln. ton kofe, 310 min ton kakao tədarük edə bilir.

Yüngül sənayedə pambıq parça, liflərdən süni parça və trikotaj, ayaqqabı sahələri istehlaka xildmət edən aparıcı növlərdir. Hər il - 1,1 mlrd.kv.metr pambıq parça toxunur. Toxuculuğun 2/3 hissəsini pambıq parça sahəsi verir. Ümumilikdə toxuculuğun 50 %-ni San-Paulu fabrikləri, 25 %o-ni isə Rio-de-Janeyro müəssisələri verməkdədir. Adambaşına 6,8 kv.metr parça toxunur. İri şəhərlərdə fabrikləri mövcud olan ayaqqabıların çox hissəsi ixracat məhsullarna aiddir.

Ölkədə məhsuldar qüvvələrin inkişafı və düzgün yerləşdirilməsində, istehlakın ödənilməsi ilə xalqın maddi rifah halının daha da yaxşılaşdarılmasında, işsizliyin qarşısının alınmasında yaxından kömək edən, maddi nemətlər istehsahının 2-ci aparıcı sahəsi olan kənd təsərrüfatının ÜDM-də xüsusi çəkisi - 9%o-dən çoxdur. Kənd təsərrüaftının aparıcı sahələrini taxılçılıq, texniki bitkilər becərilməsi, subtropik və tropik bitkiçiliyi, bağçılıq, bostançılıq, tərəvəzçilik, üzümçülük, habelə heyvandarlıqdan iribuynuzlular, xırdabuynuzlular, quşçuluq, arıçılıq, baramaçıhq, balıqçılıq təşkil edir.

Kənd təsərrüfatı ÜDM-da xüsusi yer tutmaqla ixracat məhsullarının 1/3-ni ödəyir. Bununla yanaşı, ölkənin ərzaq məhsullarına olan tələbatının tam ödənilməsini xammalla təmin edir.

Braziliya kofe, şəkər, portağal şirəsi burxılışında dünyada 1-cidirsə, soya, kakao, tütün toplanmasına, iribuynuzlular və donuzların sayına görə dünya ölkələrinin 1-ci 5-liyinə daxil olan dövlətdir. Ölkə kənd təsərrüfatında çalışanlar ümumi əmək ehtiyatının 30 %-ni təşkil edir. Kənd təsərrüfatı o dərəcədə inkişaf etmişdir ki, onun topladığı kofe, şəkər qamışı, soya, qarğıdalı, kakao, banan, pambıq məhsulları ixracatda əsas yer tuturlar. İxrac etdiyi kənd təsərrüfatı məhsullarının həcminə görə Braziliya ancaq ABŞ və Fransadan geri qalır. Məhsul istehsalında əsasən ixracat məhsulları verən əkinçilik heyvandarlıqdan üstün yer tutur. Pambıq və şəkər qamışı becərilməsi əkinçiliyin qədim sahələrindən hesab edilir. Əkinçilik üçün 2,5 mln. ha suvanlan torpaq sahəsi ayrılmışdır. Hələ XVI-XVII əsrlərdə şəkər qamışı əsasən ölkənin şimal-şərqində, son vaxtlar isə cənubi-şərqində becərilməklə, ondan alman şəkər ixracatında Braziliya dünya şöhrəti qazanmışdır. İxrac olunan kofe, kakao, paxlalar, pambıq, şəkər qamışı və soya ümumi əkin sahəsinin 30 %-dən çoxunu tutmaqla bitkiçilik məhsulunun 35 %-dən artığım verirlər. Cənub-şərq rayonları ölkədə tədarük olunan şəkər qamışının 60 %-dən çoxunu, pambığın isə 1/3-ni toplayırlar. İldə 250 mln. ton şəkər qamışı tədarük etmək mümkün olur.Pambıq toplanmasının illik kəmiyyət göstəricisi - 0,7 mln. tondan az deyildir. Bala ştatında becərilən əsas kənd təsərrüfatı bitkisi illik toplantısı 310-330 min ton arasında dəyişən kakaodur.

Braziliya yüksək keyfiyyətli kofe becərilməsi ilə də tanınır. Dünyada ildə 6,0 mln. tona qədər toplanılan kofenin - 1,6 mln. tonunu Braziliya verir ki, yaxın gələcəkdə onun miqdarını-2,0 mln. tona çatdırmaq planlaşdırılmışdır, Əsasən Parana çayı sahillərində böyük plantasiyalara malik olan kofe insanların həyat tonusunun daha da yaxşılaşdırılmasına xidmət edir. Ölkənin çox rayonunda ölkədə 30 mln. t. məhsul verə bilən soya becərilir. Demək olar ki, hər bir rayonda becərilən, ildə 16 mln. tondan çox məhsul verən qarğıdalı, eləcə də çəhrayı paxla və maniak istehlaka xidmət edən əkinçilik bitkilərindən hesab olunur. Taxıl bitkilərindən buğda, arpa, yulaf becərilir. İllik məhsul toplantısının kəmiyyət göstəricisi 45-50 mln. tondan çox olmur. Hər il 1-30 mln. ton arasında taxıl məhsullan idxal etməli olur.

Braziliya, dünyada sitrus məhsulları toplanması ilə də tanınır. Bu sahədə o dünyada liderlik edir. Əgər hər il dünyada 50 mln. tondan artıq belə meyvə toplanılırsa, onun 24,0 mln. tonunu ancaq Braziliya verir. Təkcə banan və portağal toplanması - 16 mln. tondan çox olur. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, illik banan məhsulu toplanmasında ancaq vətəni Benqal ştatı hesab edilən Hindistandan geri qalır. Sitrus meyvə bağları başlıca olaraq Santa-Katarina və Riu-Qrandi-Du-Sal ştatlarında becərilir.

İxracatda az rol oynamayan çəltik becərilməsi Qoyas, Minas-Jerays, San-Paulu, Maranyan ştatlarında həyata keçirilirsə, ildə 10 mln. tondan artıq toplanan məhsulun çoxunu Riu-Qrandi-du-Sul ştatı verməkdədir (ixrac olunan məhsulun hamısını).

Plantasiyaları Baiya, Paraiba, Riu-Qrandi-Du-Norti ştatlarında olmaqla eksporta göndərilən sizal toplanmasına görə Tanzaniyadan geri qalan Braziliya ildə 167-200 min tona qədər məhsul toplaya bilir. Ölkədə tütünçülük və üzümçülük də inkişaf etdirilməkdədir. Hər il dünyada toplanılan-7,0 mln. ton tütünün-435 min tonunu Braziliya verir.

Ölkənin cənub hissəsində Paraqvay çayı becərilir.

Heyvandarlıq, xüsusilə də ətlik istiqamətli sahə kənd təsərrüfatı məhsullarının 2/5-ni tədarük edir. Heyvandarlığın inkişafı ölkənin hər yerində təbii otlaq sahələrinin olmasına, cənub Riu-Qrandi-Du-Gul ştatmda, Braziliya yaylasının mərkəz hissəsində süni yem verilməsinə əsaslanır. Heyvandarlığın ət, yun,

dəri, gön məhsulları ölkənin hər yerindən, əsasən də Riu-Qrandi-du-Sul ştatından ixrac olunur. Son illər Braziliyada 165 mln. baş iribuynuzlu mal-qara, 700 mln. toyuq, 37 mln. baş (dünyada 3-cü) donuz və 18 mln. baş xırdabuynuzluların saxlanılması müəyyən edilmişdir. Diri çəkili heyvan növləri və quş əti ixrac olunur.

Ölkədə təbii şəraitin müxtəlifiiliyi ərazi üzrə heyvandarlıqda struktur fərqlərinin mövcudlaşmasına səbəb olmuşdur. Bu əsasdan da şimalda, şimal-şərqdə, mərkəz rayonlarında heyvandarlığın zəif, cənub və cənub-şərq rayonlarında satılıq üçün növlər yaxşı (ixrac üçün) inkişafa malikdir. Braziliya üçün kənd təsərrüfatı məhsullarıpnın ixracı ölkəyə ən çox xarici valyuta gətirən təminat hesab olunur.

Balıq və müxtəlif dəniz heyvanları ovlanması Rio-de-Janeyra, Santa-Katarina və Ria-Qrandu-du-Sul ştatlarının sahil sularmda həyata keçirilir. Əldə edilən məhsullun çox hissəsi ixrac olunur. Hər il - 1,5 - 3,0 mln. tona qədər dəniz məhsulları toplanılır.

Arıçılıq, baramaçılıq yerli mənbələrə və istehlaka uyğun olaraq inkişaftapmışdır.

Qeyd etmək lazımdır ki, Braziliya dünyada xeyli miqdarda yerli mənbələr əsasında ilan zəhəri əldə edilməsinə kömək edən dünyada ən böyük herpontoloji komlinata malikdir.

Tropik ölkələrin nəhəngi sayılan Braziliya Federativ Respublikasıda hər yerdə olduğu kimi nəqliyyat əsasən məhsuldar qüvvələrin inkişafı və düzgün yerləşdirilməsində öz rolunu əsirgəmir. Maddi istehsalm 3-cü aparıcı sahəsi hesab edilən nəqliyyat ölkə ərazisində müxtəlif kəmiyyət və keyfiyyət göstəriciləri ilə səciyyələnir. Belə ki, ərazinin çox hissəsi hələ də quru yol nəqliyyatına malik deyildir. Nəticədə, iqtisadi inkişaf ölkə ərazisinin hər yerində eyni səviyyəyə malik olmamışdır. Uzunluğu 31 min km-ə çatan dəmir yolu nəqliyyatı XIX əsrin sonu XX əsrin əvvəllərində formalaşmağa başlamışdır. İri şəhərlər, istehsalla istehlak, ölkənin daxili rayonları ilə iri dəniz limanları bir-biri ilə dəmir yolu nəqliyyatı vasitəsilə əlaqələndirilmişdir. Köhnə yollar modernləşdirilərək yeni-yeni istiqamətlərə dəmir yolları xəttləri artırılır. Uzunluğu 1000 km-ə çatan Şimal-Cənub dəmir yolu xətti çəkilməkdədir.

Avtomobil nəqliyyatı yük və sərnişindaşımada çox böyük əhəmiyyət kəsb edir. Avtomobil yollarının uzunluğu 1,7 mln. km təşkil etməklə daxili rayonlan, istehsalla istehlakı əlaqələndirməyə kömək edir. Avtomobil yollarının uzunluğu Braziliyanı Latın Amerikasında liderlik etməyə imkan vermişdir. Daha sıx avtomobil yolları Cənub-Şərq və Cənub bölgələrindəndir. Təbii sərvətlərin mənimsənilməsi üçün yeni-yeni avtomobil yolları çəkilməkdə davam edir. Resifi və Yuan-Pesoadan (Atlantik sahilində) başlanan Transamazon avtomobil magistralı bütün ölkədən keçməklə Peruya qədər uzanır. Şimali və Cənubi Amerikadan keçərək bir çox dövlətləri, şəhərləri bir-biri ilə birləşdirən və uzunluğu yan qolları ilə birlikdə - 45,7 min km-dən az olmayan (ekvatorun uzunluğundan çox) Panamerikan avtomobil yolunun Braziliya üçün əhəmiyyəti ölçüyə gəlməzdir. Transamazon və Panamerikan xətləri bir-biri ilə birləşdirildikdən sonra magistralların əhəmiyyəti daha da artmışdır. Şəhərlərarası avtobus əlaqələrinin artması xüsusilə əhəmiyyətlidir. Ən uzun (4374 km) avtobus yolu Rio-de-Janeyro-Manaus xəttidir. Bunu qət etmək üçün 100 saat vaxt tələb olunur.

Dəniz və çay daşımalarına görə Braziliya Latın Amerikasında daha qabaqda gedir. Xarici daşımaların 98 %-dən çoxu dəniz nəqliyyatı ilə həyata keçirilir. Bu əsasdan da ölkədə 50-dən artıq böyük dəniz və çay limanları, 1000-dən çox kiçik limanlar salınmışdır. Santus, Rio-de-Janeyro, Resifi, Viktoriya, Tubaran ən iri limanlardan hesab olunurlar. Amazon limanları həm çay, həm dəniz gəmiləri qəbul edə bilir. Ölkədə daxili su yollarının uzunluğu 50 min km-dən artıqdır.

Limanlarının sayına, daşmarı sərnişin və yüklərin miqdarına görə hava nəlqiyyatı, Amerikada ancaq ABŞ və Kanadadan sonrakı yeri tutan Braziliyada daxili şəhərlər hamısı, eləcə də istehsal rayonları bir-biri ilə əlaqələndirilmişlər.

Hava nəqhyyatı dünyanın bir çox ölkələri ilə əlaqə saxlaya bildiyi üçün onu haqlı olaraq beynəlxalq nəqliyyat növü adlandırırlar. Ölkədə 80-dan çox iri, 100-dən artıq xırda, habelə - 5 beynəlxalq hava limanı fəaliyyət göstərir. Bunlardan San-Paulu, Rio-de-Janeyronun adlarını çəkə bilərik.

Boru-kəmər nəqliyyatı istehlakın həlg ki, bir o qədər olmadığından özünə lazımi səviyyədə yer etməmişdir.

Xarici iqtisadi münasibətlərə fikir verdikdə dünya ticarətində Braziliyanın xüsusi çəkisi - 1% olmaqla bir o qədər də rol oynamır. Perspektivdə isə onun rolunun artacağı şübhəsizdir. Xarici ticarətin satış strukturu get-gedə dəyişməkdədir. Sənayenin sürətli inkişafı ixracatda maşınların, avadaqanlıqların (15 %-dən çox), filiz və metalların, kimya məhsullarının üstün yer tutmasına, kənd təsərrüfatı və ərzaq məhsullarının xüsusi çəkisinin azalmasına səbəb olur. İdxalat məhsullarında isə başlıca yeri yanacaq, maşın və müxtəlif avadanlıq məmulatı tutur. Xarici ticarətdə ixracat - 47 mlrd. dollardırsa, idxalat -48,6 mlrd. dollardan artıq deyildir. Burada 60 % xüsusi çəki inkişaf etmiş ölkələrin üzərinə düşür. Başlıca ticarət tərəfdaşları - ABŞ, Yaponiya və eləcə də Avropa Birliyi ölkələridir. Braziliya Latın Amerikası ölkələrinin bir cox iqtisadi birliklərinin, Amazon paktının, La-Plata qrupunun, Latm Amerikası Assosiasiyası İnteqrasiyasının, MERKOSUR-un fəal üzvlərindəndir. Şərqi Avropa ölkələri ilə xarici ticarət çox da ürək açan deyildir. Əvvəllər Rusiya neft, neft məhsulları, cihazlar, müxtəlif növ alətlər, tibb ləvazimatları ixrac edirdisə, Braziliadan kofe, kakao, şəkər tozu, yun, bitki yağı idxal edirdi. Eləcə də, Rusiya ilə iqtisadi, elmi-texniki sahədə hökumətlərarası uzunmüddətli saziş bağlanılmışdır.

Deyilənlərdən belə nəticəyə gəlmək olur ki, eksportda-ixracatda müxtəlif növ maşın və avadanlıqlar, nəqliyyat üçün avadanlıqlar, hərbi texnika və silahlar üstünlük təşkil edirsə, maşın və avadanlıqlar, kimya məhsulları, yanacaq növləri, ərzaq məhsulları xaricdən alınan məhsullardandır.

Braziliyada daxili inkişaf fərqləri 5 iqtisadi rayonun ayrılmasını zəruriləşdirir. Bunlar Şimal-Şərq, Cənub-Şərq, Cənub, Mərkəzi Qərb, Şimal rayonlarıdır.

Şiraal iqtisadi rayonunun sahəsi - 3880 min kv.km, əhalisi - 12920 mln. nəfərdir. Mərkəzi - Qərb rayonunun - 1610 min kv.km ərazisi və 11610 mln. nəfər əhalisi, Şimal-Şərq rayonunun - 1555 min kv.km sahəsi və 47680 mln. nəfər əhalisi, Cənub-Şərq rayonunun- 925 min kv.km. sahəsi və 72260 mln. nəfər əhalisi vardır.

Cənub-Şərq rayonu ölkənin ən inkişaf etmişi hesab edilir. Dağmədən (xüsusilə dəmir filizi), metallurgiya, maşınqayırma

ixtisaslaşmış sahələr sayılırlar. Sənayenin özəyini Minas-Jirays ştatı tutmaqla çuqunun 2/3-ni, polad, prokat və ferrərintilərin-40 %-ni, sinkin-50 %-ni və nikelin-100 %-ni verə bilir. Kənd təsərrüfatında kofe, pambıq, şəkər qamışı, çəltik, meyvə məhsulları toplanması həcmi tələbata müvafiqdir. San-Paulu 16,1 mln-dan çox əhalisi, iqtisadi və bank mərkəzi nəqliyyat və sosial infrastrkturaya malik olan mərkəz kimi tanınırsa, Rio-de-Janeyro 10 mln-a yaxın əhaliyə, mədəniyyət mərkəzlərinə və emal sənaye sahələrinə malikdir.

Cənub başlıca kənd təsərrüfatı rayonu olmaqla yanaşı yerli tələbatın cavab verə bilən çoxsahəli sənayeyə malikdir. Sənaye sahələri Portu - Aleqri və Kuritiba aqlomerasiyalarını yaratmışdır.

Şimal-Şərq kakao, şəkər qamışı, pambıq becərməklə ətlik heyvandarlıqla tanınır. Çoxlu sayda faydalı qazıntı yataqları ilə tanınmaqla mövcud yeyinti və toxuculuq sahələri məhsulları istehlakın ödənilməsinə istiqamətlənmişdir. Resifi, Salvador kimi iqtisadi mərkəzlərlə səciyyələnir.

Mərkəzi-Qərb rayonu ətlik heyvandarlıqla yanaşı donuzçuluqla tanınır. Çəltik becərilməsi üzrə ixtisaslaşmışdır. Hasilat və emal sənayesi üstün yer tutur.

Şinmal rayonu Amazoniyanın çox hissəsini əhatə edir. Dünya meşə ehtiyatının 2/5-si burada cəmləşmişdir. Son illər rayonda mineral xammalların hasilatı və onların emalına xüsusi yer verilir. Burada ölkənin 20-dən çox təbii ərazisi - qoruqlar yaradılmışdır. Təbii kauçuk və meyvə toplanılması ilə yanaşı ovçuluq və balıqçılıq sahələrinə xüsusi diqqət yetirilir. Dağ-mədən sənayesinin manqan, qurğuşun filizləri hasilatı rayonun ixtisaslaşmasına kömək edən sahələrdir. Belen, Manaus rayonda ən böyük sahələrdəndir.

X. A F R İ K A

Şimaldan-cənuba-8 min km məsafədə uzanan Afrika qərbdən-şərqə 7 min km məsafəni əhatə edir. Sahəsi adalarla birlikdə - 30,3 mln. kv km-dir. Əhalisi 841 mln. nəfərdən çoxdur. Kişilər 49,9%, qadınlar 50,1%, şəhər əhalisi 37,7%, kənd əhalisi 62,2% kimi xüsusi çəkiyə malikdir. Hər kv km-də əhalinin orta

sıxlığı 27,8 nəfər təşkil edir. Maksimal sıxlıq hər kv.km-da Nil çayı hövzəsində 1500 nəfər və Mavriki Respublikasında 589 nəfər, ən az isə Qərbi Saxarada 0,9 nəfərdən çox deyildir. Əhalinin təbii artımının orta göstəricisi - 2,3 %, ən çox təbii artım San-Tome və Müqəddəs adasında -3,5 %, ən az təbii artım Zimbabvedə olmaqla 0,05 %-dən çox deyildir. Əhalinin orta ömür sürməsi kişilərdə - 53,2 il, qadınlarda - 56,2 ilə çatır. Ən çox ömür sürmə isə Liviyada müşahidə olunur. Bu kişilərdə 73,7 il, qadınlarda 78,1 il hesablanmışdır. Botsvana və Mozambik ən az ömür sürən əhaliyə malikdir. Daha doğrusu, Botsvanada kişilər 35,2 il, Mozambikdə qadınlar - 34,6 il ömür sürə bilirlər. Bu sahədə Zimbabve ən çox xüsusi çəki göstəricisinə (85 %), ən az Niger-13,6 çəki ilə tanınır. Ərazisinin böyüklüyünə görə Sudan (2505,8 min kv.km) tanınır, əhalisinin çoxluğuna görə isə Nigeriya (130 mln. nəfər) seçiilir. Seyşel adaları 445 kv.km sahəyə malik olmaqla və 80,1 min nəfər əhalini özündə birləşdirərək ən kiçik dövlət hesab olunur. Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində ətrafları ilə birlikdə 11 mln. nəfərə qədər əhali vardır. Bu Afrikada ən böyük dövlət hesab edilir.

Ümumi Daxili Məhsulun adambaşına düşən maksimal miqdarına görə Mavriki dövləti tanınır. Burada hər nəfərə 0,8 min dollar düşür. Ən az-Leonada məhsul istehsalı müşahidə olunur ki, bu da 500 dollardan çox deyıldir.

Afrikanın siyasi xəritəsinə nəzər saldıqda 53 müstəqil dövlətin, 2 asılı ərazinin və 2 xüsusi statusa malik ərazilərin olmasını görürük. Burada 49 respublika, 3 konstitusiyalı monarxiya, 1 Camaxiriya dövləti ayrılır. Böyük Britaniyanın rəhbərliyində olan Birlik qrupunun tərkibinə Afrikadan 18 dövlət daxildir.

Afrikanın irqi və etnik tərkibi çox mürəkkəbdir. Onun əhalisinin yarıdan çoxu neqroid irqinə məxsusdur. Burada 500-ə qədər xalq yaşayır. Bunlardan 10-nun hər birində 1 mln-dan artıq əhali vardır. Afrika ölkələrinin əksəriyyətində ərəb, fransız, ingilis, portuqal və islam dilləri hakimdir. Dini əqidələrinə görə əhalinin 40 %-dən çoxunu xristianlar, 35 %-ni müsəlmanlar, 10 %-dən çoxunu yerli əhali təşkil edir. Şimalda yerləşən ölkələrin əksəriyyəti

müsəlmanlardan, cənubda yerləşən dövlətlər isə xristianlar və onlara yaxın olanlardan ibarətdir.

X.l. Cənubi Afrika Respublikası

Sahəsi-1.22585 kv.km
Əhalisi - 43,65 mln. nəfər
Paytaxti - Pretoriya
ÜDM - 594 mlrd. dollar
ÜDM - adambaşıa - 9,4 min dollar

Cənubi Afrika Respublikası (CAR) Afrika kontinentinin cənub sahəsində yerləşərək şimaldan - 1840 km məsafədə Botsvana ilə, -855 km Namibiya ilə, - 491 km məsafədə Mozambiklə, 430 km məsafədə Svazilend və- 225 km məsafədə Zimbabve ilə, şərqdən 909 km məsafədə Lesoto ilə sərhədləşir. O, qərbdən Atlantik okeanın, cənubdan və şərqdən Hind okeanının suları ilə əhatələnir. Ümumi sərhədinin uzunluğu - 4750 km, sahil xəttinin uzunluğu - 2798 km-ə çatır.

Hələ 1652-ci ildə ərazi Avropadan gəlmə hollandlar tərəfindən mənimsənilmişdir. Sonralar ingilislər bu işləri həyata keçirmişlər (XVIII-XIX əsrlər). Nəhayət, ingilis-holland müharibəsindən sonra 1910-cu ildə burada Cənubi Böyük Britaniyanın dominionu olan Cənubi Afrika İttifaqı adlı dövlət yarädilmış olur. Milli-azadlıq hərəkatının get-gedə vüsət alması nəticəsində Cənubi Afrika İttifaqı (CAİ) 1961-ci ildə Böyük Britaniyanın rəhbərlik etdiyi Birlik ölkələri qrupundan çıxmaqla CAR adlandırılmışdır.

CAR-ın istər təbii şəraiti, istərsə də zəngin və çoxnövlü təbii ehtiyatlarının bolluğu insanların məskunlamasında və əmək fəaliyyətlərindən hərtərəfli istifadə etməyə imkanlıdır. Cənubi Afrika yaylasının çox hissəsi CAR ərazisinin əsasım təşkil edir ki, onun da maksimal hündürlüyü 2000 metrə qədər çatır. Şərqdə maksimal hündürlüyü - 3660 m olan Drakon dağlarının Katnin-Pik zirvəsi relyefln səthini xeyli mürəkkəbləşdirir. Cənubda çox da

hündür olmayan Kap dağları, qərbdə Namib səhrası, şimal-qərbdə Kalaxari səhrasının cənub hissəsi ərazinin relyefini özündə əks etdirən formalardandır. Düzənliklər ancaq sahil zonalarında ensiz zolaqla xeyli sahəni əhatə edir.

Çoxsahəli təsərrüfat növlərinin formalaşmasına səbəb olan amilərdən biri zəngin və çoxnövlü yeraltı və yerüstü təbii sərvətlər bolluğudur. Platin, manqan, uran, xrom, dəmir filizi, qurğuşun, qalay, nikel, fosfor filizləri sənaye əhəmiyyətli ehtiyatlara malikdir. Lakin CAR-m «tanışlıq vəsiqəsi» qızıl, uran və almazla müəyyən olunur. Dünya qızıl ehtiyatının 45 %-i burada yerləşir. Ehtiyatının kəmiyyət göstəricisi-40 min tondan artıqdır. Platin qrupuna aid olan metal filizlərinin, vanadiumun, xromit filizlərinin xeyli hissəsi buradadır. Kömür-ehtiyatı 116 mlrd. ton, dəmir filizi-ehtiyatı -4,0 mlrd. ton, uran-ehtiyatı-150 min ton müəyyənləşdirilmişdir. CAR uran filizi ehtiyatına görə dünyada 6-cı yeri tutur. Hələlik CAR-da neft və qaz ehtiyatları aşkarlanmamışdır.

Daxili su ehtiyatları da ürəkaçan deyildir. Qısa məsafədə daimi axan çayların əksəriyyəti Hind okeanına tökülür. Öz başlanğıcın Lesotodan alan Narıncı (Oranjevaya), Vaal, Limpopo çayları əhəmiyyətlidir. Çayların hidroenerji potensialı yüksək deyildir. Yeraltı sulardan istifadə etməklə yanaşı, dəniz suyunun yararlı hala salınması prosesi də suya olan tələbatın ödənilməsinə xidmət edir.

Torpaqları və meşə örtüyü tələbata müvafiqdir. Savannanın müxtəlif tipli torpaqlan kənd təsərrüfatında istifadə olunur. Ümumi sahəsinin 1/5-i əkinçilik üçün yararlıdır. Ərazi torpaqlarının 10 %-i şumlanır. Otlaq və biçənək sahəsi ümumi ərazinin 65 %-ni tutur. 1,2 mln. ha suvarılan torpaq sahəsi vardır.

Meşə ərazinin az hissəsini örtmüşdür.

Yuxarıda göstərilənlərdən hərtərəfli istifadə etmək üçün iqlim və aqroiqlim ehtiyatlarının müsbət təsiri vardır. Dünyanın tropik və subtropik iqlim qurşaqları enlik istiqamətində ərazidən keçir.Orta illik temperaturu ölkə üçün münasib olmaqla 12-25°S arasında tərəddüd edir. Atmosfer yağıntılarının illik miqdarı isə 100-2000 mm arasında dəyişir.

Ölkədə məhsuldar qüvvələrin inkişafı və daha düzgün yerləşdiriiməsində əhalinin rolu danılmazdır. Əhalinin məskunlaşması, təbii artımı və sıxlığı hər yerdə eyni deyildir. Onun hər kv.km-də orta sıxlığı - 35,7 nəfərdən artıqdır. Təbii artımın göstəricisi - 0,18 %-dir. Kişilər üçün orta yaş həddi-45,2 il, qadınlar üçün-45,7 ilə qədər olduğu qeydə alınmışdır. Əhalinin milli tərkibi afrikalılardan -77,6%, Avropa mənşəlilərdən-10,4 %, metislərdən-8,7 %, Asiyadan gəlmələrdən-2,5 % ibarətdir. Əhalinin 87 %-i xristianlardır. Dövlət dili qədim hollandların bur dilidir. Müsəlmanlar və induistlər ayrı-ayrılıqda-1 % xüsusi çəkiyə malikdirlər. Urbanizasiya - 48 %-dən artıqdır. Ölkənin paytaxtı Pretoriyada şəhər ətrafian ilə birlikdə-1,0 mln.-dan artıq əhali yaşayır. Lakin Yakonnesburqda-5,0 mln. əhali yaşadığı qeydə alınmışdır. 2050-ci ildə 90 mln. nəfər əhalinin olacağı proqnozlaşdırılmışdır. Şəhər-kənd əhalisinin nisbətində üstünlük şəhərin xeyrinə - 55 %-dir. CAR-da 500-dən çox şəhər vardır. 20-yə qədər şəhərin hər birinin 100 mindən artıq əhalisi vardır. Əmək ehtiyatları ümumi əhalinin 13,5 mln. nəfərini əhatə edir.

1961-ci ildə qəbul olunmuş Konstitusiyaya görə CAR Respublika idarəetmə formasına malikdir. İnzibati bölgüyə görə 9 əyalətə ayrılır. CAR öz müstəqilliyini 1910-cu ildə qazanmışdır. 31 mayda Respublika milli bayramı qeyd olunur. Dövlətin və hökumətin başçısı Prezidentdir. Ali qanunverici orqanı-ağlar üçün olan Yığıncaq Palatasından, zəncilər və hindlilər üçün Nümayəndələr Palatasından ibarət olan Parlament sayılır. Millətçilik Partiyası, Afrika Milli Konqresi, Demokrat Partiyası və Konservativ Partiya ən nüfuzlu hesab olunurlar. CAR Afrika kontinentində iqtisadi cəhətdən inkişaf etmiş «köçürmə kapitalist» ölkələri sisteminə (Kanada, İsrail, Yeni Zelandliya və Avstraliya İttifaqı) daxil olmaqla sənaye-aqrar ölkəsidir. O bütün kontinentin iqtisadi inkişafında əhəmiyyətli dərəcədə rol oynayır. Afrika ərazisinin-4 faizinə, əhalisinin 6,0 faizinə malik olan CAR bütün kontinentin ÜDM-nun-27 %-ni, sənaye məhsulunun-40 %-ni, kənd təsərrüfatı məhsulunun-30 %-ni verməkdədir. Afrikada istehsal olunmuş mineral sərvətlərin dəyərinə, elektrik enerjisi hasilatına və polad əridilməsinə görə 1-ci yeri tutur. Dünyada qızıl ehtiyatı və hasilatına, manqan, xrom, vanadium, platin qrupuna daxil olan

metal filizləri hasilatına görə 1-ci, almaz, uran, kömür, dəmir filizi hasilatına görə isə aparıcı yer tutur. Daha doğrusu, istehsal olunan platin qrupuna aid olunan metalların - 53 %-ni, vanadiumun-51 %-ni, xromitin-37 %-ni, qızılm- 25 %-ni verməklə dünyada 1-ci, ağ gümüşü rəngli sirkoniumun-30 %-ni, titanın-20 %-ni verməklə 2-ci, manqan filizi istehlakına görə (12 %) 3-cü, sürmə, şpat istehsalına görə-5-ci yeri tutur. Kənd təsərrüfatının satış sektorunda (5 % ÜDM) yun, meyvə, şəkər məhsulları ixracatı aparıcı əhəmiyyətə malikdir. Sənaye məhsulları istehsah həcminə görə dünyanın aparıcı 20 dövləti sırasındadır. ÜDM-də sənayenin payı - 31 %-dir. Dağ-mədən, yanacağın kömür hasilatı, metallurgiya, maşınqayırma, metal emalı, kimya, tikinti materialları, yüngül, yeyinti sahələri ilə bərabər hərbi sənaye sahələri aparıcı hesab olunurlar.

Dağ - mədən sənayesi ÜDM-nin 10 %-ni verməklə eksport məhsullarının 2/3-ni verməkdədir. Bu əsasdan da istehsal olunmuş xammallar dünyanın 80-dən artıq ölkələrinə ixrac olunur. Ölkədə qızıl hasilatına hələ 1886-cı ildən başlanmışdır. XIX əsrin sonuna qədər hasilat ildə 20-50 ton təşkil edirdisə, bu, XX əsrin əvvəllərində - 30 tona, XX əsrin ortalarında - 800 tona qalxmışdır. Nəhayət, rekord göstəriciyə 1970-ci ildə nail olunmuşdur ki, o da 1000 tondan artığa çatmışdır. Orada işləyənlərin sayı da ildən-ilə artaraq 745 min nəfər təşkil edir. Lakin get-gedə həm hasilat, həm işçi qüvvəsi, eləcə də ölkənin dünya arenasındakı çəkisi azalmağa meyl etmişdir. Məsələn, hasilat-440 tona, işçi qüvvəsinin sayı-240 minə enmişdir (işçi qüvvəsi Lesotodan, Svazilenddən, Mozambikdən də gətirilirdi). İstehsalda kəmiyyət-keyfiyyət göstəricilərinin aşağı düşməsi zəngin yataqlarda (Vitvatersrand, Qautenq əyalətlərində) ehtiyatın tükənməsi, yerin daxili qatlarınınn üst laylarında ehtiyatın tükənməsi ilə əlaqədar olaraq daha dərinliklərdən (dünyanın ən dərin - 3500 m. aşağı laylardan ancaq burada qızıl hasil olunur) hasil olunması (dağ geoloji şəraitin çətinləşməsi), dünya bazarında Avstraliya, Çin, İndoneziya, Qana, Peru, Çili kimi qızıl hasil edən dövlətlərin rəqabət etməsi, istər daxili, istərsə də xarici bazarda qiymətlərdə konyunkturanın baş verməsi kimi hallarla əlaqədar olmuşdur. Öİkə qızıl pullar buraxmaqla da məşğuldur. Deyilənlərin nəticəsində ÜDM-da qızıl sənqayesinin xüsusi çəkisi 4 %-ə qədər düşərək burada çalışan

iqtisadi cəhətdən fəal əhalinin miqdarı-2,5 %-dən çox olmamışdır. Yaddan çıxarmaq lazım deyildir ki, qızıl ixrac olunan mineral xammalların dəyərinin 1/2-ni verir.

Transvaalya ərazisində Narıncı çayı hövzəsində uran yataqları əsasında hələ 50-ci illərdən dağ-mədən sənayesi inkişaf tapmışdır. Bu sahədə CAR Avstraliyadan , Qazaxıstandan, Kanadadan, Nigerdən, Namibiyadan, ABŞ-dan, RF-dən, Özbəkistandan geri qalır. 1952-ci ildə maksimum 6 min ton məhsul istehsal etsə də, son illər bu 1,5 min tona enmişdir.

Ölkə, deyildiyi kimi dağ-mədən sənayesinin almaz hasilatı ilə də tanınır. Belə ki, 1867-ci ildə çoban oğlanın Narınc çayı hövzəsində ilk almaz tapdığı söylənilir. Sonralar Pretoriya, Transvaal və Vitvatorserand ərazilərində xeyli almaz yataqlarının olması aşkarlanmışdır. 1925-ci ildə dünyada ən nəhəng almaz Pretoriyada aşkarlanmışdır ki, onun da çəkis -3160 karat və ya -621,2 qram təşkil etmişdir. Onu «Kullinan» adlandırmışlar. 1907-ci ildə Transvaal hökuməti həmin «Kullinan» almazın 750 min dollara alaraq Britaniya kralı VIII Eduarda doğulduğu gün münasibətilə hədiyyə etmişdir. İldə-10 mlrd. karat təbii almaz hasil edən CAR Avstraliyadan, Konqo DR-mdan, RF-dən, Botsvanadan geri qalır. CAR həm də sintetik almaz alınması ilə də tanınır. Hər il istehsal etdiyi 75 mln. karat almazın 65 mln. karatını sintetik almaz təşkil edir. Ölkədə fəaliyyətdə olan nəhəng «be-Birs» transmilli almaz konserni, eləcə də dünya almaz bazarına nəzarət edir.

Dağ-mədən sənayesinin əhəmmiyyətli sahələrindən biri də dəmir filizi ehtiyatıdır. Metallurgiya xammal kimi gərək olan dəmir filizi hasilatı ildə 34 mln. ton olmaqla bunun 22 mln. tonu ixrac olunur. Yüksək keyfiyyətli dəmir filizi Tabazimbi və Postmasburq (Kap əyaləti) rayonlarında istehsal olunur. Dəmir filizi yataqları yaxınlığında - Postmasburq ərazilərində manqan filizi, Ryustemburq və Leydenburq mədənlərində xrom filizi hasil edilməkdədir.

CAR, eyni zamanda xəlitəli metallar sayılan volfram, vanadium, nikel, titan istehsalı ilə dünyada tanınr.

Metallurgiyanın inkişafi yerli xammallara, suya və elektrik enerjisi hasilatına, istehlaka əsaslanır. Onun məhsulları polad, çuqun, alüminium və sairdir. Pritoriya və Fanderbeylparkda

mövcud kombinatlar ölkədə ən böyük dövlət monopoliyah İSKOR korporasiyasına məxsusdur. Hər il 10 mln. tondan çox çuqun, 20 mln. tondan artıq polad əridilir. Əlvan metallurgiya müəssisələri isə ildə 690 mln. t alüminium yarımfabrikatı əldə edir. Əlvan metal filizlərindən mis, qalay və sürmə də hasil olunur. Sürmənin istehsal olunduğu mədən Leysdorpdur. Sürmə ixracatına görə CAR dünyada -ci yeri tutur.

Maşınqayırma və metal emalı sahəsinin aparıcı məhsullan dağ-mədən avadanlıqlarından, nəqliyyat və kənd təsərrüfatı maşınlarından, gəmi təmirindən, vaqonqayırmadan ibarətdir. Maşınqayırmanın aparıcı müəssisələri Vitvatersrandedə, Keyftaunda, Durbanda, Part-Elizabetdə cəmlənmişdir.

Ağır sənayedə kimya özünə məxsus yer tutur. Əsas məhsullar dağ-mədən sənayesi üçün partladıcı maddələr və qızıl çıxarılmasına gərək olan kükürd turşusu hasilatıdır. Müasir kimyanın demək olar ki, bütün məhsulları istehsal olunur. Onun müəssisələri maşınqa-yırmada olduğu kimi, Cənubi Transvaledə və Narıncı əyalətinin şimal hissəsində fəaliyyətdədir. Sasolburqda çoxlu sayda kimya müəssisələrinə dövlət monopoliyalı SASOL korporasiyası nəzarət edir.

Energetika ölkə iqtisadiyyatının özəyi hesab olunur. Buraya hasilat və emal sahələri, elektroenergetika daxildir. Yanacaq sənayesinin kömür hasilatı sahəsi vardır. Pretoriya - Yoxannesburq rayonu (Cənubi Transvaal hövzəsi) aparıcı yataqlarla tanınır. Bununla yanaşı Natol (Nyukasla rayonu) əyalətində də daş kömür hasil olunur. CAR kontinentdə istehsal olunan kömürün 90 %-dən çoxunu verir. Onun illik hasilatı - 222 mln. tondan çox olmaqla 90 %-dən artığı İES-lərin işləməsində istifadə olunur. İxracata - 60 tona qədəri göndərilir. Yerli nefti və qazı olmadığından gətirmə məhsullara əsaslanan emal müəssisələri liman şəhərlərdə müxtəlif növ məhsulların alınmasında köməklik göstərir. İri neft emalı zavodları - NEZ-lər eləcə də Keytaun və Durbanada tikilməklə xarici kapitala tabedirlər.

Elektroenergetika əsasən İstilik Elektrik Stansiyalarına, AES-ə, az da olsa SES-ə əsaslanır. İllik elektrik enerji hasilatında kömürb fəaliyyət göstərən lES-lər iri şəhərlərdə olmaqla 92 %-dən artıq xüsusi çəkiyə malikdir. Ölkədə ildə 14 mlrd. kvt. saat elektrik

enerji hasilatını 2 bloklu, 1,8 mln. kvt gücü olan AES verir. Onun illik elektrik enerjisi hasilatında 7 % xüsusi çəkisi vardır. İldə 205 mlrd. kvt saat elektrik enerjisi hasil olunsa da bəzən Mozambikdən, An-qoladan və Zimbabvedən elektrik enerjisi idxal olunur. Ona görə də kənd yerlərinin elektrik enerjisi ilə təmin olunmasında çatışmazlıqlar mövcuddur. CAR ildə 175 mln. tut yanacaq və enerji hasil edir.

Meşə sənayesinin sellüloz-kağız, taxta-şalban hazırlayan müəssisələri xammal rayonlarında fəaiiyyətdədir. Məhsulları yerli təbbatın ödənilməsinə istiqamətbnmişdir. Mebel sahəsi də vardır.

Tikinti materiallarından sement, tikinti daşı, dəmir beton birləşmələri, şüşə və s. istehsalı sahələri xammala, istehlaka-iri şəhərlərə uyğunlaşmışdır. Belə ki, iri evtikmə kombinatları böyük şəhərlər üçün səciyyəvidir.

Yüngü sənaye məhsulları daxili təbbatı ödəyəcək miqdarda deyildir. Müəssisələri iri və orta şəhərlərdə yaradılmaqla toxuculuq, toxuma, ayaqqabı sahələri ilə səciyyələnir.

Yeyinti sənayesi çoxsahəli olması ilə tanınır. Kənd təsərrüfatı xammalları yeyinti sənaye sahələri üçün baza rolunu oynayır. Onun xammala, istehlaka meyl edən sahələri mövcuddur. Meyvə-konserv sahələri, şəkər, şəkər tozu, xammala meyl edirlərsə, tez xarab olan və uzaq məsafələrə daşınması mümkün olmayan süd və süd məhsulları, çörək və çörək məmulatları istehlaka meyl olunaraq ən çox iri şəhərlərdə müəssisəbrə malikdirbr. İldə xeyli miqdarda şərab, ət məhsulları istehsal olunur. Şəkər qamışmdan alınan şəkərin illik miqdarı - 2,5 mln. tondan artıqdır.

CAR, hələ çox-çox əvvəllərdən hərbi sənayenin inkişafına fikir vermişdir. Müxtəlif növ silah istehsalı buna misal ola bilər.

Qeyd etmək lazımdır ki, sənaye sahələrinin yüksəlməsində iki prinsipə əməl olunur. İri şəhərlərdə, Vitvatersranda sənaye müəssisəbri cəmbşdirilir, həm də liman şəhərbr olan Keyptaunda və Durbanada belə müəssisələrin yaradılmasına üstünlük verilir.

Ölkədə maddi istehsalın 2 aparıcı sahəsi, məhsuldar qüvvələrin inkişafı və düzgün yerləşdirilməsində heç də az rol oynamayan kənd təsərrüfatının ÜDM-də xüsusi çəkisi 3 %-dən artıqdır. Fəal əhalinin 30 %-ə qədəri kənd təsərrüfatında çalışır.

Əkin sahələri ümumi torpaq fondunun 10%-dən artığını əhatə edir. Mövcud suvarma sistemləri ölkədə kənd təsərrüfatının inkişafını daha da sürətləndirir. Kənd təsərrüfatında bir-birindən kəskin fərqlənən Afrika və Avropa sektoru mövcuddur. Afrika sektoru taxıl məhsulunun 12 %-dən artığını verdiyi halda, iribuynuzluların - 40%-ni, qoyunların 10 %-dən çoxunu özündə birbşdirmişdir. Avropa sektoru torpaqların 87 %-nə malikdir. Burada hər fermerin ixtiyarında 900 ha torpaq sahəsi vardır. Torpaqlara Afrika sektorundan fərqli olaraq yüksək səviyyədə aqrotexniki qulluq edilir.

Kənd təsərrüfatının əkinçilik sahəsində taxıl, texniki bitkibr, üzüm, bağ, bostan bitkiləri becərilir. Taxılçılıqda buğda, qarğıdalı becərilməsinə üstünlük verilir. Afrika sektorunun əsas becərdiyi sorqo və qarğıdalıdır. Avropalılar buğda becərilməsinə üstünlük verirlər. CAR buğda məhsulu tədarükünə görə Afrikada aparıcı rol oynayır. Qarğıdalının becərildiyi rayonlar Transvaal və Narıncı əyalətləri əraziləridir. Tərəvəzçiilik, bağçılıq və üzümçülük əhəmiyyətli sahələr hesab edilməklə məhsullarının çox hissəsi ixrac olunur. Bunların becərildiyi rayon əsasən Kap əyalətidir. Bağçılığın və üzümçülüyün əsası həb XVIII əsrin başlanğıcında buraya köçüb gəlmiş fransız quqenotlan tərəfindən qoyulmuşdur. Ölkənin şərq rayonlarında sitrus növləri becərilməklə ixtisaslaşdırılmış tərəvəzçilik fermaları xarakterdir.

Texniki bitkilər əsasında şəkər qamışı (Natalya sahillərində), araxis (ən çox ixrac olunur), kartof, pambıq və tütün becərilməsi durur.

Kənd təsərrüfatının 2-ci aparıcı sahəsi iribuynuzluları, xırdabuynuzluları, donuzçuluğu, quşçuluğu, arıçılığı, baramaçılığı və bahlıçılığı əhatə edən heyvandarlıqdır. Ölkənin hər bir yerində ekstensiv qoyunçuluq inkişaf etdirilmişdir. 40 mln. başa qədər qoyun saxlanılır. Bu, CAR-ı Afrikada 1-ci yerdə saxlayır. Merinos və qaragül dərili qoyunlara üstünlük verilir. Ildə 70 min tondan çox yun tədarük olunur ki, onun da çox hissəsi ixrac olunur. Anqor keçi saxlanılmasının xüsusi əhəmiyyəti vardır. Onların yunundan maxer və s. məhsullar hazırlanmasında istifadə olunur.

Otlaq heyvandarlıq - ətçilik-südlük istiqamətli-Transvaal və Narıncı əyalətlərində saxlanılır. Bu rayonlarda şəhərətrafı südçülük

təsərrüfatları da yaradılmışdır. Ölkədə 15 mln. başdan artıq iribuynuzlu heyvanlar saxlanılır. Quşçuluq şəhərətrafı təsərrüfat sayılır.

Afrika ölkələri içərisində başçılığa görə CAR 1-ci yeri tutur. Arıçılıq və baramaçılıq yeyinti və yüngül sənaye sənayelərinin inkişafına xidmət edir.

Afrika kontinentində nəqliyyatın ən yaxşı inkişaf etdiyi ölkələrdən biri Cənubi Afrika Respublikasıdır. Dəmir yolları yük və sərnişindaşımada aparıcı əhəmiyyətə malikdir. Onun uzunluğu 24 min km-dən artıq olmaqla dövlətin ixtiyarındadır. Sıxlıq ən çox sənaye rayonlarında müşahidə edilir. Dəmiryolların sıxlığı hər 1000 kv.km-da 20 km-dir 50 % elektrikləşdirilmiş dəmir yollarının yük dövriyyəsi - 105 mlrd. ton km-dir. Dəmir yolları dəniz limanlarına - Keyptaun, İst-London, Port-Elizabet, Durban və Maputlanı (Mozambik) biri-biri ilə əlaqələndirilmişdir. CAR-ın dəmir yolları Botsvana, Zimbabve, Zambiya, Zair, Tanzaniya ilə də əlaqələndirilmişdir. Port-Elizabet-Lyuderits-Tsameb xətti CAR-ı Namibiya ilə birləşdirmişdir. Dəmiryolları ilə daşman yüklər əsasən kömürdən, filizin bu və ya digər növündən, qara metallardan, eləcə də kənd təsərrüfatı məhsullarından ibarətdir.

Avtomobil və aviasiya mədəniyyəti əsasən İkinci Dünya müharibəsindən sonra sürətlə inkişafa başlamışdır. Avtomobil yollarının ümumi uzunluğu - 530 min km-dirsə, onun 2/3 hissəsi bərk örtüyə malikdir.

Ölkəni xarici dünya ilə əlaqələndirməkdə hava nəqliyyatı ilə yanaşı dəniz nəqliyyatı əvəzsiz əhəmiyyət kəsb edir. Keyptaun, Durtan, Riçards-Bey aparıcı dəniz limanlardandır. Axırıncı dəniz limanı ildə - 90 mln. ton yük daşıması ilə tanınır. Port-Elizabet, İst-London əsasən kənd təsərrüfatı məhsulları daşıyan limanlardandır. Ölkənin 2-ci sənaye limanı sayılan Durbaninin daşıdığı yüklər - kömür, mineral xammallar, neft və neft emalı məhsullarıdır. Keyptaun Ümid Burnuna yaxın yerləşərək hələ XVIII əsrin sonlarından fəaliyyətdədir.

CAR-m xarici ticarətdə aparıcı tərəfdaşları «böyük yeddilər»dir. ABŞ, Kanada, Böyük Britaniya, AFR, İtaliya, Fransa, Yaponiya bu sahədə seçilirlər. Dünya bazarında son illərə qədər mineral və kənd təsərrüfat xammalları ilə çıxış edirdi. Son vaxtlar

buraya emal sənaye məhsulları da əhatə olunmuşdur. Qızıl, almaz, uran, platin, metal, yun, şərab ixracatının əsasını təşkil edirlər. Qızıl və atom xammalı başlıca olaraq Böyük Britaniyaya və ABŞ-a ixrac olunur. Almaz isə Avropanın bir çox ölkələrinin istehlakını ödənilməsində gərəklidir. Hər il adambaşına 700 dollarlıq məhsul ixrac edilir.

İdxalat məhsulları - müxtəlif avadanlıqlardan, nəqliyyat vasitələrindən, hazır sənaye məhsullarından, maşınlardan, kimyadan, yanacaq sahəsinə aid olan növlərdən, ərzaq məhsullarıdan ibarətdir. Xarici ticarətin 1/3-i Böyük Britaniya ilə, 1/6-i ABŞ-la həyata keçirilir. Son vaxtlar Afrika dövlətlərindən - Malavi, Lesoto, Botsvana və Svazilendlə də ticarət əlaqələri yaradılmışdır. Neft və neft emalı məhsullari idxah OPEK, ABŞ və Böyük Britaniya şirkət və trestləri ilə həyata keçirilir.

CAR Afrikada ən çox borcu olan dövlətdir. Belə ki, onun xarici borcu 35 mlrd. dollardan artıqdır.

CAR - bir sıra beynəlxalq və beynəlxalq regional təşkilatların-o cümlədən, Beynəlxalq Hesablaşma Bankının, Avropa Kosmik Agentliyinin, Tarif və Ticarət üzrə Baş müqavilənin, Atom enerjisi üzrə Beynəlxalq Agentliyin, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Assosiasiyasının, Beynəlxalq Maliyyə Korporasiyasının, Beynəlxalq Valyuta Fondunun, Beynəlxalq Elektrik əlaqələri Birliyinin, Birləşmiş Millətlər Təşkilatının, Ümumdünya sağlamlıq və sair təşkilatlarının üzvüdür.

Daxili iqtisadi inkişaf fərqlərinin müxtəlifliyi-Şimal-Şərq, Şərq hissələrinin və Kap əyalətinin ayrılmasına səbəb olmuşdur.

Transvaal və Narıncı əyalətlərini də əhatə edən Şimal-Şərq ölkənin ən inkişaf etmiş regionudur. Dağ-mədən sənayesi, ağır emal sahələri, elektrik enerjisi hasilatının demək olar ki, hamısı burada cəmləşmişdir. Əhalinin məskunlaşması və kənd təsərrüfatının yüksək inkişafı ilə də tanınır. Onu da qeyd etmək gərəkdir ki, Yoxannesburq aqlomerasiyası da burada yerləşir. Eyni zamanda Pritoriyanın çox hissəsi, Benoni, Fereninqen şəhərləri də bu aqlomerasiyaya daxildir.

Şərq-Natal əyalətini əhatə edir. Sənaye baxımından inkişaf etmiş regiondur. Daş kömür hasilatına, qara metallurgiyaya,

kimyaya malikdir. Sənaye liman kompleksinin, Durbananın iqtisadi inkişafında böyük rolu vardır. Kənd təsərrüfatında şəkər qamışı, ananas, sitrus növləri üstünlük təşkil edir.

Kap əyalətini daxili inkişaf xüsusiyyətlərinə görə 3 hissəyə ayırmaq olar. Keplend rayonu əhalinin məskunlaşması və ərazi mənimsənilməsinin yüksəkliyi ilə secilir. Sənaye sahələri Keyptaunda fəaliyyət göstərir. Emal sahələri aparıcıdır. Taxılçılıq kənd təsərrüfatının aparıcı sahəsidir. Keplend nəinki bu rayonda, habelə öikodə aparıcı buğda tədarükçüsü kimi tanınır. Üzümçülük, bağçılıq, şərabçılıq və meyvə konserv sahəsinin inkişafına xidmət etməkdədir.

Kap əyaiətinin cənub-şərq və qərb hissələri ölkənin aqrar regionu kimi tanıır. Qərbdə ekstensiv qoyunçuluq, cənubi-şərqdə tərəvəzçilik, bağçılıq, şəhərlərdə isə emal sənaye sahələri vardır.

XI. AVSTRALİYA VƏ OKEANİYA

Buraya Avstraliya və Okeaniya materiki və Sakit okeanın cənub-qərb hissəsində yerləşən ada dövlətlətləri, habelə 10 mindən artıq ada daxildir. 14 dövlət, 13 asıh ərazi mövcuddur. Böyük Britaniyanın rəhbərlik etdiyi Birlik qrupuna 11 dövlət aid edilir. Əhalinin 90 %-dən artığı Avropa mənşəlidir. Əksər ölkələrdə dövlət dili ingilis dilidir. Lakin Nauru nauran, Samoa samoan, Banoatu isə fransız dilinə malikdir. Dini mənsubiyyətinə görə isə xristianların protestant dini üstünlük təşkil edir.

XI. 1. Avstraliya Ittifaqı

Avstraliyanın sahəsi 7682 min kv.km, əhalisi 19,55 mln. nəfərdir. Əhalinin hər kv.km-də orta sıxlığı 2,5 nəfərdən artıqdır. Onun təbii artımı 0,55 %-dən çoxdur. Kişilərdə orta ömür sürmə 77,2 il, qadınlarda isə 83 ilə bərabərdir. Əhalinin 73 %-i ingilis-avstraliyalılardan, 20 %-dən artığı Avropa mənşəlilərdən ibarətdir. Ye'rli əhali ümumi əhalinin 2 %-indən artıqdır. Dövlət dili ingilis dilidir. 75 % əhali xristianlardır. Şəhər-kənd əhalisi arasında çox

böyük fərq müşahidə olunur. O, 35:65 nisbətindədir. Paytaxtı Kanberradır. Paytaxtda 310,5 min əhali yaşayır.

Avstraliya ərazisi 6 ştata və 2 əraziyə bölünür. Avstraliya Böyük Britaniyanın başçılıq etdiyi Birliyə daxil olan federativ döviət sayılır. Dövlət başçısı Böyük Britaniyanın kraliçasıdır. 2 palatalı federal parlament qanunvericilik orqanı, icraedici hakimiyyət isə general-qubernator şəxsində kraliça sayılır. 1984-cü ildə yaradılmış Avstraliya liberal partiyası, 1891-ci ildən bünövrəsi qoyulan Avstraliya leyboristlər partiyası, 1916-cı ildən yaradılmış Avstraliya Milli Partiyası, 1977-ci ildən fəaliyyətdə olan Avstraliya Demokratlar partiyası aparıcı hesab olunurlar. Avstraliya bir çox Beynəlxalq təşkilatların, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, Kolombo Planının üzvüdür. Avstraliya yüksək inkişaf etmiş sənaye-aqrar ölkəsi hesab edilməklə Ümumi Daxili Məhsulda sənaye - 26 %, kənd təsərrüfatı - 3 %-dən artığa çatmır. Dağ-mədən (dəmir filizi, əlvan metal filizləri, uran, qızıl, gümüş, daş kömür, qonur kömür, neft, təbii qaz), qara və əlavan metallurgiya, maşınqayırma - xüsusilə avtomobil, elektronika, elektron, dəzgahqayırma, dəmir yolu, kənd təsərrüfatı maşınqayırması, neft emalı və kimya, neft-kimya ölkədə məhsuldar qüvvələrin inkişafı və daha düzgün yerləşləşdirilməsində aparıcı sayılan sənaye sahələridir.

Kənd təsərrüfatının əsasında zərif yunlu qoyunçuluq, ətlik, südlük istiqamətli iribuynuzlu heyvandarlıq sahəsi durur. Əkinçilikdə taxılçılıq, şəkər qamışı, pambıq, meyvə, üzüm becərilməsi gəürli sahələrdəndir.

Nəqüyyatın bütün növlərinin inkişafı üçün hər cür şərait vardır. Dəmir yolları uzunluğu - 40,5 min km, avtomobil yolları isə 838 min km uzunluğa malikdır. Dampir, Port-Xedlend, Nyukasl, Sidney, Qladston, Xey-Poynt, Melburn, Port-Kembla, Frimantl kimi tanınmış dəniz limanları yaradılmışdır. Hava nəqliyyatının fəaliyyətində Sidney, Melburn, Darvin, Pert kimi beynəlxalq hava limanları böyük rol oynayırlar.

Xarici ticarətdə ixrac olunan məhsullardan mühünı növ xammallar, kənd təsərrüfat məhsulları, müxtəlif növ maşın və avadanlıqlar, idxalatda nəqliyyat vasitələri, istehlak malları, maşın və avadanlıqlar, kimya məhsulları, yanacaq, sürtkü yağları üstünlük

təşkil edir. Xarci ticarətdə ABŞ, Yaponiya, Çin, Koreya Respublikası, Yeni Zelandiya, Avropa Birliyi ölkələri və ASEAN apancı tərəfdaşlardır. Son illər ölkədə ÜDM istehsalı 515 mlrd. dollar, adambaşına Ümumi Daxili Məhsul istehsalı isə 27 min dollardan artıq olmuşdur. Ölkədə Avstraliya dolları (100 sent) başlıca pul vahidi hesab edilir.

XII. ASILI MÜLKLƏR VƏ QƏYYUMLUQDA OLAN ƏRAZİLƏR

Cədvəl 17

№	Ərazinin adı	Məxsus oiduğu ölkələr	Yerləşdiyi yer	Sahəsi kv.k	Əhalisi min.nəfər	Mərkəzi
1	2	3	4	5	6	7
1	Anqliya	B.Britaniya	Karib dənizi	96,0	12,4	
2	Antil	Niderland	Karib	960	214,2	
3	Amerika Samoası	ABŞ	Sakit okean	199,0	68,7	
4	Aruba	Niderland	Karib dənizi	193,0	70,4	
5.	Atoll Conston	ABŞ	Sakit okean	2,8	Daimi əhali yoxdur	
6	Beyker, Xaulend, Carvis	ABŞ	Sakit okean	7,5	Daimi əhali yoxdur	
7	Bermud adaları	B.Britaniya	Atlantik okean	53,3	64,0	
8	Vircin adaları	B.Britaniya	Karib dənizi	153,0	21,3	Rod-Taun

9	Vircin adaları	ABŞ	Karib dənizi	354,8	123,5	Şarlotta-Amaliya
10.	Qvadelup	Fransa	Karib	1780,	4.35,7	Bas-Ter
11.	Qviana	Fransa	Cənubi	9100	182,3	Kayenna
12.	Qibraltar	B.Britaniya	C-Q Avropa	6,5	27,7	Qibraltar

Cədvəl 17-nin davamı

13	Quarn	ABŞ	Sakit okean	549,0	160,8	Aqanya
14	Martinika	Fransa	Karib dənizi	1100,0	422,3	For-de-Frans
15	Miduey	ABŞ	Sakit okean	5,2	Daimi əh.yox	
16	Montserrat	B.Bitaniya	Karib dənizi	102,0	8,4	Plimut
17	Niue	YZellandiya	Sakit okean	262,7	2,1	Alofi
18	Yeni Kaledoniy	Fransa	Sakit okean	19058, 0	207,8	Numea
19	Norflok	Avstraliya	Fidci dənizi	34,5	1,9	Kinqston
20	Müqəddəs adası	Avstraliya	Hind okeanı	135,0	0,47	
21	Müqəddəs Yelena adası	B.Britaniya	Atlantik okean	419,0	1,3	
22	Kayman adası	B.Britaniya	Karib dənizi	259,0	36,3	Corctaun

23	Kuk adası	Yeni Zelandiya	Sakit okean	240,9	20,8	Avarua
24	Pitken	B.Britaniya	Sakit okean	35,5	0,047	Adam staun
25	Puerto Riko	ABŞ	Karib dənizi	9104,0	3958,0	San-Xuan
26	Reyunon	Fransa	Hind okeanı	2517,0	774,0	Sen-Deni
27	Rif Kinqmen	ABŞ	Sakit okean	1,2	Daimi əha. Yox	
28	Şimali Marjan	ABŞ	Sakit okean	477,0	77,3	Saypan
29	Sen Pyer və	Fransa	Atlantik okeanı	242,0	7,0	Sen – Pyer
30	Terks və Kaykas	B.Britaniya	Atlantik okeanı	430,0	18,7	Kobern-Taun

Cədvəl 17-nin davamı

31	Tokelau	Yeni Zelandiya	Sakit okean	10,0	1,4	Fakaofo
32	Uolis və Futuna	Fransa	Sakit okean	274,0	15,6	Maat-Utu
33	Ueyk	ABŞ	Sakit okean	7,7	Dairni əh. Yox	
34	Fransa Polineziyası	Fransa	Sakit okean	4167,0	257,8	Palatte
35	Fransa C.Ərazisi	Fransa	Hind okean	7829,0	Daimi əh.yox	

QƏYYUMLUQDA OLAN ƏRAZİLƏR

36	Antarktika	-	Antarktika	52500 min kv. km	Daimi əh.yox	
37	Hind okeanında Britaniya ərazisi	B.Britaniya	Hind okeanı	60,0	Daimi əh.yox	
38	Qərbi Saxara		Şimal-Qərbi Afrika	266,0 min kv.m.	256,2	Er-Ayun
39	Mayotta	Fransa	Hind okeanı	374,0	170,9	Dzaudzi
40	Fələstin ərazisi		C-Q.Asiya	5879,0	3500	
41	Folklend adaları		Atlantik okean	4200,0	257,8	Port-Stenii

XIII. DÜNYANIN BEYNƏLXALQ TƏŞKİLATLARI

Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsi 24 oktyabr 1945-ci ildə San-Fransiskoda 51 təsisçi dövlət tərəfindən imzalanmış və həmin ildən də fəaliyyət göstərir. Nizamnaməni qəbul edən və onu yerinə yetirməyə hazır olan hər bir sülhsevər dövlət onun uzvu ola bilər. Indi BMT-nin 193 üzvü vardır. Azərbaycan Respublikası 2 mart 1992-ci ildə BMT-yə qəbul olunmuşdur. BMT-nin qərargahı Nyu-Yorkdadır.

BMT-nin orqanları: BMT-nin Baş Məclisi (BM) BMT-nin üzvü olan bütün dövlətlərin nümayəndələri təmsil olunan məşvərətçi orqandır. Nümayəndələrin hər biri bir səsə malikdir. BM hər bir məsələni müzakirə etmək, hər bir məsələ barədə (TŞ-nin nəzarətində olan məsələlər istisna olmaqla) BMT-nin üzvlərinə məsləhət verməkə səlahiyyətinə malikdir. Mühüm məsələlər üzrə

qərarlar iştirakçı ölkələrin 2/3-sinin, digər məsələlər üzrə isə sadə səs çoxluğu ilə qəbul olunur.

BMT-nin Təhlükəsizlik Şurası (TŞ) daimi fəaliyyət göstərir. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün TŞ məsuliyyət daşıyır. TŞ-nin olduqca böyük səlahiyyəti vardır. BMT-nin hər bir üzvü TŞ-nin qərarına tabe olmalı və onu yerinə yetirməlidir. TŞ sülhün və təhlükəsizliyin qorunub saxlanılması, yaxud bərpası üçün istənilən qərar çıxara bilər və bunun həlli üçün tədbiri həyata keçirə bilər. Şuraya BMT-nin 15 ölkəsi daxildir. Onun 5-i-ABŞ, Rusiya, Çin, B.Britaniya, Fransa daimi üzvlərdir, qalanları BM tərəfidən 2 il müddətinə seçilir. TŞ-nin daimi üzvlərinin artırılmasın tələb edən ölkələr var. Yaponiya, AFR, Hindistan kimi ölkələr TŞ-nin daimi üzvlüyünə öz namizədliklərini irəli sürürlər.

BMT-nin İqtisadi və Sosial Şurası (IQSOŞ) iqtisadi, sosial, mədəniyyət, təhsil, səhiyyə, insan hüquqları, ekologiya və s. beynəlxalq məsələləri araşdırır və məlumatlar hazırlayır. Bu məsələlərin hər biri barədə BMT-nin BM-nə, onun üzvlərinə, ixtisaslaşmış idarələrinə məsləhət verir. İQSOŞ-un 5 üzvü var. Onları BMT-nin tərkibindən BM seçir və hər il 1/3-ni dəyişdirir. Onların regional komissiyaları fəaliyyət göstərir.

BMT-nin Beynəlxalq Məhkəməsi (BM) əsas məhkəmə orqamdır. 1945-ci ildə yaradıhb. Dövlətlər arasmda hüquq mübahisələrini həll edir və qəti məsləhət verir. BM və TŞ tərəfindən seçilən 15 hakimdən ibarətdir.

BMT-nin Katibliyi təşkilatın fəaliyyətinə şərait yaradır. Katibliyə TŞ-nin zəmanəti ilə BM tərəfindən 5 il müddətinə seçilən Baş katib rəhbərlik edir. Baş katib beynəlxalq sülhə və təhlükəsizliyə qorxu yarada bilən hər bir məsələni TŞ-nin nəzərinə çatdırmaq hüququna malikdir. Qərargahı Nyu-Yorkda yerləşir.

BMT-nin ixtisaslaşdırılmış idarələrində BMT-nin üzvü olan ölkələrin əksəriyyəti, o cümlədən Azərbaycan da vardır.

Dünya Bankı (DB) - Beynəlxalq valyuta fondunun üzvlərini birləşdirən bir-birilə sıx əlaqədə olan 5 institutdan ibarətdir. Məqsədi: İEÖ-lərin maliyyə köməkliyi hesabına dünya ölkələrinin

iqtisadi və sosial inkişafına təsir etməkdir. 5 institutun hamısının qərargahı Vaşinqtondadır.

Dünya bankı qrupuna aşağıdakılar aiddir:

1. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) maliyyə təşkilatıdır. Tərkibinə daxil olan ölkələrə orta və uzunmüddətli kreditlər verir. BYİB 1945-ci ildə yaradılıb və 1946-cı ildən fəaliyyət göstərir. 180-əqədər üzvü vardır.
2. Beynəlxalq İnkişaf Birliyinin 162 üzvü vardır. Məqsədi: güzəştli kreditlər vermək yolu ilə ən kasıb ölkələrin inkişafına təsir etməkdir.
3. Beynəlxalq Maliyyə Korporasiyasının 170 üzvü var. Məqsədi: sahibkarları həvəsləndirmək yolu ilə iqtisadi artıma nail olmaqdan ibarətdir.
4. İnvestisiya zamini üzrə Beynəlxalq Agentliyin 134 üzvü vardır. Məqsədi: İOÖ-lərdə xarici investisiya yatırımına təsir etmək və onlara zəmanət verməkdir.
5. İnvestisiya mübahisələrinin Nizamlaşdırılması üzrə Beynəlxalq Mərkəz-119 üzvə malikdir. Məqsədi: investisiya qanunauyğunluqları barədə arbitraj və informasiya vermək və bu yol ilə beynəlxalq investisiyanın artımına təsir etməkdir.

Beynəlxalq Valyuta Fondu (BVF) ölkənin beynəlxalq əməkdaşlığına kömək etmək, ödəmə balanslarını tarazlaşdırmaq, valyuta məzənnəsini tənzimləmək, qısa və orta müddətə kredit vermək məqsədi ilə fəaliyyət göstərir. 1946-cı ildən öz məqsədini həyata keçirir. Kredit əməliyyatlarını yalnız rəsmi dövlət orqanları həyata keçirir. Maliyyə vəsaitləri hissə-hissə verilir və borc alan ölkənin üzərinə götürdüyü öhdəliyin yerinə yetirilməsi ciddi surətdə yoxlanılır. BVF-nin kapitalı iştirakçı dövlətlərin üzvlük haqqından əmələ gəlir. Üzvlük haqqının miqdarı ölkənin dünya iqtisadiyyatında və ticarətində xüsusi çəkisinin nəzərə alınması ilə müəyyən edilir. BVF-nin rəhbər orqanlarında səslər də iştirakçı ölkələrin kvotasının ölçüsünə müvafiq olaraq bölünür. Onun 181

üzvü vardır. Qərargahı Vaşinqtondadır. Parisdə şöbəsi fəaliyyət göstərir.

Beynəlxalq Ticarət Təşkilatı (BTT) iştirakçı ölkələrin-130-a qədər ticarət və gömrük siyasətinin müəyyən qaydaya tabe olunmasını, beynəlxalq ticarətin tənzimlənməsini həyata keçirir. 1995-ci ildə yaranmışdır. Qərargahı Cenevrədə yerləşir.

Ticarət və inkişaf üzrə BMT-nin konfransı (UNCTAD)-186 üzvü vardır. Məqsədi: beynəlxalq ticarətin inkişafına təsir etməkdən ibarətdir. Qərargahı Cenevrədədir.

Sənayenin inkişafı üzrə Təşkilat (UNİDO), 166 üzvü vardır. Məqsədi: qlobal, regional, milli və sahəvi səviyyədə sənaye inkişafına və əməkdaşlığa təsir etməkdən ibarətdir.

Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA) 1957-ci ildə atom enerjisinin sülh məqsədi ilə istifadə edilməsi sahəsində beynəlxalq əməkdaşlıq üçün yaradılmışdır. AEBA nüvə təhlükəsizliyi üçün muvafiq normalara əməl olunmasına, nüvə enerjisinin hərbi məqsədlər üçün istifadə olunmamasına nəzarət edir. Agentliyin 120-dən artıq üzvü vardır. Qərargahı isə Vyanadadır.

Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilat. BMT-nin fəaliyyət dairəsi olduqca geniş sahələri-savadsızlıqla mübarizə, elm, insan hüquqları və s. əhatə edir. 180-ə qədər üzvü vardır. Qərargahı Parisdədir.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bütün xalqların sağlamlığını qorumaq məqsədi ilə yaradılmışdır. ÜST xəstəliklərin (spid və s.) ləğvi üçün beynəlxalq əməliyyatlar təşkil edir, yoluxucu və digər xəstəlikiər ilə mübarizədə müxtəlif ölkələrə köməklik göstərir, karantin və epidemiologiyaya, dərman preparatlarının keyfiyyətinə, narkotik maddələrin yayılmamasına nəzarət edir və bu sahələrdə beynəlxalq iş aparır. 180-ə qədər üzvü vardır. Qərargahı Cenevrədə fəaliyyət göstərir.

Beynəlxalq Əmək Təşkilatı insanların həyat və əmək şəraitinin yaxşılaşdınlması məqsədi ilə yaradılmışdır. Bu təşkilatda əmək haqqı, iş günü, muzdla işə qəbul üçün minimum yaş həddi, sosial sığorta, əmək şəraiti və s. kimi məsələlər üzrə beynəlxalq

müqavilələr işlənib hazırlanır. 180-ə qədər üzvü var. Qərargahı Cenevrə şəhərindədir.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı dünyada aclıq ilə mübarizə, kənd təsərrüfatında məhsuldarlığı artırmaq və s. məqsədi ilə 1945-ci ildə yaradılmışdır. 180-ə qədər üzvü vardır. Qərargahı Roma şəhərindədir.

Beynəlxalq Kənd Təsərrüfatı İnkişafı Fondu-158 dövləti birləşdirir. Bu ölkələr üç qrupa bölünür. Onlardan 22-si İEÖ, 12-si neft ixrac edən, 124-ü isə İOÖ-dir. Məqsədi: İOÖ-in daha kasıb kənd əhalisinə ərzaq istehsalının artımına kömək etməkdir. Qərargahı Romada yerləşir.

Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT) meteoroloji müşahidə və tədqiqatlar, meteoroloji məlumatların mübadiləsi sahəsində beynəlxalq əməkdaşlığa kömək etmək məqsədi ilə yaradılmışdır. ÜMT ümumdünya və regional meteoroloji mərkəzlərin məlumatlarından istifadə etməklə «Ümumdünya hava bürosu»nu yaratmışdır. 170-dən artıq üzvü vardır. Qərargahı Cenevrədə yerləşir.

Ümumdänya Turist Təşkilatının (ÜTT)-130-dan artıq üzvü vardır. Məqsədi: turizmin, xüsusilə İEÖ-də bu sahənin inkişafına, sülhün qorunmasına və qarşılıqlı anlaşmaya və s. kömək etməkdir. Qərargahı Madriddə fəaliyyət göstərir.

Bunlarla yanaşı, BMT-də Ümumdünya Poçt İttifaqı, Beynəlxalq Elektrorabitə İttifaqı, Beynəlxalq Dəniz Təşkilatı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, BMT-nin İnkişaf Proqramı, Narkotik vasitələrə nəzarət üzrə BMT-nin Beynəlxalq Proqramı, Məskunlaşma sahəsində BMT fondu, Qadınlar üçün BMT-nin İnkişaf Fondu, Ətraf mühitin mühafizəsi üçün BMT-nin Proqramı, Qaçqınların işi üzrə BMT-nin AIi Komissarlığının İdarəsi və b. ixtisaslaşmış təşkilatlar fəaliyyət göstərirlər.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) sürətli iqtisadi artıma, ayrı-seçkilik olmadan dünya ticarətinin hərtərəfli genişlənməsinə nail olmaq üçün 1961-ci ildə yaradılmışdır. Tərkibinə 29 ölkə daxildir. Qərargahı Paris şəhərində yerləşir.

«Böyük yeddilər»in müşavirəsində daha güclü iqtisadi potensiala malik 7 başlıca ölkə rəhbərlərinin ildə bir dəfə görüşü

keçirilir. Dünya iqtisadiyyatı, dünya siyasəti, qlobal problemlər onların təhlil etdikləri məsələlərin sırasına daxildir. Qərarlar konsensus (yekdillik) qaydası ilə qəbul olunur və tövsiyə xarakteri daşıyır. 1996-cı ildən siyasi problemlərin müzakirəsində Rusiya da iştirak edir. Ona görə də belə görüşləri «Böyük Səkkizlər»in müşavirəsi də adlandırmaq mümkündür.

Paris Klubu (PK) - kredit verən dövlətlərin qeyri-formal birləşməsidir. 1962-ci ildə Parisdə 10 ölkə (ABŞ, AFR, Belçika, İngiltərə, İtaliya, İsveç, İsveçrə, Kanada, Niderland və Fransa) borc barədə BVF ilə müqavilə bağlanmışdır. Bu gün PK-nun tərkibinə 19 ölkə daxildir. PK-nun iclaslarında İOÖ-lərin dövlət borclarının ödəmə müddətinin uzadılması və tənzimlənməsi məsələləri müzakirə olunur.

London klubu - 400-dən artıq ən iri kommersiya banklarının birliyidir. Borclu ölkələrin xüsusi (fərdi) xarici borclarının, yəni dövlət zəmanəti olmadan alınan kreditlərin tənzimlənməsi problemi ilə məşğul olur. Təşkilat 80-cı illərin əvvəllərində beynəlxalq borc böhranının kəskinləşməsindən sonra yaradılmışdır.

Beynəlxalq Ticarət Palatası İEÖ və İOÖ-in yüzlərlə şirkətlərini, təşkilatlarını və digər hüquqi fərdlərini birləşdirən qədim qeyri -hökumət təşkilatlarından biridir. Məqsədi: ticarətin, investisiyanın, azad bazarın genişləndirilməsi yolu ilə dünyada sahibkarlığı inkişaf etdirməkdir. Qərargahı Parisdədir.

77-lər qrupu - 1964-cü ildə UNCTAD-m birinci qurultayında yaradılmışdır. 100-dən artıq ölkəni birləşdirir. BMT və onun orqanları çərçivəsində fəaliyyət göstərir. Məqsədi-beynəlxalq iqtisadi münasibətlərin yenidən qurulması, yeni beynəlxalq iqtisadi qaydaların yaradılması uğrunda birgə mübarizə aparmaqdan, İEÖ-in iqtisadi proqramını işləyib hazırlamaqdan ibarətdir.

XIV MARAQLI MƏLUMATLAR

1. İlk əvvəl Azərbaycanda hansı dövlətlər yaranmışdır?1-Manna, Midiya
2. Eramızdan əvvəl Şimali Azərbaycanda hansı dövlət yaranmışdır?-Albaniya

3. Vaxtı ilə Azərbaycan ərazisində paytaxtı Bərdə olan hansı dövlət mövcud idi?-Girdiman
4. 1828-ci ildə Rusiya ilə İran arasında hansı müqavilə imzalanmışdır?-Türkmənçay
5. Rusiya ilə İran arasındakı Gülüstan müqaviləsi nə vaxt imzalanmışdır?-1813-cü ildə
6. Azərbaycan Demokratik Cümhuriyyəti nə vaxt yaranmışdır?-1918-ci il 28 mayda.
7. Azərbaycan ərazisi əvvəllər nə qədər olmuşdur?-410 min kv.km
8. Azərbaycanın Türkiyə ilə sərhədinin uzunluğu nə qədərdir?-15km
9. Azərbaycanın Ermənistanla sərhədinin uzunluğunu müəyyən edin-1007 km
10. Azərbaycan relyef xüsusiyyətlərinə görə neçə hissəyə ayrılır? - 5
11. Azərbaycan ərazisinin 65 %-dən çoxunu hansı iqlim əhatə edir? - Subtropik
12. Azərbaycan relyefinin orta hündürlüyü nə qədərdir?-657 m
13. Azərbaycanda maksimal atmosfer yağıntıları hansı bölgəyə düşür?-Lənkəran-Astara, 1959-cu ildə, Çərgəlana-2761 mm
14. Azərbaycanda neft ehtiyatı nə qədərdir?-10 mlrd. t
15. Bu vaxta qədər xarici neft şirkətləri ilə neçə müqavilə imzalanmışdır?-24
16. «Əsrin müqaviləsi» nə vaxt imzalanmışdır? -20 sentyabrl994-cüildə
17. «Əsrin müqaviləsi»ni neçə dövlət imzalamışdır?-6
18. «Əsrin müqaviləsi»nin imzalanmasında neçə neft şirkəti iştirak etmişdir?-10
19. Azərbaycan meşə rayonu hesab edilirmi?-yox
20. «Bakı-Supsa» neft kəmərinin istifadəyə verildiyi vaxt-9 iyun 1999-cuil
21. «Bakı-Tbilisi-Ceyhan» neft-boru kəmərinin uzunluğunu müəyyən edin-1767 km
22. «Bakı-Tbilisi-Ceyhan» neft-boru kəmərinin ən çox hissəsi hansı dövlətin ərazisindən keçməlidir? - Türkiyənin
23. Azərbaycan Respublikası əhalisinin sayını müəyyən edin -8,4 mln. nəfər
24. Əmək ehtiyatı nədir? - işçi qüvvəsi
25. BMT nə vaxt yaradılıb? 24 oktyabr 1945-ci ildə

26. Azərbaycan sənaye sahələrinin hansının xüsusi çəkisi daha böyükdür? - Yanacaq
27. Yanacaq-energetika kompleksi nədir?-Yanacaq + elektroenergetika
28. Neft Daşlarında ilk neft hasilatı hansı ilə təsadüf edir? -1949-cu ilə
29. Ən çox neft hasilatı Azərbaycanda neçənci ildə olmuşdur?-1941-ciildə
30. Azərbaycanda ən çox illik neft hasilatını müəyyən edin: -23,5 mln. t
31. Azərbaycanda ildə hasil olunan neftin neçə faizini Xəzər verir? - 89 %-ni
32. Azərbaycanda il ərzində ən çox elektrik enerjisi hasilatını müəyyən edin: - 23,6 mlrd. kvt.saat
33. Azərbaycanda ən çox elektrik enerjisi hasilatının hansı ilə təsadüf etdiyini bilirsinizmi? - 1988-ci il
34. Azərbaycanda son illərdə istifadəyə verilmiş SES: -Yenikənd SES-i.
35. Mingəçevir SES-i nə vaxt tikilmişdir?-1954-cü ildə
36. Azərbaycanda ilk SES harada və nə vaxt tikilmişdir? -1890-cıil, Gədəbəydə
37. Azərbaycanda ilk İES harada və neçənci ildə tikilmişdir? - Bakıda, 1897-ciildə
38. Azərbaycanda müalicə əhəmiyyətli neft harada yerləşir? - Naftalan şəhərində
39. Azərbaycanda ixtisaslaşmış maşınqayırma sahəsini müəyyən edin: - neft-qaz maşınqayırması
40. Azərbaycanda qara metallurgiyanın mərkəzi: Sumqayıt
41. Azərbaycanda kimya sənayesi mərkəzi – Sumqayıt
42. Azərbaycanda ən böyük sement zavodu: Qaradağ
43. Xalq istehlakı malları istehsalına nə daxildir?-Gündəlik tələbat məhsulları
44. Xalq istehlakı malları istehsalı sahələrinin başlıca yerləşdirilmə prinsipi: istehlaka meyilliliyi
45. Kənd təsərrüfatı nədir? - Əkinçilik, heyvandarlıq
46. Azərbaycanda texniki bitkilərdən nə becərilir? - Pambıq, şəkər çuğunduru, kartof
47. Faraş tərəvəzçilik Azərbaycanın hansı bölgəsində inkişaf etdirilir?-Lənkəran-Astara

48. Azərbaycanın cay becərən rayonları-Lənkəran, Astara, Masallı
49. Heyvandarlığın şəhərətrafı ən çox inkişaf etdirilən sahəsini müəyyən edin:-quşçuluq
50. Zəfəran ən çox hansı ölkədə becərilir? - İranda
51. Xidmət sahələrinə nə daxildir? - Ticarət, rabitə
52. Azərbaycanda sərnişindaşımada nəqliyyatın hansı növü 1-ci yeri tutur? - Avtomobil nəqliyyatı
53. Azərbaycanda yükdaşımada 1-ci yeri tutan nəqliyyat növünü müəyyən edin: - Dəmiryolu nəqliyyatı
54. Azərbaycanda ən zəif inkişaf edən nəqliyyat növü:-çay nəqliyyatı
55. Azərbaycanda ilk elektrikləşdirilmiş dəmiryolu nə vaxt çəkilmişdir? - 1926-cı ildə
56. Azərbaycanda neçə dövlət qoruğu yaradılmışdı?-16
57. Azərbaycanda son vaxtlar neçə iqtisadi rayon ayrılır?-10 iqtisadi rayon
58. Azərbaycanda illik məhsul istehsalına görə hansı iqtisadi rayon 1-ci yeri tutur? - Abşeron iqtisadi rayonu
59. Azərbaycanın 1988-1993-cü illər ərzində nə qədər ərazisi Ermənistan ordusu tərəfindən zəbt edilmişdir? 17,0 min kv.km (20 %)
60. Azərbaycanın Yuxarı Qarabağ ərazisinin Ermənistan qoşunları tərəfindən zəbt olunması ilə bağlı BMT-nin neçə qətnaməsinin olduğunu bilirsiniz?-4-822, 853, 874, 884 saylı
61. Aşağıdakılardan hansı monarxiya idarəetmə formasına malikdir? - Monako, Belçika.
62. Dövlətlərdən hansı respublika idarəetmə formasına malikdir? - Azərbaycan, ABŞ
63. Mütləq monarxiyalı dövləti müəyyən edin-Səudiyyə Ərəbistanı
64. Üçqat monarxiyalı dövlət hansıdır?-Vatikan
65. Dövlətlər idarəetmə formasına görə neçə qrupa bölünür?.-2 qrupa
66. Dünyada inzibati - ərazi bölgülərinə görə dövlətlər neçə qrupa bölünürlər? - 2 qrupa
67. Federasiya nədir? - Daxilində müəyyən özünü idarəetmə hüququna malik inzibati ərazi bölgüsü olan dövlət
68. Respublika idarəetmə forması nədir?-Ali qanunverici hakimiyyət seçkili Parlamentə, icraedici hakimiyyət hökumətə məxsusdur.
69. Respublika üsul-idarəsinin neçə forması vardır?-2
70. Prezidentlik idarəetmə formasına hansı dövlət aiddir? - Belorusiya, Azərbaycan, Gürcüstan

71. Respublika idaretmə formasına neçə dövlət daxildir?-160
72. Dünyada federativ dövlətlərin sayını bilirsinizmi?-24
73. Dünyada monarxiya idarəetmə formasına neçə dövlət daxildir? - 30
74. Siyasi coğrafiyanın predmeti nədir? - Dünyanın müasir siyasi xəritəsi
75. Siyasi coğrafiya nəyi öyrədir?-Ərazi üzrə siyasi partiyaların, siyasi hadisə və hərəkətlərin diferensasiyasını.
76. Dünyanın müasir siyasi xəritəsində neçə müstəqil dövlət vardır?-193
77. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft-boru xəttinin Azərbaycan hissəsinə ilk neft nə vaxt doldurulmuşdur?-25 may 2005-ci ildə
78. Müasir siyasi xəritədə neçə dövlət və ərazi yerləşir? - 237
79. Hər birinin ayrılıqda 100 mln-dan çox əhalisi olan neçə dövlət tanıyırsınız?-11 dövlət
80. Konstitusiyalı monarxiya dövlətinin hansı olmasını müəyyən edin: - Böyük Britaniya
81. Azərbaycan idarəetmə formasına görə hansı dövlətlər qrupuna daxildir? - Respublika
82. Ən böyük arxipelaq dövlətinin hansı olduğunu müəyyən edin:- İndoneziya (13000 ada)
83. Dünyada neçə ərəb ölkəsi olduğunu bilirsinizmi?-22 dövlət
84. BMT-nin neçə üzvü var?-193
85. Avropada neçə mikro-«cırtdan»-dövlət yerləşir? -5: Andorra, Lixtenşteyn, Monako, San-Marino, Vatikan
86. Dünyada köçürmə kapitalist dövlətinə aşağıdakılardan hansılar daxildir?-CAR, Avstraliya, Yeni Zelandiya, Kanada, İsrail
87. OPEK nədir, nə vaxt yaradılıb və neçə üzvü var? - Neft ixrac edən ölkələr qrupu, 1960-cı ildə, 16 üzvü vardır.
88. Dünya əhalisinin sayı nə qədərdir? - 6,4 mlrd. nəfər
89. Hər birisinin ərazisi 2,5 mln. kv.km-dən az olmayan neçə dövlət tanıyırsınız? - 10 dövlət
90. Çinin nə qədər əhalisi vardır? - 1,3 mlrd. nəfərdən çox
91. Əhalisinin sayına görə dünyanın 3-cü dövləti tanıyırsınızmı? - ABŞ - 298 mln. nəfər
92. Əhalisinin sayının çoxluğuna görə dövlətlərin ardıcıl düzülüşünü müəyyən edin? - Çin, Hindistan, ABŞ
93. Əhali nədir? - məhsuldar qüvvələrin aparıcı sahəsi

94. BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvlərinin sayı-5-ABŞ, Çin, RF, Fransa, B.Britaniya
95. MDB nə vaxt yaradılıb?-21 dekabr 1991-ci il
96. MDB-nin neçə üzvü vardır?-12
97. MDB-yə gec qoşulan dövlət hansıdır?-Gürcüstan Respublikası-1993-cü il, 29 dekabr
98. «Əsrin müqaviləsi» neçə il müddətinə imzalanmışdır? - 30 il
99. «Əsrin müqaviləsi»nə görə Xəzərdə neft hasil olunan yataqlar: Azəri, Çıraq, Günəşli
100. «Əsrin müqaviləsi»nə görə Azərbaycana təmənnasız veriləcək təbii qazın miqdarını bilirsinizmi? - 55 mlrd. Kubmetr.
101. Dövlətlər quruluşuna görə neçə yerə bölünürlər? - 2
102. Unitar dövlət nədir? -Ərazisində heç bir özünü idarəetmə səlahiyyətli inzibati ərazi bölgüsü olmayan vahid dövlət
103. Ölçülərinə görə dövlətlər neçə qrupa bölünürlər? - 4 (böyük, orta, kiçik, mikro)
104. Dünyada inkişaf etmiş neçə dövlət tanıyırsınız? - 60 dövlət
105. İqtisadi cəhətdən yüksək inkişaf etmiş dövlətlərin sayı -7-dir.
106. Avropada iqtisadi cəhətdən yüksək inkişaf etmiş neçə dövlət tanıyırsınız? - 4 dövlət
107. Asiyada iqtisadi cəhətdən yüksək inkişaf etmiş hansı dövlət yerləşir? - Yaponiya
108. SSRİ dünyanın siyasi xəritəsindən nə vaxt silinmişdir? - 8dekabr l991-ci ldə
109. Azərbaycan BMT-nin üzvlüyünə nə vaxt qəbul olunmuşdur? - 2 mart 1992-ci ildə
110. ABŞ dollan müqabilində hər nəfərə düşən illik Ümumi Daxili Məhsul istehsalının miqdarında dünyanın hansı dövləti 1-ci yerdədir və nə qədərdir?-Lüksemburq-50 min dollar
111. Azərbaycan Neft Fondu nə vaxt yaradılıb?-29 dekabr 1999-cuil
112. Avropa İttifaqının neçə üzvü olduğunu bilirsinizmi? - 15 dövlət
113. Dünyanın siyasi xəritəsinin başlıca formalaşma mərhələləri-6 mərhələ
114. Dünya okeanına birbaşa çıxışı olmayan dövlətlərin sayını bilirsinizmi? - 42 dövlət
115. Bakı-Ərzurum qaz kəmərinin uzunluğu nə qədər olacaq? - 1050 km

116. BMT Təhlükəsizlik Şurası üzvlərinin sayının neçə olduğunu müəyyən edin. - 15
117. Monarxiya idarəetmə forması ən çox hansı qitədədir? - Asiyada 14, Avropada 12, Afrikada 3, Avstraliya İttifaqı və Okeaniyada 1.
118. Hansı ölkədə Konstitusiya yoxdur? - Omanda, B.Britaniyada
119. Böyük Britaniyanın başçılıq etdiyi Birliyin neçə üzvü vardır? -53
120. Hər nəfərə düşən ən az Ümumi Daxili Məhsul istehsalında hansı dövlətin adınıı çəkə bilərsiniz?- Konqo DR-sı
121. Dünyada neçə prezidentli respublika vardır? - 100-dən çox
122. Parlamentli respublikaya hansı dövlətlər aiddir? - Çin, Hindistan
123. Majoritar seçki sistemi nədir? Seçkilərdə üstünlük çox səs alana verilir.
124. İnsanlara bəlli olan ilk metal: - mis metah
125. Yer kürəsində kömürün ümumi ehtiyatmı müəyyən edin: 14,8 trln. ton
126. Dünyada neftli- qazlı sahə - 77 mln. kv.km.
127. Neft ehtiyatına görə dünyanın 1-ci dövlətini müəyyən edin. - Səudiyyə Ərəbistanı - 46 mlrd. t
128. Neft ehtiyatına görə dünyanm 2-ci dövləti hansıdır? - RF - 27 mlrd. ton
129. Neft ehtiyatma görə dünyada 3-cü dövlət hansıdır? - İraq 16,7mlrd. t
130. Dünyada ümumi qaz ehtiyatı nə qədərdir? - 800 trln kub m
131. Hansı ölkə qazm geoloji ehtiyatma görə dünyada 1-ci yeri tutur? - RF - 215 trln kub.m.
132. Dünyanın torpaq fondu nə qədərdir? - 14,9 mlrd. ha
133. Hidrosferin necə faizi Dünya Okeanımn payma düşür? -96,4 %
134. Dünyada ən çox şirin su ehtiyatı hansı regionda və ölkədədir? Latm Amerikasmda, Danimarkada (Qrenlandiyada)
135. Dünyada ən iri və çox süni su anbarları hansı ölkədədir? - ABŞ-da 700
136. Dünyada neçə meşə qurşağı mövcuddur? - 2
137. Meşə örtüyünə görə hansı ölkə 1-ci yeri tutur? - RF 886 mln. ha

138. Meşə örtüyünün çoxluğuna görə dünyada 2-ci yeri hansı ölkə tutur? - Braziliya 572 mln. ha
139. Meşə örtüyünün və sahəsinin böyüklüyünə görə 3-cü yeri hansı dövlət tutur? - Kanada 453 mln. ha
140. İqlim resurslarını müəyyən edin. - Günəş və küləyin enerjisi, rütubət
141. Aqroiqlim resurslarım müəyyənləşdirin. - Hava, işıq, istilik, rütubət, qidalandırıcı qatışıqlar
142. Son illər doğulanların illik sayını müəyyənləşdirin. - 145 mln. nəfər
143. Demokrafik siyasət nədir? - Dövlət tərəfmdən doğuma, kəbinə, boşanmalara, yaş strukturuna, ölümə nəzarət (əhali artıb-azalmasma - hərəkətinə dövlət tərəfindən nəzarətin tənzimlənməsi).
144. Ailə qurulmasmda orta yaş həddi hansı ölkələrdə daha yüksək həddə çatır? - Yamaykada 34 yaş kişi, 32 yaş qadm (34:32),
Danimarkada (29:27), İspaniyada (27:25), İsveçdə (29:27).
145. Dünyada hər il əhalinin təbii artımı nə qədərə çatır? - 90 mln. nəfərə
146. Dünyada kişi-qadın nisbətini müəyyən edin: - 50,3:49,7
147. Dünyada əmək ehtiyatları nə qədərdir? - 3,2 mlrd.nəfər
148. Fəal əhali ümumi dünya əhalisinin neçə nəfərini özündə birləşdirir? - 3,0 mlrd. nəfərini
149. Ən çox əmək ehtiyatı hansı ölkədədir? - Çində - 710 mln, Hindistanda 450 mln-dur.
150. Ən uzun orta ömr sürmə hansı ölkə üçün xarakterdir? Yaponiya üçün, 81 il (qadın 85 il, kişi 78 il)
151. Dünyada nə qədər etnos - xalq var? - 5,5 minə qədər
152. Dünyada çoxsaylı xalq - Çin - 1,2 mlrd
153. Dünyada ən çoxmillətli dövləti müəyyən edin: - RF
154. Dünyada neçə dil var? - 5000
155. Dünyada ən çox hansı dildə damşırlar? - Çin dilində, 1,2 mlrd. nəfər
156. İngilis dilində danışanlar sayca dünyada neçənci yeri tuturlar? -- 2 - ci, 480 mln. nəfər
157. Dünyada neçə dil ailəsi var? - 20
158. Dünyada neçə aparıcı din vardır? - 3

159. Hansı dinə mənsub olanlar daha çoxdur? - Xristian - 2,0 mlrd. nəfər, 34 %
160. İslam dininə mənsub olanlann sayım müəyyənləşdirin. - l,2mlrd.nəfər(19%)
161. Buddizmə xidmət edənlərin sayı nə qədərdir? - 0,5 mlrd. (10%)
162. İslam dininə neçə ölkə daxildir? - 50
163. Dünyada əhalinin orta sıxlığmı müəyyən edin. - 45 nəfər
164. Maksimal əhali sıxlığı hansı ölkədə müşahidə olunur və o nə qədərdir? - Monakoda 21,0 min nəfər, Sinqapurda - 6050 nəfərdən çox, İndoneziyada 3000, Banqladeşdə 1000 nəfər
165. Ən az əhali sıxhğma malik olan ölkə hansıdır? -Avstraliya, Monqolustan 2 nəfər, Danimarkanm Qrelandiya sahəsində 0,02 nəfər
166. Miqrasiya nədir? - Əhalinin yerdəyişməsi
167. Emiqrasiya nədir? - Köçüb gedənlər
168. İmmiqrasiya hansı prosesə deyilir? - Ölkəyə köçüb gələnlərə
169. Ağılların miqrasiyası nədir? - Mütəxəssislərin bir ölkədən digərinə köçüb getməsi
170. Urbanizasiyanı müəyyən edin. - Şəhərlərin eninə və uzununa böyüməsi
171. Ən çox milyonçu şəhərlər hansı ölkələrdə və nə qədərdir? - Çində - 49, ABŞ-da - 45, Hindistanda - 36
172. Dünyada neçə milyonçu şəhər vardır? – 440
173. Aqlomerasiya nədir? - Şəhər əhalisinin, təsərrüfatmm, dərininə və eninə artması, genişlənməsi
174. Meqalopolisi müəyyən edin. - Aqlomerasiyalarm eninə və uzununa genişlənərək bir-biri ilə birləşməsi
175. Hansı meqalopolisi tamyırsmız? - Bosvaş, Tokaydo, Çipits
176. Avropada ailə - kəbin qurulmasmm orta yaş həddi kişilər üçün nə qədərdir? - 27 yaş
177. Avropada ailə - kəbin qurulmasmın qadmlar üçün orta yaş həddini bilirsinizmi? - 24,0 yaş
178. Dünyanın hansı regionlarında kişi-qadm say nisbəti bərabərdir? - Latm Amerikasmda, Afrikada
179. Tükənən təbii sərvətləri müəyyən edin: - neft, qaz, kömür
180. Tükənməyən təbii sərvətlər hansılardır? - Hava, külək enerjisi, yerin daxili enerjisi və s.
181. Bərpa olunan təbii sərvətlər hansılardır? - Meşə

182. Ətraf mühitin çirklənməsinin insan amili necə adlanır? - Antropogen amil
183. Ekoloji tarazhğı ən çox pozan sənaye sahəsi: Kimya, metallurgiya
184. Dünyada illik neft hasilatmı bilirsinizmi? - 4,0 mlrd. t
185. Dünyada neft ixracma görə hansı ölkə 1-ci yerdədir? - Səudiyyə Ərəbistanı
186. Dünyada neft istehsalına görə hansı ölkə 1-ci sayılır? - Səudiyyə Ərəbistam - 450 mln. t
187. Dünyada neçə ölkənin hər biri ildə 100 mln. tondan çox neft hasil edir? - 10 ölkə
188. Dünyada neçə neft emalı zavodu var? - 700-dən çox
189. Yaponiyada ildə neçə ton neft emal edə bilən zavod tikilmişdir? - 250 mln. t
190. İllik qaz hasilatmda hansı ölkə dünyanın birincisidir? -RF, 535 mlrd. kubmetr
191. Dünyada qaz hasilatında 1-ci 3-lük dövlətləri hansılardır? - RF, ABŞ, Kanada
192. ABŞ qaz və neft hasilatmda dünyada neçənci yeri tutur? -2-ciyeri, l,2mlrd. t
193. Dünyada illik kömürün hasilatmı müəyyən edin. - 5-6 mlrd. t.
194. Ən çox kömür istehsal edən ölkə. - Çin - 1,4 mlrd. t
195. ABŞ kömür istehsalmda dünyada neçənci yeri tutur? - 2-ci 1012 mlrd. t
196. Kömür istehsalında 1-ci 3-lük dövlətləri müəyyən edin. -Çin, ABŞ, Hindistan
197. Kömürə olan illik tələbatı müəyyən edin. - 5,0 mlrd. t
198. Elektroenergetikanın mənbəyi. - Su, atom, yanacaq növləri
199. Elektroenergetika nədir? - Elektrik enerjisi hasilatı və onun istehlakçıya çatdırılması
200. Dünyada illik elektrik enerjisi hasilatı nə qədərdir? - 16,5 trln.kvt.saat
201. Elektrik enerjisi hasilatmda hansı dövlət 1-ci yeri tutur? -ABŞ - 4,0 trln kvt-saatdan çox
202. Elektrik enerjisi hasilatında hansı dövlətlər 1-ci 3-lüyə daxildirlər? - ABŞ, Çin, Yaponiya
203. İnkişaf etmiş ölkələr illik elektrik enerjisi hasilatmm nə qədərini verir? - 65 %-ni

204. Hər nəfərə düşən illik elektrik enerjisi hasilatında hansı ölkə 1-ci yeri tutur? Norveç - 29 min kvt.saat
205. Dünya elektroenergetika sənayesinin strukturunu müəyyən edin. - İES, AES, SES, alternativ növlər
206. Dünyada ən böyük SES-lər hansılardır? - İtaypu - 12,6 mln. kvt., Qrand-Kuli - 10,8 mln.kvt., Tukuri - 8,0 mln.kvt., Quri 10,3 mln. kvt, Krasnoyarski, 6,0 mln.kvt.
207. Qrand-Kuli SES-i harada yerləşir? - ABŞ-da
208. İtaypu SES-i hansı çay üzərindədir? - Parana çayı
209. Hansı ölkədə illik enerji hasilatınm 99 %-ni SES-lər verir? - Norveçdə
210. Ən böyük AES hansı dövlətdə tikilmişdir? - Yaponiyada
211. Dünyada ən böyük gücə malik AES-in admı müəyyən edin. - Fukusima - 10,5 mln.kvt.
212. 1986-cı ildə hansı AES-də qəza baş vermişdir? -Ukraynanın Çernobıl AES-ində
213. İllik elektrik enerjisinin hasilatında AES-lərin üstün olduğu hansı ölkənin adını çəkə bilərsiniz? - Litvamn - 85 %
214. Dünyada illik elektrik enerjisi hasilatmda AES-in xüsusi çəkisni müəyyən edin. - 18 %
215. İllik elektrik enerjisi hasilatmda AES-in xüsusi çəkisi böyük olan 3-lüyü təyin edin: Litva 85 %, Fransa -77 %, Belçika -55%
216. Dünyada tikilməsi davam edən ən böyük SES hansı ölkədədir və onun gücü nə qədər olmalıdır? - Çində, 18,2 mln. kVt. «Sansya»
217. Alternativ enerji mənbələri hansılardır? - Günəş, külək, qabarma - çəkilmə, geotermal
218. Dünyada ən çox külək elektrik stansiyaları hansı ölkə ərazisindədir? - Danimarkada - 4 mindən çox, Almaniyada, Hindistanda
219. Qara metallurgiya hansı məhsullan istehsal edir? -Dəmir, polad, prokat, çuqun
220. Polad istehsalına görə hansı ölkə dünyada l.-ci yeri tutur? - Çin-182mln. t,Yaponiya-108 mln. t, ABŞ -101 mln.t
221. Polad istehsahnda 1-ci 3-lük dövlətlərini müəyyən edin. -Çin, Yaponiya, ABŞ
222. Əlvan metallurgiya məhsulu hansılardır? Mis, alüminium.
223. Əlvan metallurgiya müəssisələrinin yerləşdirilmə prinsipi: ucuz elektrik enerjisinə, su mənbələrinə, xammala meyl etməsi

